AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

ISSN 2218-4783

# HEYDƏR ƏLİYEV İDEYALARI VƏ MÜASİR DÖVR

## (17-18 aprel 2023-cü ildə keçirilmiş respublika konfransının materialları)

## I hissə

Naxçıvan, "Tusi" – 2023

**REDAKSİYA HEYƏTİ**

Baş redaktor
**İ.M.Hacıyev**

İ.Ə.Həbibbəyli, Y.M.Mahmudov, N.M.Vəlixanlı, Ə.B.Ərcilasun, M.Z.Nağısoylu, M.K.İmanov, Ə.Ə.Salamzadə, C.Ə.Qiyasi, İ.E.Atnur, F.Y.Səfərli (baş redaktorun müavini), Ə.A.Quliyev (baş redaktorun müavini), V.B.Baxşəliyev (məsul katib), Ş.T.Bünyadova, F.Y.Xəlilov, R.Z.Rəhimli

**EDITORIAL BOARD**

Chief editor
**I.M.Hajiyev**

I.A.Habibbeyli, Y.M.Mahmudov, N.M.Valikhanli, A.B.Argilasun, M.Z.Nagisoylu, M.K.Imanov, A.A.Salamzadeh, G.A.Giyasi, I.E.Atnur, F.Y.Safarli (assistant editor), A.A.Quliyev (assistant editor), V.B.Bakhshaliyev (executive secretary), Sh.T.Bunyadova, F.Y.Khalilov, R.Z.Rahimli

**РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ**

Главный редактор
**И.М.Гаджиев**

И.А.Габиббейли, Я.М.Махмудов, Н.М.Велиханлы, А.Б.Арджиласун, М.З.Нагисойлу, М.К.Иманов, Э.А.Саламзаде, Дж.А.Гияси, И.Э.Атнур, Ф.Я.Сафарли (зам. главного редактора), А.А.Гулиев (зам. главного редактора), В.Б.Бахшалиев (ответственный секретарь), Ш.Т.Бунядова, Ф.Ю.Халилов, Р.З.Рагимли

**“HEYDƏR ƏLİYEV İDEYALARI VƏ MÜASİR DÖVR” RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI. I HİSSƏ. NAXÇIVAN: TUSİ, 2023, 206 s.**

Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35, tel.: 544-69-84
Address: Nakhchivan, Haydar Aliyev av., 35, phone: 544-69-84
Адрес: Нахчыван, пр. Гейдар Алиева, 35, тел.: 544-69-84

© “Tusi” nəşriyyatı, 2023

# AZƏRBAYCAN RESPUBLİKASINDA 2023-CÜ İLİN "HEYDƏR ƏLİYEV İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# S Ə R Ə N C A M I

2023-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Uu öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə

Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli ulu öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 29 sentyabr 2022-ci il**

# MÜNDƏRİCAT

## AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə "Heydər Əliyev ideyaları və müasir dövr" mövzusunda keçirilmiş respublika konfransı

**İsmayıl Hacıyev.** Azərbaycanla adı qoşa çəkilən ümummilli lider....................................................11
**Elbrus İsayev.** Heydər Əliyevin ipək yolu strategiyası və Azərbaycan............................................18
**Eynulla Mədətli.** Heydər Əliyevin "bir millət – iki dövlət" düsturu Azərbaycan-Türkiyə birliyinin yol xəritəsidir....................................................................................................................22
**Əbülfəz Quliyev.** Ümummilli lider və qorqudşünaslıq........................................................................30
**Vəli Baxşəliyev**. Heydər Əliyevin milli irsimizin tədqiqinə qayğısı.................................................36

## Birinci bölmə

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN

**Hacıfəxrəddin Səfərli.** 14 iyul 1969-cu il – Azərbaycanı inkişaf və tərəqqiyə aparan yolun başlandığı tarix.........................................................................................................................40
**Rəna Mirzəzadə.** Heydər Əliyev yolu və Azərbaycanda dövlətçilik institutuna siyasi-nəzəri baxış.........................................................................................................................................47
**Ziba Ağayeva.** Xalqın birliyinin və milli kimliyinin saxlanmasında azərbaycançılıq ideologiyasının rolu.........................................................................................................................52
**Sevinc Abbasova.** Heydər Əliyev və Azərbaycan respublikasında dövlət qadın siyasəti.................60
**Şölət Zeynalov.** Ulu öndər Heydər Əliyev: etnomilli münaqişələrin həllində şəxsiyyət fenomeni.....................................................................................................................................67
**Raminə Hüseynli.** Beynəlxalq terrorizmə qarşı mübarizədə Heydər Əliyevin rolu..........................73
**Elxan Məmmədov.** Heydər Əliyev və onun siyasi kursu Konstitusiyamızın Azərbaycan vətəndaşına verdiyi hüquqların təminatçısı kimi.............................................................................82
**Ələddin Məlikov.** Heydər Əliyevin fenomenal şəxsiyyəti və mədəni abidələrin qorunub saxlanılmasında rolu..........................................................................................................................87
**Musa Quliyev.** Heydər Əliyevin Dövlət Təhlükəsizlik Komitəsində fəaliyyəti...............................96
**Ceyran Hüseynli.** Heydər Əliyev – müasir gənclər siyasətinin banisi...........................................101
**Elza Fərzəliyeva.** Heydər Əliyev və Azərbaycan mədəniyyəti......................................................108
**Tofiq Hüseynov, Qəhrəman Behbudov.** Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti.......112
**Şamxal Məmmədov.** Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu......................116
**Ülviyyə İsgəndərova, Nailə Əliyeva.** Azərbaycan təbiətinin mühafizəsində Heydər Əliyev siyasətinin rolu.............................................................................................................................120

## İkinci bölmə

## HEYDƏR ƏLİYEV VƏ BEYNƏLXALQ ALƏM

**Emin Şıxəliyev.** Ümummilli lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində Qarabağ probleminin nizamlanması prosesi, siyasi kursun davamı və mövcud vəziyyət........................................125
**Tofiq Əliyev.** Bugünkü uğurlarımızın təməli ulu öndər Heydər Əliyevin neft strategiyası ilə başlamışdır.................................................................................................................................137
**Ramiz Qasımov.** Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi..........................142

**Xəzər Hüseynov**. Ulu öndər Heydər Əliyevin uğurlu neft strategiyası.........................................149
**Zeynəb Quliyeva.** Azərbaycanda muzey arxeologiyasının formalaşmasında Heydər Əliyevin rolu...........................................................................................................................................154
**Qadir Əkbərov.** Heydər Əliyev və Azərbaycanda təhsil sahəsində aparılan islahatlar (1970-1980-ci illər)...........................................................................................................................158
**Cavadxan Qasımov.** Uzunmüddətli milli iqtisadi inkişafın Heydər Əliyev modeli.......................163
**Aytəkin Qəhrəmanova.** Azərbaycanda dövlət qadın siyasətinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.....................................................................................168
**İsmayıl Zeynalov.** Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasında Heydər Əliyevin rolu..........174
**Abdulla Mustafayev.** Heydər Əliyev və türkdilli dövlət başçılarının zirvə görüşləri çərçivəsində əməkdaşlıq məsələləri.......................................................................................................179
**Gülçin Ağayeva.** Ümummilli lider Heydər Əliyev və onun xarici siyasət strategiyasında Azərbaycan-Rusiya münasibətləri..............................................................................................185
**Fatma Rzayeva.** Ümummilli lider Heydər Əliyev hakimiyyəti dövründə ikitərəfli münasibətlər: ABŞ səfəri..........................................................................................................191
**Kübra Vəliyeva.** Azərbaycanı ərəb dünyasında tanıdan ümummilli lider.......................................194
**Nilufər Ağayeva.** Heydər Əliyevin Azərbaycan gəncliyinə qayğısı...............................................199

# CONTENTS

## In honor of the 100th anniversary of the national leader Heydar Aliyev, on the initiative of the Nakhchivan branch of ANAS, a republican conference on the theme "Heydar Aliyev's ideas and modernity" has been carried out

**Ismayil Hajiyev.** The national leader whose name is mentioned together with Azerbaijan.............11
**Elbrus Isayev.** Heydar Aliyev's silk road strategy and Azerbaijan..................................................18
**Eynulla Madatli.** Heydar Aliyev's "one nation – two states" formula is the road map of the Azerbaijan-Turkiye union..........................................................................................................22
**Abulfaz Guliyev.** Dada Gorgud studies and the national leader Heydar Aliyev...............................30
**Vali Bakhshaliev.** Heydar Aliyev's care for the study of the national heritage................................36

## First section

## HEYDAR ALIYEV AND AZERBAIJAN

**Hajifakhraddin Safarli.** July 14, 1969 is the date when the path leading Azerbaijan to development and prosperity began...........................................................................................40
**Rena Mirzazadeh.** Political and theoretical view on the path of Heydar Aliyev and the institution of statehood in Azerbaijan.......................................................................................47
**Ziba Aghaeva.** The role of the ideology of azerbaijanism in preserving the unity and national identity of the people..............................................................................................................52
**Sevinj Abbasova.** Heydar Aliyev and state women's policy in the republic of Azerbaijan.............60
**Sholat Zeynalov.** Great leader Heydar Aliyev: the phenomenon of personality in resolving ethnonational conflicts..............................................................................................................67
**Ramina Husseinli.** The role of Heydar Aliyev in the fight against international terrorism..............73
**Elkhan Mammadov.** Heydar Aliyev and his political course as a guarantor of the rights granted to the citizens of Azerbaijan by our Constitution....................................................................82
**Aladdin Malikov.** The phenomenal personality of Heydar Aliyev and his role in the preservation of cultural monuments...................................................................................................87
**Musa Guliyev.** Activities of Heydar Aliyev in the State Security Committee..................................96
**Jeyran Husseinli.** Heydar Aliyev is the founder of modern youth policy......................................101
**Elza Farzaliyeva.** Heydar Aliyev and Azerbaijani culture..........................................................108
**Tofig Husseinov, Gahraman Behbudov.** Political activity of the national leader Heydar Aliyev.........................................................................................................................................112
**Shamkhal Mammadov.** The national leader Heydar Aliyev and the salvation of Azerbaijan........116
**Ulvia Isgandarova, Naila Aliyeva.** The role of Heydar Aliyev's policy in nature protection of Azerbaijan....................................................................................................................................120

## Second section

## HEYDAR ALIYEV AND INTERNATIONAL RELATIONS

**Emin Shikhaliyev.** The process of regulating the Karabakh problem in the foreign policy of the national leader Heydar Aliyev, the continuation of the political course and the current situation..........................................................................................................................125
**Tofig Əliyev.** The foundations of our current success are laid by the oil strategy of the great leader Heydar Aliyev.....................................................................................................................137
**Ramiz Gasymov.** The national leader Heydar Aliyev and the ideology of azerbaijanism.............142

**Khazar Huseynov.** Successful oil strategy of great leader Heydar Aliyev.....................................149
**Zeynab Guliyeva.** Heydar Aliyev's role in the formation of museum archeology in Azerbaijan....154
**Gadir Akbarov.** Heydar Aliyev and the reforms carried out in the field of education in Azerbaijan (1970-1980 s)....................................................................................................................158
**Javadkhan Gasimov.** Heydar Aliyev's model of long-term national economic development........163
**Aytakin Gahramanova.** The formation of state women's policy in Azerbaijan is connected with the name of the national leader Heydar Aliyev.........................................................................168
**Ismayil Zeynalov.** The role of Heydar Aliyev in the promotion of Azerbaijan in the international sphere..............................................................................................................................174
**Abdulla Mustafaev.** Issues of cooperation within the framework of high-level meetings between Heydar Aliyev and the heads of Turkic-speaking states.........................................................179
**Gulchin Agayeva.** Azerbaijani-Russian relations in the foreign policy strategy of the national leader Heydar Aliyev.............................................................................................................185
**Fatma Rzayeva.** Bilateral relations during the reign of national leader Heydar Aliyev: visit to the USA...................................................................................................................191
**Kubra Valieva.** The national leader who promoted Azerbaijan in the Arab world.........................194
**Nilufer Aghayeva.** Heydar Aliyev's concern for Azerbaijani youth...............................................199

## СОДЕРЖАНИЕ

### В честь 100-летия со дня рождения общенационального лидера Гейдара Алиева по инициативе Нахчыванского отделения НАНА проведена республиканская конференция на тему «Идеи Гейдара Алиева и современность»

**Исмаил Гаджиев.** Общенациональный лидер, имя которого упоминается вместе с Азербайджаном....11
**Эльбрус Исаев.** Стратегия шелкового пути Гейдара Алиева и Азербайджан....18
**Эйнулла Мадатли.** Формула Гейдара Алиева «один народ – два государства» –дорожная карта азербайджано-турецкого союза....22
**Абульфаз Гулиев.** Горгудоведение и великий лидер Гейдар Алиев....30
**Вели Бахшалиев.** Забота Гейдара Алиева об изучении нашего национального наследия....36

### Первый раздел

### ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАН

**Гаджифахреддин Сафарли.** 14 июля 1969-го года – дата начала пути, ведущего Азербайджан к развитию и процветанию....40
**Рена Мирзазаде.** Политико-теоретический взгляд на путь Гейдара Алиева и институт государственности в Азербайджане....47
**Зиба Агаева.** Роль идеологии азербайджанства в сохранении единства и национальной идентичности народа....52
**Севиндж Аббасова.** Гейдар Алиев и государственная женская политика в Азербайджанской Республике....60
**Шолат Зейналов.** Великий лидер Гейдар Алиев: феномен личности в решении этнонациональных конфликтов....67
**Рамине Гусейнли.** Роль Гейдара Алиева в борьбе с международным терроризмом....73
**Эльхан Мамедов.** Гейдар Алиев и его политический курс как гарант прав, предоставленных гражданам Азербайджана нашей Конституцией....82
**Аладдин Маликов.** Феноменальная личность Гейдара Алиева и его роль в сохранении памятников культуры....87
**Муса Гулиев.** Деятельность Гейдара Алиева в Комитете Государственной Безопасности....96
**Джейран Гусейнли.** Гейдар Алиев – основоположник современной молодежной политики....101
**Эльза Фарзалиева.** Гейдар Алиев и культура Азербайджана....108
**Тофик Гусейнов, Гахраман Бехбудов.** Политическая деятельность общенационального лидера Гейдара Алиева....112
**Шамхал Мамедов.** Общенациональный лидер Гейдар Алиев и освобождение Азербайджана..116
**Ульвия Искендерова, Наиля Алиева.** Роль политики Гейдара Алиева в охране природы Азербайджана....120

### Второй раздел

### ГЕЙДАР АЛИЕВ И МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ

**Эмин Шихалиев.** Процесс регулирования карабахской проблемы во внешнеполитической деятельности национального лидера Гейдара Алиева, продолжение политического курса и текущая ситуация....125
**Тофик Алиев.** Основы нашего сегодняшнего успеха заложены нефтяной стратегией великого лидера Гейдара Алиева....137
**Рамиз Гасымов.** Общенациональный лидер Гейдар Алиев и идеология азербайджанства...142

**Хазар Гусейнов.** Успешная нефтяная стратегия великого лидера Гейдара Алиева...............149
**Зейнаб Гулиева.** Роль Гейдара Алиева в формировании музейной археологии в Азербайджане..........154
**Гадир Акбаров.** Гейдар Алиев и реформы, проведенные в области образования в Азербайджане (1970-1980-е гг.)..........158
**Джавадхан Гасымов.** Модель долгосрочного национального экономического развития Гейдара Алиева..........163
**Айтекин Гахраманова.** Формирование государственной женской политики в Азербайджане связано с именем общенационального лидера Гейдара Алиева..........168
**Исмаил Зейналов.** Роль Гейдара Алиева в продвижении Азербайджана в международной сфере..........174
**Абдулла Мустафаев.** Вопросы сотрудничества в рамках встреч на высшем уровне Гейдара Алиева и глав тюркоязычных государств..........179
**Гюльчин Агаева.** Азербайджано-российские отношения во внешнеполитической стратегии общенационального лидера Гейдара Алиева..........185
**Фатма Рзаева.** Двусторонние отношения в период правления общенационального лидера Гейдара Алиева: визит в США..........191
**Кубра Валиева.** Национальный лидер, который прославил Азербайджан в арабском мире..........194
**Нилуфер Агаева.** Забота Гейдара Алиева об азербайджанской молодежи..........199

İSMAYIL HACIYEV

# AZƏRBAYCANLA ADI QOŞA ÇƏKİLƏN ÜMUMMİLLİ LİDER

*Görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə həyata keçirdiyi tədbirlər tədqiqata cəlb edilmiş, təhlil və ümumiləşdirmələr aparılmış və müəyyən edilmişdir ki, ulu öndər Azərbaycana birinci dəfə rəhbər seçiləndə ölkə geridə qalmış aqrar respublika kimi tanınırdı. Buna qədər heç bir beşillik yerinə yetirilməmişdir. Ulu öndər Azərbaycana birinci rəhbərliyi dövründə geniş təşkilati tədbirlər həyata keçirmiş, nəticədə ittifaq büdcəsindən respublikaya ayrılan vəsaitin artırılmasını təmin edə bilmiş, sənaye və kənd təsərrüfatının inkişafına, kadr hazırlığına xüsusi fikir vermiş, yaşayış sahələrinin genişləndirilməsinə, Azərbaycan kəndinin simasının dəyişdirilməsinə nail olmuş, ölkəmizi iri sənaye respublikasına çevirmişdir.*

*Hakimiyyətinin ikinci dövründə ölkəmizi xaos və qarşıdurmadan, vətəndaş müharibəsindən xilas etmiş, müstəqilliyimizi əbədiyyətə çevirmiş, Xəzər neftini dünya üçün yenidən kəşf etmiş, neftin dünya bazarına çıxarılmasına nail olmuş, ordu quruculuğunu təmin etmiş, əsaslı islahatlar aparmış, yeni Konstitusiya hazırlanaraq qəbul edilmişdir.*

*Göründüyü kimi, Heydər Əliyevin Azərbaycan üçün etdiklərini başqa rəhbərlərimiz edə bilməmişlər. Ona görə də Heydər Əliyev deyəndə Azərbaycan, Azərbaycan deyəndə Heydər Əliyev yada düşür.*

**Açar sözlər:** *Azərbaycan, Heydər Əliyev, Heydər Əliyev ili, siyasət nəhəngi, xilaskar, müstəqilliyin memarı, ümummilli lider.*

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi bu il may ayının 10-da tamam olur. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 sentyabr 2022-ci il tarixli Sərəncamla 2023-cü ili Azərbaycan Respublikasında "Heydər Əliyev ili" elan etmişdir. Sərəncamda deyilir: "Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşısında duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir...

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır [2, 2022, 30 sentyabr].

"Siyasət nəhəngi", "Siyasət qrossmeysteri", "İdarəetmənin kamil ustadı", "Siyasət patriarxı" kimi fikirlərlə qiymətləndirilən ulu öndər Heydər Əliyev "nəinki Azərbaycanı, dünyanı idarə etmək gücündə olan" nadir siyasi və dövlət xadimi kimi məşhur idi. Adətən siyasət, dövlətçilik sənətini incəsənətə bənzədirlər. İncəsənətdə olduğu kimi, siyasət sahəsində də çox zəhmət çəkməklə, xüsusi məktəblər qurtarmaqla dahilik zirvəsinə qalxmaq mümkün deyil. Bunun üçün həm də fitri istedad – Allah vergisi lazımdır. İncəsənət aləminin Motsart, Bethoven, elə bizim Üzeyir bəy kimi dahiləri öz ölməz əsərlərini fitri istedadları sayəsində yaratmışlar. Siyasət dünyasının Bismark, Lloyd-Corc, Atatürk, Stalin, Ruzvelt, Çörçill... kimi nəhəng simaları da bütün digər xüsusiyyətləri ilə yanaşı, həm də fitri istedadları ilə fərqlənmişlər. Adı zəmanəmizin dövlətçilik və siyasət tarixinə əbədi yazılan, bu sahədə Allah vergisinə malik olan qüdrətli dövlət xadimlərindən biri də nəhəng siyasətçi Heydər Əliyevdir.

Məlum olduğu kimi, tarix boyu çoxları hakimiyyətə can atmış və bir çox hallarda da buna nail olmuşlar. Lakin bunların bəziləri öz təfəkkür məhdudluqları üzündən son nəticədə diktatorlara, digərləri isə öz iradə zəiflikləri ucbatından ətrafdakıların oyuncağına çevrilmişlər. Məhz bunları nəzərdə tutaraq, böyük fransız mütəfəkkiri Pol Anri Holbax yazırdı: "Hakimiyyət yalnız o vaxt böyük nemət olur ki, onu əldə edən adama təbiət və tərbiyə alicənablıq, qüvvətli ruh, geniş ürək, dərin ağıl, böyük təcrübə vermişdir".

Nəsirəddin Tusi isə yazırdı: "Hökmranlıq o adama yaraşır ki, cəmiyyət xəstələndikdə onu müalicə edə bilsin. Çünki hökmdar ölkənin həkimi yerində olmalıdır".

Təbiət və tarixsə öz varlığında bu kimi ülvi keyfiyyətlərin üzvi bir vəhdət halında birləşdiyi fenomenal şəxsiyyətləri çox az-az yetirir. Müasir dünya siyasətində qəbul edilmiş, bütün dünyanı idarə edə bilən dövlət xadimi, ümummilli lider, siyasət patriarxlarından biri Heydər Əliyev kimi. Məhz bu keyfiyyətlərin sayəsindədir ki, o öz hakimiyyətini səlahiyyətlərinin gücü ilə deyil, şəxsiyyətinin qüdrəti, idarəetmə məharətinin gücü ilə həyata keçirir, qarşısındakını zəkası, ağlı, məntiqi təfəkkürü, müdrikliyi, qərəzsiz mövqeyi, uzaqgörənliyi, səbirliliyi... ilə əfsunlayırdı.

Heydər Əliyev və Azərbaycan. Bu adlar həmişə qoşa çəkilir. Bu təsadüfi deyildir. Azərbaycanı Azərbaycan edən, onu dünyada tanıdan ulu öndər Heydər Əliyev olmuşdur. Heydər Əliyevə qədər, yəni onun hakimiyyətə gələnə qədərki Azərbaycan və hakimiyyətdə olduğu dövrdəki Azərbaycan. Müqayisədə fərq və təzadlar ortaya çıxır.

Ötən əsrin 60-cı illərinin sonlarına doğru sovet dövlət və hökumət dairələrində kifayət qədər tanınan Heydər Əliyev Moskvanın diqqətini cəlb etmişdi. Lakin Sovetlər Birliyində belə bir fakta təsadüf edilməmişdir ki, respublika DTK-nın sədri ölkə rəhbəri olsun [15, s. 370]. Heç beynəlxalq aləmdə də bu yaxşı qarşılanmırdı. Lakin bu dövr sosial-iqtisadi böhran keçirən, korrupsiya, səriştəsizlik, məsuliyyətsizliyin hökm sürdüyü Azərbaycanı yalnız bu cür dəmir iradəli, coşqun enerjiyə, iti ağıla və zəngin təcrübəyə malik dinamik bir lider ayağa qaldıra bilərdi. Belə də oldu. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyev düz 14 il bu vəzifədə respublikanı idarə etdi. Bu illər ərzində Azərbaycan həyatının bütün sahələrinə yeni ab-hava gətirdi, qurdu, yaratdı, doğma respublikanı ucaltmaqla bərabər özü də ucaldı. Ən ali dövlət təltifləri ilə mükafatlandırıldı, lakin ən böyük mükafatı tükənməz el sevgisi, böyük ümumxalq məhəbbəti oldu.

Azərbaycanda yaradılan milli gəlirin yalnız 60 faizinin respublikada saxlanıldığını, bu göstəricinin digər ittifaq respublikaları ilə müqayisədə çox aşağı olduğunu narazılıqla bildirən dahi lider vəziyyətin kökündən dəyişməsi üçün prinsipiallıq göstərir, SSRİ rəhbərliyi ilə müntəzəm danışıqlar aparırdı. Azərbaycanda 1961-ci ildən 1970-ci ilə qədər adambaşına düşən milli gəlirin artımı cəmi 130 rubla bərabər olmuş, yəni ittifaq üzrə orta göstəricidən 61 faiz aşağı idi. 1982-ci ildə Heydər Əliyev Moskvaya işləməyə dəvət ediləndə Azərbaycan milli gəlirin inkişaf sürətinə görə müttəfiq respublikalar arasında birinci yeri tuturdu. Artıq 1980-ci ildə respublikada adambaşına düşən milli gəlirin həcmi 81 faizə, milli gəlirin orta illik artım sürəti adambaşına 5,8 faizə çatmışdı. Müqayisə üçün deyək ki, 1960-1965-ci illərdə sonuncu göstərici 1,2 faiz olmuşdu [14, s. 403]. Respublikamız 1980-ci ilin sonlarında əmək məhsuldarlığının artımına görə ölkədə birinci yerə çıxdı.

Tarix kitablarından oxumuşuq ki, 20-30-cu illərdə SSRİ-də sənayeləşmə həyata keçirilib. SSRİ dövründə çoxları bilmirdi ki, bu, ucqarların soyulması və müflisləşdirilməsi hesabına Rusiyanın sənayeləşdirilməsi idi. Bunun nəticəsi idi ki, Azərbaycanda sənayeləşmə sahəsində elə ciddi uğurlar qazanılmadı. Əslində respublikamızda sənayeləşmə sözün həqiqi mənasında Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi, təşəbbüsü, bəzən də inadı və öz nüfuzundan istifadə etməsi nəticəsində 14 il ərzində Azərbaycanda 250-dən artıq sənaye müəssisəsi istifadəyə verildi. Bunun üçün ilk növbədə sənayedə struktur dəyişiklikləri aparıldı və bu problemi Azərbaycanın inkişaf strategiyasında prioritet istiqamət hesab edildi. Çətinlik onda idi ki, respublikadakı sənaye müəssisələrinin 90 faizi ittifaq mülkiyyətində idi. Belə vəziyyətdə sənayeni necə inkişaf etdirmək, hansı struktur dəyişiklikləri aparmaq olardı. Lakin Heydər Əliyevin məqsədyönlü fəaliyyəti və inadlı mübarizəsi nəticəsində Sov.İKP MK və SSRİ Nazirlər Soveti Azərbaycanda sənayenin strukturunun təkmilləşməsinə dair çox mühüm qərar qəbul etdi. Nəticədə, sənayenin yeni sahələri yaradıldı, istehsalın mədəni-texniki səviyyəsi yüksəldi, müəssisələrin böyük əksəriyyəti respublikamızın tabeliyinə keçirildi. Azərbaycan 1976-1980-ci illərdə sənayedə məhsul istehsalının artımına görə ittifaqda birinci yerə çıxdı. Sənayenin strukturunda maşınqayırma və metal emalı sənayesinin payı 6 faizdən çox artdı. Heydər Əliyev Azərbaycan iqtisadiyyatının maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni-yeni sənaye sahələrinin, istehsal obyektlərinin istifadəyə verilməsi məqsədilə keyfiyyətli investisiya strategiyasını hazırladı və onun uğurlu həllinə nail oldu. Nəticədə, tikilən, qurulan müəssisələrin hamısı o dövrün texnikasının və elminin son sözü ilə, əksəriyyəti də ittifaq büdcəsi hesabına. Ulu öndərin ciddi səyi nəticəsində Azərbaycanda sənayeləşmə geniş vüsət aldı, aqrar iqtisadiyyatdan sənaye iqtisadiyyatına, yüksək sənaye

sivilizasiyasına keçid uğurla təmin edildi. Ulu öndərin respublika rəhbərliyinə gəlişinə qədər ümumi sayı 735 təşkil edən sənaye müəssisələri qısa müddətdə artaraq 1048-ə yüksəldi [2, 2023, 17 mart]. Ümumilikdə, Heydər Əliyevin birinci rəhbərliyi dövründə aparılan kompleks islahatlar, formalaşdırılan güclü aqrar-sənaye, energetika və neft-kimya sənayesi potensialı Azərbaycanı nəinki qabaqcıl respublikalardan birinə çevirdi, eyni zamanda onun gələcək müstəqilliyi üçün fundamental əsaslar yaratdı.

Heydər Əliyevin gündəlik qayğısı və səyi nəticəsində respublikada kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə demək olar ki, yenidən quruldu. Heydər Əliyev böyük bir mesenat səxavəti, qayğısı ilə elm, təhsil, mədəniyyət və incəsənətimizin həm qurucusu, həm himayəçisi, həm də pərəstişkarı oldu. Onun iti nəzərlərindən, məqsədyönlü fəaliyyətindən cəmiyyət həyatının heç bir sahəsi, hətta ilk baxışdan diqqəti cəlb etməyən bir guşəsi belə yayınmırdı.

Məsələn, Heydər Əliyev hakimiyyətdə olduğu ilk illərdə aşkar etdi ki, respublikada mövcud olan iki ali hərbi məktəbdə professor-müəllim heyəti və tələbələr arasında Azərbaycan millətindən olanlar barmaqla sayıla bilən qədər azdır. Bir neçə il bu sahədə lazımi işlər aparıldıqdan sonra vəziyyət tamamilə dəyişdi. Bununla bərabər SSRİ-nin ən nüfuzlu ali hərbi məktəblərinə hər il 800 nəfərdən artıq azərbaycanlı gənc təhsilə göndərildi.Bu böyük dövlət adamı SSRİ dövlətinin ən möhtəşəm nəzərə çarpdığı 70-ci illərin sonlarında yalnız bir neçə nəfərin görə biləcəyi nadir uzaqgörənliklə ittifaqın içəridən dağılacağını görür, müstəqil Azərbaycana milli zabit kadrların necə vacib olduğunu bilirdi. Elə bu səbəbdən də Bakı şəhərində Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılmasına nail oldu [14].Bu çox çətin şəraitdə, Heydər Əliyev uzaqgörənliyi və mübarizəsi hesabına Sovet İttifaqında Moskva şəhərindən başqa ilk dəfə idi ki, hərbi təmayüllü məktəb yaradılırdı. Çox-çox irəliləri görməyi bacaran dövlət xadimi bunu edə bilərdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-ci illərdə orta ümumtəhsil məktəblərinin şəbəkəsi 3 dəfə artırılaraq 2000-i keçmiş, ali məktəbdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artıb. Əgər 1969-cu ildə Azərbaycandan cəmin 47 nəfər SSRİ-nin şəhərlərinə ali təhsil almağa göndərilirdisə, 1982-ci ildə bu göstərici 1200-dən artıq olub. 1969-1978-ci illərdə ölkəmizdə elmi-tədqiqat institutlarının sayı 89-dan 118-ə, elmlər namizədlərinin sayı 3000-dən 7594-ə, elmlər doktorlarının sayı 329-dan 853-ə, elmi işçilərin sayı 12850-dən 21407-ə çatıb.

70-80-ci illərdə – 10 il ərzində Azərbaycan Elmlər Akademiyası alimlərinin tədqiqatlarının istehsalata tətbiqi nəticəsində əldə edilən iqtisadi səmərə 570 milyon manatdan çox olmuş, 1000-dən çox müəlliflik şəhadətnaməsi alınıb. 1970-1985-ci illərdə iqtisadi səmərəyə malik 850-yə yaxın iş xalq təsərrüfatında tətbiq edilmiş, 2280 elmi, elmi-tədqiqat və xalq təsərrüfatı əhəmiyyətli nəticə əldə olunub.

Heydər Əliyevin həyatı, bütün fəaliyyəti bir amala qulluq edirdi. Azərbaycançılıq, Azərbaycan dövlətinə, Azərbaycan xalqına xidmət, millətimizə xidmət etmək onun həyatının ən ümdə amalı idi. O dövrün statistik məlumatlarına görə Sovet İttifaqında yalnız iki respublika mənfəətlə işləyirdi, onlardan biri də Azərbaycan idi.

İllər ötdükcə Heydər Əliyevin siyasi nüfuzu, dövlətçilik təcrübəsi, diplomatik bacarığı artır, şöhrəti respublika hüdudlarını aşıb Sovet İttifaqına və beynəlxalq aləmə yayılırdı. 1976-cı ildə Heydər Əliyevin MK-nin Siyasi Bürosu üzvlüyünə namizəd seçilməsi də onun böyük siyasi yetkinliyinə, rəhbərlik və təşkilatçılıq bacarığına dövlət səviyyəsində verilən yüksək qiymət idi. Nəzərə almaq lazımdır ki, o zamanlar dünyanın bu nəhəng partiyasının 22 milyon nəfər üzvü, siyasi elita olan Siyasi Büronun isə cəmi 27 nəfər üzvü və üzvlüyə namizədi var idi.

1982-ci ildə Heydər Əliyev daha bir pillə yüksələrək MK Siyasi Bürosu üzvlüyünə seçildi. SSRİ deyilən bu nəhəng dövlətin ali rəhbərliyində təmsil olunmaq Heydər Əliyev potensialına, idarəçilik qabiliyyətinə və fəaliyyətinə verilən qiymət idi. Bir neçə gündən sonra isə ona yüksək bir vəzifə – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsi həvalə olundu. Heydər Əliyev təqribən beş il bu vəzifədə işlədi, özünün parlaq siyasi-mənəvi keyfiyyətlərini, yüksək təşkilatçılıq qabiliyyətini, çevik idarəçilik bacarığını burada da göstərdi. Bu illər ərzində İttifaqın, dünyanın bir çox mürəkkəb problemlərinin həllində yaxından və mütəmadi məşğul olmasına baxmayaraq, Azərbaycanı bir gün də unutmadı, doğma respublika üçün nə etmək mümkün idisə, hamısını etdi.

Türk-müsəlman dünyasının ən qatı düşmənlərindən biri olan M.Qorbaçov və onun ətrafındakı erməni mafiyası 1985-ci ildə hakimiyyətə gəldikdən sonra öz məkrli məqsədlərini həyata keçirmək

yolunda Heydər Əliyevi ən başlıca maneə bilirdilər. Bu da təsadüfi deyildi.Partiya və hökumətdə öz xüsusi çəkisi, ölkə ictimaiyyəti arasında böyük nüfuzu, dövlətçilik məsələlərində dərin təcrübəsi olan bu müdrik siyasətçini Siyasi Bürodan uzaqlaşdırmadan Qorbaçov güruhu öz çirkin məqsədlərinə çata bilməzdi. Və... tədricən təzyiqlər, sıxışdırmalar, dedi-qodular işə düşdü. 1985-ci ildə öz vəfalı dostu, ömür-gün yoldaşı Zərifə xanımı itirən Heydər Əliyevə 1987-ci ilin oktyabrında ikinci zərbə dəydi. Xəstəlik bəhanə edilərək tutduğu vəzifələrdən uzaqlaşdırıldı.

Mərkəzdəki erməni mafiyası, Azərbaycanda isə erməni xislətli nankorlar sanki bir himə bənd imiş kimi bunu gözləyirdilər. Heç bir ay keçmədi ki, Qorbaçovun yaxın əshabələrindən olan Aqambekyan Fransada ermənilərin "Qarabağ iddiaları" ilə çıxış etdi, "Humanite" qəzetinə müsahibə verdi. Bir sıra Azərbaycan mətbuatı böhtan və qərəzkarlıq kampaniyasında sanki Moskva mətbuatı ilə yarışırdı. Lakin ən acınacaqlısı bu idi ki, Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasına sevinənlərin, əleyhinə böhtançı cızma-qaralar yazanların xeyli hissəsi onun irəli çəkdiyi, çörək verdiyi nankorlar, vəzifə düşkünləri idilər. Düşmənlər isə böhtan və hədyanlarla kifayətlənmir, Heydər Əliyevi fiziki cəhətdən məhv etməyə çalışırdılar. Bu böyük insan Moskvadakı bağ evində sanki günah işlətmiş kimi nəzarətdə saxlanılır, hər addımı, hətta telefon danışıqları və məktublaşması belə izlənilirdi.

Lakin tanrının hifz etməsi, vətən sevgisi, xalq istəyi, şəxsiyyətindəki yenilməzlik, polad iradə bütün qəsdləri və xəyanətkar planları boşa çıxardı... Və tariximizin ən həyəcanlı, qorxulu, məsuliyyətli məqamlarından birində – 1990-cı ilin iyulunda bu böyük insan onu gözləyən, ona ehtiyacı olan xalqına döndü. Lakin bir zamanlar sevə-sevə tikib-qurduğu, yüz minlərlə insana mənzil verdiyi Bakıda ölkəmizə və xalqımıza xidmət etməyən, lakin bu gün də prezident statusundan istifadə edən Mütəllibov kimi vətən xainlərinin ucbatından ona bir mənzili də çox gördülər. Heydər Əliyev doğma ata ocağına – qədim Naxçıvana gəlməli oldu. Bu dönüş qalan ömrünü istirahətdə keçirmək istəyən, böyük siyasətdən, ali vəzifələrdən yorulan bir insanın təqaüdə çıxması demək deyildi. Bu dönüş böyük siyasətə ikinci qayıdışın, Azərbaycanı özünə qaytarmağın, siyasətin yeni zirvələrini fəth etmənin başlanğıcı idi. Rus yazıçısı Maksim Qorkinin "Şahin nəğməsi" əsərində qələmə alındığı kimi, "Göydə uçmaq üçün yaradılmışlar, yerlərdə yaşaya bilməzlər" ifadəsi sanki bu cür insanlar üçün deyilmişdi.

Doğma Naxçıvanda o, sevgi və hörmətlə əhatə olundu, yaşadığı ata ocağı isə insanların ziyarətgahına, inam və güvənc yerinə çevrildi. Ermənilər tərəfindən blokadaya alınmış, Azərbaycan rəhbərləri tərəfindən isə unudulmuş və taleyin ümidinə buraxılmış muxtar respublikada o, xalqı ilə baş-başa qaldı, soyuğa, elektrik enerjisinin olmamasına, hər cür məşəqqətlərə hamı ilə birlikdə sinə gərdi. 1991-ci ilin payızında xalqın tələbi və təkidi ilə Naxçıvan MR-in Ali Məclisinə sədr, Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçildi.

Onun müdrik rəhbərliyi sayəsində Naxçıvan erməni təhlükəsindən xilas edildi, itirilmiş dövlətçilik atributları bərpa olundu, Muxtar Respublikanın bir qarış torpağı da düşmənə verilmədi. Azərbaycana 14 illik rəhbərlik etdiyi dövrdə olduğu kimi. Halbuki ta 1918-ci ildən 1969-cu ilə qədərki zamanlarda – Heydər Əliyevin hakimiyyətindən kənar dövrlərdə – Azərbaycan və eləcə də Naxçıvan torpaqları hissə-hissə, qarış-qarış satılmış, bir çox ərazilər ermənilərə ərməğan edilmişdi.

Bu müdrik insanın səriştəli siyasəti və uzaqgörən rəhbərliyi sayəsində Bakı inzibati mərkəz kimi qalsa da, Azərbaycanın ideoloji və siyasi mərkəzi Naxçıvan olmuşdu.

1993-cü ilin yayında öz tarixinin ən faciəli günlərini yaşayan Azərbaycan xalqı hamılıqla özünün yeganə pənahına üz tutdu. Cəbhələrdə məğlub olan, daxildə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə gələn, antitürk qüvvələr tərəfindən təklənən ulu bir xalq öz nicatını Heydər Əliyevdə görürdü. Öz "qalan ömrünü xalqına qurban demiş" 70 yaşlı müdrik el ağsaqqalının böyük siyasətə, dövlət sükanı arxasına ikinci qayıdışı beləcə başlandı. Ulu bir xalqın yüz min illik tarix kitabının yeni səhifələri yazılmağa başlandı. Bir sözlə, Heydər Əliyev Azərbaycanı Azərbaycana və xalqımıza qaytardı. Bu müdrik dövlət xadimi on il Azərbaycana uğurla rəhbərlik etdi. Azərbaycanı xaos və böhrandan, dağılmaqdan xilas etdi. O, Azərbaycanı beynəlxalq təcriddən qurtardı. Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutdu, beynəlxalq təşkilatların üzvü oldu, onların işində fəal iştirak etdi. Azərbaycan region üçün mərkəzə çevrildi. Günbəgün Azərbaycanın rolu, gücü və nüfuzu artdı.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət və iqtisadi islahatlar nəticəsində

Azərbaycan tez bir zamanda dirçəldi. Azərbaycan keçmiş sovet respublikaları arasında iqtisadiyyatın inkişaf ahənginə görə birinci yerə çıxdı. Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövləti üçün unudulmaz tarixi xidmətlərindən biri də milli iqtisadi inkişaf modelini formalaşdırmasıdır. Məhz bunun nəticəsində sosial-iqtisadi inkişafın proqramlaşdırılması mümkün oldu, iqtisadiyyatın idarə edilməsində sahəvi proqramların icrası təmin edildi. Ulu öndərin birbaşa iştirakı ilə 30-a yaxın dövlət proqramı qəbul olundu, bu tədbirlər iqtisadi resursların istifadəsinin səmərəliliyini artırmaqla yanaşı, onun icrasına nəzarəti də asanlaşdırdı [2, 2023, 17 mart]. Heydər Əliyev iqtisadi strategiyasının reallaşması sayəsində ölkəmizin ümumi inkişaf tempi də ilbəil artmağa başladı. Belə ki, 1996-2003-cü illərdə ümumi daxili məhsul istehsalı 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3,5 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulu 25,2 dəfə, xarici ticarət dövriyyəsi 4 dəfə artdı. Bu dövrdə iqtisadiyyata yönəldilən investisiyaların ümumi həcmi 20 milyard dolları ötdü [6, s. 274, 276, 333].

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə karbohidrogen ehtiyatlarının mənimsənilməsi, işlənilməsi və nəqli, ən əsası, düşünülmüş yeni neft strategiyasının həyata keçirilməsi respublikamızın son 30 ildə yüksək tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaratdı. 1994-cü il sentyabrın 20-də 8 ölkənin 11 şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq sazişin imzalanması Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməlini qoydu. 1999-cu ilin dekabrında isə Azərbaycanın ilk mənfəət nefti ilə doldurulmuş tankeri dünya bazarına çıxarıldı [12, 2023, 1 mart].

Artıq Azərbaycan dünyada islahatçı və dinamik inkişaf edən ölkə kimi tanınır. Ölkəmizdə keçirilən çoxsaylı beynəlxalq tədbirlər onun dünyada oynadığı rolunu və əhəmiyyətini əyani olaraq göstərir. Cənubi Qafqaz respublikalarında istehsal olunan Ümumi Daxili Məhsulun 83 faizi Azərbaycanın payına düşür [12, 2022, 14 may].

Heydər Əliyevin heyranedici uzaqgörənliyi, titanik fəaliyyəti sayəsində müasir müstəqil Azərbaycan dövləti yaradılmışdır. Ulu öndər Azərbaycan Respublikasının dövlət müstəqilliyinin sarsılmazlığını və dönməzliyini ölkənin siyasi, iqtisadi və mədəni inkişafını təmin etmişdir. Heydər Əliyevin ideyaları Azərbaycan Respublikasının davamlı inkişafının əsasını təşkil edir. Nə qədər ki, Azərbaycan var Heydər Əliyev də olacaqdır. Heydər Əliyev deyəndə Azərbaycan xatırlanırsa, Azərbaycan deyiləndə Heydər Əliyev yada düşür, çünki Azərbaycan dövlətini xilas edən, onu strateji inkişaf yoluna çıxaran və uğurlu inkişafını təmin edən Heydər Əliyev olmuşdur.

Bütün bunlara görə, xalqımız onu əsrin böyük azərbaycanlısı, xalqın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı və Azərbaycanı dünyaya tanıdan insan kimi qəbul edir, hörmət bəsləyir və ürəkdən sevir.

Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirdi. O bununla cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Xalqımızın ümummilli liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir.

ulu öndərin rəhbərliyi ilə 1995-ci ildə Azərbaycanda sabitlik təmin edildi. Heydər Əliyev müstəqil dövlət quruculuğunun ilk mərhələsində siyasi lider kimi xilaskarlıqla sabitliyi qovuşdura bildi.

Dövlət quruculuğunun sonrakı mərhələsi daha məsuliyyətli və strateji əhəmiyyəti olan addımlarla zəngin olmuşdur. Ulu öndər həmin dönəmdə müstəqil dövlətin:

1. Siyasi institutlaşmasını,
2. İdarəetmənin təkmilləşməsini,
3. Beynəlxalq enerji layihələrinin reallaşmasını,
4. Cəmiyyətin daha sıx birləşməsini,
5. İqtisadiyyatın yeni infrastrukturunun yaradılmasını,
6. Ordu quruculuğunu təmin etmişdir.

Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsinin çox əhəmiyyətli bir cəhəti də siyasi varislik əsasında yeni liderin yetişməsidir. Dünya tarixində nadir hallarda siyasi liderlər özlərindən sonra tam uğurlu yeni lider yetişdirə bilirlər. Postsovet məkanında isə Heydər Əliyevdən başqa bu vəzifənin öhdəsindən gələ bilən ikinci dövlət başçısı yoxdur. Azərbaycan liderinin bu nailiyyətinin iki səbəbini vurğulaya bilərik.

Əvvəla, Heydər Əliyevin şəxsiyyət və siyasi xadim kimi yüksək keyfiyyətlərə, dərin zəkaya sahib olması həlledici rol oynamışdır. Hər şeyi dəqiq ölçüb-biçən, düzgün strategiya müəyyənləşdirən ulu öndər dövlətin və xalqın gələcəyini yüksək səviyyəli yeni liderə etibar etmişdir. İkincisi, ulu öndər siyasi varislik prinsipinə tam əməl edə biləcək yeni lideri uğurla seçmişdir. Yeni liderin İlham Əliyev olacağına ulu öndər tam əmin idi. Çünki uzun müddət Heydər Əliyev İlham Əliyevi siyasi lider kimi yetişdirmişdir.

Müasir Azərbaycan dövlətinin banisi olan ulu öndər Heydər Əliyev ölkəmizin dəyişməz və dönməz inkişaf strategiyasının müəllifi kimi əbədiyaşarlıq qazanmışdır. Zəmanəmizin ən görkəmli siyasi xadimi siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə Azərbaycanın yeni tarixində dövlətçiliyimizin möhkəmlənməsinə, müstəqilliyimizin əbədi olmasına verdiyi töhfələrə görə xalqımızın ümummilli liderinə çevrilmişdir.

Beləliklə, göründüyü kimi, Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır.

## ƏDƏBİYYAT

1. Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Bakı, 2008, 559 s.
2. “Azərbaycan” qəz.
3. Əliyev Heydər / Azərbaycan Milli Ensiklopediyası. VIII c., Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2018, s. 357-360.
4. Hacıyev İ.M. Heydər Əliyev siyasəti: tarix və müasirlik. Bakı: Elm, 2023, 336 s.
5. Heydər Əliyev: 2 cilddə. I c., Bakı: Turxan NPB, 2013, 500 s.
6. Heydər Əliyev: 2 cilddə. II c., Bakı: Turxan NPB, 2013, 704 s.
7. Heydər Əliyev irsi Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı: Azərbaycan, 2006, 784 s.
8. Heydər Əliyev və Azərbaycan. Bakı: Azərbaycan, 2008, 838 s.
9. Heydər Əliyev. Böyük Azərbaycanlı. Bakı: Azərnəşr, 2013, 816 s.
10. Heydər Əliyev akademik yaddaşda. İstanbul, 2019, 359 s.
11. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
12. “Xalq” qəz.
13. Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 608 s.
14. Qurbani A. Mənim hərbi liseyim. Bakı: Əbilov, Zeynalov və oğulları, 2002, 352 s.
15. Zenkoviç N.N. Tale yolları. Bakı: Azərbaycan, 2007, 608 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ismayil_haciyev@yahoo.com***

**Ismayil Hajiyev**

## THE NATIONAL LEADER WHOSE NAME IS MENTIONED TOGETHER WITH AZERBAIJAN

The activities carried out by prominent political and statesman Heydar Aliyev during both periods of his leadership in Azerbaijan were involved in the research, analyzes and generalizations were made, and it was determined that when the great leader was first elected as the head of Azerbaijan, the country was known as a backward agrarian republic. So far, no five-year term has been completed. During the first leadership of Azerbaijan, the great leader carried out extensive organizational measures, as a result, he was able to increase the funds allocated to the republic from the union budget, paid special attention to the development of industry and agriculture, personnel training, expanded residential areas, changed the face of the Azerbaijani village and turned our country into a large industrial republic.

During the second period of his rule, he saved our country from chaos and conflict and civil war, turned our independence into eternity, rediscovered the Caspian oil for the world, and achieved the export of oil to the world market, provided the army building, carried out fundamental reforms, prepared and adopted a new Constitution.

Apparently, what Heydar Aliyev did for Azerbaijan has not been done by other leaders. Therefore, when we say Heydar Aliyev, we remember Azerbaijan, and when we say Azerbaijan, we remember Heydar Aliyev.

**Keywords:** *Azerbaijan, Heydar Aliyev, year of Heydar Aliyev, political giant, savior, architect of independence, national leader.*

**Исмаил Гаджиев**

## ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР, ИМЯ КОТОРОГО УПОМИНАЕТСЯ ВМЕСТЕ С АЗЕРБАЙДЖАНОМ

К изучению привлечены меры, осуществленные видным политиком и государственным деятелем Гейдаром Алиевым в оба периода его руководства Азербайджаном, проведен анализ и обобщение, и установлено, что к моменту первого избрания великого лидера руководителем Азербайджана, страна была известна как отсталая аграрная республика. До этого времени ни один пятилетний план не был выполнен. В период первого управления Азербайджаном великий лидер провел обширные организационные мероприятия, в результате чего смог обеспечить увеличение средств, выделяемых республике из союзного бюджета, особое внимание уделял развитию промышленности и сельского хозяйства, подготовки кадров, ему удалось расширить жилые массивы, изменить облик азербайджанской деревни, а также превратить нашу страну в крупную индустриальную республику.

Во второй период своего правления он спас нашу страну от хаоса и конфликтов, гражданской войны, сделал нашу независимость вечной, заново открыл миру каспийскую нефть, сумел вывести ее на мировой рынок, обеспечил строительство армии, осуществил фундаментальные реформы, была подготовлена и принята новая Конституция.

Как мы видим, другие наши руководители не смогли сделать того, что сделал для Азербайджана Гейдар Алиев. Вот почему, когда мы говорим Гейдар Алиев, на ум приходит Азербайджан, когда мы говорим Азербайджан, на ум приходит Гейдар Алиев.

**Ключевые слова:** *Азербайджан, Гейдар Алиев, год Гейдара Алиева, политический гигант, спаситель, архитектор независимости, общенациональный лидер.*

**ELBRUS İSAYEV**

# HEYDƏR ƏLİYEVİN İPƏK YOLU STRATEGİYASI VƏ AZƏRBAYCAN

*Məqalədə Böyük İpək yolunun yaranması, onun tarixi, keçdiyi tarixi ərazilər, bu yolla daşınan məhsullar, iqtisadi əlaqələrdə bunun rolu kimi məsələlər tədqiq edilir. Burada İpək yolunda Azərbaycanın, eləcə də Naxçıvanın tutduğu yer və oynadığı roldan da bəhs edilmişdir.*

*Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən, Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra bir sıra regional və qlobal layihələr içərisində Tarixi İpək yolunun bərpasına verdiyi əhəmiyyətli töhfə də araşdırılmışdır. Zəngəzur dəhlizinin açılmasına dövlət səviyyəsində verilən qiymət də öyrənilmişdir.*

**Açar sözlər:** *Böyük İpək yolu, Heydər Əliyev, Azərbaycan, Naxçıvan, Zəngəzur dəhlizi, TRASEKA, qaz boru kəmərləri.*

Eramızdan əvvəl II əsrdən başlayaraq eramızın XVI əsrinə qədər mövcud olmuş Böyük İpək yolu şaxəli şəkildə şərqdən qərbə uzanan Şərqi Çin dənizi sahillərindən, Sinan şəhərindən başlamış Lançjoudan keçərək Dunxuana qədər uzanmışdır. Türk xalqlarından uyğurların yaşadığı ərazidə iki yerə haçalanan Böyük İpək yolunun cənub qolu Turfan çökəkliyinə cənubdan söykənmiş dağların ətəklərindən keçərək Pamir dağlarını aşmış, Fərqanə vadisinə daxil olduqdan sonra Səmərqənd şəhərinə, Buxaraya, Xarəzmə doğru getmişdir. Bu şaxənin bir qolu İrana və oradan Hindistana, digər qolu isə Kopetdağın şimal ətəyi ilə Xəzər dənizinin cənub hissəsindən keçərək Azərbaycana daxil olmuşdur. Çin dövlətinin Dunxuan şəhərindən başlamış Böyük İpək yolunun ikinci şaxəsi Lobnor gölünün şimal sahilləri boyu uzanaraq Təklə-Məkan səhrasının şimal hissəsindən ötərək Qazaxıstana keçmiş, oradan isə Xəzər dənizinin şimalından ötərək onun qərb sahilləri boyu Dərbənd-Şamaxı-Gəncə-Batumi-İstanbul istiqamətində uzanaraq Balkan yarımadası vasitəsilə Apennin yarımadasının mərkəzinə doğru istiqamətlənmişdır. Bir qol isə Həştərxandan, Şimalı Qafqazdan və Krımdan keçərək Balkan yarımadasına irəliləmişdir [1, s. 41].

Bu yol ilə hərəkət edən karvanların daşıdığı yüklər içərisində çoxluq təşkil edən və üzərində ən qiymətli məhsulun ipək olduğunu nəzərə alaraq bu məşhur karvan yolunun adını 1870-ci ildə tanınmış alman fotoqrafı Fon Rixtofen “İpək yolu” qoymuşdur [1, s. 41]. Vaxtilə bir sıra ölkələrdə, xüsusilə zəmanəsinin ən qüdrətli dövlətlərindən biri olan Roma imperiyasında ipək qızıla bərabər səviyyədə götürülür və saray əhli üçün çox qiymətli mal hesab olunurdu. Bunun bir səbəbi bu parçanın başqa parçalara nisbətən yüngül, bərk, gözəl olması idisə, digər mühüm bir səbəbi isə bu malın çox böyük tibbi əhəmiyyətə malik olması idi. Yəni o vaxtkı antisanitariya və xəstəliklərin qarşısının alınmasında bu parçalardan istifadə olunurdu. Xəstəliklərin əsas daşıyıcıları olan həşaratların bu parçaya yaxın düşə bilməmələri bir çox hallarda yoluxucu xəstəliklərin qarşısını alırdı. Baramaqurdu sapının bu cür gigiyenik xüsusiyyətə malik olması qərbdə böyük heyrətlə qarşılanır və hər vəchlə bu qiymətli mala olan marağı artırırdı.

Böyük İpək yolunun məşhurlaşmasında türk dövlətlərinin də böyük rolu olmuşdur. Həmin dövlətlər tərəfindən təşkil olunmuş karvanlar bu yolla Şərqdən Qərbə və əksinə müxtəlif mallar daşıyırdılar. Türklərin bu yolla nə qədər yüksək dəyər verməsi bir özbək atalar sözündə belə ifadə olunmuşdur: “Kainatda iki böyük yol vardır: Göy üzündə Samanyolu, Yer üzündə İpək yolu”.

Min səkkiz yüz ilə qədər fəaliyyətdə olmuş Böyük İpək yolunun müxtəlif şaxələrinin təxminən 20 min kilometri türk xalqlarının məskunlaşdığı ərazilərdən keçmişdir. Deməli, Böyük İpək yolu türk xalqlarının Çin, Qafqaz, Rusiya, Hindistan ölkələrinin xalqları, eləcə də ərəb ölkələrinin xalqları ilə iqtisadi əlaqələrin yaranmasında və genişlənməsində mühüm rol oynamışdır. Bundan başqa, bu yol türk xalqlarının yeni-yeni ərazilərdə məskunlaşmasına, onlar arasında elm və mədəniyyətin qarşılıqlı inkişafına böyük təsir göstərmişdir [3].

Böyük İpək yolu adlanan və tarixən ölkələr və xalqlar arasında iqtisadi, ticarət və mədəni əlaqələrin həyata keçirilməsində müstəsna əhəmiyyəti olan bu yolun keçdiyi ərazilərdən biri də şərqlə qərb arasında mühüm məntəqə sayılan və Azərbaycanın qədim zamanlardan inkişaf etmiş mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən olan Naxçıvan ərazisidir. Bu ərazi Avropa və Yaxın Şərq ölkə-

ərinin həyatında hələ qədim dövrlərdən çox mühüm siyasi, strateji və iqtisadi rol oynayırdı. Eyni zamanda Şərqlə Qərb arasında tranzit yolları ayrıcında yerləşmiş Naxçıvandan İrana, Hindistana, Orta Asiyaya, Çinə uzanan karvan yolu Naxçıvanın iqtisadi və mədəni inkişafına əhəmiyyətli təsir göstərmişdir. Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri sayılan Naxçıvan şəhərinin meydana gəlməsi də məhz bu önəmli hadisənin – ticarət iqtisadi əlaqələrin inkişafı nəticəsində mümkün olmuşdur. Belə ki, Yaxın Şərq ölkələri ilə Azərbaycanı, eləcə də bütün Cənubi Qafqazı əlaqələndirən əsas ticarət yollarının kəsişdiyi əlverişli mövqedə yerləşən bu ərazidə iri tayfa ittifaqları yarandı və iqtisadi, mədəni cəhətdən yüksək inkişaf tapdı, nəticədə Naxçıvan bölgəsində şəhərlər meydana gəldi.

Tarixi İpək yolunun bərpası layihəsi ötən əsrin ikinci yarısından etibarən bir sıra nüfuzlu ölkələri düşündürmüş və bu haqda layihələr irəli sürülmüşdür. Şərqi Asiyada yerləşən, dünya sənaye istehsalında əhəmiyyətli rol oynayan Yaponiya bu yolun tarixi əhəmiyyətini yüksək qiymətləndirmiş, İpək yolunun Şərq ilə Qərbi birləşdirən əsas yol olduğunu bildirmişdir. Qərb mədəniyyətinin qədim magistral vasitəsilə Çindən keçərək Yaponiyaya gəlməsini, Yaponiyanın İpək yolu ölkələri ilə qarşılıqlı əlaqələrini genişləndirmək istəyini nəzərə alaraq "Böyük İpək yolu diplomatiyası" adlandırılan siyasət əsaslandırılmışdır. Eyni zamanda bu diplomatik əlaqələrin inkişafını dəstəkləyən Çin Xalq Respublikası da İpək yolunun bərpası uğrunda ən fəal təşəbbüsçülərdən biri olmuşdur.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra reallaşdırdığı bır sıra regional və qlobal layihələr içərisində Tarixi İpək yolunun bərpasına verdiyi əhəmiyyətli töhvə xüsusi vurğulanmalıdı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirildi [5]. Bu konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanıb və Bakı Bəyannaməsi qəbul edilib. TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alındı və beləliklə, Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsinə öz təhfəsini verməklə, əsas inkişaf trayektoriyalarının müəyyənləşdirilməsində mühüm rol oynamağa başladı.

TRASEKA proqramının qəbul olunması və həyata keçirilməyə başlanması bütün Xəzəryanı ölkələrin, o cümlədən Azərbaycanın gələcəkdə sosial-iqtisadi inkişafına ciddi təkan verəcək mühüm tarixi hadisə kimi qiymətləndirilir. Avropa ilə Asiya arasında körpü rolunu oynayan və tarixi "İpək yolu" üzərində yerləşən Azərbaycan, özünün siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə Avropa dövlətlərinin marağına səbəb olmuşdur. TRASEKA və Böyük İpək yolunun bərpa edilməsinə dair Avropa Birliyinin hazırladığı layihə beynəlxalq iqtisadi əlaqələrin inkişafında bərabərlik, qarşılıqlı faydalanma və qarşılıqlı yardım kimi prinsiplərin gerçəkləşməsinə təkan verəcəkdir. O, eyni zamanda ümumdünya ticarət, iqtisadiyyat və valyuta-maliyyə mexanizmlərinin təkmilləşməsinə, Avrasiya məkanında və bütün dünyada "yeni iqtisadi iqlimin" yaranmasına, ümumdünya iqtisadi inteqrasiya proseslərinin dərinləşməsinə kömək edəcəkdir.

Ümummilli lider Heydər Əliyevin müdrik siyasəti müxtəlif sahələrdə özünün bəhrəsini verdiyi kimi, Türk dünyası dövlətləri ilə beynəlxalq münasibətlərimizin yaranmasında, inkişafında və geosiyasi maraqların formalaşmasında Bakı-Tbilisi-Ceyhan boru kəmərinin mühüm vasitələrindən biri kimi strateji əhəmiyyət daşıdığını da sübut etdi. Bununla da, BTC marşrutu İpək Yolu TRASEKA dəhlizinin davamı kimi qiymətləndirildi.

Hazırda Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu iqtisadi kəməri" layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviq edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb. 2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə, qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. Bakı-Tbilisi-Qars dəmir yolu Çindən Avropaya yüklərin çatdırılması müddətini dəniz daşımalarına nisbətən iki dəfədən çox azaldır.

"Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun

olaraq, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasında fəal rol oynayır. Bununla ölkə hər iki transkontinental dəhlizin kəsişməsində, Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-logistika qovşağına çevrilir. Şimal-Cənub nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək.

Göründüyü kimi, Azərbaycan Böyük İpək Yolu regionunun, o cümlədən Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa neft kəmərlərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, TANAP və TAP qaz boru kəmərlərinin qurulmasında fəal iştirakçılardan olmuş, Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində qaz kəmərləri vasitəsilə bu dəhlizin enerji komponenti təmin edilmişdir.

İkinci Qarabağ müharibəsində əldə edilən Qələbədən sonra ölkəmiz öz nəqliyyat-kommunikasiya, logistika imkanlarını genişləndirməsi baxımından çox əlverişli imkanlar əldə etmişdir. Belə ki, Vətən müharibəsinin sonunda Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları birgə üçtərəfli Bəyanatın 9-cu bəndi və 2021-ci il 11 yanvar tarixində Moskvada imzalanmış 4 bəndlik Bəyanat Zəngəzur dəhlizinin reallaşması üçün hüquqi zəmin yaradır. Zəngəzur dəhlizinin bərpa olunması ölkəmiz üçün yeni iqtisadi, ticarət və logistik perspektivlər yaradacaqdır. Ölkə başçısı cənab İlham Əliyevin də vurğuladığı kimi: "Bizim əsas rəqibimiz zamandır. Çünki dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Ona görə bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin. Beləliklə Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır... Bu baxımdan Zəngəzur dəhlizinin yaradılması Azərbaycanın milli, tarixi və gələcək maraqlarına tam cavab verir".

Beləliklə, Zəngəzur dəhlizi özündə bütün region ölkələri üçün böyük iqtisadi, biznes, investisiya və kommunikasiyalar təklifini ehtiva edir. Bu, Azərbaycanın Şərq- Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq. Çünki tarixi İpək yolunun üzərində yerləşir və Avropa ilə Asiya arasında mühüm logistika qovşağına çevrilmək potensialını daha da gücləndirir. Şərq-Qərb dəhlizi Çin və Aİ üçün böyük əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizi, eyni zamanda, Türkiyə ilə Orta Asiya arasında ticarət, eləcə də Türkiyə ilə Çin arasında ticarət üçün həyati əhəmiyyət kəsb edir. Bundan əlavə, Zəngəzur dəhlizi türkdilli dövlətləri arasında ticari-iqtisadi əlaqələri də keyfiyyətcə yeni müstəviyə keçirəcək. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq.

Göründüyü kimi, bu gün respublikamız Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında önəmli rola malikdir. Belə ki, Tarixi İpək Yolu üzərində yerləşən Azərbaycan Bakı-Tbilisi-Qars dəmiryolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, "Şimal-Cənub" beynəlxalq nəqliyyat və Trans-Xəzər tranzit dəhlizləri vasitəsilə qitələrarası inteqrasiyada mühüm rol oynayır.

## ƏDƏBİYYAT


1. İsayev E. Böyük İpək yolu və Naxçıvan. Bakı: Elm və təhsil, 2012, 214 s.
2. İsayev E. V-XV əsrlərdə beynəlxalq ticarət və Azərbaycan. Naxçıvan: Əcəmi, 2012, 88 s.
3. Kəngərli Q. Böyük İpək yolu – Şərq ilə Qərbin vəhdəti. "Azərbaycan" qəz., 1998, 6 sentyabr.
4. "Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. "Azərbaycan" qəz., 1998, 17 iyun.
5. Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı. "Azərbaycan" qəz., 1998, 9 sentyabr.
6. Zəfər yolu. Bakı: Qanun, 2020, 340 s.


***Naxçıvan Dövlət Universiteti***
***E-mail: i_elbrus@yahoo.com***

**Elbrus Isayev**

## HEYDAR ALIYEV'S SILK ROAD STRATEGY AND AZERBAIJAN

The article examines such issues as the establishment of the Great Silk Road, its history, the historical areas it passes through, the products transported along this road, and its role in economic relations.

After Azerbaijan regained its state independence and Heydar Aliyev's return to political power for the second time, a significant contribution to the restoration of the historical Silk Road among a number of regional and global projects was also investigated. The assessment given to the opening of the Zangazur corridor at the state level was also studied.

**Keywords:** *Great Silk Road, Heydar Aliyev, Azerbaijan, Nakhchivan, Zangazur corridor, TRACECA, gas pipelines.*

**Эльбрус Исаев**

## СТРАТЕГИЯ ГЕЙДАРА АЛИЕВА ПО ШЕЛКОВОМУ ПУТИ И АЗЕРБАЙДЖАН

В статье рассматриваются такие вопросы, как возникновение Великого Шелкового пути, его история, исторические территории, через которые он проходил, продукция, перевозимая по этому пути, ее роль в экономических связях. Здесь также говорилось о месте и роли, которую Азербайджан, а также Нахчыван занимают на Шелковом пути.

После восстановления Азербайджаном государственной независимости, возвращения Гейдара Алиева к политической власти во второй раз в рамках ряда региональных и глобальных проектов был исследован его значительный вклад в восстановление исторического Шелкового пути.

Также была изучена цена открытия Зангезурского коридора на государственном уровне.

**Ключевые слова:** *Великий Шелковый путь, Гейдар Алиев, Азербайджан, Нахчыван, Зангезурский коридор, ТРАСЕКА, газопроводы.*

**EYNULLA MƏDƏTLİ**

# HEYDƏR ƏLİYEVİN "BİR MİLLƏT – İKİ DÖVLƏT" DÜSTURU AZƏRBAYCAN-TÜRKİYƏ BİRLİYİNİN YOL XƏRİTƏSİDİR

*Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ilə Azərbaycan-Türkiyə münasibətlərinin də yeni mərhələsi başladı. Bu qarşılıqlı münasibətlərin də ilk və möhkəm təməl daşları Heydər Əliyevin Naxçıvan MR-a rəhbərlik etdiyi 1991-1993-cü illərdə qoyulmuşdu. Prezident Heydər Əliyevin 8-11 fevral 1994-cü il tarixlərində Türkiyə Cümhuriyyətinə rəsmi səfəri ölkələrimizin qarşılıqlı əlaqələrinin tamamilə yeni məcrada və yeni keyfiyyətdə qurulmasına və inkişafına zəmin yaratdı. Həmin vaxtdan etibarən Azərbaycan-Türkiyə münasibətləri ulu öndərin ifadə etdiyi "Bir millət – iki dövlət" düsturu üzərində quruldu. Ulu öndərin 5-8 may 1997-ci il tarixlərində Türkiyə Cümhuriyyətinə növbəti rəsmi səfərində ona Türkiyə Cümhuriyyətinin "Dövlət nişanı"nın təqdim olunması mərasimində çıxış edən ulu öndər dedi: "Mən bu sözləri demişəm, bu gün bir daha təkrar edirəm: biz bir xalqıq, iki dövlətik".*

*Ulu öndərin vəfatından sonra Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, qardaş Türkiyə ilə münasibətlərdə də Heydər Əliyev siyasətini yaradıcılıqla davam etdirdi və "Bir millət – iki dövlət" düsturunu dövlətlərimizin və xalqlarımızın qarşılıqlı əlaqələrinin strategiyasına çevirdi.*

*Azərbaycanın 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində Türkiyə Cümhuriyyəti Azərbaycana ən yüksək səviyyədə, hərtərəfli və səmimi siyasi dəstək vermiş və bu davranış təkcə Azərbaycan tərəfindən deyil, bütün türk milləti tərəfindən təqdir edilmişdir. Prezident İlham Əliyev Vətən müharibəsinin ilk həftəsində, oktyabrın 5-də Türkiyənin TRT kanalına müsahibəsində vurğuladı ki, ulu öndər Heydər Əliyevin "Bir millət – iki dövlət" kəlamı indi bütün Türkiyə və Azərbaycan üçün bir işıq yoludur. Qeyd edilməlidir ki, bu "işıq yolu" eyni zamanda bütün Türk dövlətlərinin gələcək birlik yoludur.*

**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycan, Türkiyə, Bir millət-iki dövlət, İlham Əliyev, türk dünyası, birlik və qardaşlıq.*

Ulu öndər Heydər Əliyevin irsinə, həyat və fəaliyyətinə dair həm ölkəmizdə, həm də müxtəlif ölkələrdə onlarla kitablar, məqalələr yazılmış, onun müdrik dövlətçilik təcrübəsinə dəfələrlə müraciət edilmişdir. Məsələn, 2004-cü il mayın 5-də Bakının Gülüstan sarayında görkəmli Azərbaycan tarixçisi, tarix elmləri doktoru, professor (indi akademik) Yaqub Mahmudovun "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" kitabının təqdimatı oldu. Kitabda qeyd olunur: "...Keçən əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində Heydər Əliyev şəxsiyyəti bizim Azərbaycanı bugünkü müstəqil həyata hazırlayırdı" (10). Müəllif bu maraqlı kitabın paraqraflardan birini məhz belə adlandırmışdı: "Bizim Vətənimizin Atatürkü". Müəllif yazır ki, Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş bir dünyadır (aləmdir)... O böyük Azərbaycanlıdır.

Qeyd edilməlidir ki, bu bənzətmənin kifayət qədər əsasları vardır. Böyük öndər Mustafa Kamal Atatürk Türkiyə Cümhuriyyətinin qurulmasında, türk xalqının və dövlətçiliyinin qorunub saxlanması və dünyanın seçilib-sayılan bir dövlətinə çevrilməsində müstəsna rolu oynadığı kimi, 1990-cı illərin əvvəllərində dərin böhrana sürüklənmiş, parçalanma və müstəqilliyin itirilməsinin astanasında olan, iqtisadi-siyasi və mənəvi çöküş mərhələsi keçirən Azərbaycan Respublikasını üzləşdiyi fəlakətdən xilas edib, sabitlik və inkişaf yoluna yönəldən, öncə qonşu ölkələr, ardından dünyanın aparıcı gücləri ilə milli maraqlar zəminində münasibətlər quran Heydər Əliyev də eyni xilaskarlıq missiyası yerinə yetirmişdir. Heydər Əliyevin yaranmış mürəkkəb tarixi şəraitdə, yenicə qazanılmış müstəqillik və dövlətçiliyin qorunub saxlanacağına bütün ümidlərin üzüldüyü bir vaxtda yalnız uca şəxsiyyətinin və inamlı sözünün gücü ilə xalqı birləşdirib öz ardınca apara bilmək qabiliyyəti bir sıra ölkələr üçün əsl ustad dərsləri oldu.

22 iyul 1990-cı ildə doğma şəhəri Naxçıvana gələndən az sonra Naxçıvan seçiciləri Azərbaycan rəhbərliyinin və onun Naxçıvandakı funksionerlərinin təzyiqinə baxmayaraq fərdi təqaüdçü, heç bir vəzifə və imtiyaza malik olmayan Heydər Əliyevi həm Azərbaycan Respublikası Ali Sovetinə, həm də Naxçıvan MSSR Ali Sovetinə deputat seçərək böyük xilaskarlıq missiyası üçün ona yol açdılar.

Ermənistanın Azərbaycana, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına silahlı təcavüzü şəraitində, eyni zamanda Azərbaycanın mərkəzi hökumətinin Naxçıvana və naxçıvanlılara qarşı əsassız təzyiqlər göstərdiyi bir vaxtda – 3 sentyabr 1991-ci il tarixində Naxçıvan

Muxtar Respublikasının Ali Məclisi deputatlarının xahişi və Muxtar Respublika əhalisinin dəfələrlə təkidli tələbi ilə Heydər Əliyev Naxçıvan Muxtar Respublika Ali Məclisinə sədr vəzifəsinə seçilməyə razılıq verdi və yekdilliklə bu vəzifəyə seçildi [8, s. 129]. Həmin dövrdə Naxçıvandakı ictimai-siyasi prosesləri izləyən və dərindən təhlil edən akademik İsa Həbibbəyli qeyd edir ki, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr vəzifəsinə seçilməsi geniş mənada Azərbaycanda dövlət hakimiyyətinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilmiş ümumrespublika əhəmiyyətli tarixi hadisədir. Azərbaycan xalqı Naxçıvan Muxtar Respublikasında ümummilli vəzifələri qətiyyətlə həyata keçirən Heydər Əliyevin simasında ölkəmizin müstəqilliyinin qarantı olacaq qüdrətli dövlət xadimini görür, ona böyük ümid və inam bəsləyirdi [7, s. 7].

Naxçıvan MR Ali Məclisinin sədri seçiləndən sonra qardaş Türkiyə Cümhuriyyəti ilə əlaqələrə çox böyük əhəmiyyət verən Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasını, bununla da Azərbaycanı Türkiyə ilə bağlayan Araz çayı üzərində “Ümid” körpüsünün tikintisinə başlandı. Təməli 1991-ci il oktyabrın 29-da – Türkiyə Cümhuriyyətinin quruluş günündə atılan bu körpü 1992-ci ilin mayın 28-də Azərbaycan Respublikasının Müstəqillik günündə artıq “Vüsal” körpüsü kimi Heydər Əliyevin və Türkiyə hökumətinin başçısı Süleyman Dəmirəlin (1924-2015) iştirakı ilə təntənəli surətdə açıldı. Bu açılış Azərbaycan – Türkiyə münasibətlərində yeni bir mərhələnin də təməlinin qoyulması idi.

Ali Məclisin sədri kimi, Azərbaycanda müstəqil dövlət quruculuğunun ilk və əsas tədbirlərini həyata keçirən, Naxçıvanın erməni işğalından qorunması, sosial-iqtisadi vəziyyətin düçar olduğu ağır böhran durumundan qurtarılması üçün fədakarlıqla səy göstərən, bütün çətinliklərə əzmlə dözüb vəziyyətdən çıxış yolları tapan Heydər Əliyev ilk növbədə Naxçıvanı blokadadan çıxarmaq üçün qardaş Türkiyə Cümhuriyyəti ilə əlaqələrin qurulmasına önəmli əhəmiyyət verirdi. Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə səfərləri, dövlət və hökumət başçıları ilə görüşləri və müzakirələri nəticəsində Azərbaycan hökuməti tərəfindən gözümçıxdıya salınan Naxçıvana yollar açmaq, əhalini aclıq və soyuqdan qorumaq mümkün oldu. Məhz Heydər Əliyevin dünya şöhrətli dövlət xadimi və nüfuzlu şəxsiyyət olması bu yardımların göstərilməsini mümkün etdi. Heydər Əliyevin Türkiyənin Baş naziri, sonra isə prezidenti olan Süleyman Dəmirəllə möhkəm dostluğa və qardaşlığa çevrilən xoş münasibətləri sayəsində 24 mart 1992-ci il tarixində Ankarada “Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında Əməkdaşlıq Protokolu” imzalandı [8, s. 616-617].

Sovetlər dönəmində olduğu kimi, hansı vəziyyət olursa-olsun Heydər Əliyev təhsilə böyük önəm verirdi və Azərbaycan gənclərinin Türkiyədə təhsil almasını çox vacib və gərəkli hesab edirdi. Onun 1992-ci ilin mart ayının 22-24-də Türkiyə Cümhuriyyətinə səfərinin yekunu olaraq imzalanmış Əməkdaşlıq Protokolunda da bu mühüm milli əhəmiyyətli məsələyə xüsusi yer ayrılmışdı. Qeyd edilməlidir ki, 1992-ci il martın 22-dən 25-nə qədər Türkiyə Respublikası hökumətinin dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyədə səfərdə olmuşdu. Ankarada Heydər Əliyevi Türkiyə Respublikasının Prezidenti Turqut Özal qəbul etmişdi. Martın 23-də Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev arasında ölkələrimizin qarşılıqlı əlaqələrinin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi məsələləri müzakirə olunmuşdu [8, s. 610].

Burada müzakirə edilən məsələlər sırasında Heydər Əliyevin təklifi ilə iqtisadi, sosial və mədəni əlaqələrlə yanaşı, daha bir maddə – hər il Naxçıvandan olan 100 nəfər gəncin Türkiyənin ali təhsil ocaqlarında təhsil alması maddəsi də yer almışdı. Heydər Əliyevin bu təşəbbüsü həmin dövrdə Naxçıvan əhalisinin ərzaq, enerji və sair həyati zəruri ehtiyacları qədər lazımlı idi, belə ki, cəmiyyətdə baş verən böhranlı proseslər təhsil sahəsinə də ağır zərbə vurmuşdu. Eyni zamanda, blokada şəraiti naxçıvanlı gənclərin ölkənin əsasən paytaxtda yerləşən ali məktəblərində təhsilə müntəzəm davam etmələrinə də ciddi əngəllər yaratmışdı. Belə bir şəraitdə Türkiyə universitetlərinin qapısının açılması və Azərbaycanlı tələbələrin təhsilinin və yaşamının qardaş dövlət tərəfindən qarşılanması olduqca böyük imkan idi. Bu əsil qardaşlıq köməyi idi.

1992-ci ilin oktyabrın 5-də Türkiyədə təhsil almağa göndərilən 75 nəfər naxçıvanlı gənclə Muxtar Respublika Ali Məclisində keçirdiyi görüşdə, Heydər Əliyev demişdi: “Biz arzu edərdik ki,

gənclərimiz Türkiyənin universitetlərində bütün fənlərə dərindən yiyələnsinlər. Türk dilini, türk tarixini, türk ədəbiyyatını mükəmməl öyrənsinlər... Bir sözlə, biz hesab edirik ki, Türkiyəyə gedən bütün gənclər Türkiyə cəmiyyətinin, Türkiyə həyatının bütün sahələrinə qoşulmalıdırlar və bizim Azərbaycan üçün, Naxçıvan üçün orada gərəkli olan nə varsa hamısını gətirib Azərbaycanda, Naxçıvanda tətbiq etsinlər" [8, s. 290].

19-25 aprel 1993-cü il tarixlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Heydər Əliyev Türkiyədə səfərdə olmuşdur. Bu Türkiyə Prezidenti Turqut Özalın qəflətən vəfat etməsi ilə əlaqədar idi. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəylə birlikdə Türkiyə Respublikasının Prezidenti Turqut Özalın Ankarada və İslanbulda keçirilən matəm mərasimlərində iştirak etmişdir. Ankarada olarkən Heydər Əliyev Türkiyə Respublikasının qurucusu və ilk Prezidenti Mustafa Kamal Atatürkün və Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin məzarları üzərinə əklillər qoymuşdur. İstanbulda dəfn mərasimi bitəndən sonra Heydər Əliyev Ankaraya gəlmiş, aprelin 23-də Türkiyə Böyük Millət Məclisinin Türkiyə Cümhuriyyətinin yaranmasının 73-cü ildönümünə həsr edilmiş iclasında iştirak etmişdir.

Heydər Əliyevin Ankarada Baş Nazir Süleyman Dəmirəllə görüşündə Süleyman Dəmirəl Heydər Əliyevi dünya siyasətində möhtərəm bir şəxs, keçmiş Sovet İttifaqında və Azərbaycanda yüksək dövlət işlərində çalışmış bir siyasi lider kimi dəyərləndirmişdi.

Qeyd edilməlidir ki, Heydər Əliyevin qardaş Türkiyə Cümhuriyyətinin rəhbərləri ilə yaratdığı şəxsi əlaqələrin ölkələrimizin qarşılıqlı münasibətlərinin inkişafı və daha da genişlənməsində xüsusi əhəmiyyəti oldu.1992-ci ilin may ayında Ermənistanın Naxçıvan Muxtar Respublikasına qarşı get-gedə genişlənən təcavüzü zamanı Heydər Əliyevin qardaş Türkiyə rəhbərliyinə müraciəti cavabsız qalmadı. Dərhal Türkiyənin Baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə Türkiyə Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Ermənistanın təcavüzü ilə əlaqədar yaranmış vəziyyəti öyrənmək məqsədilə Naxçıvana gəldilər. Naxçıvan MR Ali Məclisində səfir Ömər Ərsunun başçılıq etdiyi heyəti qəbul edən Heydər Əliyev Ermənistan silahlı qüvvələrinin 1992-ci il mayın 18-dən muxtar respublikanın Şərur və Sədərək bölgələrinə silahlı təcavüzü barəsində məlumat verərək bu istiqamətdə görülən tədbirləri də bildirdi [9]. Qeyd edilməlidir ki, bu vəziyyətlə əlaqədar Türkiyə hökumətinin Ermənistana xəbərdarlığı öz rolunu oynadı. Yüksək təqdirə layiqdir ki, 1993-cü ildə isə Ermənistanın Kəlbəcəri işğal etməsindən sonra Türkiyə bu təcavüzkar ölkə ilə bütün nəqliyyat-kommunikasiyaları bağladı və diplomatik əlaqələri kəsdi. Türkiyə Cümhuriyyəti imkanları çərçivəsində bütün beynəlxalq təşkilatlarda və forumlarda Azərbaycanı müdafiə edir, müvafiq dəstəyi verirdi.

Lakin etiraf edilməlidir ki, 1991-1993-cü illərdə Azərbaycanın Türkiyə siyasətində, eləcə də Türkiyənin Azərbaycanın siyasətində pərakəndəlik, daha çox sentimental və situativ münasibətlər mövcud idi. Sistemli, məqsədyönlü, ardıcıl, nəticəyə hesablanmış dövlətlərarası vahid strategiya formalaşmamışdı. Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ilə Azərbaycan-Türkiyə münasibətlərinin də yeni mərhələsi başladı. Bu qarşılıqlı münasibətlərin də ilk və möhkəm təməl daşları Heydər Əliyevin Naxçıvan MR-ə rəhbərlik etdiyi 1991-1993-cü illərdə qoyulmuşdu.

Prezident Heydər Əliyevin 8-11 fevral 1994-cü il tarixlərində Türkiyə Cümhuriyyətinə rəsmi səfəri ölkələrimizin qarşılıqlı əlaqələrinin tamamilə yeni məcrada və yeni keyfiyyətdə qurulmasına və inkişafına zəmin yaratdı. Əlbəttə, bundan əvvəl də, Azərbaycan öz istiqlalını elan edən vaxtdan qardaş Türkiyə ölkəmizə yardımlarını əsirgəməmişdi. Həmin ağır illərdə Türkiyə dövlətinin və xalqının göstərdiyi yardımlar olduqca dəyərli idi, naxçıvanlılar üçün isə həyati əhəmiyyətə malik idi. Lakin, eyni zamanda da ölkələrimizin dövlətlərarası münasibətlərdə nizamsızlıq, qeyri-ardıcıllıq, emosional çalarlar daha çox idi. Prezident Heydər Əliyev bu münasibətləri tamamilə yeni siyasi-iqtisadi və mənəvi müstəviyə qaldırdı.

Həmin səfəri zamanı Ankarada Türkiyə Böyük Millət Məclisindəki çıxışında Prezident Heydər Əliyev demişdi: "Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Əsrlər boyu xalqlarımız bir-birinə oxşayan, yaxud azca fərqlənən adət və ənənələrini, mədəniyyət və elmini qoruyub saxlamış və inkişaf etdirmişlər. Əsrlər boyu xalqlarımız bir olmuş, çiyin-çiyinə vermişlər, Azərbaycan ilə Türkiyə arasında əlaqələri dostluq, qardaşlıq əlaqələri adlandırmışlar. Bu əlaqələr bir

xalqdan, bir kökdən gələn xalqların əlaqələridir. Bu, keçmişdə də belə olmuşdur və əlaqə saxlamağa imkanımız olmadığı vaxtlarda da qəlbimizdə məhz belə olmuşdur, indi də belə olaraq qalır. Ona görə də tariximiz, milli köklərimiz, adət və ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlayıbdır. Əsrlər boyu tarixin bütün mərhələlərində bizi bir-birimizdən ayırmağa çox çalışsalar da, buna müvəffəq olmamışlar. Odur ki, bundan sonra da heç bir qüvvə bizi bir-birimizdən ayıra bilməyəcəkdir [3, s. 231]. Bu tarixi dəyərləndirməni həmin ilin oktyabr ayının 19-da Türk dövlətləri başçılarının Zirvə görüşündə qəbul edilmiş "İstanbul Bəyannaməsi"nin imzalanma mərasimində Heydər Əliyev daha da inkişaf etdirərək vurğuladı: "Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də, bunlar hamısı xalqlarımızı hələ müstəqil olmadığımız vaxtda bir-birindən ayırmayıb, bir-birinə bağlayıb, bir-birilə daha çox əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliklərini əldə edəndən sonra, müstəqil dövlətlər kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəli getməliyik, inkişaf etməliyik" [4, s. 253]. Burada ulu öndərin həm də digər türk dövlətlərinə də açıq-aydın ismarışlar verdiyi göz qabağındadır.

Qeyd edilməlidir ki, ulu öndərin 5-8 may 1997-ci il tarixlərində Türkiyə Cümhuriyyətinə növbəti rəsmi səfəri əhatəliliyi, keçirilən görüşlərin sıxlığı, müzakirə edilən məsələlərin və qəbul edilən sənədlərin zəruriliyi ilə qarşılıqlı münasibətlərdə qoyulan təməlin necə möhkəm, etibarlı olduğunu bir daha təsdiqləmiş oldu. Mayın 5-də Azərbaycan Prezidenti Heydər Əliyevə Türkiyə Respublikasının "Dövlət nişanı"nın təqdim olunması mərasimində çıxış edən ulu öndər dedi: "Məni sevindirən bir də odur ki, bu mükafat məhz Türkiyə Cümhuriyyətinin mükafatıdır. Bu böyük öndər Mustafa Kamal Atatürkün ölkəsinin, onun yaratdığı Cümhuriyyətin mükafatıdır. Mustafa Kamal Atatürk sizin üçün nə qədər əziz və hörmətli olubsa, o qədər də azərbaycanlılar üçün belədir. ...Mən bu sözləri demişəm, bu gün bir daha təkrar edirəm: biz bir xalqıq, iki dövlətik. Bir xalq olan bir dövlətin başçısının o biri dövlətin yüksək mükafatını alması böyük şərəfdir" [5, s. 145].

Türkiyədə də səsləndirildiyi kimi, Heydər Əliyevin "Bir millət – iki dövlət" tezisi milli-mənəvi dəyərlərimizin tarixən ortaqlığını, xalqlarımızın mədəniyyətinin, incəsənətinin, musiqisinin, bütünlükdə mənəvi dünyasının bir-biri ilə təbii-tarixi qarşılıqlı əlaqədə olduğunu da əks etdirir. Nəzərə alınmalıdır ki, ulu öndər Azərbaycanla Türkiyə "Bir millət, iki dövlətdir" dedikdə yalnız etnik olaraq türkləri deyil, bütövlükdə Azərbaycan xalqını, onun bütün etnik tərkibini və mənzərəsini əhatə etməklə, bir millət kimi nəzərdə tuturdu. Şübhəsiz ki, Mustafa Kamal Atatürk də zamanında "Nə mutlu türküm deyənə!" ifadəsi ilə bütün Türkiyə Cümhuriyyətinin vətəndaşlarını və özünü türk sayan hər kəsi nəzərdə tuturdu.

Müstəqil dövlətçiliyimizi möhkəm dayaqlar üzərində qurub yaratmaqla yanaşı, Heydər Əliyev azərbaycançılıq ideyasını da dövlətçilik müstəvisinə gətirib onu milli məfkurəyə çevirdi. Lakin Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsi heç də ümumtürk mənsubiyyətini inkar etmirdi, əksinə türkçülüyün müxtəlif coğrafi-siyasi məkanlarda özünəməxsus milli formada, vətən və milli dövlət müstəvisində yeni mənzərəsini ortaya qoyurdu.

Ulu öndərin vəfatından sonra Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, qardaş Türkiyə ilə münasibətlərdə də Heydər Əliyev siyasətini yaradıcılıqla davam etdirdi və "Bir millət-iki dövlət" düsturunu dövlətlərimizin və xalqlarımızın qarşılıqlı əlaqələrinin strategiyasına çevirdi. Bu düstur həm regionumuzda, həm də beynəlxalq çərçivədə Azərbaycan-Türkiyə münasibətlərinin işlək və səmərəli açarı kimi keçən hər gün daha da aktuallaşdı, dövlət siyasəti olmaqla yanaşı, qardaş xalqlarımızın ruh və könül birliyi siyasəti kimi də dolğunlaşdı, ölkələrimizin iqtisadi, ticari, mədəni, hərbi-siyasi əlaqələri ilə daha da zənginləşdi və yeni keyfiyyət mərhələsinə qədəm qoydu. Bu düstur həm də türk dövlətlərinin və toplumlarının bir-birinə yaxınlaşmasını şərtləndirən cazibə mənbəyi olmağa başladı.

3 oktyabr 2009-cu il tarixində Prezident İlham Əliyevin təşəbbüsü ilə Naxçıvan şəhərində Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın dövlət başçıları və Türkmənistan Baş nazirinin müavini Zirvə görüşü keçirib, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasını (Türk Şurası) təsis etdilər (1). Qeyd edilməlidir ki, bu türk xalqlarının çoxminillik tarixində ilk dəfə baş verirdi və bu tarixi

qərarın qədim türk yurdu Naxçıvanda verilməsinin də böyük mənası var idi. Türkiyə Cümhuriyyəti ilə Şərqdəki türk dövlətləri arasında yer alan Azərbaycan Respublikasının bu diyarı Sovet Rusiyasının antitürk siyasəti nəticəsində coğrafi olaraq Azərbaycandan ayrı salınmış olsa da, Azərbaycan-türk ruhunun dərin kök saldığı, tarixin ən çətin, kəşməkəşli dövrlərində də Azərbaycanın döyünən ürəyi kimi türk varlığını qoruyub saxlamış, nəsillərdən nəsillərə ötürərək, sonunda Türk dünyasının dövlət başçılarını bir araya gətirən bölgəyə çevrilmişdi. Naxçıvanda hər zaman belə inam canlıdır ki, bir gün Azərbaycan dövləti tarixi ədalətsizliyə son qoyacaq, Rusiya tərəfindən Ermənistana bəxşiş edilən, beləliklə də Naxçıvan Muxtar Respublikasını Azərbaycanın qərb bölgəsindən ayrı salan Zəngəzur vilayətini geri qaytaracaqdır. O zaman böyük Türk dünyası coğrafi olaraq da bir bütöv halına gələcəkdir.

IX Zirvə Toplantısına qatılan Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstanın dövlət başçılarının və Türkmənistan Baş nazirinin müavininin imzaladıqları iki mühüm sənəd: Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında və Naxçıvan Bəyannaməsi türk dünyası ölkələrinin bir-biri ilə sonrakı inteqrasiya prosesində tarixi rol oynadı. Yekun nitqində Prezident İlham Əliyev vurğuladı: "...Naxçıvan Azərbaycanın yeganə bölgəsidir ki, Türkiyə ilə həmsərhəddir. Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsinin Ermənistana birləşdirilməsi, demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni türk dünyasının vahid bir ailə,vahid bir qüvvə kimi fəaliyyəti onilliklər ərzində dayandırılmışdır. Ancaq biz bu gün qəbul edilmiş qərarlarla, atılmış addımlarla bu bağlantını daha da gücləndiririk" [6, s. 41].

Naxçıvan Zirvə toplantısından sonra ardıcıl keçirilən Zirvə görüşləri Türk dövlətlərinin əməkdaşlığının inkişafına əhəmiyyətli təsir göstərdi. 2019-cu ilin oktyabr ayının 15-də Bakıda keçirilən VII Zirvə görüşü Heydər Əliyev ideyalarının yeni parlaq təcəssümünə çevrildi. Artıq Özbəkistanın da Türk Şurasının tam hüquqlu üzv olaraq qatıldığı görüşdə ümumtürk birliyinin formalaşması istiqamətində, türk dövlətlərinin bir-biri ilə yaxınlaşması, ortaq mənafelər naminə əməkdaşlıq formalarının genişləndirilməsində on il əvvəl Prezident İlham Əliyevin təşəbbüsü ilə imzalanmış Naxçıvan Sazişinin önəmli rol oynadığı vurğulandı [2].

Qeyd edilməlidir ki, bu illərdə Azərbaycan-Türkiyə münasibətlərinin əldə edilmiş səviyyəsi və xarakteri ölkələrimizin hərbi əməkdaşlıq səviyyəsini və miqyasını da xeyli genişləndirmiş oldu. Artan erməni təcavüzkarlığına qarşı Azərbaycanın qətiyyətli addımlarını şərtləndirən əsas amillərdən biri də Prezident İlham Əliyevin hər zaman böyük önəm verdiyi Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının da daha yüksək səviyyəyə qalxması idi.

Azərbaycanın 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində Türkiyə Cümhuriyyəti Azərbaycana ən yüksək səviyyədə, hərtərəfli və səmimi siyasi dəstək vermiş və bu davranış təkcə Azərbaycan tərəfindən deyil, bütün türk milləti tərəfindən təqdir edilmişdir. Türkiyənin Prezidenti, Xarici İşlər naziri, Milli Müdafiə naziri, Baş qərargah rəisi, Türkiyə Böyük Millət Məclisinin sədri fikirlərini dəfələrlə açıq şəkildə "Azərbaycan hansı formada tələb edərsə, o formada da yanında olacağıq" ismarışını vermişdilər [11, s. 386]. 2020-ci il sentyabrın 27-də, Vətən müharibəsinin ilk saatlarında Türkiyə Cümhuriyyəti prezidenti R.T.Ərdoğanın prezident İlham Əliyevə zəng edib qardaş ölkənin dəstəyini ifadə etməsi, həmişə olduğu kimi, belə taleyüklü məqamda da Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulaması xalqımızın və ordumuzun qələbə əzmini artırmış oldu.

Prezident İlham Əliyev 5 oktyabr 2020-ci il tarixində "TRT-Haber"ə müsahibəsində qardaş Türkiyənin siyasi-mənəvi dəstəyini yüksək qiymətləndirərək dedi: "Bizim qardaşlığımız əbədidir və bizim qardaşlığımız bütün sınaqlardan keçib. Bilirsiniz ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dünya ölkələri üçün örnəkdir... Bu gün dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkə yoxdur və bu, sadəcə olaraq, söz deyildir. Bu, ürəkdən gələn duyğulardır. Bizim birliyimiz bizim tariximizə əsaslanır, ortaq etnik köklərə, dilimizə, dinimizə, qardaşlığımıza əsaslanır. Əziz qardaşım Tayyib bəylə tarixi xidmətimiz odur ki, biz çox güclü bir təməl üzərində müasir Türkiyə-Azərbaycan birliyini yaratdıq. Biz bir-birimizi bir birimizdən ayırmırıq, birlikdəyik. Bu hadisələr bir daha onu göstərdi ki, bizi ən çox dəstəkləyən, birinci dəstəkləyən Türkiyə olub, birmənalı şəkildə, qəti şəkildə. Türkiyə Prezidentinin çox cəsarətli və qəti açıqlamaları bir çox ölkələrə xəbərdarlıq oldu. 2020-ci ilin iyulunda Ermənistanın növbəti təcavüzünə cavab olaraq Azər-

baycanın həyata keçirdiyi əks-hücum əməliyyatları zamanı qardaş Türkiyənin siyasi-hərbi rəhbərliyinin "Türkiyə Cümhuriyyəti bütün imkanları ilə Azərbaycanın yanındadır" mesajı əsil qardaşlıq nümunəsi idi [2].

Prezident İlham Əliyev Vətən müharibəsinin ilk həftəsində, oktyabrın 5-də Türkiyənin TRT kanalına müsahibəsində vurğuladı ki, bu gün dünya miqyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın olan ikinci bir ölkə yoxdur... Bizim birliyimiz bizim tariximizə əsaslanır, ortaq tarixi köklərə, dinimizə, dilimizə, qardaşlığımıza əsaslanır. Əziz qardaşım Tayyib bəylə tarixi xidmətimiz odur ki, biz çox güclü bir təməl üzərində müasir Türkiyə-Azərbaycan birliyini yaratdıq... Türkiyə Prezidentinin çox cəsarətli və qəti açıqlamaları bir çox ölkələrə xəbərdarlıq oldu – kənarda durun, qarışmayın, Azərbaycan tək deyil, Türkiyə yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Bütün mövzularda, bütün kürsülərdə biz bir-birimizi dəstəkləyirik və bizim birliyimiz əbədi olmalıdır. Müsahibənin sonunda Prezident İlham Əliyev vurğuladı ki, ulu öndər Heydər Əliyevin "Bir millət – iki dövlət" kəlamı indi bütün Türkiyə və Azərbaycan üçün bir işıq yoludur [12, s. 133].

Azərbaycanın təcavüzkar Ermənistan üzərində tarixi qələbəsindən sonra Türkiyə Cümhuriyyəti prezidenti Tayyib Ərdoğanın Azərbaycana səfərləri və prezident İlham Əliyevlə azad edilmiş bölgələrə, o cümlədən Şuşa şəhərinə səfər etməsi və 15 iyun 2021-ci il tarixində iki qardaş ölkə arasında "Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi"-nin imzalanması indiyədək Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında imzalanan sənədlərin zirvəsi oldu. Şuşa Bəyannaməsi tarixi Qars müqaviləsinin (13 oktyabr 1921) imzalanmasından tam 100 il sonra Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dönəmin başlandığını ortaya qoydu. Şuşa Bəyannaməsini də ümumtürk birliyi istiqamətində yandırılmış Yol çırağına bənzətmək olar. Mənəvi Turan dünyasına aparan yolun azad Şuşadan başlaması da simvolikdir. Zəngin türk mədəniyyətinin beşiyi olan Şuşa həm də, türk birliyinin gücünün bariz təcəssümüdür.

Şuşa Bəyannaməsi 30 illik Azərbaycan-Türkiyə münasibətlərinin siyasi-hərbi zirvəsi oldu, eyni zamanda gələcəkdə daha da inteqrasiya olunacaq əlaqələrimizin də çıxış nöqtəsi rolunu oynayır. Bu həm də ulu öndər Heydər Əliyevin "Bir millət – iki dövlət" düsturunun əməli müstəvidə açılışı oldu. Yəni, Azərbaycan-Türkiyə birliyinin strategiyası kimi real zamanda, real coğrafiyada, bəlli hərbi-siyasi şəraitdə özünü təsdiq etdi. Bölgədə söz və nüfuz dairəsi yaratmağa və təcavüzkar Ermənistanı dəstəkləyib ölkəmizin azadlıq müharibəsinin tarixi zəfərini heçə endirməyə çalışan digər gücləri də bu Birliyin qüdrəti ilə hesablaşmağa məcbur etdi. Akademik İsa Həbibbəylinin dünyada bənzəri olmayan bu qardaşlığa verdiyi qiymət diqqətçəkicidir: "Azərbaycan-Türkiyə birliyi və həmrəyliyi dünyada sülhün, təhlükəsizliyin, inkişafın və əməkdaşlığın eyni gövdəyə-kökə malik sarsılmaz qoca qanadlarıdır" [13].

Hazırda Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş qardaşlıq münasibətləri özünün ən yüksək mərhələsindədir. Bu isə prezident İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğanın müdrik və uzaqgörən siyasətlərinin birbaşa nəticəsidir. İlk növbədə qeyd etməliyik ki, ölkələrimizin bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələri hər keçən gün daha da inkişaf etməkdədir. Nəticə olaraq qeyd edilməlidir ki, ulu öndər Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" tarixi düsturu zamanın çətin sınaqlarından keçərək öz doğruluğunu, həyatiliyini, zəruriliyini, gərəkliliyini, hər keçən gün daha da perspektivliliyini nümayiş etdirməklə etnik kökləri, dili və mənəviyyatı, adət-ənənələri bir olan xalqlarımızın birliyinin və birlikdə inkişaf və tərəqqisinin təməl daşıdır. Ulu öndərin hər zaman vurğuladığı kimi, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı sarsılmazdır, əbədidir və xalqlarımızın qarşılıqlı inkişaf və tərəqqisinin hərəkətverici qüvvəsidir. Prezident İlham Əliyevin Vətən müharibəsinin ilk həftəsində, oktyabrın 5-də Türkiyənin TRT kanalına müsahibəsində vurğuladığı kimi ulu öndər Heydər Əliyevin "Bir millət – iki dövlət" kəlamı indi bütün Türkiyə və Azərbaycan üçün bir işıq yoludur. Qeyd edilməlidir ki, bu "işıq yolu" eyni zamanda bütün Türk dövlətlərinin gələcək həmrəylik və birlik yoludur.

## ƏDƏBİYYAT


1. “Azərbaycan” qəz., 2009, 4 oktyabr.
2. “Azərbaycan” qəz., 2020, 6 oktyabr.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I kitab, Bakı: Azərnəşr, 2017.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. II kitab, Bakı: Azərnəşr, 2017.
5. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. IX kitab, Bakı: Azərnəşr, 2000.
6. İlham Əliyev. İnkişaf Məqsədimizdir. XXXVIII kitab, Bakı: Azərnəşr, 2017.
7. Həbibbəyli İ. Heydər Əliyev yolu və Prezident İlham Əliyevin miqyası / Heydər Əliyevin siyasi irsi və Azərbaycançılıq. I kitab, Bakı, 2018.
8. Qayıdış. 1990-1993. Bakı: Azərbaycan, 1996, s. 129.
9. “Şərq qapısı” qəz., 23 may, 1992.
10. Mahmudlu Y. Seçilmiş əsərləri. XIV c., Bakı: Turxan, 2018.
11. Sarıkaya Y. İkinci Qarabağ müharibəsinin Türkiyə xarici siyasəti baxımından təhlili.Vətən müharibəsinin tarixi. Şəxsiyyət faktoru. Bakı: Şərq-Qərb, 2021.
12. 44 gün. An-baan... Rəsmi xronika. II nəşr, TEAS PRESS, 2021.
13. “525-ci qəzet”, 31 iyul, 2020.


***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***E-mail: emadatli@gmail.com***

**Eynulla Madatli**

## HEYDAR ALIYEV’S “ONE NATION – TWO STATES” FORMULA IS THE ROAD MAP OF THE AZERBAIJAN-TURKİYE UNION

With the return to power of the great leader Heydar Aliyev in Azerbaijan, a new phase began in Azerbaijan-Turkiye relations. The first and solid foundation stones of these mutual relations were laid in 1991-1993 when Heydar Aliyev became the Chairman of Nakhchivan Autonomous Republic Supreme Assembly. The official visit of President Heydar Aliyev to the Republic of Turkiye on 8-11 February 1994 laid the groundwork for the establishment and development of mutual relations between our countries in a completely new way and quality. Since then, Azerbaijan-Turkiye relations have been based on the “One nation, two states” formula expressed by the Great Leader. During his next official visit to the Republic of Turkiye on 5-8 May 1997, the Great Leader said the following in the speech he delivered at the “State Badge” presentation ceremony of the Republic of Turkiye: “I said these words and I repeat them today: we are one people, we are two states”.

After the death of the Great Leader, President Ilham Aliyev creatively continued Heydar Aliyev’s policy in relations with brotherly Turkey, as well as in every field, and transformed the “One nation, two states” formula into a strategy of mutual relations between our states and peoples. This formula proved its essence in all areas of cooperation.

The Republic of Turkiye gave the highest level, comprehensive and sincere political support to Azerbaijan in the Azerbaijani Patriotic War that started on September 27, 2020 and this behavior was appreciated not only by Azerbaijan but also by the entire Turkish nation. President Ilham Aliyev, in an interview with Turkiye’s TRT channel on October 5, during the first week of the Patriotic War, emphasized that the great leader Heydar Aliyev’s word “One nation, two states” is now a bright path for all of Turkiye and Azerbaijan. It should not be forgotten that this “path of light” is also the path of the future union of all Turkish states.

**Keywords:** *Heydar Aliyev, Azerbaijan, Turkiye, One nation – two states, Ilham Aliyev, Turkic world, unity, brotherhood.*

**Эйнулла Мадатли**

## ФОРМУЛА ГЕЙДАРА АЛИЕВА «ОДИН НАРОД – ДВА ГОСУДАРСТВА» – ДОРОЖНАЯ КАРТА АЗЕРБАЙДЖАНО-ТУРЕЦКОГО СОЮЗА

С возвращением к власти в Азербайджане великого лидера Гейдара Алиева начался новый этап азербайджано-турецких отношений. Первые и прочные камни фундамента этих взаимоотношений были заложены в 1991-1993 годах, когда Гейдар Алиев возглавил Нахчыванскую АР. Официальный визит Президента Гейдара Алиева в Турецкую Республику 8-11 февраля 1994 года заложил основу для установления и развития взаимоотношений между нашими странами совершенно в новом русле и в новом качестве. С этого времени азербайджано-турецкие отношения основывались на формуле «Одна нация – два государства», выраженной Великим Лидером. Во время очередного официального визита великого лидера в Турецкую Республику 5-8 мая 1997 года он, выступая на церемонии вручения ему «Государственного Знака» Турецкой Республики, сказал: «Я сказал эти слова, и я повторяю их сегодня снова: мы один народ, два государства».

После кончины великого лидера Президент Ильхам Алиев творчески продолжил политику Гейдара Алиева в отношениях с братской Турцией, как и во всех областях, и превратил формулу «Одна нация – два государства» в стратегию взаимоотношений между нашими государствами и народами.

В Отечественной войне Азербайджана, начавшейся 27 сентября 2020 года, Турецкая Республика оказала Азербайджану всестороннюю и искреннюю политическую поддержку на самом высоком уровне, и такое поведение было оценено не только Азербайджаном, но и всем турецким народом. В первую неделю Отечественной войны, 5 октября, Президент Ильхам Алиев в интервью турецкому телеканалу ТРТ подчеркнул, что изречение великого лидера Гейдара Алиева «Один народ – два государства» теперь является путем света для всей Турции и Азербайджана Следует отметить, что этот «путь света» является и путем будущего единства всех турецких государств.

**Ключевые слова:** *Гейдар Алиев, Азербайджан, Турция, Одна нация – два государства, Ильхам Алиев, тюркский мир, единство и братство.*

**ƏBÜLFƏZ QULİYEV**

## ÜMUMMİLLİ LİDER VƏ QORQUDŞÜNASLIQ

*Ümummilli lider Heydər Əliyev xalqımızın milli varlığının mötəbər qaynağı olan "Kitabi-Dədə Qorqud" dastanına yüksək qiymət vermiş, onun 1300 illik yubileyinin YUNESKO səviyyəsində qeyd edilməsini təşkil etmiş, bu abidənin müstəqillik qazanmış Azərbaycan dövlətinin dünyada tanıdılmasında mühüm bir vasitə olduğunu dönə-dönə qeyd etmişdir.*

**Açar sözlər:** *Heydər Əliyev, Dədə Qorqud, folklor, milli mənəviyyat, dil, ədəbiyyat, tarix.*

Bildiyimiz kimi, XX əsrin əllinci illərində keçmiş Sovetlər İttifaqında milli-mənəvi dəyərlərə xor baxılırdı, bir sıra milli əsərlərimizin, xüsusilə köklərimizdən, uzaq keçmişlərdən süzülüb gələn "Kitabi-Dədə Qorqud" dastanının Azərbaycanda öyrənilməsinə yasaq qoyulmuşdu. Ulu öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi ilə respublikada bu yasaqlar yavaş-yavaş aradan qaldırıldı, milli-mənəvi dəyərlərin qorunub inkişaf etdirilməsinə dövlət səviyyəsində ciddi və münbit zəmin formalaşdırılmağa başlandı. Ümummilli liderin xalqımızın tarixi keçmişinə, klassik ədəbi qaynaqlarına, ana dilinə, milli-mənəvi sərvətlərinə həssas və qayğıkeş münasibəti bu sahənin öyrənilməsi, qorunub yaşadılması işinə güclü təkan verdi. Sözügedən illərdən başlayaraq gənclik arasında, geniş ictimaiyyət arasında milli ruhun güclənməsi, azərbaycançılıq ideyalarının qüvvətlənməsi nəzərəçarpacaq bir canlanma yaratdı. Tarixi-mənəvi dəyərlərə, o cümlədən folklor qaynaqlarına göstərilən qayğı və diqqət Azərbaycan miqyasında özünəqayıdış proseslərini sürətləndirdi.

O illərdə respublika rəhbəri tərəfindən "Xalqın istedadı, onun yaradıcılıq dühası "Kitabi-Dədə Qorqud", "Koroğlu" və başqa epik əsərlərdə bütün dolğunluğu ilə təcəssüm tapmışdır" – fikrinin söylənilməsi heç də təsadüfi deyildi. "Həmin dövrdən etibarən elmi idarə və tədris müəssisələrində türk mifologiyası və qədim türk epos mədəniyyəti, xüsusən də "Kitabi-Dədə Qorqud"la bağlı elmi müzakirələr keçirilməyə başlandı, problematik məqalələrdən ibarət toplular nəşr edildi, eposun elmi-tənqidi mətninin hazırlanması ilə əlaqədar vacib elmi-nəzəri işlər görüldü. Dədə Qorqudla bağlı sistemli araşdırmalar ortaya çıxdı. Qorqudşünaslığın ən nüfuzlu elmi toplantıları təkcə keçmiş Sovetlər İttifaqı miqyasında deyil, beynəlxalq səviyyədə də Azərbaycanda mərkəzləşdi. Yazıçılar, rəssamlar, heykəltəraşlar, kinematoqrafçılar "Dədə Qorqud" mövzu və motivlərinə üz tutdular. Ulu öndərin tövsiyəsi ilə xalq yazıçısı Anarın kinopovesti əsasında 1975-ci ildə iki seriyalı "Dədə Qorqud" filminin ekranlaşdırılması dastanın geniş xalq kütləsi içərisində təbliğini daha da gücləndirdi, bu sahədə ən böyük uğurlardan biri oldu. Azərbaycan hüdudlarından çox-çox uzaqlarda da böyük şöhrət tapan bu gözəl kino əsəri Qorqud obrazının və eposdakı vətənpərvərlik, qəhrəmanlıq, bahadırlıq ideyalarının təbliğində xüsusilə böyük rol oynadı"[8, s. 75]. Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycan dövlətçiliyi bu möhtəşəm milli-mənəvi dəyəri – "Kitabi-Dədə Qorqud" abidəsini diqqət mərkəzinə gətirdi. Bu mənada 1996-cı ildə Xəzər dənizində müstəqil Azərbaycanın ilk nəhəng üzən qazma qurğusunun "Dədə Qorqud" adıyla fəaliyyətə başlaması da çox təbii göründü. Nəhəng qurğunun açılışında iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev öz çıxışında "Dədə Qorqud" adının tarixi simvolikasında yer alan müdriklik və uzaqgörənlik anlamlarını xüsusi vurğuladı. Ən nəhayət, bütün bunların məntiqi nəticəsi kimi 1997-ci ildə ölkə başçısı "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyinin qeyd olunması barədə tarixi fərman imzaladı. Akademik İsmayıl Hacıyevin qeyd etdiyi kimi, bu fərman respublika prezidentinin böyük müdrikliyinin bir təzahürü və milli mədəniyyətimizin inkişafında misilsiz qayğısının parlaq nümunəsidir [9, s. 65].

Bunun ardınca 1999-cu il fevralın 21-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" sərəncam imzalanmışdır. Heydər Əliyevin sədrliyi ilə Dövlət Komissiyasının 1999-cu il 16 fevral, 2000-ci il 11 mart, 2000-ci il 9 aprel və 2000-ci il 14 aprel tarixli iclasları keçirilmişdir. Bu iclaslarda o, giriş sözü söyləmiş və yekun nitqi ilə çıxış etmişdir.

"Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyinin UNESCO tərəfindən dünya miqyasında keçirilməsi təşəbbüsünü də Azərbaycan Respublikası adından Prezident Heydər Əliyev qaldırdı

və az sonra UNESCO yubileylə bağlı təklifi qəbul etdi. Dədə Qorqud yubiley Komissiyasının sədri Heydər Əliyevin rəhbərliyi ilə 1300 illik yubileyin yüksək səviyyədə keçirilməsi üçün mütəmadi şəkildə sistemli və ardıcıl iş aparıldı. Geniş miqyaslı hazırlıq işlərinin gedişatına xüsusi diqqət və həssaslıqla yanaşan Heydər Əliyev bir neçə dəfə mütəxəssislər və uyğun sahə rəhbərlərinin də iştirakı ilə Yubiley Komissiyasının işgüzar iclasını çağıraraq, yubileyin yüksək səviyyədə təşkili üçün lazımi tövsiyə və tapşırıqlar verdi.

"2000-ci ildə keçirilən "Dədə Qorqud-1300" təntənəli yubileyi Heydər Əliyevin siyasi öndərliyi ilə Azərbaycanın beynəlxalq miqyasda gerçəkləşdirdiyi uğurlu elmi-mədəni tədbirlər silsiləsində öz ləyaqətli yerini aldı. Bu təntənəli yubiley münasibəti ilə "Kitabi-Dədə Qorqud" eposunun təkmilləşdirilmiş elmi-tənqidi mətni və müxtəlif dillərə (rus, ingilis, alman, gürcü, eston, litva, qazax, yapon və s.) tərcümələri, bu ölməz folklor abidəsi haqqında Azərbaycan və xarici ölkə alimlərinin hazırladıqları tədqiqat əsərləri, Dədə Qorqud mövzusuna həsr olunmuş rəsm, xalça və heykəltəraşlıq işləri, teatr, kino və musiqi əsərləri ictimaiyyətə çatdırıldı. Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif institutlarında, universitetlərdə, tədris müəssisələrində, elmi-mədəni mərkəzlərdə "Kitabi-Dədə Qorqud" dastanının tədqiq və təbliği məqsədi ilə keçirilən konfrans və simpoziumlar eposun geniş miqyasda tanıdılmasında mühüm rol oynadı. Elmi istiqamətdə zirvə toplantısı olan "Dədə Qorqud-1300" Beynəlxalq Elmi Simpoziumu da öz missiyasını uğurla yerinə yetirdi. Bir neçə ali təhsil müəssisəsində "Qorqudşünaslıq" elmi laboratoriyaları yaradıldı. "Dədə Qorqud" elmi jurnalı fəaliyyətə başladı. Ulu öndərin xeyir-duası, ön sözü ilə açılan iki cilddən ibarət "Kitabi-Dədə Qorqud ensiklopediyası" yubileyə və bütövlükdə qorqudşünaslığa böyük töhfə oldu" [8, s. 79].

Yeri gəlmişkən Dədə Qorqud dünyasına Heydər Əliyev sevgisinin bir digər faktını da yada salmaq yerinə düşər. Ulu öndər elə həmin dövrlərdə dövlət səviyyəsində Almaniyadan abidənin Drezden nüsxəsinin surətini Azərbaycana gətirdilməsinə nail olmuşdu. Xalqımızın mədəni irsinə ehtiram göstərən bu böyük öndər akademiyanın Füzuli adına Əlyazmalar İnstitutuna gələrək həmin qədim abidənin fotosurətini təntənəli şəkildə təqdim etmişdir.

Ümummilli liderin Dədə Qorqud komissiyalarındakı dərin məzmunlu nitqləri, izahatları, şərhləri təkcə qorqudşünaslığın deyil, ümumiyyətlə, milli mədəniyyətimizin proqram sənədi mahiyyətini daşıyır. Həm də bu fikir və mülahizələr Azərbaycan mədəniyyət və mənəviyyatına kompleks yanaşma nümunəsidir. Bütün məqam və nüanslarında kifayət qədər dərin və mükəmməl akademizm mövcud olduğu bu konseptual yanaşmada eposun həm ideoloq siyasətçi, həm tarixçi, həm dilçi, həm filosof, həm də folklorşünas-etnoqraf kimi professional elmi qiyməti verilmişdir. Məhz Heydər Əliyev kimi mütəfəkkir şəxsiyyət belə bir tarixi dəyərləndirmə verə bilmək qüdrətinə sahib idi [7, s. 5].

Ümummilli lider komissiyanın iclaslarından birindəki çıxışında üzvləri Dədə Qorqud fenomeninə istiqamətləndirmək üçün onlara Dədə Qorqudun Qafqaz, Orta Asiya və Anadoludakı məzarları haqqında sualla müraciət edir. Cavab ala bilmədikdə gələn iclasa qədər bu məsələni dərindən öyrənməyi tapşırır. Heydər Əliyev digər bir çıxışında isə birinci hakimiyyəti dövründə mədəniyyətin inkişafı ilə əlaqədar gördüyü işləri xatırlayır, tarixə ekskurs edir, bir növ, xalq qarşısında bu sahədə gördüyü işlər haqqında hesabat verir. Müstəqillik dövrü ilə müqayisədə xüsusilə Dədə Qorqud mövzusu ilə bağlı o illərdə görülmüş işləri kifayət hesab etmir. Həqiqətən də İmadəddin Nəsiminin, Aşıq Ələsgərin yubileyləri o dövrdə çox böyük təntənə ilə qeyd edilmişdi. Amma "Kitabi-Dədə Qorqud" dastanları ortaya çıxarıla bilməmişdi. Bunun səbəbləri ulu öndəri dərindən düşündürmüş, ona görə də öz qənaətlərini komissiya üzvləri ilə bölüşmüşdü.

Heydər Əliyev qeyd edirdi ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli, ən parlaq abidəsidir: "O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Bunlar bizim hamımız üçün, xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətlidir. Məlumdur ki, XX əsrdə Azərbaycan xalqı bir çox tarixi hadisələri yubileylərlə, yaxud başqa tədbirlərlə qeyd edibdir. Ancaq bu gün təəssüflə deyə bilərik ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycanın həyatında özünəməxsus yeri indiyə qədər tutmayıbdır. Bunun da səbəbləri məlumdur. Çıxışlarda bu barədə deyildi. Biz ötən dövrdə tariximizi özümüz istədiyimiz kimi yaza bilməmişik. Tariximizin, o cümlədən ədəbiyyat, mədəniyyət tariximizin həmişə

ideologiya təsiri altında qalması, bu barədə bizim sərbəst olmamağımız vaxtilə belə böyük itkilərə gətirib çıxarmışdı. Buna təəssüf etmək olar. Bununla yanaşı, bu gün məmnuniyyətlə qeyd etmək lazımdır ki, Azərbaycanın vətənpərvər alimləri, tədqiqatçıları, yazıçıları, şairləri "Kitabi-Dədə Qorqud" dastanı haqqında öz imkanları dairəsində əsərlər yaratmışlar və "Kitabi-Dədə Qorqud"un tədqiqatı aparılmışdır. Ancaq buna dövlət himayəsi istənilən səviyyədə olmamışdır. Məsələn, 1970-ci illərdə, 1980-ci illərin əvvəlində mən Azərbaycana rəhbərlik etdiyim zaman biz respublikamızın tarixi, keçmişi, ədəbiyyatı, mədəniyyəti haqqında çoxlu tədbirlər həyata keçirdik. Amma mən bu gün açıq deməliyəm ki, "Kitabi-Dədə Qorqud" haqqında heç bir təşəbbüs irəli sürülməmişdir. Mən bu gün bunu qətiyyətlə deyirəm. Əgər belə bir təşəbbüs irəli sürülsəydi, biz bunu müəyyən çərçivədə həyata keçirə bilərdik. Mənim işlədiyim həmin illərdə milli mədəniyyətimizə, tariximizə aid olan bir çox tədbirlərin həyata keçirilməsinə Moskvanın müqavimətini, hətta qadağsını hiss etmişdik. Lakin bununla yanaşı, bizim cəhdlərimiz, təkidlərimiz nəticəsində biz o vaxt bir çox tədbirlərin keçirilməsinə nail olmuşduq. Mən bu gün, bu müzakirə zamanı düşünürəm, – bəs nə üçün "Kitabi-Dədə Qorqud" haqqında heç bir təşəbbüs olmamışdı? Eyni zamanda, özüm belə bir cavab verə bilərəm: yəqin ona görə ki, ümumiyyətlə, bizim Azərbaycanın üzərinə pantürkizm damğası vurulduğuna, Azərbaycanda çox dəyərli insanlar pantürkist adı ilə həbs olunduğuna, repressiyaya məruz qaldığına, əsərlər, kitablar dağıdıldığına görə, alimlərimiz, ictimai xadimlərimiz "Kitabi-Dədə Qorqud" haqqında təşəbbüs qaldırmağa bəlkə də cəsarət etməyiblər. Mən bunu belə izah edə bilərəm" [1].

Ulu öndərin "milli varlığımızın mötəbər qaynağı" adlandırdığı "Kitabi-Dədə Qorqud" eposuna böyük ehtiram və məhəbbətlə yanaşması təbii bir qanunauyğunluq idi. Çünki bu möhtəşəm folklor abidəsində öz inikasını tapmış milli-mənəvi dəyərlər müstəqil Azərbaycan dövlətçiliyi baxımından bütün zamanlar üçün böyük siyasi-ideoloji əhəmiyyətə malikdir. Məhz dövlətçilik düşüncəsi kontekstində Heydər Əliyev "Kitabi-Dədə Qorqud"un bir qəhrəmanlıq eposu olaraq əsas mahiyyətində duran alp-ərənlik, cəngavərlik motivini yeni, özünəməxsus şəkildə şərh edib mənalandırdı: "Kitabi-Dədə Qorqud" bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir. Ölkəmizin yaşadığı bugünkü mərhələdə xalqımızın qarşısında duran ən ümdə problemlərin həlli, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə dərəcədə vacib olduğu gün kimi aydındır" [7, s. 6].

Göründüyü kimi, "Kitabi-Dədə Qorqud" eposunda qəhrəmanlığın bir ideoloji sistem olması müstəqil Azərbaycan dövlətçiliyini, onun ərazi bütövlüyünü qorumaq uğrunda Azərbaycan xalqı, ölkəmizin hər bir vətəndaşı qarşısında duran çağdaş vəzifələrlə üzvi şəkildə əlaqələndirilir, həmin kontekst fonunda tarix və müasirliyin vəhdəti yaradılır. "Dədə Qorqud"u "xalqın ana kitabı" adlandıran Heydər Əliyev, Dədə Qorqud öyüdlərinin didaktik-nəsihətamiz səciyyəsinin bu günümüzlə yaxından səsləşdiyinə xüsusi diqqət yetirirdi. Bu səbəbdən də, onun müdrik qənaətinə görə, xalqımıza məxsus milli-mental keyfiyyətlərin formalaşması və qorunub nəsillərdən-nəsillərə ötürülməsində "Kitabi-Dədə Qorqud" boylarında öz əksini tapmış ailə dəyərləri, tayfadaxili davranış normaları münbit tarixi zəmin olduğundan, soykökümüzün həmin keyfiyyətlərinə milli varlığımızın ayrılmaz tərkib hissəsi kimi qiymət verilməsi olduqca vacib və zəruridir: "Kitabi-Dədə Qorqud" həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir. Böyüyə hörmət, ata-anaya məhəbbət, iman və etiqad, namus və qeyrət, ailəyə, torpağa, vətəninə sədaqət – bu insani keyfiyyətlər, mənəvi məziyyətlər Qorqud övladlarının qanına ana südü ilə, ata nəfəsi ilə birlikdə daxil olur və son mənzilə qədər də onlarla birlikdə gedir. Dədə Qorqud dünyasındakı milli dəyərlər, stereotiplər, rituallar sistemi əslində hər bir azərbaycanlının mentalitetində milli və ümumbəşəri dəyərlərin yerinin müəyyənləşdirilməsi də Dədə Qorqudun etik prinsiplərindən çıxış etməklə gerçəkləşir" [7, s. 6].

Bu dastan ulu öndər üçün türk dünyasının birliyi baxımından da böyük önəm ifadə edirdi. Belə ki, ulu öndər 1995-ci ildə "Manas" dastanının 1000 illik yubileyi tədbirində iştirak etmək üçün Qırğızıstanın paytaxtı Bişkek şəhərinə səfər etmişdi. Bu tədbirə bütün türk xalqlarının dövlət başçıları

toplaşmışdı, Bu, türk dünyasının mənəvi körpülərinin inkişafı baxımdan çox əhəmiyyətli idi. Dədə Qorqud komissiyasının iclaslarının birində yenidən ümummilli lider "Manas" dastanı və Bişkek səfəri üzərinə qayıtmış, dastanın türk dünyası üçün əhəmiyyətini, türk xalqları üçün əhəmiyyətini diqqət mərkəzinə gətirərək demişdir: "Bunun əhəmiyyəti bir də ondan ibarətdir ki, biz artıq böyük türk dünyası, türk xalqları, türkdilli xalqların ümumi kökləri, müştərək mədəniyyəti, tarixi haqqında danışırıq. Bunları böyük tarixi şəxsiyyətlərin yaradıcılığı əsasında edirik. Məsələn, biz qırğız eposu "Manas"ın 1000 illik yubileyini birlikdə qeyd etdik, keçirdik. Bu, böyük bir hadisə oldu. Biz hamımız – türkdilli ölkələrin dövlət başçıları oraya toplaşdıq. Hamımız birlikdə sübut etdik ki, bəli, bizim xalqlarımızın qədim kökü və bu xalqların müştərək tarixi, mədəniyyəti vardır. "Dədə Qorqud" dastanının yubileyi bu baxımdan böyük siyasi əhəmiyyət daşıyır. "Dədə Qorqud" dastanı da həm Azərbaycanın, həm də bütün türkdilli dövlətlərindir. Amma bu, hamının olmaqla bərabər, xüsusən Azərbaycanındır, Azərbaycana məxsusdur. Bu da türk aləmində Azərbaycanın nə qədər görkəmli yer tutduğunu göstərir. Yəni "Dədə Qorqud" dastanı bizi bu gün, eyni zamanda, birləşdirir, bir-birimizə yaxınlaşdırır. Birləşməyə də ehtiyac vardır".

Ümummilli lider göstərirdi ki, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi məhz bu baxımdan böyük siyasi əhəmiyyət daşıyır. Ulu öndər Heydər Əliyev 1999-cu ildə bu möhtəşəm dastanın 1300 illik yubiley komissiyasının iclasındakı yekun nitqində təkidlə qeyd edirdi: "Əgər nəzərə alsaq ki, bizə düşmən olan erməni millətçiləri daim təbliğ edirlər ki, "bunlar köçəri xalqdır, onların keçmişi olmayıbdır", əgər xalqımızın keçmişinə dair mənfi təbliğatı nəzərə alsaq, bu tədbirlərimizin nə qədər əhəmiyyəti olduğunu görərik. Azərbaycanın tarixində indiyədək keçirilmiş bütün yubiley mərasimlərindən "Kitabi-Dədə Qorqud" dastanının yubileyi hamısından əhəmiyyətlidir. Bu, bizim tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın qədimliyini, eyni zamanda tarixi köklərimizin 1300 il bundan əvvəlki dövründə xalqımızın böyük bir eposu olduğunu göstərir" [1].

"Kitabi-Dədə Qorqud" bu gün bizə çox gərəklidir. "Kitabi-Dədə Qorqud" insanları, xalqları sülhə, barışa dəvət edir. Bütün bunları dəqiqliklə bilən, milli və bəşəri mənəvi mirasa son dərəcə böyük saygı ilə yanaşan Heydər Əliyev xalqımız üçün milli-mənəvi abidələrin dəyərini dəqiq müəyyənləşdirir və onların təbliği və tanıdılması işində ən müdrik təşəbbüskar kimi şəxsən özü çıxış edir: "Bu gün Azərbaycan xalqı möhtəşəm "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. "Kitabi-Dədə Qorqud" 1300 ildir ki, yaşayır. Əgər 1300 ildən də öncə "Kitabi-Dədə Qorqud" dastanlarının yaranması üçün xalqlarımızın nə qədər çalışdığını və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqlarımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti var. 1300 il ərzində "Kitabi-Dədə Qorqud" bütün çətinliklərə, məhdudiyyətlərə baxmayaraq, bizim xalqlarımıza mənəvi qida olmuş, onların yaşamasına, mübarizə aparmasına, öz milli mənliyini dərk edib, hifz etməsinə daim yardım göstərmişdir. Ancaq onu qeyd etmək lazımdır ki, biz "Kitabi-Dədə Qorqud"un 1300 illik tarixinə yüksək qiymət verərək etiraf etməliyik ki, son üç il ərzində Azərbaycanda "Kitabi-Dədə Qorqud" irsinin öyrənilməsi, tədqiq edilməsi, təbliğ olunması sahəsində böyük işlər görülmüş və bunlar "Kitabi-Dədə Qorqud"u bizim xalqımıza, bütün türk dünyasına, türkdilli xalqlara tanıtmış və onun nə qədər zəngin sərvət olduğunu bütün dünyaya nümayiş etdirmişdir".

Heydər Əliyevin Dədə Qorqud sevgisi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilmiş, o da Dədə Qorqud dünyasına öz töhfələrini vermişdir. Belə ki, ölkə prezidentinin 2007-ci ildə verdiyi sərəncamla Bakının Nərimanov rayonunda Dədə Qorqud abidəsi ucaldılmışdır. Onu da qeyd edək ki, ümummilli lider Heydər Əliyevin hələ 2000-ci ildə imzaladığı Fərmana əsasən, Bakıda Dədə Qorqud heykəlinin ucaldılması və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması qərara alınmışdı. Bu tarixi abidənin qorunmasına dövlət səviyyəsində göstərilən diqqətin nəticəsidir ki, Prezident İlham Əliyev 2004-cü ildə Brüsseldə "Dədə Qorqud" abidəsinin təntənəli açılışında iştirak edib nitq söyləmişdir. Dövlət başçısının 2007-ci ildə imzaladığı "Azərbaycandakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında" Sərəncama əsasən, "Dədə Qorqud" heykəli və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi haqqında tapşırıq verilib. Geniş tikinti və abadlıq işləri

nəticəsində Bakının Nərimanov rayonunda 6 hektar ərazidə Dədə Qorqud parkı salınmış, parkın mərkəzində "Kitabi-Dədə Qorqud" abidəsi ucaldılmışdır.

2013-cü ildə parkın açılışı olmuş, Prezident İlham Əliyev buradakı çıxışında bu abidənin ucaldılmasını böyük hadisə hesab edərək demişdir: "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan toponimləri əks olunmuşdur. Bir sözlə, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür".

Bundan əlavə, 2013-cü ildə ölkə prezidenti "Dədə Qorqud" çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında sərəncam imzalamışdır.2015-ci ildə dastanın Drezden nüsxəsinin 200 illiyi də təntənəli şəkildə qeyd edilmişdir.

Ölkə Prezidentinin "Kitabi-Dədə Qorqud" dastanlarının Drezden nüsxəsinin Fridrix fon Dits tərəfindən aşkar edilib bir boyunun alman dilinə tərcümə olunmasının 200 illiyinin qeyd olunması haqqında imzaladığı sərəncam böyük siyasi və ictimai əhəmiyyətə malikdir. Onu da qeyd edək ki, sərəncam "Kitabi-Dədə Qorqud" dastanlarının iki yüz illiyinin deyil, qorqudşünaslığın iki yüz illiyinin qeyd olunmasını nəzərdə tutur. Çünki bu dastan bizim kökə qayıdışımız, gənclər arasında vətənpərvərlik hisslərinin aşılanması, milli müstəqilliyimizin, dövlətçiliyimizin möhkəmləndirilməsi, beynəlxalq aləmdə tanınmağımız, türk dünyası birliyinin üfüqlərinin genişləndirilməsi, milli varlığımızın mötəbər qaynağı mənasını ifadə edir.

Ölkə başçısının Dədə Qorquda bəslədiyi dərin ehtiramın kökündə onun milli-mənəvi dəyərlərimizə olan böyük məhəbbəti dayanır.

Beləliklə, bu kiçik qeydlər göstərir ki, ümummilli liderin möhtəşəm "Kitabi-Dədə Qorqud" dastanlarının öyrənilməsi haqqında elmi görüş və mülahizələri gələcəkdə həyata keçirilməli olan ayrıca və mükəmməl bir elmi-tədqiqat işinin mövzusudur.

## ƏDƏBİYYAT


1. Heydər Əliyevin KDQ-1300 illik yubileyi üzrə dövlət komissiyasının iclasında giriş sözü (16.02.1999)-www.lib.aliyevheritage.org.az
2. Heydər Əliyevin KDQ-1300 dövlət komissiyasının iclasında giriş sözü və yekun nitqi (11.03.2000)-www.lib.aliyevheritage.org.az
3. Heydər Əliyevin KDQ-1300 yubiley mərasimində nitqi (09.04.2000)-www.lib.aliyevheritage.org.az
4. Heydər Əliyevin KDQ-1300 yubileyi münasibətilə Gülüstan sarayında rəsmi qəbulda nitqi (9.04.2000)-www.lib.aliyevheritage.org.az
5. Heydər Əliyevin KDQ-1300 yubileyi münasibətilə Dövlət Komissiyasının yekun iclasında nitqi (14.04.2000)-www.lib.aliyevheritage.org.az
6. "Kitabi-Dədə Qorqud" ensiklopediyası: 2 cilddə. I c., Bakı, 1999.
7. Qasımlı M. Heydər Əliyev və Azərbaycan folkloru // Ozan dünyası, 2010, № 2, s. 3-19.
8. Qasımlı M. Heydər Əliyev və folklor // Heydər Əliyev və Azərbaycan mədəniyyəti. Bakı: Şərq-Qərb, 2009, 400 s.
9. Hacıyev İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003, 164 s.


***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ebulfezamanoglu@yahoo.com***

**Abulfaz Guliyev**

## DADA GORGUD STUDIES AND THE NATIONAL LEADER HEYDAR ALIYEV

The national leader Heydar Aliyev highly appreciated the dastan of Dada Gorgud, which is a worthy source of the national essence of our people. He organized the holding of its 1300th anniversary at the level of UNESCO and often noted that the dastan is the main valuable source for the world recognition of the independent Azerbaijan state.

**Keywords:** *Heydar Aliyev, Dada Gorgud, folklore, national status, language, literature, history.*

**Абульфаз Гулиев**

## ГОРГУДОВЕДЕНИЕ И ВЕЛИКИЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ

Общенациональный лидер Гейдар Алиев высоко ценил дастан Деде Горгуда, являющийся достойным источником национальной сути нашего народа. Он организовал проведение его 1300-летнего юбилея на уровне ЮНЕСКО и часто отмечал, что дастан является основным ценным источником для мирового признания независимого Азербайджанского государства.

**Ключевые слова:** *Гейдар Алиев, Деде Горгуд, фольклор, национальное состояние, язык, литература, история.*

**VƏLİ BAXŞƏLİYEV**

# HEYDƏR ƏLİYEVİN MİLLİ İRSİMİZİN TƏDQİQİNƏ QAYĞISI

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizin sosial-iqtisadi inkişafına, o cümlədən tarix və mədəniyyət abidələrimizin tədqiqinə və nəşrinə olduqca böyük əhəmiyyət verərək bu məsələni həmişə diqqət mərkəzində saxlamışdır. Heydər Əliyevin qayğısı, həmçinin onun işinin müvəffəqiyyətlə davam etdirilməsi sayəsində Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələri qeydə alınaraq pasportlaşdırılmışdır. Naxçıvanda yerləşən arxeoloji abidələrin tədqiqi bu regionun qədim dövrlərdən Azərbaycanda baş verən etnik-mədəni proseslərin tərkib hissəsi və Azərbaycanın ayrılmaz bir parçası olduğunu təsdiq etmişdir.*

**Açar sözlər:** *Azərbaycan, Heydər Əliyev, Naxçıvan, arxeoloji abidə, mədəniyyət.*

Azərbaycan Respublikası öz müstəqilliyinə qovuşması ölkəmizin sosial-iqtisadi həyatının bütün sahələrində islahatların aparılmasını zəruri etmişdi. Xalqımızın ümummilli lideri Heydər Əliyev 1993-cü ildə Respublika Prezidenti seçildikdən sonra bu islahatları ardıcıl şəkildə həyata keçirməyə, ölkəmizin beynəlxalq mövqeyini qorumağa, daxili vəziyyətini stabilləşdirməyə yönəldilmiş tədbirlər görməyə başladı. Bu sahədə görülən mühüm işlərdən biri də qanunvericilik aktlarının yaradılması idi. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilən Konstitusiyası çoxsaylı qanunların yaranması üçün təməl oldu. Respublikamızın Konstitusiyasına görə tarix və mədəniyyət abidələrinin qorunması hər bir ölkə vətəndaşının mühüm vəzifəsi oldu.

Tarix və mədəniyyət abidələrinin qorunmasının bütün ölkə vətəndaşlarının əsas vəzifələrindən biri kimi Konstitusiyamızda təsbit edilməsinə baxmayaraq bu sahədə mövcud olan boşluqlar mədəni irsimizin qorunmasını və öyrənilməsini çətinləşdirirdi. Bir çox xarici ölkə vətəndaşları izn almadan ölkəmizin tarix və mədəniyyət abidələrinin fotoşəkillərini çəkir, bir çox hallarda isə onları yanlış şərh edirdilər. Tarix və mədəniyyət abidələrinin məhv edilməsi, tariximizin yaddaşdan silinməsi, eksponatların xaricə daşınması kimi təhlükəli bir proses də başlamışdı. Bəziləri ölkəmizin ağır iqtisadi vəziyyətindən və vətəndaşlarımızın ehtiyacından istifadə edərək onların qiymətli xalçalarını, qızıl, gümüş və mis əşyalarını dəyər-dəyməzinə əllərindən alırdılar. Burda istər-istəməz görkəmli yazıçımız Mir Cəlalın öz qəhrəmanının dili ilə dediyi "itə ataram, yada satmaram" ifadəsi yada düşür. Bəli, Azərbaycan xalqı respublikamızın bu ağır günlərində öz mədəni irsini itirmək təhlükəsi ilə üz-üzə durmuşdu. Bu ağır vəziyyətdə xalqımızın ümummilli lideri Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə yaradılan qanunlar və onun mədəni irsin qorunmasına münasibəti bu arzuolunmaz proseslərin qarşısını aldı. 1990-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Gülüstan tarix mədəniyyət qoruğu yaradıldı. 1997-ci ilin yazında Azərbaycan Avropa Mədəniyyət Konvensiyasına qoşuldu. Həmin ildə "Mədəniyyət haqqında" qanun verildi. 1998-ci il aprel ayının 10-da "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olundu. Bu qanunla abidələrimizin qorunması dövlət təminatı altına alındı, onların tədqiqi, qeydə alınması, xaricə aparılması və xaricdən gətirilməsinin qanunla tənzimlənən normaları müəyyənləşdirildi. 1998-ci il iyun ayının 13-də "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı verildi. Prezidentin fərmanında abidələrin qorunması, elmi tədqiqi, bərpası, regenerasiyası, rekonstruksiyası və konservasiyasında beynəlxalq təşkilatların iştirak etmə qaydası, xüsusi mülkiyyətdə olan abidələrin xaricə aparılmasına icazə verilməsi qaydası və digər mühüm məsələlər öz əksini tapmışdır.

Azərbaycan Respublikasının məqsədyönlü siyasəti nəticəsində 2002-ci ildə Azərbaycan Abidələrin Bərpası, Konservasiyası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunmuşdu. Azərbaycanın dövlət əhəmiyyətli abidələri Şirvanşahlar saray kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına salındı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin öz çıxışlarında, alimlərimiz və mədəniyyət xadimlərimizlə görüşlərində tarix və mədəniyyət abidələrinin qorunmasının vacibliyini, Azərbaycan xalqının tarixinin milli konsepsiya baxımından öyrənilməsini həmişə vurğulamış, bu barədə öz tövsiyələrini vermişdir.

Azərbaycanın ən qədim regionlarından biri olan Naxçıvanda da tarix və mədəniyyət abidələrinin qorunması ilə bağlı xeyli işlər görülmüşdür. Xalqımızın ümummilli lideri Heydər Əliyevin qayğısı və tövsiyələri əsasında Əshabi-Kəhf ziyarətgahında təmir-bərpa işləri aparılmışdır. 2001-ci ildən başlayaraq Gəmiqaya rəsmlərinin elmi əsaslarla öyrənilməsinə başlanılmış, xeyli məqalə və kitablar yazılmışdır [1, s. 8-45]. 2002-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin Sərəncamı ilə yaradılan Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Naxçıvan arxeologiyasının öyrənilməsində mühüm əhəmiyyəti olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədəki çıxışında demişdir: "Azərbaycan elə bir ölkədir ki, onun çox qədim tarixi var. Bizim tarixçilər XX əsrdə çox işlər görüblər. Ancaq mən cəsarətlə deyə bilərəm ki, hələ ki, Azərbaycanın, xalqın, ümumiyyətlə, bu torpağın, ölkənin tarixi lazımi səviyyədə öyrənilməyib, tədqiq olunmayıbdır. Bu sahədə çox böyük işlər görülməlidir" [3, s. 108]. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev də Azərbaycan abidələrinin tədqiqinin genişləndirilməsi ilə bağlı xüsusi sərəncamlar imzalamışdır [5, s. 1]. 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilmiş, Gəmiqaya ətrafındakı arxeoloji abidələr öyrənilmiş, etnoqrafik, folklor və onomastik materiallar toplanmışdır. Gəmiqaya ətrafında aşkar olunan arxeoloji abidələr xüsusilə mühüm tarixi əhəmiyyətə malik olmuşdur. Bu abidələr arasında Nəbiyurdu yaylağındakı Erkən Tunc və Erkən Dəmir dövrünə aid qəbir abidələri, Tivi və Bist kəndləri ərazisində qeydə alınan Tunc və Erkən Dəmir dövrünə aid arxeoloji abidələr qədim tariximizin öyrənilməsi üçün dəyərli mənbədir.

Araşdırmalar təsdiq edir ki, Naxçıvanın indiki əhalisi min illər bundan əvvəl bu ərazidə məskən salan qədim tayfaların varisləridir. 2005-ci ildən başlayaraq Naxçıvan MR ərazisində mövcud olan qədim mədəniyyət abidələrinin tədqiqi işi daha da genişləndirilmişdir. 2006-2023-cü-cu illərdə aparılan araşdırmalar zamanı 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Abidələrin həm qeydə alınmasında, həm də tədqiqində beynəlxalq ekspedisiyaların üzvləri də iştirak etmişdir. ABŞ-ın Corciya Universitetinin əməkdaşları və Fransa Milli Araşdırmalar Mərkəzinin əməkdaşları ilə aparılan araşdırmalar zamanı I Kültəpə, II Kültəpə, I Maxta Kültəpəsi, Ovçulartəpəsi, Naxçıvantəpə, Uçan Ağıl, Oğlanqala, Qızqala və digər abidələrdə qazıntılar aparılmış, Arpaçay vadisində olan tarix və mədəniyyət abidələri müştərək araşdırmalarla öyrənilmişdir. Araşdırmaların nəticələri ilə bağlı olaraq xüsusi internet saytı yaradılmış və bu saytlarda Naxçıvanın tarix və mədəniyyət abidələri haqqında məlumat verilmişdir. 2017-ci ildə aşkar olunaraq tədqiq olunmağa başlayan Naxçıvantəpə yaşayış yerinin qədim mədəniyyətimizin, o cümlədən Naxçıvan şəhərinin tarixinin öyrənilməsi üçün önəmli nəticələr vermişdir.

ABŞ-ın Corciya Universitetinin əməkdaşları ilə aparılan araşdırmalar zamanı II Kültəpə və I Maxta Kültəpəsində yoxlama qazıntıları aparılmış, Arpaçay vadisində olan tarix və mədəniyyət abidələri müştərək araşdırmalarla öyrənilmişdir. Araşdırmaların nəticələri ilə bağlı olaraq xüsusi internet saytı yaradılmış və bu saytda Naxçıvanın 45 arxeoloji abidəsi haqqında məlumat verilmişdir.

Fransanın Milli Araşdırma Mərkəzinin əməkdaşları ilə Şərur rayonunda yerləşən Ovçulartəpəsi abidəsində 2006-2013-cü illərdə tədqiqatlar aparılmışdır. Ekspedisiya həmçinin kəşfiyyat xarakterli araşdırmalar aparmış, Batabat kurqanları, Dizə kurqanları və onlarla digər qiymətli abidələr qeydə alınmışdır. Ekspedisiya əməkdaşlarının Naxçıvan şəhəri yaxınlığında yerləşən Duzdağdakı araşdırmaları xüsusilə diqqətəlayiq olmuşdur. Tədqiqat zamanı müəyyən edilmişdir ki, Duzdağdan e.ə. VI minillikdən başlayaraq duz çıxarılmışdır. Çıxarılan duz yerli əhalinin tələbatını ödəməklə yanaşı, beynəlxalq ticarətdə istifadə olunan ən qiymətli məhsullardan biri olmuşdur. Araşdırmalar zamanı E.ə. VI-II minilliklərə aid keramika məmulatı, duz çıxarmaq üçün istifadə olunan müxtəlif ölçülü daş çəkiclər əldə edilmişdir. Müəyyən olunmuşdur ki, qədim dövrdə duz, duz laylarının yer səthinə çıxan hissəsində açıq üsulla çıxarılmışdır. Ekspedisiyanın apardığı araşdırmaların nəticələri "Naxçıvanın qədim mədəniyyətləri" adlı kitabda ümumiləşdirilmişdir.

AMEA Naxçıvan Bölməsinin Naxçıvan Dövlət Universitetinin əməkdaşları ilə birlikdə apardığı araşdırmalar zamanı dünya və ölkə əhəmiyyətli arxeoloji abidələr, kitabələr, memarlıq abidələri, o cümlədən onlarla hamam, körpü və məscidlər qeydə alınmışdır. Bu abidələr arasında Şərur rayonunda

qeydə alınan II Qız qalası, Babək rayonunun Buzqov kəndi yaxınlığında aşkar olunan Erkən Tunc dövrünə aid Hovuzlu yaşayış yeri, Kəngərli rayonunun Qarabağlar kəndi yaxınlığında yerləşən I Bəzəkli, II Bəzəkli, Çalxanqala kəndi yaxınlığındakı Qırmızıdaş qalaları, Ordubad rayonunun Bist və Əlşəhi kəndlərindəki körpüləri göstərmək olar.

Məlum olduğu kimi, Nuhla bağlı əfsanələr Naxçıvanın qədim tarixinin, folklorunun, bütövlükdə milli-mənəvi mədəniyyətinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Muxtar Respublika rəhbərinin Azərbaycan Respublikası Prezidentinin fərmanından irəli gələn vəzifələrə diqqətlə yanaşması və onun icra olunması ilə bağlı gördüyü tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən tarix və mədəniyyət abidələri qorumaya alınmışdır. 2003-cü ildə Möminə Xatun və Qarabağlar türbəsində beynəlxalq təşkilatların iştirakı ilə bərpa və yenidənqurma işləri aparılmışdır.

Tarix və mədəniyyət abidələrinin qorunması ilə bağlı olaraq Naxçıvan MR Nazirlər Kabinetinin qərarı ilə 2006-cı ildə "Arpaçay tarix və mədəniyyət qoruğu", "Gəmiqaya tarix-təbii qoruğu" yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2009-cu ildə "Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında", 2010-cu ildə "Şaxtaxtinskilər muzeyinin yaradılması haqqında", "Xan sarayı" dövlət tarix-memarlıq muzeyinin yaradılması haqqında", 2011-ci ildə "Görkəmli dövlət xadimi və diplomat Behbud Ağa Şaxtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında" adlı sərəncamları tariximizin və mədəni irsimizin öyrənilməsində mühüm rol oynamışdır.

Dövlət və hökumət rəhbərlərinin qayğısı ilə Möminə Xatın, Qarabağlar Türbə Kompleksi, Naxçıvanqala Tarix Memarlıq Muzey Kompleksi, Gülüstan türbəsi, Qazançı körpüsü, Yeycə hamamı, Əshabi-Kəhf ziyarətgahı dini-mənəvi abidələr kompleksində, Xanəgah abidələri kompleksində, Ordubad rayonunun tarix-memarlıq abidələrində, Naxçıvan şəhər buzxanası və onlarla digər abidələrdə bərpa və yenidənqurma işləri aparılmışdır.

2017-2022-ci illərdə Naxçıvantəpə yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan Dalmatəpə mədəniyyəti, Naxçıvanın qədim dövrlərdən Azərbaycanda gedən etnik-mədəni proseslərdə iştirak etdiyini və Azərbaycanın tərkib hissəsi olduğunu deməyə imkan vermişdir [2, s. 53-81].

AMEA Naxçıvan Bölməsi və ABŞ-ın Pensilvaniya Universitetinin birgə təşkil etdiyi arxeoloji ekspedisiyanın 2022-ci ilin may-iyun aylarında Sədərək Kültəpəsində apardığı arxeoloji qazıntılar nəticəsində Sədərək Kültəpəsində şəhər strukturunun qalıqları, o cümlədən daş döşənmiş küçələr, böyük həcmli, düzbucaq formalı ictimai binaların qalıqları, dəyərli keramika nümunələri, insanların təsərrüfat həyatını əks etdirən maddi-mədəniyyət qalıqları aşkar olunmuşdur. Məlum olduğu kimi, Naxçıvanda şəhər tipli yaşayış yerləri e. ə. III minilliyin sonunda meydana çıxmışdır. Tapıntılar sübut edir ki, bu ənənə Dəmir dövründə də davam etmişdir. Sədərək Kültəpəsi Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Dəmir dövrünə aid ən qədim şəhər yeridir. Arxeoloji araşdırmalar zamanı bu şəhərin yalnız bir qisminin, 600 kvadratmetrlik sahəsinin qalıqları aşkar olunmuşdur. Karbon nümunələrinin analizi şəhər tipli strukturların təqribən e. ə. 900-790-cı illərdə, yəni urartuların Cənubi Qafqaza yürüşlərindən xeyli əvvələ aid olduğunu müəyyən etməyə imkan vermişdir.

Yuxarıda qeyd olunanlar tarix və mədəniyyət abidələrinin qorunması və tədqiqi ilə bağlı görülən işlərin yalnız bir qismidir. Görülən işlər yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin mədəni irsimizə qayğısı və onun tövsiyələrinin ardıcıllıqla həyata keçirilməsinin nəticəsidir.

Naxçıvan Muxtar Respublikasının ərazisi tarixin müxtəlif dövrlərinə aid tarix və mədəniyyət abidələri ilə zəngindir. Naxçıvan torpağının hansı hissəsinə külüng vursan, oradan ulu əcdadlarımızla bağlı maddi mədəniyyət nümunələri üzə çıxacaqdır. Naxçıvan Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin beşiyidir. Bu abidələr Azərbaycan türklərinin qədim dövrdən Naxçıvanın yerli əhalisi olduğunu təsdiq edən əvəzedilməz maddi mədəniyyət nümunələridir. Tarix və mədəniyyət abidələrinin tədqiqi alimlərimizin, onların qorunması isə ümumxalq işidir.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: velibahshaliyev@mail.ru***

## ƏDƏBİYYAT


1. Baxşəliyev V.B. Gəmiqaya təsvirləri. Bakı: Elm, 2002, 165 s.
2. Baxşəliyev V.B. Naxçıvan arxeologiyası. Naxçıvan: Əcəmi, 2022, 274 s.
3. Əliyev H.Ə. Elektron sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları (Elektron resurs). Bakı, 2002, 184 s. https://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 cilddə. XIX c., Bakı: Azərnəşr, 2006, 528 s.
5. Əliyev İ.H. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən 2008-2009-cu illərdə aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Xalq qəzeti", 2008, 5 fevral, s. 1.


**Vali Bakhshaliev**

## HEYDAR ALIYEV'S CARE FOR THE STUDY OF THE NATIONAL HERITAGE

The national leader of the Azerbaijani people, Heydar Aliyev, paying great attention to socio-economic development, including the study of monuments and the publication of historical values, this issue has always been in the spotlight. Thanks to the care of Heydar Aliyev and as a result of the successful continuation of his work, historical and cultural monuments on the territory of the Nakhchivan Autonomous Republic were registered and certificated. The study of the archaeological monuments of Nakhchivan found that this region from ancient times was included in the ethnocultural processes that took place in Azerbaijan and was an integral part of Azerbaijan.

**Keywords:** *Azerbaijan, Heydar Aliyev, Nakhchivan, archaeological site, culture.*

**Вели Бахшалиев**

## ЗАБОТА ГЕЙДАРА АЛИЕВА ОБ ИЗУЧЕНИИ НАШЕГО НАЦИОНАЛЬНОГО НАСЛЕДИЯ

Общенациональный лидер азербайджанского народа Гейдар Алиев всегда придавал большое значение социально-экономическому развитию нашей страны, в том числе исследованию и продвижению наших памятников истории и культуры, и всегда уделял этому вопросу особое внимание. Благодаря заботе Гейдара Алиева и успешному продолжению его деятельности памятники истории и культуры на территории Нахчыванской Автономной Республики были зарегистрированы и паспортизированы. Изучение археологических памятников, расположенных в Нахчыване, подтвердило, что этот регион является неотъемлемой частью этнокультурных процессов, происходящих в Азербайджане с древних времен, и неотъемлемой частью Азербайджана.

**Ключевые слова:** *Азербайджан, Гейдар Алиев, Нахчыван, археологический памятник, культура.*

# B İ R İ N C İ   B Ö L M Ə

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN

HACIFƏXRƏDDİN SƏFƏRLİ

## 14 İYUL 1969-CU IL – AZƏRBAYCANI İNKİŞAFA VƏ TƏRƏQQİYƏ APARAN YOLUN BAŞLANDIĞI TARİX

*Məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətinin birinci dövründəki fəaliyyətindən bəhs edilir. Qeyd olunur ki, 14 iyul 1969-cu ildə Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan geridə qalmış aqrar ölkədən inkişaf etmiş sənaye və kənd təsərrüfatı ölkəsinə, elm, təhsil və mədəniyyət mərkəzinə çevrildi. Güclü kadr potensialı yaradıldı. Yeridilən uğurlu siyasət nəticəsində inkişaf səviyyəsinə görə 15 müttəfiq respublika içərisində ön sıraya keçən Azərbaycan, SSRİ dağılarkən müstəqilliyə hazır olan iki respublikadan birinə çevrildi.*

**Açar sözlər:** *Azərbaycan, Naxçıvan, hakimiyyət, sənaye, kənd təsərrüfatı, mədəniyyət, inkişaf.*

Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi tamam olan, bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi Sərəncamı ilə “Heydər Əliyev ili” elan edilən 2023-cü il, həm də bu görkəmli şəxsiyyətin həyatı və fəaliyyətinin başqa bir məqamı ilə də diqqəti cəlb edir. Bu il həm də görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda ilk dəfə hakimiyyətə gəlməsinin 54 ili tamam olur. Düz 54 il bundan əvvəl, 14 iyul 1969-cu ildə Azərbaycan Sovet Sosialist Respublikasının həyatında bütün ölkənin sonrakı tarixində çox mühüm dəyişikliklərə gətirib çıxaran böyük siyasi-tarixi əhəmiyyətə malik olan bir hadisə baş verdi: Azərbaycan KP MK-nin 1969-cu ilin iyul plenumunda öz fəaliyyəti ilə XX yüzilliyin sonlarında Azərbaycan xalqının ümummilli liderinə çevrilən Heydər Əlirza oğlu Əliyev Mərkəzi Komitənin birinci katibi və büro üzvü seçildi. Bu zaman Azərbaycan Respublikası özünün çox çətin günlərini yaşayırdı. Azərbaycan SSR SSRİ-yə daxil olan 15 müttəfiq respublikanın sıralanmasında axırıncı yerlərdən birində qərarlaşmışdı. Ölkədə özbaşınalıq, hərc-mərclik baş alıb gedirdi. Əhalinin sosial vəziyyəti çox ağır və aşağı idi, insanlar kasıb vəziyyətdə yaşayırdı. Rusiya tarixçisi Roy Medvedevin sözləri ilə desək “Qafqaz sakinləri haqqında təsəvvürün əksinə olaraq, azərbaycanlıların əksəriyyəti çox kasıb yaşayırdı. Burada korrupsiya və talama geniş yayılmışdı və demək olar ki, gizlədilmirdi. Moskvadan gəlmiş çox saylı komissiyalardan biri heyrətə gəlmişdi. Komissiya üzvləri Bakı dükanlarının birindən nümunə üçün 100 dəfə, 100 adda mal almış, hamısında da qiymətdə və çəkidə aldadılmışdılar” [2, s. 10].

Belə bir vəziyyətdə Azərbaycanda hakimiyyət sükanının arxasına keçən Heydər Əliyev bu vəzifəyə qədər bir sıra məsul vəzifələrdə, xüsusi ilə 1956-1964-cü illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi Əks-kəşfiyyat idarəsinin rəisi, 1964-1967-ci illərdə DTK sədrinin müavini, 1967-ci ildən isə Komitənin sədri işləmişdi. Buna görə də, ulu öndər ölkənin ümumi vəziyyətini bilirdi və bu haqqında dəqiq məlumatlara malik idi. Ulu öndər Dövlət Təhlükəsizlik orqanlarında işləyərkən dövrün tələblərinə, həmçinin tutduğu vəzifələrin prinsiplərinə uyğun olaraq əhali tərəfindən geniş şəkildə tanınmasa da, özünün bacarığı, işgüzarlığı, qabiliyyəti, tələbkarlığı, qətiyyəti, yaranmış mürəkkəb şəraitdə düzgün qərarlar qəbul etməyi bacarması, obyektivliyi və s. müsbət keyfiyyətləri ilə Azərbaycan dövlət orqanları, xüsusi ilə birbaşa Moskvadakı mərkəzi hakimiyyət rəhbərlərinin diqqətini cəlb edə bilmişdi. Bunu Heydər Əliyevin Azərbaycan SSR-in rəhbəri seçildiyi plenumda çıxış edən yüksək vəzifəli partiya və dövlət xadimlərinin onun haqqında söylədiyi fikirlər də təsdiq edir.

1969-cu il iyul plenumunda çıxış edən Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi İ.Kapitonov Heydər Əliyevi belə xarakterizə etmişdi: “Heydər Əlirza oğlu Əliyevin böyük

üstünlüyü ondadır ki, hələ cavandır, 1923-cü ildə anadan olub. Bu minvalla, onun 46 yaşı var. Birinci katib vəzifəsinə isə üç illik, beş illik yox, daha uzun müddətə seçmək lazımdır. …Son 25 ili o siyasi işdə – Dövlət Təhlükəsizlik orqanlarında çalışıb. Zənnimcə, orqanlardakı işin partiyamızın işi, siyasi iş olduğunu sübut etməyə ehtiyac yoxdur. Yoldaş Əliyev respublikamızın partiya təşkilatının işində fəal iştirak edir. O, partiyanın Mərkəzi Komitəsinin tərkibinə daxildir, respublika Ali Sovetinin deputatıdır. Yaxşı təşkilatçıdır, insanlarla işləməyi bacarır, eyni zamanda özünə və tabeliyində olanlara qarşı tələbkardır" [2, s. 28-29].

Plenumda ulu öndərədək Azərbaycan KP Mərkəzi Komitəsinin I katibi işləmiş, Heydər Əliyevi yaxından tanıyan Vəli Axundov isə "yoldaş Əliyev Azərbaycan KP MK-nə yaxşı birinci katib olmaq üçün bütün xüsusiyyətlərə – həm siyasi, həm işgüzar xüsusiyyətlərə malikdir. O, qısa müddətdə böyük həcmdə işi mənimsəmək üçün kifayət qədər savadlı, məlumatlı, hərtərəfli hazırlıqlıdır, o dərəcədə obyektivdir ki, bütün kadrlara eyni gözlə baxa bilər. Biz onu vicdanlı, ləyaqətli kommunist kimi tanıyırıq. Dzerjinski deyirdi ki, çekistin isti ürəyi, aydın ağlı və təmiz əlləri olmalıdır. Yoldaş Əliyevdə bütün bu keyfiyyətlər vardır və mən əminəm ki, bu keyfiyyətləri birinci katib vəzifəsində həyata keçirə biləcək və bizim Azərbaycan partiya təşkilatının şərəfli ənənələrinə layiq olmağı bacaracaqdır" [2, s. 30] – fikrini xüsusi vurğulamışdı.

Plenumda əksəriyyət səslə Azərbaycan KP MK-nin birinci katibi seçilən, bu vaxtadək ölkə rəhbərliyində DTK sədr müavini və sədri kimi təmsil olunan Heydər Əliyev qeyd olunduğu kimi respublikadakı vəziyyəti və yeni vəzifənin böyük məsuliyyətini gözəl bilirdi. Ona görə də, səsvermənin nəticələri elan olunduqdan sonra plenumda çıxış edən Heydər Əliyev demişdi: "Mən bu vəzifəyə keçməyimlə bağlı məsuliyyətimi başa düşürəm, qarşımda duran vəzifələrin çətin və mürəkkəb olduğunu bilirəm. Əmin etmək istəyirəm ki, bütün qüvvəmi sərf edəcəyəm ki, bu böyük və yüksək etimadı doğruldum. Bu işdə Azərbaycan Kommunist Partiyası MK-nin bütün heyətinin, MK Bürosu üzvlərinin, respublikamızın bütün rəhbər partiya, sovet və təsərrüfat işçilərinin köməyinə və dəstəyinə arxalanır və ümid bəsləyirəm. Belə hesab edirəm ki, fəal birgə əlbir işimiz gələcək uğurlarımızın rəhni ola bilər" [2, s. 30].

Ulu öndər ilk çıxışında söylədiyi bu fikirlərə Azərbaycana rəhbərlik etdiyi bütün fəaliyyəti dövründə sadiq qaldı. Heydər Əliyev Azərbaycan KP MK-nin birinci katibi seçiləndən az sonra, 1969-cu ilin avqustunda keçirilən ilk plenum respublikanın həyatında dönüş mərhələsinin əsasını qoydu. Plenumda geniş məruzə ilə çıxış edən Heydər Əliyev nitqində ölkədə yaranmış vəziyyəti tutarlı faktlarla dərindən təhlil etdi, Azərbaycan kimi böyük resurslara və imkanlara malik ölkənin böhranlı vəziyyətdən çıxarılması üçün tədbirlər planı qəbul olundu, sosial-iqtisadi sahədə qarşıda duran əsas vəzifələr, onları qısa müddətdə həll etmək üçün istiqamətlər müəyyən edildi. Ulu öndərin məruzəsi ilə respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyi əsaslı surətdə yaxşılaşdırmağın, dövlət və əmək intizamını möhkəmləndirməyin, kadrların məsuliyyətini artırmağın yeni xətti müəyyən edildi. Bu xətt Heydər Əliyevin sonrakı məruzə və çıxışlarında, xüsusilə 1969-cu ilin dekabr, 1970-ci ilin mart və avqust plenumlarında daha da inkişaf etdirilərək elmi surətdə əsaslandırıldı, respublikanın iqtisadi-siyasi həyatında xalqın mənəviyyatına mənfi təsir göstərən tənəzzül meyllərinin qarşısının alınması, sağlam mənəvi-psixoloji iqlimin, ictimai ovqatın bərqərar olunması uğrunda uzun müddətli mübariz fəaliyyət proqramına çevrildi [7, s. 170].

Ölkədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan Respublikasının ictimai-siyasi, iqtisadi-mədəni həyatında çox böyük müsbət dəyişikliklər baş verdi. İnkişaf səviyyəsinə görə uzun müddət müttəfiq respublikalar arasında axırıncı yerlərdə bərqərar olan Azərbaycan SSRİ məkanına daxil olan 15 müttəfiq respublika içərisində irəliyə doğru böyük addım atdı, geridə qalmış aqrar ölkədən inkişaf etmiş sənaye, kənd təsərrüfatı, elm, təhsil və mədəniyyət mərkəzinə çevrildi. Bütün bu nailiyyətlərə görə SSRİ kimi nəhəng dövlətin rəhbəri L.İ.Brejnevin dilindən "Azərbaycan iri addımlarla irəliləyir!" sözləri səsləndi.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətinin I dövründə əldə olunan uğurlar haqqında çoxlu tədqiqatlar aparılmış, monoqrafiya, kitab və məqalələr yazılmış, dissertasiyalar müdafiə edilmişdir. Bu nəhəng işlər, əldə olunan uğurlar haqqında diqqəti bəzi məqamlara yönəltmək istərdik. 1970-1982-

ci illər ərzində ölkədə 250 yeni müəssisə, istehsalat sahəsi, sex açıldı. Neft emalı müəssisələri yenidən quruldu. İri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları tikildi. Nəticədə maşınqayırma məhsulları istehsalı üç beşillik ərzində 5 dəfədən çox artdı. Respublikada sənaye istehsalı 2,7 dəfə çoxaldı. On üç il ərzində 101,5 milyard rubl dəyərində məhsul istehsal olundu ki, bu da əvvəlki 50 ildəki qədərdir. Bu zaman xalq istehlakı malları istehsalı 3 dəfə, əmək məhsuldarlığı 2 dəfədən çox artdı, fond artımı 25 faiz çoxaldı. Kənd təsərrüfatının ümumi məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı isə 2,2 dəfə artdı. 1985-ci ildə 1970-ci illə müqayisədə taxıl istehsalı 1,8 dəfə, pambıq, tərəvəz, meyvə 2 dəfədən çox, üzüm 5 dəfədən çox artdı. Kapital qoyuluşu artımının bir rubluna 3,5 rublluq əlavə məhsul alındı. Səkkizinci beşilliklə müqayisədə 10-cu beşillik ərzində kənd təsərrüfatının rentabelliyi 5 dəfədən çox yüksəldi. Kolxoz və sovxozların gəlirləri 5 dəfə artdı. Üzüm plantasiyaları qısa müddət ərzində 150 min hektardan çox genişləndi. Üzüm istehsalı 1970-ci ildəki 350 min tondan 1980-ci ildə bir milyon səkkiz yüz tona çatdı [5, s. 21-22].

Respublika rəhbəri kimi Heydər Əliyev tərəfindən həyata keçirilən irimiqyaslı tədbirlər nəticəsində Azərbaycanda pambıq istehsalı bir milyon ton həddini aşıb keçdi. Əsas kənd təsərrüfatı məhsulları, xüsusi ilə üzüm istehsalı xeyli artdı. Üç milyon ton üzüm yığılması hədəf götürüldü. Faraş tərəvəz və maldarlıq məhsulları istehsalı maksimum həddə çatdırıldı. Əhalinin maddi rifah halı, yaşayış səviyyəsi xeyli yaxşılaşdı. Yaşayış məskənlərinin görkəmi tamamilə dəyişildi. Əgər ulu öndərə qədər kənd və qəsəbələrdə əsasən dövlətə məxsus binaların (kənd sovetləri, kolxoz idarələri, məktəblər, klublar və s.) üstü şiferli idisə, bəhs olunan dövrdə demək olar ki, bütün yaşayış məskənlərində evlərin üstü şiferlə örtüldü. 22 milyon kvadratmetr, yəni əvvəlki 50 ildəkinin 60 faizindən çox yaşayış evi tikilməklə 2 milyondan çox vətəndaşın mənzil şəraiti yaxşılaşdırıldı.

Azərbaycanda 101 min məktəbəqədər tərbiyə müəssisəsi, 1058 ümumtəhsil məktəb binası, Azərbaycan Dövlət Universiteti (indiki Bakı Dövlət Universiteti), Neft-Kimya, Xarici Dillər, Pedaqoji, Bədən tərbiyəsi və s. institutlar üçün yeni tədris korpusları, yardımçı binalar, hovuzlar, idman zalları və s. inşa edildi, tədrisə köməkçi tədbirlər həyata keçirildi. Yüksək ixtisaslı kadrlar hazırlamaq və respublikada kadrlara olan ehtiyacı ödəmək məqsədi ilə SSRİ-nin qabaqcıl ali məktəblərinə göndərilən tələbələrin sayı 40-50 nəfərdən təqribən 1000 nəfərə çatdırıldı. 20 minə yaxın yüksək ixtisaslı kadr hazırlandı. Bütün sahələrdə böyük uğurlara imza atan Azərbaycan o vaxtlar hər il SSRİ miqyasında keçirilən Sosializm yarışlarının 12 dəfə qalibi oldu, bu münasibətlə keçici Qırmızı Bayraqlar aldı. Bütün bu uğurlu nəticələrə görə ulu öndər Heydər Əliyev özü isə 1976-cı ildə Sov.İKP MK-nin Siyasi Büro üzvlüyünə namizəd seçildi. Azərbaycan Respublikası isə 1970-ci ildə Oktyabr İnqilabı, 1972-ci ildə Xalqlar Dostluğu, 1980-ci ildə Lenin Ordeni ilə mükafatlandırıldı. İkinci Dünya Müharibəsində alman faşizmi üzərində qələbənin təmin olunmasında böyük roluna görə, Bakı şəhəri 1978-ci ildə SSRİ-nin ən yüksək mükafatına – Lenin ordeninə layiq görüldü.

Ulu öndərin Azərbaycanda hakimiyyətinin birinci dövründə milli-mənəvi dəyərlərin bərpası, qorunub saxlanması, inkişafı və təbliği sahəsində mühüm işlər həyata keçirildi. Xalqımızın yetirmələri olan bir sıra görkəmli şəxsiyyətlərin, o cümlədən Nizami Gəncəvinin, Nəsiminin, Əcəmi Naxçıvaninin, Nəsirəddin Tusinin, Aşıq Alının, Aşıq Ələsgərin, Üzeyir Hacıbəyovun və başqalarının yubileyləri qeyd olundu. Ulu öndərədək adının belə çəkilməsi qadağan olunan Hüseyn Cavidin cənazəsi uzaq Sibirdən gətirilərək doğma Vətəndə – Naxçıvanda torpağa tapşırıldı. Onun ailə üzvlərinin də dəfn olunduğu ərazidə sonralar ulu öndərin özü tərəfindən əzəmətli türbə ucaldıldı. Ümummilli lider Azərbaycanın görkəmli dövlət, elm və mədəniyyət xadimləri, həmçinin xaricdən gəlmiş görkəmli şəxsiyyətlər ilə birlikdə bu türbənin açılışında iştirak etdi və geniş nitq söylədi.

Bu dövrdə tez-tez işlədilən və dövrün tələblərinə uyğun olaraq məqsədli şəkildə təhrif edilən "İran Azərbaycanı" söz birləşməsinin əvəzinə bütün çətinliklərə baxmayaraq, "Cənubi Azərbaycan" ifadəsi işlənməyə başlandı [3, s. 196]. Cənubi Azərbaycan mövzusunda çoxlu şeirlər və nəsr əsərləri yazıldı. "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası", "Cənubi Azərbaycan tarixi oçerkləri" və s. kimi əsərlər nəşr olundu. Hətta 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqı nəzdində Cənubi Azərbaycan üzrə katiblik yaradıldı. Azərbaycan xalqının uzun müddət təqiblərə məruz qalan şifahi xalq ədəbiyyatı nümunələri, bir sıra görkəmli şəxsiyyətləri haqqında, o cümlədən gənclərin vətənpərvərlik, vətənə

məhəbbət ruhunda tərbiyə olunmasında böyük rolu olan "Dədə Qorqud", "Nəsimi", Nizami", "Babək" və başqaları ilə əlaqədar kinofilmlər çəkildi. Azərbaycan tarixinin müxtəlif mərhələləri ilə əlaqədar, xüsusi ilə xalqımızın qəhrəmanlıq tarixi ilə əlaqədar çoxlu bədii əsərlər (İsa Hüseynovun "Məhşər", Fərman Kərimzadənin "Xudafərin körpüsü", "Çaldıran döyüşü", Əlisa Nicatın "Qızılbaşlar", Əzizə Cəfərzadənin "Bakı 1501", Mahmud İsmayılovun "Ağ yapıncı", Mövlud Süleymanlının "Köç" romanları və s.) yazılaraq nəşr etdirildi.

Sovetlər dönəmində məqsədli şəkildə arxa plana keçirilmiş, dəyişdirilmiş bir sıra Azərbaycan əsilli toponimlər – yer adları çox ustalıqla bu və ya digər dərəcədə bərpa olundu. 1935-ci ildən bəri S.M.Kirovun şərəfinə Kirovabad adlandırılan Gəncədə "Nizami" və "Kəpəz" rayonları, şəhərin Nizami rayonunun tərkibində "Yeni Gəncə qəsəbəsi" yaradıldı. Bu qəsəbənin yaradılması ilə sanki Gəncə şəhərinin tarixi adının bərpası istiqamətində addım atıldı. Bakı şəhərində rayonlara "Nizami", "Nəsimi" kimi adlar verildi. 1979-1980-ci illərdə Bakı şəhərində inşa edilən möhtəşəm saraya "Gülüstan" adı verildi. Naxçıvan Muxtar Respublikasında Babək, Dağlıq Qarabağda Əsgəran rayonları təşkil edildi. Azərbaycanın mühüm mədəniyyət ocaqlarından olan Şuşa şəhəri haqqında mühüm qərarlar qəbul edildi. Orada XVIII əsrdə Qarabağ xanlığında vəzir vəzifəsində işləmiş görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifə türbə ucaldıldı, Bülbülün ev muzeyi açıldı, şəhərin müxtəlif yerlərində olan qədim abidələrin bərpası sahəsində xeyli işlər görüldü. Qeyd etmək yerinə düşər ki, ulu öndər Heydər Əliyev muzeylərə böyük əhəmiyyət verdiyindən və diqqət yetirdiyindən görkəmli şəxsiyyətlərin ev muzeylərinin və digər xarakterli muzeylərin açılması bütün Azərbaycanda geniş vüsət aldı. Səməd Vurğunun, Üzeyir Hacıbəylinin, Bülbülün, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Məmməd Səid Ordubadinin, Cəlil Məmmədquluzadənin, Yusif Məmmədəliyevin, Həzi Aslanovun və başqalarının ev muzeyləri, bir sıra xatirə muzeyləri açıldı. Demək olar ki, bütün rayonlarda Tarix-diyarşünaslıq muzeyləri yaradıldı.

Bakıda "Sovetskaya Türkologiya" jurnalı nəşr olunmağa başladı. Türk xalqlarının daha çox yaşadığı geniş əraziyə malik Sibirdə və Orta Asiyada deyil, Azərbaycanda belə bir jurnalın nəşrinin baş tutması və işıq üzü görməsi ulu öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri və ciddi səylərinin nəticəsidir. Ölkəmizdə 1934, 1938, 1959 və 1965-ci illərdə Azərbaycan Sovet Ensiklopediyasının nəşr olunması haqqında cəhdlər olsa da, müxtəlif səbəblərdən bu mümkün olmamışdı. Bu məsələyə böyük önəm verən ulu öndərin dövründə çoxcildlik Azərbaycan Sovet Ensiklopediyası nəşr olundu. Respublika rəhbəri bu fundamental nəşrin 10 cilddə, həm də nəzərdə tutulan 50.000 nüsxə əvəzinə 80.000 tirajla çap olunmasına nail oldu.

Qeyd etmək lazımdır ki, bütün fəaliyyəti ərzində Azərbaycan dilinin təmizliyinə və qorunub saxlanmasına böyük önəm verən Heydər Əliyev respublika rəhbəri seçiləndən az sonra, 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin kollektivi ilə görüşündə gözlənilmədən Azərbaycan dilində çıxış etdi. Bu çıxış həmin vaxt İttifaq məkanında böyük sensasiya yaratdı. Bu istiqamətdə ən böyük addımını isə ulu öndər Heydər Əliyev 1978-ci ildə atdı. Böyük çətinliklərə baxmayaraq onun çox ciddi səyləri nəticəsində Azərbaycan SSR-in 1978-ci ildə qəbul olunan Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Moskvanın və digər böyük müttəfiq respublika rəhbərlərinin çox ciddi müqavimətinə və etirazlarına baxmayaraq Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması haqqında qəbul olunan bu qərar Azərbaycan dilinin yad təsirlərdən qorunub saxlanması və gələcək inkişafı üçün böyük zəmin yaratdı.

Hər bir Azərbaycan vətəndaşının keçmiş irsimizə, tarix və mədəniyyətimizə yaxından bələd olmasını istəyən ulu öndərin təşəbbüsü və səyləri nəticəsində onun Azərbaycanda ilk hakimiyyəti illərində orta, orta ixtisas və ali məktəblərdə Azərbaycan tarixinin tədrisinə ayrılan saatların miqdarı artırıldı. Azərbaycan tarixin müxtəlif problemləri ilə əlaqədar sistemli tədqiqatlar aparıldı, nəticədə çoxlu monoqrafiyalar və kitablar yazıldı, dissertasiyalar müdafiə olundu. "Azərbaycan tarixi" çoxcildliyinin hazırlanması haqqında qərar qəbul edildi. Bu əsər müəyyən obyektiv və subyektiv səbəblər üzündən həmin vaxt nəşr olunmasa da, bu möhtəşəm əsər ulu öndərin Azərbaycanda hakimiyyətinin ikinci dövründə işıq üzü gördü.

Ulu öndərin hakimiyyəti illərində Azərbaycan incəsənəti yüksək zirvəyə qalxdı. Bir sıra görkəmli müğənnilər, o cümlədən Rəşid Behbudov, Zeynəb Xanlarova və başqaları, musiqi kollektivləri (mə-

sələn, Şərur yallısı və s.) tez-tez xarici ölkələrə səfər edərək Azərbaycan incəsənətini yüksək səviyyədə təmsil və təbliğ etməyə başladılar. Görkəmli elm və mədəniyyət xadimləri Sosialist Əməyi Qəhrəmanı (Mustafa Topçubaşov, İsmayıl İbrahimov, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Mirzə İbrahimov, Süleyman Rəhimov, Süleyman Rüstəm, Rəsul Rza və s.) kimi yüksək adlara, orden və medallara layiq görüldülər.

Göründüyü kimi, Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlməsi ilə ölkə həyatının bütün sahələrində çox böyük müsbət dəyişikliklər baş verdi. Sovet totalitar rejiminin yaratdığı məhdud imkanlardan məharətlə istifadə edən Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi, mənəvi-mədəni inkişafına zəmin yaradacaq mühüm qərarlara imza atmaqla, doğma vətəninin çiçəklənməsi üçün mümkün olan hər şeyi etdi. Hələ o zaman Azərbaycanın müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar – iqtisadi, mənəvi-mədəni potensial yaradıldı, milli kadr problemi həll edildi. O dövrdə iqtisadiyyat, mədəniyyət, təhsil sahəsində əldə edilən tərəqqi, milli birliyə nail olunması, milli özünüdərkin yüksəlişi müstəqil dövlətin yaranmasına xidmət edən strategiyanın bünövrəsini qoydu. Bugünkü müstəqil Azərbaycanın əldə etdiyi uğurlar məhz həmin dövrdə Heydər Əliyev tərəfindən yaradılmış möhkəm təmələ əsaslanır [4, s. 7].

Bütün bunları nəzərə alaraq tədqiqatçılar ümummilli lider Heydər Əliyevi ən mürəkkəb, ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətdə də təmkinini itirməyən, qibtə olunacaq iradə nümayiş etdirən bir şəxsiyyət kimi təqdim edirlər. Həmçinin onlar Heydər Əliyevi dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin maraqlarına praqmatikcəsinə və dəqiqliklə yönəltməyi bacaran, Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə böyük strateq kimi dövlət müstəqilliyinə zəmin yaradan siyasi, iqtisadi və hüquqi sahədə mühüm addımlar atan və bu istiqamətdə ciddi nailiyyətlər əldə edən təkrarsız lider kimi dəyərləndirirlər [1, s. 12-13].

Ulu öndərədək Azərbaycana qarşı ərazi iddialarını ən yüksək səviyyələrə çatdıran və bu sahədə müəyyən uğurlar qazanan ermənilər Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu 1969-1982-ci illərdə və sonrakı 5 ildə, başqa sözlə desək, Heydər Əliyevin Moskvada işlədiyi 1982-1987-ci illərdə kiçik istisnalar nəzərə alınmazsa bu istəklərini büruzə verə bilmədilər. Çünki, müsahibələrinin birində vurğuladığı kimi ulu öndər birinci katib seçiləndən bir ay sonra, 1969-cu ilin sentyabrında Ermənistan KP MK-nin birinci katibi A.Koçinyanın arzusu ilə onunla Qazax rayonu ilə İcevan rayonunun sərhədində görüşmüş, ondan tələb etmişdi ki, erməni millətçilərini Azərbaycana qarşı ərazi iddialarından çəkindirmək üçün əməli, konkret işlər görsün. Bu isə öz nəticəsini vermiş, narahatçılıq doğuran hadisələr baş verməmişdi. Hətta Heydər Əliyevin nüfuzu və mərkəzdə sözünün iti kəsəri MK-nin katibi M.Suslovun A.Koçinyana "Xvatit armyanskoqo naçionalizma" deməsi ilə nəticələnmişdi. Uzun illər boyu ermənilərin əliylə törədilən faciələri müşahidə edən M.Suslovun bu deyimi A.Koçinyanın üzünə birdən-birə çırpılmamışdı. Bu söz silləsi yalnız M.Suslovun fikri deyil, bütün Siyasi Büronun səsi kimi qalmışdı Koçinyanın yaddaşında [8, s. 48-49]. Ona görə də, ulu öndər sonralar deyirdi ki, "1969-cu il iyulun 14-dən 1982-ci il dekabrın 3-nə kimi Azərbaycan KP MK-nin birinci katibi olmuşam. Bu müddətdə Azərbaycan ərazisinin bir qarışı da Ermənistana verilməyib". Burada bir cəhəti xüsusi vurğulamaq lazım gəlir ki, ulu öndərin Azərbaycanda hakimiyyətinin birinci dövründə nəinki ermənilərə torpaq verilməmiş, hətta məlum 14 iyul plenumundan bir az əvvəl Azərbaycanın təxminən iki min hektar torpağının Ermənistana verilməsi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1969-cu ilin may ayında qəbul etdiyi qərarın icrası ulu öndər tərəfindən dayandırılmış və həmin torpaqların Ermənistana verilməsinin qarşısı alınmışdı.

"Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır" – deyən Heydər Əliyevin Azərbaycanda hakimiyyətinin birinci dövründəki fəaliyyətinə bu qısa baxışdan sonra onun 1969-1982-ci illər zaman çərçivəsindəki həyata keçirdiyi tədbirləri, əldə olunan uğurları öz sözləri ilə dəyərləndirmək istərdik: "Mən uzun ömür yaşamışam, 13 il respublika partiya təşkilatına rəhbərlik etmişəm, xalqımın mənəvi təmizliyi uğrunda mübarizə aparmışam. Ola bilsin ki, bu mübarizədə mən özümə xeyli düşmən qazanmışam, çünki, ilk növbədə natəmiz adamlarla vuruşmuşam. Təəssüf ki, onların yüksək müqavimət göstərmək bacarığı

vardır, canları bərkdir – vəziyyət dəyişən kimi baş qaldırırlar. Mən xalqım qarşısında təmizəm! Bu da mənim ən böyük sərvətimdir" [2, s. 777].

Sonda nəticə olaraq demək olar ki, Azərbaycan 1969-1982-ci illərdə, Rusiya imperiyası və Sovet dövləti tərkibində olduğu bütün tarixi dövr ərzində, özünün ən yüksək inkişaf zirvəsinə qalxdı. Heydər Əliyevin çox dərindən ölçülüb-biçilmiş, gələcəyə istiqamətlənmiş müdrik və cəsarətli fəaliyyəti nəticəsində, o zaman Azərbaycan bütün Sovet İttifaqında ən qabaqcıl sənaye və kənd təsərrüfatı respublikasına, SSRİ məkanında nəhəng tikinti meydanına çevrildi. Elm, mədəniyyət və kadr hazırlığı ən yüksək zirvəyə qalxdı. Uzaqgörən və daim xalqının gələcəyini düşünən böyük dövlət xadimi öz xalqını həyatın bütün sahələrində müstəqil yaşamağa hazırladı. SSRİ-nin dağılacağını qabaqcadan görən Heydər Əliyev bugünkü müstəqil, yeni Azərbaycanın quruculuğuna hələ o zaman başlamışdı. Bir sözlə ötən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi və himayəsi ilə Şimali Azərbaycanda milli oyanış və müstəqilliyə doğru Böyük Dönüş dövrü başlanmışdı. Buna görə də, XX yüzilliyin 90-cı illərində böyük Sovet İmperiyası çökərkən məhz Heydər Əliyevin uzaqgörən, olduqca gərgin, səmərəli və cəsarətli dövlətçilik fəaliyyəti nəticəsində Azərbaycan müstəqil yaşamağa tamamilə hazır idi [6, s. 302].

Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətinin birinci dövründə ölkəni inkişaf etdirmək üçün həyata keçirdiyi tədbirlər və bu sahədə əldə etdiyi möhtəşəm uğurlar ona ümumxalq məhəbbətinin və böyük inamın yaranmasına gətirib çıxardı. Məhz xalqın bu inamının, sevgi və məhəbbətinin nəticəsi olaraq Azərbaycan keçən yüzilliyin 90-cı illərinin əvvəllərində uçurum qarşısında qalarkən, ölkənin parçalanması, vətəndaş müharibəsi, qardaş qırğını, dövlətçiliyin itirilməsi təhlükəsi ilə üzləşərkən xalq ölkənin nicatını həmin vaxt Naxçıvanda yaşayan və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan görkəmli dövlət xadimi Heydər Əliyev şəxsiyyətində gördü. Ona görə də, Azərbaycan xalqı təkidlə onun 15 iyun 1993-cü ildə yenidən Azərbaycanda hakimiyyətə gətirilməsinə nail oldu.

## ƏDƏBİYYAT


1. Ağamalı F. Dövlətçiliyimizin İlham Əliyev mərhələsi. Bakı: Oskar NPM, 2005, 304 s.
2. Axundova E. Şəxsiyyət və zaman. II hissə, Bakı: Ozan, 2007, 784 s.
3. Azərbaycan tarixi: 7 cilddə. VII c., Bakı: Elm, 2003, 676 s.
4. Qasımov Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Bakı: Turxan NPB, 264 s.
5. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr / Tərtib edəni Əli Həsənov. Bakı: Azərbaycan, 2008, 840 s.
6. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, 328 s.
7. Naxçıvan ensiklopediyası: 2 cilddə. I c., Naxçıvan, 2005, 361 s.
8. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı: Şərq-Qərb, 2001, 160 s.


**Hajifakhraddin Safarli**

## JULY 14, 1969 IS THE DATE WHEN THE PATH LEADING AZERBAIJAN TO DEVELOPMENT AND PROSPERITY BEGAN

The article tells about the activities of the national leader Heydar Aliyev in the first period of his leadership in Azerbaijan. It is noted that as a result of the purposeful policy of Heydar Aliyev, who was elected on July 14, 1969 as the first secretary of the Central Committee of the Communist Party of Azerbaijan, Azerbaijan turned from a backward agrarian country into a country with developed industry and agriculture, into a center of science, education and culture. A strong human resources potential has been created. As a result of the successful policy pursued, Azerbaijan, which occupied leading positions among the 15 union republics, was one of the two republics ready for independence after the collapse of the USSR.

**Keywords:** *Azerbaijan, Nakhchivan, government, industry, agriculture, culture, development.*

**Гаджифахреддин Сафарли**

## 14 ИЮЛЯ 1969-ГО ГОДА – ДАТА НАЧАЛА ПУТИ, ВЕДУЩЕГО АЗЕРБАЙДЖАН К РАЗВИТИЮ И ПРОЦВЕТАНИЮ

В статье рассказывается о деятельности общенационального лидера Гейдара Алиева в первый период его руководства Азербайджаном. Отмечается, что в результате целенаправленной политики Гейдар Алиева, избранного 14 июля 1969-го года первым секретарём Центрального Комитета КП Азербайджана, Азербайджан из отсталой аграрной страны превратился в страну с развитой промышленностью и сельским хозяйством, в центр науки, образования и культуры. Был создан мощный кадровый потенциал. В результате проводимой успешной политики занявший передовые позиции среди 15 союзных республик Азербайджан после распада СССР был одной из двух республик, готовых к независимости.

**Ключевые слова:** *Азербайджан, Нахчыван, власть, промышленность, сельское хозяйство, культура, развитие.*

RƏNA MİRZƏZADƏ

# HEYDƏR ƏLİYEV YOLU VƏ AZƏRBAYCANDA DÖVLƏTÇİLİK İNSTİTUTUNA SİYASİ-NƏZƏRİ BAXIŞ

*Məqalə inkişafın "Azərbaycan modeli"nə həsr olunur. Müəllif göstərir ki, bu modelin prinsipləri Azərbaycanın milli lideri Heydər Əliyev tərəfindən qoyulub və günümüzdə Azərbaycanda bütün sahələrdə, o cümlədən, xarici siyasətdə uğurla tətbiq olunur. Nəticədə ölkə dinamik iqtisadi inkişaf yolunda irəliləyir. Heydər Əliyev dövlətçilik məktəbinin yetirməsi İlham Əliyev böyük liderin yolunu davam etdirərək ölkənin sürətli sosial-iqtisadi inkişafına, əhalinin rifahının yüksəlməsinə rəhbərlik etmişdir. Azərbaycanlıların 30 ildən çoxdur ki, arzuladıqları Qarabağ torpaqları 44 günlük Vətən müharibəsi ilə işğaldan azad edilib. Müəllif "Azərbaycan modelini" azərbaycançılıq kontekstində, çoxmədəniyyətlilik və dözümlülük prinsipləri əsasında araşdırır və qeyd edir ki, tarixən Azərbaycanlılara xas əlamətlər bu gün gündəlik həyatın ayrılmaz hissəsinə çevrilib.*

**Açar sözlər:** *azərbaycançılıq, modernləşmə, strategiya, Heydər Əliyev yolu.*

XXI əsr Azərbaycanı tamamilə yeni bir ölkədir. Tarixi proses və hadisələrin əks olunduğu xroniki film ya sənədlər adi deyildirsə, dövlətçilik də tək onun formalaşma Yolunun sadalanmasından ibarət deyildir. Dövlətin yaranma və inkişaf tarixi onun milli suverenliyi ilə lider fenomeninin vəhdəti komponentidir. Hegel məntiqi ilə desək: "Ayrılıqda hər bir şəxs öz xalqının, həm də öz zəmanəsinin oğludur" [4, s. 50].

Hər bir tarixləşən liderə zaman və məkan kontekstindən yanaşdıqda, onun yaşadığı dövrün ictimai-siyasi mühitinə də həmin prizmadan baxılır. Olur ki, şəxsiyyət özü tarix yazır, zamandan da uca olur, ölkəsinin, millətinin, xalqının taleyüklü çətinliklərini dəf edərək, gələcək üçün belə vətəninin inkişaf yolunu göstərir. Ulu öndər müasir Azərbaycanın Milli İnkişaf Konsepsiyasını tərtib edən, inkişafın yol strategiyasının istiqamət vericisidir.

İnkişaf yolunu müəyyənləşdirən şəxsiyyət, görkəmli dövlət xadimi, XX əsr Azərbaycan dövlətçilik İnstitutunu formalaşdıran ulu öndər Heydər Əliyevdir. Bu fenomen şəxsiyyətin həyat yolu, fəaliyyət yolu bütövlükdə Azərbaycanın XX əsrin 70-ci illərindən XXI əsrə keçid ərəfəsi ilə yazılan siyasi sosiologiya tarixidir. Bu tarix dörd mərhələ: sovet, keçid müstəqilliyin ilk illəri və müstəqillik dövründən ibarətdir. Bu çoxillik ictimai-siyasi fəaliyyət böyük bir dövrü təşkil edir. Sovet dövrü əsasən 1969-1986-cı illəri əhatə edir. Burada keçid prosesləri isə 1987-1990-cı illərə aiddir. Üçüncü mərhələ isə Azərbaycanın dövlət müstəqilliyinin ilk illəri mərhələsini, yəni 1991-1993-cü illər, müstəqillik dövrü 1993-2003-cü illəri əhatə edir. Ulu öndərin şəxsində bu dövrlər əhatəli fəaliyyət, milli inkişafa adekvat strateji nəzəriyyəsini və siyasi sosioloji təcrübəsini bütün parametrləri ilə ehtiva edir.

Bu real gerçəklik müasir Azərbaycanın siyasi yol dərsləridir. Böyük strateq ulu öndərin dövlət quruculuğu və siyasi fəaliyyəti "Heydər Əliyev yolu" adlanır. Bu yol çox keşməkeşliklərdən, sərtliklərdən keçmişdir. Bu yolda mətin, siyasi iradəli, mükəmməl və kamil dövlətçi Heydər Əliyev xarizması var. Məhz bu müsbət keyfiyyətlər də Azərbaycanın tarixi inkişaf dinamikasının ən mühüm paradiqmaları da aşağıdakı prioritetləri əhatə edir:

Heydər Əliyev yolunun əsası – bu böyük strateji məntiqli dühanın çoxsahəli fəaliyyətini, təlimçi dünyagörüşü və zəngin irsini əhatə edən dövlətşünaslıq komponentlərinin siyasi-ideoloji baxışlar sistemidir.

Heydər Əliyev yolunun milli qanunvericilik kursu – dövlətçiliyin hüquqi siyasi, iqtisadi, mənəvi, sosio-mədəni institutlarının qanunvericilik əsasında formalaşma komponentlərdir.

Heydər Əliyev yolunun siyasi sosioloji fəlsəfəsi – Azərbaycan vətəndaşlarında dövlətçilik kimi ali dəyərli hissin, respublikada gedən geniş miqyaslı quruculuq proseslərini dərk edərək onların iştirak komponentləridir.

Heydər Əliyev yolunun strateji xətti – ümumbəşəri yanaşma ilə milliliyə söykənən maraqlar və mövqe dəyərlərini ehtiva edən bitkin dövlət quruculuğu komponentləridir.

Heydər Əliyev yolunun siyasi məntiqi – suverenlik əldə etmiş ölkələrin dövlət quruculuğunu formalaşdırılması və tərəqqisi üçün təcrübədən keçmiş modeldir. Bu siyasi yol kurs MDB ərazisi dövlətlərində istər model, istər də öyrənilən bir nəzəri-təcrübi təlimdir.

Dövlət cəmiyyətin, ölkənin, vətənin obrazıdırsa, onun rəhbəri də dövlətin göstərici şəxsidir.

Heydər Əliyev yolunun xarici siyasət yolu – Azərbaycanda milli dövlətçilik institutunun beynəlxalq müstəvidə təqdim etməsi, xarici siyasətdə əlaqə və əməkdaşlığın inkişafı istiqamətində dövlətlərarası münasibətlərin maraq və mənafe praqmatikliyində, milli birliyin və milli həmrəyliyin təminatında diaspor lobbiçiliyin qurulmasıdır. Bu baxımdan O.Şpenqler göstərdiyi kimi: "xalq anlamı çoxmənalıdır, keçmiş hadisələri təsvir etmək üçün geniş istifadə olunur, keçmiş reallıqda çox az bağlılığı olan müasir anlamlar keçmiş hadisələrə şamil edilir" [6, s. 11].

Heydər Əliyev yolunun qurtuluş yolu xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələn ulu öndər 1993-cü ildən başlayaraq ölkəni düşdüyü xaosdan, bölünmə, parçalanma təhlükəsindən xilas etməsidir. Azərbaycan tarixində xilaskar ölkə rəhbəri olması komponentidir. Ulu öndər xalqı səfərbər edən aparıcı liderdir. O, müstəqil Azərbaycan dövlətinin qurucusu olaraq mürəkkəb geosiyasi vəziyyətdə, yeni dünya düzəninin tələbləri və geoiqtisadi reallıqları kontekstində müstəqil Azərbaycanın dövlətçilik institutunun milli inkişaf strategiyasını siyasi-tarixi və elmi-nəzəri mətndə istiqamətləndirilməsidir".

1993-cü ildə Azərbaycanın həm müstəqilliyi, həm də dövlət kimi ərazi bütövlüyü, bəlkə də politoloji anlamda desək, "vertikal" və "horizontal" siyasi bölünməyə məruz qala bilərdi. Yəni, hüquqlar və məsuliyyət ayrı-ayrı dövlətlərin hökumətləri və digər beynəlxalq qurumlar arasında bölünə bilərdi. Bu mənada E.Toflerin milli dövlətlərin tədricən transmilli korporasiyaların təzyiqi ilə sıxışdırılıb "əriyib itəcəyi" ideyasının ölkədə proqnozlaşdırması da mümkün variant idi. Bu variantda isə ölkəni yalnız böyük dövlət insanı, dövlət strateqi Heydər Əliyev qurtardı... Və 15 iyun Azərbaycanın Qurtuluş günü kimi tarixləşdi. "Mən həyatımın qalan hissəsini də xalqıma bağışlayıram" deyən ulu öndər gerçək anlamda dövləti xarici müdaxilə və daxili çəkişmələrdən xilas etdi.

Heydər Əliyev yolu suverenliyə nə verdi... Azərbaycan müstəqillik qazandıqdan sonra qarşıda duran vəzifə isə artıq: ölkənin demokratikləşdirilməsi, bazar iqtisadiyyatına keçidin formalaşdırılması, ictimai-siyasi sabitlik, idarəetmə və hakimiyyətin, ən əsası isə qanunvericilik bazasının yaradılması komponentləri idi.

Bu aspektdən F.Fukuyama vurğuladığı kimi: "İnkişaf etmiş dövlətlərin sosial təhlükəsizlik problemlərinin həlli və milli dövlətin nüfuzu məsələsi, demək olar ki, müstəsna dərəcədə dövlətin idarəçilik idarəçilik qabiliyyəti ilə birbaşa bağlı olacaqdır" [5, s. 68].

Bu məntiqdən ulu öndər böyük təcrübəyə və idarəetmə ustadlığına malik idi.

Heydər Əliyev yolunun əsaslı dəyişiklikləri ulu öndərin az müddətdə ölkədə əsaslı dəyişiklikləri həyata keçirməsi oldu. Bu isə bir neçə mərhələdə aparıldı. İlk öncə: birinci yol mərhələsində: siyasi-ictimai sabitlik; dövlət quruculuğu prosesinə istiqamət götürüldü. Ulu öndər güclü dövlət qurucusudur. Yəni F.Fukuyama demişkən: "Güclü dövlət dedikdə, tarixi çağırışlara cavab verə bilən, ictimai münasibətləri nizamlayan mövcud problemləri vaxtında həll edən, daim islahatlar aparan dövlət nəzərdə tutulur" [5, s. 11]. Heydər Əliyev artıq XX əsrin 93-cü illərindən ölkədə strateji prioritetlər paradiqmaları müəyyənləşdirildi. Bu mənada; ikinci yol mərhələsində: əsaslı iqtisadi islahatlar; inzibati strukturların demokratik əsaslarda və milli qanunvericiliyə əsasən yenidən qurulması; məhkəmə və parlamentin formalaşdırılması; vətəndaş cəmiyyətinə keçid; çoxpartiyalı siyasi sistem; sosiomədəni yenilənmələr də bu paralelliyi təşkil edir. Heydər Əliyev müstəqil Azərbaycanın güclü dövlət modelini quran rəhbərdir.

Üçüncü mərhələ yolunda isə böyük strateq dövlətçiliyin milli ideoloji əsaslarının azərbaycançılıq əsasında təminatını yaratdı. Ölkədə məskunlaşan hər xalqın öz mədəniyyətinin, adət-ənənəsinin, həyat tərzinin hifz edilməsi, inkişafı onların hüquqlarını qoruyan qanunlarla tənzimləndi. Bu zəmində isə Milli ideya, milli ideologiya azərbaycançılıq məfkurəsi ətrafında ölkə vətəndaşları sıx birləşdi. Ulu öndər azərbaycançılıq ideyasını ideologiyaya, milli baxışlar sisteminə çevirdi. Azərbaycançılıq ədəbi, mədəni-mənəvi, fəlsəfi dəyərlərlə bahəm, sosial-siyasi məzmun daşıyaraq ümumi ideoloji təlim kimi milli dövlətçilik institutunun bölünməz komponentləridir. Bu baxımdan R.Aslanova yazır ki: "Xalqımızın ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin təməlini qoymaqla müqəddəs bir missiyanı gerçəkliyə çevirdi; milliliklə dövlətçiliyi bir-birinə qovuşdurdu, onların sarsılmaz vəhdətini təmin etdi" [1, s. 194].

Ulu öndər xalqın ağır sınaqlardan keçən tarixi yolunu 28 may Respublika gününü, 26 may Ordu gününün bayram kimi qeyd edilməsini qanunla təsdiqlədi. Daim milli dəyərlərə, mənəvi adət ənənələrə hörmət qoyan ümummilli lider həmçinin müsəlmanların müqəddəs Ramazan, Qurban bayramlarını da müvafiq təqvimə bayram günü olmasını da reallaşdırdı. Bu islahatlar mili dirçəliş, milli oyanış,, milli özünüdərk kimliyinin azərbaycançılıq ideoloji mətnində vəhdəti yolunun siyasi sosiologiyası idi. Belə ki, Azərbaycan ərazisində bütün vətəndaşların bu ölkədə yaşamaq üçün münbit zəmin yaratdı. Ulu öndərin siyasi və dövləti fəaliyyət strategiyası çoxmillətli, çox mədəniyyətli ölkənin xalqlarının milli dövlətçilik haqda istəklərini gerçəkləşdirdi. Belə ki, Azərbaycan vətəndaşlarının, xalqının və bu ərazidə yaşayan xalqların milli dirçəliş siyasi konsepsiyası zəruriləşdi.

Heydər Əliyev strateji yol kursu milli dövlətçilik institutunun siyasi arxitekturası; siyasi-hüquqi idarəçilik nəzəriyyəsini, dövlətiyaratma siyasi kursunu, dünyaya inteqrasiya istiqamətlərinin beynəlxalq əməkdaşlıq münasibətlərini müəyyənləşdirdi. Heydər Əliyev milli quruculuq yolunun siyasi sosiologiyası yeni dövlətçilik institutu, müstəqil respublika, yeni Konstitusiya, suverenliyədək heç bir idarəçilik formasının oxşarı olmayan bir strateji nəzəriyyədir.

Müstəqil Azərbaycan ulu öndərin rəhbərliyi ilə müasir, dünyəvi, dünya birliyi ilə ikitərəfli və çoxtərəfli beynəlxalq əməkdaşlığa inteqrasiya yolunu tutan, suveren və demokratikləşməni həyata keçirən, respublika olaraq tanınmağa başladı. Yenilənmənin ilkin siyasi göstəricisi olaraq, ölkənin yeni iqtisadi inkişafının müəyyənləşmə xətti oldu.

Ulu öndərin dövlətçilik strategiyası yolu Azərbaycan siyasi tarixinin inkişaf səhifələridir.

– Ulu öndər ölkənin Ali Qanunvericiliyini – müstəqil respublikanın ilk konstitusiyasını təsbit etdi.

– Ulu öndər iqtisadi yol kursu – iqtisadi inkişafı dövlət həyatının ən vacib vəzifəsi etməsinin siyasi-sosioloji komponentidir. Bu mənada ulu öndər 1994-cü il 20 sentyabrda müstəqil Azərbaycanın ilk neft müqaviləsini "Əsrin kontraktını" imzaladı. Və nəinki ölkədə, regionda, hətta beynəlxalq enerji strategiyasında "Yeni neft siyasəti" başladı. Qeyd edək ki, Xəzər hövzəsi dövlətlərarası münasibətlərdə maraqların toqquşduğu nöqtədir. Ulu öndər Heydər Əliyev o zaman Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olan İlham Əliyevi də enerji layihələri ilə bağlı aparılan mübahisəli müzakirələrə dəvət etdi. Burada əsas vacib məsələ Azərbaycanın milli mənafeyini qoruyaraq, milli və dövlətçilik baxımından bu saziş imzalanarkən, öz milli maraqlarını qoruyub saxlamaq idi. Gənc və diplomatik bacarıqlı Dövlət Neft Şirkətinin keçmiş birinci vitse-prezidenti İlham Əliyevin isə problemə bələd olması, bu əhəmiyyətli müqavilənin müvəffəqiyyətlə başa çatmasına kömək oldu.

– Ulu öndər bazar iqtisadiyyatına keçid dövründə tənəzzülə uğramış idman, mədəniyyət, təhsil, elm, səhiyyə, ümumilikdə sosial və humanitar sahənin də dirçəlişinə diqqət verdi.

Heydər Əliyev yolunun beynəlxalq xətti – dünya birliyinə inteqrasiyanın təməlinin yaranmasıdır. Belə ki, müstəqil Azərbaycan BMT-dən sonra, MDB-nin, ATƏT-in, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının, Davos İqtisadi Forumunun, İqtisadi Əməkdaşlıq Təşkilatının və s. nüfuzlu qurumların üzvü oldu.

Ulu öndər BMT tribunasından ana dili – Azərbaycan dilində ilk çıxış edən Azərbaycan rəhbəridir. İstər ilk hakimiyyəti illərində (sovet), istərsə də postsovet dövründə ulu öndər Azərbaycan dilini dövlət dili olaraq vətəndaşlara təlqin etdi, rəsmiləşdirdi. Bu da azərbaycançılığın əsas təməllərindən biridir. Ulu öndər Ali Baş Komandan, general idi. Heydər Əliyev ölkənin milli təhlükəsizliyinin qoruyucusu, davranışı, siyasi mədəniyyəti, milli düşüncəli, dünyəvi mənəviyyatlı, tolerant və əzmli, diqqətcil və cəsarətli, səmimi və cəsur, mətin və qətiyyətli, hərtərəfli hazırlıqlı milli Lider idi.

– XXI əsrin əvvəlindən bu tərəqqi, bu yüksəliş yolunun davamçısı ulu öndər Heydər Əliyev, dövlətçilik institutunun layiqli aparıcısı, modernləşən yeni Azərbaycanın, 30 illik erməni işğalında olan Qarabağda zəfər çalan Prezident İlham Əliyevdir. Ulu öndər Heydər Əliyev ideyaları, bitkin siyasi praqmatizm, insan rifahına söykənən sosial siyasətin həyata keçirilməsi dövlət quruculuğunun siyasi-sosioloji nəzəriyyəsidir. Bu ulu öndər Heydər Əliyev milli inkişaf strategiyasının nəzəri konseptidir, təcrübi siyasi-strateji konsepsiyasıdır.

Azərbaycan dövlətçilik tarixində, ulu öndər Heydər Əliyev müstəqil respublikanın, xarizmatik lider, siyasət ustası, cəsur qətiyyətli rəhbəridir. Ulu öndər Azərbaycanın ən yeni tarixində dövlət

quruculuğunun onun geosiyasi, geoiqtisadi, hüquqi, sosiomədəni, təməlini qoyan siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir. 1991-ci ildən müstəqil olan Azərbaycanda elə bir sahə yoxdur ki, onun yenidən bərpasında, inkişafında ulu öndərin fikri, sözü, fərmanı, sərəncamı olmasın.

Fikrimi Azərbaycanın I vitse-prezidenti xanım Mehriban Əliyevanın fikirləri ilə bitirək: "Onun həmyaşıdları Heydər Əliyevin həyat dərslərinin mahiyyətini bu gün də öyrənirlər. Heydər Əliyev – tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı, 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran vətəndaş, şəxsiyyət, liderdir... Vətənin – Azərbaycanın taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı" [3].

## ƏDƏBİYYAT

1. Aslanova R. Müasir dövlət və dövlətşünaslıq elmi. Bakı, 2011, 440 s.
2. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Bakı, 2011, 140 s.
3. Mirzəzadə R. "Yeni dünya nizamı və milli ideya" siyasi fəlsəfi paradiqması // Elm və həyat, 2017, № 5.
4. Гегель Г. Сочинения. Т I, с. 50.
5. Фукуяма Ф. Сильное государство: Управление и мировой порядок в XXI веке. Москва, 2006, с. 68.
6. Шпенглер О. Закат Европы. Т. II, Москва: Мысль, 1998, с. 166.

***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***E-mail: mirrena54@yahoo.com***

**Rena Mirzazadeh**

## POLITICAL AND THEORETICAL VIEW ON THE PATH OF HEYDAR ALIYEV AND THE INSTITUTION OF STATEHOOD IN AZERBAIJAN

The article is devoted to the "Azerbaijani model" of development. The author shows that the principles of this model were laid down by the national leader of Azerbaijan, Heydar Aliyev, and today they are successfully applied in all spheres of Azerbaijan, including in foreign policy. As a result, the country is moving along the path of dynamic economic development. Ilham Aliyev, a graduate of the Heydar Aliyev School of Statehood, continued the path of a great leader and led the rapid socio-economic development of the country and the improvement of the well-being of the population. The lands of Karabakh, which the Azerbaijanis dreamed of for more than 30 years, were liberated from occupation during the 44-day Patriotic War. The author examines the "Azerbaijani model" in the context of Azerbaijanism, based on the principles of multiculturalism and tolerance, and notes that the historical characteristics of Azerbaijanis today have become an integral part of everyday life.

**Keywords:** *azerbaijanism, modernization, strategy, Heydar Aliyev's path.*

**Рена Мирзазаде**

## ПОЛИТИКО-ТЕОРЕТИЧЕСКИЙ ВЗГЛЯД НА ПУТЬ ГЕЙДАРА АЛИЕВА И ИНСТИТУТ ГОСУДАРСТВЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ

Статья посвящена «азербайджанской модели» развития. Автор показывает, что принципы этой модели были заложены общенациональным лидером Азербайджана Гейдаром Алиевым и сегодня успешно применяются во всех сферах Азербайджана, в том числе и во внешней политике. В результате страна продвигается по пути динамичного экономического развития. Ильхам

Алиев, выпускник Школы государственности Гейдара Алиева, продолжил путь великого лидера и руководил стремительным социально-экономическим развитием страны и улучшением благосостояния населения. Земли Карабаха, о которых азербайджанцы мечтали более 30 лет, были освобождены от оккупации в ходе 44-дневной Отечественной войны. Автор рассматривает «азербайджанскую модель» в контексте азербайджанства, исходя из принципов мультикультурализма и толерантности, и отмечает, что исторические характеристики азербайджанцев сегодня стали неотъемлемой частью повседневной жизни.

**Ключевые слова:** *азербайджанство, модернизация, стратегия, путь Гейдара Алиева.*

**ZİBA AĞAYEVA**

# XALQIN BİRLİYİNİN VƏ MİLLİ KİMLİYİNİN SAXLANMASINDA AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ ROLU

*Məqalədə Azərbaycanda müstəqillik dövrünün ilk illərindən başlayaraq, xalqın tələbi ilə hakimiyyətə gələn ümummilli lider Heydər Əliyevin Azərbaycanın bütövlüyünün qorunub saxlanması, ölkə ərazisində yaşayan bütün xalqların birliyinin, milli maraqlarının, ölkənin bütövlüyünün və möhkəmliyinin təmin olunması, milli kimliyinin, dayanıqlığının, çoxmədəniyyətliliyinin, çoxkonfessiyalılığınının, milli-mənəvi dəyərlərinin, yəni xalqın əsrlər boyu qoruyub, yaşatdığı dilinin, dininin, adət-ənənələrinin, mədəniyyətinin saxlanılması, cəmiyyətimizin demokratikləşməsi, yeniləşməsi, modernləşməsi məsələlərinin bir dövlət strategiyasına çevirməsi tədqiq edilmişdir.*

*Qeyd edilmişdir ki, bu strategiyaya uyğun olaraq, Azərbaycan nə qlobal proseslərin qanunauyğunluqlarına, nə də sivilizasion inkişafın xüsusiyyətlərinə tabe olmamış, özünün geosiyasi və geomədəni mövqeyinə uyğun olaraq öz tarixi, mədəni sivilizasion kimliyini, milli-mənəvi dəyərlərini qoruyub, saxlaya bilmişdir. Bütün bu uğurlarda ümummilli lider Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyasının rolu müstəsna əhəmiyyət kəsb edir. Bu ideologiya mənəvi inkişaf konsepsiyası sahəsindəki boşluğu aradan qaldırmaqla azərbaycançılığımızın və dövlətçiliyimizin saxlanmasına və möhkəmlənməsinə xidmət göstərmiş, eyni zamanda dövlətçilik düşüncəsinin əsasını təşkil edən milli, mənəvi, mədəni, ədəbi, tarixi, siyasi, iqtisadi dəyərlər sisteminin ümumiləşdirilmiş məcmusu olmaqla, dünyanın harasında yaşamalarından asılı olmayaraq azərbaycanlıları birləşdirən, həmrəy edən, milli köklərinə sadiq qalmağı təmin edən qüvvəyə çevrilmişdir.*

*Hazırda azərbaycançılıq sosial reallığın, müasir cəmiyyətin siyasi və mənəvi həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. O məzmununa, xarakterinə və təzahür formalarına görə çoxmənalı olsa da, öz mahiyyətinə görə bütövlükdə cəmiyyətin maraqlarını ifadə edən dəyər şüurudur. Azərbaycançılıq ideologiyasının mahiyyətini bir tərəfdən dövlətçiliyin ardıcıl yüksəlişini təmin edən prinsiplər, digər tərəfdən isə bu vəzifənin məhz milli-mənəvi dəyərlərə söykənərək yerinə yetirilməsi təşkil edir. Çünki hər iki məsələ arasında sarsılmaz vəhdət mövcuddur. Milli kimliyini bilməyən və özünü dərk etməyən xalqın milli müstəqilliyə nail olması sual altında olur. Bütün bunlar müasir dünyanın çağırışlarına cavab verməkdə, ölkənin modernləşməsində mühüm amilə çevrildi.*

**Açar sözlər:** *ümummilli lider Heydər Əliyev, müstəqillik dövrü, xaos, dövlət strategiyası, milli birlik, azərbaycançılıq, milli kimlik, milli-mənəvi dəyərlər, milli inkişaf, modernləşmə.*

SSRİ-nin süqutundan sonrakı dövrlərdə Azərbaycanda ölkədaxili çəkişmələrin, Qarabağ müharibəsinin getdiyi, yoxsulluğun, narkomaniyanın səviyyəsinin yüksək olduğu, intiharların vüsət aldığı bir dövrdə ölkədə siyasi, iqtisadi və sosial böhran vəziyyəti hökm sürürdü. Belə bir şəraitə sual doğurdu Azərbaycan bu problemləri necə həll edəcək və cəmiyyətin iqtisadi, siyasi və mənəvi sahələrində uğurlar əldə etmək üçün dinamik inkişaf yoluna necə qədəm qoyacaqdır?

1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev vəziyyəti dəyişmək üçün daxildə islahatların aparılmasına nail oldu. Dünyanın qədim xalqlarından biri kimi azərbaycanlıların malik olduğu yüksək mənəvi-əxlaqi keyfiyyətlərin qorunub saxlanılması "keçid dövrü" kimi səciyyələnən mürəkkəb bir zamanda dəyərlərin varisliyinin təmin edilməsi nə qədər çətin olsa da, Heydər Əliyevin rəhbərliyi altında böyük uğurla həyata keçirildi. Ümumbəşəri və milli-mənəvi dəyərlərin ahəngdar sintezinə nail olmaq istiqamətində möhtəşəm addımlar atıldı. Sovetlər dönəmində məqsədyönlü şəkildə həyata keçirilən milli-mənəvi köklərdən uzaqlaşma siyasətinin, yadlaşma prosesinin nəticələrinin aradan qaldırılması üçün vəzifələr müəyyənləşdirildi. Bu istiqamətdə aparılan işlər arasında ən mühüm məsələ şübhəsiz ki, mövcud ideoloji vakuumu, mənəvi inkişaf konsepsiyası sahəsindəki boşluğu dəf etməkdən ibarət idi. Eyni zamanda ideologiya əhəmiyyətli dərəcədə tərbiyəvi potensiala malik olduğundan, şəxsiyyətin siyasi sosiallaşması məsələsinin həllini, vətəndaşların siyasi mədəniyyətinin formalaşmasını və inkişafını təmin etməyə istiqamətləndiyindən bu məsələ özünün təcili həllini tələb edirdi. Məqsədə çatmaq, hadisələrin inkişafının təhlükəli məcrada gedə bilməsinin qarşısını almaq üçün dərin düşünülmüş, mənəvi dirçəlişin pozitiv, yaradıcı xarakterinin yüksəldilməsinə istiqamətlənmiş siyasi, iqtisadi və mədəni cəhətdən bir-birini tamamlayan milli ideologiyanın konsepsiyasının işlənib hazırlanmasına ehtiyac duyulurdu.

Təsadüfi deyil ki, Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə (31 avqust 1994-cü il) giriş sözü ilə çıxış dən ulu öndər Heydər Əliyev deyirdi: "…bizim milli ideologiyamızın konsepsiyası olmalıdır. Şübhəsiz ki, bu konsepsiya tarixi keçmişimiz, milli, mədəni, dini ənənələrimiz üzərində qurulmalıdır.

Biz XX əsrdə cürbəcür mərhələlərdən keçdik, ayrı-ayrı ideologiyaların təsiri altında qaldıq. İndi xalqımız hər cəhətdən azaddır. Ona görə də lazımdır ki, ümumiyyətlə, düşünən beyinlərimiz, alimlərimiz və o cümlədən təhsil sahəsində çalışan müəllim ordusu milli ideologiyamızın formalaşması üçün öz fəaliyyətini göstərsin. Bu ideologiyanı qurmaq, yaratmaq, təşkil etmək, eyni zamanda əməli surətdə həyata keçirmək lazımdır…" [4, s. 169].

Bəşəriyyətin mənəvi həyat tarixi sübut edir ki, insanların ideala sahib olmaq və onlara çatmaq cəhdi şüurlu varlıq kimi yalnız insanlara xas güclü xüsusiyyətdir. İdeologiya ictimai şüurun elə formalarından biridir ki, onun hüdudları daxilində insanların mənəvi ehtiyac duyduğu məna, məqsəd və dəyərlər toplanır. Bu üzdən cəmiyyətdə ideologiyanın məzmunu və mahiyyəti məsələsi son dərəcə aktual olub, özünün sosial dərkini tələb edir. Bütün bunlara dərindən bələd olan ümummilli lider milli ideologiyamızın konsepsiyasını Azərbaycanın bütövlüyünün qorunub saxlanmasına, ölkədə yaşayan bütün xalqların birliyinə, qarşılıqlı dəstəyinə, əməkdaşlığına, dirçəldilən irsə yanaşmada diferensial yanaşmanın zəruriliyinə, xalqın əsrlər boyu qoruyub, yaşatdığı dilinə, dininə, adət-ənənələrə, cəmiyyətimizin demokratikləşməsinə, yeniləşməsinə, modernləşməsinə, yəni müasir sivilizasiyanın özü ilə birgə gətirdiyi pozitiv dəyərlərə, hüquqi demokratik cəmiyyətin qurulması prosesi ilə bağlı dəyərlərə – insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı, azad sahibkarlıq hüququ, söz azadlığı, mətbuat azadlığı və s. xidmət göstərən ümumbəşəri dəyərlərə əsaslanan, azərbaycançılığımızın və dövlətçiliyimizin saxlanmasına və möhkəmlənməsinə xidmət göstərmək iqtidarına malik bir ideologiya kimi görürdü.

Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr edilmiş yubiley gecəsindəki nitqində (28 dekabr 1994-cü il) ulu öndər deyirdi: "... Biz indi əsrin sonuna doğru addımlayarkən müstəqil dövlət kimi öz milli ideologiyamız haqqında düşünməliyik. Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır. Bu baxımdan, Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasına, yaranmasına və onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir" [3, s. 45].

Azərbaycan xalqı tarixən güclü mənəvi ənənələrə malik olmuşdur. Ən qədim siyasi fikir nümunəsi olan Zərdüştilik (e.ə. VII əsrin II yarısı-VII əsrin əvvəlləri) özünün müqəddəs kitabı "Avesta"da şər üzərində qələbə üçün "Xeyirxah fikir", "xeyirxah söz" və "xeyirxah əməl" üçlüyünü əsas şərt kimi irəli sürmüşdür. Zərdüşt sosial şərlə mübarizənin mümkünlüyünü irəli sürərək demişdir: "bir ruh və bir də insan öz yolunu özü müəyyən etməli"dir. Zərdüştə görə insana azad seçim verilmişdir, insan xeyirlə şər arasındakı mübarizədə sərbəst şəkildə istədiyi tərəfdə dura bilər.Zərdüştilikdə səxavət, doğruculuq, arzu və istəklərdə mötədillik təbliğ olunur, sədaqətə, etibara və həqiqətə böyük önəm verilir. Dünyanın ən qədim dövlət dini olan Zərdüştilik sonralar yaranmış dinlərin – İudaizmin, Xristianlığın, İslamın inkişafına böyük təsir göstərmişdir. Eyni zamanda sonradan zorla müsəlmanlaşdırılan zərdüştilər Azərbaycanda islam dini mənəvi dəyərlərinin formalaşmasına təsir göstərmişdir [2]. Yüksək mənəvi dəyərləri, əqidə və inamı olan xalqlar qarşısında böyük sərkərdələr, hökmdarlar belə geri çəkilmişlər. Ədalətli, nizam-intizamlı cəmiyyət həm xalqın, həm də filosofların arzusu olmuşdur. Tusi yazır: "Bir cəmaət qələbə çalıb hakimiyyət başına keçsə, nizam-intizam yaradıb əhali ilə xoş rəftar etsə, ədalətli olsa, etibar qazansa onların dövləti bir müddət yaşaya bilər, əks halda tez dağılar" [7, s. 211]. "Rəiyyəti ədalət, fəzilət və hikmət qanunları əsasında idarə etmək lazımdır", çünki, dövlətin əsas vəzifəsi "xeyirli işlərlə məşğul olmaq, şər işlərin qarşısını almaqdır". Filosof deyir: "Əhali arasında nizam-intizam olsa, bu uzun müddət onlara bəsdir", yəni, nəinki hakim təbəqə, həm də əhali qanun çərçivəsindən kənara çıxmamalıdır" [7, s. 215]. Göründüyü kimi azəraycançılıq bir ideya kimi

yeni deyildir və bu ideyanın konsepsiyasının kökündə, təməlində onun formalaşmasına təsir göstərəntarixi köklərimizdən qaynaqlanan və Azərbaycan üçün ənənəvi olan, xalq üçün anlaşıqlı və doğma, real bazası olan dəyərlər sisteminin cəmi durur.

Bu bir həqiqət və aksiomadır ki, artıq azərbaycançılıq ideologiyası sosial reallığın, müasir cəmiyyətin siyasi və mənəvi həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. O məzmununa, xarakterinə və təzahür formalarına görə çoxmənalı olsa da, öz mahiyyətinə görə bütövlükdə cəmiyyətin maraqlarını ifadə edən dəyər şüurudur. Azərbaycançılıq ideologiyasının mahiyyətini bir tərəfdən dövlətçiliyin ardıcıl yüksəlişini təmin edən prinsiplər, digər tərəfdən isə bu vəzifənin məhz milli-mənəvi dəyərlərə söykənərək yerinə yetirilməsi təşkil edir. Çünki hər iki məsələ arasında sarsılmaz vəhdət mövcuddur. Milli kimliyini bilməyən və özünü dərk etməyən xalqın milli müstəqilliyə nail olması sual altında olur.

Ölkə müstəqilliyinin ilk illərində ulu öndər Heydər Əliyev özünün müxtəlif çıxışlarında: "xalqın birliyini və milli kimliyinin saxlanmasının zəruriliyini" dəfələrlə qeyd edirdi. Zamanın çağırışlarına yalnız xalqın ümumi məqsədlərini, vəzifələrini və dəyərlərini nəzərə almaqla cavab vermək mümkündür. Lakin qanunla, sərəncamla mənəviyyatlı olmaq olmaz. Mənəviyyat qanunlara, qadağalara, məhdudiyyətlərə tabe deyil, o, cəmiyyətdə milli-mənəvi dəyərlərin əsaslarının möhkəmliyindən asılıdır.

Məhz bu məqsədlə Azərbaycan cəmiyyətində dəyər strategiyasını müəyyənləşdirmək üçün, ölkəmizin inkişafında təməlində milli dəyərlərin durduğu, Azərbaycanın tarixi inkişafını, gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən, xalqı öz ətrafında birləşdirə bilən, ölkədə yaşayan müxtəlif xalqların, milli azlıqların və etnik qrupların (60-a yaxın) qarşılıqlı anlaşmasını, birgəyaşayışını, cəmiyyətdə demokratiyanın, tolerantlığın inkişafını təmin edəcək, milli-mənəvi dəyərlərin əsaslarının möhkəmliyinə xidmət edəcək milli ideologiyanın formalaşmasına bir ehtiyac duyulurdu. "Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Və bu zaman milli ruh həyat tərzinə çevrilir. Dövlətçilik ideologiyası da, milli ideologiya da eyni bir təməl üzərində- milli fəlsəfi fikir zəminində formalaşır" [8, s. 365].

Ulu öndər bütün dünyada yaşayan azərbaycanlıları vahid ideologiya ətrafında birləşdirmək, vətənə, torpağa bağlı, öz milli köklərini, milli mənsubiyyətlərini saxlayan, tarixi kökünü, milli-mənəvi dəyərlərini, adət-ənənələrini, milli mədəniyyətini itirməyənvətənpərvər bir azərbaycanlı kimi görmək istəyirdi. Bunu dövlət siyasətinin tərkib hissəsi kimi dəyərləndirən Heydər Əliyev təsadüfi deyil ki, Dünya Azərbaycanlılarının (9 noyabr 2001-ci il) birinci qurultayındakı nitqində deyirdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi, həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnərək hər bir insanın inkişafının təmin olunması deməkdir" [5, s. 197].

Ulu öndər özü azərbaycanlı olması ilə qürur duyur və bunu fəxrlə bütün dünya azərbaycanlılarına bəyan edirdi: "Əziz həmvətənlər! Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır. Azərbaycan dilinin inkişafı haqqında bizim qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır. Biz Azərbaycanın latın əlifbasına keçməsi haqqında qərar qəbul etdik. İndi Azərbaycanda hamı, bütün dövlət orqanları yalnız latın əlifbasından istifadə edir. Bu da bizim milliliyimizi, azərbaycançılığımızı göstərən çox mühüm bir amildir. Biz bundan sonra da Azərbaycan dilinin inkişaf etdirilməsi üçün səylərimizi davam etdirəcəyik" [5, s. 198].

Azərbaycanın milli inkişafı, dövlətçiliyinin möhkəmlənməsi naminə dünyanın 70 ölkəsində məskunlaşmış azərbaycanlıların həmrəyliyini, birliyini, doğma, tarixi vətənin sevinci və kədəri ətrafında təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan ulu öndər 31 Dekabr Dünya

Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərindən birində deyirdi: "Xalqımızın tarixi müqəddəratının təxirəsalınmaz vəzifəsi olan dünya azərbaycanlılarının birliyi və həmrəyliyinin əsasını azərbaycançılıq və Azərbaycan dövlətçiliyi ideyaları təşkil edir. Azərbaycançılıq ideyası hər şeydən əvvəl azərbaycanlıların milli mənlik şüurunun, milli-mənəvi dəyərlərinin, dilinin, mədəniyyətinin, əsrlərin sınağından çıxmış adət-ənənələrinin yaşadılmasını, bu ideya əsasında azərbaycanlıların tarixi Vətənlə və öz aralarında birliyinin yaradılmasını nəzərdə tutur" [5, s. 110].

Müstəqilliyimiz ilk dövrlərində AXC-Müsavat hakimiyyətinin etnik ayrı-seçkiliyi özündə əks etdirən bəyanatlarından məharətlə istifadə edən maraqlı dairələr ölkəmizin şimal bölgəsində "Sadval" adı altında qruplaşmaları və cənubda Əlikram Hümbətovun başçılığı altında "Talış-Muğan Respublikasının" yarandığını (7 avqust, 1993) elan edən olduqca təhlükəli separatçı hərəkatı hərəkətə gətirdi. Ölkənin siyasi sabitliyi təhlükə altına düşdü. Lakin ulu öndər Heydər Əliyevin siyasi bacarığı nəticəsində gərəkli zamanda və vaxtda yaradılan etnik separatizmin, ölkənin parçalanmasının qarşısını almaq qüdrətinə malik, mahiyyət etibarı ilə milli inkişaf konsepsiyası səciyyəsi daşıyan azərbaycançılıq ideologiyası ölkəni parçalanmaqdan xilas etdi. Ulu öndər Yeni Azərbaycan Partiyasının ikinci qurultayındakı (21 noyabr 2001-ci il) nitqində deyirdi: "Mən bu gün deyirəm ki, Azərbaycan xalqı vahid xalqdır. Azərbaycanın dövlət siyasəti azərbaycançılıq əsasında qurulubdur. Biz hamımız, hansı bölgədən olmağımızdan asılı olmayaraq, azərbaycanlı kimi on illərlə, yüzilliklərlə belə böyümüşük. Heç vaxt deməmişik bunun kökü nədir. Azərbaycanda yaşayan insanların hamısı – mən xristianları demirəm – həmişə özünü azərbaycanlı hesab ediblər. Onlar həqiqətən, azərbaycanlıdırlar və hamımız birlikdə ən əsas məqsədimizi – azərbaycançılığı möhkəmləndirmək, qorumaq və bütün Azərbaycan xalqını, Azərbaycan əhalisini bunun ətrafında birləşdirməkdir" [6, s. 33]. Milli Azərbaycançılıq ideologiyası müasir Azərbaycan cəmiyyətində ideya-siyasi və mənəvi-dini sistem olub, ictimai həyatın bütün sahələrində milli ənənələrə və dəyərlərin varisliyinə əsaslanır. Azərbaycançılıq ölkədə milli inkişaf ideyalarının, milli kimliyimizin saxlanmasına xidmət göstərir.

Milli kimlik məsələsinə fəlsəfi aspektdən, nəzəri olaraq diqqət yetirsək, onu obrazlı şəkildə köklü-budaqlı, qocaman bir ağaca bənzədə bilərik. Ağacın planetin nüvəsinə, yəni torpağın alt qatına, dərinliklərinə qədər uzanan kökündə ağac (insan) haqqında təsəvvürlərin, məlumatların toplandığını və bu təsəvvürlərin ağacın yaşam keyfiyyətini (insanın həyatını) müəyyənləşdirdiyini görərik. Torpağın üst qatında, münbit hissəsində, torpaqla ağacın təmas nöqtəsində artıq onun hansı ağac olacağı müəyyənləşir, insana münasibətdə "Mən" konsepsiyası, təbii mahiyyəti, yəni hansı milli dəyərlərə mənsub olacağı ortaya çıxır. Bu dəyərlərin üzə çıxması üçün gövdəyə, yəni ideologiyaya ehtiyac yaranır. Bu kontekstdən ideologiya gövdədir. İdeologiyanın gücü, dəyəri xalqın, millətin keyfiyyəti ilə ölçülür. Meyvələr KİV-lərdir. Kommunikasiya və ideologiya "Mən" konsepsiyasından yaranır. Yalnız bu halda millətin daxili gücü ortaya çıxır. Qüsurlu ideologiya millətin ictimai şüurunu, birliyini poza bilir. Alman filosofu K.Xübnerin ifadəsilə desək: görə "millətin kimliyi fərdi şəxsin identikliyi kimi insan birliyinin zəruri praktiki postulatlarındandır". O "Öz adi fəaliyyətlərində, nitqlərində, düşüncələrində, hiss və arzularında – bəzən şüurlu, bəzən şüursuz – zamanın müəyyən anlarında bu millətə mənsub olan subyektlərin əsaslandıqları çoxluğun müəyyənləşdirdiyi tarixi requlyativ sistemlər kimi təqdim edilir". Bu sistemlər yaxın və tanış arasında bilavasitə münasibət yaradır. Bura dəyərlər, mənəviyyat, mədəniyyət, dil, siyasi ideyalar və məqsədlər, eyni zamanda müəyyən coğrafiyaya, iqlimə münasibət, yerli üslubda ifadə olunan maddi əşyalarla əməliyyat: sənətkarlıq, texnoloji, kommersiya və digər işlər aid edilir [9, s. 292-293].

Eyni zamanda xüsusilə qeyd etmək lazımdır ki, qədim tarixə, adət və ənənələrə, zəngin irsə malik olan Azərbaycan ümumdünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermişdir. Bizim eranın I minilliyindən başlayaraq II minilliyin ortalarına qədər transkontinental ticarət yolu olan Çindən Orta və Ön Asiya ölkələrinə aparan böyük ipək yolu (Çin,Yaponiya, Hindistan, Monqolustan, İran, Özbəkistan,Tacikistan, Azərbaycan və digər ölkələr) çarpaz şəkildə keçən tarixi ticarət marşrutu olaraq, Avropa və Asiya dövlətləri və xalqları arasında əlaqələrin yaranmasına kömək etmişdir. Bu ölkənin genezisinin, dövlətçiliyinin, incəsənətinin, mədəniyyətinin və memarlığının təkamülünün bütün mərhə-

lələrini özündə birləşdirən unikal tarixinin formalaşmasına bir çox hallarda təsir göstərmişdir. Bütün bunlar eyni zamanda Azərbaycanın sivilizasion kimliyinin polietnik olmasını şərtləndirmişdir.

Dünyada gedən müasir proseslər insanı nə qədər mədəniyyətindən, dəyərlərindən, iqtisadi həyatından, tarixi köklərindən ayırmağa cəhd göstərirsə, insan bir o qədər öz mədəniyyətinin xüsusiyyətlərini, öz davranış norma və modellərini, bir sözlə milli-mədəni özünəməxsusluğunu saxlamağa cəhd göstərir.

Müasir dövrdə milli kimlik problemi iki əsas istiqamətdə nəzərdən keçirilir: 1.etnososial identiklik; 2. Sosial-siyasi identiklik. İdentikliyin bu iki formasına millətin özünüdərkinin iki tipi uyğun gəlir: bunlardan biri etnik azlıqların mədəniyyətlərinin struktur assimilyasiyaya məruz qoyduqları, etnosun inkişafının bitkin siyasi forması olan mədəniyyətdir; digəri – milli kimliyin sosial-siyasi məzmununa üstünlük verən dövlətin təşkilati, ideoloji, formayaradıcı resurslarından istifadə etməklə yaradılır və etnosların "milli iddialarının" qarşısını alınmasına xidmət göstərir.

Hazırda müxtəlif xalqlar, etnoslar, mədəniyyətlər arasında konstruktiv dialoq məsələsi etniklərarası və mədəniyyətlərarası ziddiyyətlərin aradan qaldırılması, problemlərinin həlli istiqamətində universal üsul deyil. Çünki sosial stabilliyin əldə olunması istiqamətində tədbirlərin reallaşmasında etnomədəni mühitin xarakterindən, əhalinin etniklərarası tarixi və təcrübəsindən, lokal cəmiyyətlərin müxtəlif etnomədəni seqmentləri arasında məhsuldar dialoqun potensialından, onun inkişaf amillərindən asılı olaraq belə üsullar çoxsaylıdır.

Milli cəmiyyətin multikultural inkişafının perspektivləri və ziddiyyətlərinin sistemli dərki, sosial-siyasi prinsiplərin baza əsası kimi həmvətəndaşlıq ideyasına əsaslanan multikulturalizmi, sosial və mədəni inkişafın əsas metodologiyası hesab edir. Multikulturalizm müxtəlif mədəniyyətlərin mexaniki birləşməsini və ya müəyyən ərazidə ayrıca, lakin yanaşı yaşamasını deyil, seqmentlərində müəyyən etnomədəni ənənələrin və ya etnomədəni ənənələr kompleksinin üstünlük təşkil etdiyi vahid mədəni məkanın tədrici formalaşmasını nəzərdə tutur.

Müasir zamanda bəşər sivilizasiyasının mütləq böyük hissəsini təşkil edən sinfi diferensial cəmiyyətlərdə siyasi ideologiya fenomeni dialektik xarakter daşıdığından, əsas siniflərin maraqları ən yaxşı halda obyektiv rəqabət, ən pis halda ziddiyyət təşkil edir. Məhz bu metodoloji prinsipdən çıxış edərək, son Azərbaycan Konstitusiyasında Azərbaycan cəmiyyətinin sinfi təbiətinə ziyan vurmamaq, ideoloji müxtəlifliyin tanınmasına mane olmamaq üçün rəsmi şəkildə dövlət tərəfindən müəyyənləşdirilən, dəstəklənən və ya məcburi şəkildə tətbiq olunan heç bir ideologiya haqqında bir bənd belə yoxdur [1]. Dövlətin hər hansı rəsmi ideologiyasının elan olunması əslində ideoloji diktaturanın qurulması demək olardı ki, bu da demokratik vətəndaş cəmiyyəti konsepsiyasına zidd olardı. Sinfi diferensial ideyaların cəmində sinfi cəmiyyətin ideologiyası ictimai inkişafı tormozlandıran və sosial inkişafa kömək göstərən ideologiyalara ayrılır. Müasir dövrün üç böyük ideologiyası və onların qarışmış kombinasiyaları-konservatizm, liberalizm və kommunizm tarixi inkişafın müxtəlif mərhələlərində konkret cəmiyyətlərdə demokratik forma aldığı kimi, totalitar forma da ala bilər.

Bütün bunlara dərindən bələd olan ümummilli liderin müəyyənləşdirdiyi azərbaycançılıq ideologiyası müstəqil dövlət yaratmaq və yaşatmağın bütün prinsiplərinin təcəssümünə çevrildi:

Ümummilli lider Heydər Əliyevin milliliklə ümumbəşəriliyin vəhdətini nəzərə alaraq müəyyənləşdirdiyi, müstəqil dövləti yaratmaq və yaşatmağın bütün prinsiplərini özündə təcəssüm etdirən, güclü mənəvi ənənələrə söykənən, təməlində "xeyirxah fikir", "xeyirxah söz" və "xeyirxah əməl" üçlüyünün durduğu azərbaycançılıq ideologiyası Azərbaycan xalqının birliyini, həmrəyliyini, öz milli-mənəvi köklərinə qayıdışını, milli ruhuna uyğun həyat və düşüncə tərzinin formalaşmasını, dirçəldilməsini təmin edən bir ideologiya oldu.

Azərbaycançılıq ideologiyasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası durduğundan nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların bir çox nəsillərinə xidmət edəcək və özünün təmiz, ilkin formasını saxlayacaqdır. Cəmiyyətimizin ideoloji cəhətdən parçalanması, müstəqilliyimizi sarsıda bilər. Azərbaycançılıq ideologiyası ətrafında birlik vətənimizin müstəqilliyinin qarantı, siyasi varlığımızın təminatçısı, milli kimliyimizin əsasıdır.

Azərbaycançılıq həyat tərzində, əxlaqda, mədəniyyət və mənəviyyatda, ədəbiyyatda olduğu kimi

dövlətimizin siyasi məfkurəsində duran təməl prinsiplərdəndir. Əsrlərdən bizə miras qalmış milli mənəvi dəyərlərimiz dövlətçiliyin nəinki mənəvi, həmçinin siyasi mövcudluğunun qarantı kimi çıxış edir.

Bu ideologiya milli ənənələrlə müasirliyi, dini dəyərlərə hörmətdə tolerantlığı, demokratik düşüncə ilə dövlətçilik şüurunu elə bir mükəmməl səviyyədə özündə birləşdirdi ki, onun söykəndiyi dəyərlər sistemi bütövlükdə Azərbaycan xalqının taleyini uzaq perspektivlər üçün müəyyənləşdirdi. Bu ideologiya yalnız sözdə, millilik şüarını əldə bəhanə tutanların deyil, müasir dövrün fövqəlmürəkkəb reallıqları fonunda öz xalqının suveren dövlətini yaratmış siyasət dahisinin irəli sürdüyü və gerçəkləşdirdiyi həyat hadisəsidir. Azərbaycançılıq ideologiyası, milli dövlətçilik düşüncəsi kimi XX əsrin sonlarından üzü bəri qlobal geosiyasi və iqtisadi reallıqlar fonunda xalqımızın özünütəsdiqini təmin etmişdir və bu gün də etməkdədir.

Ölkədə başlanan yeni tarixi dövrün ümumi səciyyəsini verməklə, mənəvi-mədəni inkişaf perspektivlərini müəyənləşdirməklə mənəviyyatın bütün sahələrini əhatə edən problem və perspektivləri ümumiləşdirməklə azərbaycançılığı mükəmməl konsepsiya səviyyəsinə qaldırmağa nail olan ümummilli lider bu sahədə strateji inkişafın təməlini qoymuşdur.

Azərbaycançılıq ideologiyasının mahiyyətini bir tərəfdən dövlətçiliyin ardıcıl yüksəlişini təmin edən prinsiplər, digər tərəfdən isə bu vəzifənin məhz milli-mənəvi dəyərlərə söykənərək yerinə yetirilməsi təşkil edir. Çünki hər iki məsələ arasında sarsılmaz vəhdət mövcuddur. Milli kimliyini bilməyən və özünü dərk etməyən xalqın milli müstəqilliyə nail olması sual altında olur. Bunların üzvi bağlılığını fəhmlə çözə bildiyi, siyasilik və mənəviliyin ülvi təcəssümünü ifadə etdiyi üçün Heydər Əliyev şəxsiyyəti xalqımızın əbədi milli lideri zirvəsində qərar tutmuşdur.

Tarix xalqın həqiqi müəllimidir. Azərbaycan xalqının tarixində siyasi təfəkkürü vəmənəvi şücaəti, dini dünyagörüşü və dünyəvi təhsili özündə birləşdirən xalqın, dövlətçiliyin inkişafına böyük töhfələr verən yüzlərlə görkəmli şəxsiyyətləri olmuşdur. Dədə Qorquddan başlayaraq Azərbaycan xalqının böyük oğullarının qəhrəmanlığı, ağlı, iradəsi, vətənsevərliyi xalqın vətəndaşlıq şüurunu formalaşdırmış, onu mənən tərbiyələndirmişdir. Dirçəliş prosesində və xalqın milli şüurunun oyanışında da xalqın tarixi yaddaşı, ənənələrin varisliyi yeni nəslin tərbiyəsinə əhəmiyyətli təsir göstərən güclü amil kimi tarixi dəyərlərin rolunu qaçılmaz etmişdir. Azərbaycan xalqının milli ruhunun oyanması, millətin mənəvi ideallarının formalaşması milliklə ümumbəşəriliyin dərin bağlılığını, vəhdətini əks etdirən bir hadisəyə çevrilmişdir. Hazırda da Azərbaycan ərazisində yaşayan bütün millətlər özünəməxsusluqlarını itirmədən vahid mentalitetə və ümumi davranış fəlsəfəsinə malikdirlər. Bu vahid mənəvi əsas müstəqillik dövrümüzdə millətlərarası dostluğun, razılığın mənbəyinə çevrilmişdir. Bununla yanaşı azərbaycançılıq ideologiyası həmin dövrün ekstremal şəraitində millətlərarası etnik qarşıdurmalara səbəb ola bilən, emosional cağırışların qarşısını ala bilən ağıla, iradəyə əsaslanmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009.
2. Avesta. Birinci kitab, Bakı, 1995.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Birinci kitab: iyun, 1993-may, 1994. Bakı: Azərnəşr, 1997, 612 s.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr / Buraxılışa məsul: R.Mehdiyev. İkinci kitab: may, 1994-dekabr, 1994. Bakı: Azərnəşr, 1997, 604 s.
5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr / Buraxılışına məsul R.Mehdiyev. Otuz altıncı kitab: sentyabr, 2001-noyabr, 2001. Bakı: Azərnəşr, 2011, 512 s.
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr / Buraxılışına məsul R.Mehdiyev. Otuz yeddinci kitab: noyabr, 2001-mart, 2002. Bakı: Azərnəşr, 2011, 520 s.
7. Nəsrəddin Tusi. Əxlaqi-nasiri. Bakı: Elm, 1989.

8. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2007.
9. Хюбнер К. Нация: от забвения к возрождению. Москва, 2001, с. 292-293, 400 с.

***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***E-mail: ziba.agayeva57@gmail.com***

**Ziba Aghaeva**

**THE ROLE OF THE IDEOLOGY OF AZERBAIJANISM IN PRESERVING THE UNITY AND NATIONAL IDENTITY OF THE PEOPLE**

The article analyzes the role of Azerbaijanism in maintaining the unity and national identity of the people. Attention is focused on how the national leader Heydar Aliyev, who came to power from the first years of independence of Azerbaijan at the request of the people, turned the issues of democratization, renewal and modernization of society into the political strategy of independent Azerbaijan, managed to maintain the unity of the country, ensured national interests, the integrity of the republic, preserved the national identity, stability, multiculturalism, national and moral values, consolidated the Azerbaijani society.

It is noted that in accordance with this strategy, Azerbaijan did not obey the laws of global processes, nor the peculiarities of civilizational development, but was able to protect and preserve its historical, cultural and civilizational identity, national and spiritual values. In all these successes, the role of the ideology of Azerbaijanism, laid down by the national leader Heydar Aliyev, is significant. Having eliminated the gap in the concept of spiritual development, it was Heydar Aliyev, as the founder of ideology, who turned it into the state policy of the country. This ideology served and serves to preserve and strengthen our statehood, and at the same time is a generalized set of national, spiritual, cultural, literary, historical, political and economic values that binds all Azerbaijanis, regardless of which part of the world they live in, becoming a force that unites, unites and ensures fidelity to national roots.

At present, Azerbaijanism has become an integral part of the social reality, political and spiritual life of modern society. Although it is ambiguous in its content, nature and forms of manifestation, but in its essence it is a value consciousness that expresses the interests of society as a whole. The essence of the ideology of Azerbaijanism lies, on the one hand, in the principles that ensure the steady rise of statehood, and on the other, in the fulfillment of this task based on national and spiritual values. Because there is an inseparable unity between these two issues. A people that does not know its national identity cannot be independent. All this is an important factor in solving the problems of the modern world and modernizing the country.

**Keywords:** *national leader Heydar Aliyev, period of independence, chaos, state strategy, national unity, Azerbaijanism, national identity, national moral values, national development, modernization.*

**Зиба Агаева**

**РОЛЬ ИДЕОЛОГИИ АЗЕРБАЙДЖАНСТВА В СОХРАНЕНИИ ЕДИНСТВА И НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ НАРОДА**

В статье исследуется сохранение целостности Азербайджана общенациональным лидером Гейдаром Алиевым, пришедшим к власти по требованию народа, начиная с первых лет периода независимости, обеспечение единства, национальных интересов, целостности и силы страны, национального самосознания, стабильности, многокультурности, многоконфессиональности, национально-духовных ценностей, т. е. сохранение языка, религии, обычаев и культуры, которые народ сохранял и поддерживал на протяжении столетий, превращение им демократизации, обновления и модернизации нашего общества в государственную стратегию.

Отмечается, что в соответствии с этой стратегией Азербайджан не подчинялся ни законам глобальных процессов, ни особенностям цивилизационного развития, а смог защитить и сохранить свою историческую, культурно-цивилизационную идентичность, национально-духовные ценности в соответствии со своим геополитическим и геокультурным положением. Во всех этих успехах исключительно важна роль идеологии азербайджанства, заложенной общенациональным лидером Гейдаром Алиевым. Эта идеология служит сохранению и укреплению нашей азербайджанской государственности, устранив пробел в концепции духовного развития, и в то же время представляет собой обобщенную систему национальных, духовных, культурных, литературных, исторических, политических, экономических ценностей, которые составляют основу мысли о государственности и наделяют азербайджанцев силой независимо от того, в какой части мира они живут, она стала объединяющей силой, обеспечивающей приверженность национальным корням.

В настоящее время азербайджанство стало неотъемлемой частью социальной реальности, политической и духовной жизни современного общества. Хотя оно неоднозначно по своему содержанию, характеру и формам проявления, но по своей сути оно является ценностным сознанием, выражающим интересы общества в целом. Суть идеологии азербайджанства заключается, с одной стороны, в принципах, обеспечивающих неуклонный подъем государственности, а с другой – в выполнении этой задачи на основе национальных и духовных ценностей. Потому что между этими двумя вопросами существует неразрывное единство. Народ, не знающий своей национальной идентичности, не может быть независимым. Все это является важным фактором в решении задач современного мира и модернизации страны.

**Ключевые слова:** *общенациональный лидер Гейдар Алиев, период независимости, хаос, государственная стратегия, национальное единство, азербайджанство, национальное самосознание, национальные нравственные ценности, национальное развитие, модернизация.*

SEVİNC ABBASOVA

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QADIN SİYASƏTİ

*Təqdim olunan məqalədə Azərbaycan Respublikasında hüquqi dövlətin formalaşması prosesi ümumi şəkildə nəzərdən keçirilir. Vurğulanır ki, Azərbaycan daha çox Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin strateji kursu sayəsində formalaşmış siyasi institutlara və fəaliyyət göstərən sosial-iqtisadi modelə malik inkişaf edən dövlətə çevrilib. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsində Heydər Əliyevin rolu və xidmətləri, habelə əsas vətəndaş hüquq və azadlıqlarının möhkəmləndirilməsinə xidmət edən normativ hüquqi aktlar təhlil edilir. Məqalədə Heydər Əliyevin demokratiya və qanunun aliliyi ilə bağlı fikirlərinin bəzi məqamlarından da bəhs edilir. Belə qənaətə gəldik ki, Azərbaycanın ümummilli lideri yeni siyasi-ictimai reallığın yaratdığı transformasiya xarakterli dəyişikliklərə şüurlu münasibəti ilə seçilirdi. Bununla belə, onun analitik təfəkkürü məlum "universalist" qanunauyğunluqlar üzrə demokratiyanın doqmatik qavrayışını istisna etməyə imkan verirdi. Demokratiya haqqında belə bir anlayışı Heydər Əliyevin bir çox mətnlərində və xüsusən də "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni, 2001-ci il, yeni əsrin və üçüncü minilliyin başlanması ilə əlaqədar Azərbaycan xalqına müraciətin"də görmək olar. Onlarda bu görkəmli dövlət xadiminin siyasi fəlsəfəsinin bəzi əsas prinsiplərini müəyyən etmək olar. Birincisi, siyasət elmi kateqoriyası kimi Əliyevin diskursunda demokratiya anarxiya və anarxiyanın antitezisi kimi görünür. Siyasi rejim kimi demokratiya yüksək təşkilatlanmış siyasi cəmiyyətin daha təkmil təşkili deməkdir. Eyni zamanda, "demokratiya" anlayışı "inkişaf" anlayışı ilə əlaqələndirilir. İkincisi, demokratiyanın bu cür təfsiri, bir tərəfdən, milli dövlətlərin şəxsiyyət və suverenliyi hüququnu dəstəkləyir, digər tərəfdən, siyasi və sosial-mədəni müxtəlifliyə əsaslanan demokratiyanın dəyişkənliyi ideyasını əsaslandırır.*

**Açar sözlər:** *Heydər Əliyev, siyasi transformasiya, yeni konstitusiya, Azərbaycanda hüquqi dövlət quruculuğu, insan hüquq və azadlıqları.*

Müstəqillik illərində Azərbaycanda istər dövlət qadın siyasətinin, istər qadınların sosial və iqtisadi vəziyyətinin dinamikasının, istərsə də qadın hərəkatının inkişafının tədqiqi bir sıra qənaətlərə gəlməyə imkan verir.

İlk növbədə qeyd edərdik ki, ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik ilk dönəm – 1970-1980-ci illərin əvvəlləri haqlı olaraq Azərbaycanın XX əsr tarixinin ictimai və iqtisadi tərəqqisinin zirvəsi hesab edilir. Məhz o zaman Sovetlər Birliyinin digər respublikaları arasında sosial-iqtisadi inkişafın autsayderi olan respublikamız görkəmli dövlət xadimi, xalqımızın Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında gerçəkdən nəhəng sıçrayışa nail olur. Sözügedən dövrdə ictimai həyatın elə bir sferası yox idi ki, orada qadınlarımız ciddi irəliləyişlərə nail olmasın. Fəqət 1980-ci illərin ortalarından ibarət, xüsusən də Heydər Əliyevin məkrli qüvvələr tərəfindən İttifaq dövlətinin rəhbərliyindən uzaqlaşdırılmasından sonra respublikamızda vəziyyət mənfiyə doğru dəyişir.

Yenidənqurma dövründə bütün ölkədə olduğu kimi, Azərbaycan SSR-in də sosial-iqtisadi həyatında mənfi tendensiyalar güclənmişdi. 1990-cı illərin əvvəllərinin sistem kollapsı şəraitində istər istehsalın faktiki olaraq çökməsi, istər hiperinflyasiya ilə əlaqədar qiymətlərin kəskin şəkildə artması, istərsə də sosial təminat sisteminin nəzərəçarpacaq dərəcədə məhdudlaşdırılması əhalinin sosial durumunda özünü göstərməyə bilməzdi. Böhrandan ən çox zərər çəkən sosial kateqoriya məhz qadınlar olmuşdu. 1990-cı illə müqayisədə 1996-cı ildə qadınların pay çəkisi sənaye sektorunda 46,9%-dən 41,9%-ə, kənd təsərrüfatında 48,2%-dən 42,5%-ə qədər azalmışdı. O illərdə islahatlar gedişində iş itirənlərin çox hissəsini qadınlar təşkil edirdi. Onlar ilk növbədə ixtisaslı işlərdən çıxarılırdılar. Bəhs etdiyimiz dövrdə Azərbaycanda qadınlar arasında işsizlik kişilər arasındakı işsizlikdən 1,33 dəfə çox olmuşdu. Rəsmi statistika işsizlərin təqribən 60%-nin qadınlar olduğunu göstərirdi.

1990-cı illərin ilk yarısında ana və uşaq ölümü göstəriciləri kəskin surətdə artmış, doğuş səviyyəsi isə aşağı düşmüşdü. Doğuşda müşahidə edilən eniş böyük ölçüdə ağırlaşmış sosial- iqtisadi vəziyyətin inikası olmaqla yanaşı, həmçinin doğumun stimullaşdırılması sisteminin, eləcə də yaxın keçmişdə geniş inkişaf etdirilmiş uşaqlara qayğı və yaxşı ödənilən analıq məzuniyyəti sisteminin dağılmasının nəticəsi idi. İctimai sferada arxaikləşmə meylləri gənc qızların erkən ərə verilmələri hadisələrinin çoxalması faktında büruzə verirdi: 1990-cı illə müqayisədə 1995-ci ildə 19 yaşına çatmamış ərə gedən qızların sayı 25% artmışdı.

Yeni tip Azərbaycan dövlətçiliyinin təşəkkülü, onun institusional əsaslarının yaradılması, heç şübhəsiz Üçüncü respublikanın memarı – ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Haqlı olaraq hesab edilir ki, Azərbaycanın bir dövlət olaraq qlobal siyasi arxitekturada layiqli yer tutması, dramatik kolliziyalar yaşayan dünyamızda formalaşmış siyasi institutları və işlək sosial-iqtisadi modeli ilə dinamik inkişaf örnəyini sərgiləməsi, hüquqi və demokratik dövlət quruculuğu sahəsində bariz müvəffəqiyyətlər əldə etməsi ümummilli liderin strateji kursunun əməli nəticələridir. Məhz Heydər Əliyev ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlətin hüquqi-normativ bünövrəsini qoyan, qadınların kişilərlə bərabər hüququnun və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını təşkil edən müstəqil Azərbaycanın Konstitusiyasının təşəbbüsçüsü və memarı olmuşdur.

Heydər Əliyevin həyata keçirdiyi qadın siyasəti bir neçə mühüm istiqaməti ehtiva edirdi. İlk növbədə o qadınların hüquqi statusunun təkmilləşdirilməsini, gender bərabərliyinin hüquqi aspektlərinin əməli surətdə təmin olunmasını nəzərdə tuturdu. İkincisi, bu siyasət qadınların sosial durumunun yaxşılaşdırılmasını, onların keyfiyyətli təhsillə təmin olunmasını, cəmiyyətdə ictimai mövqelərinin möhkəmləndirilməsini, sosial hüquqlarının hərtərəfli şəkildə həyata keçirilməsini ehtimal edirdi. Üçüncüsü, qadınların iqtisadi fəaliyyətlərinin təşviqi üçün kompleks addımlar atılırdı; qadın sahibkarlığının stimullaşdırılması, qadınların xalq təsərrüfatının müxtəlif sahələrində özlərini təsdiq etmələri üçün şəraitin yaradılması bu qəbildən idi. Dördüncüsü, həyata keçirilən tədbirlər qadınların siyasi həyatda daha fəal iştirakını, vətəndaş cəmiyyətinin qurumlarının işinə canlı şəkildə qatılmasını dəstəkləməli idi. Beşincisi, aparılan siyasət qadınların mədəni yüksəlişini nəzərdə tuturdu.

1990-cı illərin sonu-2000-ci illərin əvvəli istər hüquqi-normativ bazanın modernləşməsi, istərsə də qadın siyasətinin institutlaşması baxımından son dərəcə əlamətdar dövrü təmsil edir. Ölkə konstitusiyasında vətəndaşların, o cümlədən qadınların hüquq və azadlıqları barədə mövcud müddəalar 1998-2003-cü illərdə qəbul edilmiş qanunverici aktlar ilə əməli surətdə gerçəkləşdirilməyə başlanılmışdı. Məhz bu illərdə biz gender bərabərliyinin de-jure səviyyədən tədricən de-fakto səviyyəyə keçidi istiqamətində təsirli tədbirlərin görüldüyünün şahidi oluruq. Qadın problemləri üzrə Dövlət Komitəsinin yaradılması (1998), “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi” haqqında fərmanın imzalanması (2000), Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planının hazırlanması və həyata keçirilməsi, müasir demokratik hüquq standartlarına cavab verən məcəllələrin qəbul edilməsi və bu məcəllələrdə qadın hüquqlarına hərtərəfli təminatının verilməsi məhz faktiki bərabərliyin bərqərar olması istiqamətində mühüm addımlardan sayıla bilər.

Bəhs etdiyimiz dövrdə qəbul edilmiş yeni hüquqi-normativ toplular – məcəllələr, ölkəmizdə 1990-cı illərin sonlarından etibarən vüsət alan hüquqi dövlət quruculuğunun yeni mərhələsinin məzmun səciyyəsini təmsil etməklə, ölkə vətəndaşlarının, o cümlədən qadınların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş əsas hüquq və azadlıqlarını əməli müstəviyə çıxarmışdır.

Ulu öndər Heydər Əliyevin gender siyasəti onun layiqli varisi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənabları tərəfindən davam və inkişaf etdirilmişdir. Bu siyasət qadın hüquqları ilə bağlı hüquqi-normativ bazanı qabaqcıl dünya təcrübəsi və standartlarına uyğunlaşdırmaqla yanaşı, bu standartların gündəlik yaşam tərzinə daha fəal tətbiqini, bərabər imkanlar prinsipinin əməldə gerçəkləşməsini nəzərdə tutur. 2006-cı ilin oktyabrın 10-da “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında”, 2010-cu ilin iyunun 22-də “Məişət zorakılığının qarşısının alınması haqqında” qanunların və digər qanunvericilik aktlarının qəbulu, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramının”, Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının və insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının həyata keçirilməsi, öz sələfi ilə müqayisədə daha geniş səlahiyyətlərə malik Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və fəaliyyəti məhz yuxarıda sözügedən prinsipin reallaşmasının bariz ifadəsidir.

Ölkəmizdə aparılan məqsədyönlü qadın siyasəti idarəetmə strukturlarında və qərar qəbul etmədə qadınların sayının artmasına gətirib çıxarmışdır. Statistik bilgilərə əsasən, bələdiyyə üzvü seçilmiş qadınların sayı 2004-cü il seçkilərinə nisbətən 2009-cu il seçkilərində 9 dəfə artaraq, 467 nəfərdən

4194 nəfərə çatmış və bələdiyyə üzvləri arasında onların xüsusi çəkisi 4%-dən 26,1%-ə yüksəlmişdir. 2014-cü ilin dekabrında keçirilmiş bələdiyyə seçkilərinin nəticələrinə görə isə qadınların sayı 5236 nəfərə, xüsusi çəkisi isə 35%-ə çatmışdır. Əgər 2004cü ildə 38 nəfər qadın bələdiyyə sədri seçilmişdisə, 2009-cu seçkilərinin nəticələrinə əsasən, 302 bələdiyyə sədri qadındır.

Son illər bütün respublika ərazisində icra hakimiyyəti başçılarının müavinləri vəzifəsində qadınların sayı nəzərə çarpacaq dərəcədə artmışdır. 2005-ci il ilə müqayisədə (12 nəfər) 2008-ci ildə onların sayı 31 nəfərə, 2011-ci ildə isə 60 nəfərə çatmışdı. İcra hakimiyyətlərində 2008-ci ildə 45 qadın, 2011-ci ildə isə 50 qadın şöbə müdiri vəzifəsində çalışırdı. Bu sahədə hələ də yetərincə problem qalmaqdadır. Azərbaycan hökuməti qadınların hakimiyyət orqanlarında və rəhbər vəzifələrdə öz saylarına proporsional şəkildə təmsil olunmaları istiqamətində tədbirlər həyata keçirməkdə davam edir.

Müstəqillik dövründə, ələlxüsus da son illərdə qadınların sosial-iqtisadi vəziyyətinin dinamikası da araşdırılmışdır. Statistik bilgilər əsasında apardığımız təhlillər söyləməyə əsas verir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ölkə əhalisinin müxtəlif sosial kateqoriyalarının, o cümlədən qadınların rifah halının yüksəlməsinə gətirib çıxarmışdır. 1991-2013-cü illər ərzində əmək qabiliyyətli qadınların sayı təqribən 63,64% artmışdır. Statistik bilgilərə əsasən söyləyə bilərik ki, son 13 ildə məşğul qadınlar kateqoriyasının say artımı kişilərə nisbətən daha yüksək templə baş vermişdir. 2000-2013-cü illərdə işsiz qadınların sayında 130100 nəfər və ya 48,5%, işsiz kişilərin sayında isə 148000 nəfər və ya 60% azalma müşahidə olunmuş, qadın yoxsulluğu əvvəlki illərlə müqayisədə öz kəsərini xeyli dərəcədə itirmişdir.

Lakin Azərbaycan qadınının son 15 ildə şübhəsiz tərəqqisi ilə yanaşı, qadınların iqtisadi fəallığı, məşğulluğu və əmək haqları ilə bağlı hələ də öz aktuallığını saxlayan müəyyən neqativ meyllər qalmaqdadır. İqtisadiyyatın fəaliyyət növlərində qadın və kişilərin qeyri-mütənasib təmsil olunmaları, təsərrüfatın "kişi" və "qadın" sahələri kimi qeyri-rəsmi bölgüsünün saxlanılması, işsizliyin ümumi strukturunda qadınların xüsusi çəkisinin yüksək olması, iqtisadiyyatın həm dövlət, həm özəl sektorunda gender bölgüsünün piramidavari strukturunun saxlanılması, qadınların daha az ödənişli qeyri-formal sektora kişilərdən daha çox müraciət etmələri, qanunvericilikdə də təsbit olunmuş "bərabər əməyə görə bərabər ödəmə" prinsipinin hələ də tam həyata keçirilməməsi bu qəbil problemlərdəndir. Azərbaycan hökuməti bu problemləri daim diqqət mərkəzində saxlayır və onların həlli istiqamətində addımlar atır.

Həmçinin tərəfimizdən təhsil və elm sahəsində gender bərabərliyinin faktiki vəziyyəti də öyrənilmiş və belə qənaətə gəlinmişdir ki, bu sahələrdə müəyyən mütənasibsizliyə, habelə şaquli gender seqreqasiya hallarının qeydə alınmasına baxmayaraq, son illərdə pozitiv dinamika müşahidə olunmaqdadır. Bu, istər ali təhsil müəssisələrində tələbə qızların həm mütləq sayının, həm də gender bölgüsündə xüsusi çəkisinin artmasında, istər dünənə kimi cəmiyyətdə kök salmış stereotiplərə görə, kişi peşəsi sayılan ixtisaslara üz tutan qadınların sayının yüksəlməsində, istər ümumtəhsil müəssisələrində və ali məktəblərdə rəhbər işçilərin strukturunda qadınların mütləq və nisbi çəkisinin artmasında, istər aspirantura və doktoranturaya sayca daha çox qadının qəbul olunmasında, istərsə də elmi tədqiqatlarla məşğul olan qadınların sayının çoxalmasında özünü göstərir.

Ayrıca olaraq qadın sahibkarlığının inkişaf məsələləri də öyrənilmişdir. Biz bu sahədə vəziyyəti dinamikada nəzərdən keçirərək, üç mərhələnin ayrılmasını zəruri hesab etmişik. 1995-2002-ci illəri əhatə edən birinci mərhələdə ölkəmizdə özəlləşdirmənin hüquqi-normativ bazası formalaşmış, bazar iqtisadiyyatı mexanizmlərinin və özəl sahibkarlıq fəaliyyətinin konseptual əsasları yaradılmış, mülkiyyət münasibətləri sahəsində hərtərəfli islahatlara başlanılmışdır. Lakin mövcud gender stereotipləri, müvafiq qurumlar tərəfindən prosesə gərəkli nəzarətin olmaması, bürokratik əngəllərin mövcudluğu üzündən qadınların sahibkarlıq təşəbbüsünün aşağı düşməsi və s. səbəblərdən özəlləşdirmə "kişi" simalı olmuş, xüsusi mülkiyyətə verilən dövlət əmlakının nəhəng qismi kişi cinsindən olanların əlinə keçmişdir.

Təqribən 2003-2006-cı illəri əhatə edən ikinci mərhələdə ümumən özəl sektorun, o cümlədən qadın sahibkarlığının inkişafına dövlət qayğısı xeyli artmışdır. Bu dövrdə kredit mənbələri əhəmiyyətli dərəcədə çoxalmış, sahibkar qadınların sosial-iqtisadi və hüquqi səpkili problemlərinin həllinə başlanılmışdır.

2007-ci ildən etibarən qadın sahibkarlığı öz inkişafının üçüncü mərhələsini yaşamaqdadır. Onun səciyyəvi xüsusiyyəti kimi dövlət tərəfindən institusional şəraitin yaxşılaşdırılması, hüquqi-normativ bazanın və sahibkarların kreditləşdirilməsi mexanizmlərinin daha da təkmilləşdirilməsi çıxış edir. Bu, qadın sahibkarların həm mütləq, həm də nisbi saylarının yüksəlməsində, onların fəaliyyətinin maliyyələşdirilməsinin əhəmiyyətli dərəcədə artmasında, eləcə də dövlət tərəfindən təşəbbüs edilən sahibkarlığa dəstək səciyyəli fərqli proqramlarda xüsusi diqqət obyektlərinə çevrilmələrində, onların beynəlxalq səciyyəli müxtəlif tərəfdaşlıq layihələrinə daha fəal cəlb olunmalarında özünü göstərir.

Beləliklə, müstəqillik illərində Azərbaycan qadınlarının ictimai-siyasi fəallığı və qadın hərəkatının bəzi aspektləri də xüsusi olaraq araşdırılmışdır. İlk növbədə qadın hərəkatının hakimiyyət orqanları ilə qarşılıqlı münasibətlərini məzmunu müəyyənləşdirən qadın qurultayları nəzərdən keçirilmişdir. Gəldiyimiz qənaətə görə, 1998 və 2003-cü illərdə ümummilli lider Heydər Əliyevin təşəbbüs və qayğısı nəticəsində baş tutmuş ilk qurultaylar ölkəmizdə qadın hərəkatının institusionallaşmasında olduqca əhəmiyyətli hadisə olmaqla yanaşı, aşağıdakı vəzifələri nəzərdə tuturdu:

– dövlət müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində qadınların potensialından yararlanmaq və ondan daha effektiv şəkildə istifadə etmək;

– ictimai həyatın müxtəlif sahələrində gerçəkləşdirilən islahatların gender ölçülməsini konkretləşdirmək, habelə bu islahatlar gedişində qadınların sosial ümumilik kimi öz istək və arzularını təsbit etmək;

– 1990-cı illərin ilk yarısının sistem böhranının tədricən aradan qaldırıldığı şəraitdə qadınların ictimai-siyasi fəallığını stimullaşdırılmaq, onları vətəndaş cəmiyyəti quruculuğuna fəal surətdə cəlb etmək;

– qadınların təşəkkül tapmaqda olan bazar iqtisadiyyatı münasibətləri sistemində özlərini ifadə etmələrinə zəruri dəstəyi göstərmək.

2003-2013-cü illərdə Azərbaycanın ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında modernləşmə prosesini yaşaması, bütün sferalarda dinamik və dayanıqlı inkişaf nümayiş etdirməsi, 1990-2000-ci illərin əvvəlləri üçün gündəmdə olan bir sıra ağır sosial problemlərin xeyli dərəcədə aktuallığını itirməsi istər qadın hərəkatına, istərsə də onun müəyyən mənada institusional mücəssəməsi olan qadın qurultaylarının proqram və məzmununa öz təshihlərini diktə etmişdi. Azərbaycan qadınlarının 2008 və 2013-cü illərdə keçirilmiş müvafiq olaraq III və IV qurultayları ölkədə qadın hərəkatının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına dəlalət edir; bu mərhələnin məzmununu keçid dövrünü arxada qoymuş ölkəmizin modernləşməsinin yeni vəzifələri müəyyənləşdirir.

Respublikamızda qadın qeyri-hökumət təşkilatlarının meydana gəlməsinin və inkişafının araşdırılması hazırkı əsərin tədqiqat istiqamətlərindən birini təşkil edir. Ölkəmizdə qadın Üçüncü sektorunun inkişaf mərhələlərinin öyrənilməsi aşağıdakı qənaətlərə gəlməyə imkan vermişdir. 1980-ci illərin sonu-1990-cı illərin əvvəllərində yaranmış ictimai birliklərin fəaliyyətinin mündəricəsini milli istiqlal mübarizəsi və ölkəmizin ərazi bütövlüyü uğrunda müharibə, qaçqın və məcburi köçkünlərə, eləcə də əhalinin aztəminatlı hissəsinə humanitar yardım göstərilməsi zərurəti müəyyənləşdirirdi. Sözügedən dönəmdə ölkəmizdə rəsmən qeydiyyatdan keçmiş 8 qadın təşkilatı fəaliyyət göstərirdi.

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesinin institusional əsaslar kəsb etməsi III sektorun da inkişafına müsbət təsir göstərdi. Sözün müstəqim mənasında qeyri-hökumət təşkilatlarının formalaşması da bu dövrə təsadüf edirdi. Qadın QHT-lər məhz 1990-cı illərin sonu - 2000-ci illərin əvvəllərində öz fəaliyyətlərini daha sistemli şəkildə qurmağa, işlərini beynəlxalq standartlara uyğunlaşdırmağa, xarici donorlarla əlaqələrini sahmana salmağa, hüquqi, sosial, mədəni sahələrdə, qadınların gender cəhətdən maarifləndirilməsi, qadınların sağlamlığı, qadına qarşı ailə zorakılığı və istismarına son qoyulması, erkən nikahlarla mübarizə, qadın və ətraf mühit, qadın sahibkarlığının inkişaf etdirilməsi və s. istiqamətlər üzrə müxtəlif layihələr həyata keçirməyə müvəffəq olur. Təsadüfi deyildir ki, 1995-ci ildə onların sayı 18-ə, 2000-ci illərin əvvəllərində isə 40-a çatmışdı.

2003-cü ildən ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyev cənablarının hüquqi dövlət quruculuğunu yeni inkişaf mərhələsinə çıxarması ölkəmizdə qadın qeyri-hökumət təşkilatlarının da

fəaliyyətinin təkmilləşməsi ilə müşayiət olunurdu. 2003-2007-ci illərdə sayca artan qadın QHT-lərin fəaliyyəti sosial həyatın demək olar ki, əksər sahələrinə sirayət etmişdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 iyul 2007-ci il tarixli Sərəncamı təsdiq olunmuş "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası" Azərbaycanda QHT inkişafının yeni mərhələsinin başlanğıcını qoydu. Bu sənədə uyğun olaraq, 2007-ci ilin dekabrında Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradıldı. Bununla da milli donor institutunun əsası qoyulmuş oldu. Qeyri-hökumət qurumları, o cümlədən qadın təşkilatları dövlət dəstəyi sayəsində öz fəaliyyətlərinin istər miqyas etibarı ilə, istərsə də müxtəlif sosial kateqoriyalardan olan qadınları əhatə etməsi baxımından genişləndirməyə və intensivləşdirməyə müvəffəq oldu.

Belə bir məqam da xüsusi olaraq vurğulanmışdır ki, Azərbaycan postsovet məkanında vətəndaş cəmiyyətinin özünəməxsus modelini yarada bilmişdir. Həmin modelin mahiyyət cəhəti kimi dövlət - QHT sektorunun sıx əməkdaşlığı, ümummilli məsələlərin, ölkəmizin modernləşməsi ilə əlaqədar vəzifələrin həllində hökumətin təşəbbüslərinin məhz vətəndaşların zəruri dəstək və səyləri ilə təmin olunması çıxış edir. Bu modelin inkişafı Azərbaycanın qadın QHT-lərinə xüsusən də regionlarda qadınların hüquqlarının daha effektiv müdafiə olunması, zərərli gender stereotiplərinin aradan qaldırılması, qadınların gender maarifləndirilməsinin genişləndirilməsi və dərinləşdirilməsi, onların ictimai və siyasi fəallığının artırılması, müxtəlif xarakterli problemlərinin yoluna qoyulması istiqamətində son dərəcə əhəmiyyətli layihələr həyata keçirməyə imkan vermişdir. Nəticədə qadın QHT-lərinin sayında ciddi artım müşahidə olunmaqdadır: əgər 2008-ci ildə ölkədə 90-a yaxın qeyri-hökumət qadın təşkilatı fəaliyyət göstərirdisə, 2013-cü ildə bu rəqəm 200-ə çatmışdır.

## ƏDƏBİYYAT


1. Лапин Н.И. Кризисный социум в контексте социокультурных изменений // Мир России, 2000, № 3, с. 3-47.
2. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr, Bakı: Azərbaycan, 2008, 840 s.
3. Əliyev H. Müstəqilliyimiz əbədidir. Birinci kitab (iyun, 1993-may, 1994), Bakı: Azərnəşr, 1997, 608 s.
4. Məmmədov M.Y. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, 208 s.
5. Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Bakı: Turxan NPB, 2013, 264 s.
6. Mehdiyev R. Müstəqil Azərbaycan milli ideyanın təcəssümü kimi // Strateji təhlil, 2011, № 1 (2), s. 7-35.
7. Yeni 2001-ci il, Yeni Əsr və Üçüncü Minillik münasibətilə Azərbaycan xalqına müraciət, 29 dekabr 2000-ci il // Əliyev H. Müstəqilliyimiz əbədidir. 31-ci kitab, Bakı: Azərnəşr, 2010, s. 283-360.
8. Подвинцев О.Б. Идея «несостоявшихся государств» в российском постимперском контексте // Научный ежегодник Института философии и права УрО РАН, 2007, вып. 7, с. 204-214.
9. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü münasibəti ilə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 20 mart 2001-ci il. "Azərbaycan" qəz., 2001, 23 mart, № 64, s. 1.
10. Babaoğlu H. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri. Bakı: MSA, 2013, 456 s.
11. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (21 yanvar 2013-cü il, № 2679). "Azərbaycan" qəz. 2013, 22 yanvar, № 14, s. 1.
12. Mehdiyev R.Ə. Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu / Heydər Əliyev və Müasir Azərbaycan (I Ümumrespublika Əliyevşünaslıq konfransının materialları). Bakı: Azərbay can Universiteti, 2003, s. 9-28.
13. Əliyev H. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab (iyun, 1995-noyabr, 1995). Bakı: Azərnəşr, 1997, 528 s.

14. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2001, 280 s.
15. Heydər Əliyev və müstəqil Azərbaycanın ilk konstitusiyası. Bakı: Azərbaycan, 2011, 304 s.
16. Heydər Əliyev: 2 cilddə. II c., Bakı: Turxan NPB, 2013, 704 s.
17. Azərbaycan Respublikası Prezidenti, Yeni Konstitusiya layihəsi hazırlayan Komissiyanın sədri Heydər Əliyevin nitqi. "Azərbaycan" qəz., 1995, 7 iyun, № 105, s. 1-2.
18. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.
19. Əliyev H. Müstəqilliyimiz əbədidir. On dördüncü kitab (dekabr, 1997-fevral, 1998), Bakı: Azərnəşr, 2005, 520 s.
20. İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı (18 iyun 1998-ci il, № 832). Bakı: Qanun, 2007, 8 s.
21. Musayev T. İnsan hüquqlarının təminatı dövlət siyasətinin əsas meyarıdır // Qanunçuluq, 2012, № 3 (mart), s. 29-32.

**Sevinj Abbasova**

## HEYDAR ALIYEV AND STATE WOMEN'S POLICY IN THE REPUBLIC OF AZERBAIJAN

In the presented article, the process of formation of the rule of law state in the Republic of Azerbaijan is considered as a whole. It is emphasized that Azerbaijan has become a developing state with political institutions and a functioning socio-economic model thanks to the strategic course of the national leader of the Azerbaijani people Heydar Aliyev. The role and merits of Heydar Aliyev in the adoption of the first Constitution of independent Azerbaijan in 1995, as well as legal acts that serve to strengthen basic civil rights and freedoms, are analyzed. The article also mentions some aspects of Heydar Aliyev's views on democracy and the rule of law. We came to the conclusion that the national leader of Azerbaijan was distinguished by a conscious attitude to the transformational changes created by the new political and social reality. However, his analytical thinking made it possible to exclude the dogmatic, dogmatic perception of democracy according to the well-known "universalist" laws. Such an understanding of democracy can be seen in many texts by Heydar Aliyev, and especially in the "Address of the President of the Republic of Azerbaijan Heydar Aliyev to the people of Azerbaijan in connection with the beginning of the new year 2001, the new century and the third millennium". Some of the main provisions of the political philosophy of this outstanding statesman can be singled out in them. First, in Aliyev's discourse, democracy as a category of political science acts as the antithesis of anarchy. Democracy as a political regime means a more developed organization of a highly organized political society. At the same time, the concept of "democracy" is connected with the concept of "development". Secondly, such an interpretation of democracy, on the one hand, supports the right of nation states to their identity and sovereignty, and, on the other hand, substantiates the idea of democracy variability based on political and sociocultural diversity.

**Keywords:** *Heydar Aliyev, political transformation, new constitution, construction of legal state in Azerbaijan, human rights and freedoms.*

**Севиндж Аббасова**

## ГЕЙДАР АЛИЕВ И ГОСУДАРСТВЕННАЯ ЖЕНСКАЯ ПОЛИТИКА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

В представленной статье в целом рассматривается процесс формирования правового государства в Азербайджанской Республике. Подчеркивается, что Азербайджан стал развивающимся государством с политическими институтами и функционирующей социально-экономической моделью благодаря стратегическому курсу общенационального лидера азербайджанского на-

рода Гейдара Алиева. Анализируются роль и заслуги Гейдара Алиева в принятии первой Конституции независимого Азербайджана в 1995 году, а также нормативно-правовых актов, служащих укреплению основных гражданских прав и свобод. В статье также упоминаются некоторые аспекты взглядов Гейдара Алиева на демократию и верховенство права. Мы пришли к выводу, что общенационального лидера Азербайджана отличало сознательное отношение к трансформационным изменениям, создаваемым новой политической и социальной реальностью. Однако его аналитическое мышление позволяло исключить догматическое, догматическое восприятие демократии по известным «универсалистским» законам. Такое понимание демократии можно увидеть во многих текстах Гейдара Алиева, и особенно в «Обращении Президента Азербайджанской Республики Гейдара Алиева к народу Азербайджана в связи с началом нового, 2001-го года, нового века и третьего тысячелетия». В них можно выделить некоторые основные положения политической философии этого выдающегося государственного деятеля. Во-первых, в дискурсе Алиева демократия как категория политической науки выступает в качестве антитезы анархии. Демократия как политический режим означает более развитую организацию высокоорганизованного политического общества. В то же время понятие «демократия» связано с понятием «развитие». Во-вторых, такая интерпретация демократии, с одной стороны, поддерживает право национальных государств на свою идентичность и суверенитет, а с другой стороны, обосновывает идею вариативности демократии, основанной на политическом и социокультурном многообразии.

**Ключевые слова:** *Гейдар Алиев, политическая трансформация, новая конституция, правовое государственное строительство в Азербайджане, права и свободы человека.*

ŞÖLƏT ZEYNALOV

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: ETNOMİLLİ MÜNAQİŞƏLƏRİN HƏLLİNDƏ ŞƏXSİYYƏT FENOMENİ

*Məqalə regional geopolitik və etnomilli problemlərin kommunikasiya və dialoq mədəniyyəti kontekstində mənalandırılmasına həsr olunmuşdur. Burada qeyd edilir ki, hazırda Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində böyük qələbə qazanmışdır. Lakin siyasi, iqtisadi, hərbi, mənəvi və s. üstünlüklərə baxmayaraq ölkəmiz və onun siyasi rəhbərliyi əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş özünün sülh və təhlükəsizlik strategiyasına sadiqdir və bu bəşəri proqram hazırda Azərbaycanın həyata keçirdiyi, humanitar, mədəni, quruculuq-bərpa işləri, sülh və təhlükəsizlik fəaliyyətində öz əksini tapır. Tədqiqatda Azərbaycanın dünyaya təqdim etdiyi sülh və təhlükəsizlik paradiqması – bilik cəmiyyətində ziddiyyətlərin həlli istiqamətində bir proqram olduğu vurğulanır, ölkəmizin xalqlar, dövlətlər və cəmiyyətlər arasından baş verən müxtəlif münaqişələrin həllində həyata keçirdiyi dialoq "formulunun" əvəzsizliyi diqqətə çatdırılır.*

**Açar sözlər:** *sülh, şəxsiyyət, etnomilli münaqişələr, müharibə, dialoq, Azərbaycan.*

1. **Problemə nəzəri baxış.** Hazırda planetdə baş verən onlarla geosiyasi, etnik, milli, coğrafi, dini və s. müxtəlif münaqişələr ocağı mövcuddur. Müasir dünyanın reallığından biri budur ki, elmin, texnologiya, informasiya, və süni intellekt resurslarının insan həyatına tətbiqi ilə insanlar, dövlətlər, dinlər, mədəniyyətlər və sosial təsisatlar arasında ciddi dialoq və çoxaspektli kommunikasiyalar üçün böyük imkanlar açılmışdır. Lakin bütün bu müsbət tendensiyaya baxmayaraq, eyni zamanda həyatın bütün sferalarında əlaqə və münasibətlərdə böyük xaos və inamsızlıqların da baş verməsi faktını demək olar ki, əksər filosof, sosioloq, psixoloq və b. elm adamları təsdiq edirlər. Aydındır ki, qeyd olunan problemin ciddi səbəbləri mövcuddur, bu səbəbdən də qarşılıqlı olaraq insanların, dövlət və cəmiyyətləri bir-birinə qarşı "total inamsızlıq" faktının hələ uzun müddət yer üzündə baş verməsinin biz şahid olacağıq. Lakin bütün bunlara baxmayaraq insanların, dövlət və cəmiyyətlərin tarixən olduğu kimi, qarşılıqlı ünsiyyətdə daima konsensus axtarışları da var ki, (Azərbaycan Respublikasının son 30 ildə həyata keçirdiyi humanitar strategiyanı xatırlayaq) bu da müasir intellektual insanın "inamsızlıq mühitində" kiçik də olsa ümidin də olmasına dəlalət edir; ancaq bu da təkzib edilməsi mümkün olmayan faktdır ki, bu müsbət ümidlər heç də münaqişə və müharibələri yox etmək iqtidarında deyildir. Fakt budur ki, istər etnik, milli, coğrafi, iqtisadi, dini, istərsə də "hibrid" münaqişələrin həll olunması bəzi məqamlarda dalana dirənir və bu səbəbdən də müharibələr böyük fəlakətlər törədir. Aydındır ki, qeyd olunan problemlərin bir tərəfi praktik və gündəlik həyatdan gəlsə də, digər tərəfi də ideya, ideologiya və təfəkkürdən gəlir. Bununla da modern dövrün yaratdığı üstünlüklərə baxmayaraq bəzi məqamlarda təmasda olan tərəflər arasında dialoq mühiti deyil "inamsızlıqlar mühiti" daha da dərinləşir. Bu isə şübhəsiz fəlsəfi problemdir və onların həll olunması bəzən son dərəcə ya çətin olur ya da daima təkrarlanır. Məsələn, problemə qlobal anlamda yanaşdıqda aydın olur ki, "soyuq müharibə"nin başa çatması ilə bağlı nəticələrin doğurduğu məyusluğun geniş yayılması ilə bu inamsızlıq daha da güclənir. Konsensus və harmoniya üzərində qurulmuş, "yeni dünya nizamı" əvəzinə, "keçmişə xas olduğu güman edilən təzahürlər" qəflətən gələcəyə çevrildilər" [2, s. 323].

Yəni, məsələ ondadır ki, hazırda ideoloji olaraq qarşı-qarşıya dayanan milyonlarla insan kütlələrinin iştirak etdiyi qlobal müharibələrin bütün kontinentlərdə eyni anda baş verməsinin şahidi olmasaq da – "etnomilli münaqişələr ola bilsin ki, daha dünya müharibəsi təhlükəsi yaratmasa da, bunlar yer kürəsinin mühüm regionlarında sülh üçün təhlükəyə çevrilmişlər" [2, s. 323]. Bu isə ona dəlalət edir ki, qlobal anlamda sülh və təhlükəsizlik ideyaları hələ uzun müddət məhz elə ideya olaraq qalacaqdır. Qlobal anlamda tendensiyanın analizi göstərir ki, "XXI əsr bir sıra yeni əlamətləri ilə səciyyələnir. Bir sıra anlayışlar öz ənənəvi məzmunundan kənara çıxaraq yeni məna kəsb edir. Sülhün də müharibənin də yeni formaları, əslində əvvəlkindən köklü surətdə fərqlənir, mahiyyətcə yeni hadisələr ortaya çıxır" [4, s. 224].

Son illərin təkzibedilməz arqumentasiyalarından biri budur ki, dünyada yeni siyasi, iqtisadi, hərbi, geostrateji, regional və qlobal "yeni dünya nizamı" formalaşmaqdadır. Bir tərəfdən görünməmiş şəkildə əhalinin dinamik artımı, iqtisadi əməkdaşlıqlar, mədəni, sosial, siyasi mübadilələr, tarixin

dərinliklərindən gələn qədim ticarət yollarının dirçəldilməsi impulslarının pozitiv meylləri, digər tərəfdən də hibrid münaqişə və müharibələr, kataklizmlər, sonu bəlli olmayan ziddiyyətlər toplusu insanın qaçılmaz taleyi kimi onu hər yerdə izləyir. Lakin ümidverici məqamlardan biri budur ki, müasir müharibələrin elə bil ki, xarakterində qismən də olsa dəyişikliklər baş vermişdir. Mütəxəssislərin qənaətinə görə indi əksər məqamlarda "total müharibələrdən fərqli olaraq, dövlətə qarşı münasibətdə xalqa, əhaliyə qarşı münasibət arasında fərq qoyulur. Dövlət qurumlarına, hərbi obyektlərə bomba zərbələri endirilir, dinc əhaliyə maddi yardım, qida paketləri atılır. Bu, bir növ əksliklərin yeni məzmunlu vəhdətidir. Dövlətçilik şüuru ilə, hüquqi təfəkkürlə, beynəlxalq normalara bahəm humanitar təfəkkürün, insan hüquqlarının qoşa mövcudluğu faktıdır" [4, s. 224]. Lakin istinad etdiyimiz bu fikirlərin Yaxın Şərqdə son dövrlərdə baş verən müharibə və münaqişələrdə dəfələrlə epizodik hal kimi izləsək də təəssüf ki, elə Yaxın Şərqdə böyük şəhərlərin də yerlə yeksan olduğunun və əhalinin total şəkildə Avropanın müxtəlif ölkələrinə köçlərinin şahidi olduq. Bu onu göstərir ki, "müharibə" elə "müharibədir", istər burada şərin ram edilməsi işi olsun, istərsə də ədalətin bərpası olsun müharibədə dinc əhalinin məhv olmamasına heç bir qarantiya yoxdur, əksinə, müasir müharibələr ola bilsin ki, atom *"barışdırıcılığı"* təhlükəsindən dolayı olaraq daha çox lokal və terrorçu xarakterli olur, necə ki, ölkəmiz 30 ilə yaxın bir dövrdə erməni terrorizmlə üzləşərək bu məşəqqətin bitməsi üçün beynəlxalq miqyasda sülhü tərənnüm etsə də, sonda ədalətin bərpa işini öz gücü və qanı bahasına həyata keçirdi. Bu onu sübut etdi ki, terrorçu rejimlərlə sülh işini həyata keçirmək həqiqətən də problemdir, o ki, qala terrorizmin beynəlxalq miqyasda hamiləri ola. Məsələn, "ABŞ alimi Angelo Korlet yazır: bir sıra ölkələrin siyasətçiləri öz ölkələrinə və müttəfiqlərinə qarşı olan siyasi zorakılıqları terrorizm kimi pislədikləri halda, öz dövlətlərinin həqiqi terroru himayə etdiklərini qəbul etməyi bacarmırlar. Başqa sözlə, terrorla münasibətdə ikili standartların aradan götürülmə zərurəti Amerikanın özündə də elmi ictimaiyyət tərəfindən mühüm şərt kimi irəli sürülür" [4, s. 224].

Biz etiraf etməliyik ki, bütün müharibə və münaqişələrdə terrorçu rejimlər hərbi kontingentlə dinc əhali arasında fərq qoymaq ya istəmirlər, ya da bu humanitar prinsiplərin həyata keçirilməsi onların ümumiyyətlə, xarakterinə, dövlətçilik prinsiplərinə, etnomilli kimliklərinə yaddır. Məsələn, vaxtilə, Birinci Qarabağ savaşında ermənilərin etnik azərbaycanlılara qarşı apardığı soyqırımı (Xocalı soyqırımını xatırlayaq) hadisəsi və İkinci Qarabağ müharibəsi zamanı terrorçu Ermənistan rejiminin Azərbaycanın dinc əhalisinin yaşadığı şəhərləri, kəndləri ağır artilleriya və raketlərdən atəşə tutması göstərdi ki, etnomilli və regional münaqişə və müharibədə olan tərəflərin rəhbərliyinin xarakteri, xarizması, ideya və ideologiyası düzgün olmayanda, – onların şüuru etnik təmizləmə və nifrət üzərində qurulanda müharibə qanunlarına zidd hərəkətlər mütəmadi xarakter alır və tarix yalnız başqalarına nifrət kimi qavranılır. Təəssüf ki, bu zərərli ideologiya hazırda da davam etməkdədir. Hər halda Ermənistanın son 35 illik siyasi tarixini biz göz önündə canlandırarkən qeyd olunan fikirlərin təsdiqini görürük.Ona görə də qeyd olunanlar sübut edir ki, tarixin düzgün qavranılmasında, müharibə və münaqişələrin həll olunmasında şəxsiyyət, lider, dövlət xadimi, sülhü tərənnüm və təbliğ edən komandanın olması müasir reallığın vacib paradiqmasıdır. Bu olmayanda gələcək barədə, regional münaqişələrin həll olunması, sülhün təminatına inam olmur və etnomilli mübahisələrin, münaqişələrin sonu görünmür. Bu fikir bir daha təsdiq edir ki, ən müxtəlif münaqişələrin həllində şəxsiyyət faktoru ciddi mahiyyət daşıyır və düşmənçiliyin, inamsızlıq mühitinin aradan qaldırılması üçün onların bəşəri strategiyası bütün dövrlər üçün vacibdir. XX əsr dünya siyasətində fenomen şəxsiyyətlərdən biri kimi şöhrət tapan sülh və dialoq problemlərinin həllində mahir strateq Ümummilli Lider H. Ə. Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması perspektivi barədə vaxtilə bildirirdi: "Biz Ermənistanla Azərbaycan arasında olan münaqişənin sülh yolu ilə həll etmək istəyirik. Bunun üçün də iki ölkə arasında düşmənçilik əhval-ruhiyyəsindən qarşılıqlı inam əhval ruhiyyəsinə keçmək lazımdır. Qarşılıqlı inam olmasa, bu məsələnin sülh yolu ilə həlli də çətin ola bilər. Doğrudur, ötən on ildə böyük yaralar almışıq, bizə çox böyük zərbələr dəyibdir. Qurbanlar vermişik, qan tökülüb, torpaqlarımız işğal olunubdur. İşğal olunmuş torpaqlar viran olunub, bərbad vəziyyətdədir.

Bunun hamısı məlumdur. Ancaq irəliyə baxmaq lazımdır. İrəliyə baxmaq üçün də düşünmək lazımdır ki, iki qonşu ölkə bir-biri ilə daim düşmənçilik münasibətində yaşaya bilməz" [3, s. 103].

Sonrakı tarixi tendensiya sübut etdi ki, Ermənistan rəhbərliyi sülh işinə qeyri-ciddi yanaşır və onlar əslində münaqişənin həllinə və "sülh probleminə" vaxt qazanmaq və Azərbaycan torpaqlarının ilhaqı, özününkiləşdirmə oyunu kimi yanaşırlar. Nəticə isə indi artıq hər kəsə bəllidir, Ermənistan tərəfinin günahı üzündən münaqişə müharibəylə nəticələndi və Azərbaycan tərəfi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz sözünü humanitar sahədə olduğu kimi hərb meydanında ləyaqətlə dedi, – işğala son qoyuldu.

Etnomilli və regional münaqişələrin mahiyyətindən bəhs ediriksə bir məsələni də qeyd etmək xüsusi vacibdir. Problem ondadır ki, Ermənistan-Azərbaycan münaqişəsinin kulminasiya nöqtəsi hesab edilən 44 günlük Vətən müharibəsi zamanı Ermənistan tərəfindən Gəncənin, Bərdə və Tərtər şəhərlərinin dinc əhalisinin total şəkildə atəşə tutulduğunun yenidən şahidi olduq. Bu isə onu göstərdi ki, uzun müddət keçməsinə baxmayaraq erməni tərəf üçün "inkişaf", "humanizm", münaqişənin həll olunma mexanizmində dialoq mədəniyyətinin formalaşması, müharibə qanunları deyilən bir şey yoxdur, bu dövlət üçün heç bir beynəlxalq hüquq və nizam işləmir və bu xətt terrorçu rejimlərin standart üsulları kimi hələ də qalmaqdadır. Hadisələri qabaqlayaraq qeyd edək ki, Azərbaycan müharibə məcburiyyətində qalaraq torpaqlarını azad etsə də, son 30 ildə olduğu kimi hal-hazırda da sülh prinsiplərinə sadiqdir. Yəni bəzi terrorçu rejimlərdən fərqli olaraq ulu öndər H.Ə.Əliyev və prezident İ.H.Əliyevin dövlətçilik fəlsəfəsində, əslində, müharibə faktoru yoxdur və o yalnız son anda öz dövlətçilik və milli varlığımızı, mövcudluğumuzu təmin etmək üçün son anda müdafiə xarakterli bir proses kimi həyata keçirilə bilər. Uzaq olmayan tarixi faktların analizi göstərir ki, bir çox dövlətlər üçün bu metodoloji prinsiplər və strategiya, uzaqgörənlik əlçatan olmasa da ölkəmizin bəxti onda gətirdi ki, onun siyasi rəhbərliyinə dünya miqyaslı bir siyasi lider H.Ə.Əliyev gəldi və fakt budur ki, bu iş – sülh işi hal hazırda da siyasi, milli, etnokultural ideologiyamızın əsas hədəfi kimi Ali Baş Komandanın strateji proqramının əsasını təşkil edir. Təsadüfi deyil ki, 20 mart 2021-ci il tarixində prezident İlham Əliyev Novruz bayramı münasibəti ilə işğaldan azad edilmiş Şuşa şəhərindən Azərbaycan xalqına müraciəti zamanı bildirmişdir: "Müharibənin ilk günlərindən mən demişdim ki, düşmən bizə tarix versin, düşmənin rəhbəri tarix versin: nə vaxt bizim torpaqlarımızdan rədd olur və biz müharibəni dayandırmağa hazırıq. Yenə də sözümdə durdum, bizə tarix verilən kimi, kapitulyasiya aktı imzalanan kimi müharibə dayandı və biz bir güllə atmadan, bir itki vermədən Ağdam, Kəlbəcər və Laçın rayonlarına da qayıtmışıq. Beləliklə, ərazi bütövlüyümüzü bərpa etdik"[1, s. 109].

Tarixdən bu kimi məsələlər məlumdur ki, münaqişə, müharibə, xalqların, dövlətlərin bir- birinə qarşı kin və küdurəti, qarşılıqlı ittihamları sona kimi davam edə bilməz və bu prosesin bir "sınma", "qırılma", "kulminasiya" nöqtəsi də mütləq baş verməli, sülh istiqamətində ortaq bir yol tapılmalıdır. Ermənistan və Azərbaycan arasında baş verən münaqişə də qeyd olunan fikirlərdən kənarda deyildir. Real sağlam təfəkkürdən çıxış edərkən aydın olur ki, Ermənistan indi məğlub tərəf olduğundan sülhə doğru daha çox can atmalıdırlar və bu onların bilavasitə həm gələcək inkişafları, həm də indiki şəraitdə tamamilə böhranın girdabında məhv olmamaları üçün lazımdır. Lakin müşahidələr göstərir ki,Ermənistanı sülhə gətirmək məsələsi elə də asan deyildir. Bunun bir sıra coğrafi, etnopsixoloji, etnik, siyasi, ideoloji, tərəfləri mövcuddur ki, onların da həllində məhz Azərbaycan tərəfi və onun siyasi rəhbərliyi maraqlı olsa da, *"mifik erməni xəstəliyinə" tutulanlar* və bəzi beynəlxalq qüvvələrin ikili yanaşmaları hələ ki, böyük sülhün regionda baş tutmasına əngəl olaraq qalır. Halbuki illər əvvəl ulu öndər erməniləri dünya miqyasında müdafiə edənlərə və Ermənistan rəhbərliyinə bir növ xitabən qeyd edirdi: "Dünyanın bütün ölkələrini, Avropa ölkələrini götürün. Fransa ilə Almaniya yüz il müharibə ediblər, indi dost ölkələrdir. Yaxud, Rusiya, Avropanın bir çox ölkələri Almaniya ilə müharibə etdilər, nə qədər qurbanlar verildi, insanlar həlak oldu, şəhərlər dağıldı. İkinci dünya müharibəsində Sovetlər İttifaqından 27 milyon adam həlak oldu. Təkcə Azərbaycandan cəbhəyə 600 min adam səfərbər edilmişdi, onlardan 300 mini qayıtmadı. Amma görürsünüz, Almaniya ilə Rusiya, keçmiş Sovetlər İttifaqına mənsub olmuş digər ölkələr arasında əməkdaşlıq, dostluq əlaqələri var. Bu həyatdır, ona görə irəliyə baxmaq lazımdır" [3, s. 103]. Prosesin sonrakı gedişatı göstərdi ki, Ermənistan üçün gələcək də, müasirlik də yalnız keçmiş kimi dərk edilir, bu isə şübhəsiz həm şüur, həm də ideologiya problemidir.

2. **Sosial təkamül problemi.** Tarix sübut edir ki, mifik tarixi arzuları xalqların təfəkküründən çıxarmaq elə də asan deyildir. Lakin beynəlxalq tendensiya – Yeni dünya nizamı konseptləri, enerji, iqtisadi, ticari və s. dəhlizlərin daha səmərəli və təhlükəsizlik probleminin həlli istiqamətində baş verən yeni çağırışlar göstərir ki, sülhün əldə edilməsi məsələsi qeyd olunan hədəflərin başlıca açarlarındandır. Ancaq bu "açarın" əldə edilməsi məsələsi o qədər ciddi səbəblərdən asılıdır ki, burada yenidən fəlsəfi interpretasiyalara müraciəti zəruri hesab edirik. Məsələ ondadır ki, bəzi xalqlar və xalqları idarə edən rejimlər etnopsixoloji problemləri və aqressiv təbiətləri üzündən sülhü deyil, müharibə və xaosu dəstəkləyirlər. Bu isə göründüyü kimi ciddi problemdir və ona görə də problemin dərin tədqiqatlara məruz qalması son dərəcə vacibdir.

Qısa ifadə etsək böhran epoxasının tragizmi nəzəri fikir üçün yenilik təşkil etmir, ona görə də onun ən müxtəlif kontekstdən yenidən təkrar-təkrar mənalandırılması daima elmi yenilik kimi aktualdır. Problem ondadır ki, indi elm adamları iddia edirlər ki, İnsanının bir növ kimi bütövlükdə davranışları humanitar mənəvi aspektdə irəli sürülən bəşəri ideyalarla uyğunluq təşkil etmir. Bu əsasdan çıxış edərək onlar izah edirlər ki, tarixi təkamüldə yanlış inkişaf yolu tutmuş insan hazırda ciddi şəkildə "bioloji çatışmazlıqdan əziyyət çəkir" [5, s. 143] və s.Fakt odur ki, antropoloqlar, psixoloq və genetiklər, o cümlədən həyat fəlsəfəsinin nümayəndələri sübut edir ki,"insan yaradıcı qabiliyyəti və patoloji halı olan bir sikkənin iki üzü kimidir" [5, s. 143].Bu onu təsdiq edir ki, müxtəlif aqressiv qrupların şüur və təbiətindəki naqislikləri aradan qaldırmaq uzun vaxt tələb eldən bir prosesdir və arxaik təfəkkür üzündən ola bilsin ki, bu bəzi məqamlarda mümkün də deyildir.

Yəhudi əsilli İngilis ədibi Artur Kastler müasir insanın tarixi təkamülün yaratdığı ziddiyyətlərin əsarətində olduğunu qeyd edərkən onun beş əsas fundamental təkamül yanlışlıqından – çatışmazlıqlardan əziyyət çəkdiyini qeyd edirdi. O, antropoloqlara istinadən qeyd edirdi ki, insanın bu vəziyyətinin səbəbi tarixi təkamül zamanı sapıntıya məruz qalmasıdır və o, bu sapıntıları özünün "İnsan – təkamülün yanlışlığı" adlı məqaləsində yuxarıdakı kimi sıralayırdı: *Birinci,* antropoloqlar tarixi təkamülün izlərini araşdırarkən müəyyən etmişlər ki, Skandinaviya bataqlıqlarından tutmuş, etrusk və oradan asteklərin yaşadığı bölgələrə kimi kannibalizm izlərinin aşkarlanması; *ikinci,* öz növünə qarşı hüdudsuz aqressivliyi; *üçüncüsü,* müharibələr, genosidə və kütləvi repressiyalara meyllilik; *dördüncüsü,* instinktlər, ağıl və emosiyalar arasında böhranın davamlılığı; *beçincisi* elmin yaratdığı üstünlüklərə baxmayaraq etik və intellektual çatışmazlıq və s. kimi xüsusiyyətlər təkamüldə insanın yanlış yola düşdüyü təsdiq edir [5, s. 143]. Bu həm də onu göstərir ki, İnsanın təkamül prosesi zənciri davam etməkdədir və o, özünün tarixi çatışmazlıqlarından yalnız idrak, şüur və qeyri aqressivlik, çoxaspektli dialoq yoluyla xilas ola bilər.

Tarixdən məlumdur ki, böyük dövlətçilik fəlsəfəsi hər bir xalqa, etnosa tarix tərəfdən "hədiyyə" edilməyən hadisədir. Əslində, bunun ciddi ontoloji, etnokultural, siyasi, irqi və s. aspektləri mövcuddur və biz A.Kaslerin antropoloji-təkamül hipotezinə yuxarıda təsadüfən toxunmadıq. Ancaq problem ondadır ki, bir kiçik tədqiqat səviyyəsində burada sadəcə bu məsələlərin hər birinə ayrı-ayrılıqda toxunmaq mümkün deyildir. Bu anlamda hazırda müasir Ermənistan adlanan əraziyə tarixən pərçim edilmiş toplumun siyasi, humanitar, etik, və s. görüşlərində olan başqaları ilə - qonşu xalqlarla olan barışmazlıq sindromunun da biz "mənşəyini" tarixi tipoloji problematikalığını necə var o formada qəbul etməliyik. Ona görə də postkonflikt dövründə hər iki tərəfin maraqları təmin edilərkən dialoq, multikulturalizm, tolerantlıq, humanizm prinsiplərinin tətbiqinin fəlsəfəsi məhz azərbaycanlıların həyat tərzi, düşüncə meyarı, dövlətçilik strategiyası olduğundan qarşı tərəflərdə də bu istiqamətdə yeni platformaların yaradılması üçün "dialoq bazaları"nın konstruksiyası işində beynəlxalq təşkilatlar da fəal olmalı Azərbaycanla əməkdaşlıq etməlidirlər. Təəssüf ki, bəzi hallarda həm regional qüvvələr və o cümlədən, ermənilərin beynəlxalq havadarları Ermənistanı sülhə deyil revanşa təhrik edirlər. Bu isə həm erməni xalqını, həm də regionun digər xalqlarını daima ziddiyyətli münasibətlərə sürükləyir.Ona görə də biz anlayırıq ki, yuxarıda toxunulan sosial institutlaşma problemi bir tərəfdən nəzəri, digər tərəfdən də praktiki olduğundan, insanların, şüurlarında baş verən "ideoloji zəhərlənmələri" qısa vaxt kəsimində aradan qaldırmaq elə də asan məsələ deyildir. Lakin bu işdə məhz bütün tərəflər Azərbaycan paradiqmasına, onun siyasi, humanitar, sosial-mənəvi, etik tərəflərinə apelyasiya edərlərsə

şübhəsiz regionda böyük birgəyaşayışı təmin etmək olar. Bunun üçünsə Ermənistan tərəfi anlamalıdır ki, nifrətlə əsrlər boyu yaşamaq olmaz, ulu öndər H.Ə.Əiyevin qeyd etdiyi kimi: "...Ancaq irəliyə baxmaq lazımdır. İrəliyə baxmaq üçün də düşünmək lazımdır ki, iki qonşu ölkə bir-biri ilə daim düşmənçilik münasibətində yaşaya bilməz" [3, s. 103].

Beləliklə, yuxarıda qeyd olunan elmi konseptual yanaşmadan aydın olur ki, müharibə, konfliktlər, münaqişə, "əbədi ziddiyyətlər" kimi problematikaların da yalnız, siyasi, iqtisadi, coğrafi, maraqlarla, xarakterizə edilməsi məqbul hesab edilə bilməz. Başqa sözlə desək, konfliktlərin mənşəyinə, anatomiyasına, biz ontologiya, biologiya, tarixi irsiyyət və etno-psixoloji kontekstdən yanaşdıqda dialoji təfəkkürə qarşı dayanan anti-dialoqun da mənşəyi barədə müəyyən təsəvvürlər əldə edə bilərik. Biz bu müddəaları irəli sürərkən heç də erməni xalqını çoxaspektli sivilizasion atılışdan geri qalmaqda ittiham etmək fikrində deyilik(burada əsas problem ideologiyadan gəlir). Lakin tarixin fəlsəfi tədqiqi və sivilizasiyanın ontoloji interpretasiyası sübut edir ki, dövlətçilik fəlsəfəsinin dərki, dövlət qurmaq mədəniyyəti bütün irqlərə məxsus olmayan xüsusi bir keyfiyyət, sivilizasion proses və idrak hadisəsi olduğundan onun yer üzündə mövcud dörd mindən artıq bütün xalqlara tətbiqi ola bilsin ki, ciddi problematika olardı. Necə ki, biz bunu son yüz ildən dən artıq bir dövrdə Ermənistanın Qafqaz regionunda həyata keçirtdiyi aqressiv terrorçu siyasətində açıq görə bilirik.Müşahidələr göstərir ki, bu formada olan dövlətlərlə şübhəsiz postkonflikt dövründə də münasibətlərin tənzimlənməsi işi uzunmüddətli problematika olaraq qalacaqdır. Onun üçün biz burada onu da qeyd etməyi vacib hesab edirik ki, etnomilli münaqişələrin həllində beynəlxalq hüququn, nizamın birgəyaşayış prinsiplərinin həyata keçirilməsi işində beynəlxalq ictimaiyyətin, alimlərin, siyasətçilərin, mədəniyyət xadimlərinin, din və dövlət adamlarının mənəvi-humanitar qismində aqressora, ona hami olan dövlətlərə təsir göstərmələri vacibdir. Biz bütövlükdə bu proqram və strategiyanı vahid xətt altında "rasional altruizm" [6] terminində izah edirik ki, bu da şübhəsiz ulu öndər Heydər Əliyevin fenomenal şəxsiyyət kimi irəli sürdüyü dövlətçilik və bəşəri fəlsəfədən gəlir. Bu fəlsəfənin başlıca məqsədi ondadır ki, dünya öz gələcəyinə biganə yanaşa bilməz, terrorçu rejimlərin bütövlükdə fəaliyyəti bəşəriyyətin varoluşu üçün ciddi təhlükələr yaradır, onun inkişaf tendensiyasını təbii halından çıxararaq yanlış istiqamətə sürükləyir, bu da planetar səviyyələrdə katastrofizmi daha da dərinləşdirir və insani energetikanı yanlış istiqamətə yönəldir. Ona görə də düşüncəmizə görə, terrora meyl edən rejimlərin "tərbiyə edilməsi işi"ni yalnız bir dövlət və ya bir neçə dövlətin işi kimi dəyərləndirmək yanlışlıq olardı. Bütövlükdə Yer üzündə bütün dövlətlər, elm, din, fəlsəfə, sayəntik insan bu işlə məşğul olmalıdır. Bu yanaşmanın, əhəmiyyəti ondadır ki, o dünyanın bütün nöqtələrində baş verən konfliktlərin dəf edilməsi işində mexanizm kimi tətbiq edilə bilər, yəni söhbət ondan gedir ki, şüurların dəyişdirilməsi asan məsələ olmadığı üçün, etnomilli və digər münaqişə və müharibələr dövründə sülhün tətbiqi fəlsəfi anlamda interpretasiya olunarkən ona bəşəri prosesin vahid prinsipi kimi yanaşmalıyıq. Bu onu göstərir ki, *Sülhün meyarı* dialoq və dialoq mədəniyyətindədir! Bu mədəniyyətin təməllərini biz siyasətdə, sülhün əldə edilməsi proqramında, münaqişə və müharibələrin dəf edilməsi işində tətbiq etmək istəyiriksə, mütləq ulu öndər H.Ə.Əliyevin irsinə, onun bəşəri dəyərləri tərənnüm edən fenomen Şəxsiyyətinə ideya və ideologiyasına dönə-dönə müraciət etməliyik.

Nəticə olaraq, yuxarıda irəli sürülən problemin fəlsəfəsindən çıxış edərək məqaləni tezis şəklində aşağıdakı kimi ümumiləşdirə bilərik:

1. Nəzəri interpretasiyalar sübut edir ki, dünyada istər münaqişələrin, müharibə və ziddiyyətlərin aradan qaldırılmasında, o cümlədən, postmünaqişə dövründə yeni dialoq mədəniyyətinin formalaşması üçün yeni bir konsepsiya, yeni dialoq mədəniyyəti platforması zərurət kimi çıxış edir.
2. Ulu öndər Heydər Əliyevin siyasi irsi və dövlətçilik fəlsəfəsi müasir regional və qlobal münaqişə və müharibələrin həllində strateji əvəzsiz paradiqmadır. Bu paradiqmanın öyrənilməsi və dünyada tətbiqi müasir humanitar təfəkkürün qarşısındadır.
3. Azərbaycanın yaratdığı bu yeni reallıqda ideologiyaların qarşılıqlı ziddiyyətdə olduğu şəraitdə böyük dialoq mədəniyyətini formalaşdırmaq zəruri bir prosesdir.
4. Postmünaqişə dövrünün travmasını yaşayan Ermənistanı revanşist, mifik tarixi keçmiş realizmindən məhrum etmək və onların da təfəkküründə tolerantlıq, multikulturalizm, dialoq və dialoq mədəniy-

yətini formalaşdırmaq bəşəri bir problem kimi regionun bütün xalqlarını düşündürməlidir.
5. Regional sülhün təmin edilməsi ulu öndər Heydər Əliyevin dövlətçilik amalı idi bu müqəddəs vəzifə hal-hazırda şəxsən Ali Baş Komandan prezident İ.H.Əliyevin strategiyasının əsası kimi çıxış edir.

## ƏDƏBİYYAT


1. Böyük Qayıdış: Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara tarixi səfərləri. I kitab, Bakı: Şərq-Qərb, 2021, 332 s.
2. Bzejinski Z. Böyük şahmat taxtası. Bakı: Qanun, 2015, 328 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. On yeddinci kitab, Bakı: Azərnəşr, 2006 (PDF).
4. Xəlilov S.S. Sivilizasiyalararası dialoq. Bakı: Adiloğlu, 2009, 256 s.
5. Диалоги. Общество, человек, Земля и космос. Москва, 1979, 397 с.
6. Zeynalov Ş.Ə. Dialoq fəlsəfəsi. Bakı: Avropa, 2017, 304 s.


***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***E-mail: sholet@mail.ru***

**Sholat Zeynalov**

## GREAT LEADER HEYDAR ALIYEV: THE PHENOMENON OF PERSONALITY IN RESOLVING ETHNONATIONAL CONFLICTS

The article is devoted to the interpretation of the regional geopolitical and ethno-national problem in the context of the culture of communication and dialogue. It is noted here that Azerbaijan won a great victory as a result of the 44-day Patriotic War. Despite the political, economic, military, spiritual and other advantages, our country and its political leadership are committed to their strategy of peace and security laid down by the great leader Heydar Aliyev, and this humanitarian program is reflected in the ongoing cultural, construction and restoration activities, activities to ensure the peace and security of Azerbaijan. The study emphasizes that the paradigm of peace and security presented by Azerbaijan is a program towards resolving contradictions in the knowledge society, and the indispensability of the dialogue "formula" implemented by our country in resolving various conflicts between peoples, states and societies.

**Keywords:** *peace, identity, ethnonational conflicts, war, dialogue, Azerbaijan.*

**Шолат Зейналов**

## ВЕЛИКИЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ: ФЕНОМЕН ЛИЧНОСТИ В РЕШЕНИИ ЭТНОНАЦИОНАЛЬНЫХ КОНФЛИКТОВ

Статья посвящена интерпретации региональной геополитической и этнонациональной проблемы в контексте культуры общения и диалога. Здесь отмечается, что Азербайджан одержал большую победу в результате 44-дневной Отечественной войны. Несмотря на политические, экономические, военные, духовные и др. преимущества, наша страна и ее политическое руководство привержены своей стратегии мира и безопасности, заложенной великим лидером Гейдаром Алиевым, и эта гуманитарная программа находит свое отражение в осуществляемой в настоящее время, культурной, строительно-восстановительной деятельности, деятельности по обеспечению мира и безопасности Азербайджана. В исследовании подчеркивается, что представленная Азербайджаном парадигма мира и безопасности является программой в направлении решения противоречий в обществе знаний, и незаменимость диалоговой «формулы», реализуемой нашей страной при решении различных конфликтов между народами, государствами и обществами.

**Ключевые слова:** *мир, идентичность, этнонациональные конфликты, война, диалог, Азербайджан.*

**RAMİNƏ HÜSEYNLİ**

# BEYNƏLXALQ TERRORİZMƏ QARŞI MÜBARİZƏDƏ HEYDƏR ƏLİYEVİN ROLU

*Raminə Məmməd qızı Hüseynlinin "Beynəlxalq terrorizmə qarşı mübarizədə Heydər Əliyevin rolu" adlı məqaləsində ümummilli lider Heydər Əliyevin terrorçuluğun bütün forma və təzahürlərinə münasibəti və beynəlxalq terrorizmə qarşı mübarizə metodları öz əksini tapıb. Azərbaycan Respublikası uzun illər transmilli erməni terror təhlükəsi ilə üz-üzə dayanmış, onunla mübarizə aparmış və bu gün də bu mübarizə davam etməkdədir. Azərbaycana qarşı erməni terrorizmi və faşizminin avtoportreti olan Xocalı faciəsi erməni cinayətləri arasında xüsusi yer tutur. Bu faciə öz nəticələrinə görə erməni cinayətlərinin ən qorxunc və qəddar formalarından biridir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Xocalı hadisəsi ilə bağlı demişdir: "Xocalı soyqırımı XX əsrin ən böyük insan faciələrindən biridir. Xocalıda misli görünməmiş qəddarlıqla törədilmiş bu insan qırğınının Yer kürəsinin hər hansı bir guşəsində baş verməsinin qarşısını almaq üçün Xocalı soyqırımı həqiqətləri dünya ictimaiyyətinə hərtərəfli çatdırılmalı və humanizm ideallarına sədaqət nümayiş etdirən bütün insanların bu faciəyə öz qəti, birmənalı mövqelərini bildirməsi üçün ciddi və məqsədyönlü iş aparılmalıdır. Xocalı soyqırımının törədilməsindən indiyə kimi keçən illər ərzində Azərbaycan dövlətinin xarici siyasətində əsas prioritet istiqamətlərdən biri bu soyqırımın beynəlxalq aləmdə tanıdılması, eləcə də bu soyqırıma obyektiv qiymət verilməsi istiqamətində davamlı işlərin aparılması olmuşdur. Heydər Əliyevin gördüyü işlər nəticəsində Xocalıda azərbaycanlılara qarşı törədilmiş qırğınları, cinayət aktlarını qınayan dövlətlər sırasında ABŞ-ın da adı çəkilir. Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş Azərbaycan Respublikası xarici siyasət strategiyasının prioritet istiqamətlərindən birini Azərbaycan-ABŞ qarşılıqlı münasibətləri təşkil etmişdir. Bu səbəbdən, Azərbaycan Respublikası 2001-ci ilin 11 sentyabrında ABŞ-da baş verən terror aktından sonra beynəlxalq terrorizmə qarşı başladılan antiterror əməliyyatlarında ABŞ-a tam dəstəyini ifadə edən ilk dövlətlərdən biri olmuşdur və birincilər sırasında antiterror koalisiyasına qoşulmuşdur.*

**Açar sözlər:** *ümummilli lider, beynəlxalq terrorizm, beynəlxalq antiterror koalisiya, xarici siyasət, strategiya, beynəlxalq terrorizmə qarşı mübarizə, beynəlxalq münasibətlər.*

Terrorizm və onun nəticələri bəşəriyyətin bu günü və gələcəyi üçün ən böyük təhdidlərdən biridir. Tarixin müxtəlif dövrlərindən terrorizm müxtəlif formalarda təzahür etmiş, XIX əsrin sonu – XX əsrin əvvəllərinə qədər terrorizm daha çox lokal səviyyədə məhdudlaşmışdır. XX əsrin əvvəllərindən başlayaraq isə terrorizm qlobal təhlükəyə çevrilməyə başlamış, bir sıra terror təşkilatları artıq beynəlxalq şəbəkələr formalaşdırmağa nail olmuşlar. XXI əsrdə terrorizm qlobal xarakter alaraq ən yüksək mərhələyə gəlib çatmışdır. Başqa sözlə desək, orta əsrlərdə və yeni dövrdə terrorizm sırf lokal, ən pis halda isə regional xarakter daşıyırdısa, sonralar o, qloballaşmağa başlamışdır.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra özünün xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun olaraq qurmağa başladı. Azərbaycan xalqı uzun illər ümumdünya erməni terror şəbəkəsinin davamlı təhdid və hücumlarına məruz qalmışdır. 1988-1994-cü illərdə Azərbaycan Respublikasının ərazilərini işğal edən Ermənistan dövləti terror təşkilatlarını təcavüz aləti kimi istifadə etmiş, terroru dövlət siyasətinə çevirmişdir.

Azərbaycan dövlətinin isə terrorçuluğun bütün forma və təzahürlərinə münasibəti birmənalı olmuşdur və bu münasibətin mahiyyətini açıqlayan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: *"Azərbaycan həmişə terrorçuluğun bütün təzahür formalarını qətiyyətlə pisləyir, terrorçuluğa qarşı mübarizə aparır və bu istiqamətdə dünyanın bütün dövlətləri və qurumları ilə əməkdaşlığa hazırdır.Müasir dövrdə terrorizm bütün ölkələri hədəfə alaraq qlobal problemə çevrilmişdir. Terrorizm təhlükəsinin tamamilə aradan qaldırılması və gələcəkdə heç bir xalqın, heç bir dövlətin belə dəhşətli sınaqlara və sarsıntılara məruz qalmaması üçün beynəlxalq ictimaiyyət, bütün dünya xalqları və dövlətləri səylərini birləşdirməli, terrorçuluğa qarşı barışmaz mübarizə əzmini əməli işdə və sıx əməkdaşlıqda sübuta yetirməlidirlər"* [4, c. 36, 35].

Müstəqilliyin bərpasından sonrakı dövrdə dünyanın bütün sivil dövlətləri ilə beynəlxalq hüququn prinsipləri əsasında əməkdaşlıq niyyətlərini nümayiş etdirən, ABŞ, Rusiya və Avropa dövlətləri başda olmaqla ən müxtəlif dövlətlərə erməni təcavüzünün və terrorunun qarşısının alınması üçün çağırışlar edən Azərbaycan Respublikası 2001-ci ilin 11 sentyabrında ABŞ-da baş verən terror aktından sonra beynəlxalq terrorizmə qarşı başladılan antiterror əməliyyatlarında ABŞ-a tam dəstəyini ifadə edən ilk

dövlətlərdən biri olmuşdur. Məhz bu kontekstdə beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycan Respublikası ABŞ ilə birgə hərəkət etməyi özünün beynəlxalq siyasətdəki ən ümdə vəzifələrindən biri hesab etmişdir.

Müasir dövrdə terrorizmin, onun müxtəlif formalarının geniş vüsət alması, genişlənməsi üçün heç bir sərhəd və məhdudiyyətin olmaması bu təhlükəyə qarşı beynəlxalq miqyaslı mübarizənin təşkil olunmasını tələb edir. Başqa sözlə desək, hal-hazırda terrorizm ayrılıqda götürülmüş bir ölkənin, hətta regionun sərhədlərindən çox kənara çıxmış, artıq etnosid, soyqırım (genosid), faşizm kimi insanlıq əleyhinə yönəlmiş və hüquqazidd fəaliyyət kimi beynəlxalq və polietnik xarakter almışdır. Bir ölkədə və ya regionda yaradılmış terror təşkilatlarının fəaliyyəti artıq təkcə yarandığı ölkələrin deyil, bir çox dövlətlərin təhlükəsizliyinə təhdid yaradır, qlobal siyasi, maliyyə-iqtisadi və mənəvi-ideoloji təlatümlərə və itkilərə səbəb olur, xalqları psixoloji təzyiq altında saxlayır, günahsız insanların həyatına son qoyur.

Azərbaycan beynəlxalq terrorçuluğa qarşı mübarizədə özünün qətiyyətli və barışmaz mövqeyini dəfələrlə açıq şəkildə ortaya qoymuşdur. Təsadüfi deyil ki, Ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu dövr Azərbaycan Respublikasının iqtisadiyyatın bütün sahələrində yüksək nailiyyətlər əldə etməsi ilə yanaşı, eyni zamanda dünya miqyasında transmilli terrorizmlə mübarizədə ABŞ-ın tərəfdaşı qismində tanındığı bir dövr kimi yadda qalmışdır.

Müasir dövrdə beynəlxalq terrorizmin qlobal təhlükəyə çevrilməsi tədqiqatçıların və tədqiqat mərkəzlərinin bu mövzunun müxtəlif aspektlərinin öyrənilməsinə marağını artırmışdır. Azərbaycan Respublikası və ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizədə birgə fəaliyyəti ilə bağlı məsələlərə bir çox ölkə müəlliflərinin əsərlərində qarşıya qoyulan tədqiqat məqsədlərindən asılı olaraq müxtəlif prizmalardan toxunulmuşdur.

Azərbaycan Respublikasının ABŞ-dakı ilk səfiri H.Paşayevin "ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi" adlı məqaləsində ABŞ-Azərbaycan münasibətlərində terrorizmə qarşı birgə mübarizə məsələlərinə toxunulmuşdur [13]. Onun adı gedən əsərində Azərbaycan haqqında ABŞ Konqresinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Komissiyası qarşısındakı bəyanatları, ABŞ Konqresinə və Prezident Administrasiyasına məktubları və s. kimi məsələlərlə bağlı əksini tapmış faktlar antiterror müzakirələrinin daha aydın mənzərəsini yaratmağa imkan verir.

1993-cü ildə Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra dərhal ABŞ-la əlaqələrin düzəldilməsi sahəsində əlindən gələni etmişdir. Nəticədə, "Azadlığı Müdafiə Aktı"na dair "907-ci düzəliş"ə baxmayaraq, ABŞ Azərbaycana yardım göstərdi. Şəksiz ki, bu fakt, Azərbaycan-ABŞ münasibətlərinin yumşaldılmasına və gərginliyin aradan qaldırılmasına yönələn ilk addım kimi gələcək münasibətlərə də öz müsbət təsirini göstərdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfərindən sonra Azərbaycan bu ölkə ilə birlikdə terrora qarşı mübarizəyə fəal surətdə qoşuldu. Bu tarixi səfər ABŞ-ın 42-ci prezidenti B.Klintonun dəvətinə əsasən 1997-ci ilin iyul-avqust aylarında baş tutmuşdur [16, s. 328; 313].

Azərbaycan Prezidentinin Heydər Əliyevin bu səfər zamanı mühüm görüşlərindən biri iyulun 31-də Pentaqonda ABŞ-ın müdafiə naziri U.Kohen ilə oldu. Bu görüş prezident Heydər Əliyev və müdafiə naziri Uilyam Kohen tərəfindən "ABŞ ilə Azərbaycan arasında təhlükəsizlik və hərbi sahələrdə gələcək əlaqələr barədə birgə bəyanat"ın imzalanması ilə nəticələndi. Heydər Əliyevin qeyd etdiyi kimi, *"bu çox böyük əhəmiyyət daşıyan hadisə "Azərbaycan Respublikası və ABŞ arasında diplomatik əlaqələrin inkişafında yeni mərhələ idi"* [5, c. 11, 33]. Heydər Əliyevin bu səfərini transmilli erməni terrorizmi ilə mübarizədə atılmış addımlardan biri kimi də dəyərləndirmək olar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ilk tarixi səfərinə qədər həm ABŞ-da, həm də dünyanın bir çox ölkələrində Azərbaycan və azərbaycanlılar haqqında çox yanlış məlumata malik idilər və bu işdə erməni lobbisinin həm Amerikada, həm də xüsusilə Fransada və digər ölkələrdə apardığı Azərbaycan əleyhinə ideoloji terrorun çox böyük təsiri olmuşdu. Lakin 1997-ci ildən başlayaraq, bu ədalətsiz yanaşma öz əhəmiyyətini itirirdi, mənfi stereotiplər dağılmağa başladı. Azərbaycan xalqının xilaskarı Heydər Əliyevin həm Amerikaya, həm də digər ölkələrə etdiyi səfərlərin sayəsində dünya Azərbaycan və azərbaycanlılar haqqında həqiqətləri öyrənmiş oldu.

ABŞ-da Heydər Əliyevin dövlət, siyasi və ictimai xadimlərlə, sənaye və maliyyə dairələrinin, kütləvi informasiya vasitələrinin nümayəndələri, Azərbaycan icmaları ilə mühüm, faydalı və məhsuldar görüşləri baş tutdu. Əsas diqqət həm Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə, həm də ABŞ və Azərbaycan Respublikasının maraqlı olduqları digər mühüm problemlərə yönəldilmişdi. Təbii ki, transmilli terrorizmə, o cümlədən Azərbaycana qarşı aparılan erməni terrorizminə, faşizminə, millətçi-şovinizminə qarşı birgə mübarizədən də bəhs edilmişdi [5, s. 11, 19-20]. Bu səfərdən sonra Azərbaycan Respublikasının ABŞ ilə terrorizmə qarşı mübarizə və təhlükəsizlik sahəsində qarşılıqlı əlaqələri dinamik şəkildə inkişaf etməyə başlamışdır.

Məhz bu səfərdən sonra 1999-cu ilin 18 iyununda "Terrorizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda hüquqi olaraq ilk dəfə terrorizm, terrorçu, terror qrupu, terror fəaliyyəti, terror təşkilatı, terrorizmə qarşı mübarizə anlayışları müəyyənləşdirilmişdir.

Qanunda terrorizm – ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və ya dövlət hakimiyyəti orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədilə insanların kütləvi surətdə qırılmasına, onlara bədən xəsarəti yetirilməsinə, yaxud səhhətinə başqa cür zərər vurulmasına və ya onların əmlakının məhv edilməsinə (zədələnməsinə) və ya başqa ağır nəticələrə səbəb olan əməllər törədilməsi və ya bu cür əməllərin törədilməsinə yönəldilmiş hədə kimi izah olunmuş, hər hansı bir formada terror fəaliyyətinin həyata keçirilməsində iştirak edən şəxs isə terrorçu kimi qiymətləndirilmişdir [15].

Qanuna görə terror təşkilatı terror fəaliyyətinin həyata keçirilməsi məqsədilə yaradılan və ya öz fəaliyyətində terrorizmdən istifadəni mümkün hesab edən təşkilat hesab olunur. Həmçinin, qeyd edilir ki, əgər struktur bölmələrindən biri təşkilatın hər hansı bir rəhbər orqanının razılığı ilə terror fəaliyyəti ilə məşğuldursa, həmin təşkilat terror təşkilatı hesab edilir.

Terror fəaliyyətinin aşkar edilməsi, qarşısının alınması, habelə terror nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsi ilə bağlı fəaliyyət terrorizmə qarşı mübarizə kimi, terror aksiyalarının qarşısının alınması, fiziki şəxslərin təhlükəsizliyinin təmin edilməsi, terrorçuların tərksilah edilməsi, zərərsizləşdirilməsi, habelə terror aksiyası nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsi məqsədilə həyata keçirilən xüsusi tədbirlər isə terror əleyhinə aparılan əməliyyatlar kimi qiymətləndirilmişdir [14].

Qanunda, həmçinin beynəlxalq terror fəaliyyəti anlayışı da bütün detalları ilə izah edilmişdir. Belə ki, Azərbaycan dövləti terrorçular və ya terror təşkilatları tərəfindən bir neçə dövlətin ərazisində həyata keçirilən və ya bir neçə dövlətin maraqlarına zərər vura bilən, şəxs tərəfindən onun mənsub olduğu dövlətin və ya başqa bir dövlətin ərazisində hər hansı bir dövlətin vətəndaşına qarşı edilən, terrorçu və terrorizmə məruz qalan şəxslər eyni və ya müxtəlif dövlətlərin vətəndaşları olduqları halda, həmin dövlətlərin ərazisindən kənarda törədilən cinayətlə bağlı olan fəaliyyəti beynəlxalq terror fəaliyyəti kimi qiymətləndirmişdir.

2000-ci ilin fevral ayın 12-dən 28-dək Azərbaycan prezidenti Heydər Əliyevin ABŞ-a növbəti səfərində də təhlükəsizliyin təmin olunması və terrorizmə qarşı mübarizə məsələləri müzakirə edilmişdir. Həm Heydər Əliyevin Vaşinqtonda, Ağ evdə ABŞ-ın prezidenti B.Klinton ilə keçirilən görüşündə, həm də ABŞ-ın dövlət katibi xanım M.Olbraytın və ABŞ prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə köməkçisi S.Bergerlə görüşündə bu istiqamətdə fikir mübadiləsi aparılmış, eləcə də Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edilmişdi [6, s. 68-70].

2001-ci ildə ABŞ-da baş verən terror aktından sonra Azərbaycan-ABŞ əlaqələrində beynəlxalq terrorizmə qarşı birgə mübarizə məsələsi ön plana çıxmışdır. Artıq qeyd edildiyi kimi, Azərbaycan Respublikası 11 sentyabr terror hücumlarına birincilər sırasında öz münasibətini bildirmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "ABŞ-da 11 sentyabr terror hücumlarının günahsız qurbanlarının xatirəsi" ilə bağlı Sərəncam imzalamışdır [7]. Bu sənəddə aşağıdakılar nəzərdə tutulmuşdu:

– ABŞ-da baş verən terror hücumlarının minlərlə günahsız qurbanının xatirəsi Azərbaycan Respublikasında 13 sentyabr 2001-ci il tarixində gündüz saat 12-də bir dəqiqəlik sükutla yad edilməsi;

– bir dəqiqəlik sükut ərzində ölkənin bütün ərazisində dövlət bayraqlarının endirilməsi;

– bir dəqiqəlik sükut ərzində əyləncəli proqramların nümayişinin dayandırılması.

25 dekabr 2001-ci il tarixində Avropa Şurası Parlament Assambleyasının iclasında Azərbaycan nümayəndə heyətinin başçısı İlham Əliyev Azərbaycanın terrorizmə qarşı mübarizədə sərt mövqe tutduğunu, Azərbaycanın bu mübarizədə ABŞ ilə ittifaqa daxil olduğunu bildirmiş, ölkəmizin bütün demokratik dünyanın birliyi və beynəlxalq terrorizmə son qoymaq naminə hər şeyi etməyə hazır olduğunu vurğulamışdır. İlham Əliyev, eyni zamanda, inandırıcı faktlar və sübutlar göstərərək, Ermənistan nümayəndəsinin - bu ölkənin Xarici İşlər nazirinin uydurma böhtanlarını ifşa etmişdir.

11 sentyabr hadisələrindən sonra Heydər Əliyev Azərbaycan Respublikası Təhlükəsizlik Şurasını çağırmış və ölkədə təhlükəsizliyin təmin edilməsi ilə bağlı ciddi tədbirlərin görülməsi haqqında sərəncam vermişdir. Bu transmilli terrorizmə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinin təkmilləşdirilməsinə yeni təkan vermişdir.

Azərbaycan Respublikasının hökuməti 2003-cü ildə Cinayət Məcəlləsinə aşağıdakı dəyişiklikləri etmişdir:

– terror aktlarının iştirakçılarına verilən maksimum cəza müddəti 15 ildən ömürlük həbsə qədər artırılmışdır;

– terrorizmin maliyyələşdirilməsi və girov götürülməsinə görə, gözlənilən terror aktı haqqında yalan informasiyaya görə, hava və dəniz gəmilərinin və dəmiryolu qatarlarının qaçırılmasına görə, beynəlxalq müdafiə hüququ olan şəxslərə qarşı edilən cinayətlərə görə, qanunsuz silahlı birləşmələrin və cinayətkar qrupların yaradılmasına görə, dövlət məmurlarının həyatına qəsd edilməsinə görə məsuliyyət haqqında maddələr yaranmışdır;

– Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təşkilatlar terrorizmlə əlaqəsinə görə məhkəmənin qərarına əsasən ləğv edilə bilər. Onların əmlakı qanunvericiliyə müvafiq olaraq dövlət tərəfindən müsadirə olunur [1].

Hələ 2000-ci ilin dekabrın 1-də Minskdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xüsusi rəy ilə "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin antiterrorizm mərkəzi haqqında" qərarı imzalamışdı və 2002-ci ilin iyulun 21-də Azərbaycan Respublikası tərəfindən imzalanmış bu qərarın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu təsdiqləndi [2]. Bu qanundan irəli gələn müddəalara əsasən Azərbaycan Respublikası, müəyyən ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək, terrorçuluğun maliyyələşdirilməsi, terror aktlarını törətmək iqtidarında olan hüquqi və fiziki şəxslərlə mübarizə üzrə tədbirlər kompleksini həyata keçirmişdir.

BMT-nin 1373 saylı (sentyabr 2001-ci il) Qətnaməsinin 6-cı bəndinin yerinə yetirilməsi üçün Azərbaycan Respublikası Hökuməti BMT-nin Təhlükəsizlik Şurasının terror əleyhinə komitəsinə özünün terrorizmlə mübarizə tədbirləri haqqında məruzələr təqdim etmişdir. Onlardan birincisi BMT-nin Təhlükəsizlik Şurası tərəfindən 2001-ci ilin dekabr ayında, ikincisi – 2002-ci ilin avqust ayında BMT-nin Təhlükəsizlik Şurasının Qətnaməsinin yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının müvafiq dövlət orqanları tərəfindən həyata keçirilən tədbirlər haqqında məlumatları özündə ehtiva edir və Azərbaycan Respublikasının beynəlxalq terrorizmlə mübarizəyə verdiyi töhfəni əks etdirir. Əsasən də, 2001-ci il 11 sentyabr – ABŞ-da terrorizm hadisəsindən sonra, bütün dünyanı təhdid edən terrorizmlə mübarizədə Azərbaycanın ABŞ-la müttəfiqlik etməsi və 2001-ci ildə Əfqanıstana qarşı yaradılmış beynəlxalq antiterror koalisiyasının fəal üzvlərindən birinə çevrilməsi ABŞ-ın Azərbaycanla əlaqələrdə müsbət addımlar atmasına stimul yaratmışdır. Bu addımlardan ən mühümü isə odur ki, illərdir müraciət olunmasına baxmayaraq, məhz bu hadisədən sonra ABŞ hökuməti 907-ci düzəlişi nəzərdən keçirməli olmuşdur. 2001-ci il yanvar ayının 9-da ABŞ konqresinin nümayəndələr palatasının Respublikaçılar fraksiyasının altı nümayəndəsi (Ç.Hegel, S.Braunberk, K.Tomas, Q.Smit, R.Luqar, eləcə də xarici işlər üzrə komitənin sədri vəzifəsini tutan C.Helms) ABŞ prezidentinə öz səlahiyyətlərindən istifadə edərək "907-ci düzəlişin" ləğv olunması barədə məktub göndərmişlər [3, s. 18].

Bununla da ABŞ prezidenti Corc Buş beynəlxalq antiterror koalisiyasının üzvü olan Azərbaycana qarşı tətbiq edilən 907-ci düzəlişin dayandırılması məsələsini qaldırmış və nəticədə 2002-ci ilin yanvar ayından düzəlişin qüvvəsi dayandırılmışdır [9].

2001-ci il 7 oktyabr tarixində ABŞ Əfqanıstanda terrora qarşı əməliyyatlara başladıqdan sonra Azərbaycan Respublikası Hökuməti onları hava dəhlizi ilə təmin etmişdir. 2001-ci il ərzində Azərbaycan Respublikasının Vaşinqtondakı səfirliyinin hərbi attaşe aparatı tərəfindən ABŞ Müdafiə Nazirliyinin mərkəzi aparatı, Birləşmiş Qərargah, Qoşun növləri, ABŞ-ın Avropadakı Komandanlığı və Sahil Mühafizəsi Qoşunlarının Azərbaycana cavabdeh olan müvafiq strukturları və rəsmiləri ilə sıx əlaqələr yaradılmışdır. 2001-ci il hərbi əlaqə planında nəzərdə tutulan 21 tədbir tam olaraq həyata keçirilmişdir [1]. 30 sentyabr 2005-ci il tarixində elektron yazışmaları nəzarət altında saxlamağa imkan verən "İnformasiya əldə etmək haqqında"Azərbaycan Respublikasının qanunu qəbul edildi [10].

Azərbaycan Respublikasının terrorizmlə mübarizədə ABŞ üçün nə dərəcədə əhəmiyyətli olduğunu həmin illərdə ABŞ müdafiə nazirinin Azərbaycana səfərləri də göstərir. Belə ki, Birləşmiş Ştatların müdafiə naziri D.Ramsfeld 2001-2005-ci illərdə dörd dəfə (15 dekabr 2001-ci il, 3 dekabr 2003-cü il, 12 avqust 2004-cü il və 12 aprel 2005-ci il) Azərbaycanda səfərdə olmuş, Azərbaycan Prezidenti və digər dövlət rəhbərləri ilə danışıqlar aparmış, iki ölkə arasında hərbi və təhlükəsizlik məsələləri üzrə əməkdaşlığın müxtəlif aspektlərini müzakirə etmişdi.

Bu səfərlər nəticəsində iki ölkənin müdafiə nazirlikləri arasında əməkdaşlıq genişlənmişdir. 2002-ci ildə ABŞ hökuməti Azərbaycan Respublikası Müdafiə Nazirliyinə təhlükəsizlik sahəsində tədbirlərin həyata keçirilməsi üçün 4,4 milyon dollar məbləğində vəsait ayırmışdı. Təkcə 2002-ci il ərzində Azərbaycan Respublikası təhlükəsizlik və müdafiə sahəsində keçirilən 11 proqramda iştirak etmişdi [11, s. 238].

Beynəlxalq terrorçuluğa qarşı birgə mübarizənin aparılması üçün Azərbaycan Respublikası terror təhdidi olan bölgələrə (Kosovo və Əfqanıstana) öz hərbi qüvvələrini də göndərmişdi. Belə ki, Azərbaycan Respublikasının Milli Məclisi 2002-ci il noyabr ayının 15-də bu barədə qərar qəbul etmişdir. Qərara əsasən Azərbaycan ordusunun dörd tağımının Türkiyə Cümhuriyyəti Silahı Qüvvələri taburunun tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsi nəzərdə tutulurdu [30, s. 238]. Böyük əhəmiyyət daşıyan bu qərar həm də Azərbaycan Respublikasının terrorizmə qarşı birgə əməkdaşlıqda vacib tərəfdaş olduğunu, həm də dünya siyasətində Azərbaycanın rolunun artdığını sübut edirdi [17].

Azərbaycan Respublikası beynəlxalq terrorizmə qarşı mübarizədə öz üzərinə götürdüyü bütün öhdəlikləri uğurla yerinə yetirmişdir. Beynəlxalq terrorizmə və mütəşəkkil cinayətkarlığın digər növlərinə qarşı kollektiv mübarizənin uğurla həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası 50-dən artıq saziş, protokol və memorandum imzalamışdır [12, s. 50].

Azərbaycan Respublikası transmilli terrorizmə qarşı mübarizədə təkcə ABŞ-la deyil, onun müttəfiqləri, NATO üzvü olan ölkələrlə də əməkdaşlıq edir. 2002-ci ilin aprel ayında Türkiyənin Trabzon şəhərində Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə arasında "Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər ağır cinayətlərə qarşı mübarizə haqqında" saziş imzalanmışdır. 2002-ci ilin iyul ayında Yaltada GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) dövlətlərinin hüquq-mühafizə orqanları arasında bənzər saziş bağlanmışdır [8]. Bu sənədlərin əsas məqsədi Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq və regional iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsidir. Bunlar Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Qars dəmiryolu xətləridir. Bu transmilli layihələrdə isə ABŞ-ın da özünəməxsus maraqları vardır. Beynəlxalq terrorizmə qarşı effektli mübarizə sərhədlərin tam müdafiəsinin təminatını zəruri edir. Buna görə də, sərhəd rejiminin gücləndirilməsi üzrə müvafiq tədbirlər görülmüşdür.

Azərbaycan Respublikası terror aktları törətmiş və ya törətməyi planlaşdıran şəxslərin istintaqını və cinayət təqibini tənzimləyən, ilk dəfə 1999-cu ildə qəbul edilmiş terrorizmlə mübarizə qanunlarının tətbiqini davam etdirir. Azərbaycanın hüquq mühafizə və xüsusi xidmət orqanları terror əməllərini aşkarlamaq və onların qarşısını almaq, habelə Azərbaycana qayıdan xarici terrorçuları təqib etmək məqsədi ilə ölkəyə giriş məntəqələrində səyahət edən şəxsləri yoxlamaq üçün bioqrafik/ biometrik məlumatlardan səmərəli şəkildə istifadə edir. Habelə birgə mübarizə tədbirlərinin həyata keçirilməsi üçün Azərbaycanın təhlükəsizlik xidmətləri məlumatların hökumət daxilində və digər ölkələrlə, o cümlədən ABŞ ilə dayanıqlı və davamlı mübadiləsini həyata keçirirlər. Azərbaycanın hüquq-mühafizə

orqanları Suriya və İraqdakı terrorçu qrupların üzvü olan şəxslərin qanunun tələbləri əsasında məhkəmə qarşısına çıxarılmasını, məhkəmələr isə onların törətdikləri əməllərə görə cavab verməsini təmin edir. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən 2016-cı ildə ölkədən kənarda terror fəaliyyətinə cəlb olunmaqda ittiham olunan 58 şəxsin vətəndaşlığı ləğv edilmişdir [7].

Azərbaycan Respublikası təkcə terrorizmin real təzahürlərinə qarşı deyil, həm də onun maliyyələşdirilməsinin qarşısının alınması üçün mübarizə aparır. Azərbaycan Avropa Şurasının Çirkli pulların yuyulmasına qarşı tədbirlərin və Terrorizmin Maliyyələşdirilməsinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL), Maliyyə Tədbirləri üzrə Operativ Qrup (FATF) kimi regional qurumların üzvüdür.Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 fevral tarixli 66 nömrəli Fərmanı ilə müstəqil struktur vahidi olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti yaradılmışdır və Maliyyə Monitorinqi Xidməti Maliyyə Kəşfiyyatı İdarələrinin Egmont Qrupunun üzvüdür.

Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizə tədbirlərində fəal rol oynayır. Bu sahədə beynəlxalq əməkdaşlıq, xüsusilə də ABŞ-la əməkdaşlıq vacibdir, çünki dünyanın hətta ən qüdrətli dövləti belə terrorizmlə təkbaşına mübarizə aparmaq iqtidarında deyil. Bu yalnız inteqrasiya məsələlərinə deyil, həm də təhlükəsizliyin təmin edilməsi və terrorizmə qarşı mübarizə kimi həlli vacib əhəmiyyətli məsələlərə aiddir. Öz qonşularından və ya müttəfiqlərindən və yaxud tərəfdaşlarından təcrid olunaraq terrorizmlə uğurlu mübarizə aparmaq mümkün deyil vəAzərbaycanda dərk edilir ki, bu bəlaya yalnız ümumi səylər hesabına qalib gələ bilərik.

Müasir mərhələdə Azərbaycan Respublikası özünün beynəlxalq terrorizmə qarşı mübarizəsini yeni dövrün tələblərinə uyğun olaraq həm ikitərəfli, həm də çoxtərəfli formatlarda davam və inkişaf etdirməkdədir.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, bəşər tarixində terrorizm xüsusi fenomen kimi meydana çıxmışdır. XX əsrin sonu-XXI əsrin əvvəllərində terrorizm öz inkişafında yeni kəmiyyət və keyfiyyət mərhələsinə qədəm qoymuşdur. Bu mərhələdə terrorizm yerli səviyyədən çıxaraq qloballaşmış, terror təşkilatlarının yeni bir növü olan transmilli terror təşkilatları yaranmışdır.

Belə ki, XX əsrin sonu XXI əsrin əvvəllərində texnoloji inkişafla paralel olaraq terrorizmin təbliğat və informasiya manipulyasiyası imkanları da artmışdır. Müasir dünyada demək olar ki, bütün terror təşkilatları qlobal internet şəbəkəsinə çıxışa malikdirlər. Onlar tərəfdarlarını bir çox hallarda sosial şəbəkələr vasitəsi ilə belə idarə edirlər.

11 sentyabr 2001-ci il hadisələrindən sonra beynəlxalq antiterror koalisiyasının yaradılması və fəaliyyətinin təhlili göstərir ki, ABŞ və dünya dövlətləri terror təşkilatlarının təhlükəsinin qloballaşdığını dərk etdilər. Terrorun bütün növləri ilə mübarizənin zəruriliyi ortaya çıxdı.

Azərbaycan Respublikasına gəldikdə isə, o terror hadisələrinə münasibətdə ikili standartlardan istifadə etmədən, birmənalı hərəkət edir. Başqa sözlərlə, Azərbaycan Respublikası BMT-nin qəbul etdiyi və dünya ictimaiyyətini beynəlxalq terrorizmə, o cümlədən Azərbaycana qarşı aparılan erməni terrorizminə qarşı barışmaz mübarizəyə yönəldən qərarların çərçivəsində hərəkət edir və bu 2020-ci ilin payızında 44-günlük Vətən müharibəsi zamanı da sübut olundu.

Müasir dövrdə terror həm beynəlxalq, həm də transmilli terrora çevrilmişdir ki, onun yox edilməsi dövlətlərin bu məsələdə koalisiya yaratmasını zəruri edir.

Bu gün Azərbaycan Respublikası erməni terrorizmini, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini qəti surətdə pisləyən və ona qarşı barışmaz mübarizə aparan ölkələrdən biridir. Azərbaycanda terror təhlükəsinə qarşı mübarizədə ən aparıcı təşkilat kimi Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti beynəlxalq tərəfdaşlarla, dünyanın 51 ölkəsinin 77 xüsusi xidmət, təhlükəsizlik, hüquq-mühafizə orqanı ilə qlobal təhdidlərə, terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa qarşı çoxtərəfli və ikitərəfli formatda əməkdaşlığını davam etdirir.

Azərbaycan Respublikası tərəfindən terrorizmə qarşı aparılan bütün tədbirlər zamanı insan hüquqları və qanunun aliliyi prinsipi əsas götürülür, hər hansı bir özbaşınalıq forması, habelə hər hansı

bir ayrı-seçkilik və ya irqçi davranış istisna edilir. Azərbaycan Respublikasının son 30 ildə həm ölkə daxilində, həm də beynəlxalq miqyasda terrorçuluğun hər cür təzahürlərinə qarşı apardığı uğurlu siyasətin də əsasında məhz ədalətli davranış dayanır.

Azərbaycan hal-hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında transmilli terrorizmə qarşı mübarizəyə öz töhfəsini verməkdə davam edir. Bununla bağlı, müvafiq qanunverici, təşkilati və əməli tədbirlərin həyata keçirilməsinin dəqiq proqramı işlənib hazırlanmış və təkmilləşdirilmişdir. İlham Əliyev beynəlxalq terrorizmlə, o cümlədən Azərbaycan və azərbaycanlılara qarşı yönəlmiş transmilli erməni terrorizmi ilə mübarizənin Heydər Əliyev tərəfindən yaradılmış sistemli xəttini uğurla davam etdirir və təkmilləşdirir.

Müasir mərhələdə beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycan Respublikasının ABŞ ilə əməkdaşlığı yalnız normativ-hüquqi aktlarla məhdudlaşmır. O, həmçinin bu sahədə müvafiq təsirli tədbirlərin həyata keçirilməsi ilə də müşayiət olunur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında terrorizm, mütəşəkkil cinayətkarlıq və digər ağır cinayətlərə qarşı mübarizə haqqında saziş. 30.04.2002: Elektron resurs // Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası.
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. Azərbaycan Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı. № 2198 Elektron resurs // URL: http://www.e-qanun.az /framework/13373.
3. Bayramzadə S. Xocalı faciəsi barədə yeni faktlar // Azərbaycan ruznaməsi, 2021, 25 fevral: [Elektron resurs]. URL: https://butov. az/koshe/16811-xocal-facisi-bard-yeni-faktlar.html.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 cilddə. Bakı: Azərnəşr, 2011, c. 36, 512 s.
5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 cilddə. Bakı: Azərnəşr, 2000, c. 25, 520 s.
6. Əliyev İ. İnkişaf məqsədimizdir: 87 cilddə. Bakı: Azərnəşr, 2014, c. 6, 376 s.
7. Azərbaycanı hədələyən terror təşkilatları: Elektron resurs, fevral 14, 2014 // URL: https://axar.az/news/gundem/9020.html.
8. Həsənov A.İ. Beynəlxalq terrorizm / Elmi red. R.F.Məmmədov. I hissə, Bakı: Əbilov, Zeynalov və qardaşları, 2003, 588 s.
9. Xocalı soyqırımı: Elektron resurs, oktyabr 11, 2016 // URL: https://genocide.preslib.az/az.a3-2.html.
10. İslam və müasir dövrün aktual problemləri, İslamın terrora münasibəti: həqiqi anlam və təhrifli şərh // Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bülleteni, Bakı, 2001, № 2, s. 6-22.
11. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. 1 h., Bakı: Mütərcim, 2015, 648 s.
12. Özbəkistan İslam Hərəkatı İŞİD-ə beyət etdi: Elektron resurs, oktyabr 17, 2018 // URL: http://reaksiya.az/news/dunyadan-reaksiya/2431-ozbekistan-islam-herekati-isid-e-beyet-etdi.
13. Paşayev H. ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi // Dirçəliş – XXI əsr, Bakı, 2003, avqust, № 66, s. 95-100.
14. Terrorçuluğa qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu, iyun 18, 1999, № 687-IQ, Maddə 1, bənd 1: Elektron resurs, oktyabr 6, 2018 // URL: http://www. e-qanun.az/framework/3855
15. Verdiyev Ə. "Neptun nizəsi": Üsamə bin Laden necə məhv edildi? IV yazı: Elektron resurs, yanvar
16. Аббасбейли А. Гейдар Алиев и мировая политика. Баку: Азернешр, 1997, 328 с.
17. Севдималиев Р. Международный терроризм и политико-правовые проблемы борьбы с ним. Баку: NDGO, 2011, 504 с.

***Azərbaycan Dövlət Pedaqojı Universiteti***
***E-mail: h.ramina.m@gmail.com***

**Ramina Husseinli**

## THE ROLE OF HEYDAR ALIYEV IN THE FIGHT AGAINST INTERNATIONAL TERRORISM

The national leader Heydar Aliyev's attitude to all forms and manifestations of terrorism and methods of combating international terrorism has found its reflection in Ramina Mammad gizi Huseynli's article entitled "The role of Heydar Aliyev in the fight against international terrorism".

For many years, the Republic of Azerbaijan has faced and fought against the transnational Armenian terrorist threat, and this struggle continues until now.

A special place among the Armenian crimes is occupied by the Khojaly tragedy, which is a self-portrait of Armenian terrorism and fascism against Azerbaijan, which in its consequences is one of the most terrible and cruel forms of Armenian crimes. The national leader of the Azerbaijani people Heydar Aliyev said about the Khojaly incident: "The Khojaly genocide is one of the greatest human tragedies of the 20th century.

So that this genocide, committed in Khojaly with unprecedented cruelty, is not repeated in any corner of the Earth, the facts of the Khojaly genocide must be comprehensively communicated to the world community, and serious and purposeful work must be carried out so that all people who are loyal to the ideals of humanism express their firm and unequivocal position on this tragedy".

Over the years that have passed since the Khojaly genocide and until now, one of the main priorities of the foreign policy of the Azerbaijani state is the promotion of this genocide in the international world, as well as constant work towards giving an objective assessment of this genocide. Among the countries condemning the massacres and criminal acts committed against Azerbaijanis in Khojaly as a result of the activities of Heydar Aliyev, the name of the United States is also mentioned.

One of the priorities of the foreign policy strategy of the Republic of Azerbaijan, determined by the national leader Heydar Aliyev, is the Azerbaijani-American relationship.

For this reason, the Republic of Azerbaijan was one of the first countries to express its full support to the United States in the anti-terrorist operation launched against international terrorism after the terrorist attack in the United States on September 11, 2001, and was one of the first to join the anti-terrorist coalition.

**Keywords:** *national leader, international terrorism, International Anti-Terrorism Coalition, foreign policy, strategy, International Counter-Terrorism, international relations.*

**Рамине Гусейнли**

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В БОРЬБЕ С МЕЖДУНАРОДНЫМ ТЕРРОРИЗМОМ

В статье Рамине Мамед гызы Гусейнли «Роль Гейдара Алиева в борьбе с международным терроризмом» отражено отношение общенационального лидера Гейдара Алиева ко всем формам и проявлениям терроризма и методам борьбы с международным терроризмом. На протяжении многих лет Азербайджанская Республика сталкивалась с транснациональной армянской террористической угрозой, боролась с ней, и эта борьба продолжается по сей день. Особое место среди армянских преступлений занимает Ходжалинская трагедия, являющаяся автопортретом армянского терроризма и фашизма против Азербайджана. Эта трагедия по своим последствиям является одной из самых страшных и жестоких форм армянских преступлений. Общенациональный лидер азербайджанского народа Гейдар Алиев сказал о Ходжалинском инциденте: «Ходжалинский геноцид является одной из величайших человеческих трагедий XX века. Для того, чтобы этот геноцид, совершенный в Ходжалы с небывалой жестокостью, не повторился ни в одном уголке Земли, факты Ходжалинского геноцида должны быть всесторонне

доведены до мировой общественности и должна быть проведена серьезная и целенаправленная работа, чтобы все люди, проявляющие лояльность идеалам гуманизма выражали свою твердую и однозначную позицию по поводу этой трагедии. За годы, прошедшие с момента совершения Ходжалинского геноцида и до сих пор, одним из главных приоритетных направлений внешней политики Азербайджанского государства является пропаганда этого геноцида в международном мире, а также постоянная работа в направлении придания объективной оценки этому геноциду. Среди стран, осуждающих массовые убийства и преступные действия, совершенные против азербайджанцев в Ходжалы в результате деятельности Гейдара Алиева, также упоминаются и Соединенные Штаты. Одним из приоритетных направлений внешнеполитической стратегии Азербайджанской Республики, определенной общенациональным лидером Гейдаром Алиевым, являются азербайджано-американские взаимоотношения. По этой причине Азербайджанская Республика была одной из первых стран, выразивших свою полную поддержку Соединенным Штатам в антитеррористической операции, начатой против международного терроризма после теракта в Соединенных Штатах 11 сентября 2001 года, и одной из первых присоединилась к антитеррористической коалиции.

**Ключевые слова:** *общенациональный лидер, международный терроризм, международная антитеррористическая коалиция, внешняя политика, стратегия, борьба с международным терроризмом, международные отношения.*

**ELXAN MƏMMƏDOV**

# HEYDƏR ƏLİYEV VƏ ONUN SİYASİ KURSU KONSTİTUSİYAMIZIN AZƏRBAYCAN VƏTƏNDAŞINA VERDİYİ HÜQUQLARIN TƏMİNATÇISI KİMİ

*Ötən əsrin sonlarından müstəqilliyini yenidən bərpa edən Azərbaycan ilk illərdə xaos və çaşqınlıq içərisində idi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişi ilə müstəqilliyin qorunması prosesi həyata keçirildi. Həmçinin ölkə vətəndaşlarının hüquq və azadlıqlarının müəyyən edilməsi istiqamətində fəaliyyətə başlanıldı. Bunun nəticəsində də ulu öndər Heydər Əliyevin şəxsən özünün gecə-gündüz çalışaraq hazırladığı qanunlar toplusu müzakirəyə çıxarıldı, xalq tərəfindən referendum yoluyla qəbul edildi. Bununla da mərkəzləşdirilmiş qanunlar toplusunun – Konstitusiyanın qəbulu və konstitusiyadan irəli gələrək vətəndaş hüquqlarını təmin etməklə ulu öndərin siyasi fəaliyyəti dövründə qarşısına qoyduğu ən vacib məsələlərdən biri həllini tapmış oldu. Sonrakı dövrlərdə konstitusiyaya əlavələr də məhz ulu öndərin siyasi kursunun layiqincə davam etdirilməsinin məntiqi nəticəsi oldu.*

*Məqalədə də məhz ulu öndər Heydər Əliyevin uğurlu siyasəti sayəsində vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirilən dövlət siyasətindən, eləcə də davam edən siyasi kursun ölkə vətəndaşlarının hüquq və azadlıqlarının təminatı istiqamətində yeritdiyi siyasətin uğurlu nəticələrindən söhbət açılır.*

**Açar sözlər:** *Heydər Əliyev, insan hüquqları, insan azadlıqları, konstitusiya, qanun.*

Daim hərəkətdə olan Yer kürəsi kimi, onun üzərində yaşanılan həyat da durmadan inkişaf edir, dəyişir. Bu rəngarəng dəyişmələrin içində baş verən proseslər qloballaşan dünyamızda artıq yeni qanunların ortaya çıxması, hüquq islahatlarının aparılması, qanunvericilik bazalarının yaradılmasına da təsirsiz ötüşmür. Bundan 100 il, hətta 50 il, bəzən 10 il, nadir hallarda isə 1 il, bir gün əvvəl qəbul edilmiş qanun və qaydalar dünya sisteminin inkişaf sürətiylə həmahəng addımlaya bilmədiyi üçün dəyişilməli olur, yeni qanunların yaradılmasına ehtiyac yaranır.

Sovet hakimiyyətinin parçalanmasından sonra müstəqilliyini bərpa edən Azərbaycan dövlətinin vətəndaşlarına vermək istədiyi hüquq və azadlıqlar dövrün xaos və qarışıqlıqlar prosesi qarşısında bir neçə il yubadıldı. Əslində isə bu, müstəqilliyin ilk illərində dövlət və xalq, hökümət və vətəndaş münasibətlərinin düzgün qurula bilməməsinin nəticəsi idi. Belə olan halda isə, təbii ki, hüquq və azadlıqlarını bilməyən, tanımayan insanların özlərinin "yaratdığı" qayda və qanunlar daha ötkəm olur. Bir ölkənin vətəndaşlarının sayı qədərincə qanun və qaydaların olması isə nəinki insanların təhlükəsizliyini təmin edirdi, əksinə hər kəsin potensial hüquq pozucusu, təhlükə mənbəyi olduğuna şərait yaradırdı. Məhz belə bir qarmaqarışıq zamanda hakimiyyətə gələn Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyata keçirməyə çalışdığı əsas məsələlərdən biri də mərkəzləşmiş hüquq bazasının, qaydalar məcmuəsinin – konstitusiyanın qəbul edilməsi oldu. 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş, 27 noyabr 2005-ci ildən isə rəsmən qüvvəyə minən Azərbaycan Respublikası Konstitusiyası həm də pərakəndə, dağınıq halda olan qanunların bir mərkəzdə cəmlənməsi ilə yanaşı, hər kəsin istədiyi vaxt, istədiyi şəkildə "tətbiq etdiyi qanunlarının" düşündükləri qədər doğru olmadığını göstərən hüquqi sənəd kimi özünü göstərdi.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə hələ Ali Sovetin Sədri işlədiyi, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirdiyi dövrdə – 21 sentyabr 1993-cü ildə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasında ziyalılarla görüşündə də ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması məsələsinə toxunmuşdu. Öz çıxışında ümummilli lider üzünü təkcə ziyalılara yox, ziyalıların timsalında bütün Azərbaycan xalqına tutaraq deyirdi: "Azərbaycanda insan azadlığı, təşəbbüs azadlığı, din azadlığı, dil azadlığı, sahibkarlıq azadlığı – bütün azadlıqlar təmin olunmalı, insan hüquqları, insan haqları qorunmalıdır. Azərbaycan müstəqil dövlət kimi öz vətəndaşlarının hüquqlarını qorumağı əsas vəzifələrindən biri hesab etməlidir" [2, s. 151].

Məhz sonrakı dövrdə ölkə başçısı kimi də ulu öndərin əsas vəzifələrindən biri Azərbaycan xalqının dinindən, irqindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşının hüquq və azadlıqlarını təmin etmək, onlara qloballaşan dünya sisteminin tələb etdiyi hüquq və azadlıqlar çərçivəsində həyatını yaşamaq imkanı yaratmaq oldu. Bu şəraitin əsas prinsipləri isə Azərbaycan Respublikasının Konstitusiyasının ayrı-ayrı maddələrində öz əksini əhatəli şəkildə tapırdı.

Qanunlar toplumuzun – Konstitusiyamızın "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" adlı ikinci bölməsinin "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" başlıqlı üçüncü fəslində yer alan 24-80-ci maddələrin məğzində və mətnində də məhz Azərbaycan vətəndaşlarına beynəlxalq hüquq normalarına uyğun olaraq verilən hüquq və azadlıqlar aydın şəkildə qeyd edilib [Bax: 2, s. 13-37].

Təbii ki, Heydər Əliyevin uzaqgörən siyasi biliyi və təşəbbüsü nəticəsində hazırlanmış ali qanunlar toplusunun vətəndaş hüquq və azadlıqlarına həsr edilmiş maddələrini ayrı-ayrılıqda təhlil edərək fikrimizi bildirməyə çalışmaq niyyətində deyilik. Lakin bəzi vacib və əhəmiyyətli maddələrin mahiyyətini açıqlamaqla Azərbaycan vətəndaşlarına, cins, irq, dil, din fərqi qoymadan bərabər hüquqlar verildiyini aydınca görmək olar. "Bərabərlik hüququ" başlıqlı 25-ci maddədə deyilir: "Hamı qanun və məhkəmə qarşısında bərabərdir, kişi və qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət irqindən, milliyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmək vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyasından, həmkarlar ittifaqları və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir" [1, s. 10]. 26-cı maddənin ikinci bəndində isə dövlət "hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir" [1, s. 10].

Ali qanunlar toplumuzda yer alan "Yaşamaq hüququ" [1, s. 10], "Azadlıq hüququ" [1, s. 11], "Mülkiyyət hüququ" [1, s. 11], "Təhlükəsiz yaşamaq hüququ" [1, s. 11-12], "Şəxsi toxunulmazlıq hüququ" [1, s. 12], "Təhsil hüququ" [1, s. 15], "Vətəndaşlıq hüququ" [1, s. 17], "Seçki hüququ" [1, s. 18] və digər hüquqlarla yanaşı "Fikir və söz azadlığı" [1, s. 16], "Vicdan azadlığı" [1, s. 16], "Sərbəst toplaşmaq azadlığı" [1, s. 16-17], "Məlumat azadlığı" [1, s. 17], "Yaradıcılıq azadlığı" [1, s. 17] və digər hüquq və azadlıqlar xalqımızın ulu öndəri, dahi siyasətçi və ən böyük azərbaycanlı Heydər Əliyevin həyata keçirdiyi hüquqi dövlət quruculuğunda qəbul edilmiş qanun və qaydalarla tənzim olunur və qorunurdu. Həmçinin ümummilli liderin siyasi xəttinin davam etdirən ölkə başçısı cənab İlham Əliyevin prezident kimi fəaliyyətinin əsas prioriteti də məhz bu hüquq və azadlıqların təmin edilməsi, ən yüksək səviyyədə qorunmasıdır.

Hələ Konstitusiyanın referenduma çıxarılmasından 2 gün əvvəl – 10 noyabr 1995-ci ildə Prezident Sarayında Konstitusiya layihəsini hazırlayan komitənin iclasında ümummilli lider Heydər Əliyev çıxış edərkən də qanunlar toplusunun vətəndaş hüquq və azadlıqları məsələsinə xüsusi önəm verdiyini nümayiş etdirmişdi: "Konstitusiyanın maddələrinin 48-i insan, vətəndaş azadlıqlarına, hüquqlarına həsr olunmuşdur. Ümumi mətnin üçdə bir hissəsi məhz insan, vətəndaş hüquqlarına, azadlıqlarına həsr edilmişdir. Bu da onu sübut edir ki, bu Konstitusiya Azərbaycan vətəndaşlarının azad, sərbəst yaşaması üçün bütün şəraitləri yaradan konstitusiyadır" [3, s. 474].

Ölkə başçısı kimi Heydər Əliyevin əsas siyasi kursu da bu prinsiplər əsasında həyata keçirilirdi. Etnik, dini, dili, cinsi ayrıseçkilik salmadan Azərbaycan xalqının hər bir nümayəndəsinin rahat, azad və əmin-amanlıq şəraitində yaşaması üçün səy və bacarıqlarını əsirgəmir, bu istiqamətdə iqtisadi-siyasi, sosial-mədəni sahədə dövlət siyasətini həyata keçirirdi. Təkcə paytaxtda və böyük şəhərlərdə deyil, rayon mərkəzlərində, qəsəbə və kəndlərdə yaşayan hər kəsin müstəqil və rahat yaşayışını konstitusion tələblər çərçivəsində həyata keçirilməsində birbaşa iştirak edirdi.

Gün-gündən iqtisadi qüdrətini artıran, dünya gücləri qarşısında öz qamətini qürurla dik tutmağı bacaran gənc bir dövlətin həqiqi qurucusu və lideri Heydər Əliyevin sonrakı dövrlərdə həyata keçirtdiyi bütün islahatların kökündə də məhz bir amal, bir məqsəd dayanırdı: hər bir azərbaycanlının müstəqil, sağlam və rahat yaşayışını təmin etmək.

Dünyada söz sahibi olan ölkələrin Azərbaycanla qarşılıqlı əməkdaşlığa can atmaları, beynəlxalq müqavilələr bağlamaları, Azərbaycanın həyata keçirdiyi irimiqyaslı layihələrdə iştirak etmək istəmələri də təkcə durmadan inkişaf edən bir ölkənin artan nüfuzu və iqtisadi imkanları deyildi, həm də rifah halı yüksələn, yaşayış şəraiti yaxşılaşan Azərbaycan vətəndaşlarının həyata keçirilən bu proseslərdə birbaşa tərəf kimi iştirak etmə hüquqlarının var olması idi. Məhz həmin layihələrin nəticəsində ən ucqar dağ kəndlərindən tutmuş, rayon və şəhər mərkəzlərinə, paytaxta qədər ölkənin hər yerindəki sosial xidmət obyektlərinin – məktəblərin, universitetlərin, xəstəxanaların, bərpa mərkəzlərinin, diaqnostik-müalicə mərkəzlərinin, idman və olimpiya komplekslərinin, kurort və istirahət obyektlərinin açılması, istifadəyə verilməsi birbaşa konstitusiyada ölkə vətəndaşları üçün nəzərdə tutulmuş hüquq-

ların təmin edilməsi və yerinə yetirilməsi istiqamətində dövlətin gördüyü mühüm işlər idi. Bütün bunlar isə ümummilli lider Heydər Əliyevin arzusunda olduğu və həyata keçirməyə çalışdığı vətəndaş azadlığı və hüquqlarının yerinə yetirilməsinin göstəricisi idi. Müstəqil Azərbaycanın dövlət başçısı kimi 10 il ərzində bu sahədə görülən tədbirlər, son iyirmi ildə isə ulu öndərin siyasi kursunu, siyasi xəttini inamla və daha mükəmməl şəkildə yerinə yetirən ölkə Prezidenti cənab İlham Əliyevin fəaliyyətinin də ayrıca diqqət ayırdığı mühüm sahədir.

2009-cu il mart ayının 18-də ümumxalq səsverməsi ilə Konstitusiyamıza edilmiş əlavə və dəyişikliklər zamanı yenə də əsas məsələ ölkə vətəndaşlarına dəyişən dünyada daha mütərəqqi hüquqlar vermək idi. Bu mənada ali qanunun 12-ci maddəsinə edilmiş əlavələrdə hər bir Azərbaycan vətəndaşının sosial vəziyyətinin yüksəldilməsi, yaşayış səviyyəsinin ən yüksək şəkildə təminatı nəzərdə tutulur. Həmin maddəyə edilmiş dəyişiklikdə göstərilir ki, "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir" [1, s. 7].

Yuxarıda qeyd olunan maddəyə bu məzmunda əlavənin edilməsi ölkənin artan maliyyə resursları, imkanları hesabına bu gün həyata keçirilən daha böyük sosial yönümlü fəaliyyətlərdə öz əksini tapır. Bu da onu deməyə əsas verir ki, Azərbaycan dövləti insan hüquq və azadlıqlarını ən yüksək şəkildə təmin etməklə kifayətlənmir, hər bir vətəndaşın layiqli həyat səviyyəsinin təşkilini də bir məsuliyyət kimi öz üzərinə götürür.

"Mən hər zaman fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" deyən ümummilli liderin siyasi varisi İlham Əliyevin söylədiyi aşağıdakı fikirlər də hər bir azərbaycanlının qloballaşan dünyada suveren bir ölkənin vətəndaşı kimi bütün hüquq və azadlıqlara sahib olduğunu deməyə əsas verir: "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və hiss eləsin" [4]. Hər iki sitatın mahiyyətində bir ölkə başçısı və Azərbaycan vətəndaşı kimi hər bir azərbaycanlının taleyini öz taleyi kimi qəbul edən lider iradəsi dayanır. Ümummilli lider Heydər Əliyev və onun siyasi kursunun əsas vəzifəsi və məqsədi Azərbaycan Respublikası Konstitusiyasının ölkə vətəndaşına verdiyi hüquq və azadlıqların təmin edilməsi olmuşdur və bu gün də o siyasi iradə, siyasi xətt uğurla yerinə yetirilir. Bunun ən mühüm göstəricilərindən biri də son illərdəki hərbi qüdrətimiz sayəsində həyata keçirilən uğurlu "Dəmir yumruq" əməliyyatı oldu.

Müstəqilliyimizin ilk illərindən dövlət idarəçiliyindəki yarıtmaz rəhbərlik nəticəsində ərazi bütövlüyümüzün qoruna bilməməsi, ölkə vətəndaşlarının öz yurd-yuvalarından qaçqın və köçkün vəziyyətinə düşmələri ölkədə nə qədər inkişafa nail olunsa da, bir tərəfin yarım qalmasının qarşısını ala bilmirdi. Məhz həmin ölkə vətəndaşlarının rahatlığını təmin etmək, onları öz doğma torpaqlarına qaytarma cəhdləri beynəlxalq siyasi arenalarda böyük güclər tərəfindən maneələrə tuş gəlsə də, ölkə rəhbərinin bir qətiyyətli iradəsi var idi: Biz öz torpaqlarımızı geri qaytaracağıq! Bu ya xoşla, ya da zorla həyata keçiriləcək. Nəhayət 2020-ci ilin payızında həm xalq, həm də dövlət səbrinin daşdığı bir ərəfədə orduya hücum əmrinin verilməsi və nəticədə itirilmiş torpaqlarımızın düşmən tapdağından azad edilməsi ilə nəticələndi. 44 günlük zəfər yürüşünün mahiyyətində də ali qanunumuzun ölkə vətəndaşlarına verdiyi hüquq və azadlıqların təmin edilməsi dayanırdı. Belə ki, öz ata-baba ocaqlarından ayrı düşmüş bir milyona yaxın azərbaycanlı öz həyatını istədiyi kimi təmin etmə hüququndan məhrum idi. Dövlətin həmin vətəndaşlarının rahatlığını təmin etməyə çalışması istənilən halda elindən-obasından ayrı düşmüş vətəndaşa əvvəlki rahatlığını təmin etməyə imkan vermirdi. Beləliklə isə artan iqtisadi-siyasi güc, ordu quruculuğu, beynəlxalq sferalardakı ötkəmlik, ölkə başçısının liderlik xarizması, xalq-dövlət, xalq-ordu birliyi və gənclərdə vətənpərvərlik tərbiyəsinin təbliği 2020-ci ilin payızını Azərbaycan üçün bahar müjdəli ovqata kökləməyə səbəb oldu. Beləliklə də sərbəst və rahat yaşamaq hüquqları zorla çətinləşdirilmiş Azərbaycan vətəndaşları işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən yeni, müasir, modern və sürətli quruculuq proseslərindən sonra daha yaxşı şəkildə həyat şəraiti ilə təmin olunacaqdır. Bununla da əsası ulu öndərimiz, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının təminatı məsələsi həmin siyasi kursun davamçısı, ölkə Prezidenti İlham Əliyevin daha böyük uğurla yerinə yetirdiyi idarəçilik sayəsində öz həllini tapır və bundan sonra da tapacaqdır.

"Mən bütün varlığımla Azərbaycana bağlıyam" deyən xalqımızın ümummilli lideri Heydər Əliyevin 2023-cü ildə anadan olmasının 100 illiyi tamam olur. Məhz ulu öndərin 100 illik yubileyində – "Heydər Əliyev İli"ndə Azərbaycanda bütün sahələrdə olduğu kimi konstitusiyamızın Azərbaycan vətəndaşlarına verdiyi hüquq və azadlıqlarının bundan sonra da layiqincə təmin olunmasına, ölkə vətəndaşlarının azad, rahat, təhlükəsiz, dövlətinə sadiq şəkildə yaşamasına əsas verəcəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı: Qanun, 2011, 64 s.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr). I. kitab, Bakı: Azərnəşr, 1997, 608 s.
3. Əliyev H. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr). IV. kitab. Bakı: Azərnəşr, 1997, 528 s.
4. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=11745

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: elxan.yurdoglu@yahoo.com***

**Elkhan Mammadov**

## HEYDAR ALIYEV AND HIS POLITICAL COURSE AS A GUARANTOR OF THE RIGHTS GRANTED TO THE CITIZENS OF AZERBAIJAN BY OUR CONSTITUTION

Azerbaijan, which regained its independence at the end of the last century, was in chaos and confusion in the first years. With the coming to power of the national leader of our people, Heydar Aliyev, the process of protecting independence was implemented. Also, activities were started in the direction of determining the rights and freedoms of the country's citizens. As a result of this, the set of laws prepared by the great leader Heydar Aliyev himself, working day and night, was discussed and accepted by the people through a referendum. With this, one of the most important issues faced by the great leader during his political activity was solved by the adoption of the centralized set of laws – the Constitution and the provision of civil rights arising from the constitution. In the later periods, additions to the constitution were the logical result of the political course of the great leader.

The article also discusses the state policy implemented in the direction of protecting the rights and freedoms of citizens thanks to the successful policy of the great leader Heydar Aliyev, as well as the successful results of the policy implemented by the ongoing political course in the direction of ensuring the rights and freedoms of the country's citizens.

**Keywords:** *Heydar Aliyev, human rights, human freedoms, constitution, law.*

**Эльхан Мамедов**

## ГЕЙДАР АЛИЕВ И ЕГО ПОЛИТИЧЕСКИЙ КУРС КАК ГАРАНТ ПРАВ, ПРЕДОСТАВЛЕННЫХ ГРАЖДАНАМ АЗЕРБАЙДЖАНА НАШЕЙ КОНСТИТУЦИЕЙ

Азербайджан, восстановивший свою независимость в конце прошлого века, в первые годы пребывал в хаосе и неразберихе. С приходом к власти общенационального лидера нашего народа Гейдара Алиева был осуществлен процесс защиты независимости. Также начата деятельность в направлении определения прав и свобод граждан страны. В результате этого свод

законов, подготовленный непосредственно неустанным трудом великого лидера Гейдара Алиева, был обсужден и принят народом путем референдума. При этом один из важнейших вопросов, стоящих перед великим лидером в период его политической деятельности, решался путем принятия централизованного свода законов – Конституции и обеспечения прав граждан, вытекающих из конституции. В более поздние периоды дополнения к конституции были закономерным следствием политического курса великого лидера.

В статье также говорится о государственной политике, реализуемой в направлении защиты прав и свобод граждан благодаря успешной политике великого лидера Гейдара Алиева, а также об успешных результатах продолжающегося политическим курса в направлении обеспечения прав и свобод граждан страны.

**Ключевые слова:** *Гейдар Алиев, права человека, свободы человека, конституция, закон.*

**ƏLƏDDİN MƏLİKOV**

# HEYDƏR ƏLİYEVİN FENOMENAL ŞƏXSİYYƏTİ VƏ MƏDƏNİ ABİDƏLƏRİN QORUNUB SAXLANILMASINDA ROLU

*Fenomenal şəxsiyyəti digərlərindən fərqləndirən əsas cəhətlər onun fərdi, ictimai və mədəni xüsusiyyətləridir. Özünəməxsus keyfiyyət və məziyyətlərə malik belə şəxsiyyət onu elitanı təşkil edən digər şəxslərdən fərqləndirən spesifik bir xarakterə malik olmalıdır. Ümummilli lider Heydər Əliyevin fenomenal şəxsiyyətinə gəldikdə isə bu xüsusiyyətlər kifayət qədər çox olduğundan təbii ki, bu məqalənin həcminə sığmır.*

*Kainatın ulu memarı Heydər Əliyevə müdriklik, dahilik, qətiyyət, əyilməzlik, yenilməzlik, mübarizlik, alicənablıq, nadir iş qabiliyyəti, natiqlik istedadı, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini, imkanlarını müəyyənləşdirmək bacarığı, fenomenal və ensiklopedik yaddaş, universal bilik kimi bir çox xüsusiyyətlər bəxş edilmişdi.*

*Heydər Əliyevin rəhbərlik etdiyi illər ərzində Azərbaycanda çox böyük abadlıq işləri görülmüş, müasir milli mədəniyyətin görkəmli əsərləri sayılan, ölkənin sosial və ictimai həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, institut, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə binalar tikilib istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. Bu unudulmaz şəxsiyyət Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyət tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına və milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi.*

**Açar sözlər***: Heydər Əliyev, fenomenal şəxsiyyət, mədəniyyət abidələri.*

**Giriş.** *"Rəhbər və başçı: fərq nədir?"* məqaləsində çox doğru qeyd edilir ki, idarəçilik iki hissədə: idarəetmə və politoloji düşüncədə xülasə olur. Amma elə idarəçilər də var ki, həm idarəetməyə və həm politoloji düşüncəyə malikdirlər. Bunlar hər bir idarəçinin göstəricisidir. Əgər idarəçi böyükdürsə, onun idarəçiliyi müxtəlif məsələləri həll edir. Siyasətçi ilə idarəçi arasında olan fərq də məhz budur. İdarəçi işləri düzgün şəkildə yerinə yetirir. Amma siyasətçi düzgün işləri görür. Bu məsələ o qədər əhəmiyyətlidir ki, xalqların taleyini həll edir. Məhz bunu göstərmək üçün və böyük işlər görmək üçün belə şəxsiyyətlər xüsusi bir zamanlarda zühur edirlər. Öz xalqlarının istiqamətini dəyişərək, ölkənin mənafeyinə və xalqının məsləhətlərinə uyğun hərəkət edirlər. Prof. S.Xəlilov doğru olaraq vurğulayır ki, bu növ şəxsiyyətlər özləri üçün məqsəd hazırlayır, onu icra etmək üçün qüdrətə çatır və tarixdə dahiyanə iz qoyurlar. Hamımızın gördüyümüz, amma hamımızın eyni cür duya və dərk edə bilmədiyimiz ulu öndər Heydər Əliyev məhz belə şəxsiyyətlərdən idi.

Afrikalıların gözəl bir atalar sözü var: "*Əgər görürsən ki, su təpə boyunca altdan yuxarı qalxır, deməli, kimsə xeyirxahlığa xeyirxahlıqla cavab vermişdir*". Heydər Əliyev hazırkı qüdrətli və yeni Azərbaycanın memarı və Prezidenti olaraq, Azərbaycanın gələcəyinə olan eşqini, sevgisini və zəkasını birləşdirərək, Azərbaycanı regionun qüdrətli qütblərindən birinə çevirdi. Ulu öndər, Azərbaycanın güclü qütb olması üçün bütün maneələri bir-bir aradan qaldırdı. Azərbaycanı ifrata varan subyektiv idealizmdən nicat verdi. O, Azərbaycanı dünyanın qüdrətli qütbünə çevirmək üçün lazım olan potensialları bir-birinin ardınca hazırladı. Nəticəsi isə hazırkı qalib Azərbaycandır. Ümummilli liderin gücü və qüvvəsi XX əsrin liderləri ilə müqayisədə təqribən misilsiz idi. O, bu nəticəyə çatmışdı ki, azərbaycanlıların varlı olmasından başqa və dövlətin iqtisadi səhnədən tədrici şəkildə kənara çəkilməsindən başqa inkişaf yolu yoxdur.

Ümummilli lider Heydər Əliyevin fenomenal şəxsiyyətinə gəldikdə isə bu xüsusiyyətlər kifayət qədər çox olduğundan təbii ki, bu məqalənin həcminə sığmır.

**Fenomenal şəxsiyyət**. Kainatın ulu memarı Heydər Əliyevə müdriklik, dahilik, qətiyyət, əyilməzlik, yenilməzlik, mübarizlik, alicənablıq, nadir iş qabiliyyəti, natiqlik istedadı, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini və imkanlarını müəyyənləşdirmək bacarığı, fenomenal və ensiklopedik yaddaş, universal bilik kimi bir çox xüsusiyyətlər bəxş etmişdir. Müstəqil Azərbaycanın təməl daşını qranitdən yapan Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun qismətinə düşmüş Tanrı payıdır. Uzun illər keçəcək, lakin özünüdərk, özünəqayıdış və özünüifadə kimi milli və dini prosesləri, sovet ideoloji sistemindən çox məharətlə xilas edən Heydər Əliyev bir şəxsiyyət kimi sirr olaraq qalacaqdır. Məhz bu səbəbdən burada bir sıra digər keyfiyyətləri özündə ehtiva edən beş əsas xarakterik xüsusiyyəti müxtəsər şəkildə qeyd edirik:

1. Tədbirli olmaq.ulu öndərin tədbirli olması ilə əlaqədar çoxlu nümunələr vardır. Bu nümunələr həm strateji, həm də taktiki proseslərdə həddən ziyadə çoxdur. Burada yalnız bu faktla kifayətlənirik ki, ulu öndər hələ Sovet dövründən Azərbaycanlı kadrların hazırlanması, təşkilatlanması və formalaşması üçün çoxlu dərinməzmunlu işlər görmüşdür. Bilirsiniz, hər hansı bir prosesin formalaşması üçün iki əsas şərt lazımdır: tarixi şans və tarixi şəxsiyyət. Prof. S.Xəlilov vurğulayır ki, Sovet dövründən başlayaraq tarixi şəxsiyyətimiz olsa da tarixi şansımız yox idi. Amma qeyd etməliyəm ki, tarixi şansı da tarixi şəxsiyyət formalaşdırır. O dövrdə gedən bir çox proseslərə baxdıqda görürük ki, ulu öndər müstəqilliyin formalaşması üçün sanki zəmin yaradırmış. Sən demə, Heydər Əliyev dühası imkansızlıqda da imkan axtarırmış. Ümummilli liderin "Mən o vaxt Azərbaycanın gələcəyi haqqında düşünürdüm" sözlərindən sonra bu düşüncəm daha da möhkəmləndi. Heydər Əliyev çox yaxşı bilirdi ki, dünya intellekt dünyasıdır və bu dünyada layiqli yer tutmağımızın yolu insan kapitalından keçir. Bunun üçün kadr hazırlamaq konturlarını zərgər dəqiqliyi ilə cızmışdı. Sadəcə bu faktı qeyd etmək dahi şəxsiyyətin bu sahədə hansı həcmdə işlər apardığını anlamaq üçün yetərlidir. 1969-cu ildən öncə ilə Azərbaycandan xaricə göndərilən tələbələrin sayı ilə həmin ildən sonra göndərilən tələbələrin sayını müqayisə etmək kifayətdir. Başqa bir nümunə isə budur ki, 1969-cu ildən öncə Azərbaycandan olan neçə yazıçı, musiqiçi, alim, mütəfəkkir, rejissor, mədəniyyət xadimi və... SSR-in ali mükafatlarına layiq görülüb, 1969-cu ildən sonra neçəsi? Bütün bunlar ulu öndər Heydər Əliyevin təqdimetmə bacarığı və uzaqgörənliyi sayəsində baş tutub.

2. Görkəmli dövlət xadimi.Tarix sübut etmişdir ki, millətlərin tale məsələsi olan dövlət müstəqilliyini qoruyub saxlamaq onu əldə etmək qədər çətindir. Tanrı hər iki neməti Azərbaycan xalqına bəxş etmişdir. Xalq ilə xüsusi münasibətlərin subyekti olaraq şəxsiyyət kommunikativ funksiyanı da yerinə yetirir. Fenomenal şəxsiyyət bununla, xalqın nəzərində hüquq və azadlıqlarının təmin edəcəyini, fərdi və siyasi məsuliyyətini və son nəticədə idarəçiliyin məcmu fəaliyyətini təcəssüm etdirir. Məhz Heydər Əliyevin xarakterik xüsusiyyətlərindən biri də kommunikativlik bacarığıdır. Kommunikativ funksiya cəmiyyətdə Heydər Əliyevin apardığı ən vacib funksiyalardan biridir. Bunun məntiqi nəticəsində ümummilli liderin səfərbəredici funksiyası formalaşır. Heydər Əliyevin səfərbəredici funksiyası həm xalq arasında, həm də dövlətdə bu və ya digər konkret problemlərin həllində əhalinin səfərbər edilməsi qabiliyyətində özünü tamamilə təzahür etdirirdi. *"Mən həyatımda üç şeyə: yaradanıma, zəhmətimə və bir də xalqıma arxalanmışam"* deyən, otuz ildən artıq bir müddət ərzində Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran, hələ sağlığında ikən canlı əfsanəyə çevrilən Heydər Əliyev, Azərbaycan xalqına uca yaradanın töhfəsidir.

3. İslahatçılıq xüsusiyyəti.Azərbaycan bu gün əgər regionun bütün siyasi, iqtisadi və mədəni məsələlərinin həllində əvəzolunmaz iştirakçı, əsas söz sahibidirsə, bunun təməlləri müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin hakimiyyəti dövründə atılmışdır. Onun misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər, bu gün ölkənin davamlı və dinamik iqtisadiyyatının inkişafı üçün möhkəm zəmin yaradıb. Heydər Əliyevin dövlət quruculuğu strategiyasının ana xəttini təşkil edən cəmiyyətin demokratikləşdirilməsi prinsipi artıq müstəqil Azərbaycan Respublikasını bütün dünyada tanıdıb. Heydər Əliyev o dövrdə prezident kimi fəaliyyətinin əsas istiqamətlərindən bəhs edərkən deyirdi ki, respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb: *"Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, ... respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik"*. Heydər Əliyev iqtisadi platformasında iqtisadi islahatlar dedikdə, Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya etməyi nəzərdə tuturdu.

4. Düşməni tanımaq və onunla mübarizə aparmaq üslubu.Heydər Əliyev zəngin siyasi və dövlətçilik təcrübəsi sayəsində düşməni vaxtında tanımış və ona qarşı addımlar atmağa başlamışdır. Ermənilərin erməni xislətini ilk bilən ona qarşı müdafiələr planı quranda məhz ulu öndərdir. Ümummilli

lider Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən məhz bu xüsusiyyətə əsasən xilas etdi. Heydər Əliyevin başçılığı ilə hazırlanmış yeni Konstitusiya və demokratik əsaslarla addımlayan parlamentdə Azərbaycanın müasir tarixində tamamilə yeni səciyyəli bir mərhələnin başlanğıcı olmuşdur. Bu illər ərzində Heydər Əliyevin müdafiə sahəsinə olan geniş baxışı və düşmənə qarşı qələbə üçün atdığı təməl addımlar zamanla özünü göstərdi. Bütün bunlar üçün lazım olan mühüm sənədləri hazırlamış və qəbul etmişdi. Respublikamızın hazırda ermənilərlə müqayisədə müxtəlif beynəlxalq tribunalarda haqlı çıxmasının əsası o dövrdə atılmışdır. Fikrimcə, Heydər Əliyevin düşmənlə mübarizə aparmaq üslubu hər şeydən öncə tədqiq olunmalı və öyrənilməlidir. Ulu öndər ilk olaraq atəşkəsi bərpa etdi, sonra bütün imkanları iqtisadiyyatın dirçəlməsinə yönəltdi və daha sonra siyasi müstəvidə addımlar atmağa başladı.

5. Tənqidə açıq olması. Fenomenal şəxsiyyət olmaq xalq və ziyalılar tərəfindən tənqidsiz qəbul olunmaq və ya cəmiyyətdə böyük nüfuza malik ola-ola heç bir tənqid edilməmək demək deyildir. Zatən liderlərin liderliyi düz və əyrini tam şəkildə bilmək və öyrənməkdən keçir. Heydər Əliyevin şəxsiyyəti, müsbət mənada birmənalı qarşılanmağı, şəxsi keyfiyyətləri və siyasət olimpində mövcudluğundan asılı olmayaraq həmişə məqbul hesab edilməsi onu heç vaxt ona edilən tənqidləri görməzdən gəlmək xisləti verməmişdi. Heç təsadüfi deyildir ki, xalqımız Heydər Əliyev dühasında fenomenal şəxsiyyətə xas olan bütün yüksək məziyyətləri görürdülər. Bu səbəbdən ona "Ümummilli lider" titulu vermişdilər. Amma digər tərəfdən Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi və təkrarolunmazlığı da onda idi ki dövrün gündəlik tənqidi mətbuatını oxuyur və tənqidlərə xüsusi diqqət ayırırdı. Təbii ki belə dahi şəxsiyyət bu tənqidlərin hansı niyyət və məramla yazıldığını çox yaxşı bilirdi. Məsələ tənqidlərin doğru və ya yanlış olmasında da deyil. Əsas mövzu Heydər Əliyev dühasının bu tənqidləri oxuması, eşitməsi və diqqətə almasıdır. Lideri lider edən əsas xüsusiyyətlərdən ən barizi məhz budur. Çünki tənqidlərdən dərs çıxartmaq hər kəsə nəsib olmur. Heydər Əliyev dühası istənilən tənqidə açıq və onu təmkinlə dinləməyi bacaran şəxsiyyətlərdən idi. Məhz bu xüsusiyyət sayəsində, xalq və idarəçilik vəhdətini güclü təcrübə və iradəsi ilə yüksək müstəvidə birləşdirmişdi.

Heydər Əliyev böyük fenomenal şəxsiyyət olmaqla yanaşı dövrünün böyük alimi, mütəfəkkiri, habelə böyük ədəbiyyat və incəsənət bilicisi idi. O, həm qədim, həm də müasir tariximizi az qala əzbər bilirdi. Özü də təkcə mülki tarixi yox, siyasi tariximizi, iqtisadiyyatımızın tarixini, mədəniyyətimizin tarixini və milli-mənəvi dəyərlərimizi heç kim Heydər Əliyev qədər dərindən mənimsəməmişdi.

**Mədəniyyət abidələrinin qorunub saxlanılması**

**1.** Heydər Əliyevin rəhbərlik etdiyi illər ərzində Bakıda çox böyük abadlıq işləri görülmüş, müasir milli memarlığın görkəmli əsərləri sayılan, Azərbaycanın sosial və mədəni həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, institut, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə binalar tikilib istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan Füzuli, Nəsimi, N.Nərimanov, C.Cabbarlı, S.Vurğun kimi böyük şəxsiyyətlərin əzəmətli heykəlləri ucaldılmış, məşhur tarixi və ədəbi simaların hər biri üçün sanballı mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır. O öz rəhbərliyi dönəmində klassik mədəniyyət irsinə münasibətdə də aydın, obyektiv mövqe nümayiş etdirmişdir.

**2.** Heydər Əliyev respublikaya rəhbərlik etməyə başladığı ilk gündən Azərbaycan mədəniyyətinin görkəmli şəxsiyyətlərinin, o cümlədən, böyük filosofların, şair və ədiblərin yubileylərinin müntəzəm surətdə qeyd olunması bir ənənə halını almış, bu da Azərbaycan xalqının ümummilli problemləri ilə sıx bağlı olub, milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması və müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratmışdır. Hələ SSRİ dövründə Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasında ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı tədqiqi və nəşri Heydər Əliyevin *"azərbaycançılıq fəlsəfəsi"*nin məhsulu idi.

Mədəniyyətin inkişafına dair onun imzası və əməyi ilə gerçəkləşən bəzi faktları qeyd edirik:

**3.** Heydər Əliyev Azərbaycanın milli-mədəni irsinə və aliminə də sahib çıxır, onları təbliğ və təqdim etməyi özünə vəzifə bilirdi. Nəsirəddin Tusi Heydər Əliyevin nadir Azərbaycan dahilərindən biri hesab etdiyi alim-mütəfəkkir idi. Heydər Əliyev N.Tusi haqqında ən müxtəlif məqamlarda çox maraqlı fikirlər söyləmiş, onun Azərbaycan elmində, Şərq düşüncəsində və dünya elm tarixindəki mövqeyini dəfələrlə yüksək qiymətləndirmişdir. 2001-ci ildə dahi Azərbaycan alimi və mütəfəkkiri N.Tusinin anadan olmasının 800 illiyi tamam olurdu. O, bu əlamətdar münasibətlə, 800 illik yubileyin hazırlanması və təntənəli keçirilməsi haqqında fərman imzalamış, Dövlət Komissiyası yaratmış, və özü birbaşa həmin komissiyanın sədri kimi çox məsuliyyətli və şərəfli vəzifəni öz üzərinə götürmüşdü. Bu yubileyin dünya miqyasında keçirilməsi barədə *YUNESKO*-nun qərar qəbul edilməsində önəmli rol oynamışdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanında Nəsirəddin Tusi haqqında belə qeyd olunurdu:

*"Nəsirəddin Tusi özündən sonra olduqca böyük elmi irs qoyub getmişdir. Onun əsərləri dünya xalqlarının bir çox dillərinə tərcümə edilərək dəfələrlə çap olunmuş, neçə-neçə alimlər nəslinin yetişməsində müstəsna rol oynamışdır. Təəssüflə qeyd edilməlidir ki, Nəsirəddin Tusinin çoxsahəli yaradıcılığı ölkəmizdə hələ lazımi səviyyədə tədqiq olunmamışdır. Mütəfəkkir alimin irsinin dərindən öyrənilməsi Azərbaycan elmi qarşısında duran vacib məsələlərdəndir"* (Əliyev Heydər, 13 iyun 2000-ci il).

**4.** Zəmanəsinin qüdrətli dövlətlərindən olan SSRİ-də dahi Füzuli haqqında tədqiqatlar əsasən Azərbaycanda aparılmışdır. 1996-cı ildə Füzulinin 500 illiyi münasibətilə keçirilmiş Beynəlxalq simpoziumu da Azərbaycanın elmi-ədəbi həyatı üçün əlamətdar olmuşdur. Simpoziumun plenar iclasında və bölmələrində dünya füzulişünaslığının 32 ölkədə fəaliyyət göstərən 70 nümayəndəsi məruzə ilə çıxış etmişdir. Füzulinin 500 illik tədbirlərinin miqyası isə çox geniş olub, Türkiyənin Ankara və İstanbul şəhərlərini, Rusiyanın Moskva və Sankt-Peterburq şəhərlərini, İranın Tehran və Təbriz şəhərlərini, İraqın Bağdad, Kərbəla, Kərkük şəhərlərini əhatə etmiş, Parisdə *YUNESKO*-nun baş qərargahında, Tiflisdə, Daşkənddə, Dərbənddə, Mahaçqalada və onlarla digər məntəqələrdə geniş qeyd olunmuş, bu tədbirlərin hər birində müstəqil Azərbaycan Respublikasını təmsil edən nümayəndə heyətləri iştirak etmişlər. Füzulinin xatirəsi bir sıra beynəlxalq forumların, o cümlədən, Türk dünyası yazıçılarının 3-cü qurultayının, Türksoy təşkilatının 8-ci toplantısının, eləcə də Bakıda keçirilmiş Beynəlxalq simpoziumun diqqət mərkəzində olmuşdur. Bu tədbirdə füzulişünaslıq elminin bütöv bir əsr ərzində (XIX əsrin sonlarından XX əsrin 90-cı illərinədək) əldə etdiyi nailiyyətlər öz elmi yekunlarını tapmış, dahi sənətkarın parlaq irsinin XXI əsrdə tədqiqinə dair konkret istiqamətlər müəyyən edilmişdir.

1994-cü ildə M.Füzulinin 500 illik yubileyini keçirmək haqqında qərar qəbul etmək ərəfəsində Heydər Əliyev bu böyük tədbirin tarixi məna və əhəmiyyəti barədə düşünmüşdü. Heydər Əliyev müdrik siyasətçi və dövlət xadimi kimi, gələcəyi görür, tarixin bu keçid dövründə – mənəviyyatın və mədəniyyətin müəyyən dərəcədə sıxıntılara məruz qaldığı vaxtda belə bir yubileyin təşkilini insanların batini həyatını, zənginləşdirəcəyini anlayırdı. Yubileyin keçirilməsi bir tərəfdən yubilyarın xalq və dünya qarşısında xidmətlərini bir daha təbliğ və nümayiş etdirmək, digər tərəfdən isə müasir nəslin ona bəslədiyi ehtiramı bildirmək idi.

Məhəmməd Füzuli kimi şəxsiyyəti olan xalq fəxr edə bilər. Həqiqətən də dünya birliyində, dünya xalqları arasında tariximizi, mədəniyyətimizi, milli ənənələrimizi təbliğ etmək, yaymaq üçün belə yubileylər həmişə böyük bir fürsətdir. Öncəliklə, Füzuli özünün yaradıcılığına, ədəbi, elmi və fəlsəfi irsinə görə buna layiqdir və Azərbaycan xalqının çağdaş nəsli ona öz minnətdarlığını bildirməlidir. İkincisi, bu yubileyi keçirərkən, biz xalqımızın özünü daha dərindən tanımasını təmin etməli idik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Beləliklə də, Heydər Əliyev dövlət yubiley komissiyasının üzvləri, elmi müəssisələr, yaradıcılıq təşkilatları, Mədəniyyət nazirliyi, Xarici işlər nazirliyi və yerli icra orqanları qarşısında vəzifə qoyur və bu tədbirlər vasitəsi ilə Azərbaycan xalqını dünyaya daha yaxından tanıtmağı onlardan tələb edirdi. Qoy dünya bilsin ki, xalqımızın çoxəsrlik, zəngin və tarixi mədəniyyəti var. Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə əsaslanır. Bu, həmçinin düşmən qüvvələrin guya Azərbaycan xalqının zəngin tarixinin və kökünün

olmadığını daim sübut etmək səylərilə mübarizə aparmaq üçün lazım idi. Şübhəsiz ki, bu iddialar cəfəngiyatdır. Lakin xalqımıza düşmən olan, respublikamızı parçalamaq və onun ərazisini qəsb etmək, müstəqilliyinə qəsd etmək istəyən dairələr, qüvvələr, bəzən də millətlər əvvəllər olduğu kimi, bu gün də guya Azərbaycan xalqının tarixi köklərə malik olmadığını iddia etməyə cəhd göstərirlər.

Heydər Əliyevin böyük şair və ədib Füzuli haqqında qənaətləri 1996-cı il noyabrın 8-də "Füzuli-500" yubileyinin Bakıda keçirilmiş təntənəli zirvə tədbirindəki nitqində öz əksini tapmışdır. O, öz nitqində Füzuli sənətinin fəlsəfi mahiyyəti üzərində geniş dayanır və şairin poetik irsində fəlsəfənin bir çox sahəsində öz əksini və maraqlı şərhini tapdığını göstərirdi. Füzuli özünəqədərki dövrün Şərq və Qərb fəlsəfi qənaətlərini dərindən öyrənib öz əsərlərində ümumiləşdirmiş, bu zəmində də zəmanəsinin fəlsəfi fikrinin zirvəsinə yüksəlmişdir. Heydər Əliyev Füzuli yaradıcılığının mahiyyətini onun insani münasibətləri – sevgi, sədaqət və etibarı, vətən məhəbbətini, yorulmadan valideynə ehtiramı yüksək bədii səviyyədə tərənnüm və təcəssüm etməsində görürdü. O, belə hesab edirdi ki, bir sıra əsərlərini fars və ərəb dillərində yazmış şairin bizim üçün ən əhəmiyyətli xidməti poetik irsinin həcmcə ən böyük hissəsini türk dilində, doğma Azərbaycan dilində yazmasıdır. Türkcə "Divan"ı və "Leyli və Məcnun" məsnəvisi ilə Füzuli ana dilimizə yeni pərvəriş vermiş, Azərbaycan şeir dilini uca zirvələrə qaldırmışdır.

Füzuli irsinin Azərbaycan mənəviyyatı ilə üzvi surətdə qaynayıb-qarışdığından bəhs edən Heydər Əliyev çox maraqlı bir bədii müqayisədən istifadə edərək göstərirdi ki, ölməz şair əsərləri ilə özünə vüqarlı bir heykəl ucaltmışdır. Bu abidə 500 ildir ki, hər bir azərbaycanlının, hər bir türkün qəlbindədir. Bu yenilməz mənəvi abidə bütün fırtınalardan, zəlzələlərdən keçərək yaşayır, gündən-günə yüksələrək insanların mənəviyyat aləmində yeni zirvələr fəth edir.

Füzuli yaradıcılığının əbədiyaşar keyfiyyətini şərh edən Heydər Əliyev onun haqlı olaraq müasir dünyamızla üzvi əlaqələrini açıqlayır. "Füzuli-500" tədbirinin xalqımızın mənəvi həyatını daha da zənginləşdirdiyini, vətəndaşları ruhlandırdığını, onları Vətənə, torpağa sədaqət ruhunda tərbiyələndirdiyini göstərir və *"Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqları azad etmək üçün hamımızı səfərbər edir. Biz bu gün də, gələcəkdə də öz həyatımızda, öz işimizdə M.Füzulinin yaratdığı mənəvi dəyərlərdən istifadə edərək xalqımızı xoşbəxt gələcəyə aparacağıq,"* – deyə qeyd edirdi [2, s. 386].

Heydər Əliyevin böyük şair haqqında mülahizələri arasında beynəlxalq münasibətlər baxımından əhəmiyyət kəsb edən məqamlar da çox idi. İlk dəfə məhz Heydər Əliyev dövlətlərarası münasibətlər müstəvisində çox vacib belə tezis irəli sürərək ciddi arqumentlərlə Füzulinin keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olduğunu əsaslandırmışdır. XX əsrdə türk dünyası parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətinin (Türkiyədən başqa) onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq, bu günlərə gətirib çıxarmışdır. Heydər Əliyev iftixar duyğusu ilə deyirdi ki, bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə – Bağdadda, həm də Ankarada Füzulinin 500 illiyini qeyd edərkən, artıq keçmişdəki kimi parçalanmış vəziyyətdə deyilik. İndi böyük Türkiyə Cümhuriyyəti ilə yanaşı, digər türk cümhuriyyətləri də vüqarla dayanmışdır. Ay-ulduzlu Türkiyə bayrağının yanında indi artıq beş müstəqil türk cümhuriyyətinin də bayraqları dalğalanır. Bunlardan biri də Azərbaycan bayrağıdır. Tamamilə təbiidir ki, Məhəmməd Füzulinin 500 illik yubileyi ilə bağlı öncədən xüsusi səriştə ilə planlaşdırılıb həyata keçirilən tədbirlər də Azərbaycan mənəviyyatında parlaq iz qoymuşdur.

Bu münasibətlə dahi sənətkarın əsərləri yüksək səviyyədə yenidən nəşr edilmiş, alimlərin Füzulinin həyat və yaradıcılığına həsr olunmuş yeni tədqiqatları işıq üzü görmüş, yubiley münasibətilə Azərbaycanın bütün bölgələrində, həmçinin Ankarada, İstanbulda, Tehranda, Təbrizdə, Bağdadda, Kərkükdə, Parisdə, Moskvada, Pekində yığıncaqlar, elmi sessiyalar, beynəlxalq simpoziumlar keçirilmiş, "Füzuli-500" mövzusunda sərgi təşkil olunmuşdur. Nəhayət Bakıda, Respublika sarayında dünya miqyaslı təntənəli zirvə tədbiri keçirilmiş, regionun bəzi dövlət başçıları da sanballı nümayəndə heyətləri ilə birlikdə həmin tədbirə qatılmışdılar. Bu münasibətlə işıq üzü görmüş Füzuli külliyyatını xüsusi qeyd etmək lazımdır. Şairin elm aləminə məlum olan istisnasız olaraq bütün əsərləri ilk dəfə 6 cild həcmində kütləvi tirajla nəşr edilmişdir. Akademik Həmid Araslının, prof. Həmid Məmməd-

zadǝnin elmi-tǝnqidi mǝtni ǝsasında işıq üzü görǝn bu altıcildlik Füzuli ǝsǝrlǝri ilk vǝ ǝn mükǝmmǝl akademik nǝşr kimi ǝdǝbiyyatşünaslıq elminin tarixindǝ hǝqiqǝtǝn ǝlamǝtdar hadisǝdir. Azadǝ Rüstǝmin "Mütǝfǝkkir mövlana Füzuli", Sabir Əliyevin "Füzulinin nǝzǝri-bǝdii düşüncǝlǝri", Vǝcihǝ Feyzullazadǝnin "Füzulinin ömür yolu", Ayaz Vǝfalının "Füzuli xǝlqiliyi", Lalǝ Əlizadǝnin "Füzulinin gizli sözü", Leyli Əliyevanın "Füzuli ingilis şǝrqşünaslığında" monoqrafiyalarında, habelǝ, M.F.Körpülüzadǝ, Hǝmid Araslı, Mir Cǝlal Paşayev, Mǝmmǝd Cǝfǝr Cǝfǝrov kimi görkǝmli füzulişünasların yenidǝn çap olunmuş tǝdqiqatlarında dahi şairin bütün zamanlar üçün qiymǝtli olan irsi ǝn müxtǝlif istiqamǝtlǝrdǝ araşdırılmışdır. "Füzuli ǝsǝrlǝrinin izahlı lüğǝti"ndǝ şairin poetik ǝsǝrlǝrindǝ işlǝtdiyi bütün sözlǝr ǝhatǝ olunmuşdur. Ayrı-ayrı yuvacıqlar kimi tǝqdim edilǝn mikromǝqalǝlǝrdǝ hǝr bir sözün Füzuli dilindǝki ǝlvan sǝciyyǝvi mǝnaları üzǝ çıxarılmışdır. Şairin poetik tǝxǝyyülünün vǝ sǝnǝtkar istedadının tǝcǝssümü olan sözlǝr vǝ sözǝ ekvivalent olan söz birlǝşmǝlǝri vǝ tǝrkiblǝri bu lüğǝtdǝ özünün mötǝbǝr şǝrhini tapmışdır.

**Milli-mǝnǝvi dǝyǝrlǝrin vǝ adǝt-ǝnǝnǝlǝrin qorunub saxlanması**

**1.** Heydǝr Əliyev milli-mǝnǝvi dǝyǝrlǝr vǝ adǝt-ǝnǝnǝlǝrin qorunub saxlanmasına xüsusi diqqǝtlǝ yanaşırdı. Akademik Bǝkir Nǝbiyev özünün "Heydǝr Əliyev haqqında etüdlǝr" ǝsǝrindǝ birbaşa Heydǝr Əliyevdǝn nǝql edir ki, 1994-cü ildǝ Mǝkkǝ ziyarǝtinǝ gedǝrkǝn, belǝ demişdir: *"Anası İzzǝt xanım onun hǝyatının ǝn ǝlamǝtdar mǝqamları ǝrǝfǝsindǝ ona Allah kǝlamı ilǝ xeyir dua verǝr vǝ evdǝn çıxanda onu Quran altından keçirǝrmiş..."* [Nǝbiyev Bǝkir. 2007, s. 11]. Bütün bunların nǝticǝsi kimi Heydǝr Əliyev 2002-ci ildǝ Bibiheybet ziyarǝtgahındakı çıxışında İslam vǝ Aşura haqqında dǝrinmǝnalı nitq söylǝmişdir: *"Biz bundan sonra da Qurani-şǝrifin, hǝzrǝt Muhǝmmǝd (s) peyğǝmbǝrin qoyduğu yol ilǝ gedǝcǝk vǝ haqq-ǝdalǝt vǝ Vǝtǝn yolunda şǝhid olmuş Hǝzrǝt İmam Hüseynin (ǝ) vǝ onun bütün silahdaşlarının qǝhrǝmanlığını, şǝhidliyini heç vaxt unutmayacağıq"* (Heydǝr Əliyevin 2002-ci ildǝ Bibiheybetdǝki çıxışından). Heydǝr Əliyev Aşura vǝ bu növ mǝrasimlǝrin keçirilmǝsini İslam dininǝ ehtiram nümunǝsi, milli-mǝnǝvi dǝyǝrlǝrin vǝ adǝt-ǝnǝnǝlǝrin qorunub saxlanması olduğunu ifadǝ edir vǝ sanki gǝlǝcǝk Vǝtǝn müharibǝsi üçün müqǝddǝs mǝqam olduğunu göstǝrirdi. Göründüyü kimi, Heydǝr Əliyev öz fikirlǝrini milli-mǝnǝvi dǝyǝrlǝr kontekstindǝ gözǝl şǝkildǝ bǝyan etmişdir. Sadǝcǝ bu fikrǝ nǝzǝr salmaqla Heydǝr Əliyevin bu barǝdǝ uca vǝ ali bir fikirǝ sahib olduğunu görmǝk mümkündür.

"Kitabi-Dǝdǝ Qorqud"un müqǝddimǝsindǝ deyilir:

*"Mǝhǝmmǝd peyğǝmbǝrin zamanına yaxın Bayat boyunda Qorqud ata deyilǝn bir kişi vardı. O kişi... nǝ deyirdisǝ olurdu. Gǝlǝcǝkdǝn qǝribǝ xǝbǝrlǝr söylǝyirdi. Allah onun könlünǝ ilham vermişdi. Qorqud ata Oğuz xalqının çǝtin işlǝrini hǝll edǝrdi... O, nǝ buyursa, qǝbul edǝrdilǝr. Onun sözünü tutub gedǝrdilǝr"* [Transliterasiya vǝ qeydlǝr Ə.Mǝlikov, 2020, s. 19-20].

Bunları oxuyanda vǝ ümummilli lider Heydǝr Əliyevin tǝrcümeyi-halının zǝngin faktları vǝ xalq qarşısında tarixi xidmǝtlǝri ilǝ müqayisǝ edǝndǝ görürük ki, bu müqayisǝdǝ demǝk olar ki, çox şey üst-üstǝ düşür. İllǝr öncǝ müstǝqil Azǝrbaycanın bu günü barǝdǝ nǝhǝng Bakı-Tbilisi-Ceyhan neft boru kǝmǝri, onun iqtisadiyyatımızın inkişafında ǝvǝzedilmǝz rolu vǝ yaxud "Biz doğma Qarabağa qayıdacağıq" vǝ Qarabağın azad edilmǝsi haqqında deyilǝnlǝrin hamısı gerçǝk olmadımı?

Heydǝr Əliyev deyirdi ki, qǝhrǝmanlıq eposu olan "Kitabi-Dǝdǝ Qorqud" bir cǝngavǝrin, bir igidin yox, bütöv bir xalqın qǝhrǝmanlığını özündǝ toplayan bir ǝsǝrdir. Onun ǝn böyük ideyası baş sǝrkǝrdǝdǝn tutmuş, böyükdǝn kiçiyǝ kimi bütün qǝhrǝmanlarının doğma torpaqları qorumaq uğrunda canlarından keçmǝyǝ daim hazır olduğunu göstǝrmǝkdir. Ölkǝmizin yaşadığı hazırkı mǝrhǝlǝdǝ xalqımızın qarşısında duran ǝn ümdǝ problemlǝrin hǝlli, o cümlǝdǝn, respublikamızın suverenliyinin vǝ müstǝqilliyinin möhkǝmlǝndirilmǝsi, ǝrazi bütövlüyünün qorunması baxımından Azǝrbaycan Respublikası vǝtǝndaşlarının bu qǝhrǝmanlıq ideologiyasından faydalanmasına Heydǝr Əliyev çox böyük ǝhǝmiyyǝt verirdi. O, bu mülahizǝlǝri ilǝ vǝtǝn övladlarını ermǝni tǝcavüzkarları tǝrǝfindǝn işğal olunmuş torpaqları qaytarmaq üçün yurd tǝǝssübkeşliyinǝ, doğma Qarabağ uğrunda mübarizǝyǝ, oğuz igidlǝri kimi qǝlǝbǝ çalmağa, lazım gǝlǝrsǝ, bu yolda canlarından keçmǝyǝ hazır olmağa tǝşviq edirdi. Tǝbiidir ki, "Kitabi-Dǝdǝ Qorqud" dastanının 1300 illik yubileyi Heydǝr Əliyevin şǝxsi tǝşǝbbüsü vǝ böyük sǝyi ilǝ hǝyata keçirilmiş vǝ Azǝrbaycan ǝdǝbiyyatı, elmi vǝ mǝdǝniyyǝti sahǝsindǝ mühüm vǝ

əlamətdar bir hadisə kimi tarixə düşmüşdür. Akademik Nizami Cəfərov bu barədə ümumi qənaətini belə ifadə etmişdir: "müəllifi Azərbaycan xalqının özünün olduğu belə bir eposun yubileyinin keçirilməsini milli ideologiyanın həqiqi təntənəsi oldu" [Nəbiyev Bəkir, 2007, s. 33]. Ədalət naminə etiraf etmək lazımdır ki, "Kitabi-Dədə Qorqud"la bağlı görülən tədbirlərə ən düzgün, əsaslandırılmış qiyməti də o zaman Heydər Əliyev özü vermişdi. Dastanın yubileyi münasibətilə 9 aprel 2000-ci ildə Bakıda keçirilən zirvə toplantısındakı nitqində Heydər Əliyev deyirdi:

*"...Azərbaycanda "Kitabi-Dədə Qorqud" irsinin öyrənilməsi, tədqiq edilməsi, təbliğ olunması sahəsində böyük işlər görülmüş və bunlar "Kitabi-Dədə Qorqud"u bizim xalqımıza, türk dünyasına, türkdilli xalqlara yenidən tanıtmış və onun nə qədər zəngin sərvət oluğunu bütün dünyaya nümayiş etdirmişdir"* ["Azərbaycan" qəz., 2000, 11 aprel].

Nəticədə Prezident fərmanı əsasında çox geniş miqyasda "Kitabi-Dədə Qorqud"a dair araşdırmalar öz səmərəsini vermiş və bu fərman sanki təkan rolunu oynamışdı.

**2.** Heydər Əliyev filosof təfəkkürlü böyük şair və dramaturq Hüseyn Cavidə də çox hörmət bəsləyir və onu öz nitqlərində, imzası ilə təsdiq olunmuş qərar və sərəncamlarda onun ölməz ədəbi irsini müxtəlif yönlərdən böyük məharətlə təhlil edirdi. Cavidşünaslığın vacib problemlərini araşdıranlar zaman keçdikcə Heydər Əliyevin bu mülahizələrinə dəfələrlə müraciət edərək, onlardan faydalanacaqlar. Lakin, Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi sahəsində Heydər Əliyevin cəsarətlə irəli sürüb böyük əzmkarlıq və müdrik ardıcıllıqla həyata keçirdiyi təşəbbüs tarix boyu xalqın milli-mənəvi dəyərləri və adət-ənənələrin qorunub saxlanması zəminində həmişə yaşayacaq, həm böyük sənətkar Hüseyn Cavidi, həm də ulu öndər Heydər Əliyevi şərəfləndirəcəkdir. Heydər Əliyevin nəzərində H.Cavid Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmiş dahi bir sima idi. Ümummilli lider iftixar duyğusu ilə etiraf edirdi ki, *"H.Cavidin yaratdığı əsərlər Azərbaycan xalqlının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərs kitabıdır"*. Heydər Əliyev bu ölməz sənətkarın bütün yaradıcılığının Azərbaycan xalqını milli azadlığa və müstəqilliyə çağırdığını onun ibrətamiz həyat yolundan və dərindən bələd olduğu əsərlərindən gətirdiyi nümunələrlə əsaslandırırdı. Ədib həmişə öz iradəsi ilə yaşamış, öz xalqına sadiq olmuşdur, xalqını həddindən artıq sevmiş və ona yetərincə xidmət etmişdir. Bütün bu deyilənlərə əsasən Heydər Əliyev kimi əsl vətənpərvər bir Azərbaycan rəhbəri, hətta ölkəmiz Sovet İttifaqının tərkibində olduğu dövrdə də 1930-cu illər repressiyasında olmazın əzab və işgəncələrə məruz qalmış H.Cavidin qərib məzarının uzaq Sibirdə on minlərlə günahsız və kimsəsiz əzabkeşin məzarı kimi baxımsız qalması ilə barışa bilmirdi. Buna görə ümummilli lider 1982-ci ildə o zaman üçün bütün SSRİ-də analoqu olmayan böyük iradə və məsuliyyət tələb edən tarixi bir qərar qəbul edir. H.Cavidin cənazəsi "Sibir mədənləri dərinliyindəki" katorqa məzarlığından Azərbaycana gətirilir və Naxçıvanda, vaxtilə Cavidlərin məskun olduğu ata-baba mənzilinin təqribən 100 addımlığında torpağa tapşırılır. 15 il sonra H.Cavidin məqbərəsinin təntənəli açılışı mərasimində Heydər Əliyev H.Cavidin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirməyin heç də asan başa gəlmədiyini kövrələrək xatırlamışdı:

*"Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim..."* (Heydər Əliyevin 29 oktyabr 1996-cı ildəki nitqindən).

Bu gün H.Cavidin həm də böyük bir memarlıq sənəti nümunəsi olan məqbərəsi təkcə onun həmvətənlərinin deyil, xarici ölkələrdən, o cümlədən də Türkiyədən və Yaxın Şərqdən gələn saysız-hesabsız ədəbiyyatsevərlərin ziyarətgahına çevrilmişdir.

Yekun olaraq qeyd etmək yerinə düşər ki, adətən mürəkkəb zaman kəsimində hər hansı bir məsələni qiymətləndirmək çətin olur. Amma zaman keçdikdən sonra obyektiv dəyərləndirmək mümkündür. Biz hazırda elə bir zamanda yaşayırıq ki, həm o dövrü görmüşük, həm də o dövrdə yaşayırıq. Fikrimcə, zaman keçdikcə daha aydın görünəcək ki, müstəqilliyin ilk dövründən başlayaraq tərəqqini addım-addım keçən respublikamızda Heydər Əliyev şəxsiyyətinin müstəsna rolunu heç bir başqa amillə müqayisə etmək doğru olmayacaqdır. Bu səbəbdən yazını ulu öndərin fikri ilə yekunlaşdırıram: "tarix hər şeyi öz yerinə qoyur".

## ƏDƏBİYYAT

1. Heydər Əliyev – 75 / Tərtibçi S.Xəlilov. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1998, 184 s.
2. Heydər Əliyev / Tərtibçi V.Quliyev. Bakı, 1999, 386 s.
3. Məlikov Ə., Əmirov E. Rəhbər və başçı: fərq nədir? (Tarixi-politoloji nəzər) // Elm və Həyat, 2020, № 4, s. 25-31.
4. Məlikov Ə. Heydər Əliyevin "azərbaycançılıq fəlsəfəsi" // Metafizika, № 6 (1), s. 10-32.

***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***E-mail: aladdin.malikov@gmail.com***

**Aladdin Malikov**

## THE PHENOMENAL PERSONALITY OF HEYDAR ALIYEV AND HIS ROLE IN THE PRESERVATION OF CULTURAL MONUMENTS

The main distinguishing features of a phenomenal personality are its individual, social and cultural qualities. Personality, along with all other qualities and virtues, must be distinguished from other elite people by a peculiar specific character. The national leader Heydar Aliyev, as a phenomenal person, had many qualities that cannot be included in the scope of this article.

The great architect of the universe, Heydar Aliyev, possessed many qualities, such as wisdom, genius, purposefulness, inflexibility, invincibility, generosity, rare ability to work, oratorical talent, self-righteousness, the ability to determine the merits and capabilities of the people around him, he was characterized by a phenomenal and encyclopedic memory and universal knowledge.

During the years of Heydar Aliyev's leadership in Azerbaijan, a lot of work was carried out to improve a number of architectural ensembles, administrative centers, palaces, institutes, publishing houses, educational buildings, complexes, and numerous buildings of modern national culture were built, which are of particular importance in the social and public life of the country. It was thanks to the initiatives of Heydar Aliyev that numerous architectural monuments were restored. He was well aware of the truth that the perpetuation of great personalities in the monuments, who left their mark on the historical past and the spiritual culture of the Azerbaijani people, has an extremely positive impact on the national identity of the people and helps to strengthen their national feelings.

**Keywords:** *Heydar Aliyev, phenomenal personality, cultural monuments.*

**Аладдин Маликов**

## ФЕНОМЕНАЛЬНАЯ ЛИЧНОСТЬ ГЕЙДАРА АЛИЕВА И ЕГО РОЛЬ В СОХРАНЕНИИ ПАМЯТНИКОВ КУЛЬТУРЫ

Главными отличительными особенностями феноменальной личности являются ее индивидуальные, социальные и культурные качества. Личность, наряду со всеми другими качествами и достоинствами, должна отличаться от других элитных людей своеобразным специфическим характером. Общенациональный лидер Гейдар Алиев как феноменальная личность имел много таких качеств, которые невозможно внести в рамки данной статьи.

Великий архитектор мироздания Гейдар Алиев обладал многими качествами, такими как мудрость, гениальность, целеустремленность, непреклонность, непобедимость, великодушие, редкая трудоспособность, ораторский талант, уверенность в своей правоте, умение определять достоинства и возможности окружающих его людей, ему были свойственны феноменальная и энциклопедическая память, а также универсальные знания.

За годы руководства Гейдара Алиева в Азербайджане было проведено много работ по благоустройству ряда архитектурных ансамблей, административных центров, дворцов, институтов, издательств, учебных корпусов, комплексов и выстроены многочисленные здания современной национальной культуры, имеющие особое значение в социальной и общественной жизни страны. Именно благодаря инициативам Гейдара Алиева были отреставрированы многочисленные архитектурные памятники. Он прекрасно осознавал истину о том, что увековечивание в памятниках великих личностей, оставивших след в историческом прошлом и духовной культуре азербайджанского народа, оказывает исключительно положительное влияние на национальную самобытность народа и способствует укреплению его национальных чувств.

**Ключевые слова:** *Гейдар Алиев, феноменальная личность, памятники культуры.*

**MUSA QULİYEV**

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT TƏHLÜKƏSİZLİK KOMİTƏSİNDƏ FƏALİYYƏTİ

*Məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1944-1969-cu illərdə Azərbaycan DTK-sində fəaliyyətindən, kəşfiyyat və əks-kəşfiyyat sahəsində apardığı uğurlu əməliyyatların bəzilərindən də danışılır. Məqalə arxiv sənədləri və nəşr olunmuş kitablar əsasında yazılmışdır.*

**Açar sözlər:** *Azərbaycan, Heydər Əliyev, Naxçıvan, kəşfiyyat, əks-kəşfiyyat, Sviqun, Andropov.*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fəaliyyətinin dörddə biri, yəni 25 ili SSRİ DTK-si ilə bağlıdır. Qeyd edək ki, onun 1949-1950-ci illərdə Leninqradda SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin rəhbər kadrların yenidən hazırlanması məktəbində təhsil aldığı 2 ili də sırf xidmət göstərdiyi 23 illik bir yola əlavə etmişik. 1941-ci ilin avqust ayının 20-də SSRİ-nin hər yerində olduğu kimi Naxçıvanda da Xalq Daxili İşlər Komissarlığı ilə Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı birləşdirilmişdi və Naxçıvan Xalq Daxili İşlər Komissarlığı adlandırılmışdı. 5 iyul 1997-ci ildə Heydər Əliyev Respublika Milli Təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqda söylədiyi nitqində demişdir: “Əgər 1920-ci ildən ta son illərə qədər bu orqanlar – vaxtilə ÇEKA, QPU idi, sonra NKVD idi, sonra NKQB, NKVD oldu, mən bunların adlarını rusca deyirəm, azərbaycanca tərcümə etmək olar, amma bunlar bizim beynimizə elə bu cür giriblər, sonra oldu MVD, MQB, sonra oldu MVD, KQB – görürsünüz, adları nə qədər dəyişilibdir” [3, s. 333]. Sovet təhlükəsizlik sisteminin keçdiyi yolun tarixinə nəzər salaq. SSRİ-nin Dövlət təhlükəsizliyinin mühafizəsi üzrə ilk orqanlar hərbi inqilab komitələri olmuşlar. İlk əvvəllər Ümumrusiya Fövqəladə Komissiyası yaradıldı. 1922-ci il fevralın 6-da ÜFR (Ümumdünya Fövqəladə Komissiyası) ləğv edildi. RSFR (Rusiya Sovet Federativ Respublikası) Daxili İşlər Komissarlığı nəzdində Dövlət Siyasi İdarəsi yaradıldı. Azərbaycanda da 1926-cı il avqustun 7-də Azərbaycan Fövqəladə Komissiyasının (Az ÇK) da adı dəyişdirildi və Dövlət Siyasi İdarəsi (DSİ) adlandırıldı. Rusca QPU (Государственное политическое управление) deyilirdi.

1923-cü il 2 noyabr tarixli qərarla SSRİ Xalq Komissarlığı nəzdində Birləşmiş Dövlət Siyasi İdarəsi yaradıldı. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 1934-cü il 10 iyun tarixli qərarı ilə ittifaq respublikalarında da Xalq Daxili İşlər Komissarlığı (XDİK) yaradıldı. Qeyd edək ki, Birləşmiş Dövlət Siyasi İdarəsi də onun tərkibində idi. Amma bu zaman o idarə Baş Dövlət Təhlükəsizliyi İdarəsi (BDTİ) adlandırıldı.

1934-cü il iyulun 10-dan 1941-ci ilədək SSRİ-də vahid Xalq Daxili İşlər Komissarlığı XDİK (rusca NKVD) 1941-ci il fevralın 3-dən iki ayrı komissarlığa bölündü: Xalq Daxili İşlər Komissarlığına (XDİK) və Xalq Dövlət Təhlükəsizliyi Komissarlığına (XDTK) bölündü. Hər iki orqan müstəqil idi.

Böyük Vətən müharibəsinin başlanması ilə dövlət və ictimai orqanların ölkənin müdafiəsinə dair səylərini mərkəzləşdirmək məqsədilə 1941-ci il iyulun 3-də onları yenidən birləşdirdilər. Adı Xalq Daxili İşlər Komissarlığı adlandırıldı. 1946-cı il martın 5-də XDTK-nin adı dəyişdirilərək Dövlət Təhlükəsizliyi Nazirliyi (DTN) adlandırıldı. 1953-cü ildə iki nazirliyi (XDİK-ni və DTN-i) yenidən vahid Daxili İşlər Nazirliyində birləşdirdilər [2, s. 525]. 1967-ci ildə Y.V.Andropovun iradəsi ilə DTK Nazirlər Sovetinin tabeliyindən çıxarıldı və Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin tabeliyinə keçirildi. 1954-cü il martın 13-də SSRİ Ali Sovetinin fərmanı ilə SSRİ Ali Soveti yanında Dövlət Təhlükəsizliyi (DTK) yaradıldı.

18 yaşlı Heydər Əliyevi 1941-ci ildə Naxçıvan XDİK-də işə qəbul etdilər. Heydər Əliyev 1941-ci ildə Xalq Daxili İşlər Komissarlığının əməkdaşı olmuş [5] və 1943-cü ilədək həmin komissarlıqda çalışmışdır. O, komissarlığın “Arxiv” şöbəsində işə başladı. Onu “ arxiv şöbəsi”nin məxfi hissəsinin müdiri təyin etdilər [6]. 1943-cü ilin axırlarında, Heydər Əliyevə Dövlət Təhlükəsizliyi Komissarlığına işə keçməyi təklif edirlər. Heydər Əliyevin fəaliyyətini dərindən və incəliklə araşdıranda aydın olur ki, o, elə əvvəldən təhlükəsizlik işçisi kimi çalışıb.

1944-cü ilin 27 yanvarında Heydər Əliyev Dövlət Təhlükəsizliyi Xalq Komissarlığında işləmək

üçün ərizə yazır. Ona bu orqanda işləmək təklif olunmuşdu. Heydər Əliyev komissarlıqda əməliyyat müvəkkili vəzifəsinə təyin edilir. Heydər Əliyev sonralar özü bu haqda yazmışdır: "Məni XDİK-ə işə götürdülər. Bu vəzifə üçün mənə heç kimin köməyi olmadı. Səbəbini bu gün belə bilmirəm" [1, s. 102-103]. 1944-cü ilin may ayında Naxçıvan Muxtar Respublikasında yeni yaradılmış Dövlət Təhlükəsizliyi Komissarlığında işə başlamış təzə əməkdaş-əməliyyat müvəkkili Heydər Əliyev bacarıqlı, bilikli, əqidəli, nöqsanlara barışmaz, həssas qayğıkeş münasibəti ilə fərqlənən olduğu üçün ona 1944-cü ilin may ayında XDTK-nin leytenant rütbəsi verilir. Həmin illərdə Naxçıvan XDTK idarəsi şəhərin mərkəzində, Bazar çayının sol sahilində Hacı Vəli ağa Şahtaxtinskinin mülkündə yerləşirdi. Bəzi araşdırmaçılar yazırlar ki, Heydər Əliyev Dövlət Təhlükəsizliyində xidmətə L.P.Beriyanın rəhbərliyi dövründə daxil olub. Amma N.Zenkoviçin apardığı araşdırmalar göstərir ki, bu fikir yanlışdır. Çünki 1941-ci ilin iyul ayında Xalq Daxili İşlər Komissarlığı və Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı birləşdirilmişdi. Birləşmiş Komissarlığın rəhbəri Beriya olsa da, Baş Dövlət Təhlükəsizliyi İdarəsinə müavin vəzifəsində işləyən Merkulov rəhbərlik edirdi. 1943-cü ilin aprel ayında Birləşmiş Xalq Komissarlığını yenidən böldülər. Xalq Dövlət Təhlükəsizliyi Komissarlığının rəhbəri yenə də Merkulov oldu.

Merkulov Bakı quberniyasında Zaqatala şəhərində anadan olmuş və Bakı Texniki Məktəbində oxumuşdur. O, Sovet xüsusi xidmət orqanlarının intellektual qanadının nümayəndəsi idi [8, s. 279].

Tarixi araşdırmalar müəllifi olan N.Zenkoviç yazır: "Beləliklə, biz ən geniş yayılmış yanlış fikirlərdən birinin əsassız olduğunu üzə çıxardıq və müəyyən etdik ki, Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarına V.N.Merkulovun rəhbərliyi dövründə gəlmişdir [8, s. 273]. Yazılanlardan məlum olur ki, Merkulovun rəhbərliyi dövründə dövlət təhlükəsizliyi orqanları çox səmərəli işləyirdilər. Qeyd edək ki, kəşfiyyat, əks-kəşfiyyat və Siyasi Büronun mühafizəsi Merkulovun tabeliyində idi. Həmin vaxtlar Naxçıvanda da dövlət təhlükəsizliyi orqanı səmərəli işləyirdi. Merkulovun iş üslubu başqalarından fərqlənirdi. O, əsl ziyalı idi. Həm də qələm sahibi idi. O illərdə SSRİ-nin hər yerində, o cümlədən Bakıda və Naxçıvanda göstərilən "Mühəndis Sergeyev" pyesinin müəllifi Merkulov idi. Amma heç teatrşünaslar da bilmirdilər ki, müəllif Merkulovdur. Çünki müəllif imzasında onun təxəllüsü yazılırdı: Vsevolod Rokk. Merkulovun zəkası, savadı, yazmaq və danışmaq qabiliyyəti elm, mədəniyyət və incəsənət xadimləri tərəfindən yüksək qiymətləndirilirdi." 1946-cı ilin mayınadək Merkulov dövlət təhlükəsizliyi naziri vəzifəsində işləmişdir. "Merkulovun dövlət təhlükəsizliyini intellektuallaşdırmaq xəttini sonralar Andropov davam etdirmişdi. Merkulov özü ədəbiyyat sahəsində qələm işlədir, başqalarını da bununla məşğul olmağa həvəsləndirirdi. Andropov babat şeirlər yazırdı, amma onları dərc etdirmirdi. Lakin o da bədii yaradıcılığa meyli olan adamları özünə yaxınlaşdırırdı" [8, s. 282]. Qeyd edək ki, dövlət təhlükəsizliyini intellektuallaşdırmaq xəttini daha mükəmməl formada Heydər Əliyev davam etdirib. Hətta o, müstəqil Azərbaycan Respublikasının prezidenti vəzifəsində olduğu dövrdə də çox sevdiyi bu xəttə sadiq qalıb. Araşdırmalar göstərir ki, Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında işlədiyi illər ittifaq dövlət təhlükəsizliyinin doqquz rəhbərinin dövrünə təsadüf edir: Merkulov – Abakumov – İqnatyev – Kruqlov – Beriya – Serov – Şelepin – Semiçastı – Andropov. Bunların içərisində Heydər Əliyev yalnız qeyri-adi şəxsiyyət olan Y.V.Andropovla səmimi dostluq münasibəti saxlamışdır. Onların hər ikisi ziyalı, təhsilli, çox mütaliə edən və çox düşünən insan idi.

Heydər Əliyev çox yüksək səviyyədə intellektual şəxsiyyət olmuşdur. O müxtəlif dilləri bilirdi, aktyorluq sənətinə və rəssamlığa böyük marağı vardı. Heydər Əliyev incəsənət tarixinin, nəzəriyyəsinin və fəlsəfəsinin mahir bilicisi olmaqla, Azərbaycan, rus və Qərbi Avropa teatrının ənənələrinə və novatorluğuna dərindən bələdi idi [8, s. 325]. 1947-ci ildə artıq baş leytenant olan Heydər Əliyev Naxçıvan XDTK-sının 5-ci şöbəsinin rəisi təyin edilmişdir.

Zenkeviç haqlı olaraq yazır ki, heç vaxt – nə əvvəllər, nə də onlardan sonra – sovet dövründə Moskvada Lubyankanın və Bakıda "dəniz kənarındakı bina"nın rəhbərləri bu dərəcədə yüksək erudisiyalı, hərtərəfli hazırlıqlı şəxslər olmamışlar. SSRİ DTK-si Andropovun dövründə və Azərbaycan SSR DTK-sı Əliyevin dövründə nəzərəçarpacaq dərəcədə ziyalılaşmışdı [8, s. 325]. Heydər Əliyev 1949-1950-cı illərdə göndərişlə SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Leninqrad məktəbində təhsil

almışdır. Daha dəqiq desək, 1949-cu ilin mayında onu Leninqrada-SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin operativ rəhbər heyətin yenidən hazırlanması məktəbinə oxumağa göndərdilər. Olduqca gizli fəaliyyət göstərən bu məktəb ən nüfuzlu məktəb idi. 26 yaşlı Heydər Əliyev bu məktəbi əla qiymətlərlə bitirir. Məktəbin rəisi Pinçukun imzaladığı xasiyyətnamədə deyilir: Oxuduğu müddət ərzində dərs əlaçısı olmuş, adı şərəf lövhəsinə yazılmışdır". Heydər Əliyevə Leninqrad məktəbi tərəfindən verilmiş 1950-ci il iyun tarixli xasiyyətnamə bu sözlərlə bitir: "Xidməti vəzifədə irəli çəkilməyə layiqdir" [7, s. 18-19].

1951-ci ildə Heydər Əliyev Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil oldu. Artıq bu zaman Heydər Əliyev DTK-nın mayoru idi. 1957-ci ildə Heydər Əliyev DTK-nin 2-ci şöbəsinin rəisi işləmişdir.

Baş leytenant Heydər Əliyevin təyin olunduğu Azərbaycan DTN-in 2-ci şöbəsinin altıncı bölməsi "Şərq istiqamətinə" baxırdı, yəni Türkiyə və İrana qarşı əks-kəşfiyyat əməliyyatlarının aparılması ilə məşğul olurdu.

Özünə və başqalarına yüksək tələbkar, kütlələrlə daim əlaqə saxlayan, adamlara həssas, qayğıkeş münasibəti ilə fərqlənən təşkilatçılıq qabiliyyəti, tükənməz enerjisi, işgüzar, təşəbbüskarlığı ilə fərqlənən xalqın böyük nüfuz, məhəbbət və hörmətini qazanan Heydər Əliyev 1953-cü ilin sonunda Azərbaycan DTN-in əks-kəşfiyyat şöbəsinin rəisi təyin olundu. 1955-ci ilin ortalarında Heydər Əliyev DTK-nin uçot-arxiv şöbəsinə baş əməliyyat müvəkkili təyin olunur. 6 aydan sonra Heydər Əliyev 2-ci şöbənin bölmələrindən birində rəis müavini, bir az müddət keçəndən sonra rəis vəzifəsində çalışmışdır. Yenidən DTK-nın keçirdiyi əməliyyatlarda qazandığı uğurlar nəticəsində Heydər Əliyevi 2-ci şöbənin rəis müavini təyin edirlər. Artıq 1958-ci ildə Heydər Əliyev Azərbaycanın əks kəşfiyyatına başçılıq edirdi. Bu vaxt o, 35 yaşlı gənc kəşfiyyatçı idi.

Heydər Əliyev 1958-1964-cü illərdə əks-kəşfiyyat vəzifəsində işlənmişdir. Heydər Əliyevin DTK-da xidmət yolu 1944-cü ildə Naxçıvan MSSR Xalq Dövlət Təhlükəsizliyi Komissarlığının sıravi əməliyyat vəzifəsindən başlamışdı. Xidmət pillələrinin hamısını uğurla keçmişdi.

Heydər Əliyev 1997-ci ildə Azərbaycan Dövlət Təhlükəsizliyi işçilərinin qarşısında dediyi kimi, xüsusi xidmət orqanları həmişə olub. Kəşfiyyat və əks-kəşfiyyat qədim dövrlərdə yaranıb. Bu orqanlar hakimiyyətin çox vacib təsisatlarıdır, onlarsız dövlət mövcud ola bilməz. Dövlət necədirsə, xüsusi xidmət orqanları da o cürdür.

1960-cı ildə əks-kəşfiyyatda dəyişikliklər aparıldı və o vahid strukturda cəmləşdi – bütün ixtisaslaşdırılmış əks-kəşfiyyatlar və sonralar 5-ci şöbənin məşğul olacağı sahə (ideoloji), hamısı böyük bir şöbədə birləşdirildi. Faktiki olaraq DTK aparatı o vaxt cəmi iki xidmət sahəsindən ibarət idi: kəşfiyyat və əks-kəşfiyyat.

Azərbaycan əks-kəşfiyyatının rəisi, podpolkovnik Heydər Əliyev DTK-da aparılan yeni siyasətin həyata keçirilməsində fəal iştirak edirdi.

Məşhur araşdırıcı N.Zenkoviç haqlı olaraq yazır ki, Ümumrusiya Fövqəladə Komissiyası – Dövlət Siyasi İdarəsi – Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı – Dövlət Təhlükəsizliyi Nazirliyi – Dövlət Təhlükəsizliyi Komitəsinin həqiqi tarixi hələ yazılmayıb [8, s. 263].

1964-cü il dekabrın 23-də Heydər Əliyev Azərbaycan DTK-sının sədr müavini təyin edilir. 1965-ci il martın 31-də Heydər Əliyevə polkovnik rütbəsi verilir. O vaxtlar Azərbaycan DTK-sinə sədrlik edən Sviqun Moskvaya – SSRİ DTK-si sədrinin birinci müavini vəzifəsinə təyin edilən zaman, öz yerinə Heydər Əliyevi məsləhət bilir. Sviqun onun təşkilatçılıq qabiliyyətinə, işdə dəqiqliyinə, analitik bacarığına, geniş dünyagörüşünə diqqət yetirmiş və böyük siyasətə yolunu açmışdı [1, s. 262]. Sviqun Moskvaya gedəndən sonra, Heydər Əliyev 1967-ci il iyunun 22-dən Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinə sədrlik etməyə başladı. Bir qədər sonra, 1967-ci ilin 26 oktyabrında Heydər Əliyevə general-mayor hərbi rütbəsi verilir. O, SSRİ DTK-si tarixində general rütbəsi alan ilk azərbaycanlı idi.

Heydər Əliyev 1965-1969-cu illərdə Azərbaycan DTK-sının rəhbərliyində xalqımızı layiqincə təmsil etmişdir.

Heydər Əliyev 1969-cu ilin iyulunda Azərbaycan SSR Mərkəzi Komitəsinin birinci katibi, 1982-

ci il noyabr ayından isə SSRİ-nin Nazirlər Sovetinin birinci müavini vəzifələrində nümunəvi partiya işçisi kimi fəaliyyət göstərmişdir.

5 iyul 1997-ci ildə Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqda Heydər Əliyev söylədiyi nitqində Dövlət Təhlükəsizliyinin tarixindən, Azərbaycan xalqının XX əsrdə və xüsusən 1918-1919-cu illərdən indiyə qədər keçdiyi yolun tarixinin bütün mərhələlərindən və özünün kəşfiyyatçı-əks kəşfiyyatçı fəaliyyətinin bəzi məqamlarından söhbət açmışdır. Özünün qeyri-adi fəaliyyətindən söhbət açmasa da, araşdırmalar zamanı onun hələ gənc ikən mahir kəşfiyyatçı, əks kəşfiyyatçı olduğu aşkar görünür. O vaxtlar Naxçıvan SSRİ-nin Ukrayna və Belorusiya kimi strateji məkanı sayılırdı. Çünki mürəkkəb və ziddiyyətli siyasəti olan İranın ərazisi Amerikanın və Hitler Almaniyasının casus kəşfiyyatçıları ilə dolu idi. Buna görə də Naxçıvanda sınaqlardan uğurla və bacarıqla çıxan gənc kəşfiyyatçı Heydər Əliyevə çox böyük ehtiyac duyulurdu. Təşəbbüskar, yenilikləri sevən, prinsipial, qətiyyətli, hərtərəfli savadlı Heydər Əliyevin məharətini Moskvada oturan çekistlər görürdülər. O, azərbaycanlı olduğu üçün paxıllığını çəkənlər tapılsa da, onun önünə sədd çəkə bilmirdilər. Ona böyük ehtiyacları vardı. Naxçıvan mühüm sərhədyanı diyar olduğundan Heydər Əliyevi birbaşa əks-kəşfiyyat bölməsinə əməliyyat müvəkkili vəzifəsinə götürdülər.

Heydər Əliyev özünün tarixi nitqində fəaliyyətinin qısaca sxemini təsvir etmişdir. Cəsarətlə demək olar ki, bu tarixi nitqi müstəqil Azərbaycanın Milli Təhlükəsizlik orqanlarının gənc əməkdaşlarının həvəslə öyrəndikləri çox vacib bir tarixi mənbədir. Heydər Əliyev həmin görüşdə demişdir: "Uzun fasilədən sonra mənim üçün gənclik illərindən başlayaraq çox əziz və maraqlı bir peşə – dövlət təhlükəsizliyi ilə məşğul olan orqanın işçiləri ilə bir daha görüşməyimdən çox məmnunam" [3, s. 330].

Heydər Əliyev 1969-cu ildən partiya işində işləyəndə, 1982-ci ildən sonra Moskvada, Kremldə yüksək vəzifədə işləyəndə də Azərbaycan Dövlət Təhlükəsizliyi orqanlarına həmişə hamilik etmişdir. Müstəqil Azərbaycanın prezidenti olduğu illərdə biliyini və bacarığını bu sahədə əsirgəməmişdir. Bu gün deyə bilərik ki, kəşfiyyat və əks-kəşfiyyat üzrə Heydər Əliyev məktəbi var. Özünün dediyi kimi: "Bunlar tarixin səhifələridir, heç kəs tarixin səhifələrini dəyişdirə bilməz" [3, s. 331].

Heydər Əliyev 4 ixtisas üzrə təhsil almışdır. Hərtərəfli biliyi və qətiyyəti ilə, həmçinin DTK-da öyrəndikləri ilə Müstəqil Azərbaycanı üzləşdiyi təhlükələrdən qorumuşdur. O, DTK-da işlədiyi illərdə bu mühüm orqanda milli kadrların çox olmasına çalışmış və buna nail olmuşdur. Heydər Əliyev istəyirdi ki, xalq görsün və inansın ki, DTK dövlət mənafeyinə ziyan gətirməməklə, milli maraqları qoruyur.

Heydər Əliyev DTK-da işlədiyi illərdə birbaşa onun rəhbərliyi ilə keçirilən "Alagöz", "Duel", "Duqlas", "Naturalist", "Radist" və digər əməliyyatlar haqqında bəzi mənbələrdə, azda olsa, məlumatlar vardır. Məlumatlar çox deyil, çünki hələ də məxfilik saxlanılmaqdadır. Bu yaxınlarda akademik R.Hüseynov "İran gəmisinin Bakı macəraları" adlı maraqlı məqaləsində belə əməliyyatlardan birindən ətraflı söhbət açmışdır [4, s. 10-12]. Digər müəlliflərin də yubiley ərəfəsində yazılarında Heydər Əliyevin bilavasitə apardığı mühüm əməliyyatların bəziləri haqqında azacıq da olsa məlumatlara rast gəlinir. Heydər Əliyevin DTK-da fəaliyyəti olduqca unikallığı ilə seçilir. Nə vaxtsa DTK-nın tarixi dərindən yazılsa bu unikallığı hər bir azərbaycanlı apaydın görəcək. Əsrlər ötüb gedəcək və hər yüzillikdə azərbaycanlılar böyük siyasi xadim və unikum kəşfiyyatçı Heydər Əliyevi ürəkdən sevəcəklər.

## ƏDƏBİYYAT

1. Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Bakı, 2007, 352 s.
2. ASE (Azərbaycan Sovet Ensiklopediyası). Bakı, 1980, 592 s.
3. Əliyev H. Müstəqilliyimiz əbədidir. 10-cu kitab, Bakı, 2002, 472 s.
4. Hüseynov R. İran gəmisinin Bakı macəraları. "525-ci qəzet", 2023, 4 fevral.
5. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA): F. 2, siy. 2, iş № 21.
6. NMRDA: F. 2, s. 2, iş № 27.

7. Mərdanov M. General. “525-ci qəzet”, 2023, 18 aprel.
8. Zenkoviç N. Heydər Əliyev. Tale yolları. Bakı, 2007, 608 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: kuliyevm@yandex.ru***

**Musa Guliyev**

**ACTIVITIES OF HEYDAR ALIYEV IN THE STATE SECURITY COMMITTEE**

The article tells about the activities of the national leader of the Azerbaijani people Heydar Aliyev in 1944-1969 in the KGB of Azerbaijan and about some successful intelligence and counter-intelligence operations. The article is written on the basis of archival documents and published books.

**Keywords:** *Azerbaijan, Heydar Aliyev, Nakhchivan, secret service, security service, Tsvigun, Andropov.*

**Муса Гулиев**

**ДЕЯТЕЛЬНОСТЬ ГЕЙДАРА АЛИЕВА В КОМИТЕТЕ ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ**

В статье рассказывается о деятельности общенационального лидера Азербайджанского народа Гейдара Алиева в 1944-1969 годах в КГБ Азербайджана и о некоторых удачных операциях разведки и контрразведки. Статья написана на основе архивных документов и изданных книг.

**Ключевые слова:** *Азербайджан, Гейдар Алиев, Нахчыван, разведка, контрразведка, Цвигун, Андропов.*

CEYRAN HÜSEYNLİ

# HEYDƏR ƏLİYEV – MÜASİR GƏNCLƏR SİYASƏTİNİN BANİSİ

*Gənclər siyasəti dövlət siyasətinin mühüm və ayrılmaz tərkib hissəsidir. Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldır. Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər. Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanıblar. Yeni dövrdə dövlətimizin qarşısında duran çətinlikləri həll edə bilmək üçün gənclərin yenidən təşkilatlanması, onlarda milli özünüdərkin, azad, demokratik düşüncənin formalaşması Ümummilli lider Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində mümkün olub. Bu gün böyük inam hissi ilə qeyd etmək olar ki, ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Respublikada dövlət gənclər siyasətinin formalaşdırılması Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyev gəncləri Azərbaycanın gələcəyi kimi dəyərləndirərək bildirirdi ki, cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaq. Təbii ki, dövlət gənclər siyasəti dedikdə də gənclərin öz bilik və bacarıqlarını ortaya qoymaları, cəmiyyətdə layiqli yer tutmaları üçün dövlət tərəfindən həyata keçirilən tədbirlər sistemi nəzərdə tutulur.*

*Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Bu gün gənclərimizin böyük bir qismi hazırda Silahlı Qüvvələrimizin sıralarında Vətən qarşısındakı müqəddəs borcunu verməkdədir. Aprel döyüşlərində və İkinci Vətən müharibəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə güclü Azərbaycan Ordusunun əsgər və zabitləri işğal altında olan torpaqlarımızın azad olunması yolunda son damla qanına kimi vuruşaraq şəhidliyə yüksəlməsi bir daha sübut etdi ki, gənclərimizin vətənpərvərlik duyğuları yüksəkdir.*

**Açar sözlər:** *"Heydər Əliyev, Gənclər Günü, Gənclər Siyasəti, Qanun".*

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar vardır. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Müstəsna xidmətləri ilə əbədilik qazanan ulu öndər Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir. Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı, dərin minnətdarlıq hissi ilə geniş bir şəkildə qeyd olunur.

Rəhbərlik fəaliyyətinin hər bir dövründə vaxtı boşa keçirməyən, əksinə, zamanı əməlləri ilə zənginləşdirən ulu öndər Heydər Əliyevin ən əsas, müqəddəs istəyi xalqın birliyinə, dünya azərbaycanlılarının həmrəyliyinə söykənən güclü, möhtəşəm, qüdrətli müasir dövlətin yaradılması olmuşdur. Ümumbəşəri xüsusiyyətləri özündə cəmləşdirən milli lider Heydər Əliyev milli dövlətçiliyi və azərbaycançılıq ideyalarını hər şeydən üstün tutmuş və xalqına, millətinə dərin məhəbbətlə bağlı olmuşdur. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından doğulur. Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Bu dövrün Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu isə azərbaycançılıqdır. Heydər Əliyevin dövlətçilik strateji proqramında azərbaycançılıq məfkurəsi xüsusi yer tutmuşdur. Müasir tariximizə Heydər Əliyevin möhtəşəm qayıdışı kimi daxil olan dövr Azərbaycanın iqtisadiyyatının

dinamik inkişafı, insanların rifahının yaxşılaşması, ölkənin simasının inanılmaz dərəcədə müasirləşməsi, dünya miqyasında nüfuzunun yüksəlməsi, ordumuzun qüdrətinin artması və digər uğurlarla müşayiət olunmuşdur. 1993-cü ilin 15 iyununda Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan tarixində yeni mərhələ başlandı, insanları narahat edən, xalqı vahiməyə salan təhlükələr dəf edildi, xaos, anarxiya, hakimiyyət böhranı aradan qaldırıldı. O zaman Azərbaycanın parçalanması təhlükəsini yaratmış separatizmin, vətəndaş müharibəsinin qarşısı alındı, erməni təcavüzünün dərinləşməsi dayandırıldı, cəbhədə atəşkəs razılaşmasına nail olundu. Ən başlıcası isə, ölkəni bürümüş siyasi və iqtisadi tənəzzülə, hakimiyyət böhranına son qoyuldu. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyev müdrikliyinin və uzaqgörənliyinin ən bariz nümunəsinə çevrildi. Bölgənin enerji mənzərəsini dərindən dəyişdirən bu layihə Azərbaycana böyük iqtisadi və geopolitik dividendlər gətirdi. Azərbaycanın müstəqilliyi möhkəm və etibarlı bünövrə üzərinə qoyuldu, inkişafa və tərəqqiyə xidmət edən islahatlar həyata keçirilməyə başlanıldı. Ölkənin iqtisadi çiçəklənməsinə və təhlükəsizliyinə təminat verən böyük neft sazişlərinin imzalanması, iqtisadi, sosial və siyasi islahatlar strategiyasının hazırlanaraq ardıcıl surətdə həyata keçirilməsi ilə yeni, müstəqil Azərbaycan dövləti quruldu, dövlətçiliyin ideologiyası və təməl prinsipləri yaradıldı.

Heydər Əliyev xalqımızın tarixinə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi daxil olmuşdur. Azərbaycançılıq ideologiyasına əsaslanan bu dövlətin təməlində müstəqillik, güclü iqtisadiyyat və azad insan kimi dəyər və prinsiplər dayanır. Müasir tariximizin təlatümlü, ziddiyyətlərlə dolu dövründə Heydər Əliyevin siyasi iradəsi və müdrikliyi sayəsində qurulan müstəqil Azərbaycan dövləti özündə sözün həqiqi mənasında ən müasir dövlətçilik dəyərlərinin və Heydər Əliyev ideyalarının sintezini ehtiva edir. Məhz elə buna görə Azərbaycan Respublikası Heydər Əliyevdən sonra da böyük inkişaf və təkmilləşmə potensialına sahib olduğunu nümayiş etdirir, xalqımızın iradəsini və maraqlarını layiqincə təmsil etmək imkanlarını göstərir. Ümummilli lider müstəqil Azərbaycan dövlətini özünün şah əsəri adlandırırdı və bütün xalq onun bu dəyərləndirməsini birmənalı şəkildə qəbul edirdi, bu gün də edir. Bu, xalqımızın ümummilli liderin misilsiz tarixi xidmətlərinə verdiyi qiymətin əyani ifadəsidir.

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş ulu öndər Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Ulu öndərin əbədiyyətə qovuşmasından 20 il ötsə də, Onun nurlu xatirəsi Azərbaycan xalqının qəlbində silinməz iz buraxmışdır. Bu gün hər bir azərbaycanlı, o cümlədən hər bir gənc fəxr edir ki, məhz o, Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanın vətəndaşıdır, onun bütün varlığı ilə sevdiyi bir xalqın övladıdır. İllər bir-birini əvəzlədikcə yeni həyat gerçəklikləri keçilmiş yolun hər bir mərhələsinə parlaq işıq salır. Bu günün uğurları yaxın keçmişə dolğun və obyektiv qiymət vermək imkanı yaradır. Bu gün Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəslənilir və ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir. Ulu öndər Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək deyirdi:

"Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm" [8].

Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanıblar. Yeni dövrdə dövlətimizin qarşısında duran çətinlikləri həll edə bilmək üçün gənclərin yenidən təşkilatlanması, onlarda milli özünüdərkin, azad, demokratik düşüncənin formalaşması Ümummilli lider Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində mümkün olub. Bu gün böyük inam hissi ilə qeyd edirik ki, ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Respublikada dövlət gənclər siyasətinin formalaşdırılması Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyev gəncləri Azərbaycanın gələcəyi kimi dəyərləndirərək bildirirdi ki, cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən

gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaq. Təbii ki, dövlət gənclər siyasəti dedikdə də gənclərin öz bilik və bacarıqlarını ortaya qoymaları, cəmiyyətdə layiqli yer tutmaları üçün dövlət tərəfindən həyata keçirilən tədbirlər sistemi nəzərdə tutulur. "Gənclər siyasəti haqqında" Qanunda da bu məqsədlər öz əksini tapıb. Kompleks tədbirlər gənclərin hərtərəfli inkişafını yüksək səviyyədə təmin edir, gələcəyə daha inamla baxmaları üçün stimulverici amil rolunu oynayır.

Ümummilli lider Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edib. Heydər Əliyevin 1969-1982-ci illərdə Respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. Azərbaycan gənclərinin I Forumunda bu barədə danışan ölkə rəhbəri demişdir:

"Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm [1]".

Dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur. Qeyd etdiyimiz kimi, hələ Sovet hakimiyyəti illərində Ümummilli liderimiz yüzlərlə Azərbaycan gəncinin ittifaqın bir çox böyük və mərkəzi şəhərlərində təhsil almalarına şərait yaratmışdır. Bu gənclər keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə ali təhsil almağa göndərilir və savadlı kadr kimi vətənə qayıdaraq fəaliyyət göstərməyə başlayırdılar. Həmin gənclərin böyük bir qismi bu gün müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunda yaxından iştirak edir, hüquq-mühafizə orqanlarında rəhbər vəzifələrdə çalışır, elmimizin, səhiyyəmizin, mədəniyyətimizin inkişafında əvəzsiz xidmət göstərirlər. Ulu öndərimiz savadı, qabiliyyəti, istedadı ilə seçilən gənclərə qayğı və diqqət göstərməyi bacarırdı. Şübhəsiz ki, bu gənclərin bir çoxunu özü seçir, onların qabiliyyətini və biliyini sınaqdan çıxarandan sonra Moskvaya, Leninqrada oxumağa göndərirdi. Bu gənclər maddi cəhətdən təmin edilir, yüksək, mükəmməl təhsil almalarına hər cür şərait yaradılırdı. Buna görə də Heydər Əliyevin 2-ci dəfə hakimiyyətə qayıdışını ən çox alqışlayanlar elə gənclərin özü idi. Heydər Əliyev gənclərə arxalandığı kimi, gənclərdə onu böyük bir lider, əvəzolunmaz tarixi şəxsiyyət, milli dövlət quruculuğumuzun banisi kimi qəbul edirdilər. Azərbaycan gəncliyinin dərin məhəbbətini və güvənini qazanan ulu öndər bu fikirləri ilə də gənclərə olan sonsuz etimadını bildirirdi:

"Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq" [8].

Tarixə qısa nəzər yetirdikdə bir reallıq öz təsdiqini tapır ki, əgər ümummilli lider Heydər Əliyevin hakimiyyətinin birinci dövründə daha çox gənclərin bir kadr kimi yetişməsi diqqət mərkəzində idisə, Azərbaycan müstəqillik qazandıqdan, daha dəqiq desək, 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra onların dövlət idarəçiliyində irəli çəkilməsi prioritet məsələ oldu. Ulu öndərimiz tərəfindən Gənclər və İdman Nazirliyinin yaradılması, gənclər siyasəti ilə bağlı mühüm qərarların verilməsi, eləcə də, "Gənclər siyasəti haqqında" qanunun qəbul olunması Heydər Əliyevin gəncliyimizə verdiyi dəyərin ifadəsidir.

Eyni zamanda, Azərbaycan dövlətinin gənclər siyasətinin formalaşmasında və gənc nəslin geniş fəaliyyət meydanına çıxarılmasında dahi liderin təşəbbüsü və iştirakı ilə keçirilən gənclərin I Forumunun xüsusi rolu oldu. 1996-cı il fevralın 2-də keçirilən bu forum Ümummilli lider Heydər Əliyevin gəncliklə bağlı strategiyasının ilk təntənəsi kimi dəyərləndirildi. 1997-ci ildə ulu öndər Heydər Əliyevin Sərəncamı əsasında I Forumun keçirildiyi tarix – yəni 2 fevral Azərbaycanda Gənclər Günü kimi elan edildi.1996-2002-ci illərdə qəbul olunmuş "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Dövlət gənclər siyasəti haqqında" qərarların, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi haqqında", "Ordudan tərxis olunmuş

gənclərin məşğulluğu" dövlət sənədləri bu baxımdan təqdirə layiqdir [4]. Sonrakı illərdə də Azərbaycan gənclərinin forumlarının keçirilməsi gənclərimizin fəaliyyət istiqamətlərinin genişləndirilməsində əhəmiyyətli rol oynadı. Belə ki, Ümummilli lider Heydər Əliyev 2 fevral 1998-ci ildə Azərbaycan Gəncləri gününün ildönümü münasibətilə keçirilən bədii-idman bayramında tarixi çıxış etmiş və gənclərə müraciət ünvanlamışdır. Ulu öndər gənclərə müraciət edərək demişdir:

"Mən sizi gördükcə daha da ruhlanıram, siz Mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycanın Prezidenti sizin – gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, yaxşı əmək fəaliyyəti göstərməsi üçün bundan sonra da əlimizdən gələni edəcəyik" [3].

Azərbaycan gəncliyinə böyük qayğısının davamı kimi ulu öndər 1999-cu ildə "Dövlət Gənclər Siyasəti haqqında" Fərman imzalamışdır. Fərmana müvafiq olaraq "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 9 aprel 2002-ci il tarixdə Heydər Əliyev tərəfindən imzalamışdır. Beləliklə, ulu öndər gənclər siyasətini düzgün və uğurlu formalaşdırmaqla dövlətin sağlam təməlini qoymuşdur.

"Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir. Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir" [6] – öz çıxışında bu sözləri qeyd edən Ümummilli lider Heydər Əliyev gənclərə olan dərin sevgisini göstərmiş və onlara olan sonsuz inamını ifadə etmişdir. Çünki bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli, vətənpərvər ruhlu potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Ölkə başçısının gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" və "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət proqramları xüsusi qeyd edilməlidir. Həmçinin, Prezident İlham Əliyevin 2007-ci ili "Gənclər ili" elan etməsi gənclərə ölkə Prezidenti tərəfindən böyük önəm verilməsinin daha bir sübutudur. Bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Dövlət gənclər siyasəti – gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını effektli reallaşdırmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir.

Ulu öndər çıxışlarında deyirdi ki, gənclərimizin ən mühüm vəzifələrindən biri də ordu sıralarında qulluq etməkdir. Bu gün gənclərimizin böyük bir qismi hazırda Silahlı Qüvvələrimizin sıralarında Vətən qarşısındakı müqəddəs borcunu verməkdədir. Aprel döyüşlərində və İkinci Vətən müharibəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə güclü Azərbaycan Ordusunun əsgər və zabitləri işğal altında olan torpaqlarımızın azad olunması yolunda son damla qanına kimi vuruşaraq şəhidliyə yüksəlməsi bir daha sübut etdi ki, gənclərimizin vətənpərvərlik duyğuları yüksəkdir. Və bu gün bütün Azərbaycan xalqı, o cümlədən biz gənclər Ali Baş Komandanımızın çağırışına hər zaman hazırıq və istənilən vaxt torpaqlarımızı işğaldan azad etməyə qadirik. Dövlət başçımızın: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram", – dediyi bu yüksək münasibətə cavab olaraq

Azərbaycanımızın parlaq gələcəyi yolunda biz gənclər bütöv və müstəqil Azərbaycan naminə Vətənimizin inkişafı üçün səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə başçısının etimadını həmişə doğrultmalı, hər an Ali Baş Komandanımızın verəcəyi əmrə müntəzir hazırıq. “Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”,- deyən Ümummilli lider Heydər Əliyevin arzuları Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Xalqına, millətinə dərin bir eşqlə bağlı olan Azərbaycan gəncliyi hər zaman qəlbində yaşatdığı “vətən sevgisi” ilə qürur duymuş və şücaətlə göstərdikləri qəhrəmanlıqları ilə tarixin ən parlaq səhifələrində öz adlarından fəxrlə bəhs etdirmiş, hər bir şəxsin könlündə öz imzasını atmışdır. Tarixin kəşməkəşli yollarından keçmiş, vətənpərvər bir xalqın yetişdirmiş olduğu övladlar daim öz mübarizə əzmi ilə seçilmiş, onlara yaşamaları boyu aşılanan “Vətən sevgisi” ilə böyümüş və həyatın bütün sferalarında dövlətinə, millətinə qanı bahasına xidmət etməkdədir. Öz nitqlərinin birində xüsusi ilə bu məsələyə toxunan Heydər Əliyev deyirdi:

“Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik” [7].

Həmin, o gənclər illər boyu davam edən müharibə şəraitində həyata göz açmış, bütün bu yaşanılan çətinliklərə şahid olmuş, amma vətənpərvər ruhlu böyüklərindən almış olduğu dərslərlə bu günün qəhrəmanları olmuşlar. Azərbaycan gənclərinin qəlbində alışıb yanan o sönməz məşəl, vətənə olan dərin məhəbbət hər zaman onların yoluna işıq saçmış və inamlı addımlarla yalnız irəli getməyə sövq etmişdir. Hansı ki, bizlər tarixin qan yaddaşına yazılmış, hər birimizin qürur mənbəyi olan 44 gün ərzində sürən Vətən müharibəsində bu reallığın canlı şahidləri olduq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada – Cıdır düzündə xalqa müraciət edərkən çıxışında çox böyük fəxr hiss ilə bu ifadələri işlədərək sözə başlayıb:

“Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını torpaq uğrunda fəda etdi. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi” [2].

Bəli, bu çıxış, deyilən qürurverici sözlər, səslənən hər bir kəlmə Vətənpərvər bir xalqın, Vətənpərvər övladları üçün səslənirdi. Hansı ki, o gənclər Ali baş komandanın “Dəmir yumruq” ideologiyası ətrafında toplaşaraq düşmənə öz igidliyini hər bir cəhətdən göstərmiş və Azərbaycan xalqının, Azərbaycan gəncinin məğrurluğunu, biləyinin, ağlının gücünü sübut etmiş oldular. Öz qəhrəmanlıqları ilə hər bir sferadan düşməni susdurmağa bacaran gənclər, informasiya sahəsində də uğurlu və düşünülmüş addımlar ataraq onların gerçəyə sığmayan təbliğatlarının iç üzünü bütün dünyaya açmış, öz haqlı səsini duyurmağa çalışmışdı. Bu günlər ərzində vətən sevgisi ilə daha da alovlanan xalq yağı düşmən tərəfindən edilən zülmləri, haqsızlıqları sosial şəbəkələr, çəkilən qısa metrajlı filmlər və media vasitəsi ilə də gözlər önünə gətirərək öz əzəmətli mübarizəsini aparmışdır. Təbii ki, bütün bu görülən işlərdə gənclərin danılmaz rolu olmuş və canla-başla bu yolda çalışmışlar. Canı-qanı bahasına vuruşan igidlər, o gənclər ki, bizləri illərdir həsrətini çəkdiyimiz, yolunu gözlədiyimiz o doğma diyarlara qovuşmağımızın ən bariz səbəbkarlarıdır. Öz canlarından keçərək Vətən uğrunda Şəhid olmuş və bütün Azərbaycanın qəhrəmanlarına çevrilmiş və hər birimizin qəlbində əvəzsiz, unudulmaz izlərini qoymuşlar. Məğrur, əzəmətli Azərbaycan xalqının birliyini, şücaətini, gücünü bütün dünyaya çatdırmış, illər boyu işğal altında olan torpaqlarımızı azad etmişlər. Son olaraq sözlərimi Himnimizdən olan bir parça ilə bitirmək istəyərdim:

Minlərlə can qurban oldu, Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər hərə bir qəhrəman oldu (5)!

## ƏDƏBİYYAT

1. Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir // YAP; 2020, 6 may.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti // Prezident.Az; 2021, 20 mart.
3. Ulu öndər Heydər Əliyevin gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir // Yeni Azərbaycan, 2014, 13 avqust.
4. Ulu öndər tərəfindən fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib // Qanunla.Az; 2023, 1 fevral.
5. https://www.azerbaijans.com/content_656_az.html
6. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev
7. https://modern.az/news/10912/gencler-bizim-sabahimizdir/
8. https://sesqazeti.az/news/politics/1006552.html

***AMEA, Fəlsəfə və Sosiologiya İnstitutu***
***E-mail: ceyran.huseynli.13@gmail.com***

**Jeyran Husseinli**

## HEYDAR ALIYEV IS THE FOUNDER OF MODERN YOUTH POLICY

Youth policy is an important and integral part of state policy. Today, the youth of Azerbaijan are quite active in all spheres of public life. They always support the measures implemented by the country’s leadership in political, economic, humanitarian and social directions, and they closely participate in ensuring sustainable development and sustainable development in the society. The youth, who became the leading sociopolitical force at every stage of Azerbaijan’s history, have gained historical achievements by closely participating in the process of preserving, strengthening and developing statehood. The re-organization of young people, the formation of national self-awareness, free, democratic thinking in them to solve the difficulties facing our state in the new era was possible as a result of the care and attention of the national leader Heydar Aliyev. Today, it can be noted with great confidence that youth policy is an important component of state policy in our country. The formation of the state youth policy in the republic is connected with the name of Heydar Aliyev. The great leader Heydar Aliyev, the founder of the independent Azerbaijan, valued the youth as the future of Azerbaijan and stated that the future progress of the society will depend on what and how we teach our youth in many ways. Of course, the state youth policy also means a system of measures implemented by the state for young people to reveal their knowledge and skills and take a decent place in society.

As a result of the successful continuation of the state youth policy by President Ilham Aliyev, the foundation of which was laid by the national leader Heydar Aliyev, today the youth of Azerbaijan are proving themselves in all fields. Today, many of our young people are serving their sacred duty to the Motherland in the ranks of our Armed Forces. In the April battles and in the Second Patriotic War, with our Commander-in-Chief, President Ilham Aliyev’s “Iron Fist” policy, the soldiers and officers of the strong Azerbaijan Army fought to the last drop of blood for the liberation of our occupied lands and rose to martyrdom once again proved that the patriotic feelings of our youth are high.

**Keyword:** *Heydar Aliyev, The Day of youth, youth policy, law.*

**Джейран Гусейнли**

## ГЕЙДАР АЛИЕВ – ОСНОВОПОЛОЖНИК СОВРЕМЕННОЙ МОЛОДЕЖНОЙ ПОЛИТИКИ

Молодежная политика является важной и неотъемлемой частью государственной политики. Сегодня молодежь Азербайджана достаточно активна во всех сферах общественной жизни. Они всегда поддерживают меры, реализуемые руководством страны в политической, экономической, гуманитарной и социальной сферах, активно участвуют в обеспечении устойчивого и последовательного развития в обществе. Молодежь, ставшая ведущей общественно-политической силой на каждом этапе истории Азербайджана, добилась исторических достижений, активно участвуя в процессе сохранения, укрепления и развития государственности. Переорганизация молодежи, формирование в ней национального самосознания, свободного, демократического мышления для решения трудностей, стоящих перед нашим государством в новую эпоху, стало возможным в результате заботы и внимания общенационального лидера Гейдара Алиева. Сегодня можно с большой уверенностью отметить, что молодежная политика является важной составляющей государственной политики в нашей стране. Становление государственной молодежной политики в республике связано с именем Гейдара Алиева. Великий лидер Гейдар Алиев, основатель независимого Азербайджанского государства, ценил молодежь как будущее Азербайджана и заявлял, что будущий прогресс общества во многом будет зависеть от того, чему и как мы учим нашу молодежь. Безусловно, под государственной молодежной политикой понимается и система мер, реализуемых государством для того, чтобы молодые люди могли раскрыть свои знания и умения и занять достойное место в обществе.

В результате успешного продолжения Президентом Ильхамом Алиевым государственной молодежной политики, основы которой были заложены общенациональным лидером Гейдаром Алиевым, сегодня молодежь Азербайджана проявляет себя во всех сферах. Сегодня большое количество нашей молодежи выполняют свой священный долг перед Родиной в рядах наших вооруженных сил. В апрельских боях и во время Второй Отечественной войны в соответствии с политикой «Железного кулака» нашего Главнокомандующего Президента Ильхама Алиева солдаты и офицеры сильной Азербайджанской Армии до последней капли крови сражались за освобождение наших оккупированных земель и, приняв мученическую смерть, еще раз доказали, что патриотические чувства нашей молодежи высоки.

**Ключевые слова:** *Гейдар Алиев, День молодежи, молодежная политика, закон.*

**ELZA FƏRZƏLİYEVA**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

*Məqalədə Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin respublikamızdakı birinci və ikinci hakimiyyəti dövrlərində bütün sahələr kimi milli mədəniyyətimizin də dirçəldilməsi, inkişaf etdirilərək tərəqqi yollarına çıxardılmasında böyük, əvəzedilməz və danılmaz xidmətlərindən söhbət açılır.*

*Burada ulu öndərimizin sovet dövründə görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileylərinin keçirilməsinə, onların yüksək dövlət təltiflərilə mükafatlandırılmasına, ev-muzeylərinin yaradılmasına göstərdiyi yüksək diqqət və qayğıdan bəhs edilir, mədəni irsimizin qorunması, təbliğ olunması, dünyada tanınması yolunda göstərdiyi fədakarlıqdan və əzmkarlıqdan bəhs edilir.*

**Açar sözlər:** *Heydər Əliyev, mədəniyyət, elm, ədəbiyyat, incəsənət, ev-muzey, yubiley.*

1969-cu ilin 14 iyulundan, Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etməyə başladığı tarixdən Azərbaycanda incəsənətin və mədəniyyətin inkişafına geniş meydan açıldı, əlverişli imkanlar yarandı. Sonralar “Azərbaycan xalqının maraq və mənafelərinin real təmsilçisi, fəal qurucusu olmuş, bütün qüvvə və enerjisini, təcrübə və zəkasını milli inkişafa, xalqımızın rifahının yüksəlməsinə və ictimai tərəqqiyə sərf edən Heydər Əliyev” mənəvi və fiziki qüvvəsindən əzəmi dərəcədə istifadə edərək milli mədəniyyət və incəsənətimizin inkişafı yolunu işıqlandırdı. Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin görkəmli nümayəndələrinin həqiqi qiymətini verdi.

“Keçmiş SSRİ-də “dissident” ovu başlananda Heydər Əliyev hər vasitə ilə Azərbaycan ziyalılarını qoruyurdu. O dövrdə bir-iki yazıçının yaxud şairin əsərini mikroskopla oxuyub nə isə tapmaq, əlbəttə, o qədər də çətin iş deyildi. Lakin millətin gen fondunun qorumağı həmişə özünün əsas vəzifəsi sayan Heydər Əliyev heç vaxt buna imkan vermirdi. Belə bir vaxtda o, təkcə ziyalıları qorumaqla kifayətlənmirdi, ən cəsarətli fikirlər bir çox hallarda onun öz dilindən səslənirdi. Təkcə elə Azərbaycan yazıçılarının 1981-ci ildə keçirilən XII qurultayında Heydər Əliyev yazıçıları onun şəxsi nüfuzuna, şəxsi müdafiəsinə arxalanmağa xalqımız üçün tale yüklü məsələlərdən daha böyük cəsarət və prinsipiallıqla söz açmağa, daha sərt barışmaz mövqe tutmağa ruhlandırırdı” [1, s. 10].

“Heydər Əliyev dünyaya Azərbaycanı tanıtmışdır. Bu heç kəsə sirr deyil ki, Azərbaycanı da Heydər Əliyevə görə tanıyırlar. Ümumiyyətlə, Heydər Əliyev Azərbaycanı doğma bir ananın tikib, əziz övladına ərməğan etdiyi isti paltar kimi həmişəlik əyninə geyindirmişdir. Bu qeyri-adi geyim nağıllarımızdakı sehirli xalat kimi Heydər Əliyevə güc, cəsarət, dəmir iradə, uzaqgörənlik, vətənsevərlik bəxş etmiş, çox möcüzələrin açılmasına səbəb olmuşdur. Heydər Əlirza oğlu Əliyev deyirdi: “Mən Azərbaycan xalqına həyatım boyu sadiq olmuşam, ömrümün son dəqiqəsinə qədər də sadiq olacağam” [1, s. 14].

Heydər Əliyev hələ gənclik çağlarından məşhur ingilis filosofu Herbert Spenserin müdrik fikrindən doğan bir həqiqəti dərk etmişdi ki, “xalqın ləyaqətli olmayınca, sən də özünü ləyaqətli saya bilməzsən, xalqın azad olmayınca, sən də özünü azad saya bilməzsən, xalqın xoşbəxt olmayınca, sən də özünü xoşbəxt saya bilməzsən”

“Dünyanın ən böyük zəka sahiblərinin, mütəfəkkirlərin və mədəniyyət xadimlərinin xalq üçün döyünən ürəklərinin, müqəddəs amallarının, cəsarət və fədakarlıqlarının pərəstişkarları kimi Heydər Əliyev də bütün varlığında xalqa məhəbbət bəsləyir, ömrünün hər anından əzəmi dərəcədə istifadə edərək, yorulmadan, çəkinmədən vətəndaşlıq rəşadəti ilə xalqa xidmət göstərir, hər yerdə hər zaman böyük Nizami Gəncəvinin:

“Xidmət etmək sayılır, kişilikdən, nişanə,
Xalqına xidmət etmək bir şərəfdir insana”.

fikirlərinə tapınmışdır [1, s. 15].

70-80-ci illərdə Azərbaycan incəsənəti və ədəbiyyatı daha da inkişaf etdi. Bakıda Üzeyir Hacıbəyovun, S.Vurğunun, C.Cabbarlının, Bülbülün, 1981-ci ildə Naxçıvanda Hüseyn Cavidin ev-muzeyləri fəaliyyət göstərməyə başladı. Hər il orta hesabla 1300 adda kitab nəşr edilirdi.

Respublika Televiziyası və Radiosu milli və bəşəri dəyərlərə söykənərək milli oyanışa əhəmiy-

yətli dərəcədə təsir göstərirdi. Bu illərdə Azərbaycan ədəbiyyatı Anarın "Ağ liman", "Şəhərin yay günləri", Elçinin "Ağ dəvə", "Sos", İ.Əfəndiyevin "Büllur sarayda", Y.Səmədoğlunun "Qətl günü" və b. əsərlərlə daha da zənginləşdi.

1981-ci ilin iyulunda Azərbaycan KP Mərkəzi Komitəsi dahi şair-dramaturq Hüseyn Cavidin 100 illik yubileyinin keçirilməsi haqqında möhtəşəm bir qərar qəbul etdi [2]. Nəşriyyatlar görkəmli dramaturq, şair Hüseyn Cavidin ayrı-ayrı əsərlərini nəşr etməkdən belə çəkinəndə Heydər Əliyev əsərlərində sosializmin, sovet quruluşunun xeyrinə bir cümlə belə işlətməyən, həyatının sonuna qədər türkçülük, millətçilik ideyalarını tərənnüm edən Hüseyn Cavidin cəsədini uzaq Sibirdən Azərbaycana gətirtmiş, şairin vətəni Naxçıvanda böyük təntənə ilə dəfn etdirmişdi.

Elə həmin günün axşamı 100 illik haqqında qərarın bir maddəsinə uyğun olaraq yaradılmış "Cavid" Poeziya Teatrının təntənəli açılışı olmuşdur [2, s. 5]. Amerikalı azərbaycanşünas, professor Odri Aldstadtın yazdığı kimi, milli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin cənazəsinin Sibirdən gətirilməsi və Azərbaycanda dəfn olunması yalnız Heydər Əliyevin sayəsində gerçəkləşə bildi və bu hadisə mühüm rəmzi məna daşıyırdı.

H.Ə.Əliyev Azərbaycanın istər müasir, istərsə də klassik sənətkarları – ədəbiyyat, mədəniyyət, incəsənət xadimləri haqqında məhəbbətlə, ürək dolusu, ustalıqla çıxış etmişdir. Nizami, Füzuli, Nəsimi, Vaqif, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun və başqaları haqqında danışarkən ən mütəfəkkir, ustad bir filoloq təsiri bağışlayırdı. Teatr sənəti barədə mahir teatrşünas kimi çıxış edirdi.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının mədəni, mənəvi həyatında mühüm dəyişikliklər baş vermişdir. Müharibə, erməni işğalçıları tərəfindən yüzlərlə sosial-mədəni obyektin məhv edilməsi, postsovet respublikaları ilə mədəni əlaqələrin zəifləməsi incəsənətə də öz mənfi təsirini göstərirdi.

Bütün bunlara baxmayaraq, bu dövrdə Azərbaycan mədəniyyəti mübarizliyi, mənəvi qüvvələrin öz kökünə və ümumbəşəri dəyərlərə daha möhkəm bağlanması ilə səciyyələnirdi.

Belə ki, 1993-cü ildən başlayaraq respublikada mədəni-maarif inkişafı üçün bir sıra tədbirlər həyata keçirildi. M.F.Axundov adına Respublika Kitabxanası 1998-ci ilin aprelindən Milli Kitabxana statusu aldı. Ali təhsil müəssisələrinin həyatında yeniliklər baş verdi. 1993-cü ildən ali məktəblərdə iki bakalavr və magistr pilləli təhsilə keçildi. Özəl təhsil müəssisələri meydana gəldi. Minlərlə gənc xarici ölkələrdə təhsil almaq imkanı qazandı.

Bakıda Cəlil Məmmədqulzadənin, Niyazinin, Hüseyn Cavidin ev-muzeyləri yaradıldı. N.Nərimanovun Ev-Muzeyi yenidən quruldu. "1998-ci ildə Ordubadda M.S.Ordubadinin Ev-Muzeyi əsaslı təmirdən sonra fəaliyyətini davam etdirdi. 1999-cu ildə Naxçıvanda Cəlil Məmmədqulzadənin Ev-Muzeyi Prezident Heydər Əliyev tərəfindən təntənə ilə açıldı" [4].

Xalqın mənəvi aləmini zənginləşdirmək, onu özünə və başqalarına daha yaxşı tanıtmaq üçün elm, təhsil, ədəbiyyat və incəsənətin bütün mümkün vasitələrindən istifadə edilirdi. 1997-ci ilin noyabrında qəbul olunmuş "Mədəniyyət haqqında" Qanun bu sahədə fəaliyyət istiqamətlərini müəyyənləşdirmişdir.

1996-cı ilin payızında Füzulinin 500 illik yubileyinə, demək olar ki, dünyanın hər yerindən qonaqlar ədəbiyyatşünas alimlər, yazıçılar gəlmişdi. Həmin il Əliağa Vahidin, bəstəkar Müslim Maqomayevin, görkəmli alimlər Yusif Məmmədəliyevin, Sara Aşurbəylinin, alim və dövlət xadimi Vəli Axundovun, xalq şairləri Bəxtiyar Vahabzadənin, Qabilin, xalq rəssamı Maral Rəhmanzadənin, 1997-ci ildə ölməz xalq şairi Səməd Vurğunun, görkəmli alim, dövlət xadimi, səhiyyə təşkilatçısı Əziz Əliyevin, akademik Həsən Əliyevin, görkəmli opera müğənniləri Şövkət Məmmədovanın, Bülbülün, dünya şöhrətli musiqiçi, Azərbaycanda böyüyüb boya-başa çatmış Mstislav Rastropoviçin, 1998-ci ildə dahi bəstəkar Qara Qarayevin, böyük şair Məmmədhüseyn Şəhriyarın, Mikayıl Müşfiqin, Aşıq Ələsgərin, yazıcı Mir Cəlalın və başqalarının yubileyləri geniş qeyd olundu.

2000-ci ilin aprelində möhtəşəm ədəbi-tarixi abidənin "Dədə Qorqud dastanı"nın 1300 illik yubileyi Bakıda böyük təntənə ilə keçirildi. Həmin yubiley tədbirinin bir böyük əhəmiyyəti də ondan ibarət oldu ki, əlyazma nüsxəsi Almaniyanın Drezden Kitabxanasında saxlanılan bu dastanın yarandığı ölkənin məhz Azərbaycan olduğu bütün Dünyaya çatdırıldı.

Yeni əsrin ilk illərində mədəniyyətin inkişaf etdirilməsinə, maddi-mədəniyyət abidələrinin qorunmasına yönəldilmiş bir sıra qanunlar qəbul edilmişdir. Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış "Mədəni irsin qorunmasına yardım haqqında" sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksinin, Şəkidə Xanlar sarayının, "Naxçıvan Muxtar Respublikasında Möminə xatın və Qarabağlar türbəsinin, bərpa və yenidənqurma işlərinə başlanılmışdır" [5, s. 212].

2002-ci ildə respublikamız Abidələrin Bərpası Konservasiyası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar Saray Kompleksi və Qız qalası da daxil olmaqla İçəri şəhər Dövlət Tarixi-Memarlıq Kompleksi YUNESKO-nun "Dünya mədəniyyət irsi" siyahısına daxil edilmişdir.

Ümummilli liderimizin keçdiyi yola, hətta ötəri belə, nəzər saldıqda görür və duyursan ki, Heydər Əliyev 1969-cu ildən bəri özü bir tarix yaradıb, cəfakeşliklə, qəhrəmanlıqla dolu əhəmiyyətli, qüvvətli, əzəmətli, həm də hər cəhətdən ibrətamiz bir tarix. Bu tarix içərisində öz ləyaqətini yüksəldən, güclü, qüvvətli xarakter bütövlüyünü büruzə verən Heydər Əliyev, eyni zamanda cəmiyyətin qanunauyğun inkişafına yeni estetik və ideyaya sahib olduğunu sübut etdi.

"Mövcud quruluşdakı gerçəkliyi dərindən dərk edib, qabaqcıl dünyagörüşünə, humanizmə söykənərək, şəxsi təcrübəsini zənginləşdirə-zənginləşdirə, təfəkkürünün parlaqlığına, təxəyyülünə fəaliyyət genişliyinə nail oldu və sübut etdi ki, o "insan səadətini özünün xüsusi, yeganə dəyişməz və şərtsiz prinsipi meyarı hesab edir" (L.Feyerbax)

Hikmət Paşanın yazdığı kimi:

"Ayinəsi işdir kişinin, lafə bakılmaz,
Şəxsin görünər rütbeyi əqli – əməlində" [1, s. 35].

## ƏDƏBİYYAT


1. Kərimov İ. Heydər Əliyev. Sənət, sənətkarlar və sənətkarlıq haqqında. Bakı: Ulu, 2005, 228 s.
2. "Kommunist" qəz., 1981, 22 iyul.
3. Qasımov Ə. "Cavid" Poeziya Teatrı. Bakı: AFpoliqrAF, 2017, 84 s.
4. Naxçıvan Şəhər XDS İcraiyyə Komitəsinin sənədlər qovluğu, 1990. Naxçıvan Mərkəzi Dövlət Arxivinin fondu.
5. Salamzadə Ə., Məmmədzadə K. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 268 s.



***Naxçıvan Dövlət Universiteti***
***E-mail: elza.mammadova71@gmail.com***

**Elza Farzaliyeva**


## HEYDAR ALIYEV AND AZERBAIJANI CULTURE


The article deals with Heydar Aliyev's sensitive attitude to Azerbaijani culture and the ancient national cultural heritage, and his worthy fulfillment of the mission of his patron.

As the head of the Republic in the Soviet period, the great leader's importance to the study of our national culture, its promotion abroad, the creation of love for our cultural heritage in the younger generation, the protection of our cultural assets is widely talked about. His attention and care for cultural figures is also reflected here.

His contribution to the revival of our national wealth-theater, cinema, music and fine art-is highlighted by the fact that he continues to promote the culture of Azerbaijan in the world as president of the country during the years of independence. It is also mentioned that a number of artists were honored with orders and medals of our independent state, with honorary titles, including Presidential scholarships and awards.



**Keywords:** *Heydar Aliyev, great leader, culture, theater, cinema, painting, sculpture, music, monument.*

**Эльза Фарзалиева**

## ГЕЙДАР АЛИЕВ И КУЛЬТУРА АЗЕРБАЙДЖАНА

В статье говорится о великих, незаменимых и неоспоримых заслугах общенационального лидера азербайджанского народа, всемирно известного политического деятеля Гейдара Алиева в первый и второй периоды власти в нашей республике в возрождении и развитии нашей национальной культуры, как и во всех других областях.

Здесь огромное внимание и забота, которые наш великий лидер уделял празднованию юбилеев выдающихся деятелей науки, литературы и искусства в советское время, награждению их высокими государственными наградами, созданию их домов-музеев, самоотверженность и настойчивость проявили себя в деле защиты, популяризации и признания нашего культурного наследия в мире.

**Ключевые слова:** *Гейдар Алиев, культура, наука, литература, искусство, дом-музей, юбилей.*

**TOFİQ HÜSEYNOV, QƏHRƏMAN BEHBUDOV**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN SİYASİ FƏALİYYƏTİ

*Ölkəmizin milli dövlətçilik ənənələrinin qurulmasında və inkişafında əvəzsiz xidmətləri olan dahi rəhbər Heydər Əlirza oğlu Əliyevin həyatı və siyasi fəaliyyəti müasir tariximizdə misilsiz yer tutur.*

*Yüksək insani keyfiyyətlərinə, mükəmməl dövləti idarəetmə bacarığına və eləcədə xalqa xidmət mədəniyyətinə görə Heydər Əliyev dünyada ən öndə gedən tarixi şəxsiyyətlər sırasındadır.*

*Bu gün müstəqil Azərbaycan dövlətinin qüdrətli ölkə kimi təşəkkül tapması dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır.*

*Qürur hissi ilə qeyd etmək olar ki,hər bir vətəndaşımızın qəlbində əbədiyaşarlıq zirvəsini fəth etmiş Heydər Əliyev əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlərili, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində duran güclü Azərbaycanı qoydu.*

**Açar sözlər:** *əbədiyaşarlıq, təşəkkül, potensial, tərəqqi, təəssübkeş, qloballaşan,konsepsiya, misilsiz, siyasi kursu.*

Tarixə nəzər salsaq görərik ki, ümummilli lider Heydər Əliyev 1969-cu il iyul ayının 14-dən 1982-ci il noyabr ayının 22-dək Sovet İttifaqı Kommunist Partiyası Siyasi Büronun üzvü, həmin ayın 24-dən SSRİ Nazirlər Soveti sədrinin I müavini seçilənə qədər, Azərbaycan SSR-ə rəhbərlik etmişdir. Məhz Heydər Əliyevin fədakar əməyinin, səmərəli işgüzarlığının, uzaqgörən rəhbərlik və təşkilatçılıq bacarığının sayəsində Azərbaycan bu illər ərzində sürətlə və hərtərəfli inkişaf edərək keçmiş İttifaqın qabaqcıl respublikalarından birinə çevrilmişdir. 1969-1982-ci illərdə ölkə iqtisadiyyatının bütün sahələrində istehsalın sürətlə artması nəticəsində iqtisadi və sosial inkişafın ümumiləşdirici göstəricisi olan milli gəlir 2,5 dəfə artmışdır. Respublikamızda bütün sahələrində: sənayedə, elmdə, təhsildə, səhiyyədə, inkişaf potensialı ciddi şəkildə yüksəlmişdir. Məhz 60-cı illərə qədər sənaye malları asılılığı ilə üzləşən Azərbaycan artıq 70-ci illərdə dünyanın 65 ölkəsinə 350 adda müxtəlif növ məhsul ixrac edən bir ölkəyə çevrilmişdi. Azərbaycan həmin illərdə neft, qaz avadanlıqları istehsalına görə dünyada ən güclü ölkələrdən birinə çevrilmişdir. Eləcədə, onu qeyd etmək olar ki, Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrlərdə azərbaycanlı milli kadrların hazırlanması işinə də xüsusi önəm vermişdir. Məhz onun təşəbbüsünün nəticəsi idi ki, azərbaycanlı gənclər keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdi. Təkcə onu qeyd etmək yerinə düşər ki, 1969-1982-ci illərdə 10 mindən çox azərbaycanlı gənc Rusiya, Ukrayna və digər ölkələrin tanınmış ali məktəblərində təhsil alaraq respublikaya qayıtmış və Azərbaycanın inkişafı sahəsində bir sıraxidmətlərgöstərmiş və hal-hazırda göstərməkdədirlər.

Bir sözlə Heydər Əliyev sözün əsl mənasında Ən Böyük Azərbaycanlı idi. Ölkənin, millətin, Azərbaycan tarixinin, onun dövlətçiliyinin böyük təəssübkeşi hesab edilən Heydər Əliyev XX yüzilliyin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycanın xilaskarı oldu, bununla da ölkəmiz parçalanmaq, məhv olmaq təhlükəsindən yan keçdi.

Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 40 ilə yaxın bir dövr ərzindəki bənzərsiz fəaliyyəti Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəxas layiqli yer tutması uğrunda mübarizəyə həsr olunmuşdur. Ümummilli lider Heydər Əliyevin yüksək peşəkarlıqla işləyib hazırladığı milli dövlətçilik strategiyasının əsas bəhrəsini müstəqil Azərbaycanın iqtisadi qüdrətinin çiçəklənməsi, artırılması və möhkəmləndirilməsi təşkil edirdi. Onun ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, qloballaşan dünya iqtisadiyyatına axımı sahəsində həqiqətən də misilsiz fəaliyyəti nəticəsində ölkəmiz sürətli tərəqqi yoluna qədəm qoymuşdur. Tam qətiyyətlə və cəsarətlə qeyd etmək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin intensiv inkişaf mərhələsini və tariximizin ən dəbdəbəli dövrünü təşkil edir. Böyük idarəçilik təcrübəsinə malik olan ulu öndər müstəqil Azərbaycan dövlətçiliyinin milli və bəşəri normalara söykənən uzunömürlü konsepsiyasını işləyib hazırlamış və onu dəqiqliklə həyata keçirmişdir. Bunun bəhrəsidirki, Azərbaycan bu gün dünyada özünəməxsus yeri olan dövlətlərdən biridir. Xalqını sonsuz məhəbbətlə sevən bu böyük insan bütün həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycan dövlətinin xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr edib.

Qəbul edilmiş təcrübə göstərir ki, tarixin olduqca əsas, həlledici anlarında ictimai-siyasi təşkilatlanmaya, xalqın maraqlarını təmsil edən qüvvələrin vahid qurumda bir araya gəlməsinə nail olmadan qarşıda dayanmış ümummilli problemlərin həlli mümkün deyildir.Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi ən böyük şəxsiyyət olan ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının yaranması məhz belə bir tarixi gerçəklikdən qaynaqlandı. 1991-ci ildə Azərbaycan müstəqilliyini elan etsə də, o dövrdə hakimiyyət sükanı arxasında dayanan bəzi siyasətbazların səriştəsizliyi ucbatından bu müstəqilliyi həqiqi mənada möhkəmləndirmək, dövlətin sütunlarınıgücləndirmək mümkün olmamışdı. Həmçinin eləcədəErmənistanişğalçılıq siyasəti həyata keçirirdi. Belə bir həlledici zamanda cəmiyyətin sağlam qüvvələrinin diqqəti siyasəti, ölkə daxilindəki çəkişmələr cəmi bir il əvvəl qazanılmış müstəqilliyi təhlükə altında Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana yönəlmişdi. Azərbaycanın çətin anında Ümummilli liderimizin ətrafında bütün Azərbaycan xalqı sıx birləşməyə müvəffəq oldu. Həmin vaxtxüsusilə ziyalılar Heydər Əliyevin xalq üçün nə qədər lazımlı olduğunu gözəl bilirdilər. Belə bir zamanda, Azərbaycan xalqının iztirablarını, ölkənin iflasa və məhvə sürüklənməsi təhlükəsini, Azərbaycan ziyalılarının ürək ağrısı və nigarançılığını, həmçinin, bununla bağlı bir qrup görkəmli şəxslərin müraciətini nəzərə alan ulu öndər Heydər Əliyev onlara yazdığı 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi.

Bu gün bir mənalı şəkildə vurğulamaq olar ki, 1993-cü ildənbu günədək YAP bütün seçkilərdə böyük qələbələr qazanmışdır. Yeni Azərbaycan Partiyası Heydər Əliyev siyasi məktəbinin ən əsas sütunudur və ən böyük nüfuza malik olan siyasi qüvvədir.Azərbaycan dövlətinin hazırkı uğurları müasir Azərbaycan dövlətinin banisi hesab olunan ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilərək həyata keçirilmiş məqsədyönlü islahatlarla bağlıdır. Məhz bu islahatlar hesabına Azərbaycanda bazar münasibətlərinə dayanan bütün sosial yönümlü iqtisadiyyatın inkişafına nail olunmaqla, ölkə əhalisinin həyat səviyyəsi yüksəldilmişdir. Müstəqilliyin ilkin illərində yaranmış iqtisadi tənəzzülün, vətəndaş müharibəsinin, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin qarşısının alınması, dövlətçilik ənənələrinin və ümumi sabitliyin bərpası məqsədilə Heydər Əliyevin həyata keçirdiyi qətiyyətli addımlar çox qısa müddət ərzində hər bir vətəndaşın həyatına öz müsbət təsirini əks etdirmişdir.

“1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dövlətçiliyin ideoloji əsasları qoyuldu və bu gün də ölkəmizin əsas ideoloji şüarı Azərbaycançılıq məfkurəsidir.

Ölkənin bütün sosial-iqtisadi inkişafının təmini ilə əlaqədar icra edilmiş əsas işlərdən biri və bu gün nəinki Azərbaycanda, eləcə də dünyada neft strategiyasının və siyasətinin formalaşdırılmasında xüsusi önəm daşıyan “Əsrin müqaviləsi”nin imzalanması olmuşdur.İlk dəfə 8 ölkəni əhatə edən bu müqavilə növbəti illərdə artaraq 19 ölkəni təmsil etməklə 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açmışdır. Bağlanmış bu müqavilələr hesabına ölkənin neft sektoru sürətlə inkişaf etdirilmiş, ölkəyə daxil olan vəsaitlər hesabına qeyri-neft sektorunun inkişafına və əhalinin sosial problemlərinin həllinə nail olunmuşdur.

İqtisadi azadlıq və eləcədə sosial yönümlü ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, inkişaf etdirmək, o cümlədən bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüsünü inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, əlavə olaraq ərzaq təminatına nail olmaq və nəticə etibarı ilə Azərbaycan xalqının maddi rifahını yüksəltmək məqsədilə Müstəqil Dövlətlər Birliyiməkanında ilk dəfə olaraq torpaq islahatı həyata keçirilmişdir.

“Əsrin müqaviləsi” üzrə uğurla həyata keçirilmiş işlərdən sonra 1997-ci ilin noyabr ayında “Çıraq” yatağının ilk quyusundan, sonrakı illərdə “Mərkəzi Azəri” yatağından neft, “Şahdəniz” və “Günəşli” yataqlarından qaz hasil olunmuş, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz qaz nəticəsində Azərbaycan nəinki öz enerji təhlükəsizliyini təmin etmiş, regionun, hətta kəməri istismara verilmiş və ölkəmiz neftlə yanaşı, qazın da ixracatçısına çevrilmişdir. Bunlarla yanaşı, elektroenergetika sahəsinin də inkişafı ilə bağlı icra olunmuş nəhəng layihələr Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində aparıcı tərəfdaşa çevrilmişdir.

Heydər Əliyev həyatı boyu qurucusu olduğu Azərbaycanın tarixi məsuliyyətini öz öhdəliyinə

götürməklə çiyinlərində daşımış, onu bir dövlət, xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan Dövlətininişıqlı sabahının etibarlı bünövrəsini qoymuşdur. Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra ölkəmizin ictimai həyatında və dövlət quruculuğu sahəsində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş köklü islahatlar nəticəsində dövlətimiz beynəlxalq aləmin bərabərhüquqlu üzvünə çevrilmişdir.

Göründüyü kimi, Heydər Əliyevin strateji inkişaf kursunun real bəhrələrini hər bir Azərbaycan vətəndaşı, rifah halının günbəgün yaxşılaşmasında görür və ölkəmizin daha da inkişaf edəcəyinə qətiyyən şübhə etmir. Çünki bunun üçün möhkəm iqtisadi bazanı ümummilli liderimiz artıq yaradıb və davamlı sosial-iqtisadi inkişaf kursunun Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi gələcəyə nikbinliklə baxmağa əsas verir. Bu gün xalqımız Heydər Əliyev siyasətinin uğurlarını gündəlik həyatında hiss edir, onunla yaşayır və onun irsindən faydalanır. Bu siyasətin icraçısı ulu öndərimizin alternativsiz siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olunması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rol və nüfuzunu artırır. Xalqımız qətiyyətlə inanır və görür ki, ölkəmizin sürətli, hərtərəfli və dinamik inkişafı Heydər Əliyev siyasi kursu və bu kursu inamla irəli aparan Prezident İlham Əliyevin düşünülmüş və yaradıcı fəaliyyəti ilə bağlıdır. İqtidarla xalq arasında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilmişdir.

Tarix zamanın sınaqlarında, dolaylarında yaranır. Zaman dəyişsə də tarix əbədidir. Qürur hissi ilə demək olar ki, bu dünyada yeni bir tarix yaradan dahi insan Heydər Əliyev də əbədidir, ölməzdir. Nə qədər bəşəriyyət var, Azərbaycan, azərbaycançılıq var, müdrik insanları qiymətləndirənlər var, Heydər Əliyev yaşayır və yaşayacaqdır.

## ƏDƏBİYYAT

1.Azərbaycan Respublikası Konstitusiyası. 12 noyabr 1995. Bakı, 2018, 96 s.
2. Əliyev H. Dövlət xalq üçündür. Bakı: Adiloğlu, 2008.
3. Əliyev H. Müstəqillik əbədidir: 2 cilddə. Bakı: Şərq Qərb, 2013, 632 s.
4. Heydər Əliyev: Biblioqrafik kitabı. Bakı, 2003, 224 s.
5. Heydər Əliyev və qanunçuluq. Bakı: Adiloğlu, 2008, 432 s.
6. Əliyev H. Müstəqillik yolu. Bakı, 1997, 136 s.

***Naxçıvan Dövlət Universiteti***

**Tofig Husseinov, Gahraman Behbudov**

## POLITICAL ACTIVITY OF THE NATIONAL LEADER HEYDAR ALIYEV

The life and political activities of Heydar Alirza oglu Aliyev, a genius leader who had invaluable services in the establishment and development of the national statehood traditions of our country, occupy an unexampled place in our modern history.

Heydar Aliyev is one of the leading historical figures in the world due to his high human qualities, excellent state management skills, and culture of service to the people.

Today, the establishment of the independent state of Azerbaijan as a powerful country is connected with the name of the genius Heydar Aliyev.

It can be noted with a sense of pride that Heydar Aliyev, who conquered the peak of eternal life in the heart of every citizen, left a strong Azerbaijan with rich material and moral values, standing on politically and economically reliable pillars, as a trust.

**Keywords:** *eternity, establishment, potential, progress, bigoted, globalized, concept, unexampled, political course.*

**Тофик Гусейнов, Гахраман Бехбудов**

## ПОЛИТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

Жизнь и политическая деятельность Гейдара Алирза оглы Алиева, гениального руководителя, оказавшего неоценимую помощь в становлении и развитии традиций национальной государственности нашей страны, занимает беспримерное место в нашей новейшей истории.

Благодаря своим высоким человеческим качествам, отличным навыкам государственного управления, культуре служения народу Гейдар Алиев является одной из ведущих исторических личностей в мире.

Сегодня становление независимого Азербайджанского государства как могущественной страны связано с именем гениального Гейдара Алиева.

Можно с чувством гордости отметить, что Гейдар Алиев, покоривший вершину вечной жизни в сердце каждого гражданина, оставил сильный Азербайджан с богатыми материальными и нравственными ценностями, стоящий на политически и экономически надежных опорах.

**Ключевые слова:** *бессмертие, становление, потенциал, прогресс, приверженец, глобализирующийся, концепция, уникальный, политический курс.*

**ŞAMXAL MƏMMƏDOV**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN QURTULUŞU

*Bu günlərdə Azərbaycan xalqı öz böyük oğlu, dahi rəhbəri və xilaskarı olan Heydər Əliyevin 100 illik yubileyini qeyd edəcəkdir. Azərbaycan xalqını sevən, Heydər Əliyev şəxsiyyətinə hörmətlə yanaşan, Heydər Əliyev zirvəsinə baş əyən hər kəs həmin gün bu dahi insanı hörmətlə yad edəcək. Çünki, bütün zamanlar üçün ümummilli lider zirvəsinə qalxmış şəxsiyyətlər yalnız bir xalqın yox, bütün bəşəriyyətin sərvətidir. Adı zəmanəmizin dövlətçilik və siyasət tarixinə əbədi yazılmış, bütün bəşəriyyət qarşısında xidmətləri olan Heydər Əliyev belə bir insandır.*

*Müstəqil Azərbaycan ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.*

**Açar sözlər:** *ümummilli lider, qurtuluş, siyasi lider, dövlət xadimi, Azərbaycan xalqı.*

XX əsrin II yarısı-XXI əsrin əvvəlləri Azərbaycan tarixinin ən görkəmli siması ulu öndər Heydər Əliyevdir. Azərbaycanın tarixinə Heydər Əliyev görkəmli siyasi və dövlət xadimi, azərbaycanlıların ümummilli lideri, XX əsrdə yenidən müstəqillik qazanmış Azərbaycanın dövlətçiliyini və müstəqilliyini qoruyub-saxlamış dövlət başçısı kimi daxil olmuşdur. Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərinin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları yadda qalmış və unudulmamışlar. Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin xüsusi rolu vardır. Çünki dövlət xadimlərindən ancaq bu dahi şəxsiyyət milli lider səviyyəsinə yüksəlmişdir. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Ulu öndər bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir. Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük Azərbaycanlı idi. Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Liderlər var ki, siyasi fəaliyyət, dövlət idarəetməsi sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Elə insanlar da var ki, bu, onlarda fitrən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə, ilahi vergidir. Buna Allahdan lider deyirlər. Heydər Əliyev məhz ikincilərdəndir. Digər vacib məqam səlahiyyət məsələsidir. Heydər Əliyev tək Azərbaycan səviyyəsində deyil, keçmiş İttifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri, urvatı olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu iki məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən professional cizgilərdəndir. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi.

Ulu öndəri xarizmatik lider, fenomenal şəxsiyyət adlandırırlar. Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, diqqət və başqa cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi.

Heydər Əliyev xalqını sonsuz məhəbbətlə sevmiş, xalq da onun sevgisini daim uca tutmuşdur. Məhz xalqına bu məhəbbət dünya şöhrətli siyasi xadimi yenidən öz ana vətəni Azərbaycana ikinci dəfə ölkə rəhbərliyinə qaytarmışdır.

1993-cü ilin kəşməkəşli iyun günlərində xalqın təkidli tələbi və xahişi ilə yenidən hakimiyyətə qayıdan böyük və bənzərsiz şəxsiyyət Heydər Əliyev xalqın başının üstünü almış bütün bəlalardan millətini hifz edib qorudu, respublikada ictimai-siyasi sabitliyi təmin etdi, vətəndaş qarşıdurmasını

aradan qaldırdı, ölkəni parçalanmaq təhlükəsindən xilas etməklə, milli qurtuluşu təmin etdi. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Onun Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun olaraq müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətin xarici siyasəti, o cümlədən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xəttə inkişaf etməyə başlandı. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda, hətta bədxahlarımız tərəfindən də etiraf edilən uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından çox əhəmiyyətli idi. Bu illərdə milli ordu quruculuğunda ciddi dəyişikliklərə başlandı. Təcavüzkar erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks-zərbələr endirildi və 1994- cü ilin mayında Ermənistan-Azərbaycan münaqişəsinin həllində ilkin mərhələ kimi cəbhə xəttində atəşkəs elan olunmasına nail olundu.

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibət əsaslı surətdə dəyişdi. 1996-cı ildə keçirilmiş ATƏT-in Lissabon sammitində bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın milli mənafelərinə uyğun prinsiplərini açıq şəkildə müdafiə etdi.

Heydər Əliyev Azərbaycanın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyindən çıxış edərək ölkənin milli mənafelərinə uyğun olan irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib-hazırlanması və həyata keçirilməsi sahəsində çox gərgin fəaliyyət göstərdi. 1994-cü ilin sentyabrında Bakıda "Əsrin müqaviləsi" adını almış neft müqaviləsi bağlandı. Bu və digər müqavilələr, ölkənin iqtisadi sistemini canlandıracaq güclü maliyyə kanalı olmaqla bərabər, çox mühüm siyasi məna kəsb edir və Azərbaycanın beynəlxalq aləmdə rolunu gücləndirən amil funksiyası daşıyır. Azərbaycan neftini dünya bazarlarına nəql edilməsi sahəsində də uğurlu addımlar atılmışdır. "Bakı-Supsa", "Bakı-Tbilisi-Ceyhan" neft boru kəmərləri, "Bakı-Tbilisi- Ərzurum" qaz kəməri Heydər Əliyevin uzaqgörənliyi və siyasi iradəsinin rəmzlərindəndir.

Heydər Əliyev təşəbbüsü ilə tarixi Böyük İpək yolunun bərpasına yönəlmiş beynəlxalq proqramın həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamaqdadır. Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın daxil olduğu GUAM birliyinin yaradılmasında və beləliklə, böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin müstəsna xidməti olmuşdur.

Heydər Əliyev demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsində ardıcıl siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi, çoxpartiyalılıq əsasında parlament seçkilərinin keçirilməsi, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, ölüm cəzasının ləğv olunması, "Bələdiyyə seçkiləri haqqında" qanunun və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dövləti insan hüquq və azadlıqları sahəsində, demək olar, bütün beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur. Əfvetmə təsisatının bərpa edilməsi, əfv fərmanları və amnistiya aktlarına əsasən minlərlə məhbus tam və ya qismən azad edilmiş, Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv kimi qəbul edilmişdir (2001).

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulması, torpaqlarımızın 20%-nin işğal olunması, 1 milyondan artıq soydaşımızın didərgin salınması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində çox gərgin və genişmiqyaslı iş görülmüşdür. Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirmiş, bu yolda ardıcıl mübarizə aparmış, problemin sülh yolu ilə həlli baş tutmadıqda isə torpaqlarımızın silahla azad olunacağını əzmlə bəyan etmişdir.

Heydər Əliyev türk dövlətləri arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir. Xarici səfərlər zamanı Azərbaycan nümayəndələri ilə görüşləri, Azərbaycan diasporunun formalaşması və təşkilatlanması, onların azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi sahəsində Heydər Əliyev böyük işlər görmüşdür.

Müasir Azərbaycan tarixinin bütöv bir epoxası, önəmli bir mərhələsi ümummilli liderimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Müstəqil ölkəmizin bugünkü uğurları Heydər Əliyev strategiyasının təntənəsidir. Azərbaycan bu gün hərtərəfli və dinamik inkişaf yolundadır, həyatımızın bütün sahələrində yüksəliş, tərəqqi var. Bu gün ölkəmizdə davam edən geniş quruculuq işləri Heydər Əliyev zəkasının bəhrəsidir. Azərbaycanın tarixinə qurucu və xilaskar kimi daxil olmuş ulu öndərimiz xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətlər göstərmişdir. Bütün varlığı ilə vətənə və xalqa candan bağlı olan böyük şəxsiyyət və dövlət xadimi Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr etmişdir. Azərbaycanın bugünkü sürətli və irimiqyaslı inkişafının təməlini Heydər Əliyev yaradıb. Biz bu gün onun yaratdığı fundamental təməl üzərində ucalır, dünyanın inkişaf etmiş ölkələri sırasına çıxırıq.

Ümummilli liderimiz Heydər Əliyevin xalqımız qarşısında ən böyük və tarixi xidmətlərindən biri də ondan ibarətdir ki, o, sürətli inkişaf yoluna qədəm qoymuş Azərbaycanı cəsarətlə idarə etməyə qadir olan layiqli davamçı hazırlamışdır.

Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Bu siyasətin icraçısı ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial- iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və onun ətrafında daha da sıx birləşirlər. Cənab İlham Əliyev ulu öndərin siyasi kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rolunu və nüfuzunu artırır.

Yüksək təfəkkür, zəngin dövlətçilik və idarəçilik təcrübəsi qazanmış, müasir düşüncəli, praqmatik lider İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inamla irəliləyir və ümummilli liderimizin siyasi xətti bu gün qloballaşan dünyanın tələbinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir. Azərbaycanın böyük siyasi və dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyev 2003-cü il dekabrın 12-də Klivlend (ABŞ) şəhərində müalicə olduğu zaman vəfat etmiş, Bakıda Fəxri xiyabanda dəfn olunmuşdur. Dahilik taleyin qismət etdiyi bütün məziyyətlərdən, bilik və qabiliyyətlərdən öz şəxsi məqsədləri üçün deyil, millət, xalq yolunda istifadə etməkdir. Heydər Əliyev də məhz belələrindəndir. Mənəvi zənginliklə dolu şərəfli həyat yolunda bütün mənalı ömrünü xalqın, millətin inkişafına, tərəqqisinə həsr edən bu dahi şəxsiyyət xalqın qəlbində əbədi olaraq ölməzlik zirvəsinə ucaldı.

Ümummilli lider Heydər Əliyevi dünyanı dəyişmiş insanlar cərgəsinə aid etmək olar. Müasirləri onun gördüyü işləri hələ layiqincə dəyərləndirməyiblər: onun yer üzünə nə üçün gəldiyini və kim tərəfindən göndərildiyini tam dərk edə bilmək üçün hələ olduqca az vaxt keçib. XX əsr və XXI əsrin başlanğıcının görkəmli siyasətçilərindən və dövlət xadimlərindən biri olan Heydər Əliyevin ibrətamiz həyatı və heyrətamiz siyasi fəaliyyəti gələcək yüzilliklərdə hələ neçə-neçə siyasət adamına istiqamət verəcəkdir. Heydər Əliyev qürur hissi ilə deyərdi: "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam...". Bu gün Azərbaycan xalqı fəxr edir ki, onun Heydər Əliyev kimi bir övladı var. Qəlbi həmişə Azərbaycanla döyünən Heydər Əliyevin parlaq xatirəsi daim anılacaq və seviləcəkdir.

**ƏDƏBİYYAT**

1. "Azərbaycan" qəz., 2002, 31 iyul.
2. Azərbaycan tarixi: 7 cilddə. VII c., Bakı: Elm, 2008, 608 s.

3. Hacıyev İ. Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan: Əcəmi, 2013, 296 s.
4. Heydər Əliyev dünyanın gözü ilə. Bakı: Təhsil, 2003, 148 s.
5. Heydər Əliyev. Müdrik fikirlər. Birinci kitab, Bakı: Çaşoğlu, 2008, 399 s.
6. Əliyev H. Müstəqillik yolu: Seçilmiş fikirlər. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1997, 136 s.
7. Qayıdış (1990-1993). Bakı: Azərbaycan, 2008, 840 s.
8. Məmmədov Ş. Heydər Əliyevin dövlətçilik və hüquq təlimi. Bakı: Elm və təhsil, 2014, 77 s.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: shamkhal.mammadov@gmail.com***

**Shamkhal Mammadov**

## THE NATIONAL LEADER HEYDAR ALIYEV AND THE SALVATION OF AZERBAIJAN

In these days, the people of Azerbaijan will celebrate the 100th anniversary of Heydar Aliyev, their greatest son, genius leader and savior. Everyone who loves the people of Azerbaijan, respects Heydar Aliyev's personality and bows to the peak of Heydar Aliyev, will remember this genius person with respect on that day. Because personalities who have risen to the top of national leaders for all time are not only the wealth of one nation, but of all mankind. Heydar Aliyev, whose name written forever in the history of statehood and politics of our time, and who has services to all mankind, is such a person.

Independent Azerbaijan is the legacy of the Great Leader to the present and future generations, and his rich and varied heritage is the national wealth of our people. Preserving this sacred heritage is the honorable duty of every Azerbaijanian.

**Keywords:** *national leader, liberation, political leader, statesman, Azerbaijani people.*

**Шамхал Мамедов**

## ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И ОСВОБОЖДЕНИЕ АЗЕРБАЙДЖАНА

В эти дни азербайджанский народ будет отмечать 100-летие Гейдара Алиева, своего великого сына, гениального лидера и спасителя. Все, кто любит азербайджанский народ, уважает личность Гейдара Алиева, преклоняется перед высотой Гейдара Алиева, в этот день почтит память этого гения. Ведь личности, поднявшиеся на вершину национального лидера, во все времена являлись богатством не только нации, но и всего человечества. Таким человеком является Гейдар Алиев, чье имя навсегда вписано в историю государственности и политики нашего времени, оказавший услуги всему человечеству.

Заветы великого лидера независимого Азербайджана нынешнему и будущим поколениям, его богатое и разнообразное наследие является национальным достоянием нашего народа. Сохранение этого священного наследия является почетным долгом каждого азербайджанца.

**Ключевые слова:** *общенациональный лидер, освобождение, политический деятель, государственный деятель, азербайджанский народ.*

ÜLVİYYƏ İSGƏNDƏROVA[1], NAİLƏ ƏLİYEVA[2]

# AZƏRBAYCAN TƏBİƏTİNİN MÜHAFİZƏSİNDƏ HEYDƏR ƏLİYEV SİYASƏTİNİN ROLU

*Məqalədə Azərbaycanın siyasi xadimi, ümummilli lider Heydər Əlirza oğlu Əliyevin Azərbaycan təbiətinə qayğısı, ekoloji problemlər və onların aradan qaldırılması istiqamətində görülən işlərdə apardığı siyasətdən bəhs olunur. Ağıllı, cəsarətli, uzaqgörən, müdrik siyasət aparan siyasi lider Heydər Əliyev dövlətini və millətini zamanın çətin sınaqlarından çıxararaq ölkənin gələcək inkişafını təmin etmişdir. Ulu öndər Azərbaycanın ekoloji problemlərinin həllini, unikal təbiət abidələrinin qorunub saxlanılmasını hər zaman diqqət mərkəzində saxlamış, ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunması məsələlərinə qayğı ilə yanaşmışdır. Azərbaycana rəhbərlik etdiyi 1969-1982 və 1993-2003-cü illərdə ekologiya və ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə sahəsində mühüm qanunlar və qərarlar qəbul etmişdir.Bu illərdə iri çay hövzələrinin yaradılması, torpaqlardan şoranlaşmadan təmizlənməsi üçün drenaj sisteminin tikilməsi, geniş meşə zolaqlarının salınması, yasaqlıqların yaradılması, Abşeron zonasında və Gəncədə meşə massivlərinin salınması, şəhər və rayonlarımızda nəhəng sutəmizləyici qurğuların, dəryaçaların inşa edilməsi kimi mühüm işlər görülmüşdür.Həmçinin təbiətin mühafizəsi məqsədilə müxtəlif idarə və təşkilatlar yaradılmış, tədbirlər təşkil olunmuş, radio və televiziya proqramları fəaliyyət göstərmişdir. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə ekologiya, təbiətin mühafizəsi və təbii ehtiyatdan səmərəli istifadəyə dair 8 qanun və Azərbaycan KP MK-nin, Nazirlər Sovetinin 32 qərarı olmuşdur. Qəbul edilmiş ekoloji qərarlar, qanunlar, sərəncamlar ölkəmizin təbiətinin sağlamlığına yönəlmişdir.Heydər Əliyevin rəhbərliyi ilə bir çox Beynəlxalq konvensiyalar ratifikasiya olunmuşdur.*

**Açar sözlər:** *ekologiya, təbiəti mühafizə, qoruqlar, yasaqlıqlar, qanunlar.*

**Giriş.** Təbiətlə canlılar arasındakı qarşılıqlı münasibətləri öyrənən elm olan ekologiya xalq təsərrüfatının inkişafına xidmət edir. Ekologiyanın qlobal problemləri dünyada ümumxalq işi kimi həll edilir. Bu problemin həllində Azərbaycan Respublikası da başlıca yer tutur. Azərbaycanda ekologiya anlayışı keçən əsrin 50-ci illərindən sonra xalqın təfəkkürünə daxil olmuşdur. İnsanların təbiətdən kortəbii istifadəsi nəticəsində ekoloji problemlər kəskinləşmişdir. Lakin tarixi faktlar göstərir ki, 4 iyul 1969-cu ildə Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nin birinci katibi seçildikdən sonra digər sahələrdə olduğu kimi təbiəti mühafizə sahəsinə də diqqət artırılmışdır.

**Təhlil və müzakirə.** “Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir” – ümummilli lider Heydər Əliyev.

Hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanda yeni ictimai şüurun inhisar tapmasına nail olan ulu öndər, eyni zamanda respublikada yeni ekoloji düşüncəsinin formalaşmasına zəmin yaratmışdır. Şirvan, Pirqulu, eləcə də Talış dağlarının yuxarı zonalarında, İsmayıllı meşələrində, Laçın, Qubadlı rayonları ərazisində yaradılmış dövlət qoruqları, Tərtərçay, Ağstafaçay dəryaçaları, Araz su qovşağı, Kür su kəməri, Arpaçay su anbarı, Xəzər dənizi problemlərinin öyrənilməsi istiqamətində görülən tədbirlər bir-birindən vacib idi. Hazırda fəaliyyət göstərən, bəzən təkmilləşdirilən və ya sahələri artırılan Şirvan, Bəsitçay, Qarayazı, Ağgöl, İsmayıllı, İlisu, Altıağac dövlət qoruqları, Abşeron, Zuvand, Ordubad və Qubadlı yasaqlıqları Heydər Əliyev rəhbərliyə gəldikdən sonra yaradılmışdır. Heydər Əliyevin qətiyyəti sayəsində Ələt yaxınlığında atom elektrik stansiyasının inşası dayandırıldı. Təbiəti mühafizə işlərini daha da yaxşılaşdırmaq üçün Naxçıvan MR Təbiəti Mühafizə Müfəttişliyi təşkil edilmiş, daha sonra isə Azərbaycan SSR Nazirlər Sovetinin 18 oktyabr 1969-cu il qərarı ilə Muxtar Respublikanın Culfa və Ordubad rayonları ərazisində dağ qoyunu (muflon) və bezoar keçilərini qorumaq üçün 40 min hektar sahəni əhatə edən Ordubad yasaqlığı yaradılaraq, həmin sahədə ov edilməsi qadağan olunmuşdur [1, s. 25].

Ulu öndərin hakimiyyəti illərində Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutunda “Təbiəti mühafizə” şöbəsi açıldı və o şöbəyə institutun direktoru akademik Həsən Əliyev şəxsən özü rəhbərlik etdi. Müxtəlif nazirliklərin nəzdində olan “Təbiəti mühafizə” idarəsi Heydər Əliyevin dəstəyi ilə Dövlət Ekologiya Komitəsi səviyyəsinə qaldırıldı. Həsən Əliyevin təklifi və Heydər Əliyevin dəstəyi ilə Bakı Dövlət Universitetində “Ətraf mühitin mühafizəsi” kafedrası açıldı. Coğrafiya və Kimya fakültələrində “Təbiətin mühafizəsi”, Biologiya fakültəsində “Ekologiyanın əsasları”, “Tətbiqi

ekologiya", hüquq fakültəsində "Ekoloji hüquq", texniki ali məktəblərdə "Sənaye ekologiyası", Kənd Təsərrüfatı Akademiyasında "Kənd təsərrüfatı ekologiyası", Tibb Universitetində "İnsan ekologiyası" və s. fənləri tədris olunmağa başlanıldı. Bu dövrdə ekologiyanın həyata tətbiqi məqsədi ilə Heydər Əliyevin dəstəyi nəticəsində "Yaşıl patrul", "Mavi patrul", "Təmizlik ayı", "Çiçək mövsümü", "Məhsul ayı", "Quş günü" və s. kimi ictimai tədbirlər müntəzəm həyata keçirilir, "İnsan və təbiət", "İnsan və ətraf mühit", "Təbiəti sevənlər" radio və televiziya proqramları fəaliyyət göstərirdi.

1969-1982-ci illərdə isə torpaqların eroziyadan qorunması barədə həyata keçirilən tədbirlər, Ceyranbatan gölünün su təchizatı ilə bağlı işlər, Arpaçay tikintisi, Şamxor SES-in tikintisi, müasir su qurğularının yaradılması, su kəmərlərinin çəkilməsi, meliorasiya tədbirləri, suvarma şəbəkəsinin genişləndirilməsi, parkların salınması işləri həyata keçirildi. Ulu öndərimiz tərəfindən yaşıllaşdırma ümumxalq işi elan olundu. Heydər Əliyevin bilavasitə göstərişi əsasında respublikamızda meşə-bərpa tədbirləri intensiv sürətdə həyata keçirilmişdir. Belə ki, 1969-1982-ci illərdə dövlət meşə fondu torpaqlarında 51 min hektar sahədə yeni meşəliklər salınmışdır. İri şəhərlərin, xüsusən Bakının yaşıllaşdırılması işi planauyğun olaraq başlanıldı. Heydər Əliyev deyirdi: "1970-ci ildə mən ilk dəfə Bakıda yaşıllıq işlərinin aparılması təklifini irəli sürdüm, böyük bir proqram hazırladıq və Bakını sürətlə, ilbəil yaşıllaşdırmağa başladıq. Mən bunlar üçün fəxr edirəm. Ancaq bunların arasında ən çox fəxr etdiyim odur ki, mən Bakının geniş mənada yaşıllaşdırmasının bünövrəsini qoymuşam". Həmin dövrdə "Bakı ən yaşıl şəhər olmalıdır!" devizi irəli sürülmüşdür [1, s. 26-27]. Bakı şəhərinin içməli suya artan tələbatını nəzərə alaraq o dövrdə bir çox layihələr hazırlanılmış, lakin kəmərin Kür çayından çəkilişi üstünlük qazanmışdır. İşin dövlət əhəmiyyətini nəzərə alaraq 04 iyun 1970-ci il tarixdə "Kür su kəmərinin çəkilişi ümumxalq tikintisi elan edilsin" qərarı qəbul edilmişdir. 30 ayda görülməli olan iş təqribən dörd ayda yerinə yetirilmiş və 15 sentyabr 1970-ci il tarixdə dəqiq müəyyən edilmiş vaxtda Kür su kəmərinin birinci növbəsi kompleksinin tikintisi başa çatdırılmışdır.

7 iyul 1970-ci ildə "Azərbaycan SSR-də Su Məcəlləsinin təsdiqi", 29 iyun 1972-ci ildə "Azərbaycan SSR-də Torpaq Məcəlləsinin təsdiqi", 2 oktyabr 1977-ci il tarixdə "Dövlət Torpaq Məcəlləsinin təsdiqi" və "Torpaqların külək və su eroziyasından qorunmasının təxirəsalınmaz tədbirləri" haqqında Azərbaycan Respublikasının Nazirlər Sovetinin Qərarları olmuşdur [2].

1989-1997-ci illərdə respublikada 45 min hektar sahədə bərpa işləri aparılmışdır. Bundan başqa 1969-1982-ci illərdə respublikada eroziyaya məruz qalaraq kənd təsərrüfatı istifadəsindən çıxmış yararsız torpaqlarda və Xəzərsahili qumluqlarda 68,1 min hektar sahədə qoruyucu meşə zolaqları salınmışdır. 1971-1975-ci illərdə Azərbaycanda 30 min hektar yeni suvarılan torpaq istismara verilmiş, Kür-Araz ovalığında 280 min hektar sahədə torpaqların yayılması, 200 min hektar sahədə suvarma şəbəkələrinin yenidən quraşdırılması və su təchizatın yaxşılaşdırılması, 150 min hektar sahədə hamarlama işlərinin aparılması, 400 min hektar sahədə otlaq və su çıxarılması qarşıya bir vəzifə kimi qoyulmuşdur. Bu illər ərzində 270 min hektar yeni suvarılan sahələrin istifadəyə verilməsi nəticəsində ümumi suvarılan sahələr 1450 milyon hektara çatdırılmış, 550 min hektar sahədə kompleks meliorasiya sistemləri yaradılmışdır. Qarşıya qoyulan vəzifə müvəffəqiyyətlə həll edilmiş, 754 min hektar suvarılan sahədə əsaslı yuma işləri və 400 min hektar sahədə əsaslı hamarlama işləri aparılmışdır [1, s. 28].

Respublika hökumətinin 31 dekabr 1976-cı il tarixli (Protokol № 143) "Azərbaycan SSR-in məhv olmaq təhlükəsi altında olan bitki və heyvan növlərinin qorunması haqqında" qərarında respublikada və o cümlədən Naxçıvan MR-də məhv olmaq təhlükəsi altında olan bitki və heyvan növlərinin dəqiqləşdirilməsi, onların qorunma yollarının müəyyənləşdirilməsi göstərilmiş, Elmlər Akademiyası İnstitutları və digər təbiəti mühafizə təşkilatları bu növlərin siyahısını hazırlamışdır. Azərbaycan SSR Nazirlər Sovetinin 25 iyul 1977-ci il tarixli (Protokol № 253) "Azərbaycan SSR-in məhv olmaq təhlükəsi altında olan bitki və heyvan növlərinin "Qırmızı Kitab"ının təsdiqi" haqqında qərar qəbul edilmiş və onun ayrıca xüsusi kitab şəklində çap olunması tövsiyə edilmişdir. Azərbaycan SSR-in "Qırmızı Kitab"ı Azərbaycan SSR Dövlət Təbiəti Mühafizə Komitəsi və müvafiq təşkilatların birgə iştirakı ilə tərtib olunaraq sonralar çapdan çıxmışdır. "Qırmızı Kitab"a 14 növ məməli (3 növ yarasa, 7 növ yırtıcı və 4 növ dırnaqlı); 36 növ quş; 13 növ suda-quruda yaşayan və sürünən; 5 növ balıq; 40 növ onurğasız və 140 növ bitki daxil edilmişdir [3].

Azərbaycan Respublikasının Ali Sovetinin qərarı ilə 24 iyun 1993-cü ildə Azərbaycan Prezidentinin səlahiyyətləri Heydər Əliyevə verildi. Ümummilli liderin ikinci dəfə ölkə rəhbərliyinə qayıtması Azərbaycanda özbaşınalıq, hərbi sistemdə qarşıdurmalar siyasətlə həll edildi və ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı. Beləliklə, ölkədə ictimai-siyasi sabitliyin yaranması irimiqyaslı müqavilələrin bağlanmasına və iqtisadi durumun yüksəlməsinə şərait yaratdı.

Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadəyə dair qəbul olunmuş qanun və qərarlar müstəqillik əldə edildikdən sonra da davam etdirildi.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 13 fevral 1998-ci il tarixli 26 saylı qərarında "Yabanı dərman bitkiləri xammalının yığılması və xüsusi razılığın verilməsi qaydaları" təsdiq edilmişdir. Bu qərarın böyük iqtisadi əhəmiyyəti olunmuşdur. 3 mart 1998-ci ildə Azərbaycan Respublikasının Meşə Məcəlləsinin təsdiq edilməsi haqqında qanun qəbul edilmişdir.

4 iyun 1999-cu ildə "Heyvanlar aləmi haqqında" qanunu təsdiq edildi. Qanunda qorunan heyvanların sayının artırılması qarşıya məqsəd kimi qoyulmuşdur. "Ətraf mühitin mühafizəsi haqqında" 8 iyun 1999-cu ildə qəbul edilmiş Azərbaycan Respublikasının Qanununda təbiətin bütün sahələrinin, həmçinin bitki və heyvanlar aləminin qorunması məsələləri öz əksini tapmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu qaydalarının təsdiq edilməsi haqqında" 24 sentyabr 1999-cu il tarixli 152 saylı qərarı, sonra isə "Balıqçılıq və ovçuluq təsərrüfatlarının ehtiyacları üçün su obyektlərindən istifadə qaydalarının təsdiq edilməsi haqqında" 8 may 2000-ci il tarixli 82 saylı qərarı təsdiq edildi. "Naxçıvan MR-in Balıqçılıq Təsərrüfatı Birliyinin fəaliyyəti və onun işinin yaxşılaşdırılması yolları haqqında" Naxçıvan MR Ali Məclisinin 6 iyun 2000-ci il tarixli qərarında balıqçılıq təsərrüfatının güclü inkişaf etdirilməsi nəzərdə tutulmuşdur [3].

Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2000-ci il tarixli 366 saylı qərarı ilə "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" fərman imzalanmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 yanvar 2001-ci il tarixli 2 saylı qərarı ilə bu fərmandan irəli gələn məsələlərin yerinə yetirilməsi istiqamətləri göstərilmişdir.

"Azərbaycan Respublikasının Dövlət Təbiət və Biosfer Qoruqlarının ümumi əsasnaməsi" hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 4 iyul 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir. Prezidentin 23 may 2001-ci il tarixli 485 saylı fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən respublikanın xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişaf etdirilməsi, dövlət qoruqlarının genişləndirilməsi, yeni qoruqlar və milli parklar yaranması istiqamətində xüsusi komissiya fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ətraf mühitin mühafizəsi və ondan səmərəli istifadə edilməsi, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunub saxlanılması, respublikanın xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin inkişaf etdirilməsi məqsədi ilə Şahbuz Dövlət Təbiət Qoruğunun (3139 ha) və akademik Həsən Əliyev adına Ordubad Milli parkının (12131 ha) yaradılması haqqında 16 iyun 2003-cü il tarixdə sərəncam imzalamışdır [4].

Heydər Əliyevin rəhbərliyi ilə bir çox Beynəlxalq konvensiyalar ratifikasiya olunmuşdur. Onlardan bir neçəsi aşağıdakılardan ibarətdir:

– Paris şəhərində "Beynəlxalq mədəni və təbii irsin qorunması" keçirilən konvensiyası. Bu konvensiya Azərbaycan Respublikası tərəfindən 6 dekabr 1993-cü il tarixdə ratifikasiya olunmuşdur;

– 19 sentyabr 1979-cu il tarixli "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" konvensiya. Bu konvensiya Azərbaycan Respublikası tərəfindən 28 oktyabr 1994-cü il tarixdə qüvvəyə minibdir;

– Vyana şəhərində "Ozon qatının qorunması haqqında" keçirilən konvensiya Azərbaycan Respublikası tərəfindən 31 may 1996-cı il tarixdə ratifikasiya olunmuşdur;

– BMT tərəfindən Paris şəhərində 1994-cü il 17 iyun tarixdə "Ciddi quraqlıq və səhralaşma keçirən ölkələrdə, xüsusən Afrikada səhralaşma və ona qarşı mübarizə haqqında" keçirilən konvensiya. Bu konvensiya Azərbaycan Respublikası tərəfindən 24 aprel 1998-ci il tarixdə ratifikasiya olunmuşdur;

– Vaşinqton şəhərində 3 mart 1973-cü ildə "Məhv olmaq təhlükəsi altında olan vəhşi fauna və

flora növlərinin beynəlxalq ticarəti haqqında" keçirilən konvensiya Azərbaycan Respublikası tərəfindən 23 may 1998-ci il tarixdə ratifikasiya olunmuşdur;

– Danimarkanın Orxus şəhərində 25 iyun 1998-ci ildə "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında" keçirilən konvensiya Azərbaycan Respublikası tərəfindən 9 noyabr 1999-cu il tarixdə ratifikasiya olunmuşdur;

– Cənubi Afrikanın Keyptaun şəhərində 1999-cu ilin noyabr ayında "Afro-Avrasiya köç edən su-bataqlıq quşlarının qorunub saxlanılması haqqında" keçirilən konvensiya Azərbaycan Respublikası tərəfindən 9 noyabr 1999-cu il tarixdə ratifikasiya olunmuşdur;

– Helsinki şəhərində "Sərhədboyu su axınları və Beynəlxalq əhəmiyyətli göllərin qorunması və istifadəsi haqqında" keçirilən konvensiya Azərbaycan Respublikası tərəfindən 14 mart 2000-ci ildə ratifikasiya olunmuşdur;

– Rio-de Janeyro şəhərində 1992-ci ildə "Bioloji müxtəliflik haqqında" keçirilən konvensiya Azərbaycan Respublikası tərəfindən 14 mart 2000-ci il tarixdə ratifikasiya olunmuşdur;

– 6 dekabr 1951-ci ildə Roma şəhərində "Bitki mühafizəsi haqqında" keçirilən konvensiya Azərbaycan Respublikası tərəfindən 14 mart 2000-ci ildə ratifikasiya olunmuşdur;

– 11 dekabr 1997-ci il tarixdə Kioto şəhərində "BMT-nin iqlim dəyişmələri haqqında" keçirilən konvensiya Azərbaycan Respublikası tərəfindən 18 iyul 2000-ci il tarixində ratifikasiya olunmuşdur;

– İranın Ramsar şəhərində 2 fevral 1971-ci ildə "Su quşlarının yaşayış yeri kimi Beynəlxalq əhəmiyyət kəsb edən su-bataqlıq əraziləri haqqında" keçirilən konvensiya Azərbaycan Respublikası tərəfindən 18 iyul 2002-ci ildə ratifikasiya olunmuşdur [4]. Sadalanan bütün faktlar ulu öndər Heydər Əliyevin Azərbaycan təbiətinin mühafizəsində apardığı dərin siyasətin kiçik bir hissəsidir. Onun hesablanmış bütün addımları insanların təmiz hava, su, torpaq və təbiət guşələrinin qorunmasına xidmət etmişdir.

**Nəticə.** İctimai dövlət xadimi, xalqının xilaskarı, uzaqgörən lider Heydər Əliyev hakimiyyətdə olduğu 1969-1982 və 1993-2003-cü illərdə ekoloji siyasət onun çoxcəhətli fəaliyyətinin mühüm tərkib hissəsi olmuşdur. Heydər Əliyevin fəaliyyətində ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi məsələləri həmişə diqqət mərkəzində saxlanılmışdır. Ümummilli liderimizin respublikamıza rəhbərlik etdiyi dövrlərdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində mühüm qanunlar və qərarlar qəbul edilmiş, bu sahədə böyük dəyişikliklər müşahidə edilmişdir. Ekoloji sahədə görülən işlərin təhlili göstərir ki, ulu öndər Heydər Əliyevin o illərdəki fəaliyyətinin əsas məğzi təbiəti gələcək nəsillər üçün qoruyub saxlamaq, insanların mədəni səviyyəsini və həyat tərzini yüksəltmək olmuşdur.

## ƏDƏBİYYAT

1. Hüseynov B. Azərbaycan təbiəti: Dünən, bu gün, sabah. Bakı: Vətənoğlu NP MMC, 2015, 496 s.
2. İbrahimov T.O. Azərbaycanın qoruqları. Bakı: BDU, 2018, 156 s.
3. Talıbov T. Ümummilli lider Heydər Əliyev və Azərbaycan təbiəti (I hissə). "İki sahil" qəz., 2011, 10 iyun, s. 6.
4. Talıbov T. Ümummilli lider Heydər Əliyev və Azərbaycan təbiəti (II hissə). "İki sahil" qəz., 2011, 11 iyun, s. 10.
5. Şirinzadə Ş. Heydər Əliyev və Azərbaycan. "Respublika" qəz., 2013, 30 aprel, s. 7.

***[1]Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu,***
***E-mail: isgenderova.86@mail.ru[1]***
***[2]Naxçıvan Dövlət Universiteti,***
***E-mail: naileeliyeva280@gmail.com[2]***

**Ulvia Isgandarova, Naila Aliyeva**

## THE ROLE OF HEYDAR ALIYEV'S POLICY IN NATURE PROTECTION OF AZERBAIJAN

The article tells about the policy of the Azerbaijani politician, national leader Heydar Alirza oglu Aliyev regarding the care of Azerbaijani nature, environmental problems and the work being done to eliminate them. Smart, brave, far-sighted, wise political leader Heydar Aliyev led his state and nation out of the ordeal of time and ensured the further development of the country. The great leader has always paid attention to solving Azerbaijan's environmental problems, preserving unique natural monuments, taking care of improving the ecological situation, protecting the environment, and rational use of natural resources. In 1969-1982 and 1993-2003, Azerbaijan adopted important laws and regulations in the field of ecology and environmental protection and rational use of natural resources. During these years, such important works were carried out as the creation of large river basins, the construction of a drainage system for cleaning soils from salinization, the creation of wide forest strips, the creation of nature reserves, the creation of forests in the Absheron zone and Ganja, the construction of giant water treatment plants, rivers in our cities and districts. Also, to protect nature, various departments and organizations have been created, events have been organized, radio and television programs are operating. In 1969-1982, when Azerbaijan was headed by the great leader Heydar Aliyev, there were 8 laws on ecology, nature protection and rational use of natural resources and 32 Resolutions of the Central Committee of the CP of Azerbaijan, the Council of Ministers. The adopted environmental decisions, laws, orders are aimed at the health of the nature of our country. Many international conventions have been ratified under the leadership of Heydar Aliyev.

**Keywords:** *ecology, nature protection, nature reserves, environmentally sensitive areas, laws.*

**Ульвия Искендерова, Наиля Алиева**

## РОЛЬ ПОЛИТИКИ ГЕЙДАРА АЛИЕВА В ОХРАНЕ ПРИРОДЫ АЗЕРБАЙДЖАНА

В статье рассказывается о политике, проводимой политическим деятелем Азербайджана, общенациональным лидером Гейдаром Алирза оглы Алиевым в области заботы об азербайджанской природе, экологических проблемах и работе по их устранению. Умный, смелый, дальновидный, мудрый политический лидер Гейдар Алиев вывел свое государство и нацию из тяжелого испытания временем и обеспечил дальнейшее развитие страны. Великий лидер всегда уделял внимание решению экологических проблем Азербайджана, сохранению уникальных памятников природы, заботился об улучшении экологической обстановки, охране окружающей среды, рациональном использовании природных ресурсов. В 1969-1982 и 1993-2003 годах Азербайджаном были приняты важные законы и постановления в области экологии и охраны окружающей среды и рационального использования природных ресурсов. В эти годы были проведены такие важные работы, как создание крупных речных бассейнов, строительство дренажной системы для очистки почв от засоления, создание широких лесных полос, создание заказников, создание лесных массивов в Абшеронской зоне и Гяндже, строительство гигантских водоочистных сооружений, водохранилищ в наших городах и районах. Также в целях охраны природы созданы различные управления и организации, организованы мероприятия, действуют радио-и телевизионные программы. В 1969-1982 годах, когда Азербайджан возглавлял великий лидер Гейдар Алиев, было 8 законов об экологии, охране природы и рациональном использовании природных ресурсов и 32 Постановления ЦК КП Азербайджана, Совета Министров. Принятые экологические решения, законы, распоряжения направлены на оздоровление природы нашей страны. Под руководством Гейдара Алиева были ратифицированы многие международные конвенции.

**Ключевые слова:** *экология, охрана природы, заповедники, заказники, законы.*

# İ K İ N C İ B Ö L M Ə

## HEYDƏR ƏLİYEV VƏ BEYNƏLXALQ ALƏM

EMİN ŞIXƏLİYEV

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT FƏALİYYƏTİNDƏ QARABAĞ PROBLEMİNİN NİZAMLANMASI PROSESİ, SİYASİ KURSUN DAVAMI VƏ MÖVCUD VƏZİYYƏT

*Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli ulu öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir. Qalib sərkərdə İlham Əliyevin başçılığı altında Azərbaycanın əldə etdiyi bu qələbə ulu öndərin də arzularında olduğu kimi, bir gün mütləq Azərbaycanın digər tarixi torpaqlarına da qovuşacağımıza olan inamı daha da artırır.*

**Açar sözlər:** *ümummilli lider Heydər Əliyev, xarici siyasət, Qarabağ problemi, Vətən müharibəsi, mövcud vəziyyət.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" adlandırılması ulu öndərin çoxşaxəli irsinin öyrənilməsi baxımından olduqca önəmlidir. Bu ilin "Heydər Əliyev İli" kimi keçirilməsi respublikamızda müstəqil dövlətçilik düşüncəsinin, azərbaycançılıq ideallarının, vətənpərvərlik tərbiyəsinin daha da möhkəmləndirilməsinə özünün sanballı töhfələrini verəcəkdir. Məlum olduğu kimi, **Heydər Əliyev Azərbaycan dövlətçilik tarixinin tamamilə yeni bir mərhələsini yaratmış böyük siyasətçi və tarixi şəxsiyyət olmaqla yanaşı, eyni zamanda Azərbaycanın ümummilli ideologiyası kimi səciyyələndirilə biləcək azərbaycançılıq ideologiyasının da müəllifidir. Bu mənada "**Heydər Əliyev İli"ndə Böyük Öndər Heydər Əliyevin miras qoyduğu bütün digər dəyərlərlə bərabər həyat və fəaliyyətinin bütün istiqamətlərinin öyrənilməsi və təbliğ edilməsi aktual olacaq. Bu məqalədə Heydər Əliyevin xarici siyasət fəaliyyətində Qarabağ probleminin nizamlanması məsələsi, ortaya çıxan maneələr, ulu öndərin siyasi kursunu uğurla davam etdirən, Azərbaycanın həyatında yeni səhifə açan, bölgədə yeni reallıqların yaranmasının əsasını qoyan, "ata vəsiyyəti"ni yerinə yetirən qalib ölkənin lideri İlham Əliyevin fəaliyyəti araşdırılmışdır.

Qarabağ probleminin dinc vasitələrlə nizama salınması ümummilli lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Bu münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində tənzimlənməsi istiqamətində böyük öndərin misilsiz fəaliyyətinin görünən və görünməyən, bizə məlum olan və olmayan tərəflərini işıqlandırmaq, təhlil etmək üçün xüsusi bir tədqiqat məktəbinin yaradılmasına hələ də ehtiyac vardır. Müxtəlif dövlətlərin toqquşan maraqları arasında manevr edərək ölkənin işğal altında olan ərazilərinin anneksiyasının qarşısını almaq üçün yüksək iradə, əzmkarlıq və stabillik tələb olunurdu. Dağlıq Qarabağın hüquqi mənsubiyyətinin dəyişdirilərək, Ermənistana birləşdirilməsi prosesinin qarşısını almaq iqtidarında olan siyasi iradə və əzmkarlıq məhz yalnız Heydər Əliyev kimi liderə xas ola bilərdi.

1993-cü ilin yayında Azərbaycanda baş verən hakimiyyət dəyişikliyi onun xarici siyasət fəaliyyətinin də yeniləşməsinə və ölkənin strateji maraqları əsasında yenidən qurulmasına şərait yaratdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilk növbədə Azərbaycan ətrafında formalaşmış son dərəcə gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq, ölkənin strateji maraqlarını əks etdirən yetkin xarici siyasət konsepsiyası hazırlamaq zərurəti ilə üzləşdi.

Azərbaycan dövlətinin strateji maraqlarını beynəlxalq güc mərkəzlərinin, region dövlətlərinin

və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmaq üçün silsilə tədbirlər düşünülüb həyata keçirilməli, ölkənin mənafelərini qorumaq və reallaşdırmaq üçün hərtərəfli ölçülüb-biçilmiş addımlar atılmalı idi. Bu işin ən çətin tərəfi müxtəlif dövlətlərin bütövlükdə Qafqaz regionu və bilavasitə Azərbaycan Respublikası üzərində köklənmiş imperiya ambisiyaları, ərazi iddiaları, iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizəsinin reallıqlarını, onların kəsişən və toqquşan maraqlarını dəqiq müəyyənləşdirmək, çevik manevrlər və xüsusi faktiki gedişlərlə Azərbaycanın dövlətçilik mənafelərini maksimum qorumaq idi.

Heydər Əliyev Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsini birmənalı olaraq ölkənin xarici siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirdi. Münaqişənin aradan qaldırılması istiqamətində ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli və eləcə də çoxtərəfli görüşlərdə, beynəlxalq forumlarda, ATƏT-in zirvə toplantılarında, Minsk Qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə göstərdiyi ardıcıl səylər hər zaman Azərbaycan xalqının və dövlətinin maraqlarını hər şeydən uca tutması Heydər Əliyevin siyasətinin mühüm hissəsini təşkil edirdi.

Heydər Əliyevin təşəbbüsü ilə, onun qətiyyəti, əzmkarlığı və uzaqgörənliyi nəticəsində 1994-cü il may ayının 12-də Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında razılaşma imzalandı [19, s. 114-115]. Həqiqətən də Ermənistanla Azərbaycan arasında davam edən qanlı müharibənin dayandırılması Heydər Əliyevin böyük siyasi nailiyyətlərindən biri kimi xarakterizə oluna bilər. Bu tarixdə bütün cəbhələrdə elan olunmuş atəşkəs minlərlə azərbaycanlı gəncin həyatını ölümün pəncəsindən xilas etdi. Əldə olunmuş atəşkəs rejimi dinc şəraitdə həm quruculuq işini sürətləndirmək, həm də minlərlə günahsız insanın qarşısını almaqla münaqişəni diplomatik yolla həll etmək üçün əlverişli şərait yaratdı [17, s. 118].

Atəşkəs rejiminin tətbiq edilməsi "Bişkek protokolu"nda öz əksini tapmışdır. Yenə də Heydər Əliyevin iradəsi ilə tərəflərə təqdim edilən "Bişkek protokolu"nda Azərbaycanın xeyrinə bir sıra düzəlişlər edildi. Belə ki, Rusiyanın nəzarəti altında hazırlanan protokolda Azərbaycanın işğal edilmiş əraziləri sadəcə "tutulmuş ərazilər" kimi ifadə olunurdu. Azərbaycan tərəfi buna qarşı çıxaraq protokolun 5-ci abzasında "tutulmuş ərazilər" sözünün "işğal olunmuş ərazilər"lə əvəzlənməsinə nail oldu [19, s. 115]. Düzdür, bu ifadələr yaxın mənalı sözlər olsa da, torpaqlarımızın məhz zorakılıqla işğal olunduğunu sübuta yetirmək üçün "işğal olunmuş ərazilər" ifadəsi sənəddə öz əksini tapmışdır [6, s. 80]. Azərbaycan diplomatiyasının qələbəsi kimi qiymətləndirilə biləcək bu addım diplomatik yazışmalarda Azərbaycan tərəfinin sözünün qüdrətinə dəlalət edirdi.

Heydər Əliyev münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində dinc vasitələrlə həll edilməsi üçün diplomatik gücə malik olmağı ən vacib şərt hesab edirdi. Eyni zamanda bu münaqişənin Rusiyanın inhisarından çıxarılmasını da vacib hesab edən ulu öndərin gərgin əməyi nəticəsində 1994-cü il dekabrın 5-6-da ATƏM-in (bu sammitdən sonra ATƏT) Budapeştdə keçirilən zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq səviyyədə müzakirə olundu. Budapeşt sammitinin birinci mərhələsində Heydər Əliyev Avropanın və dünyanın nüfuzlu dövlət xadimləri ilə görüşərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünün mahiyyətini açıqlamış, ölkəmizin ərazi bütövlüyünü pozmaq hesabına Ermənistan dövlətinin xülyalarını beynəlxalq hüquq normalarına zidd siyasət saymışdır [17, s. 119].

Məlum olduğu kimi, problemin dinc vasitələrlə aradan qaldırılması məqsədi ilə 1992-ci ildə yaradılmış Minsk Qrupunun həmsədr institutu təsis edilmiş və Rusiya ilə bərabər Finlandiya da vasitəçi qismində münaqişənin tənzimlənməsi prosesinə cəlb edilmişdi. Heydər Əliyev diplomatik əzmkarlıq və siyasi iradə nümayiş etdirərək, Budapeşt zirvə toplantısında açıq bəyan etdi ki, Minsk Qrupuna bir sədrin rəhbərlik etməsi çətinlik yaradır. Bu baxımdan ona daha çox sədrin rəhbərlik etməsinə ehtiyac vardır [19, s. 115-116].

Beləliklə, məhz Azərbaycanın xarici siyasət konsepsiyasının banisi Heydər Əliyevin Budapeşt sammitindəki gərgin fəaliyyəti nəticəsində Dağlıq Qarabağ probleminin Rusiyanın müəyyən mənada inhisarından çıxarılması mümkün oldu. 1996-cı il dekabrın 2-3-də Lissabonda ATƏT dövlət və hökumət başçılarının zirvə toplantısı həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzim-

lənməsi baxımından, həm də Heydər Əliyevin diplomatik fəaliyyətinin qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. Lissabon sammitinin əhəmiyyəti həm də ondan ibarət idi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla, ümumilikdə Qafqazdakı vəziyyət yüksək səviyyədə geniş müzakirə olunmuşdur.

Lissabon sammitindən əvvəl Prezident Heydər Əliyev ATƏT-in üzvü olan dövlət başçılarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT prinsipləri, BMT nizamnaməsi və beynəlxalq hüququn qaydalarına uyğun həll prinsipləri haqqında məktublar göndərmiş, cavab məktublarında isə üzv dövlətlərin rəhbərləri Azərbaycanın mövqeyini dəstəklədiklərini bildirmişdilər.

Ümumiyyətlə, ulu öndər keçirilən hər bir rəsmi görüşdə və zirvə toplantılarında Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt yol verilməyəcəyini bəyan etmişdir. Yuxarıda da qeyd edildiyi kimi, Azərbaycan tərəfi konfliktin həllində “vasitəçilik inhisarı”nın bir dövlətin – konkret halda Rusiyanın əlində cəmləşməsini məqbul hesab etmirdi. Ona görə də qarşıda ilk növbədə ATƏT-də həmsədrlik məsələsi dururdu. Birinci həmsədr Fransa təyin olunmuşdur, lakin Heydər Əliyev bu namizədin Azərbaycan tərəfi ilə razılaşdırılmadığını əsas götürərək, haqlı olaraq buna qarşı çıxmışdı. Respublikanın Xarici İşlər Nazirliyi təşəbbüs göstərərək, Azərbaycan tərəfi üçün ABŞ-ın dövlət katibinin birinci müavini Strob Talbotun namizədliyinə üstünlük verdiyini bildirmişdir. Ermənistan tərəfindən olduqca soyuq qarşılanan üç sədrlik ideyası məhz belə yarandı. Son nəticədə 1997-ci il fevralın 10-da üç həmsədrlik real fakta çevrildikdən sonra konfliktin həlli yolunda diplomatik cəhdlər və səylər yeni vüsət aldı [16, s. 87-88].

Beləliklə, Rusiya, ABŞ və Fransadan ibarət həmsədr dövlətlərin hər biri öz regional maraqlarını rəhbər tutaraq, konfliktin həllinə kömək edəcəklərini bildirdilər. Qarabağ münaqişəsinin həlli məsələsinin böyük dövlətlərin Qafqazda qlobal mənafelərinin ziddiyyətlər yaratdığı şəraitdə maraqlar sistemində önəmli yer tutması regionda diplomatik mübarizənin müəyyən mənada hərəkətverici qüvvəsi kimi çıxış etməyə başladı.

24 oktyabr 1992-ci ildə qəbul edilən 907 saylı qərarın ləğvi məsələsi də Heydər Əliyevin xarici siyasətinin ən böyük qayğısına çevrilmişdi. Məlum olduğu kimi, 24 oktyabr 1992-ci ildə erməni lobbisinin də təsiri altında ABŞ Konqresi tərəfindən 907 saylı qərarla Azərbaycan guya Ermənistanı embarqoya məruz qoyması və hücum məqsədli güc istifadə etməsi ilə ittiham və bütün yardımlardan məhrum edilmişdi. Aparılan səylərə baxmayaraq, qəti bir nəticənin əldə edilməsi xeyli çətin idi. Lakin 2001-ci ilin aprel ayında Qarabağ probleminin həlli barəsində ABŞ-da gerçəkləşdirilən Ki-Uest görüşlərində Azərbaycan və ABŞ dövlət başçıları arasındakı danışıqlarda 907 saylı qərarın ləğvi ilə bağlı müzakirələr aparıldı. 11 sentyabr 2001-ci ildə ABŞ-da baş verən terror hadisəsindən sonra cərəyan edən hadisələr ABŞ administrasiyasına uzun müddətdən bəri adı çəkilən qərarla bağlı bəzi addımlar atmaq üçün fürsət yaratdı. “Beynəlxalq terrorizmə qarşı mübarizə” hərəkatını Azərbaycanın tam olaraq dəstəkləməsi ilə ABŞ terrorizmə qarşı əməliyyatlar çərçivəsində Azərbaycanla əməkdaşlıq edəcəyini bildirdi. Bu aspektdə Azərbaycana rəsmi kanallarla yardım edilməsi üçün 907 saylı qərarın ləğvi istiqamətində fəaliyyətlər aparıldı. Buş administrasiyası Konqresə məktubla müraciət edərək, bu qərarın ləğvi barəsində Prezidentə səlahiyyət verilməsini tələb etdi. 24 oktyabr 2001-ci ildə Senat, 14 noyabrda Konqresin iki qolu arasındakı Uzlaşma Komissiyası, 19 dekabrda isə Nümayəndələr Palatası ABŞ Prezidentinə səlahiyyət verilməsi ilə bağlı qərarı təsdiq etdi. Azərbaycan və ABŞ-ın dövlət başçıları arasında gerçəkləşən telefon danışıqlarında qəbul edilən qərarla bağlı məmnuniyyət və hər iki ölkənin sıx əməkdaşlıq içərisində ola biləcəkləri qeyd edildi [bu barədə ətraflı bax: 22, s. 207-211].

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, ölkənin beynəlxalq münasibətlər sistemində ciddi mövqe tutmasına, milli maraqlarının təmin olunmasına və ərazi bütövlüyünün bərpa edilməsinə hesablanmış Heydər Əliyev strategiyası günümüzdə onun davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Seçildiyi ilk günlərdən etibarən İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların gedişində daim Azərbaycan xalqının mənafeyini üstün tutmuşdur. 2003-cü il dekabrın 5-də ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona səfəri zamanı ölkə prezidenti İlham Əliyev həmsədrlər Y.Merzlyakov, R.Perinani və A.Jakalma bildirmişdi ki, ATƏT öz fəaliyyətini intensivləşdirməlidir [13, s. 15].

2004-cü il fevralın 4-də ATƏT-in PA sədrinin Dağlıq Qarabağ üzrə nümayəndəsi Qoran Lenmarkerin Azərbaycana səfəri zamanı dövlət başçısı İlham Əliyev, münaqişənin nizama salınması prosesində əsas vasitəçi olan ATƏT-in Minsk Qrupu ilə yanaşı, digər beynəlxalq qurumlar – ATƏT PA, Avropa Şurası və Avropa İttifaqının da fəaliyyətinin gücləndirilməsinin böyük əhəmiyyətə malik olduğunu bildirmişdir.

2004-cü il martın 16-da ATƏT-in o zamankı sədri, Bolqarıstanın Xarici İşlər naziri Solomon Passi ilə görüşündə isə İlham Əliyev ATƏT-in Minsk Qrupunun fəaliyyətini kəskin tənqid etdi [13, s. 16]. Məlum olduğu kimi, danışıqlar prosesinə ATƏT-n Minsk Qrupunun həmsədrləri olan Rusiya, ABŞ və Fransa nəzarət edirdi. Lakin münaqişənin həlli ilə bağlı onların hər birinin öz mövqeyi var idi ki, bu da danışıqlarda uğur əldə edilməsini çətinləşdirirdi.

Minsk Qrupunun həmsədr ölkələri istər əvvəllər, istərsə də günümüzdə qlobal güc mərkəzlərini təmsil edirlər. Həmin ölkələr istənilən təcavüzkara təzyiq etmək üçün geosiyasi nüfuza malikdirlər. Məsələ burasındadır ki, problem böyük dövlətlərin münaqişəni həll etmək bacarıqlarında yox, onların siyasi iradələrində idi. Minsk Qrupunda Dağlıq Qarabağ münaqişəsinin həllinə ciddi marağın olmamasının nəticəsi idi ki, qurum öz öhdəliklərini yerinə yetirmirdi. Bu da münaqişənin sülh yolu ilə həlli prosesində Minsk Qrupunun fəaliyyətinə mane olurdu.

Siyasi tarixdə "güclü dövlət" və onun təmsil etdiyi "böyük siyasət" reallığı vardır. Məhz bu amili əsas götürərək qeyd etmək olar ki, tarixən dövlətlər arasında sülhü qorumağı rəhbər tutan nizam və prinsiplər geosiyasət qarşısında həmişə məğlubiyyətə düçar olublar. Tarixin müəyyən dövrlərində güclü dövlətlərin müəyyənləşdirdiyi böyük siyasətlərlə geosiyasi maraqlar hər dəfə ön planda tutulmuş, dünya güc mərkəzləri arasında bölüşdürülməyə çalışılmış, yeni sərhədlər cızılmışdır. Beynəlxalq münasibətləri tənzimləyən sistem olmadığına görə, maraqlar yenidən toqquşmuş, hər bir dövlət öz üstünlüyünü nümayiş etdirməyə çalışmışdır. Günümüzdə də vəziyyət əvvəlkindən heç də fərqli deyil, əksinə, daha şiddətli və daha təhlükəlidir.

Günümüzdə beynəlxalq münasibətlər tarixində ilk dəfə bütün dünya xalqlarının bərabərliyi, dövlətlərin daxili işlərinə müdaxilənin yolverilməzliyi, münaqişəli məsələlərin dinc yolla həll edilməsi və s. prinsiplərə əsaslanaraq yaradılan bir qurum kimi BMT fəaliyyət göstərsə də, Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlərin özləri belə dünyanın istənilən ölkəsinə bu təşkilatın icazəsi olmadan belə istədiyi miqdarda hərbi qüvvə göndərə və orada müharibə çıxarmaq iqtidarında olduğunu nümayiş etdirə bilirlər. Əlbəttə ki, böyük güclərin bu istiqamətdə atdıqları addımlar liberal dəyərlərə uyğun olmayıb, əksinə, ölkələrin daxili işlərinə qarışılıb, insan haqları və dövlətlərin ərazi bütövlüyü kobud surətdə pozulub. Dünyanın bir çox ölkəsində ajitasiyaların, oyunların, iğtişaşların və müharibələrin sonu görünmür. Eyni vəziyyəti Cənubi Qafqazda da müşahidə etmək mümkündür. Heç təsadüfi deyildir ki, Gürcüstanın ərazi bütövlüyü pozulmuş, Ermənistan ilə Azərbaycan arasında problemlər yaşanmışdır. Ermənistan kimi bir dövlət bilavasitə özünü liberal və demokratik adlandıran böyük dövlətlərin aktiv dəstəyi və iştirakı ilə özündən qat-qat güclü olan Azərbaycan torpaqlarının 20%-ni işğal etmişdi.

BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxarılması ilə bağlı 1993-cü ildə qəbul etdiyi **822, 853, 874 və 884** saylı qətnamələrə baxmayaraq, Ermənistanın bu qətnamələrin heç birinə məhəl qoymadığı da qeyd olunmalıdır. Bu, BMT-nin nüfuzuna xələl gətirən ən böyük amillərdən biri kimi xarakterizə oluna bilər. Şübhəsiz ki, bu işğalda Rusiyanın böyük rol oynadığı hər kəs tərəfindən bilinməkdədir. Bununla yanaşı, Gürcüstan və Ukraynanın ərazi bütövlüyünün pozulmasında da Rusiyanın geosiyasi maraqları xüsusilə qeyd olunmalıdır.

Ümumiyyətlə, dünya siyasətindəki real vəziyyəti təhlil edərkən belə bir məqam ortaya çıxır: hansısa davranış supergüclərin xeyrinə və ya zərərinədirsə, onun beynəlxalq hüquqa uyğun olub-olmaması arxa plana keçir və həmin güclər özlərinə sərf edən müvafiq addımı atırlar. Yəni böyük güclər özlərini "istisna faktor" kimi görürlər.Təbii ki, belə yanaşma davam etdikcə, beynəlxalq ədalət və hüquqdan, dünya nizamından bəhs etmək mümkün görünmür. Məsələ burasındadır ki, reallıqda dünya nizamını beynəlxalq hüquq və institutlar deyil, əsas geosiyasi oyunçuların güc potensiallarının nisbəti müəyyənləşdirir. Geosiyasi maraqlara uyğun olaraq hazırlanan ssenarilər və ikili standartlar çərçi-

vəsində belə bir nəticə hasil olur ki, BMT Təhlükəsizlik Şurası münaqişələrin həllindən özünü uzaqlaşdırıb. Təşkilat qəbul etdiyi qətnamələrin icra mexanizminə malik olmadığına görə, münaqişəli məsələlərdə onun aparıcı rol oynamasının da qarşısı kəsilir. Özü də bu, məhz həmin təşkilatda həlledici rol oynayan böyük dövlətlər tərəfindən edilir. Nəticədə, BMT-nin missiyasına şübhələr meydana gəlir, onun səmərəsiz təşkilat olması barədə əsaslı fikirlər yaranır. Həqiqətən də BMT TŞ-nin daimi üzvlərinin başı dünya liderliyi uğrunda amansız mübarizəyə qarışıb. Bir sıra hallarda bu rəqabət və yarış beynəlxalq hüququn bütün çərçivələrini aşaraq, əsl savaş məzmunu kəsb edir. ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çin beynəlxalq hüquqa əməl etməkdə başqalarına nümunə olmaq əvəzinə, özləri onu pozurlar.

Belə çıxır ki, dünyada elə bir beynəlxalq təşkilat mövcud deyildir ki, beynəlxalq hüquq normaları çərçivəsində supergüclərə təsir edə bilsin. Bu vəziyyətdə başda BMT olmaqla, beynəlxalq təşkilatların fəaliyyəti və mövcudiyyəti ilə bağlı haqlı olaraq fikir formalaşır: Beynəlxalq təşkilatlar böyük güclərə öz maraqlarını pərdələmək və törətdikləri cinayətləri ört-basdır etmək, imkan olanda ona hüquqi don geyindirmək üçün lazımdır.

Ümumiyyətlə, dünyada cərəyan edən hadisələr dərindən təhlil olunarsa, proseslərin qlobal güclərin birbaşa diqqəti və nəzarəti altında gerçəkləşdiyi ortaya çıxır. Dünyanın bir çox ölkəsində baş verən ajitasiyalar, iğtişaşlar, müharibələr və böhranlarla silahlanma və silah ticarəti arasında əslində böyük mütənasibliyin olduğu görünür. Cənubi Qafqaz da daxil, dünyanın bir çox qaynar bölgələrində baş verən hadisələrdə və bəzi dövlətlərarası qarşıdurmalarda ikili standartlar siyasəti müşahidə olunur. Bunların səbəbləri müxtəlif amillərlə izah edilsə də, Böyük Güclərin maraqlarından kənarda qalmadığı, əksinə, baş verənlərin bilavasitə bu güclərin maraqlarına xidmət etdiyi qeyd olunmalıdır. Əvvəla, iqtisadi böhran və müharibələrlə silahlanma arasında dərin bir uyğunluq vardır. Dünya təcrübəsində artıq sınaqdan çıxmış silahlanma metodu işə salınıb. Sadalanan faktorların yaşandığı ölkələr silah şirkətləri üçün əsas bazarlardır. Qeyd etmək lazımdır ki, əsas silah sənayesi və ixracatçıları isə məhz böyük güclərdir. İşin ən maraqlı və diqqət çəkən tərəfi isə bundan ibarətdir ki, silah satıcıları beynəlxalq miqyasda "sülh" tərəfdarı kimi çıxış edirlər. Hərbi xərclərin artması və silahlanma ehtiyacı geosiyasi ambisiyalarla və dünyada qaynar nöqtələrlə, eyni zamanda dondurulmuş münaqişələrlə şərtlənir. Yəni silahlanma tələbi rəqabət mühiti və müharibə riski ilə müəyyən olunur. Aydın məsələdir ki, qlobal miqyaslı silah ixracatçıları üçün bu riskin yüksək olması arzu ediləndir [12, s. 345].

Tarix göstərir ki, qlobal xarakterli iqtisadi böhranlar hər zaman hərbi xərclərin artmasına təkan vermişdir. Dünyanın bir çox bölgəsində baş verən hadisələrdə Böyük Güclər öz silah arsenalından kifayət qədər istifadə etmiş və etməkdədir. Bu isə silah istehsal edən şirkətlər üçün yeni sifarişlər deməkdir. Bundan başqa, rejim dəyişikliyi baş verən ölkələr də silah şirkətləri üçün əsas bazarlardır. Ölkələr arasında mövcud olan münaqişələrin dondurulmuş vəziyyətdə qalması da silah satıcıları üçün daimi bazar və gəlir mənbəyidir. Bu cür münaqişələrin uzanması əlbəttə ki, silah istehsal edən şirkətlərin maraqlarına uyğun gəlir.

Dünyanın bir çox ölkəsində olduğu kimi, Cənubi Qafqaz regionunda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin və Gürcüstandakı münaqişələrin də həll olunmasında qlobal güclər maraqlı deyil. Silah sənayesi ilə məşğul olan şirkətlərin öz ölkələrinin xarici siyasətinə təsir etmə imkanlarını nəzərə aldıqda isə maraqlı bir mənzərə yaranır. Bu şirkətlər böyük gücləri təmsil etdiyindən onların təsir dairəsi beynəlxalq orbiti əhatə edir. Yəni bu ölkələr dünyada baş verən bütün proseslərə təsir etmək imkanlarına sahibdirlər, eyni zamanda planetdəki bütün münaqişələrdə hər hansı formada söz sahibidirlər. Belə bir vəziyyətdə bu şirkətlərin dünyanın qaynar nöqtələrində maraqları təmin olunur. Bu baxımdan Cənubi Qafqazda sabitliyin bərpa olunması və regional təhlükəsizliyin qorunması dövlətlərin maraqları ilə uzlaşmır. Ermənistan isə bu missiyanı layiqincə yerinə yetirməkdə, Cənubi Qafqazda sabitliyi pozmaqda və regional təhlükəsizliyi təhdid etməkdədir. Ermənistan kimi bir dövlətin mövcud olması əlbəttə ki, geosiyasi həmlələrin edilməsi baxımından əldə tutulan əlverişli faktordur.

Yuxarıda da qeyd olunduğu kimi, təxminən 30 ilə yaxın idi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz siyasi, hüquqi həllini tapmır və ya buna mane olunurdu. Tərəflər anlaşa bilmədiklərinə görə, problemin həlli ATƏT-in Minsk Qrupuna həvalə edilmiş, lakin bu qurumun

cəhdləri uğursuz alınmışdır. Bu qurumun ümumi və qeyri-müəyyən bəyanatlar verməsi, bir-birinə zidd olan fikirlər səsləndirməsi, digər bir ifadəylə, məkik diplomatiyasının iflasa uğraması Azərbaycanda haqlı olaraq ATƏT-in Minsk Qrupunun fəaliyyətinə inamsızlıq yaratdı. Çünki açıq idi ki, Minsk Qrupunun həmsədr ölkələri sırf münaqişənin gərginləşməsinin qarşısını almaq üçün regiona səfərlər ediblər. Beləliklə də onlar daha çox "münaqişənin həlli mexanizmləri"nin icrası ilə deyil, "münaqişənin idarə edilməsi" ilə məşğul olublar. Azərbaycan ictimaiyyətində də həmsədrlərin dəfələrlə regiona səfərləri haqlı olaraq **"turistik ekskursiya"** kimi qiymətləndirilib. Həm beynəlxalq təşkilatların, həm ATƏT-in Minsk Qrupu üzvlərinin, həm də digər dövlətlərin yeritdikləri ikili standartlar siyasətinin nəticəsi idi ki, Ermənistan tərəfi problemin öz real həllinə yanaşmaq istəməmiş, üstəlik, atəşkəs rejimini də sıx-sıx pozmuşdur. Nəticədə 2-5 aprel 2016-cı il tarixində baş vermiş müharibə Qarabağ münaqişəsinin əslində dondurulmuş olmadığını ortaya qoydu. Düzdür, müəyyən səbəblərdən dövlətlərin, xüsusilə də Rusiyanın müdaxilə etməsiylə vəziyyət əvvəlki məcrasına qayıtdı. Lakin Ermənistan vəziyyətin həmişə bu cür davam edəcəyini hesablayaraq, növbəti dəfə təxribatlara əl atmaqda davam etdi. Heç təsadüfi deyildir ki, Ermənistan yenə də havadarlarından ilham alaraq 2020-ci ilin iyul ayında da növbəti təxribata əl atdı. Əlbəttə, bunun müəyyən səbəbləri var idi:

Əvvəla, Ermənistanın Tovuz istiqamətində sərhəddə təxribat törətməkdə əsas məqsədi ilk olaraq Baş nazir N.Paşinyanın təmas xəttindən diqqəti yayındırmağa çalışması olmuşdur.

İkincisi, həmin ərazilərdən Azərbaycanın beynəlxalq layihələri olan Bakı-Tiflis-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tiflis-Ərzurum-Qars, Bakı-Tiflis-Qars və Böyük İpək yolu keçir. Ermənistan yüksəklikləri ələ keçirib öz istəyinə nail olmaq məqsədində idi.

Üçüncüsü, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlərinin diqqətini tamamilə fərqli istiqamətə yönəltmək istəyirdi, amma bunların heç biri alınmadı.

Bu hücumların Rusiya və Fransa tərəfindən təhrik edildiyinə dair iddialar mövcuddur [18; 21]. Amma bunu da nəzərdən qaçırmaq olmaz ki, Paşinyan hökuməti mütləq şəkildə böyük dövlətlərin dəstəyini hesaba qataraq və buna inanaraq "yeni müharibə və yeni torpaqlar" şüarından yola çıxmış və belə bir hücum reallaşdırmışdır.Daim böyük dövlətlər tərəfindən dəstəklənəcəyini ümid edən Ermənistan təmas xəttini pozmağa davam edir, psixoloji baxımdan Azərbaycana zərbə vurmağa çalışır və qıcıqlandırma metodlarından istifadə edirdi. Ermənistanın Baş naziri Nikol Paşinyanın ***"Qarabağ Ermənistandır. Nöqtə"*** kimi özündən razı və beynəlxalq hüquqa zidd olan daha sərt bəyanatlar səsləndirməsi və yeni bir macəra həvəsiylə atdığı yanlış addımlar yeni müharibənin xəbərçisinə çevrildi. Halbuki Paşinyana qədərki Ermənistanın dövlət başçıları və rəsmiləri həmişə münaqişənin əsas tərəfləri kimi Azərbaycan və Dağlıq Qarabağ olaraq dünyaya çatdırmaq istəyir və müharibənin Azərbaycanla Dağlıq Qarabağ arasında olduğunu irəli sürürdülər. Onlar guya Ermənistan tərəfinin danışıqlar prosesində konstruktiv olmaq istədiklərini bildirir, hətta dünya birliyinə Dağlıq Qarabağ ermənilərinin öz milli müqəddəratını təyin etməsini istədiklərini, heç bir ərazi iddialarının olmadığı kimi təqdim edirdilər. Lakin Baş nazir Nikol Paşinyanın ***"Qarabağ Ermənistandır. Nöqtə"***bəyanatı belə demək mümkündürsə, Ermənistanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı etiraf xarakterli işğalçı siyasətini ortaya qoydu. Ermənistan artıq bütün dünyaya özünün necə bir dövlət olduğunu tanıtdı.

27 sentyabr 2020-ci il tarixində Ermənistan tərəfindən atəşkəsin pozularaq Azərbaycan torpaqlarına gerçəkləşdirdiyi hücum "ani müharibə"nin başlanmasının işarəsi oldu. Qeyd etmək lazımdır ki, Azərbaycanda həm rəsmi səviyyədə, həm də xalqda artan torpaqların qaytarılması arzusu da bu işarənin xəbərçisi idi. Nəticədə Azərbaycan tərəfi əks-hücum gerçəkləşdirərək işğal altındakı mühüm yerləri, tarixi torpaqları, strateji əraziləri və yüksəklikləri ələ keçirdi. Müharibədə Rusiya və Qərb dövlətlərinin, beynəlxalq təşkilatların müharibənin dayandırılması və dərhal müzakirələrə başlanmasının vacib olduğunun bildirilməsinə baxmayaraq, Türkiyə, Pakistan, Şimali Kipr, Ukrayna, İsrail və s. dövlətlər hər zaman Azərbaycanın yanında olduqlarını göstərdilər.

"Qarabağ Ermənistandır" deyən, Şuşada yallı oynayıb andiçmə mərasimlərində iştirak edən, işğal altındakı torpaqlarda məskunlaşma aparan və oraya terrorist qruplar yerləşdirən, danışıqlarda əldə olunmuş razılıqları alt-üst edən Nikol Paşinyanın məzlum vəziyyətə düşərək dünya liderlərindən imdad dilədiyini bütün dünya gördü. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, Ermənistan

düşdüyü vəziyyət qarşısında ənənəvi psixologiyasından çıxış edərək, Azərbaycanda guya Suriyadan gətirilən muzdlu döyüşçülərin, xüsusilə cihadçı qrupların olması ilə bağlı saxta məlumatlar yaydılar. Əsas məqsəd dünyanın xristian ölkələrinin, xüsusilə də böyük güclərin diqqətini özünə çəkmək və xristian dövlətlərin Azərbaycana qarşı səlib yürüşlərini formalaşdırmaq idi. Heç təsadüfi deyildir ki, Fransa Prezidenti Emmanuel Makron ***"Dağlıq Qarabağda suriyalı cihadçılar məsələsi 'oyunu dəyişdirən' çox ciddi reallıqdır",*** – deyərək, şantaj mahiyyətli bu məsələnin Avropa Şurasının müzakirəsinə çıxarılmasının vacibliyi ilə bağlı ənənəvi ermənipərəst mövqeyini ortaya qoydu [11]. Halbuki hal-hazırda İraq, Suriya və Livandan PKK və digər terrorçuların Ermənistana gətirilməsi və daha sonra Ermənistan tərəfindən işğal olunmuş Qarabağdakı Azərbaycan torpaqlarına yerləşdirilməsi, eyni zamanda muzdlu döyüşçülərin bölgədəki fəaliyyəti barədə kifayət qədər məlumatlar vardır [9; 14]. Ancaq Fransa və onun kimi düşünən dövlətlər və dövlət rəsmiləri nədənsə Ermənistanın özünün terrorist təşkilatlarla sıx əlaqə içərisində olduğunu görməzdən gəldilər. Bu məsələdə ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Fransanın tərəfsiz mövqe nümayiş etdirməli olduğu xüsusilə qeyd edilməlidir.

Bundan başqa, Ermənistan Türkiyə Silahlı Qüvvələrinin də müharibədə iştirakını yalandan qabardaraq saxta xəbərləri dünyanın ayrı-ayrı ölkələrinin media resurslarında tirajladı. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çox tutarlı cavablar və arqumentlərlə həm cihadçılar məsələsi ilə bağlı, həm də Türkiyə Silahlı Qüvvələrinin müharibədə iştirakı ilə bağlı çox sayda ölkələrin dövlət telekanallarına da Ermənistan tərəfinin bütün yalanlarını ifşa etdi və bu kimi iddiaları ortaya atanları da ciddi şəkildə tənqid etdi.

Bütün bunlarla yanaşı, olduqca vacib bir məqama da diqqət çəkməyi məqsədəuyğun hesab edirik ki, bu da atəşkəslə bağlı məsələdir. 26 illik atəşkəs anlaşmasından sonra siyasi konyunkturanın yaranması ilə Azərbaycanın Ermənistanın işğalı altında olan torpaqlarında irəliləməsi və nəzarəti ələ keçirdiyi bir zamanda regionda kilid önəmə sahib olan Rusiyanın mövqeyinin necə olacağı hər kəs tərəfindən düşündürücü idi. Heç təsadüfi deyildir ki, müəyyən vaxtlarda cərəyan edən toqquşmalarda və ya qısamüddətli müharibələrdə bir tərəfin üstünlüyü Rusiyanın ümumi siyasətinin xaricinə çıxmazsa, rəsmi Moskva bu cür toqquşmaya müvəqqəti olaraq səssiz qala bilir və ya öz varlığının əhəmiyyətini hiss etdirmək istəyərsə, buna icazə verirdi [1]. 2016-cı ilin aprel ayında gerçəkləşən "Dördgünlük müharibə"də də bunu göstərdi. 27 sentyabrda başlayan şiddətli müharibənin 13-cü günündə isə Rusiya təkrar müdaxilə etməyə çalışaraq, Ermənistan və Azərbaycanın Xarici İşlər nazirlərini Moskvaya dəvət etdi və tərəfləri atəşkəs barəsində uzlaşdırdı. Oktyabrın 10-da humanitar məqsədlərlə hərbi əsirlər, digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi ilə bağlı humanitar atəşkəs elan olundu [4]. Cənubi Qafqazı öz "arxa baxça"sı olaraq dəyərləndirən Rusiya baxımından atəşkəsin təmin edilməsi olduqca vacib idi. Öz nüfuzunu ortaya qoyması və müharibədə kilid önəmə sahib olduğunu bir daha dünyaya göstərməsi lazım gəlirdi. Lakin atəşkəsin müvəqqəti xarakter daşıdığı onsuz da bəlli idi. Toplantının ardından 24 saat (və ya daha az) belə keçmədən Gəncə, Mingəçevir, Bərdə, Goranboy, Tərtər və s. şəhər, rayon və kəndlərə Ermənistan ərazisindən raketlər atıldı. Xüsusilə mülki əhalinin hədəf alındığı, çox sayda insanın öldüyü və yaralandığı ikinci böyük şəhər olan Gəncənin vurulması həm erməni terrorunun yeni bir təzahürü oldu, həm də Rusiyanın xarizmasını cızma məqsədli bir akt olduğunu ortaya qoydu. Bu hal Ermənistanın sivillərə terror cinayətləri törədəcək qədər zavallı bir vəziyyətə düşməsi şəklində də xarakterizə oluna bilər. Rəsmi Yerevanın yeganə ümidi rəsmi Bakının bu hücuma Ermənistan ərazisinə əks-hücumla cavab verməsilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının dərhal müdaxilə etməsinə fürsət yaratmaq olsa da, əslində rəsmi Moskvanın nüfuz və xarizmasına ciddi bir zərbə oldu.

Atəşkəsi elan edən Rusiyanın xarizmasını cızan atəşkəsin pozulması məsələsi Ermənistanın amerikanpərəst mövqeyini ortaya qoydu. Heç təsadüfi deyildir ki, Rusiyanın müttəfiqi olan Ermənistan rəsmi Moskvanın rəqiblərinin dəstəklədiyi bir sima olan Qərb və Soros tərəfindən dəstəklənən Nikol Paşinyan tərəfindən idarə olunmaqdadır. Lakin Rusiyanın Qafqazdakı ən önəmli müttəfiqi olan Ermənistandan əl çəkməsi də mümkün görünmürdü. Sadəcə olaraq Paşinyanın iqtidardan uzaqlaşdırılması planlaşdırılırdı. Azərbaycan da 1990-cı illərdəki vəziyyətdə deyil, olduqca güclü bir orduya və

silahlara sahibdir. Eyni zamanda Qarabağ müharibəsi Xarici İşlər nazirləri çərçivəsində həll oluna biləcək bir problem olmayıb, daha geniş mahiyyətli bir məsələdir. Zatən Azərbaycan Ermənistanın atəşkəsi pozacağını hesab edərək masaya əyləşdi. Bu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də ifadəsi ilə desək, Azərbaycan tərəfindən Ermənistana verilən şans idi. Lakin buna baxmayaraq, Ermənistan atəşkəsi pozaraq sivillərə hücum etdi və danışıqlar yolu ilə işğal etdiyi torpaqları geri qaytarmayacağını göstərmiş oldu. ATƏT-in Minsk Qrupunun müdaxilə etməsi, xüsusilə də Fransanın vasitəçiliyi ilə tərəflər arasında 18 oktyabrda bir daha müvəqqəti atəşkəs elan edildi, lakin üstündən 2 dəqiqə belə keçmədən Ermənistan ordusu tərəfindən pozuldu [5]. Gərginliyin artmasından sonra bu dəfə ABŞ-ın dövlət katibi Mayk Pompeo da hər iki ölkənin Xarici İşlər nazirlərini öz ölkəsinə dəvət etdi və 23 oktyabrda nazirlərlə ayrı-ayrılıqda görüş keçirdi [20]. Əlbəttə ki, ABŞ-ın da məsələyə müdaxilə edəcəyi əslində gözlənilən bir vəziyyət idi. Lakin bu görüşmədən sonra 26 oktyabrda üçüncü dəfə atəşkəsin elan edilməsindən sonra üstündən 5 dəqiqə keçmədən Ermənistan tərəfindən bir daha pozuldu [8]. Döyüş meydanında Azərbaycan Ordusu qarşısında müqavimət göstərə bilməyən Ermənistan yenə də mülki əhalini hədəf seçdi. Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdədə dinc əhaliyə qarşı "Smerç" tipli yaylım atəşli reaktiv sistemləri ilə raket zərbələri nəticəsində 21 nəfər həlak oldu, 70-dən çox mülki vətəndaş ağır yaralandı. Atəşkəsi dəfələrlə pozmasına baxmayaraq, ballistik raketlərlə sivillərə hücum edən, aralarında uşaqların da olduğu çox sayda insanları qətlə yetirən Ermənistanın törətdiyi cinayətlər ATƏT-in Minsk Qrupunun həmsədrləri, aparıcı dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qınanmadı. Heç təsadüfi deyildir ki, münaqişənin həll olunmamış olaraq qalmasında ən böyük məsuliyyət məhz Minsk Qrupunun həmsədrlərinin üzərinə düşür. Vasitəçilərin işğalçı dövlət ilə işğala məruz qalan dövlət arasında ədalətli seçim etməmələri və işğalçı dövləti dəstəkləyən addımları Ermənistanın təcavüzkar siyasətinin daha da şiddətlənməsi ilə nəticələndi. Ermənistanda iqtidara gələn hökumətlərin hansı meylli olmaları (istər anti-Rusiya, istərsə də antiqərb) və yeritdikləri siyasətə baxmayaraq, ATƏT-in Minsk Qrupunun həmsədrləri olan Rusiya, Fransa və ABŞ-ın Ermənistandan vaz keçmələrindən söhbət gedə bilməz. Bu dövlətlərin fərqli coğrafi məkanlarda maraqları toqquşa bilər, lakin erməni məsələsi və türk düşmənçiliyi onları birləşdirən əsas amildir. Heç təsadüfi deyildir ki, hər üç vasitəçi dövlət bu məsələdə öz real münasibətlərini 19 oktyabr 2020-ci il tarixli BMT TŞ-nin münaqişə ilə bağlı gerçəkləşdirilən qapalı iclasında nümayiş etdirdi. Bu iclasdan sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan Rusiya və Fransa tərəfindən bəyanatın layihəsi hazırlandı və razılaşdırılması üçün üzv ölkələr arasında yayıldı, lakin bəyanat layihəsində Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad öz əksini tapmadı. Bu bəyanat beynəlxalq hüququn ən önəmli sütunlarından olan ərazi bütövlüyü prinsipinin və BMT TŞ-nin qərarlarının heçə sayılması mənasına gəlir. Əsl məqsəd 822, 853, 874 və 884 saylı qərarları tarixə gömməklə unutdurmaq, Ermənistan lehinə yeni qərarlar qəbul etmək və Azərbaycanın işğal altında olan torpaqlarını qurtarmaq təşəbbüsünə mane olmaq idi. Lakin Təhlükəsizlik Şurasında təmsil olunan Qoşulmama Hərəkatına üzv olan 7 dövlət – ***İndoneziya, Niger, Vyetnam, Tunis, Cənubi Afrika, Dominikan Respublikası, Sent Vinsent və Qrenadin*** – layihəyə Təhlükəsizlik Şurasının məlum qətnamələrinə istinadın daxil edilməsinin vacibliyini təklif etdilər. Həmsədr ölkələr bunun qəbul edilməz olduğunu bildirsələr də,Qoşulmama Hərəkatına üzv olan dövlətlərin təkidli və prinsipial mövqeyi nəticəsində bu bəyanat geri götürüldü [7].

Göründüyü kimi, BMT TŞ daimi üzvlərinin sabit qalması bu qurumun yalnız siyasi maraqlara xidmət etdiyini, beynəlxalq hüququn icraçısı deyil, pozucusu olduğunu göstərir. Həmsədr ölkələr tərəfsizliyi bir tərəfə ataraq, əvvəllər olduğu kimi, yenidən tərəf tutmağa davam etdilər və Ermənistanı açıq şəkildə dəstəklədilər. Qoşulmama Hərəkatına üzv olan dövlətlər isə beynəlxalq hüququ dəstəkləyərək hərəkatın prinsip və dəyərlərinə sadiq qaldıqlarını bütün dünyaya nümayiş etdirdilər. Bu, eyni zamanda Qoşulmama Hərəkatının beynəlxalq münasibətlər sistemində ciddi bir faktor olduğunun da bariz nümunəsidir.

Azərbaycan müharibədə və diplomatiyada sonuna qədər öz haqlı mübarizəsinə davam etdi və ortaya çıxan fürsətləri öz lehinə çevirməyə çalışdı. Bu yolda uğurlu addımlar da atıldı. Prezident İlham Əliyevin tələbi istiqamətində müəyyənləşdirilən təqvim çərçivəsində Ermənistan 10 noyabr tarixinə

qədər işğal etdiyi torpaqlardan çıxmamaqda müqavimət göstərdi və hər dəfə ağır itkilərə məruz qaldı. Noyabrın 8-də isə 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşa azad edildikdən dərhal sonra – noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Şuşanın işğaldan azad edilməsi Ermənistanı tamamilə tərk-silah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Ermənistanın kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş naziri birgə bəyanat imzaladılar. Ermənistan 2020-ci ilin noyabr ayından dekabrın 1-nə qədər mərhələli şəkildə Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracağı barədə öhdəlik götürdü. Bəyanatda Rusiya Silahlı Qüvvələri sülhməramlı statusda məhdud kontingentlə əraziyə yerləşdirilməsi nəzərdə tutulurdu. Anlaşmadan sonra Rusiya silahlı qüvvələri sülhməramlı statusda Qarabağa yerləşdirildi. Əlbəttə ki, hadisələrin bundan sonra necə inkişaf edəcəyini "zaman" özü göstərəcək. Lakin Azərbaycan qəti şəkildə sülhməramlılarının müddətinin 2025-ci ildə başa çatacağını hər fürsətdə bəyan edir.

Qeyd etmək lazımdır ki, Türkiyə hərbi əməliyyatların başlandığı ilk günlərdən etibarən Azərbaycanı haqlı müharibəsində dəstəkləmiş, ona siyasi, diplomatik və mənəvi dəstək vermişdir. 44 günlük Vətən Müharibəsi nəticəsində Azərbaycan Ermənistanı ağır kapitulyasiyaya məcbur edərək Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıqlar formalaşdırdı. Artıq regionun siyasi mənzərəsi dəyişir, Yeni Dünya Nizamının qurulması kontekstində bölgədə təsir gücü ola biləcək çox aktual və maraqlı məqamlar müşahidə olunur, Cənubi Qafqazın geosiyasi mənzərəsinə əməkdaşlıq və təhlükəsizlik aspektlərində yeni ruh verilir. Məhz bu baxımdan Türkiyə ilə Azərbaycan arasında dünyada heç bir dövlətdə rast gəlinməyən qardaşlıq, sıx əməkdaşlıq və yaxınlığın nəticəsi olaraq ortaya çıxan, yeni müttəfiqlik formatına yol açan tarixi sənəd kimi imzalanan Şuşa Bəyannaməsi də həmin aktual məqamlardan biridir. Bu bir həqiqətdir ki, Azərbaycanla Türkiyə arasındakı münasibətlərin dünyada analoqu yoxdur. Siyasi liderlər dəfələrlə bu faktı təsdiq ediblər. İkinci Qarabağ müharibəsindən sonra iki qardaş ölkənin münasibətlərinin inkişaf xarakteri və dinamikası göstərir ki, yeni tarixi şəraitdə onlar daha dərin və əhatəli əlaqələr səviyyəsinə keçməkdə qətiyyətlidirlər. Bu baxımdan Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının və birliyinin yeni təsdiqi sayılan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi hər iki ölkə ilə yanaşı, region və dünya üçün də son dərəcə böyük əhəmiyyət kəsb edir.

Türk tarixinə ən əlamətdar gün kimi düşən **15 iyun 2021**-ci il tarixində Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında bəyannamənin imzalanması heç də təsadüfi deyildir. **"Şuşa Bəyannaməsi"**ndə müştərək maraqlara əsaslanan regional və beynəlxalq strateji mövzulardakı fəaliyyətlərin qarşılıqlı koordinasiyasının vacibliyi vurğulanmış, tərəflərin bütün önəmli məsələlərdə beynəlxalq və regional təşkilatlar çərçivəsində müxtəlif platformlarda bir-birilərini tam dəstəkləyəcəklərinə dair niyyət bəyanı ilə bir millət – iki dövlət ruhu həmin tarixi sənəddə öz əksini tapmışdır. Bu bəyannamənin əsas mahiyyəti ondan ibarətdir ki, Türkiyə və Azərbaycan öz aralarında ilk dəfə olaraq adında "müttəfiqlik" ifadəsinin olduğu bir sənəd imzalayıblar. Vaxtilə imzalanan anlaşmalar və atılan addımlarla strateji ortaqlıq səviyyəsinə yüksələn əlaqələr Şuşa bəyannaməsi ilə bu dəfə müttəfiqlik səviyyəsinə qalxmış oldu. Qeyd edilməsi son dərəcə vacib olan məsələ budur ki, müttəfiqliyin dar çərçivədə xarakterizə olunmayıb, daha geniş mənada bütün regionu əhatə etməsi, xüsusilə türk dünyası ifadəsinin vurğulanması bu bəyannamənin gələcəyə işıq tutan olduqca strateji bir sənəd olduğunu ortaya qoyur [2; 3].

Heç təsadüfi deyildir ki, Şuşa Bəyannaməsi tarixi sənəd kimi rəsmi surətdə 1 fevral 2022-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində, fevralın 3-də isə Türkiyə Böyük Millət Məclisində ratifikasiya edildi.

Bu bəyannamə şübhəsiz ki, iki ölkənin bugünkü və gələcək vəziyyətinə ciddi töhfələr verəcəkdir. Dünyada gedən proseslər Azərbaycan və Türkiyənin daha yaxın, rəsmi surətdə müttəfiq olmasını zəruri edir. Çünki böyük təşkilatlar, qurumlar ölkələrin suverenliyinin qorunmasında, insanların hüquqlarının təmin olunmasında səmərəli addım atmırlar. Çox vaxt da ikili standartlara əsaslanan siyasət yürüdərək öz mənfəətlərinə uyğun hərəkət edirlər. Bu da həmin təşkilatların öz prinsiplərini pozması anlamına

gəlir. Buna görə də Azərbaycan və Türkiyə təhlükəsizliyini, suverenliyini təmin etmək üçün öz aralarında yeni formatlar yaratmağa başlayıblar. Məsələn, türkdilli ölkələr Türk Dövlətləri Təşkilatı ətrafında birləşərək bu ittifaqı daha səmərəli etməyə çalışırlar.

Bu bəyannamənin təsdiq olunması ilə bundan sonra iki qardaş ölkə aktual xarakter kəsb edən, beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı daha da dərinləşdirəcəklər. Tərəflər BMT, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla, bundan sonra da beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər.

Bəyannamənin ən diqqətçəkən məqamı da odur ki, tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq olaraq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın qədəri və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək, birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaq (10).

Bundan başqa, Azərbaycanın Türkiyə ilə yanaşı Pakistanla da strateji əməkdaşlığı var. Heç təsadüfi deyildir ki, **27 iyul 2021**-ci il tarixdə hər üç dövlət arasında imzalanan **"Bakı Bəyannaməsi"** tərəf ölkələrinin hər birinin "milli təhlükəsizlik" maraqlarına uyğundur və burada söhbət təkcə bir ölkənin ərazi bütövlüyündən getmir. Bu bəyannamə hər üç dövlətin gələcəkdə də həm parlament, qanunvericilik səviyyəsində, diplomatik münasibətlərdə, həm də ölkələrin iqtisadiyyatının inkişafında, əhalinin yaşayış tərzinin yaxşılaşdırılmasında imkanların birləşdirməsini və strateji tərəfdaşlığın daha da sürətlə inkişaf etdirilməsini nəzərdə tutur. Bu, eyni zamanda işğalçı dövlətlərə qarşı regional sülhün qorunmasını özündə ehtiva edən mesaj xarakteri daşıyır.

Beləliklə, aparılan araşdırmalar və müqayisəli təhlillər onu deməyə əsas verir ki, Azərbaycan tərəfi Ermənistan qarşısında güc və qətiyyət nümayiş etdirərək özünün "dəmir yumruq" əməliyyatını reallaşdırıb, bu dövləti ağır məğlubiyyətə uğratsa da, müharibə siyasi, diplomatik və informativ müstəvidə hələ də davam edir. Azərbaycan gedişata uyğun olaraq hər həmləyə qarşı yeni bir strategiya müəyyənləşdirir. Əlbəttə ki, Azərbaycan Ermənistan qarşısında tarixi qələbə qazanıb, amma təəssüf ki, "erməni məsələsi" bitməyib. Hadisələrin retrospektiv təhlili və hadisələrin mövcud gedişatı onu göstərir ki, vaxtilə beynəlxalq güclər tərəfindən ərsəyə gətirilən bu məsələ geosiyasi maraqların, antitürk zehniyyət və fəaliyyətlərin təzahürü kimi yenə səhnədədir. Tarixən ermənilər böyük güclərin regiondakı geosiyasi maraqlarının icraçısına çevrilmiş və həmin funksiya günümüzdə də davam etdirirlər. Ermənilər və Ermənistan da öz növbəsində bu icraçı funksiya müqabilində müəyyən öhdəliklər tələb etmiş və bu gün də etməkdədir. Sonradan yaradılan Ermənistanla böyük güclər arasındakı əlaqələri bir növ "qarşılıqlı istifadə və faydalanma" münasibətləri çərçivəsində xarakterizə etmək olar. Yuxarıda sadalanan bu amillər Cənubi Qafqazda sülhün və təhlükəsizliyin qorunmasında başlıca maneəyə çevrilmişdir. Daha əvvəl də qeyd olunduğu kimi, Ermənistan geosiyasi şahmat taxtasında piyada statusuna malikdir, amma dünyanın böyük oyunçuları ilə münasibətlərdə özünü ağır fiqur kimi təsəvvür edir. Lakin anlamaq istəmir ki, bu piyada sadəcə böyük güclər istədiyi üçün oyundadır, istənilən vaxt qurbana çevrilə bilər.

## ƏDƏBİYYAT

1. Aslanlı A. Karabağ'da hiç kesilmeyen ateş ve Rusya // http://aljazeera.com.tr/gorus/karabagda-hic-kesilmeyen-ates-ve-rusya).
2. Aslanlı A. Moskva görüşünün nəticəsi: rahatlıq da var, narahatlıq da // https://ayna.az/news/23152
3. Azərbaycan və Türkiyə Prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər // https://president.az/az/articles/view/52116.

4. Azərbaycan, Rusiya və Ermənistanın XİN başçıları bəyanat qəbul ediblər // https://report.az/dagliq-qarabag-munaqishesi/azerbaycan-ve-ermenistan-xin-bascilarinin-uctere-fli-gorusu-basa-catdi/
5. Azərbaycan və Ermənistan humanitar atəşkəs barədə razılığa gəldi // https://modern.az/az/news/260857
6. Cəfərov V. Diplomatik yazışma. Bakı: Elm, 1997, 106 s.
7. Əhmədov E. Azərbaycanın diplomatik, hərbi uğurları və böyük güclərin erməniպərəst siyasəti // http://newtimes.az/az/organisations/6883/
8. Ermənistan-Azərbaycan arasında daimi atəşkəs yalnız BMT qətnamələrinin şərtləri daxilində mümkündür // https://fed.az/az/qarabag/turkiye-xin-ermenistan-azerbaycan-arasinda-daimi-ateskes-yalniz-bmt-qetnamelerinin-sertleri-daxilinde-mumkundur-91600
9. Ermenistan PKK'lı teröristleri Azerbaycan cephe hattında kullanıyor // https://www.trthaber.com/haber/dunya/ermenistan-pkkli-teroristleri-azerbaycan-cephe-hattinda-kullaniyor-518306.html
10. Əliyev A. Şuşa Bəyannaməsi – müttəfiqliyimizi rəsmiləşdirən tarixi sənəd. Xalq qəzeti, 2021, 3 fevral.
11. Fransa Cumhurbaşkanı Macron: cihatçılar Gaziantep üzerinden Karabağ'a gitti, elimizde kanıtlar var // https://tr.euronews.com/2020/10/01/fransa-cumhurbaskan-macron-cihatc-lar-gaziantep-uzerinden-karabag-a-gitti-elimizde-kan-tla
12. Həbibbəyli Ə. Yeni çağırışların işığında. Bakı: Elm və təhsil, 2014, 352 s.
13. Həsənov R. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində İlham Əliyevin fəaliyyəti // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2009, № 3, s. 15-20.
14. Gazeta.ru: Зачем Ереван затеял интриги на Ближнем Востоке, начав игру «не в своей лиге»? // https://1news.az/news/gazeta-ru-zachem-erevan-zateyal-intrigi-na-blizhnem-vostoke-nachav-igru-ne-v-svoey-lige
15. İlham Əliyev xalqa müraciət edib //https://president.az/articles/45924
16. İsmayılov F. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, 2001, 152 s.
17. İsmayılov F., Həsənov S. Məqsədyönlü diplomatiya Azərbaycanın gələcəyi naminə // Dirçəliş – XXI əsr, 2004, № 76-77, s. 117-125.
18. Koçak M. Ermeni saldırılarının arkasında kimler var? // https:/hyetert.org/2020/07/29/ermeni-saldirilarinin-arkasinda-kimler-var/
19. Mirbəşiroğlu E. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində Heydər Əliyevin fəaliyyəti // Tarix və onun problemləri, 2009, № 1-2, s. 114-119.
20. Pompeo Azərbaycan və Ermənistan Xarici İşlər Nazirləri ilə görüşdü // www.amerikaninsesi.org/a/pompeo-azərbaycan-və-ermənistan-xarici-işlər-nazirləri-ilə-görüşüb/5633126.html
21. Suyundikov S. Ermeni Saldırılarının Arka Planı ve Türk Dünyası // https://www.21yyte.org/tr/fikir-tanki/ermeni-saldirisinin-arka-plani-ve-turk-dunyasi
22. Şıxəliyev E. Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Naxçıvan: Əcəmi, 2018, 384 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: emin.amea@yahoo.com***

**Emin Shikhaliyev**

## THE PROCESS OF REGULATING THE KARABAKH PROBLEM IN THE FOREIGN POLICY OF THE NATIONAL LEADER HEYDAR ALIYEV, THE CONTINUATION OF THE POLITICAL COURSE AND THE CURRENT SITUATION

Heydar Aliyev, who was one of the most influential politicians of his time, played an exceptional role in popularizing the modern image of Azerbaijan, the rich heritage of our people and achieving a worthy position for our country in the system of international relations. The settlement of the Armenian-Azerbaijani conflict on the basis of the norms and principles of international law was the most important task set by the great leader, all the resources of our country, the potential of the people were mobilized to restore historical justice. The powerful Azerbaijani state, the masterpiece of the great leader, having won a glorious Victory in the 44-day Patriotic War, proved that it is able to protect its sovereignty and independence. This victory, achieved by Azerbaijan under the leadership of the victorious leader Ilham Aliyev, increases the confidence that one day we will definitely reunite with other historical lands of Azerbaijan, as in the dreams of the Great Leader.

**Keywords:** *national leader Heydar Aliyev, foreign policy, Karabakh issue, Homeland war, the currently situation.*

**Эмин Шихалиев**

## ПРОЦЕСС РЕГУЛИРОВАНИЯ КАРАБАХСКОЙ ПРОБЛЕМЫ ВО ВНЕШНЕПОЛИТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ НАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА, ПРОДОЛЖЕНИЕ ПОЛИТИЧЕСКОГО КУРСА И ТЕКУЩАЯ СИТУАЦИЯ

Гейдар Алиев, входивший в число самых влиятельных политиков своего времени, сыграл исключительную роль в популяризации современного облика Азербайджана, богатого наследия нашего народа и достижении достойного положения нашей страны в системе международных отношений. Урегулирование армяно-азербайджанского конфликта на основе норм и принципов международного права являлось важнейшей задачей, поставленной великим лидером, все ресурсы нашей страны, потенциал народа были мобилизованы для восстановления исторической справедливости. Могущественное азербайджанское государство – шедевр великого лидера, одержав славную Победу в 44-дневной Отечественной войне, доказало, что способно защитить свои суверенитет и независимость. Эта победа, достигнутая Азербайджаном под руководством победоносного лидера Ильхама Алиева, увеличивает уверенность в том, что однажды мы обязательно воссоединимся и с другими историческими землями Азербайджана, как в мечтах Великого лидера.

**Ключевые слова:** *общенациональный лидер Гейдар Алиев, внешняя политика, Карабахская проблема, Отечественная война, текущая ситуация.*

TOFİQ ƏLİYEV

# BUGÜNKÜ UĞURLARIMIZIN TƏMƏLİ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASI İLƏ BAŞLAMIŞDIR

*Məqalədə ümummilli lider, müstəqil Azərbaycan respublikasının memarı Heydər Əliyevin xalqımız qarşısındakı çoxsaylı xidmətlərindən birinə-neft strategiyasına qısa nəzər salınır. "Əsrin kontraktı"nın (müqaviləsinin) imzalanması ərəfəsində respublikamızda mövcud olan ictimai-siyasi vəziyyət təhlil edilir, bu müqavilənin imzalanmasına qarşı yaradılan əngəllər şərh edilir və bu səbəbdən xarici investorların ölkəmizə cəlb edilməsinin çox-çox çətin olduğu, möcüzə kimi göründüyü, lakin ulu öndərin fövqəladə istedadı və dünya miqyasında mövcud olan nüfuzu bütün bu çətinliklərə üstün gəldiyi göstərilir. Kontraktın imzalanmasından sonra ölkəmizdə cəmiyyət həyatının bütün sahələrində əldə edilən uğurlar göstərilir.*

**Açar sözlər:** *ümummilli lider, Heydər Əliyev, neft strategiyası, əsrin kontraktı.*

2023-cü il may ayının 10-da ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ili tamam olur. Bu dahi şəxsiyyətin xalqımız qarşısındakı xidmətlərini saymaqdan bitirmək mümkün deyil. Bu yazıda onun çoxsaylı xidmətlərindən yalnız biri – neft strategiyası haqda qısa məlumat verilir.

Məlumdur ki, neft və təbii qazı çox vaxt planetimizin qara və mavi qızılı da adlandırırlar. Və bu adlandırma heç də təsadüfi deyil. Həqiqətən də müasir insan cəmiyyətini neft və təbii qaz olmadan təsəvvür etmək mümkün deyil. Bu təbii sərvətlər bir tərəfdən ölkələrin enerjiyə olan tələbatını ödədiyi halda, digər tərəfdən neft-kimya sənayesi üçün ən qiymətli xammal sayılırlar. Müasir dövrdə həmin xammallar əsasında alınan və gündəlik məişətimizdən tutmuş sənaye və texnikanın ən müxtəlif sahələrində işlədilən maddələr o qədər çoxdur ki, onların dəqiq sayını söyləmək belə çətinlik törədir [1-3]. Elə bu səbəbdəndir ki, son illərdə praktiki olaraq dünyanın bütün ölkələrində neft və qaza olan tələbat durmadan artmaqdadır. Həm də elə bu səbəbdən beynəlxalq ticarətdə, ən başlıcası isə siyasətdə neft və qaz amili demək olar ki, ən aparıcı amilə çevrilmişdir. Bu gün Dünyada, eləcə də Dünyanın bizə yaxın bölgələrində baş verən qaynar hadisələrin arxasında əsasən neft amilinin durduğu hətta siyasətdən uzaq insanlara da bəllidir. Neft amilinin Dünya siyasətinə nə qədər güclü təsir göstərdiyini keçən əsirin 70-ci illərinin əvvəllərində baş vermiş məlum hadisələrdən də görmək olar. O vaxtlar qərb ölkələrinin istəyinin əksinə olaraq Dünyanın əsas neft ixracatçısı olan yaxın və orta şərq ölkələrinin və SSRİ-nin neft hasilatını azaltmaq və onun qiymətini qaldırmaqla bağlı çıxardıqları qərar həmin qərb ölkələrində və ABŞ-da uzun müddət davam edən enerji böhranına gətirib çıxarmışdı. Elə son illərdə RF-in neft və qaz amilindən istifadə edərək qərb ölkələrinə göstərdiyi təzyiq, onları özündən enerji asılılığına salması da deyilənlərə bariz misal ola bilər.

Yuxarıda söylənilənlərə əsasən belə bir yanlış fikir formalaşa bilər ki, zəngin karbohidrogen ehtiyatlarına malik ölkələr mütləq iqtisadi və siyasi cəhətdən də qüdrətli ölkələr siyahısında olmalıdırlar. Lakin tarixi təcrübə göstərir ki, bu fikri heç də neftlə zəngin olan ölkələrin hamısına aid etmək olmaz. Onların sırasında elələri də vardır ki, deyilənlərin əksinə olaraq bu gün istər iqtisadi, istərsə də siyasi baxımdan ən ağır durumdadırlar, məsələn, Nigeriyada olduğu kimi.

Tarixi təcrübə onu da birmənalı olaraq sübut etmişdir ki, təbii sərvətlərindən istifadə ilə bağlı siyasətdə düzgün olmayan, milli maraqlara söykənməyən siyasət yürüdən ölkələrin taleyi elə Nigeriya kimi ölkələrin taleyindən fərqlənmir, onların sərvətlərindən əldə edilən sərmayə öz xalqlarının firavanlığına deyil, yadellilərə xidmət edir.

Şükürlər olsun ki, zəngin karbohidrogen ehtiyatlarına malik respublikamızda müstəqillik əldə edildikdən sonra neft siyasəti həyata keçirilərkən bütün bu amillər nəzərə alınmış, daha rasional yol seçilmişdir. Və bu işdə xalqımızın bəxti onda gətirmişdir ki, ölkəmiz üçün həlledici olan həmin dövrdə Dünya şöhrətli siyasi xadim, böyük dövlət adamı, ulu öndər Heydər Əliyev Azərbaycan rəhbərliyinə gəlmişdi. Həmin dövrlərdə respublikamızda mövcud olan ictimai-siyasi mənzərə güman edirəm ki, çoxlarının xatirindədir. Müstəqilliyinə yenicə qovuşmuş ölkəmiz saysız-hesabsız problemlərlə üz-üzə qalmışdı. Qeyri-sabit vəziyyətin mövcud olduğu, vətəndaş müharibəsi təhlükəsinin başımızın üstünü aldığı, total böhranın hökm sürdüyü, mənfur qonşularımız və onların havadarlarının süni şəkildə

yaratdığı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış problemlərin üst-üstə yığıldığı bir zamanda Azərbaycan müstəqil ölkə kimi ilk addımlarını atmağa başlamışdı. Ölkəmizin gələcəyi üçün lazımi tədbirlərin görülməsi böyük bir tarixi zərurət idi. Məhz belə bir çətin dövrdə dövlətimizin və dövlətçiliyimizin əsasları ulu öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində formalaşdırılırdı [4]. Hələ o vaxtlar ulu öndər söyləyirdi ki, iqtisadiyyatı möhkəm olmayan ölkənin, iqtisadi müstəqilliyi olmayan ölkənin siyasi müstəqilliyindən danışmaq olmaz. Ölkəmizin iqtisadi müstəqilliyinin əldə edilməsi üçün konkret addımlar atılmış, çox mühüm iqtisadi və siyasi islahatlar həyata keçirilməyə başlanmışdı. Heç şübhəsiz onların içərisində ən mühümü və çox böyük tarixi əhəmiyyət kəsb edəni 1994-cü il sentyabr ayının 20-də "Əsrin kontraktı"nın ("Əsrin müqaviləsi"nin) imzalanması olmuşdur. Belə ki, ulu öndər yaxşı bilirdi ki, neft strategiyasını düzgün qurmadan qarşıya qoyulmuş möhtəşəm siyasi və iqtisadi vəzifələri həyata keçirmək mümkün olmayacaq, bu isə sonda böyük çətinliklər və qanlar bahasına əldə etdiyimiz müstəqilliyimizin itirilməsinə, bizim də mənfur qonşularımız kimi forpost ölkəyə çevrilməyimizə gətirib çıxaracaqdır. O da bəlli idi ki, böyük miqdarda sərbəst maliyyə vəsaitlərinə malik olmadan neft yataqlarını yerli resurslar hesabına geniş miqyasda istismar etmək mümkün deyildir. Məhz bu səbəbdən həmin dövrdə Azərbaycana sərmayə axınına nail olmaq ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən bir məsələ idi. Bununla belə, yuxarıda göstərilən səbəblərdən, eləcə də şimal və cənub qonşularımızın neft kontraktlarının imzalanmasına ciddi-cəhdlə mane olmağa çalışmaları (dəfələrlə ölkədə dövlət çevrilişinə edilən cəhdlər, ulu öndərə qarşı hazırlanan sui-qəsd planları, Xəzərin sahilyanı ölkələr arasında pay bölgüsünü aparmadan neft yataqlarının istismara başlanmasının mümkün olmadığını iddia etmələri, istismarı nəzərdə tutulan yataqların perspektivsiz yataqlar olması fikrini ortaya atmaları və s.) Azərbaycanı dünyada çox riskli bir dövlət kimi tanıtmışdı. Belə bir vəziyyətdə xarici investorların ölkəyə dəvət edilməsi və buna müsbət cavab alınması möcüzə kimi görünürdü. Lakin ulu öndərin fövqəladə bacarığı bu möcüzəni reallığa çevirdi. Sözsüz ki, bu hadisə Heydər Əliyev siyasətinin çox böyük uğuru idi. Şübhə yoxdur ki, Dünyanın nəhəng neft şirkətlərinin Azərbaycana dəvət edilməsi onlar üçün lazımi şərait yaradılmadan, qoyulacaq investisiyaların qorunacağına dair etibarlı təminat verilmədən, o cümlədən qanunvericilik sahəsində lazımi addımlar atılmadan mümkün dəyildi. Və bütün bu sadalananların öhdəsindən ulu öndər Heydər Əliyev layiqincə gələ bildi. Sözsüz ki, onun şəxsi nüfuzu, hələ sovet dövründən Dünyanın söz sahibi ölkələrində qüdrətli bir dövlət xadimi kimi tanınması bu işdə çox mühüm amillərdən biri olmuşdur. Beləliklə, 1994-cü il sentyabr ayının 20-də yenicə müstəqillik əldə etmiş respublikamız üçün çox böyük tarixi əhəmiyyət kəsb edən bir hadisə – "Əsrinkontraktı" imzalandı [4]. Azərbaycanın Xəzər Sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" (AÇG) neft yataqlarının birgə istifadəsini nəzərdə tutan bu kontrakt Dünyada məşhur olan bir çox neft şirkətləri – "BP" (Böyük Britaniya), "Amoko" (ABŞ), "Lukoil" (RF), "Statoil"(Norveç), "Türkişh Petroleum" (Türkiyə), "Unokal" (ABŞ), "İtochuco" (Yaponiya), "Ramco"(B.Britaniya), "Delta" (S.Ərəbistanı), "Penzoil" (ABŞ) və "Exon" (ABŞ) şirkətləri ilə Azərbaycan Dövlət Neft şirkəti (ARDNŞ) arasında 30 il müddətinə imzalanmışdır [4] (2017-ci ilin sentyabr ayında "Əsrin müqaviləsi"nin 23-cü ildönümündə Bakıda "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsi üzrə Hasilatın Pay Bölgüsünün düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişi (PSA) imzalandı

Yenilənmiş sazişlə "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadıldı. Bu hadisə sözün əsl mənasında Heydər Əliyev neft strategiyasının böyük təntənəsi idi. "Əsrin müqaviləsi" həm də ona görə tarixi hadisə sayılmalıdır ki, xarici şirkətlərlə əməkdaşlığımızın ilk təcrübəsi uğurlu olmuşdur. Birinci kontraktdan sonra Azərbaycana maraq artmış, ölkəmiz özünü dünyada etibarlı tərəfdaş kimi tanıda bilmişdir ki, bu da sonrakı mərhələlərdə çox vacib idi.

"Əsrin müqaviləsi" imzalanmaqla Azərbaycanda nəhəng neft siyasətinə başlanmış və bu iş Heydər Əliyev siyasətinin layiqli davamçısı İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir.

"Əsrin müqaviləsi" imzalandıqdan cəmi üç il sonra (1997-ci il) ilk neft hasil olunmuş, beş il sonra (1999-cu il ) isə mənfəət nefti ixrac olunmağa başlanmışdır. Bundan sonra qarşıda duran əsas vəzifələrdən biri, həm də ən mühümü çıxarılan nefti xarici bazarlara çatdırmaq üçün neft kəmərlərinin inşası idi (Məlumdur ki, dəmiryol nəqliyyatı vasitəsilə bu işin icrası nisbətən baha başa gəlir və bəzi

texniki çətinliklərlə müşayiət olunur). Doğrudur, bu məqsədlə Sovet dövründən qalan neft kəmərlərindən (Bakı-Novorossiysk, Bakı-Supsa) müəyyən təmir və yenidənqurma işləri aparıldıqdan sonra istifadə edilə bilərdi və edildi də. Lakin ulu öndər gözəl bildirdi ki, Azərbaycan neftinin taleyini yalnız həmin kəmərlərin öhdəsinə buraxmaq gələcəkdə böyük problemlər yarada bilərdi. Buna görə də, neft kəmərlərinin (sonralar isə həm də qaz kəmərlərinin) şaxələndirilməsinə (diversifikasiyasına) nail olmaq müstəsna əhəmiyyət kəsb edən bir problem kimi qarşıda dururdu. Bu problemin həlli də Heydər Əliyevin neft strategiyasının ən mühüm tərkib hissələrindən biri idi. Şükürlər olsun ki, çoxsaylı, həm də çox ciddi maneələrə baxmayaraq sonda ulu öndərin bu ideyası da reallığa qovuşdu. Təsadüfi deyil ki, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin tikintisi və onun istifadəyə verilməsi, elə "Əsrin Kontraktı" kimi çox möhtəşəm tarixi hadisə sayılır. Möhtərəm prezidentimiz İlham Əliyevin də qeyd etdiyi kimi, BTC-nin tikilib istifadəyə verilməsi təkcə ona görə tarixi hadisə sayılmır ki, o ilk dəfə olaraq Xəzər dənizinin neftini Aralıq dənizinin bazarlarına çıxardı, həm də ona görə ki, bu kəmər yeni bir yol, yeni bir dəhliz açdı [4]. Bölgədəki çox çətin geosiyasi vəziyyətə baxmayaraq xarici investorlar bu layihəyə də böyük vəsait cəlb etdilər, beynəlxalq maliyyə qurumları isə öz dəstəyini göstərdilər. Bununla da neft kəmərlərinin şaxələndirilməsi ilə bağlı ideya da reallaşdırıldı. Bu gün artıq üç istiqamətdən nəql edilən neftimiz (BTC əsas istiqamət olmaqla) dünya bazarlarına çox etibarlı şəkildə çatdırılır.

BTC-nin reallaşması Heydər Əliyevin neft strategiyasının ikinci böyük təntənəsi idi. "Əsrin Kontraktı " Azərbaycanın iqtisadi müstəqilliyinin və bununla həm də siyasi müstəqilliyinin məhək daşına çevrilərək azad iqtisadi mexanizmlərin tətbiqini və dünya iqtisadiyyatına dinamik inteqrasiyanı təmin edərək, ölkəmizin inkişafında müstəsna əhəmiyyətə malik rol oynamışdır. Sonrakı mərhələlərdə xarici investisiyaların, ən müasir avadanlıq və texnologiyaların, o cümlədən idarəetmə təcrübəsinin ölkə iqtisadiyyatına cəlb edilməsi yolu ilə yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsal edilməsi, dövlətimizin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsinə çevrilmişdir. Neftdən gələn gəlirlərin sayəsində maliyələşən daxili investisiyaların artımı hesabına iqtisadiyyatda tarazlı inkişaf təmin edilmiş, yüz minlərlə yeni-yeni iş yerlərinin açılması mümkün olmuşdur. Ölkə prezidenti möhtərəm İlham Əliyevin qeyd etdiyi kimi məhz bunun nəticəsində Azərbaycanda yoxsuluq səviyyəsində yaşayanların sayı ilbəil azalmaqda davam edir. Ölkəmizdə ilbəil artan büdcə gəlirləri sosial sahələrin ehtiyaclarının qarşılanmasında əhəmiyyətli mənbəyə çevrilmişdir. Təhsilə və səhiyyəyə, ordu quruculuğuna, eləcə də cəmiyyət həyatının digər sahələrinə yönəldilən vəsaitlər neft gəlirlərindən səmərəli istifadənin göstəriciləridir. Artıq ölkəmiz region dövlətləri arasında istər iqtisadi, istər siyasi, istərsə də hərbi cəhətdən qüdrətli bir dövlətə çevrilmişdir. Son illər Azərbaycanın təkcə müdafiə sahəsinə ayırdığı büdcə xərcləri təcavüzkar Ermənistanın bütün xərclərindən yüksək olur. Digər tərəfdən, Qarabağ həqiqətlərinin Dünyaya olduğu kimi çatdırılmasında da "Əsrin Kontraktı"nın müstəsna rolu olmuşdur. İkinci Qarabağ müharibəsində əldə etdiyimiz möhtəşəm qələbənin təməli də ulu öndərin neft strategiyası ilə qoyulmuşdu. "Əsrin Kontraktı" həm də Bakının dünyanın neft mərkəzi olmaq şöhrətini bərpa etdi, özünə qaytardı. O, Azərbaycanın bu gününü yaratdı, gələcəyini müəyyən etdi. Həm müasirlərimiz, həm də gələcək nəsillər üçün Neft Fondunu formalaşdırdı.

Ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında həyata keçirilən möhtəşəm quruculuq işləri də məhz "Əsrin Kontraktı"nın imzalanması, ulu öndərin neft strategiyasının reallaşması sayəsində mümkün olmuşdu (təkcə son bir neçə ildə respublikamızda həyata keçirilən quruculuq işləri bütün Sovet dövründə olduğundan daha çoxdur desək, zənnimcə yanılmarıq).

Qeyd etmək lazımdır ki, bu gün respublikamızda qeyri-neft sektorunun inkişafı da sürətlə gedir və buna təkan verən də məhz neft siyasəti, neft strategiyası olmuşdur. Onu da qeyd etmək vacibdir ki, " Əsrin Kontraktı" ulu öndər Heydər Əliyevin daha bir xidmətinin parlaq şəkildə üzə çıxmasına səbəb oldu. Belə ki, vaxtilə – 1970-ci illərdə Heydər Əliyev tərəfindən göstərilən təşəbbüslər nəticəsində yaradılmış infrastruktur kontraktın sürətlə icra olunmasına xidmət göstərdi. Əgər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə (sovet dövründə) dərin özüllər zavodunu tikdirməsəydi, müqavilənin icrası çox yubana bilərdi. Həmin dövrdə ulu öndərin Bakıda neft avadanlıqları zavodunu,

neftayırma və neft emalı zavodlarını və s. tikdirməsi, neftlə zəngin yataqların istismarını ləngidərək gələcək nəsillərə saxlaması da kontraktın imzalanmasına təkan verən amillərdən sayılmalıdır.

Beləliklə, müstəqillik əldə etdikdən sonra Azərbaycanın qazandığı bütün uğurlarda ulu öndər Heydər Əliyev siyasi kursunun və onun tərkib hissəsi olan neft strategiyasının əvəzedilməz rolu olmuşdur. Bu strategiya beynəlxalq birliyin Azərbaycana inamını, etimadını formalaşdıran əsas amildir. Bu, həm də iqtisadi amildən siyasi təsir vasitələrinə çevrilərək ölkəmizin geosiyasi maraqlarını təmin edən, qlobal məkana inteqrasiyanı reallaşdıran, Cənubi Qafqazda, eləcə də digər bölgələrdə enerji təhlükəsizliyini qoruyan və sabitliyi mühafizə edən, əhalinin sosial təminatını, dövlətin iqtisadi rifah və tərəqqisini stimullaşdıran vacib faktordur.

Bu gün ölkəmizin dinamik sosial-iqtisadi inkişaf yolunda inamla irəliləməsi, iqtisadi inkişaf tempinə görə böyük uğurlar qazanması, öz milli maraqlarını müvəffəqiyyətlə təmin etməyə qadir bir dövlət kimi müstəqil siyasət yürüdə bilməsi, iri tutumlu layihələri həyata keçirə bilməsi, büdcə gəlirlərini ildən-ilə əhəmiyyətli dərəcədə artıra bilməsi, müdafiə qüdrətini artırması və ikinci Qarabağ müharibəsində möhtəşəm qələbə çalması və s. Ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə əsasını qoyduğu neft strategiyası sayəsində mümkün olmuşdur. Sonralar respublikamızda qaz əsrinin başlanması, Avropanın enerji təhlükəsizliyinin təminində oynadığı mühüm rol da ulu öndərin neft strategiyası reallaşmadan mümkün olmazdı [5]. Şübhə yoxdur ki, bu siyasət bundan sonra da Heydər Əliyev siyasi kursunun layiqli davamçısı möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdiriləcəkdir.

## ƏDƏBİYYAT


1. Abbasov V.M., İbrahimov H.C., Hacıyeva S.R., Məmmədxanova S.Ə., Abdullayev E.Ş., Əmirov F.Ə. Neft və Qaz emalı proseslərinin kimyası və texnologiyası. Bakı: Elm, 2014, 408 s.
2. Bayramov M.R., Hacıyev M.M., Mirzəyeva M.R., Məmmədov İ.Q. Neft Kimyası və Neft-Kimya Sintezindən praktikum. Bakı, 2007, 359 s.
3. Флагман нефтехимической науки / Главный научный редактор академик М.И.Рустамов. Баку: Элм, 1999, 492 с.
4. Əliyev T. Ulu öndərin neft strategiyasının təntənəsi və ya "Əsrin müqaviləsi"ndən bizi ayıran 20 il. "İki sahil" qəz., 2015, 13 yanvar, s. 20.
5. Əliyev T. "Şahdəniz-2" layihəsinə aparan uzun və qətiyyətli yol və ya Azərbaycanın qaz strategiyasının tarixinə qısa baxış. "İki sahil" qəz., 2015, 17 yanvar, s. 16, 19.


***Elm və Təhsil Nazirliyi Təbii Ehtiyatlar İnstitutu***
***E-mail: tofig_aliyev@yahoo.com***

**Tofig Əliyev**

## THE FOUNDATIONS OF OUR CURRENT SUCCESS ARE LAID BY THE OIL STRATEGY OF THE GREAT LEADER HEYDAR ALIYEV

The article briefly discusses one of the numerous merits of the national leader, architect of the independent Republic of Azerbaijan Heydar Aliyev to our people - the oil strategy. The socio-political situation in our republic is analyzed on the eve of the signing of the "Contract of the Century", the obstacles created by the signing of this contract are commented, and for this reason it was very difficult to attract foreign investors to our country, it seems like a miracle, but the outstanding talent and world reputation of the great leader helped overcome all these difficulties. The successes achieved in all spheres of public life of our country after the signing of the agreement are shown.

**Keywords:** *national leader, Heydar Aliyev, oil strategy, Contract of the century.*

**Тофик Алиев**

## ОСНОВЫ НАШЕГО СЕГОДНЯШНЕГО УСПЕХА ЗАЛОЖЕНЫ НЕФТЯНОЙ СТРАТЕГИЕЙ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

В статье кратко рассматривается одна из многочисленных заслуг общенационального лидера, архитектора независимой Азербайджанской Республики Гейдара Алиева перед нашим народом – нефтяная стратегия. Анализируется общественно-политическая ситуация в нашей республике накануне подписания «Контракта века», комментируются препятствия, созданные подписанию этого контракта, и по этой причине было очень трудно привлечь иностранных инвесторов в нашу страну, это кажется чудом, но незаурядный талант и мировая репутация великого вождя помогли преодолеть все эти трудности. Показаны успехи, достигнутые во всех сферах общественной жизни нашей страны после подписания договора.

**Ключевые слова:** *общенациональный лидер, Гейдар Алиев, нефтяная стратегия, контракт века.*

**RAMİZ QASIMOV**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ

*Məqalə ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının milli ideologiyası və azərbaycançılıq məfkurəsinin formalaşmasında olan xidmətlərindən bəhs edir. Qeyd edilir ki, Azərbaycan xalqının bütün tarix boyu formalaşan ümummilli ideya və dəyərləri məhz görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən vahid bir konsepsiyada birləşdirilərək milli ideologiya olaraq formalaşdırılmışdır. Məqalədə bu da göstərilir ki, ümummilli ideyalar, xüsusilə milli mənsubiyyət hissi və Azərbaycan xalqına mənsubluq duyğuları, istiqlal düşüncəsi, azərbaycanlıların həmrəyliyi, ana dili və digər milli keyfiyyətlərin birləşdirici dəyər kimi çıxış etməsi və s. xüsusilə XX əsrin əvvəllərindən Azərbaycan ədəbi və ictimai düşüncəsində yer almışdır. Ümummilli lider Heydər Əliyevin çoxcəhətli və zəngin təcrübəsi sayəsində məhz bu ideyalar bitkinləşərək Azərbaycan xalqının milli ideologiyasının nüvəsini təşkil edən azərbaycançılıq məfkurəsini ortaya çıxarmışdır. Ulu öndər Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq məfkurəsinin təməl prinsipini milli mənsubiyyət hissi və vətənçilik təşkil etmişdir. Bu başlıca prinsipin, müddəanın əhatəsində digər – dünya azərbaycanlılarının birliyi, ana dili və digər milli dəyərlər birləşdirici dəyərlər kimi və s. əsaslı yer tutmuşdur.*

**Açar söz:** *Heydər Əliyev, ümummilli lider, milli ideologiya, azərbaycançılıq məfkurəsi.*

Azərbaycançılıq məfkurəsinin Azərbaycan xalqının milli ideologiyası kimi formalaşması və bitkinləşməsində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. “Çoxəsrlik tarixi inkişaf yolu keçmiş azərbaycançılıq ideyasını milli dövlətçilik ideologiyası səviyyəsinə çatdırılması da məhz Heydər Əliyevin tarixi xidmətlərindəndir” [5, s. 7]. Özünəqədərki ideoloji tezisləri təcrübə edən dahi və müdrik lider Heydər Əliyev uzunmüddətli liderlik dönəmində bu məfkurənin həyata keçirilməsi və kütləviləşməsi naminə əvəzsiz xidmətlər göstərmişdir.2023-cü ilin ölkəmizdə “Heydər Əliyev ili” elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamında da deyildiyi kimi: “Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir” [15].

Aparılan statistik araşdırmaların nəticəsinə baxış olaraq demək olar ki, dünyada təxminən 2000-2500 xalq, 3500-4000 dil [17], BMT-nin hesablamalarına görə BMT-nin üzvü olan, iqamətgahda bayrağı dalğalanan müstəqil dövlətlərin sayı 193, ümumi ölkələrin sayı 195, bütün regional xüsusiyyətlər də nəzərə alınmaqla 208 ölkə mövcuddur [18; 19]. Bu baxımdan bütün əhəmiyyətilə qiymətləndirmək lazımdır ki, XXI əsr və yeni minilliyə doğru öz dövlətinin suverenliyini, xalqının dilini, ölkəsinin varlığını qorumaq və dünya ölkələri sırasında bayrağı və dövlətçilik dəyərlərilə tanınmaq məhz Azərbaycan xalqının ən böyük və misilsiz nailiyyəti olmuşdur. Bütün bu nailiyyətlərin qazanılması və uğurlara imza atılmasında isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əvəzsiz xidmətləri və taleyüklü qərarları başlıca rol oynamışdır. Ulu öndər özü də bunu məxsusi vurğulayaraq demişdir ki, “XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır” [3]. Bu baxımdan “Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur” [16].

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının tarixi taleyində çoxsaylı əvəzedilməz xidmətlərilə yadda qalmışdır. Bu misilsiz xidmətlər sırasında Azərbaycan xalqının milli ideologiyası və məfkurəsinin formalaşmasındakı əvəzolunmaz rolu məxsusi olaraq vurğulanmalıdır. Ən qədim dövrlərdən formalaşan, uzun əsrlərin və tarixi proseslərin sınağından çıxaraq milli-ictimai düşüncəmizə daşınan dəyərlər və ideyaların ümumxalq məfkurəsi olaraq siyasi cəhətdən bitkinləşməsi və formalaşması müdrik lider Heydər Əliyevin adı ilə bağlıdır [11, s. 20]. “Azərbaycançılıq anlayışı milli siyasi müstəvidə özünün ən yüksək ifadəsini ümummilli liderimiz Heydər Əliyevin düşünülmüş və məqsəd-

yönlü siyasəti sayəsində tapa bilmişdir. Məhz görkəmli dövlət xadimi Heydər Əliyev çoxəsrlik tariximizdə ilk dəfə olaraq azərbaycançılığı müstəqil Azərbaycan dövlətinin ideologiyası səviyyəsinə çatdırmağa nail olmuşdur. Böyük və uzaqgörən siyasətçi Heydər Əliyevin apardığı müdrik siyasətin nəticəsində artıq Azərbaycançılıq dünya azərbaycanlılarının vahid milli amalına çevrilmişdir" [6, s. 25]. Bu mənada azərbaycançılığın milli ideologiya kimi bitkinləşməsi və formalaşmasının müəllifi, banisi məhz ümummilli lider Heydər Əliyevdir.

İdeologiyanı səciyyələndirən və şərh edən müəlliflər qeyd edirlər ki, "İdeologiya dedikdə insanların bütövlükdə gerçəkliyə olan münasibətlərinin ümumiləşdirilmiş və həm də sadə, anlaşıqlı şəkildə ifadə olunmuş əqli və mənəvi-ruhi dəyərlər sistemi nəzərdə tutulur. İdeologiya insanların düşüncə, fəaliyyət və həyat tərzini istiqamətləndirən mənəvi enerji və qüvvədir. İnsanın istək və arzularının həyata keçməsi, reallaşması imkanının olması inamıdır. ...İdeologiya həm dini etiqadı, həm də müasir elmin nailiyyətlərini özündə vəhdət halında birləşdirən, hər ikisi üçün "nəyin naminə" sualına cavab verə bilən humanizmə, hər şeyin insanın cismani və ruhi-mənəvi varlığının rahatlığına və zənginliyinə xidmət edə bilən ideyalara əsaslanmalıdır" [14]. Bu cəhətdən azərbaycançılıq məfkurəli milli ideologiyamız vətənə bağlılıq, vətənçilik prinsipi üzərində bərqərar olmaqla həm də vətəndaşlıq vəzifələrinin strateji fəaliyyət məzmunu və məcmusu kimi çıxış edir. Bu məfkurə zəngin həyat təcrübəsi üzərində qurulmaqla vətəni sevməyi, birləşdirici dəyərlər ətrafında sıx və möhkəm birləşməyi, vətən və dövlət naminə ümummilli mənafelər istiqamətində yaşamağı və fəaliyyət göstərməyi tələb və təlim edir. Buna görə də ümummilli ideologiyamızın məzmunu əhatəli, hərtərəfli və konkret məqsəd və amallar istiqamətlidir. Milli məfkurə eyni zamanda hər bir vətəndaşın ümummilli ideya və ideallar naminə fəaliyyət göstərmək xəritəsi, yaşamaq meyarı, mücadilə strategiyasıdır.

Görkəmli dövlət xadimi və əbədiyaşar liderimiz Heydər Əliyevin həyat təcrübəsi və müdrik zəkasından doğan kəlam və fikirləri Azərbaycan xalqının ümummilli ideologiyasının məğzi, tezisi və onun "ayələri"dir. Ulu öndər Heydər Əliyevin dərin zəka və başlıca fəaliyyətilə formalaşan Azərbaycan xalqının milli ideologiyasının əsasını azərbaycançılıq məfkurəsi təşkil edir. Azərbaycançılıq məfkurəsinin başlıca prinsipini, nəzəri əsasını vətənçilik – Azərbaycan xalqına mənsubluq, vətənə, torpağa bağlılıq və vətənpərvərlik duyğuları təşkil edir. Bu, həm də azərbaycanlılıq və azərbaycançılıq meyarı idi. Dahi liderin: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" [4] fikirləri azərbaycançılığın kəlmeyişəhadəti, andnaməsi kimi səslənir. Müdrik və uzaqgörən rəhbərin: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" [4] – müdrik kəlamı azərbaycançılıq ideologiyasının məzmunu, məğzi, miqyası, parametrləri və atributları haqqında müfəssəl göstəriş verən proqram xarakterli manifestidir. Dahi lider özünün müdrik kəlamı ilə Azərbaycan xalqının mənəvi mədəniyyəti, xəzinəsi və dəyərlərini ümummilli məfkurənin vacib, birləşdirici dəyərlərindən biri kimi qiymətləndirdiyi kimi bu dəyərlərə sayğını, hörməti və bağlılığı da milli vətəndaşlıq vəzifəsinin prioriteti olaraq dəyərləndirilmişdir.

Dahi lider məhz müdrik kəlamları daxilində çoxəsrlik zəngin Azərbaycan maddi və mənəvi mədəniyyətini də azərbaycançılığın dəyişilməz maddələri kimi təqdim etmişdir. Çoxəsrlik Azərbaycan ədəbiyyatı da ulu öndər Heydər Əliyev tərəfindən məhz bu milli ideologiyanın həm mənəvi qaynağı, ideoloji zəmini, mənbəyi kimi qəbul edilmiş, qiymətləndirilmişdir. Ümummilli liderin təbirincə milli ədəbiyyat: 1. Milli tarixi keçmiş və yaddaş; 2. Milli düşüncə, dəyərlər və ideyaların təcəssüm tapdığı mənəvi xəzinə; 3. İnsanları tərbiyə vasitəsi; 4. Diplomatik-siyasi təbliğat və münasibətlərin bir qolu kimi dəyərləndirilirdi. Buna görə də milli ədəbiyyata bağlılıq və onun mütaliəsi vətəndaşlıq tərbiyəsində mühüm vasitə olaraq göstərilirdi. Ümumiyyətlə, "Müstəqillik illərində mənəvi-əxlaqi dəyərlərə qayıdış, latın qrafikasına keçid, Qorqud, Manas və Füzuli yubileyləri, diasporun yaradılması, azərbaycanlıların dünya forumu ilə bağlı qərar və fərmanlar... milli-ideoloji prosesi, Vətənçilik düşüncəsini, ana dili şüurunu xeyli yüksəltdi. Bütün bunlar dilimizin, ziyalılarımızın, ən başlıcası isə milli şüurun, milli ruhun ölməzliyini, azərbaycançılıq ideyasının ən son, ən sivil Heydər Əliyev modelinin formalaşmasını təmin edirdi" [9, s. 299].

"Dahi liderin şəxsiyyəti xalqımızın ümummilli məsələlərinin təcəssüm və hərəkət xəritəsidir. Ümummilli liderimiz öz şəxsiyyəti ilə vətənçilik, vətəndaşlıq, azərbaycanlılıq və Azərbaycançılıq kimi vacib ümummilli xarakterin ideal daşıyıcısıdır. Ümummilli liderimiz bütün azərbaycanlılar üçün vətəndaşlığın və azərbaycanlılığın etalonu, meyarı, ölçüsü, nümunəsidir" [11]. Onun vətəndaşlıq nümunəsi böyük təlim-tərbiyə mənbəyidir. Təsadüfi deyilmir ki, Heydər Əliyev ən ideal vətəndaş, bütün zamanların ən böyük azərbaycanlısı və Azərbaycançısıdır. Dahi rəhbər Heydər Əliyev həm də öz uzaqgörənliyi və müdrikliyi ilə dünya azərbaycanlılarının həmrəylik ideyasının müəllifi, onun əbədi lideri, bütün azərbaycanlıların fəxri və ən mükəmməl şəxsiyyətidir. Akademik N.Cəfərov çox doğru qeyd edir ki: "Azərbaycan xalqı – azərbaycanlılar dünyanın müxtəlif ölkələrində ... yaşasalar da, onları bir-birinə bağlayan olduqca möhkəm mənəvi-ideoloji vasitələr vardır: bu, ana dilidir, ata yurdu – Vətəndir, tarixən formalaşmış etnik-mədəni sistemdir... Və milli liderdir!" [1, s. 484]. O lider ki: "Bizim hamımızın bir vətəni var – bu Azərbaycandır. Hamımız bu torpaqda yaşayırıq – bu Azərbaycan torpağıdır" [4], – deyə bütün azərbaycanlıları vahid vətən ətrafında birliyə, həmrəyliyə səsləmiş, vahid milli ideya və ideologiya ətrafında birləşdirmişdir. Müdrik liderin uğurlu siyasi varisi, böyük siyasətçi Prezident cənab İlham Əliyev də bu məntiqi-məfkurəvi məzmunu davam etdirərək Dünya azərbaycanlılarının III qurultayında həmrəylik məsələsinə, birlik ideyasının ortaya qoyduğu vəzifələrə, azərbaycançılıq məfkurəsinə diqqət çəkərək demişdir: "Bizim xaricdə yaşayan böyük ailəmiz vardır, bu, azərbaycanlılardır. Onlar öz doğma Vətəninə bağlı olan adamlardır. Bizi fərqləndirən əlamət ondan ibarətdir ki, harada yaşamağımızdan asılı olmayaraq, öz Vətənimizə bağlıyıq. Bura bizim vətənimizdir, hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi!" [21]

Fikrimizcə, ideal vətəndaşlıq bütöv, azad vətənin və milli birliyin təcəssümüdür. Dərin vətəndaşlığın şərtləri vətən və xalq bütövlüyünün sərhədləridir. Dünya Azərbaycanlılarının 2001-ci ilin 9-10 noyabrında keçirilmiş I Qurultayında ümummilli lider Heydər Əliyev demişdir: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir" [2]. Bu baxımdan ümummilli liderimiz Heydər Əliyevin həyatı, fəaliyyəti və əməlləri azərbaycançılığın kitabıdır. Heydər Əliyev vətənpərvərliyin, azərbaycançılığın mənəviyyat məktəbi, onun dərslik kitabıdır [10, s. 72]. Bu mənada ulu öndərimizin vaxtı ilə dediyi: "Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur" [4] sözləri elə dahi rəhbərin özü haqqında da deməyə, şamil etməyə imkan verir ki, onun vətənimizin bütövlüyü, azadlığı, dövlətçiliyi yolundakı qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Heydər Əliyev vətəndaşlığı bu bütövlüyün və birliyin təcəssümündən doğaraq azərbaycanlılığın mahiyyətini və azərbaycançılığın qayəsini müəyyən etmişdir. Müdrik rəhbərin: "Vətəndən, ana torpaqdan şirin şey yoxdur. Siz düşünməyin, Azərbaycan sizə nə etməlidir? Düşünün ki, siz Azərbaycan üçün nə etməlisiniz. Şərt odur ki, insan milləti, vətəni, torpağı üçün nə edib?" [4] kəlamı vətənə məhəbbətin və ona xidmətin əhəmiyyətinin ən sanballı ifadəsi, ideal vətəndaşlıq keyfiyyətinin təməl mənbəyidir. Çünki Azərbaycançılıq müəyyən mənada fərdi hisslər yaradırsa da, ümumən, ümumi-ictimai duyğular, vəzifələr müəyyənləşdirir. Dahi liderin bu fikirlərində də məhz bu keyfiyyət başlıca qayə olaraq vurğulanıb. Dahi lider hər bir azərbaycanlı qarşısında öz ölkəsi, vətəni, müstəqil Azərbaycan Respublikası üçün vətəndaşlıq məsuliyyəti və vəzifələrini müəyyənləşdirərək demişdir: "Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən!" [2] Bir ingilis dühası deyirdi ki: "Hər bir ingilis bilir ki, onun vətəni, dini və ailəsi ondan nə istəyir" və bununla da ingilisliyin mahiyyətini şərh etmişdir. Ümummilli liderimiz Heydər Əliyev isə öz dərin,

yığcam ibarəsi ilə: "Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır" [4], – deyərək azərbaycanlılığın və Azərbaycançılığın məğzini ifadə etmiş, azərbaycanlılığın mahiyyətini ölkəsinə, vətəninə, torpağına bağlılıqda, milli-mənəvi dəyərlərini qoruyub-yaşatmaqda görmüşdür. Buna görə ulu öndər Heydər Əliyevin ümummilli məfkurəsində ana dili məxsusi yer tutmaqla dünya azərbaycanlılarını birləşdirən vacib dəyər, birləşdirici əlamət kimi çıxış edirdi. Ulu öndərin təbirincə, ana dilini yaşatmaq Azərbaycanı yaşatmaq demək idi. Ana dilində danışmaq xəlqi bir düşüncəyə sahib olmaq demək idi. Buna görə də Heydər Əliyev xalqın parlaq siması və lideri olaraq özünün nitqinin xəlqiliyi ilə səciyyələnir və örnəyə çevrilirdi.

Dahi lider hər bir azərbaycanlı vətəndaşın qarşısında ən böyük vəzifə və məqsədi böyük təcrübənin və müdrikliyin qənaəti olaraq müstəqillik, azadlıq və bütövlük üzərinə vətəndaşlığın və vətənpərvərliyin düsturunu belə müəyyənləşdirmişdir: "Hər bir vətənpərvər adam millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin daimi, dönməz olması üçün səy göstərməlidir. Torpağımızı, vətənimizi, müstəqil Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü qorumaq ən şərəfli vəzifədir və bu vəzifəni həyata keçirmək hər bir Azərbaycan vətəndaşının borcudur. Azərbaycanlılar! Azərbaycan Respublikasının bu gününü və gələcəyini qoruyun!" [4] Vətənpərvərliyi insanda yüksək qiymətləndirən, ən böyük mənəvi dəyər və zənginlik hesab edən ümummilli lider: "Vətənpərvərlik hər bir insanın daxilindəki duyğularıdır. Əgər bu, yoxdursa, o insan mənəviyyatsızdır" [4], – deyərək vətənə, milli soy-kökə bağlılığı ən ali mənəvi dəyər kimi bütün insan ömrünün mənası, həyatın, yaşamın qayəsi, vətəndaşlığın ideal ifadəsi hesab etmişdir. Azərbaycan bir vətən kimi müqəddəs mənasını bu böyük dahinin fikir və nümunəvi ideal sevgisində tapmışdır: "Bizim hamımızın bir vətəni var – bu Azərbaycandır. Hamımız bu torpaqda yaşayırıq – bu Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir. Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi vətəni, doğma ata-baba ocağıdır. Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır!" [2] Ümummilli lider: "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir" [4], – deyərək: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" [4] milli qürur hissi və heysiyyətini ifadə etmiş, gənc nəsillərə vətəndaşlıq və vətənpərvərliyin, milli məfkurənin ən böyük nümunəsini, ən ideal, dəyərli sözünü miras qoymuşdur. "Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır. Vətənini, torpağını, dövlətini, öz müstəqil Azərbaycanını qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir. Xalqımızın, Vətənimizin, Respublikamızın taleyi hər bir insanın taleyinə çevrilməlidir" [4] hikmət dərsləri ilə vətənpərvərliyin məzmununu ifadə etmiş, onun iman dolu sözlərini yazmışdır.

Dahi rəhbərin bütün həyatı və fəaliyyətində olduğu kimi, zəngin hikmət, müdriklik dolu fikirlərində də Azərbaycan müqəddəs vətən, iman, güman, qibləgah, səcdəgahdır. Bu böyük insanın, əvəzolunmaz qüdrətli xarakter və şəxsiyyətin məzmununda, onun sərhədləri və mənəvi miqyasında, idealları və fəaliyyət təhrikində müstəqilliyi əbədi və dönməz olan bütöv, böyük Azərbaycan özünü parlaq surətdə təcəssüm etdirir. Onun idealları və şəxsiyyəti kimi, yaratdığı müstəqil Azərbaycanın siyasi kursu da böyük Azərbaycanın təməli və qarantıdır. Böyük Azərbaycan bu günün, bəlkə sabahın da gerçəkliyi deyil. Ancaq unutmuruq ki, biz dünyanın 50 milyonluq və qədim dövlətçilik ənənələrinə malik bir xalqıyıq. Bu mənada ümummilli liderimizin həyatı və fəaliyyətinin istiqamətləndiyi böyük Azərbaycan idealı hər bir azərbaycanlının hərəkətə gətirəcəyi ən ümdə, vacib, gündəlik və tarixi bir vəzifədir. Bu gün olmasa da, tarixin və zamanın tanıdığı bu ideal gələcəyin zəruri gerçəkliyidir. Azərbaycanı həqiqi mənada sevmək və sevdirmək, bütöv, müstəqil və böyük Azərbaycan idealı ilə yaşamaq və onu mənəviyyatında gələcəyə daşımaq, təlqin və təbliğ etmək ümummilli liderin ən böyük örnəyi, gələcək nəsillərə, yeni əsrin, yeni minilliyin gənclərinə ən böyük mirası, vərəsəsi idi. "Qüdrətli hökmdarlar dövlətləri yaradır, qoruyur, zəif, səriştəsiz hökmdarlar isə dağıdırlar" [13, s. 5]. Bu mənada ümummilli lider Heydər Əliyev konstruktiv-qurucu şəxsiyyət idi. Öz xarakterik keyfiyyətləri ilə də ümummilli liderimiz tarixi xidmətləri və fəaliyyət miqyası ilə tariximizin bir çox şəxsiyyətlərindən ucada dayanır. Səmimi olaraq demək olar ki, o, şəxsiyyətlər içərisində fövqəl şəxsiyyətdir. Yoxdan

Azərbaycan yaratmaq və azərbaycanlı millətini formalaşdırmaq bu böyük şəxsiyyətin unikal xidmətlərindən biri, elə birincisidir. "Heydər Əliyev milli məfkurə daşıyıcısı, sözün geniş, tarixi-fəlsəfi mənasında milli hərəkat lideri idi. Yalnız uzaqgörən, sağlam düşüncəli, müdrik liderə malik olan milli hərəkat, milli inkişaf özünün ali məqsədinə yetişə bilər" [20, s. 226]. Fikrimizcə, Heydər Əliyev şəxsiyyəti özündə böyük Azərbaycan idealını daşımaqla onun xəritəsi, ideya, fikir mövcudluğu, təcəssümüdür. Bu mənada Heydər Əliyevin ömür yolu, həyat fəaliyyəti və fikir ümmanında Vətən qibləsinə durub Azərbaycan adlı Tanrıya səcdə edən, iman dolu sözlərini inam və imanla ifadə edən vətəndaşın ibadəti görünür. Əlbəttə, nəsillərə bunu mənimsətmək Heydər Əliyevçiliklə azərbaycançılığı, vətənə, xalqa iman bəsləməni, azadlığa baş qoymanı mənimsətmək təhsil, təlim və tərbiyə sistemimizin əsas məğzi, mənası olmalıdır. Buna görə müdrik liderin siyasi kursunun uğurlu davamçısı, Dünya azərbaycanlılarının lideri cənab İlham Əliyev dahi lider Heydər Əliyevin müdrik ideyası olan dünya azərbaycanlılarının həmrəyliyi ideyasının məzmunun şərh edərkən demişdir: "Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsas məzmununu xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, vətənə bağlılıq, azərbaycançılıq duyğuları və ideyaları təşkil edir. Bu yüksək ideyaların birləşdirici dəyərlər kimi bütün dünyada yaşayan azərbaycanlılar arasında yayılması, dilimizin, mədəniyyətimizin, mütərəqqi adət-ənənələrimizin yaşadılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin müqəddəs amalı idi" [8, s. 181]. Bu baxımdan görkəmli elm adamı akademik İsa Həbibbəylinin təqdim etdiyi "Azərbaycançılıq ideologiyası konsepsiyası" adlı layihədə deyildiyi kimi: "Azərbaycançılıq – müstəqil Azərbaycan Respublikasının dövlət ideologiyasıdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu, Azərbaycançılıq dövlət ideologiyasının yaradıcısıdır" [7, s. 3].

Beləliklə, ən qədim dövrlərdən formalaşma və inkişaf yolu keçən Azərbaycançılıq məfkurəsinin milli ideologiya kimi müəyyənləşməsində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Ümummilli lider Heydər Əliyev zəngin və çoxcəhətli təcrübəsi və bilikləri ilə Azərbaycançılıq ideologiyasının yetkinləşməsinə xidmət etmiş, siyasi cəhətdən bitkinləşməsi və ümummilli ideologiya olmasında əvəzsiz xidmətlər göstərmişdir. Ümummilli lider Heydər Əliyev Azərbaycançılıq məfkurəsinin ideoloqu və dünya azərbaycanlılarının əbədi lideridir. Azərbaycançılıq məfkurəsi ictimai şüurun bütün formaları və inkişafın bütün istiqamətlərini özündə əhatə və ehtiva etməklə Azərbaycan xalqının milli varlıq və inkişaf strategiyası kimi mühüm əhəmiyyət kəsb edir, azərbaycançılıq şüurunu və azərbaycanlılığın məzmununu müəyyənləşdirir.

## ƏDƏBİYYAT

1. Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı: Az AtaM, 2002, 602 s.
2. Dünya azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. "Azərbaycan" qəz., 2001, 10 noyabr.
3. Əliyev H. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə xalqa müraciət. "Respublika" qəz., 2000, 30 dekabr.
4. Əliyev H. Müstəqillik yolu: Seçilmiş fikirlər / Tərtib edənlər Ş.Əsgərov, S.Xəlilov. Bakı: Azərbaycan Universiteti, 1997, 136 s.
5. Hacıyev İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003, 164 s.
6. Həbibbəyli İ. Milli ideologiya: Azərbaycançılıq / Naxçıvan, 2012, № 25.
7. Həbibbəyli İ. Azərbaycançılıq ideologiyası konsepsiyası (layihə) / AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası, 2015, № 1.
8. Əliyev İ. İnkişaf məqsədimizdir. II kitab, Bakı: Azərnəşr, 2009, 432 s.
9. Qasımov C. Heydər Əliyevin milli ideologiya modeli // "Azərbaycanşünaslığın aktual problemləri" IV beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 2013, 584 s.
10. Qasımov R., İsmayıl Z. Müstəqillik yollarında: Liderlik missiyası. Naxçıvan: Əcəmi, 2016, 210 s.
11. Qasımov R. İsmayıl Z. Azərbaycan ədəbiyyatında milli düşüncə konsepsiyası və azərbaycançılıq ideologiyası. Bakı: Elm və Təhsil, 2017, 192 s.

12. Qasımov R. Milli ideologiyamızın banisi və liderlik missiyası. "İki sahil" qəz., 2023, 16 fevral, s. 4.
13. Süleymanov O. İki əsrin qəhrəmanı / Axundova E. Heydər Əliyev şəxsiyyəti və zaman. I hissə, Bakı: Ozan, 2007, 352 s.
14. Şirinov A. Milli ideologiya və onun prinsipləri. "Xalq" qəz., 2009, 18 oktyabr, s. 4.
15. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // https://president.az/az/articles/view/57413
16. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90-illik yubileyi haqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // http://president.az/mobile/articles/7119
17. Dünyada kaç halk var, kaç dil var? // https://dunyada-kac-halk-var-kac-dil-var.nedir.org.
18. Dünyada kaç ülke vardır? // https://www.milliyet.com.tr/molatik/dunya/dunyada-kac-ulke-vardir-71415
19. Dünyada kaç ülke var? // https://www.haberler.com/haberler/dunya-da-kac-ulke-var-2021-dunya-da-kac-ulke-var-14116415-haberi
20. Hüseynova İ. Cəmiyyəti milli ideya ətrafında birləşdirən lider: Məqalələr (2009-2014-cü illər) // http://dq.mia.gov.az/upload/2.pdf
21. http://www.president.az/documents/statements

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ramizqasimli44@gmail.com***

**Ramiz Gasymov**

## THE NATIONAL LEADER HEYDAR ALIYEV AND THE IDEOLOGY OF AZERBAIJANISM

The article highlights the merits of the national leader Heydar Aliyev in the formation of the national ideology of the Azerbaijani people and the ideology of Azerbaijanism. It is noted that the national ideas and values of the Azerbaijani people that have been formed throughout history were combined into a single concept by the outstanding statesman Heydar Aliyev and formed as a national ideology. The article also shows that national ideas, especially the feeling of national belonging and belonging to the Azerbaijani people, the idea of independence, the solidarity of Azerbaijanis, the native language and other national qualities that act as a unifying value, etc. especially from the beginning of the 20th century took place in the literary and social thought of Azerbaijan. Thanks to the multifaceted and rich experience of the national leader Heydar Aliyev, these ideas were completed and the ideology of Azerbaijanism appeared, which is the core of the national ideology of the Azerbaijani people. The feeling of national belonging and patriotism formed the basis of the ideology of Azerbaijanism, formed by the great leader Heydar Aliyev. Within the framework of this main principle and provision, there are others – the unity of the Azerbaijanis of the world, the native language and other national values that unite values, etc. occupied an important place.

**Keywords:** *Heydar Aliyev, national leader, national ideology, Azerbaijani ideology.*

**Рамиз Гасымов**

## ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА

В статье освещаются заслуги общенационального лидера Гейдара Алиева в формировании национальной идеологии Азербайджанского народа и идеологии азербайджанства. Отмечается, что формировавшиеся на протяжении истории национальные идеи и ценности Азербайджан-

ского народа были объединены в единую концепцию выдающимся государственным деятелем Гейдаром Алиевым и сформировались как национальная идеология. В статье также показано, что национальные идеи, особенно чувство национальной принадлежности и принадлежности к Азербайджанскому народу, идея независимости, солидарность азербайджанцев, родной язык и другие национальные качества, выступающие в качестве объединяющей ценности и т.д. особенно с начала 20 века имели место в литературной и общественной мысли Азербайджана. Благодаря многогранному и богатому опыту общенационального лидера Гейдара Алиева эти идеи были завершены и появилась идеология азербайджанства, составляющая ядро национальной идеологии азербайджанского народа. Чувство национальной принадлежности и патриотизм легли в основу идеологии азербайджанства, сформированной великим лидером Гейдаром Алиевым. В рамках этого главного принципа и положения есть и другие - единство азербайджанцев мира, родной язык и другие национальные ценности, объединяющие ценности и т.д. занял существенное место.

**Ключевые слова:** *Гейдар Алиев, общенациональный лидер, национальная идеология, азербайджанская идеология.*

XƏZƏR HÜSEYNOV

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN UĞURLU NEFT STRATEGİYASI

*Bu və ya digər məqalələr kimi,ulu öndər Heydər Əliyevin uğurlu neft strategiyası mövzusu da elmi maraq yaradır. Məqalədə müstəqillik illərində Azərbaycanda həyata keçirilən neft sənayesinin inkişafı tədqiq olunur.*

*Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan "Əsrin müqaviləsi" ölkəmiz üçün həm iqtisadi, həm də siyasi baxımdan böyük əhəmiyyət kəsb edir, dünya iqtisadiyyat birliyinə inteqrasiyanı daha da sürətləndirməyə və xarici sərmayələrin cəlb olunmasına yeni imkanlar yaradır.*

*Neft sənayesi Azərbaycanın milli iqtisadiyyatının aparıcı sahələrindən biri olub, ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Hazırda ölkəmizin dünya təsərrüfat sisteminə inteqrasiya olunduğu dövrdə bu sənaye sahəsinin inkişaf etdirilməsi, onun ixrac imkanlarını tədqiq edilməsi daha aktual əhəmiyyət kəsb edir.*

*Onu da qeyd etmək lazımdır ki, neft məhsullarının istehsalının artırılması və bu əsasda onun ixracının çoxaldılması respublikamızın inkişafının hazırkı mərhələsində yalnız dünya bazarına çıxmaq və valyuta təsərrüfatını gücləndirmək məqsədi güdmür. Burada qlobal məqsəd Azərbaycanın dövlət müstəqilliyinin hazırkı mərhələsində neft amilindən istifadə edib respublikamızın siyasi müstəqilliyini beynəlxalq səviyyədə möhkəmləndirməkdən ibarətdir.*

*Məqalədə Azərbaycanda neft sənayesinin inkişafında olan nailiyyətlər statistik məcmuələr, çap edilmiş bu və ya digər müəlliflərin əsərlərindən, məqalələrdən, dövrü mətbuatdan istifadə edilərək elmi dövriyyəyə daxil edilmişdir.*

**Açar sözlər:** *Əsrin müqaviləsi, neft sənayesi, neft kəməri, neft strategiyası, neft şirkətləri, iqtisadi inkişaf.*

Ulu öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gəlişindən sonra ölkəmizdə siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı. Həmin dövrdə respublikamızın qarşılaşdığı iqtisadi çətinliklərin həlli yollarından biri də məhz neft və qaz hasilatının artırılması idi. Ölkənin maliyyə vəsaitinin məhdudluğu, neft və qaz sənayesinin müasir dünya texnologiyalarından geri qalması xarici neft şirkətlərini bu sahəyə sərmayə qoyuluşuna cəlb etmək zərurətini meydana çıxarmışdı. Lakin ölkədə baş verən daxili proseslər – separatçılıq niyyətləri, hüquqi və inzibati özbaşınalıqlar, eləcə də, Ermənistanın ərazilərimizə təcavüzü xarici ölkələrin neft şirkətlərini ciddi narahat etdiyindən, onlar Azərbaycan neft sənayesinə sərmayə qoymaqdan çəkinirdilər. Heç bir əcnəbi sərmayəçi Azərbaycana investisiya qoymağa ürək etmirdi, onlarda yatırdıqları pullara təminat verilib-verilməyəcəyi barədə tərəddüdlər var idi.

Müasir Azərbaycanın iqtisadi inkişafında,onun dünya müstəvisində öz sözünü deyəbiləcək bir güc əldə etməsində mühüm rola malik Əsrin müqaviləsini reallaşdırmaq bu baxımdan çox böyük cəsarət, təcrübə və qətiyyət tələb edirdi. O dövrdə bütün təzyiqlərə baxmayaraq, reallaşdırılan bu böyük layihənin gələcəyini ulu öndər Heydər Əliyev hamıdan yaxşı görür, onun reallaşdırılması üçün mühüm tədbirlər həyata keçirirdi. Həmin dövrdə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni dövlət neft strategiyası hazırlandı və uğurla həyata keçirilməyə başlandı. Bu, Azərbaycan neft sənayesində yeni eranın başlanğıcı idi [1, s. 374].

Ulu öndər Heydər Əliyevin tapşırığı ilə xarici neft şirkətlərini Azərbaycanın neft sənayesinə birgə işə cəlb etmək üçün müxtəlif səviyyələrdə danışıqlar aparılmağa başlandı. Ən vacib görüşlərdən biri isə ulu öndərin birbaşa təşəbbüsü və iştirakı ilə 1993-cü il avqust ayının 13-də dünyanın aparıcı neft şirkətlərinin nümayəndələri ilə Bakı şəhərində keçirildi. Həmin görüşdə xarici investorlarda Azərbaycanla bağlı olan inamsızlıq sindromu sındırıldı və neft sənayesinə sərmayə qoyuluşu üçün dərin inam yarandı.

Ümummilli lider bu görüşdən bir qədər sonra 1994-cü il fevralın 4-də "Azərbaycan Respublikasında dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" Sərəncam imzaladı. Bu sənəd respublikamızın dəniz neft və qaz yataqlarının kəşfində və işlənməsində xarici neft şirkətlərinin iştirakına dair bütün detalları özündə əks etdirirdi və sərmayəçilərin neft sənayesində iştirakına geniş şərait yaratdı.

1994-cü il iyulun 21-də Azərbaycan Dövlət Neft Şirkətinin danışıqlar aparan nümayəndə heyəti Qərb şirkətlərinin dəvəti ilə ABŞ-ın Hyuston şəhərinə gedərək müqaviləyə dair danışıqların 45 günlük son mərhələsini başa çatdırdı [3, s. 80].

Bundan sonra dünyanın aparıcı xarici neft şirkətlərinin – "AMOKO", "Britiş Petroleum", "Statoyl", "Pennzoyl", "Remko", "Yunokal", "Mak Dermott", "Türk Neft Şirkəti"nin Azərbaycan hökuməti ilə səmərəli və konkret nəticələrə səbəb olan danışıqları intensivləşdi. Artıq xarici neft kompaniyaları Xəzərin Azərbaycana məxsus "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının kəşfi, həmçinin işlənməsi ilə əlaqədar öz təkliflərini və investisiya proqramlarını hazırlamağa başladılar. Xarici dövlətlər dünyanın neft möcüzəsi olan Azərbaycanla uzunmüddətli sazişin imzalanmasına can atırdılar [7, 2012].

Nəhayət,1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında dünyanın 6 ölkəsinin (ABŞ, İngiltərə, Norveç, Türkiyə, Rusiya və Azərbaycan) 11 ən nüfuzlu neft şirkətinin iştirakı ilə tarixə "Əsrin müqaviləsi" adı ilə daxil olmuş neft müqaviləsi imzalandı. "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanda yeni neft strategiyasının əsası qoyuldu. "Əsrin müqaviləsi" adlanan müqavilə Azərbaycanın Xəzər dənizi sektorunda üç yatağın – "Azəri", "Çıraq", və "Günəşli" yataqlarının birgə istifadə olunmasını nəzərdə tutur [2, s. 320].

Müqavilə 30 il müddətində imzalanmışdır. Müqaviləyə əsasən, "Azəri" və "Çıraq" yataqları bütövlükdə, "Günəşli" yatağı isə suyun dərinliyi 200 metrdən çox olan hissəsi birlikdə istismar olunacaq və 511 milyon ton neft çıxarılacaqdı. Çıxarılan neftin 253 milyon tonu Azərbaycana çatacaqdı. Bu müqaviləni həyata keçirmək üçün kapital qoyuluşunun 80%-ni Qərb şirkətləri, yəni bu konsorsiuma daxil olan şirkətlər qoyacaqdı. Kapital qoyuluşu 1994-cü ilin qiymətləri ilə hesabladıqda Azərbaycana 34 milyard dollar məbləğində mənfəət gələcək bu müqavilənin mühüm cəhətlərindən biri də budur ki, həmin yataqlardan neftlə birlikdə çıxarılacaq 55 milyard kubmetr qaz yalnız Azərbaycana qalacaq [3, s. 81].

"Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlandı. Birinci növbədə 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində "Çıraq-1" platforması beynəlxalq standartlara uyğun, Qərb texnologiyası əsasında yenidən quruldu.

Qeyd etmək lazımdır ki, "Əsrin müqaviləsi"nə əsasən "Çıraq" yatağında qazılmış quyudan ilkin neft 1997-ci il noyabr ayında çıxarılmış və həmin il Rusiyanın Qara dəniz sahilindəki Novorossiysk limanına 120 min ton xam neft yola salınmışdır [5, s. 244].

1999-cu ildə Azərbaycanın mənfəət nefti ilə doldurulmuş ilk tankeri dünya bazarlarına çıxarıldı. Ulu öndər Heydər Əliyev neft strategiyasının əsas istiqamətlərindən biri kimi Azərbaycan neftinin dünya bazarlarına nəqlini vacib hesab edirdi. Burada əsas məqsəd Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artmasıyla əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Şərq-Qərb marşrutunun yaradılmasından ibarət idi. Məhz bu məqsədlə "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil olunan yanacağın Avropaya nəqlini təmin edə biləcək dəhlizinin yaradılması olduqca vacib sayılırdı. Ulu öndər Heydər Əliyev Azərbaycan neftinin Türkiyə vasitəsilə Qərbə ixracını nəzərdə tutan strateji marşrutun çəkilməsi üçün dövlətlərarası sazişin imzalanmasına çalışırdı. Bunun üçün regionda ən təhlükəsiz və uzunömürlü, rentabelli marşrut olan Bakı-Tbilisi-Ceyhanın (BTC) çəkilməsi təklif olunurdu [7, 2012].

Həmin dövrdə Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərləri Azərbaycan neftini dünya bazarlarına çıxarılmasında rol oynasa da, BTC qədər beynəlxalq miqyas və rentabelli ixrac dəhlizi sayılmırdı. İlkin dövrlərdə BTC-nin reallaşmasını istəməyən qüvvələr çox idi və onlar neftin digər marşrutlarla nəqlinə çalışırdı. Lakin həmin qüvvələrin müxtəlif təxribatlarına və təzyiqlərinə baxmayaraq, dahi şəxsiyyət Heydər Əliyevin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhanın çəkilməsinə dair sazişin imzalanması mümkün oldu. Türkiyə-Gürcüstan-Azərbaycan dövlətlərinin birliyi, Amerika Birləşmiş Ştatlarının dəstəyi, ən əsası isə ulu öndərin qəti əzmkarlığı nəticəsində çoxlarının əfsanə hesab etdiyi layihə reallığa, gerçəkliyə çevrildi.

1999-cu il noyabrın 18-də İstanbulda Azərbaycan, Gürcüstan və Türkiyə arasında Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Kəmərinin (ƏİK) çəkilməsi haqqında saziş imzalandı [5, s. 244].

2002-ci il avqustun 1-də bu kəmərin tikilməsi və idarə edilməsi üçün BTCKO (Bakı-Tiblisi-Ceyhan) şirkəti təsis edildi. 2002-ci il sentyabrın 18-də Bakıda ümummilli lider Heydər Əliyevin,

Türkiyə və Gürcüstan prezidentlərinin, ABŞ-ın energetika nazirinin iştirakı ilə BTC ixrac neft kəmərinin təməl daşı qoyuldu və kəmərin tikintisinə başlandı [1, s. 378]. İqtisadi islahatların davam etdirilməsi, Bakı-Tiblisi-Ceyhan neft kəmərinin tikintisinə start verilməsi, Bakı-Ərzurum qaz kəmərinin inşasına başlanması üçün aparılan təşkilati işlər ölkəyə xarici investisiyalar axınının sürətlənməsinə və xalqımızın rifahının yüksəlməsinə xidmət etdi.

Bakı-Tiblisi-Ceyhanın Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salındı. BTC dünya ölkələri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının əlaqələrinin yenidən qurulmasına təkan verdi, Azərbaycanın xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə səbəb oldu.

2007-ci il sentyabrın 1-nə olan məlumata görə, ilin əvvəllərindən BTC kəmərinə 18 milyon 864 min ton neft vurulmuş, Ceyhan limanından dünya bazarlarına 18 milyon 922 min ton neft göndərilmişdir. Ümumiyyətlə, istismara verildiyi gündən bəri isə BTC vasitəsilə 28 milyon 133 min ton neft nəql olunmuşdur ki, bunun da 26,6 milyon tonu dünya bazarlarına yola salınmışdır. BTC kəməri Mərkəzi Asiya neftinin də dünya bazarlarına çıxarılmasına imkan verir.

Bu gün ulu öndər Heydər Əliyevin adını daşıyan BTC beynəlxalq enerji təhlükəsizliyi sistemi baxımından, eləcə də, neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər, xüsusilə Mərkəzi Asiya dövlətləri üçün də müstəsna əhəmiyyət kəsb edir. Ötən müddət ərzində bu kəmərlə 166 milyon tondan artıq Azərbaycan nefti, 3 milyon tona yaxın türkmən nefti nəql olunub. Ümumiyyətlə, ilk ixrac neftinin nəqlinə başlanandan indiyədək respublikamızın neft hasilatı 5,6 dəfə, qaz hasilatı 5,2 dəfə artıb. İndiyədək Azərbaycanın neft-qaz sahəsinə 60 milyard dollara yaxın xarici sərmayə yatırılıb. Hazırda ABŞ, Çin, İngiltərə, Almaniya, Fransa, Hindistan, İsrail, Cənubi Koreya, Braziliya, İndoneziya, Çili, İspaniya da daxil olmaqla dünyanın 33 ölkəsinə Azərbaycandan xam neft və neft məhsulları ixrac edilir.

"Əsrin müqaviləsi" üzrə ilk neftin çıxarıldığı vaxtdan Azərbaycanda neft hasilatında ciddi yüksəliş əldə olunmuşdur. 2012-ci ildə ölkəmizdə 43 milyon 389,8 min ton neft hasil olunmuşdur ki, bunun da 8 milyon 289,8 min tonu ARDNŞ-in payına düşmüşdür [6, 2013].

Qarşıdakı illərdə dünyada neftlə yanaşı, qaza olan tələbat əhəmiyyətli dərəcədə artacaq və respublikamız bu dövrdə ən mühüm ixracatçılardan biri olacaq. 2015-ci ildə ölkə üzrə neft hasilatının 50-55 milyon tona, qaz hasilatının isə 30 milyard kubmetrə çatdırılacağı nəzərdə tutulur. 2017-ci ildən sonra, "Şahdəniz-2" həyata keçirildikdən sonra ölkənin qaz istehsalı 55 milyard kubmetrə çatacaq və bu, böyük həcmdir. "Ümid" və "Abşeron" yataqlarının karbohidrogen ehtiyatlarının nəql sisteminə cəlb olunmasından sonra bu rəqəm daha da artacaq və 2025-ci ildə bu rəqəmin 50 milyard kubmetrə çatacağı ehtimalı da var. Təbii qazın 35-40 milyard kubmetrinin ixracı nəzərdə tutulur. Bu faktor Azərbaycanın dünya qaz bazarında yüksək nüfuzunun artması üçün əlverişli sayıla bilər. Bu da Avropa bazarında Azərbaycanın mövqeyini daha da möhkəmləndirəcək. Bir neçə ildən sonra respublikamız dünyanın 50-ə yaxın ölkəsinə neft-qaz məhsulları nəql edəcək [7, 2012].

Bu gün Azərbaycan Cənubi Qafqaz regionunda lider dövlətdir. Bütün bu uğurların təməli Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən işlənib hazırlanan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən yeni neft strategiyasının, "Əsrin müqaviləsi"nin məntiqi davamı, təntənəsidir.

Ümummilli liderimiz Heydər Əliyev Əsrin müqaviləsinin ölkəmiz üçün əhəmiyyətindən bəhs edərək demişdir: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olunduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir" [4, s. 259].

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: 7 cilddə. VII c., Bakı: Elm, 2008, 608 s.
2. Azərbaycan iqtisadiyyatı. Bakı: Ağrıdağ, 1998, 400, s.
3. Quliyev A.Ə. Siyasətin gücü. Bakı: Azərnəşr, 1995, 105 s.
4. Əliyev H. Müstəqilliyimiz əbədidir. II c., Bakı: Azərnəşr, 1997, 604 s.
5. Süleymanov N.M. Azərbaycan iqtisadi tarixi. Bakı, 2001, 264 s.
6. Xalq qəzeti, 2013, 20 sentyabr.
7. "Yeni Azərbaycan" qəz., 2012, 22 sentyabr.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: xezerhuseynov@gmail.com***

**Khazar Huseynov**

## SUCCESSFUL OIL STRATEGY OF GREAT LEADER HEYDAR ALIYEV

Like this or that article, the topic of the successful oil strategy of the Great Leader Heydar Aliyev is also of scientific interest. The article discusses the development of the oil industry operating in Azerbaijan during the years of independence.

The "Contract of the Century", established by the Great Leader Heydar Aliyev, is of great importance for our country both economically and politically, it creates new opportunities for further accelerating integration into the world economic community and attracting foreign investment.

The oil industry is one of the leaders in the national economy of Azerbaijan and plays an important role in the socio-economic development of the country. At present, during the period of integration of our country into the world economic system, the development of this industry and the study of its export opportunities are becoming increasingly important.

It should also be noted that the development of the production of petroleum products and, on this basis, the development of the process of increasing the export of the republic is not aimed only at the world market and strengthening the foreign exchange economy. Here, the global goal is to preserve the independence of the state, using the current strong oil factor and maintaining the political independence of our republic at a high level.

In the article, achievements in the development of the oil industry of Azerbaijan are included in scientific circulation using statistical collections, published works of various authors, articles, periodicals.

**Keywords:** *Contract of the century, oil industry, oil pipeline, oil strategy, oil companies, economic development.*

**Хазар Гусейнов**

## УСПЕШНАЯ НЕФТЯНАЯ СТРАТЕГИЯ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

Подобно тем или иным статьям, тема успешной нефтяной стратегии Великого лидера Гейдара Алиева также вызывает научный интерес. В статье рассматривается развитие действовавшей в Азербайджане нефтяной промышленности в годы независимости

«Контракт века», учрежденный Великим лидером Гейдаром Алиевым, имеет большое значение для нашей страны как в экономическом, так и в политическом плане, создает новые возможности для дальнейшего ускорения интеграции в мировое экономическое сообщество и привлечения иностранных инвестиций.

Нефтяная промышленность является одним из лидеров национальной экономики Азербайджана и играет важную роль в социально-экономическом развитии страны. В настоящее время, в период интегрирования нашей страны в мирохозяйственную систему, развитие этой отрасли и изучение ее экспортных возможностей приобретают все более актуальное значение.

Также следует отметить, что развитие производства нефтепродуктов и на этой основе развитие процесса увеличения экспорта республики не направлено только на мировой рынок и укрепление валютной экономики. Здесь глобальная цель – сохранить независимость государства, используя нынешний сильный нефтяной фактор и поддерживая политическую независимость нашей республики на высоком уровне.

В статье достижения в развитии нефтяной промышленности Азербайджана включены в научный оборот с использованием статистических сборников, опубликованных работ тех или иных авторов, статей, периодической печати.

**Ключевые слова:** *Контракт века, нефтяная отрасль, нефтепровод, нефтяная стратегия, нефтяные компании, экономическое развитие.*

**ZEYNƏB QULİYEVA**

# AZƏRBAYCANDA MUZEY ARXEOLOGİYASININ FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

*Məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycan elminə və mədəniyyətinə göstərdiyi qayğı muzeylər timsalında işıqlandırılmışdır. Bu muzeylərdən bəzisi Azərbaycanda muzey arxeologiyası sahəsinin formalaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. AMEA Naxçıvan Bölməsinin Arxeologiya və Etnoqrafiya Muzeyi bu diyarda muzey arxeologiyasının formalaşmasına töhfə verə bilər. Aparılan araşdırmalar nəticəsində muzeyin fəaliyyət istiqamətləri müəyyən edilmiş, həmçinin qarşıda duran problemlərlə bağlı təkliflər irəli sürülmüşdür.*

**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycan muzeyləri, Arxeologiya və Etnoqrafiya Muzeyi, muzey arxeologiyası.*

**Giriş.** "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamı dövlətini parçalanmaqdan xilas etmiş bir fədakar tarixi şəxsiyyətə verilən layiqli qiymət olaraq, geniş ictimaiyyət tərəfindən yüksək əhval ruhiyyə ilə qarşılanmışdır. Xalqının qəlbində taxt qurmuş bu böyük şəxsiyyətin müstəqilliyimizin saxlanması və Azərbaycanın ərazi bütövlüyünün, o cümlədən milli-mənəvi dəyərlərinin qorunması üçün həyata keçirdiyi tədbirlər hər zaman minnətdarlıqla xatırlanır [7]. Belə tədbirlər tək hərbi sahə ilə məhdudlaşmayıb, iqtisadiyyat, elm və mədəniyyətin bir çox sahələrini əhatə etmişdir. Bu sahələrdən biri muzeylərin yaradılması ilə bağlı olmuşdur. Ümummilli lider muzeylərin tarixdəki rolunu yüksək qiymətləndirərək deyirdi: "Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır". Bu fikir onun Azərbaycanda hakimiyyətdə olduğu 1969-1982, 1993-2003-cü illərdə yeni muzeylərin yaradılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, hər cür dövlət qayğısı ilə əhatə olunması haqqında bir çox əhəmiyyətli qərarlar, sərəncamlar imzalaması ilə reallaşdırılmışdır. 1997-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyinin, 1998-ci ildə C.Məmmədquluzadənin ev muzeyinin, 2000-ci ildə "Xatirə" Muzeyinin, 2001-ci ildə Sədərək rayon Tarix-Diyarşünaslıq Muzeyinin, 2002-ci ildə Naxçıvan şəhərində B.Kəngərli Muzeyinin, Əcəmi seyrəngahında Açıq Səma Altında Muzeyin açılması [9, s. 256] Azərbaycanın mərkəz rayonları ilə bərabər sərhəd bölgələrində də bu sahəyə göstərilən dövlət qayğısının bariz nümunələrindən olmuşdur. Bu muzeylər profilinə görə tarix muzeyləri, incəsənət muzeyləri, ədəbiyyat muzeyləri, tarixi şəxsiyyətlərin ev muzeyləri kimi fərqli sahələri əhatə etməklə fəaliyyət göstərir [5, s. 301]. Tarix profilli muzeylər özünəməxsus tədqiqat və təbliğat istiqaməti ilə fərqlənmişdir. Onlar xalqımızın tarixi keçmişini maddi və mənəvi dəyərlərin sintezi halında təqdim edir. Ümummilli lider məhz bu dəyərin əhəmiyyətini vurğulayaraq deyirdi: "Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür" [4, s. 11]. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə milli dəyərlərimiz olan xalça, qədim qızıl, gümüş, mis əşyaların xaricə daşınması kimi təhlükəli prosesin qarşısı alındı [3, s. 199]. Bu dəyərlər muzeylərin əvəzolunmaz eksponatlarına çevrildi. Mədəni irsin qorunmasında ümummilli liderin imzasıyla "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" 1998-ci il 10 aprel tarixli və "arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə" 1999-cu il 20 oktyabr tarixli Respublika Qanunları qəbul edilmişdir [10, s. 5]. Bundan sonra arxeoloji tədqiqatlar geniş vüsət almışdır. Ənənəvi olaraq, belə tədqiqatlar elm-tədqiqat müəssisələri tərəfindən həyata keçirilir və əldə edilən tapıntılar fərqli muzeylərə verilirdi. Lakin dünya təcrübəsi muzeylərin saxlanma və təbliğat funksiyalarına tədqiqat profilini də əlavə etməklə məcrasını genişləndirməyin nə qədər əhəmiyyətli olduğunu göstərir. Bu amil muzey arxeologiyası sahəsinin formalaşdırılmasını zərurətə çevirmişdir.

Azərbaycanda muzey arxeologiyasının formalaşması. Arxeoloji irsin araşdırılmasının genişlənməsi muzey arxeologiyası sahəsinin formalaşmasına da stimul vermişdir. Bu, xüsusi bir elm sahəsi olub muzeylərin tək saxlama yerləri deyil, eyni zamanda elmi-tədqiqat məkanı olduğunu ehtiva edir. Bu proses muzey əməkdaşlarının bilavasitə arxeoloji qazıntılarda iştirakını, tapılan artefaktları işlə-

məsini, elmi dövriyyəyə daxil etməsini zəruri edir. Muzey arxeologiyası da muzey təsisatlarının elmi-tədqiqat fəaliyyətini, arxeoloji qazıntılarda iştirakını, tapıntıların laborator-kameral təsvirini aparmağı, həmçinin onları elmi dövriyyəyə buraxmağı özündə əks etdirir [11]. Bu da muzey əməkdaşlarının tədqiqatçılıq bacarığını aktivləşdirməyə xidmət edir. Bir çox ölkələrdə bu sahə hələ ötən əsrin əvvəllərində ortaya çıxmışdır [12, c. 343-350].

Azərbaycanda bu sahənin formalaşmasında ilk təşəbbüs Azərbaycan Tarixi Muzeyi tərəfindən göstərilmişdir. Bu məqsədlə muzey 1921-ci ilin iyun ayında Şirvanşahlar sarayına ilk arxeoloji kəşfiyyat səfərini, elə həmin ayda Gəncə qəzasına ilk arxeoloji qazıntı səfərini rəsmən təşkil etmişdir [13, s. 61]. 1922-23, 1926-28-ci illərdə davam etdirilən tədqiqatlar Azərbaycanda muzey arxeologiyasının ayrıca bir elmi-tədqiqat sahəsi kimi davamlı fəaliyyətini göstərirdi. Beləliklə, bu elm və mədəniyyət məbədi yarandığı gündən Azərbaycanın maddi mədəni, o cümlədən arxeoloji irsinin öyrənilməsi, qorunması və təbliği işində mühüm rol oynamışdır [8, s. 31]. Onun apardığı tədqiqatlar muzeyin Arxeoloji fondunu zənginləşdirmişdir. Elmi-tədqiqat institutları nəzdində yaradılmış bəzi muzeylərin də bu sahədə xidmətləri istisna deyil. Bu mənada AMEA tərkibində olan arxeologiya və etnoqrafiya muzeyləri diqqətə layiqdir. Bu məqalədə qarşıya qoyulan əsas məqsədlərdən biri də onlardan birinin fəaliyyətinə muzey arxeologiyası kontekstində nəzər salmaqdan ibarətdir.

AMEA NB Arxeologiya və Etnoqrafiya Muzeyi və bölgədə muzey arxeologiyasının inkişaf perspektivləri. Azərbaycan Respublikasında ayrıca olaraq arxeologiya və etnoqrafiya sahəsi üzrə təşkil olunmuş 3 muzeydən biri, muxtar respublikada isə bu sahədə yeganə olan Arxeologiya və Etnoqrafiya Muzeyi AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 10 iyun 2008-ci il tarixli 03 nömrəli Sərəncamı ilə təşkil olunmuşdur [1, s. 4]. Muzeyin təşkili Heydər Əliyevin 2002-ci ildə Naxçıvan Bölməsinin açılışı zamanı buradakı alimlərin qarşısına qoyulan prioritet məsələlərin həllinə yönəlmiş addımlardan biri olaraq da xüsusi əhəmiyyət kəsb edirdi. Muzeyin fondunu I Kültəpə, Ovçulartəpəsi, Maxta, Ərəbyengicə, Qız qala, Oğlanqala kimi onlarla abidədən aşkar olunmuş arxeoloji materiallar və etnoqrafik materiallar təşkil edir. Onların toplanması və sistemləşdirilməsi AMEA-nın müxbir üzvləri V.B.Baxşəliyev, H.Q.Qədirzadə və H.F.Səfərlinin təşkilatçılığı ilə həyata keçirilmişdir [1, s. 8]. Muzeyin başlıca funksiyası arxeoloji, etnoqrafik materialların və digər maddi-mədəniyyət nümunələrinin toplanması, mühafizəsi və gələcək nəsillərə çatdırmaqdan ibarətdir. Bu baxımdan, muzey 2 funksiyanı özündə ehtiva etməkdədir: maddi-mədəniyyət nümunələrinin mühafizəsi və mədəni irsimizin təbliği. Bu funksiyalar muzeydə tələbələrlə keçirilən açıq dərslərlə, muzeyin məlumat-bələdçi kitabçasının hazırlanması, muzeyə yeni materiallar gətirilməsi və bununla da ziyarətçilərin artırılması vasitəsi ilə həyata keçirilməkdədir [1]. Ziyarətçilər içərisində orta məktəb şagirdindən başlamış, yüksək elmi dərəcəli şəxslərə, həmçinin əcnəbi qonaqlara da rast gəlmək olur. Onlar burada Naxçıvanın qədim və zəngin tarixini, ardıcıl və sistemli şəkildə vərəqləmək imkanı qazanırlar. Bu mənada AMEA Naxçıvan Bölməsinin Arxeologiya və Etnoqrafiya muzeyi təkcə tariximizin, mədəniyyətimizin deyil, eyni zamanda mənəviyyatımızın da inkişaf dinamikasını nümayiş etdirmək kimi müqəddəs missiyanı yerinə yetirməkdədir.

Muzey Naxçıvan ərazisindən aşkar edilmiş maddi mədəniyyət nümunələrini mühafizə və təbliğ etməklə yanaşı arxeoloji materialların tədqiqində də mühüm rol oynayır. Muzeyin daxil olduğu şöbənin əməkdaşları 2017-2022-ci illərdə aparılmış arxeoloji qazıntılarda fəal iştirak etmişdir. Bu fəaliyyət özünü muzeyə daxil olan arxeoloji materialların qrafik təsvirlərinin hazırlanması və elmi dövriyyəyə daxil edilməsində də göstərir. Bu fəaliyyət hələlik AMEA NB Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda yaradılmış ekspedisiya ilə məhdudlaşsa da muzeyə ayrıca arxeoloji ekspedisiya ayrılması bu fəaliyyətin çərçivəsini genişləndirə bilər. Bu addım muzeyin Azərbaycanda muzey arxeologiyasının inkişafına özünəməxsus töhfə verməsini stimullaşdıra bilər.

**Nəticə.** Ümummilli lider Heydər Əliyevin elmə və mədəniyyətimizə göstərdiyi qayğı nəticəsində inkişaf etdirilən muzeylər tək milli-tarixi dəyərlərimizin mühafizə və təbliğ edilməsində deyil, həmçinin onların tədqiqində də mühüm rol oynamaqdadırlar. Bu sahədə tarix profilli muzeylər xüsusi əhəmiyyət daşıyır. Onlardan biri olan MATM Azərbaycanda muzey arxeologiyasının formalaşmasının pionerlərindən olmuşdur. Bu sahənin Azərbaycanın digər bölgələrində də inkişaf etdirilməsi yazı-

yaqədərki tariximizin öyrənilməsində olduqca vacibdir. Azərbaycanın ən qədim bölgələrindən olan Naxçıvan diyarında bu sahənin inkişaf etdirilməsi baxımından AMEA NB Arxeologiya və Etnoqrafiya Muzeyi daha perspektivli sayıla bilər. Muzeyin əsasən arxeoloji materiallar əsasında formalaşdırılması onun bu sahədə ixtisaslaşmasına şərait yaratmışdır. Profilinə görə muxtar respublikada yeganə olan bu muzey Naxçıvanda muzey arxeologiyasının inkişafını və istiqamətlərini stimullaşdıra bilər.

## ƏDƏBİYYAT


1. Arxeologiya və Etnoqrafiya Muzeyi: Məlumat-bələdçi / Tərtib edən Z.Quliyeva. Naxçıvan: AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatı, 2017, 36 s.
2. Azərbaycan Dövlət Muzeyinin 1921-ci ilin iyununda Gəncə qəzasında apardığı kurqanların qazıntısı haqqında hesabat. AMEA-nın Azərbaycan Tarixi Muzeyi, Elmi Arxiv, inv. № 36.
3. Cabbarov Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. Naxçıvan: Əcəmi NPB, 232 s.
4. Heydər Əliyev: deyilən söz yadigardır. Azərbaycanda Atatürk Mərkəzi, 2011, 31 s.
5. Quliyeva Z. Muxtariyyət dövründə Naxçıvanda yaradılan muzeylər / Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir (04-05 iyul 2014-cü ildə keçirilmiş Beynəlxalq konfransın materialları). Naxçıvan, 2015, s. 300-305.
6. Quliyeva Z. Arxeologiya və Etnoqrafiya Muzeyi 10 ildə. "Kaspi" qəz., 2018, 12 iyun.
7. Quliyeva Z. Ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası Naxçıvandan başlanır. "Nuh yurdu" qəz., 2023, 13 yanvar, № 1 (951), s. 1.
8. Quluzadə N. Qarabağın daş dövrü maddi mədəni irsi muzey arxeologiyası müstəvisində (Milli Azərbaycan Tarixi Muzeyinin nümunəsində) // Azərbaycan Arxeologiyası, 2001, c. 24, № 1, s. 31-48.
9. Rəhimov N. Naxçıvanda muzey işi tarixindən / Milli Azərbaycan Tarixi Muzeyi-2004: Elm toplusu. Bakı, 2004, s. 255-264.
10. Rəhimova M. Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinin inkişafında ulu öndər Heydər Əliyevin rolu / 2018-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları. Elmi sessiyanın materialları. Bakı, 2019, s. 3-6.
11. Пудовкіна А.С. Музейна археологія Радянської України у 1920-х-першій половині 1930-х рр.: до постановки проблеми // Актуальні проблеми вітчизняної та всесвітньої історії, Х., 2010. вип. 13, с. 206-214.
12. Яненко А.С. Музейная археология советской Украины 1920-х-первой половины 1930-х гг.: этапы развития // Археологія і давня історія України: Зб. наук. пр., Київ: ІА НАН України, 2012, вип. 9, с. 343-350.
13. Kərimova E. Azərbaycan Tarixi Muzeyinin ilk arxeoloji ekspedisiyaları // Mədəniyyət, 2018, № 1, s. 60-62.


***AMEA Naxçıvan Bölməsi***
***E-mail: zeyneb.quliyeva.70@mail.ru***

**Zeynab Guliyeva**

## HEYDAR ALIYEV'S ROLE IN THE FORMATION OF MUSEUM ARCHEOLOGY IN AZERBAIJAN

The article highlights the concern of the national leader Heydar Aliyev for the science and culture of Azerbaijan on the example of museums. Some of these museums are of particular importance in terms of the formation of the field of museum archeology in Azerbaijan. The Museum of Archeology and Ethnography of the Nakhchivan branch of ANAS can contribute to the development of museum archeology in this country. As a result of the research, the directions of the museum's activities were determined and proposals were made for the upcoming tasks.

**Keywords:** *Heydar Aliyev, museums of Azerbaijan, Museum of Archeology and Ethnography, museum archeology.*

**Зейнаб Гулиева**

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ФОРМИРОВАНИИ МУЗЕЙНОЙ АРХЕОЛОГИИ В АЗЕРБАЙДЖАНЕ

В статье на примере музеев освещается забота общенационального лидера Гейдара Алиева о науке и культуре Азербайджана. Некоторые из этих музеев имеют особое значение с точки зрения формирования области музейной археологии в Азербайджане. Музей археологии и этнографии Нахчыванского отделения НАНА может внести свой вклад в становление музейной археологии в этой стране. В результате исследований были определены направления деятельности музея и внесены предложения по предстоящим задачам.

**Ключевые слова:** *Гейдар Алиев, музеи Азербайджана, Музей археологии и этнографии, музейная археология.*

**QADİR ƏKBƏROV**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA TƏHSİL SAHƏSİNDƏ APARILAN İSLAHATLAR (1970-1980-ci İLLƏR)

*Məqalədə Azərbaycanda 1970-1980-ci illərdə təhsil sahəsində həyata keçirilmiş təhsil islahatlarından bəhs olunur. Qeyd olunur ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi sovet Azərbaycanın təhsil siyasətində yeni dövrün başlanğıcını qoymuşdur. Həmçinin həmin dövrdə Azərbaycanda təhsil sisteminin yeniləşməsinin vacib məsələ kimi istiqamətlərinin müəyyən olunmasından bəhs olunur.Azərbaycanın təhsil sisteminin sovet təhsil sisteminin ideoloji buxovları çərçivəsində inkişaf etdirilməsi, bəşəri təhsil sisteminə qovuşması üçün ilk növbədə yeni təhsil sisteminin nəzəriyyəsi, fəlsəfəsinin müəyyən edilməsi haqqında məlumatlar da məqalədə öz əksini tapır. Təhsil sahəsində əsas götürülmüş dövlət siyasətinin əsas istiqamətləri, konseptual müddəaları, fəaliyyət prinsipləri, təhsilin məzmunu, məqsədi və strukturu müəyyənləşdirilir. 1970-1980-ci illərdə Azərbaycan xalq maarifinin inkişafı sahəsində ciddi irəliləyiş olmuşdur. Məqalədə xalq maarifinin inkişafının İkinci Dünya müharibəsindən sonrakı illərdəki vəziyyəti ilə müqayisəli təhlilləri də öz əksini tapmışdır. Bu dövrdə istər yeni məktəb binalarının tikintisi, istərsə də məktəblərə şagirdlərin cəlb edilməsi sahəsindəki məqsədli fəaliyyət göstərilmişdir.*

**Açar sözlər:** *ümummilli lider, təhsil, məktəb, şagird, tələbə, kadr.*

XX yüzilliyin 20-ci ilində milli dövlətçiliyindən qismən ayrı düşmüş, milli hissiyyatı yad ünsürlərin təsiri altına alınmış Azərbaycan xalqı bolşeviklərin hakimiyyəti illərində sözün əsl mənasında milli kimliyindən uzaqlaşdırılmaq, mənəvi dəyərlərinin tamamilə yox olmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdır. Lakin 1970-1980-ci illərdə Azərbaycan Respublikası sosial-iqtisadi və mədəni tərəqqi yoluna qədəm qoymuşdur. Bu dövrdə xalqın tarixi keçmişini, milli mənsubiyyətini və bolşevizm ideyalarının buxovundan azad olmaq, milli dəyərlərini yaşatmaq üçün zəruri, ilkin şərtlər yaradılmış, əhalinin intellektual inkişaf səviyyəsi xeyli dərəcədə yüksəlmişdir. 1969-cu ildə Azərbaycan SSR-də rəhbərliyə başlayan Heydər Əliyev milli tərəqqinin, Azərbaycan elminin, tarixi çox qədim köklərə dayanan mədəniyyətin və mənəviyyatın inkişafının əvəzedilməz vasitəsi olan təhsilə öz töhfələrini vermiş oldu. Xalqın təhsil səviyyəsinin yüksəldilməsi, təhsil sisteminin dövrün ən yüksək imkanları daxilində inkişafı yolundakı xidmətləri ilə ümummilli lider Heydər Əliyev həm təhsilin inkişafına, həm də xalqın maariflənməsi istiqamətində müəyyən dövlət siyasətinin müəyyən edilməsinə nail oldu. Dünya təcrübəsi göstərir ki, elmə, təhsilə, gənc nəslin düzgün tərbiyəsinə yüksək diqqət yetirən dövlət başçıları bununla öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, mədəniyyətin inkişafına böyük töhfə vermiş olurlar. Bu mənada ulu öndər Heydər Əliyevin milli təhsilin inkişafına göstərdiyi qayğı və diqqət özünəməxsusluğu ilə seçilir.

Heydər Əliyev hakimiyyətə gələrkən xalq maarifi müəssisələrinin saxlanmasına çəkilən xərc xeyli az olduğundan onun artırılmasına böyük səylə çalışır və buna nail olurdu. Xalq maarifi sahələrinin saxlanmasına ayrılan xərclər 1969-cu ildən başlayaraq hər il daim artırılırdı. Məsələn, Azərbaycanın 1977-ci il dövlət büdcəsində xalq maarifinin saxlanmasına 377,1 mln. manat ayrılmışdı ki, bu da 1976-cı illə müqayisədə 19,3 mln. manat çox idi. 1978-ci ildə isə xalq maarifi müəssisələrinin saxlanmasına dövlət büdcəsindən 384,3 mln. manat ayrılmışdı. Bu da 1976-cı illə müqayisədə 8,9 faiz çox idi. Sonrakı illərdə də xalq maarifinin saxlanmasına ayrılan vəsaitin həcmi artırılmışdı. Məsələn, 1981-ci ildə xalq maarifi müəssisələrinin maliyyələşdirilməsinə əvvəlki illə müqayisədə 4,7 faiz çox olmaqla 723,5 mln. manat ayrılmışdı [6, s. 46].

Heydər Əliyev ilk növbədə Azərbaycan Respublikası Maarif Nazirliyinin tərkibini milliləşdirməyə başlayaraq bu məqsədə uğurla nail olmuşdu. Milli kadrlara tələbat artırılmış, Azərbaycanlı təhsil işçilərinin nazirlik sistemində işə qəbulu gücləndirilmişdi. İşdə nöqsanlara yol verənlər, o cümlədən səmimi olmayan qeyri-azərbaycanlılar tutduqları vəzifədən azad edilməyə başladılar. Məsələn, Azərbaycan KP MK-nin 1970-ci il 13 mart tarixli büro iclasında maarif nazirinin müavini R.A.Balayanın düzgün olmayan hərəkətləri müzakirə olunmuş və o, işdən azad edilmişdi. 1970-1980-ci illərdə məktəb yaşına çatmış uşaqların təhsilə cəlb olunması üçün də mühüm addımlar atılmış, məktəb şəbəkəsi sürətlə genişləndirilmişdi. 1970-ci ildə 170 yeni orta məktəb açılmışdı. Bunların da 55-i

dövlət büdcəsi hesabına tikilən məktəb binaları idi. Bundan əlavə, bir sıra məktəb binaları kolxoz və sovxozların, yerli büdcənin hesabına tikilmişdi. 1970-ci il sentyabrın əvvəlləri üçün Azərbaycan əhalisinin hər üç nəfərindən biri təhsilin bütün növləri üzrə əhatə olunmuşdu. 1971-ci ildə Azərbaycanda orta təhsil sahəsində yeni irəliləyişlər əldə edilmiş, təhsilə cəlb edilən uşaqların sayı əhəmiyyətli dərəcədə artmışdı. 1969-cu ilin 5 avqust plenumundan sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatların əsas vacib istiqaməti təhsilin və elmin inkişafı ilə bağlı olmuşdu. Bu proses əslində Azərbaycan xalqının milli-mənəvi ruhunun özünə qaytarılmasında fövqəladə rol oynamışdır. Ulu öndər milli kadrların idarəetmədə və iqtisadiyyatın inkişafında daha fəal iştirak etməsi üçün əlverişli şərait yaratmağa çalışırdı və təbii ki, bunun üçün təhsilin inkişafına diqqət yetirmək olduqca mühüm məsələ idi. Ümummilli lider sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişlənərək 765-dən 2117-yə çatmışdı. Respublikanın demək olar ki, bütün rayonlarında yeni məktəb binaları tikilib istifadəyə verilmiş, ümumtəhsil məktəblərinin kadr potensialı gücləndirilmişdi. Qeyd edək ki, 70-ci illərdə 350 mindən çox şagird yerinə malik 849 məktəb binası tikilmişdi.1980-ci ildə respublikada ümumtəhsil məktəblərində oxuyanların sayı 1970-ci illə müqayisədə təxminən iki dəfə artaraq 710 min nəfərə çatmışdı [8, Azərbaycan, 2009].

Heydər Əliyev ana dilində ibtidai və orta məktəb dərsliklərinin yaradılmasına da böyük əhəmiyyət vermişdi. 1972-ci ildə bütövlükdə 86 adda 5 milyon nüsxə orta məktəb dərsliyi nəşr edilmiş, 1974-cü ildə 5 milyon 600 min tirajla 100 adda dərs kitabı, 7 adda metodiki vəsait, 10 adda əyani vəsait nəşr edilərək məktəblərə göndərilmişdi. 1976-cı ildə ümumi tirajı 5 milyon 590 min nüsxə olan 93 adda dərslik çapdan çıxmışdı. 1978-ci ildə isə xalq maarifi müəssisələrinin saxlanmasına Dövlət büdcəsindən 384,3 mln. manat ayrılmışdı. Bu da 1976-cı illə müqayisədə 8,9 faiz çox idi. Sonrakı illərdə də xalq maarifinin saxlanmasına ayrılan vəsaitin həcmi artırılmışdı. Məsələn, 1981-ci ildə xalq maarifi müəssisələrinin maliyyələşdirilməsinə əvvəlki illə müqayisədə 4,7 faiz çox olmaqla 723,5 mln. manat ayrıldı. Sosial mədəni xərclər bütün büdcənin 57,2 faizini və ya 1 mlrd. 235 mln. 200 manat təşkil edirdi. Bu isə 1980-ci il planından 5 faiz, 1979-cu ildəkindən isə 10,8 faiz çox idi. 1982-ci ildə xalq maarifi müəssisələrinin maliyyələşdirilməsinə 1980-ci illə müqayisədə 4 faiz artımla 689 mln. manat vəsait ayrıldı. Xalq maarifinin saxlanmasına 46 faiz və ya 1980-ci ilin hesabatına nisbətən 9,9 faiz artımla 372,5 mln. manat yönəldilmişdi. Heydər Əliyevin Azərbaycan maarifinin inkişaf etdirilməsi sahəsindəki fəaliyyətinin başlıca istiqamətlərindən biri də yeni məktəb binalarının tikintisi, məktəbyaşlı uşaqların təhsilə cəlb olunması, təhsilin kütləviləşdirilməsindən ibarət idi. 1969-cu ildən 1982-ci ilə qədər olan dövrdə Azərbaycanda yeni məktəb binalarının tikilməsi və uşaqların məktəbə cəlb edilməsi daim yüksələn xətlə getmişdi. Belə inkişaf respublika rəhbərinin xalq maarifinə bilavasitə qayğısının nəticəsində qazanılmışdı. Şagirdlərin sayının sürətlə artması bir tərəfdən əhali artımı, demoqrafik inkişafla bağlı idisə, digər tərəfdən əvvəlki illərdə təhsildən yayınanların, xüsusən qızların məktəbə cəlb edilməsinin nəticəsi idi, əhali artımına isə başlıca olaraq insanların həyat səviyyəsinin getdikcə yaxşılaşması təsir göstərirdi. Azərbaycanlı qızların məktəbə cəlb edilməsi məsələsinə xüsusi diqqət verilməsi nəticəsində təhsilli qadınların xüsusi çəkisi sürətlə artır, Azərbaycan qadını respublikanın ictimai-siyasi və təsərrüfat həyatında mühüm rol oynayırdı. Artıq 1978-ci ildə Azərbaycanda 770 min nəfər ali və orta təhsilli qadın var idi, bu qısa müddət ərzində Azərbaycan cəmiyyətində qadının rolunun artırılması sahəsində böyük uğur qazanılmasından xəbər verirdi [6, s. 48].

İnternat məktəblərin tikintisinə də xüsusi diqqət yetirilirdi. MK-nin qəbul etdiyi qərara əsasən dövlət vəsaiti hesabına 1974-cü ildə 2 min, 75-ci ildə 3 min, 76-80-ci illərdə isə 10 min şagird yeri olan internat məktəb binaları tikilməli idi. Bu qərarın icrası ciddi nəzarətdə saxlanırdı, məktəb tikintisi bütün respublika ərazisində genişləndirilmişdi. İnternat məktəblərə ayrılan diqqət nəticəsində təhsil alan şagirdlər az sonra Azərbaycanı ümumittifaq kimya, fizika, riyaziyyat və başqa fənn olimpiadalarında uğurla təmsil etməyə başladılar. Bütün bunlar Azərbaycanın istedadlı uşaqlarının, bütövlükdə xalqın intellektual səviyyəsinin ölkə miqyasında tanıdılması üçün əlverişli vasitə idi.

Müxtəlif fənlər üzrə dərinləşmiş proqramlarla təlim verən kimya-biologiya, fizika-riyaziyyat, fars dili, ingilis dili və başqa təmayüllü internat məktəblər fəaliyyətdə idi. Heydər Əliyev milli hərbçi

kadrların yetişdirilməsi sahəsində də uğurlu siyasət aparmışdır. Bu, bir həqiqətdir ki, sovetlər dönəmində SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlıların qəbulu məsələsinə məqsədli şəkildə yasaq qoyulmuşdu. Buna baxmayaraq ulu öndər Azərbaycanda hərbiçi kadrların hazırlanması üçün bir sıra tədbirlər həyata keçirə bilmişdir. Azərbaycanda milli hərbiçi kadrlar yetişdirilməsini və SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin daxil olmasını təmin etmək məqsədilə 1971-ci il 28 iyulda Bakı şəhərində Heydər Əliyevin təşəbbüsü və Azərbaycan KP MK-nin qərarı ilə orta respublika ixtisaslaşdırılmış internat məktəbi (1991-1997-ci illərdə Bakı ibtidai hərbi məktəbi adlanıb) təşkil olunmuşdu. Azərbaycan KP MK-nin birinci katibi Heydər Əliyev internat məktəbinə bayraq təqdim edərək ona Cəmşid Naxçıvanskinin adını vermişdi. Ümummilli liderin görkəmli sərkərdənin adının əbədiləşdirilməsindəki mövqeyi onun Azərbaycanın unudulmaz şəxsiyyətlərinə diqqətindən qaynaqlanırdı [1, s. 340; 7, s. 84].

Məktəblərdə tədrisin məzmununda müəyyən dəyişikliklər baş verdi. Orta məktəblərdə 1975/76-cı tədris ilindən dövlət və hüququn əsasları tədris olunmağa başlanmışdı. 1974-cü ildə “Azərbaycan tarixi”nin tədrisi 60 saata qaldırıldı [2, s. 174].

Peşə təhsilinin inkişafının da yüksəliş dövrü məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsinə təsadüf edir. Həmin illərdə peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1.7, təhsil alanların sayı isə 2.5 dəfə artmışdı. Heydər Əliyevin təşəbbüsü ilə 1971-1975-ci illər üçün texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı üzrə strategiya müəyyənləşdirilmiş, həmin illərdə 54 yeni texniki peşə təhsili müəssisəsi fəaliyyətə başlamışdır. 1978-1987-ci illərdə Azərbaycanda 5276 yerlik texniki peşə təhsili kompleksləri, 2400 yerlik tədris binaları, 2800 yerlik təcrübə korpusları, ümumi sahəsi 15559 kv. m. olan yataqxana binaları tikilib istifadəyə verilmiş, 194 tədris istehsalat emalatxanası, 786 tədris kabineti və laboratoriyası yaradılmışdı. Təhlil göstərir ki, 1970-ci ildə 76 peşə məktəbi fəaliyyət göstərmiş və həmin müəssisələrdə 40,9 min şagird təhsil almışdısa, bu göstərici müvafiq olaraq 1980-ci ildə 173 məktəb və 99,8 min şagirdə, 1982-ci ildə isə 184 məktəbə və 230 peşə üzrə 110 min şagirdə çatdırılmışdır.

Ulu öndərin hakimiyyətə gəlişi orta ixtisas məktəblərinin fəaliyyətində də böyük canlanma yaratmışdı. 1971-ci ildə Naxçıvan Politexnik Texnikumu, 1975-ci ildə isə Orta İxtisas Musiqi Məktəbi fəaliyyətə başladı. Muxtar respublikada ali və orta ixtisas məktəblərində tələbələrin sayı əhəmiyyətli dərəcədə artdı. Əgər 1970-ci ildə burada 1,1 min tələbə təhsilə cəlb olunmuşdusa, 1980-ci ildə artıq 3,8 min tələbə təhsil alırdı [5, s. 147].

Məktəblərdə, xüsusən ali və orta ixtisas məktəblərində biliklərin qiymətləndirilməsində, qəbul imtahanlarında qeyri-obyektivlik adi hala çevrilmişdi. Tapşırıqla, rüşvətlə qiymət almaq halları geniş yayılmışdı. Buna görə də istedadlı, qabiliyyətli şəxslər ali məktəblərə, elmi müəssisələrə çox vaxt çətinliklə yol tapırdılar. Lakin bununla yanaşı, əhalinin təhsil səviyyəsi artmaqda idi. 80-ci illərin sonlarında yaşı 15-dən yuxarı olan əhalinin hər 1000 nəfərindən 129-u ali, 146-sı orta ixtisas, 425-i ümumi orta, 190-nı natamam orta təhsilli idi [4, Azərbaycan müəllimi, 2019]. Heydər Əliyev Azərbaycanda çoxillik tarixə malik olan məktəblərin yubileylərini də keçirirdi. Bundan ötrü Azərbaycan KP MK bürosunun müvafiq qərarları qəbul edilirdi. Məsələn, Büronun 1982-ci il 12 yanvar və 9 fevral tarixli iclaslarında Şuşa və Şəkidəki orta məktəblərin 150, Lənkərandakı 1 nömrəli məktəbin isə 125 illiyinin qeyd edilməsi barədə qərar qəbul edilmişdi. Qərara müvafiq olaraq geniş tədbirlər keçirilmiş, həmin məktəblərin maddi-texniki bazası gücləndirilmişdi. Lakin böyük tarixə malik məktəblərin sayı kifayət qədər olduğundan sonrakı illərdə belə yubileylərin keçirilməsi dayandırıldı.

Azərbaycandan SSRİ rəhbərliyinə getməsindən sonra da Heydər Əliyev Azərbaycan təhsili üçün mühüm işlər görmüş, təhsil sahəsində əhəmiyyətli addımlar atmışdır. Məlum olduğu kimi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin rəhbərlik etdiyi sahələrdən biri də təhsil məsələsi olmuşdur. On birinci çağırış SSRİ Ali Sovetinin birinci sessiyasında (aprel 1984-cü il) Təhsil üzrə İslahat Komissiyasının sədri Heydər Əliyev “Ümumtəhsil və peşə məktəblərində islahatların əsas istiqamətləri haqqında” məruzə ilə çıxış edərək, Sovet İttifaqında təhsil sistemində qarşıya qoyulan islahatları hərtərəfli işıqlandırmış, onun təhsil sisteminin inkişafında əhəmiyyətini əsaslandırmışdı. SSRİ Ali Soveti Heydər Əliyevin “Ümumtəhsil və peşə məktəblərində islahatların əsas istiqamətləri

haqqında" məruzəsini dinləyib müzakirə etdikdən sonra qeyd etmişdi ki, müzakirəyə təqdim edilən məruzənin ölkənin, cəmiyyətin iqtisadi, sosial-siyasi və mənəvi tərəqqisində çox mühüm əhəmiyyəti vardır. Məktəb islahatlarının əsas istiqamətləri ümumxalq müzakirəsində bəyənilmiş və müdafiə edilmişdi. 1984-cü il aprelin 12-də SSRİ Ali Soveti Heydər Əliyevin məruzəsi əsasında "Ümumtəhsil və peşə məktəblərində islahatların əsas istiqamətləri"ni bəyənməsi haqqında qərar qəbul etmişdi. Qərarda islahatın həyata keçirilməsi sahəsində təhsil sistemi ilə əlaqədar olan bütün qurumlar, təsisatlar qarşısında təxirəsalınmaz, perspektiv vəzifələr qoyulur, islahatın həyata keçirilməsi mexanizmi, təhsil işçilərinin vəzifələri göstərilirdi [9, s. 97].

Azərbaycan elminin və təhsilinin hamisi ümummilli lider Heydər Əliyevin təhsil sahəsindəki əsas prioritetlərindən biri də azərbaycanlı gənclərin ölkədən kənarda təhsillərini davam etdirmək, dövrün reallıqları çərçivəsində daha mükəmməl və yenilikləri özündə əks etdirən ali məktəblərdə təhsillərini davam etdirmələrinin təşkili olmuşdur. 1970-1980-ci illərdə Azərbaycandan SSRİ-nin müxtəlif ali məktəblərinə minlərlə tələbə oxumaq üçün göndərilmişdir. Bir maraqlı cəhət də onda idi ki, Azərbaycandan göndəriləcək tələbələr üçün ayrılan yerlərdən artıq tələbə göndərilirdi. 1972-ci ildə SSRİ-nin aparıcı təhsil müəssisələrinə 116 yer üzrə 400-dən çox birinci kurs tələbəsi yönləndirilmişdir. Müvafiq olaraq, Moskva şəhəri üzrə 44 yerə 135, Sankt-Peterburqun təhsil müəssisələrinə 32 yer üzrə 84, digər ittifaq şəhərlərinə 40 yer üzrə 181 nəfər göndərilmişdir. Azərbaycan SSR Ali və Xüsusi Orta İxtisas Təhsil Nazirliyinin imzaladığı 1973-cü il 14 iyun tarixli 234 saylı əmrdə SSRİ-nin qabaqcıl ali və xüsusi orta ixtisas təhsil müəssisələrinə birinci kurs üçün 131, hazırlıq mərhələsinə 16, digər ittifaq ölkələrinin təhsil müəssisələrinin yuxarı kurslarına keçid üçün 35 nəfərlik yer ayrıldığı göstərilir. Əmrə əsasən, Azərbaycan Dövlət Universitetinə müsabiqədənkənar on ixtisas üzrə 17 yer, Azərbaycan Neft-Kimya İnstitutuna 28 ixtisas üzrə 54 yer, Azərbaycan Politexnik İnstitutuna 29 ixtisas üzrə 61 yer, Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna iki ixtisas üzrə iki yer, Azərbaycan Dövlət İncəsənət İnstitutuna dörd ixtisas üzrə altı yer, Azərbaycan Dövlət Konservatoriyasına iki ixtisas üzrə iki yer ayrılmışdır [3].

1970-1980-ci illərdə təhsil müəssisələrinin inşa edilməsi, məktəblərə şagirdlərin cəlb edilməsi, yeni dərsliklərin nəşr edilib ümumtəhsil məktəblərinə göndərilməsi, yeni internat məktəblərinin yaradılması ümummilli lider Heydər Əliyevin Azərbaycan təhsilinə, azərbaycanlıların maariflənməsinə göstərdiyi diqqət və qayğının göstəricilərindən olmuşdur.

Ümumilikdə 1969-cu ildən sonra Azərbaycanda təhsil sahəsində aparılan işlər, görülmüş tədbirlər özünün sonrakı bəhrəsini vermiş, müstəqil Azərbaycan dövlətinin tərəqqisinə öz töhfəsini vermişdir. Bu gün Azərbaycanda ümummilli lider Heydər Əliyevin məqsədyönlü siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müasir Azərbaycanın inkişafını şərtləndirən əsas cəhətlərdən olan təhsilli gənclərin ölkədən kənara, dünyanın aparıcı universitetlərinə təhsil almağa göndərilməsi işi bu gün də uğurla davam etdirilir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: Dərslik. Bakı: Bakı Universiteti, 2017, 412 s.
2. Azərbaycan tarixi: 7 cilddə. VII c.: 1941-2002-ci illər, Bakı: Elm, 2008, 608 s.
3. Azərbaycan təhsilinde tarixi varislik // https://azertag.az/xeber/Azerbaycan_tehsilinde tarixi_varislik
4. Bayramov C. Uğurlu təhsil islahatlarının banisi. "Azərbaycan müəllimi" qəz., 2019, 12 iyul.
5. Cabbarov Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. Naxçıvan: Əcəmi NPB, 2015, 232 s.
6. Əhmədov H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı, 2010, 800 s.
7. Əkbərov Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasında milli-mənəvi dəyərlər məsələsi. Naxçıvan: Əcəmi NPB, 2017, 208 s.
8. Əliyeva İ. Böyük yolun başlanğıcı. "Azərbaycan" qəz. 2009, 5 avqust.
9. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: ekberovqadir4@gmail.com***

**Gadir Akbarov**

## HEYDAR ALIYEV AND THE REFORMS CARRIED OUT IN THE FIELD OF EDUCATION IN AZERBAIJAN (1970 s-1980 s)

The article discusses the educational reforms implemented in the field of education in Azerbaijan in the 1970s and 1980s. It is noted that the coming to power of the national leader Heydar Aliyev in Azerbaijan marked the beginning of a new era in the educational policy of Soviet Azerbaijan. Also, in this period, it is noted that the direction of modernization of the education system in Azerbaijan is an important issue. To develop the educational system of Azerbaijan within the framework of the ideological shackles of the Soviet educational system, the introduction to the general human education system, firstly, information about the definition of the theory and philosophy of the new educational system is reflected in the article. The main directions, conceptual provisions, principles of action, content, purpose and structure of education in the field of education are determined. In the 1970s and 1980s, significant progress was achieved in the development of national education in Azerbaijan. The article also reflects a comparative analysis of the development of public education in the years after the Second World War, during this period, both the construction of new school buildings and targeted activities in the field of attracting students to schools.

**Keywords:** *national leader, education, school, pupil, student, personnel.*

**Гадир Акбаров**

## ГЕЙДАР АЛИЕВ И РЕФОРМЫ, ПРОВЕДЕННЫЕ В ОБЛАСТИ ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ (1970–1980-е гг.)

В статье рассказывается об образовательных реформах, осуществленных в сфере образования в Азербайджане в 1970-х и 1980-х годах. Отмечается, что приход к власти в Азербайджане общенационального лидера Гейдара Алиева ознаменовал начало новой эпохи в образовательной политике Советского Азербайджана. Также отмечается, что важным вопросом в этот период является направление модернизации системы образования в Азербайджане. В статье также отражены вопросы развития образовательной системы Азербайджана в рамках идеологических оков советской образовательной системы, приобщения к общечеловеческой системе образования, прежде всего, информация об определении теории и философии новой образовательной системы. Определены основные направления, концептуальные положения, принципы действия, содержание, цель и структура образования в сфере образования. В 1970-х и 1980-х годах в Азербайджане был достигнут значительный прогресс в развитии народного образования. В статье также отражен сравнительный анализ развития народного образования в годы после Второй мировой войны. В этот период велось как строительство новых школьных зданий, так и целенаправленная деятельность в области привлечения учащихся в школы.

**Ключевые слова:** *общенациональный лидер, образование, школа, воспитанник, ученик, кадры.*

**CAVADXAN QASIMOV**

# UZUNMÜDDƏTLİ MİLLİ İQTİSADİ İNKİŞAFIN HEYDƏR ƏLİYEV MODELİ

*Məqalədə, xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəmizə etdiyi rəhbərliyinin bütün sahələrində dövlət quruculuğu prosesləri ilə yanaşı, eyni zamanda, makroiqtisadi inkişaf sahəsində də əldə olunan davamlı iqtisadi inkişaf məsələlərindən bəhs olunmuşdur. Göstərilmişdir ki, istər keçmiş İttifaq zamanında, istərsə də, hazırkı müstəqillik illərində iqtisadi islahatların həyata keçirilməsindən, onun yeni keyfiyyət mərhələlərinin müəyyən olunması baxımından səmərəliliyindən söz açılmışdır. Müasir dünya tələblərinə və çağırışlarına uyğun olaraq, ölkəmizdə milli iqtisadiyyatın sahə strukturunun daha da təkmilləşdirilməsi və eyni zamanda, iqtisadi diversifikasiyanın təmin olunması məsələlərinin də elmi əsaslandırması ortaya qoyulmuşdur. Hazırkı iqtisadi şəraitdə islahatların Naxçıvan Muxtar Respublikasından başlanması, burada yaşayan əhalinin kənd yerlərində yaşaması baxımından da, olduqca aktual olması göstərilmişdir. Sonrakı mərhələlərdə məhz bu əsasda da, ölkəmiz miqyasında iqtisadi islahatların davam etdirilməsinin müqavimətli iqtisadiyyat üçün zəruriliyi də əsaslandırılmışdır.*

**Açar sözlər:** *iqtisadi islahatlar, sosial dayanıqlılıq, milli iqtisadiyyat, iqtisadi diversifikasiya, milli prioritetlər və s.*

İnkişaf, tərəqqi, uzunmüddətli perspektivlər müstəvisində həyata keçirilmiş olan tədbirlər, hər dövlətin aktual məsələlərindən birini təşkil etməkdədir. Bu hədəflərə nail olmaq üçün isə xalqların və millətlərin tarixi taleyində xilaskar kimi, həmin inkişafın və perspektivlərin müəllifi olaraq böyük rola malik olan şəxsiyyətlər olur. Bu mənada da, Azərbaycan dövlətinin son 50 ildən artıq bir dövr ərzində qərarlaşan ictimai-siyasi sabitliliyinin, sosial-iqtisadi inkişafının, elmi-mədəni üstünlüklərinin və bu kimi bütün sahələrdə öncül yerlərdə təmsil olunmasında xalqının ümummilli lideri Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Hər şeydən əvvəl, sadalanan sferalar üzrə reallaşan hədəflər:

– xalqımızın rifah halının yaxşılaşmasına;

– sosial dayanıqlılıq göstəricilərinin yüksək dinamikada təşəkkülünə;

– məşğulluq göstəricilərinin daha da etibarlılığına;

– davamlı və perspektivli makroiqtisadi prioritetlərin əlçatan olmasına;

– böhran və risklərə qarşı müqavimətli iqtisadi potensialın formalaşmasına və digər bu kimi amillərin özünə yer tapmasına təminat yaratmışdır.

Milli liderin siyasi fəaliyyətinin bütün sahələrində ölkəmizin milli iqtisadiyyatı bütöv bir kompleks olaraq götürülmüş, onun sahə strukturunun bir- biri ilə əlaqələndirilməsi təmin olunmuş, regional və milli zəmində etibarlı iqtisadi inkişaf mexanizmlərinə ardıcıl diqqət göstərilmişdir. Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan iqtisadiyyatının son yarım əsrdən artıq bir hissəsinin inkişaf göstəricilərinə diqqət etdikdə aydın olur ki, burada bütün tərəfləri ilə dayanıqlı, müqavimətli və diversifikasiya olunan iqtisadiyyat mövcuddur və onun təşəkkül tapması üçün yüksək elmi əsaslandırmalara söykənən model ortaya qoyulmuşdur. Eyni zamanda, bu model gələcək elmi tədqiqatlarda milli iqtisadi inkişafın Heydər Əliyev modeli olaraq iqtisadi və tarixi yaddaşımıza həkk olunacaqdır. Həmin modelin gerçək milli iqtisadi inkişafı təmin etmiş olan və bununla da, dünya iqtisadiyyatının müasir çağırışları ilə səsləşən parametrlərinə diqqət etdikdə aydın olur ki, burada:

– iqtisadiyyatın şaxələndirilməsi, onun bütün sahələrinin bütöv bir sistem olaraq ələ alınması və makroiqtisadi zəmində etibarlılığının gücləndirilməsi;

– iqtisadiyyatın aparıcı sahələrinin diqqətdə saxlanılması, bu istiqamətlər üzrə məşğulluq göstəricilərinin artan dinamikada qərarlaşmasının stimullaşdırılması;

– regional iqtisadi inkişafın təmin olunması, bu sferada, demoqrafik tarazlığın qorunması, əmək resurslarından səmərəli istifadənin mümkün yollarının müəyyən olunması və bu əsasda da, məskunlaşmanın mühafizə olunması;

– istehsalın fasiləsizliyinin və regional xüsusiyyətlərinin diqqətdə saxlanılması və bu sahədə zəruri tədbirlərin vaxt itkisi olmadan reallaşması;

– etibarlı infrastruktur təsisatlarının yaradılması və regional iqtisadi fəaliyyətin səmərəliliyinin yüksəldilməsi;

– çoxnövlü mülkiyyət münasibətlərinin qərarlaşması əsasında təsərrüfatçılıq imkanlarının artırılması və səmərəli nəticələrin əldə olunması;

– ixtisaslı kadrların hazırlanması, insan potensialının inkişafı və milli iqtisadiyyatın uzunmüddətli prioritetlərinin əlçatan olmasında onlardan daha səmərəli istifadə olunması kimi məsələləri özünə yer tapır və bunların hər biri, müəyyən olunan hədəflərin reallaşmasını daha da sürətləndirmiş olur.

Sadalanan məsələlər, bir-birini əvəz edən iqtisadi formasiyaların hər birində özünün tam və dolğun yerini almaqda idi. İstər keçmiş İttifaq dövründə, istərsə də, hazırkı müstəqillik illərində bunu açıq şəkildə olmaqla, görmək mümkün olur. Bu bir həqiqətdir ki, əldə olunan hər bir uğurun altında dahi rəhbərin şərəfli imzası var. Və bu imza ölkəmizin hərtərəfli yüksəlişinin uzunmüddətli təminatına çevrilmişdir. Tarixi və iqtisadi inkişaf proseslərinə nəzər saldıqda aydın olur ki, ölkəmizin aqrar sektorunun davamlı, intensiv inkişafı istiqamətində 1969-1982-ci illərdə zəruri addımlar atılmışdır. 1969-cu ilə qədər Azərbaycan Respublikasının aqrar potensialı özünün tənəzzül dövrünü yaşayırdı. Bu vəziyyət isə milli lideri Azərbaycan KP MK-nin birinci katibi kimi çox düşündürür, bir an öncə vəziyyətdən çıxış yollarının tapılması üçün əməli işlərin həyata keçirilməsinin zəruriliyinə çalışırdı. Bu məqsədlə, intensiv amillərin tətbiqinin genişləndirilməsi və məhsuldarlığın yüksəldilməsi hesabına kənd təsərrüfatının sürətli inkişafına nail olmaq vəzifəsini irəli sürdü və İttifaq rəhbərliyinə konkret təkliflər verdi. Həmin dövrdən başlayaraq:

– 1970-ci ilin iyulunda Sov. İKP MK-nin və SSRİ Nazirlər Sovetinin: “Azərbaycan SSRİ-nin kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında”,

– 1975-ci ilin iyul ayında “Azərbaycan SSRİ-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında”,

– 1979-cu ilin fevral ayında isə “Azərbaycan SSRİ-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı daha da inkişaf etdirmək tədbirləri haqqında” qərarlar qəbul olundu [2, s. 65].

Aydın olur ki, milli lider həmin dövrdə, respublika rəhbərliyinin ilk ilindən başlayaraq, kənd təsərrüfatının sistemli inkişaf perspektivlərini hədəfləyən tədbirlərə start vermiş və bunu uğurla həyata keçirmişdir. Eyni zamanda, bu tədbirlər, ölkənin makroiqtisadi inkişafının zəruri tərkib hissəsi olmaq etibarı ilə, davamlı xarakterə malik olmuş və hazırkı müstəqillik illərinin güclü bazası olaraq təşəkkül tapmışdır.

Təkcə onu qeyd etmək yerinə düşər ki, ulu öndərin siyasi fəaliyyətinin keçmiş İttifaq dövrünə aid olan mərhələlərdə respublikamızda makroiqtisadi inkişaf dolğun olaraq təmin olunmuş və bu, özünü makroiqtisadi göstəricilərin artım dinamikasında göstərmişdir. Diqqət etdikdə aydın olur ki, həmin dövr ərzində, respublikada adambaşına düşən ümumdaxili məhsul istehsalı 2,5, sənaye istehsalı 3, kənd təsərrüfatı məhsullarının 2 dəfə artımına nail olundu. Eyni zamanda, ulu öndərin rəhbərliyi ilə 1969-1982-ci illər ərzində makroiqtisadi inkişaf sahəsində köklü keyfiyyət dəyişiklikləri özünü göstərmiş oldu. Belə ki, bu dövrlər ərzində, ölkədə 250 zavod, fabrik və sex tikilərək, 2 milyondan artıq vətəndaşın mənzil təminatı həll olundu. Həmin illər ərzində, pambıq istehsalı 333,6 min tondan 831,2 min tona qədər artdı. Təkcə 1982-ci ildə ölkədə pambıq istehsalı 1 milyon tona qədər yüksəlmişdi. Təhlil nəticələrinə görə, həmin il ərzində üzüm istehsalı, 1980-ci ildə 1,5 milyon ton olmuşdur ki, bu da, 1969-cu ildəki müvafiq göstəricidən 5-6 dəfə artıq təşkil edirdi [4].

Milli iqtisadiyyatın belə inkişaf istiqamətlərinin müəyyən olunması, bütün tərəfləri ilə önəmlilik kəsb edirdi. Ulu öndərin rəhbərliyi, təşəbbüsü və nəzarəti ilə təşəkkül tapmış olan potensial yalnız və yalnız xalqımızın xoşbəxt gələcəyinin sarsılmaz əsaslarına hesablanmışdır. Təəssüflər olsun ki, ötən yüzilliyin 80-cı illərinin sonu, 90-cı illərinin isə əvvəllərində qısqanclıq hislərindən yaranan təcrübəsiz idarəçilik nəticəsində həmin potensialdan nəinki, düzgün istifadə olunmadı, hətta, müəssisələr, regionlar və ölkələrarası iqtisadi-istehsal əlaqələrinin pozulması ilə nəticələnən idarəçilik özünü göstərmiş oldu.

Müstəqillik illərinin ilkin mərhələsində iqtisadi formasiyalar da biri-birini əvəz edirdi. Bu dövrlərdə, keçmiş inzibati-amirlik iqtisadi sisteminin qanunları ilə tənzimlənən idarəetmə mexanizmi, öz yerini bazar iqtisadi qanunları ilə müəyyən olunan münasibətlərə verir, bunun da, yaratmış olduğu zəmin əsasında vahid dövlət mülkiyyətindən çoxnövlü mülkiyyət münasibətlərinə etibar edən idarəetmə mexanizminin formalaşmasına zərurət yaranmış olurdu. Təbii olaraq, həmin dövrdə, köhnə iqtisadi idarəetmə ilə qərarlaşan təsərrüfatçılıq subyektlərinin fəaliyyətində yeni iqtisadi idarəetmə

mexanizmi ilə tənzimlənən təsərrüfatçılıq subyektləri bir-biri ilə əlaqələndirilməsi mümkün olmurdu və buna görə də, zaman itkisinə yol vermədən iqtisadi islahatların başladılmasına zərurət var idi. Həmin dövrlərdə islahatların bazar qanunlarına müvafiq olan proseduralar əsasında aparılması, bundan iqtisadi səmərə üçün istifadə imkanlarının nəzərə alınması, mahiyyət etibarı ilə, proseslərin düzgün tənzimlənməsi və nəticə etibarı ilə isə dayanıqlı bazar qanunlarının işləkliyinin təmin olunması özünün aktuallığı ilə seçilirdi. Həmin dövrlərdə Azərbaycan Respublikasının iqtisadiyyatı da bazar münasibətlərinə əsaslanan idarəetməyə istinad etsə də, bu dövrdə təkmil konsepsiya və strategiyanın və ya yol xəritəsinin olmaması heç bir səmərə vermirdi.

Yalnız sözügedən iqtisadi islahatların həyata keçirildiyi dövrlərdə əlverişli şərait təkcə Naxçıvan Muxtar Respublikasında mövcud idi. Çünki, XXI əsrin sonlarına doğru, daha doğrusu, 1990-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində məhz milli lider Heydər Əliyevin işləməsi elə buradan başlanan iqtisadi islahatlara ruh, nəfəs və davamlılıq gətirməkdə idi. Ulu öndər, Naxçıvan Muxtar Respublikasının sakinləri ilə bir yerdə, həm bu ərazini tarixi düşmənlərimiz ermənilərdən qorudu, həm iqtisadi islahatları başlatdı, həm də ümumilikdə, nəinki ölkəmiz miqyasında hətta MDB məkanında ilk olacaq tədbirlərin həyata keçirilməsinə rəhbərlik etdi. Belə ki, milli lider Heydər Əliyevin başlatmış olduğu yeni iqtisadi siyasət sadalanan amillərin hər biri üçün qətiyyətli bazaya çevrildi. Həmin dövrlərdə, xüsusən də, 6 aprel 1992-ci il tarixdə qəbul etdiyi "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların ləğv olunması və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqında" qərar və rentabelsiz işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsini nəzərdə tutan təkliflər [1, s. 65] bütövlükdə, Azərbaycan dövlətinin yeni iqtisadi siyasətinin müəyyənləşdirilməsinə əhəmiyyətli şərait yaradan mühüm addımlar idi.

Həmin dövrdə iqtisadi islahatların keçirilməsi olduqca zəruri idi. Çünki, iqtisadi formasiyaların bir-birini əvəz etmiş olduğu bir mərhələdə, iqtisadi və hüquqi tənzimləmə mexanizmlərinin yaradılması, onlardan səmərəli istifadə meyarlarının səfərbər olunması, yeni təsərrüfatçılıq formaları üzrə zəruri təsisatların yaradılması, sosial etibarlılıq göstəriciləri olacaq mexanizmlərin əhatə dairəsinin genişləndirilməsi, əmək resurslarından səmərəli istifadə olunması, məşğulluq göstəricilərinin artan dinamikada təşəkkülü və digər məsələlər öz aktuallığına görə seçilmiş oldu. İslahatların Naxçıvan Muxtar Respublikasından başlanması olduqca zəruri bir amillər məcmusu olmaqla, əhəmiyyətliliyinə görə seçilməkdədir. Çünki, muxtar respublika əhalisinin 70 faizdən artıq bir hissəsinin kənd yerlərində yaşamasını nəzərə alsaq, onda belə qənaətə gəlmək olar ki, ərazinin ixtisaslaşmasında kənd təsərrüfatı mühüm əhəmiyyətinə görə fərqlənmiş olur ki, bu da islahatların əhəmiyyətini artırmış olan məsələdir.

Eyni zamanda, bu, sonrakı illər üzrə bütünlükdə, Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsinin başlanması sahəsində də mühüm tərəflərinə görə seçilməkdədir. Çünki, artıq 1995-ci ildən etibarən ölkədə həmin islahatların keçirilməsinə də qətiyyətlə başlanıldı və həmin sahədə də, müasir dövr üçün əhəmiyyətli olacaq. nəticələr əldə olundu.

Aydındır ki, 1995-ci ildə ölkəmizdə aqrar islahatlar həyata keçirilməyə başlanmışdır. Bu yeni, həm də müasir mərhələ üçün böyük strateji əhəmiyyətə malik mühüm dövlət tədbiri idi. Keçmiş inzibati-amirlik iqtisadi sistemində fəaliyyət göstərən sovxoz və kolxozların və həm də digər kənd təsərrüfatı müəssisələrinin torpaqlarının özəlləşdirilməsini özündə əks etdirən aqrar islahatlar bu sahədə məşğulluq probleminin yeni müstəvidə həllinə geniş zəmin yaratmışdır. "Aqrar İslahatların əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikasının Qanunları (qeyd edək ki, hər iki qanun 18 fevral 1995-ci ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanıb) bu tədbirin hüquqi təminatını yaratdı. Qeyd edək ki, "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu aqrar sahədə çoxnövlü mülkiyyətə əsaslanan və təbii ki, əhalinin məşğulluq probleminin səmərəli həllinə şərait yaradacaq müəssisələrin yaradılmasını məqsədəuyğun hesab etmiş və onları sistemləşdirmişdir [3, s. 44].

Sonrakı mərhələlərdə iqtisadi islahatların davamlılığının, əhəmiyyətliliyinin və perspektivlərinin nəzərə alınması, onun yeni çağırışlara müvafiq qaydada olmaqla, hüquqi və iqtisadi tənzimləmə mexanizmlərinin daha da gücləndirilməsi məsələləri daha da aktuallıq qazanmışdır. Buna görə də, iqtisadi islahatların yeni mərhələsində milli iqtisadiyyatın uzunmüddətli perspektivlərinin müəyyən

olunmasında əvvəllər formalaşan potensialdan düzgün və səmərəli istifadə olunması, yeni istehsal sahələrinin yaradılması və iqtisadiyyatın prioritet hesab olunacaq sahələrinin etibarlı dayaqlarının daha da möhkəmləndirilməsi bütün tərəfləri ilə iqtisadi islahatların zəruriliyini ortaya qoymaqda idi.

Müasir dövrün və yeni iqtisadi şəraitin tələbləri əsasında iqtisadiyyatın inkişaf istiqamətləri elə qurulmalı idi ki, həm kolxoz, həm də sovxozların elmi və təcrübi mahiyyətini, fəaliyyət prinsiplərini, məhsuldarlıq səviyyəsini, güclü sosial faydalılıq və dayanıqlılıq mexanizmlərini özündə əks etdirən və bununla da bazar iqtisadiyyatı şəraitində rəvan addımlayacaq idarəetmə strukturunu formalaşdırmaq mümkün olsun. Bunlar, təbii olaraq, xüsusi mülkiyyətə əsaslanan təsərrüfat fəaliyyətinin qurulması, eyni zamanda da, iqtisadi inkişafın davamlı perspektivlərinin bu əsaslar üzrə yaradılmasında strateji başlanğıc oldu.

Ölkəmiz sosial-iqtisadi inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Bu sahədə ümummilli lider böyük Heydər Əliyevin müəyyən etdiyi davamlı və hərtərəfli inkişaf strategiyası güclü bazaya çevrilmişdir. Məhz bu potensial əsasında da Azərbaycan Respublikası Prezidenti tərəfindən çox yüksək perspektivli tədbirlərin əks olunduğu hüquqi-iqtisadi tənzimlənmə mexanizmlərinin işləkliyi təmin edildi. Belə ki:

– 29 noyabr 2011-ci il tarixdə “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə perspektiv tədbirlərin məqsədyönlülüyünün təmin edilməsi;

– 16 mart 2016-cı il tarixdə “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bu hüquqi sənədin davamı olaraq dövlət başçısının 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə 12 əsas istiqamət üzrə Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri təsdiq olundu;

– 2 fevral 2021-ci il tarixində Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər təsdiq olundu. Orada, qarşıdakı onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılması hədəflənməkdədir:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi [5].

Beləliklə, xalqımızın ümummilli lideri Heydər Əliyev müasir Azərbaycan milli iqtisadiyyatının banisi, uzunmüddətli inkişaf strategiyasının müəllifi, meqaiqtisadi layihələrin həyata keçirilməsindəki təşəbbüslərin isə uğurla reallaşmasındakı xidmətləri ilə hər birimiz üçün doğmadır. Ölkəmiz cənab iqtisadi inkişafın hazırkı mərhələsində məhz həmin ideyalar və təşəbbüslərlə inkişaf etməkdədir. Qarşıdakı mərhələlərdə həmin potensial əsasında daha böyük uğurlar əldə olunacaqdır.

## ƏDƏBİYYAT


1. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 104 s.
2. Qasımov C.Y., Ələsgərova F.Q. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik: Dərs vəsaiti. Naxçıvan: Əcəmi, 2017, 184 s.
3. Şirəliyev A.İ. Bazar iqtisadi sistemi və aqrar münasibətləri: Dərs vəsaiti. Bakı: Sabah, 2002, 79 s.
4. http://www.anl.az/down/meqale/ses/2010/iyul/127631.htm
5. https://president.az/az/articles/view/50474



***Naxçıvan Dövlət Universiteti***
***E-mail: cavadxan.yusifoglu@ndu.edu.az***

**Javadkhan Gasimov**

## HEYDAR ALIYEV'S MODEL OF LONG-TERM NATIONAL ECONOMIC DEVELOPMENT

In the article, along with the processes of state building in all areas of the leadership of our nation's national leader Heydar Aliyev, the issues of sustainable economic development were also discussed in the field of macroeconomic development. It has been shown that both during the time of the former Union and during the current years of independence, there was talk about the implementation of economic reforms and its effectiveness in terms of determining new quality stages. In accordance with the demands and challenges of the modern world, further improvement of the sectoral structure of the national economy in our country, and at the same time, the scientific justification of the issues of ensuring economic diversification has been revealed. In the current economic conditions, it was shown that the reforms starting from the Nakhchivan Autonomous Republic are very relevant in terms of the population living here, living in rural areas. At the later stages, the necessity of continuing economic reforms on the scale of our country for a resilient economy was also justified on this basis.

**Keywords:** *economic reforms, social sustainability, national economy, economical diversification, national priorities.*

**Джавадхан Гасымов**

## МОДЕЛЬ ДОЛГОСРОЧНОГО НАЦИОНАЛЬНОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ ГЕЙДАРА АЛИЕВА

В статье, наряду с процессами государственного строительства во всех сферах руководства общенационального лидера нашей нации Гейдара Алиева, также обсуждались вопросы устойчивого экономического развития в сфере макроэкономического развития. Показано, что как во времена бывшего Союза, так и в нынешние годы независимости велись разговоры о проведении экономических реформ и их эффективности с точки зрения определения новых качественных этапов. В соответствии с запросами и вызовами современного мира, выявлено дальнейшее совершенствование отраслевой структуры национальной экономики в нашей стране, и в то же время научное обоснование вопросов обеспечения диверсификации экономики. Показано, что начинать реформы с Нахчыванской Автономной Республики очень актуально в нынешних экономических условиях с точки зрения проживания местного населения в сельской местности. На более поздних этапах на этой основе также обосновывалась необходимость продолжения экономических реформ в масштабах нашей страны для устойчивой экономики.

**Ключевые слова:** *экономические реформы, социальная устойчивость, национальная экономика, диверсификация экономики, национальные приоритеты.*

**AYTƏKİN QƏHRƏMANOVA**

# AZƏRBAYCANDA DÖVLƏT QADIN SİYASƏTİNİN FORMALAŞMASI ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ADI ILƏ BAĞLIDIR

*Məqalədə Azərbaycanda qadın siyasətinin formalaşması Heydər Əliyevin adı ilə bağlı olduğu göstərilir. Onun bu sahədəki fəaliyyəti şərti olaraq 2 dövrə ayrılır: birinci dövr onun Sovet dönəmi, ikinci dövr isə müstəqil Azərbaycana rəhbərlik etdiyi dövr hesab edilir.*

*Ulu öndərin qadınlarla bağlı məsələlərin həlli üçün imzaladığı mühüm fərman və sərəncamlar qadın hüquqlarının reallaşması və təminatı istiqamətində irəliyə doğru atılmış tarixi addımlar olmuşdur.*

*Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, onlara yüksək imtiyazların verilməsi, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakının artırılması Heydər Əliyev siyasətinin ayrılmaz tərkib hissələrindən biri olduğu qeyd olunur.*

**Açar sözlər:** *Azərbaycanda qadın siyasəti, Heydər Əliyev, qadınların ictimai fəaliyyəti, qadınların hüquq bərabərliyi.*

Azərbaycan cəmiyyəti üçün həmişə müqəddəs hesab olunan, tarixən formalaşmış milli-əxlaqi dəyərlər üzərində qurulan, eyni zamanda bu dəyərləri özündə yaşadaraq gələcək nəsillərə çatdıran Azərbaycan ailəsində qadınların müstəsna rolu vardır. Bütün dövrlərdə Azərbaycan qadını məişətdə ailə qayğılarını çəkməklə yanaşı, tarix boyu kişilərlə birlikdə ölkənin siyasi, mədəni həyatında fəal iştirak etmiş, vətənin müdafiəsində və dövlətin idarə olunmasında böyük xidmətlər göstərmişlər.

Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında Azərbaycan qadınlarının savaş meydanında göstərdiyi şücaət, eyni zamanda Möminə Xatın, Sara Xatın, Nüşabə, Tomris, Nigar, Həcər, Tuti Bikə, Salatın, Gültəkin kimi qəhrəmanlıq nümunəsi olan, Hənifə xanım Məlikova, Həmidə xanım Cavanşir Məmmədquluzadə, Sofiya xanım Şaxtaxtinskaya, Məsmə xanım Talışinskaya, Xurşidbanu Natəvan, Əzizə Cəfərzadə və digərləri kimi yazıçı, şair və xeyriyyəçi qadınlarımız fəaliyyət göstərmişlər. Lakin Azərbaycanda siyasi baxımdan qadın hərəkatının inkişafı XX əsrə təsadüf edir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda qadınların səsvermə hüququ (seçmək hüququ-aktiv hüquq) barədə məsələni ilk dəfə 1907-ci ildə azərbaycanlı deputat Xəlil bəy Xasməmmədov Çar Rusiyasının Dumasında qaldırmış və müsəlman fraksiyasında gərgin müzakirələrdən sonra müsbət həllinə nail olmuşdur [8, s. 40-41]. Əsrin əvvəllərindən Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümumbəşəri demokratik dəyərlərin qəbul edilməsinə yönəlmiş siyasi fəaliyyət nəticəsində, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal Bəyannaməsinin IV bəndində bərabərhüquqluluq prinsipi seçmək və seçilmək hüququnun təsbit edilməsi ilə öz qanuni təsdiqini tapdı [2, s. 28]. Bu zaman Azərbaycan qadınların seçmə və seçilmə hüququnu tanıyan dünya ölkələri arasında səkkizinci [8, s. 249], Şərqdə isə birinci olmuşdur.

Məlumdur ki, dünyada ilk dəfə olaraq qadınlar və onların problemləri haqqında məsələ 1975-ci ildə qaldırılmış və həmin il qadın ili elan olunmuşdur. Elə həmin il Mexikoda Qadınların Ümumdünya Konfransı çağırılmışdır. II Ümumdünya qadın konfransı 1980-ci ildə Danimarkada, III 1985-ci ildə Nayrobidə, IV isə Pekində 1995-ci ildə keçirilmişdir [8. s. 60-70].Hər dörd konfransda qadın və kişi hüquqlarının bərabərliyi və gender məsələsi önə çəkilmişdir. Qeyd edildiyi kimi, Azərbaycan qadınlarının hüquq bərabərliyi isə 1918-ci ildə ölkəmiz müstəqilliyini ilk dəfə əldə etdiyi dövrdə bərqərar olmuş və hətta SSRİ dövründə də davam etmişdir.

Azərbaycanda qadın siyasətinin formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun bu sahədəki fəaliyyətini şərti olaraq 2 dövrə ayırmaq olar: birinci dövr onun Sovet dönəmi, ikinci dövr isə müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdür. Heydər Əliyev 1969-cu ildən – Azərbaycana ilk dəfə rəhbər seçiləndən sonra Azərbaycan qadınları ictimai, siyasi fəaliyyətə geniş surətdə cəlb edilməyə başladı. Ulu öndərin hakimiyyətinin birinci dövründə yüzlərlə qadın öz yaradıcı potensialını nümayiş etdirmək üçün yaranmış şəraitdən məharətlə istifadə edərək dövlət səviyyəsində müəyyən vəzifələrə irəli çəkildi. Ümummilli lider hələ o dövrdə qadınların əməyini yüksək qiymətləndirmiş, daim öz

işində, ictimai fəaliyyətində fərqlənən qadınlara fəxri adlar vermiş, onları mükafatlandıraraq orden-medallarla təltif etmişdir. Pambıq ustası, 2 dəfə Lenin Ordenli, Azərbaycan SSR Ali Sovetinin (6-8 çağırış) deputatı, Sosialist Əməyi Qəhrəmanı Maral Quliyeva, 2-ci çağırış SSRİ Ali Sovetinin, 1-ci çağırış Azərbaycan Ali Sovetinin deputatı, 5 dəfə Lenin ordenli, Oktyabr və Qırmızı Əmək Bayrağı ordenli, 2 dəfə Sosialist Əməyi Qəhrəmanı Şamama Həsənova, Azərbaycan səhiyyə tarixində ilk Sosialist Əməyi Qəhrəmanları Böyükxanım Əliyeva, Zəhra Qazıyeva, Şamama Ələsgərovanın adlarını qeyd etmək olar [10, s. 23].

Heydər Əliyevin diqqət və qayğısının nəticəsidir ki, XX əsrin 70-ci illərində Azərbaycanda müəllimlərin 47%-ni, həkimlərin 60%-ni, tələbələrin 43%-ni, elmi işçilərin 37%-ni qadınlar təşkil edirdi [10, s. 22]. Nazirlik və idarələrin, partiyanın rayon və şəhər komitələrinin, ali təhsil müəssisələrinin rəhbərlərindən Elmira Qafarova, Lidiya Rəsulova, Səkinə Əliyeva, Dilruba Camalova, Zəhra Quliyeva, Zemfira Verdiyeva və digərlərinin adlarını qeyd etmək olar.

Ulu öndərin qadınlara qayğısının nəticəsidir ki, keçmiş Sovet İttifaqının təşəbbüsü ilə hələ 1975-ci ildə BMT Beynəlxalq Qadınlar gününün bütün dünyada qeyd olunmasını tövsiyə etsə də, SSRİ dağıldıqdan sonra bir sıra dövlətlər (Latviya, Litva, Estoniya, Gürcüstan, Ermənistan) bu bayramı ləğv etdikləri halda, məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda 8 mart Beynəlxalq Qadınlar günü nəinki bayram kimi saxlanılmış, həmçinin qeyri-iş günü kimi qanunvericilik qaydasında qərarlaşdırılmışdır.

Azərbaycan qadınına diqqət və qayğı özünü böyük siyasətçinin ikinci dəfə rəhbərlik etdiyi dövrdə daha qabarıq göstərdi. 1994-cü ildən başlayaraq qadın problemlərinin həlli Heydər Əliyevin düşünülmüş, hərtərəfli qadın siyasəti yürütməsi ilə reallaşmağa başladı. Qadınların işlərində canlanma əmələ gəldi, respublikada qeyri-hökumət qadın cəmiyyətləri və təşkilatları yaranmağa başladı. Müstəqilliyin ilk illərində respublikada qadın problemləri ilə məşğul olan dövlət qurumu olmadığından 1994-cü il sentyabrın 19-da Heydər Əliyev "Qadınların Ümumdünya Konfransına hazırlıqla əlaqədar Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında" Fərman imzaladı [13].

Heydər Əliyevin müəllifi olduğu və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında qadınların kişilərlə bərabərhüquqlu olması təsdiqləndi. Bununla da, Azərbaycanın demokratik cəmiyyət quruculuğunda qadınların iştirakının hüquqi bazası yaradıldı. Bu isə öz növbəsində ictimai-siyasi həyatımızın bütün sferalarında gender siyasətinin güclənməsinə gətirib çıxarmışdır.

Azərbaycan dövlətinin ali qanunu olan Konstitusiyanın 25-ci maddəsində deyilir ki, kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. 55-ci maddəsində göstərilir ki, Azərbaycan vətəndaşlarının, eləcə də qadınların dövlət orqanlarına seçmək və seçilmək hüququ, həmçinin referendumda iştirak etmək hüququ var [1, s. 10, 19]. Əsas Qanunun nikah münasibətləri zamanı iradə azadlığını və ərlə arvadın hüquq bərabərliyini tənzimləyən 34-cü maddəsinin müddəaları da diqqətəlayiqdir. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququnu müəyyən edən həmin maddənin II hissəsinə əsasən nikah könüllü razılıq əsasında bağlanır. Heç kəs zorla evləndirilə və ərə verilə bilməz. Bu normanın III hissəsi həmçinin, birmənalı olaraq ərlə arvadın hüquq bərabərliyini təsdiq edir. Beləliklə, Konstitusiyanın qəbulu ilə ölkəmizdə qadınların digər hüquqlarının təminatı daxilində, o cümlədən demokratik dövlət quruculuğunda fəal iştirakını təmin edir.

Heydər Əliyev bütün fəaliyyəti dövründə Azərbaycan qadınına yüksək dəyər verərək onların cəmiyyətdə rolunun artırılmasına çalışırdı. O, qadınlarımız haqqında deyirdi: "Mən bütün fəaliyyətimdə həmişə qadınlara arxalanmışam, onları özümün dayağı hesab etmişəm. Bunlar sadəcə sözlər deyildir. Mən onları sınaqdan keçirmişəm. Mənim həyatımın çox ağır və çətin anları olub. Bütün bu mərhələlərdə qadınlar özlərini çox etibarlı göstəriblər və bu sınaqlardan çıxıblar. Azərbaycan Prezidenti kimi mən birinci növbədə qadınların cəmiyyətdə rolunun artmasına çalışıram. Əminəm ki, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunda, iqtisadi islahatlarda və digər proseslərdə siz həmişə fəal olacaqsınız və ön sıralarda gedəcəksiniz" [6, s. 179]. Qadınlara bu cür münasibət bildirən dahi rəhbərin təşəbbüsü ilə 1995-ci ilin sentyabr ayında Pekində keçirilən Ümumdünya Qadın konfransında Azərbaycan qadınlarından ibarət yüz nəfərlik nümayəndə heyəti iştirak etdi. Konfransda qadınların vəziyyətinin yaxşılaşdırılması sahəsində 12 strateji istiqamət müəyyən edildi. Pekin Konf-

ransından sonra respublikamızda qadınların fəallığı daha da artdı və onların problemlərinə diqqət və maraq çoxaldı. Bu isə Parlament seçkilərində və qadınların rəhbər vəzifələrdə irəli çəkilməsində özünü göstərməyə başladı.

1996-cı ildə Azərbaycan hökuməti qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi "CEDAW" Konvensiyasına qoşulması ilə əlaqədar BMT-yə ilkin məruzə təqdim etdi. Bu məruzənin müzakirəsi BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitəsi"nin XVIII sessiyasının gündəliyinə daxil edildi. Pekin Platformasına uyğun olaraq "Azərbaycan Respublikasında Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı (14 yanvar 1998-ci il) sessiya iştirakçıları tərəfindən yüksək qiymətləndirildi və sessiyanın gedişatına yeni keyfiyyət qazandırdı [8, s. 171]. Tibb elmlər doktoru, əməkdar elm xadimi, Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri, professor Zəhra Quliyeva bu Komitənin sədri təyin edildi. Azərbaycan Respublikasında Qadın Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyətə başlaması ölkədəki qadın təşkilatlarının mərkəzləşdirilmiş şəkildə idarə olunmasına zəmin yaratdı. Bununla da, Heydər Əliyev ailə, qadın və uşaq problemlərinin fəaliyyətinin bünövrəsini qoydu.

Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, onlara yüksək imtiyazların verilməsi, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakının artırılması Heydər Əliyev siyasətinin ayrılmaz tərkib hissələrindən olmuşdur. Belə ki, BMT-nin İnsan hüquqları haqqında Ümumi Bəyannaməsinin 50 illiyinin keçirilməsi haqında16 aprel 1998-ci il tarixli Prezident sərəncamında göstərilmişdir ki, Bəyannamədə təsbit edilmiş hüquqlar ümumbəşəri dəyərlərdir. Onlar hər kəsə, məhz insan olduğuna görə mənsubdur. Kişi və qadın, uşaq və ya böyük, varlı və ya kasıb, güclü və ya zəif bütün bunların heç bir əhəmiyyəti yoxdur: hər kəs insan olduğuna görə bərabər hüquqlara malikdir və ləyaqətinə hörmət edilməyə haqqı var [5].

BMT-nin "Qadınlar və silahlı münaqişələr" mövzusunda 17 may 1998-ci ildə keçirilmiş beynəlxalq konfransda Heydər Əliyev ölkəmizdə qadın hüquqları ilə bağlı vəziyyəti belə səciyyələndirmişdir: "Azərbaycan Respublikasının Konstitusiyası cəmiyyətdə qadınların kişilərlə hüquq bərabərliyini təmin edir. Respublikada qadınların ölkənin ictimai-siyasi həyatında, dövlət strukturlarında geniş təmsil olunması üçün imkanlar yaradılır. Sizi əmin etmək istəyirəm ki, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə inamla gedən Azərbaycan Respublikası qadınların hüquqlarının daha da genişləndirilməsi üçün bundan sonra da var qüvvəsini sərf edəcəkdir" [9].

Məlumdur ki, Azərbaycanda qadın siyasəti dövlətin yeritdiyi siyasətin içərisində özünəməxsus yer tutur. Başqa sözlə desək, qadın siyasəti vahid siyasətin ayrılmaz tərkib hissəsidir və bu siyasətlə vəhdətdə həyata keçirilir. Çünki, qadın problemi xalqın, cəmiyyətin, dövlətin problemi olduğu üçün onu ayrılıqda həll etmək mümkün deyil. Məhz bu baxımdan, qadın siyasəti bütövlükdə yeridilən siyasətin tərkib hissəsi olaraq onunla birlikdə götürülməlidir.

Ulu öndərin qadınlarla bağlı məsələlərin həlli üçün imzaladığı mühüm fərman və sərəncamlar qadın hüquqlarının reallaşması və təminatı istiqamətində irəliyə doğru atılmış tarixi addımlar olmuşdur. Heydər Əliyev hər zaman vurğulayırdı ki, dövlət quruculuğunun bütün mərhələlərində xüsusi xidmətləri olan Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün bu gün də var qüvvələrini sərf edirlər. İqtisadiyyatda, siyasətdə, elmdə, təhsildə, bir sözlə bunu hər sahədə görmək olar.

Heydər Əliyevin iştirakı ilə 1998-ci il sentyabrın 14-15-də Azərbaycan qadınlarının I qurultayı keçirildi (Azərbaycan qadınlarının ilk qurultayı 1921-ci il fevralında Azərbaycanın Xalq Cümhuriyyəti dövründə keçirilmişdi – A.Q.) [4]. Qurultay qadınların fəallığı və onların həll edilməmiş problemlərinin təhlili baxımından mühüm hadisə olmuşdur. Heydər Əliyev Azərbaycan Respublikası qadınlarının I qurultayında çıxış edərək demişdir: " Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti ilə və gözəlliyi, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır. Ancaq bununla bərabər, əsrlər boyu Azərbaycan qadınının üzərinə böyük zəhmətlər düşmüşdür. O zəhməti də qadın həmişə mərdliklə, cəsarətlə çəkmişdir və heç vaxt bu zəhmətdən inciməmişdir" [7, s. 127]. Ulu öndərin də iştirak etdiyi qadınların 1-ci qurultayında Azərbaycan qadınlarının Milli Şurası yaradıldı.

Dünyaya inteqrasiya edən Azərbaycan bəşəriyyətin əldə etdiyi bütün nailiyyətlərdən bəhrələnməyə çalışır. Məhz elə bu nöqteyi-nəzərdən də Azərbaycan dövləti qadın hüquqlarının müdafiəsi sahəsində Pekin Konvensiyası ilə yanaşı, onlarla digər müqaviləyə qoşulmuşdur. Onların içərisində "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "Ərdə olan qadınların vətəndaşlığı haqqında", "Nikaha daxil olmağa razılıq, nikah üçün minimal yaş həddi və nikahların qeydiyyatı haqqında" Konvensiyalara və digər sənədlərə Azərbaycan məhz ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə qoşulmuşdur.

Azərbaycanda qadın siyasətinin həyata keçirilməsi istiqamətində mühüm addımlardan biri də Heydər Əliyev tərəfindən 6 mart 2000-ci il tarixdə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanın imzalanması oldu. Fərmanda Azərbaycan qadınının öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynaması, ölkəmizin inkişafının müxtəlif mərhələlərində qadınların fəaliyyəti, görkəmli siyasi və dövlət xadimlərinin dövlətin tərəqqisi naminə verdiyi töhfələr öz əksini tapmışdır. Fərmanda eyni zamanda, qadınların kişilərlə hüquq bərabərliyi, xüsusi ilə onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi qərara alınmışdır [3]. 2000-ci ilin iyun ayında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasında Qadın Problemləri Milli Fəaliyyət Planı" (2000-2005) təsdiq edilmişdir. Milli fəaliyyət planı milli prioritetləri nəzərə alaraq, Pekin Strategiyası əsasında hazırlanmışdır. Aydındır ki, 1995-ci ildə IV Ümumdünya qadın konfransında dünyanın 189 ölkəsi kimi Azərbaycan da Pekin Bəyannaməsi və Fəaliyyət Platformasını qəbul etmişdir. Platformanın əsas məqsədi qadınların siyasi, iqtisadi və sosial vəziyyətlərinin yaxşılaşdırılmasıdır. Pekin Bəyannaməsi və Fəaliyyət Platforması bütün dünya qadınlarının hüquqlarının qorunacağına, sülhə və gender bərabərliyinə nail olmaq üçün inkişaf proseslərində yaxından iştiraklarına mane olan amillərin aradan qaldıracağını bəyan edir.

Bununla yanaşı, 28 dekabr 2001-ci ildə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edildi [12]. 5 mart 2002-ci ildə isə ölkə başçısı tərəfindən bu Qanunun tətbiq edilməsi haqqında Fərman imzalandı və beləliklə də təsisatın yaradılması və fəaliyyət göstərməsi üçün hüquqi baza yaradıldı. Böyük siyasətçi insan hüquqları çərçivəsində qadın hərəkatının inkişafına da güclü stimul vermiş oldu.

Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdiyi ilk gündən qadınlara aid imzaladığı fərman və sərəncamlarda, qəbul etdiyi qərarlarda aşağıda qeyd olunan istiqamətləri dövlət qadın siyasətinin əsil mahiyyətini təşkil etmişdir:

– Qadınlara münasibətdə dövlət siyasətinin əsas istiqamətlərinin, ona müvafiq proqramların hazırlanması;

– qadınların dövlət orqanlarının işində, ölkənin ictimai-siyasi həyatında iştirakı, sahibkarlıq fəaliyyəti, onların yeni ixtisaslara yiyələnməsi, yenidən hazırlanması və ixtisaslarının artırılması;

– qaçqın və məcburi köçkün qadınların sosial müdafiəsinin gücləndirilməsi;

– qadınların əmək hüququnun həyata keçirilməsi üçün təşkilati, iqtisadi və hüquqi tədbirlərin görülməsi;

– qadınların əməyinin, onların həyatının, sağlamlığının müdafiəsinin, analıq funksiyaları nəzərə alınmaqla təmin edilməsi;

– beynəlxalq qadın təşkilatları və respublikada fəaliyyət göstərən qeyri-hökumət təşkilatları və dövlət strukturlarının qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsi [8, s. 86].

Ulu öndər Heydər Əliyev tərəfindən müəyyən olunmuş dövlət qadın siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda yüksəliş mərhələsinə qədəm qoymuşdur. Ulu öndərin qadın siyasəti İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, 2006-cı il fevralın 6-da ölkə Prezidentinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin formalaşması fərmanı ilə bu sahədə mövcud olan məsələlərin kompleks şəkildə həlli üçün zəmin yaratmışdır.

Həyata keçirilən qadın siyasətinin müddəalarından ölkəmizin bütün qadınları kimi, muxtar respublika qadınları da bəhrələnmişdir. Qeyd edək ki, muxtar respublikada 231 min 614 qadın yaşayır

ki, bu da muxtar respublika əhalisinin 50 faizini təşkil edir. Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 45 deputatından 11-i qadındır. Naxçıvan Muxtar Respublikasından Azərbaycan Milli Məclisinə seçilən 7 deputatdan 1-i qadındır [11]. Həmçinin dövlət qulluğunda işləyənlərin 23, təhsil sahəsində işləyənlərin 70, mədəniyyət sahəsində işləyənlərin 64, səhiyyə və sosial təminat sahəsində işləyənlərin isə 82 faizi qadındır.

Hazırda muxtar respublikada 7390 qadın sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Son illər ərzində muxtar diyarımızda yüzlərlə yeni ailə təsərrüfatları formalaşıb. Bu günədək 1209 ailə təsərrüfatı qeydiyyata alınıb ki, bunun da 98-i qadınlar tərəfindən idarə olunur [11].

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıralarında təmsil olunan üzvlərin 25 min 380-i qadındır. Ümumilikdə, partiyanın üzvü olan qadınlardan 11 min 722 nəfəri ali təhsilli, 4844 nəfəri isə orta ixtisas təhsillidir [11].

Nəticə etibarı ilə deyə bilərik ki, Azərbaycan ailəsində qadının yeri və rolu xüsusi əhəmiyyət daşıyır. Azərbaycan qadını yeni nəsli dünyaya gətirmək, onu tərbiyə etmək, vətənə layiq böyütmək kimi çox vacib bir vəzifəni yerinə yetirməklə bərabər, ailənin möhkəmliyi və bütövlüyünün qorunması məsuliyyətini də könüllü surətdə daşıyır. Azərbaycan qadını öz fəaliyyətini maarifçilik və xeyriyyəçilik ideyalarının yayılmasından başlayaraq, mədəni, dini, milli-mənəvi dəyər və ənənələri də nəzərə almaqla davam etdirir. Bu qadınlar bütün tarixi dövrlərdə ictimai həyatda fəal iştirak edərək, cəmiyyətimizin inkişafına öz töhfələrini vermişlər. Bütün bu sadalananlar isə təməli Heydər Əliyev tərəfindən qoyulan qadın siyasətinin bariz nümunəsidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Bakı: Lider, 2004, 440 s.
3. “Azərbaycan” qəz., 2000, 7 mart.
4. “Azərbaycan” qəz., 1998, 17 sentyabr.
5. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 50 illiyinin keçirilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 1998, 16 aprel // https://e-qanun.az/framework/4307
6. Əliyev H. Müstəqilliyimiz əbədidir. On beşinci kitab, Bakı: Azərnəşr, 2005, 528 s.
7. Əliyev H. Müstəqilliyimiz əbədidir. On yeddinci kitab, Bakı: Azərnəşr, 2006, 528 s.
8. Heydər Əliyev və Dövlət qadın siyasəti / AQUPDK-nin tərtibatı. Bakı: Nurlar, 2008, 440 s.
9. Birləşmiş Millətlər Təşkilatının “Qadınlar və silahlı münaqişələr” mövzusunda beynəlxalq konfransın iştirakçılarına, Bakı şəhəri, 1998, 17 may // “Heydər Əliyev irsi” beynəlxalq elektron kitabxana.
10. İbrahimova G. Heydər Əliyev və Azərbaycan qadını. Bakı: Adiloğlu, 2007, 236 s.
11. “Şərq qapısı” qəz., 2022, 5 mart.
12. e-qanun.az/framework/1407
13. https://e-qanun.az/framework/8994



***AMEA Naxçıvan Bölməsi***
***E-mail: aytekin 1962@mail.ru***

**Aytakin Gahramanova**


## THE FORMATION OF STATE WOMEN’S POLICY IN AZERBAIJAN IS CONNECTED WITH THE NAME OF THE NATIONAL LEADER HEYDAR ALIYEV


The article shows that the formation of women’s policy in Azerbaijan is connected with the name of Heydar Aliyev. Heydar Aliyev’s activity in this area is conditionally divided into 2 periods:

the first period is considered to be the Soviet period, and the second period is considered to be the period when he led independent Azerbaijan.

Important decrees and orders signed by the Great Leader to resolve issues related to women were historical steps taken forward towards the realization and guarantee of women's rights.

In the article, it was mentioned that the protection and promotion of women's rights in Azerbaijan, giving them high privileges, and increasing the participation of women in the implementation of state policy and the adoption of laws were one of the integral parts of Heydar Aliyev's policy.

**Keywords:** *women's policy in Azerbaijan, Heydar Aliyev, women's social activities, women's right equality.*

**Айтекин Гахраманова**

## ФОРМИРОВАНИЕ ГОСУДАРСТВЕННОЙ ЖЕНСКОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ СВЯЗАНО С ИМЕНЕМ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

В статье указывается, что формирование женской политики в Азербайджане связано с именем Гейдара Алиева. Деятельность Гейдара Алиева в этой сфере условно делится на 2 периода: первый период считается советским, а второй – периодом руководства независимым Азербайджаном.

Важные указы и распоряжения, подписанные великим лидером для решения вопросов, связанных с женщинами, были историческими шагами вперед в реализации и обеспечении прав женщин.

В статье отмечается, что защита, пропаганда прав женщин в Азербайджане, предоставление им высоких привилегий, повышение участия женщин в реализации государственной политики и принятии законов являются неотъемлемыми составляющими политики Гейдара Алиева.

**Ключевые слова:** *женская политика в Азербайджане, Гейдар Алиев, общественная деятельность женщин, равноправие женщин.*

**İSMAYIL ZEYNALOV**

# AZƏRBAYCANIN BEYNƏLXALQ ALƏMDƏ TANIDILMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

*Elmi məqalədə ulu öndər Heydər Əliyevin gənclik illərində keçdiyi tarixi yol, onun Azərbaycana rəhbərliyə gəlişi və rəhbərliyinin bütün illərində Azərbaycan həm ittifaq miqyasında, həm də beynəlxalq aləmdə tanıdılması istiqamətində gördüyü işlər öz əksini tapmışdır. Heydər Əliyevin bu istiqamətdə gördüyü işlər və həyata keçirdiyi tədbirlər mərhələlərlə 1969-2003-cü illəri əhatə etmişdir.*

*Elmi məqalədə ulu öndərin siyasi fəaliyyətində Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasının mərhələləri göstərilmiş, qeyd olunmuşdur ki, bu mərhələlər 1969-1982, 1982-1987 və 1990-2003-cü illəri əhatə etmişdir.*

*Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsində təhsil və elm sahəsində həyata keçirdiyi tədbirlər, Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırması, ittifaq çərçivəsində ölkəmizin Yaponiya, ADR, Bolqarıstan və s. kimi dövlətlərlə yaratdığı mədəni əlaqələr elmi əsaslarla təhlil edilmişdir.*

*Heydər Əliyevin siyasi fəaliyyətinin 1982-1987-ci illəri əhatə edən Moskva dövründə xarici ölkələrə etdiyi səfərlərdə digər məsələlərlə yanaşı öz şəxsiyyəti ilə, yəni Azərbaycanlı olması ilə Azərbaycanın beynəlxalq aləmdə tanıdılması istiqamətində gördüyü işlər məqalədə öz əksini tapmışdır.*

*Elmi məqalədə ulu öndərin hakimiyyətinin 1990-2003-cü illəri əhatə edən son mərhələsində Azərbaycanın beynəlxalq aləmdə tanıdılması istiqamətində Azərbaycanın beynəlxalq təşkilatlarda, o cümlədən BMT, ATƏT, NATO, Avropa şurası kimi nüfuzlu təşkilatlarda təmsil olunması, eləcə də "Əsrin müqaviləsi"nin bağlanması kimi böyük tarixi əhəmiyyət kəsb edən məsələlər öz əksini tapır.*

**Açar sözlər:** *Azərbaycan, xarici siyasət, istiqamət, beynəlxalq, təşkilatlar, mərhələ.*

Adı insanların qəlbində heykəlləşmiş şəxsiyyətlər neçə yüz ildən bir doğulur və öz əməlləri ilə xalqına, millətinə, vətəninə eləcə də, dünya xalqlarına hörmət və qayğısına görə əbədiyyət qazanır, daimi olaraq xalqın yoluna nur saçırlar. Belə şəxsiyyətlərdən biri də 1923-cü ilin may ayının 10-da Azərbaycan Respublikasının ayrılmaz bir parçası olan Naxçıvan şəhərində dünyaya göz açan Heydər Əlirza oğlu Əliyev olmuşdur. O, ilk təhsilini də Naxçıvan şəhərində almış və bundan sonra 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirmiş, sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) Memarlıq fakültəsində təhsil almışdır.

1941-ci ildə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında, sonra isə Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmişdir.

1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir.

Həmin illərdə o, Leninqrad şəhərində (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində Tarix ixtisasını bitirmişdir.

1965-ci ildən Dövlət Təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildən 1969-cu ilə qədər isə Dövlət Təhlükəsizlik Komitəsi sədri vəzifəsində işləmiş və general-mayor rütbəsinə qədər yüksələ bilmişdir.

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul plenumunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur.

Respublikanın rəhbəri seçilən Heydər Əliyev ölkəmizin gələcək müstəqilliyi üçün bütün imkanlardan istifadə etməyə başlamış və dönüş mərhələsinin təməlini qoymuşdur. O, ən əvvəl ölkənin iqtisadi, hərbi, mədəni, siyasi qüdrətini artırmaqla yanaşı onun beynəlxalq aləmdə tanıdılması istiqamətində geniş miqyaslı işlər həyata keçirməyə başladı və Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasında özünün siyasi təcrübəsindən və diplomatik qabiliyyətindən çox bacarıqla istifadə etmişdir. Məhz bu mənada onun Azərbaycanı beynəlxalq aləmdə tanıdılmasını 3 dövrə bölmək olar:

**Birinci dövr:** 1969-1982-ci illəri əhatə edir. Bu dövrdə ölkənin inkişafı və yüksəlişini təmin etmək, Azərbaycan dilinin dövlət dili kimi qəbul olunması milli-mənəvi dəyərlərimizin qorunması, mədəniyyətimizin inkişafı, konstitusiyanın qəbul edilməsi kimi qlobal məsələlərinin həlli istiqamətində bir çox işlər görmüşdür. Onlardan ən önəmlisi ali təhsil məkanında özünəməxsus yeri olan Naxçıvan Dövlət Universitetinin və Azərbaycan Milli Elmlər Akademiyasının yaradılması ilə bağlı olmuşdur.

Ona görə də o, çıxışlarının birində demişdir, mən çox xoşbəxtəm ki, bu ali təhsil və tədqiqat ocaqlarının təməlini qoyanlarından və təşəbbüskarlarından biri olmuşam. Əlbəttə ki, onun söylədiyi bu fikir elə-belə fikir deyilmiş, çünki digər həyata keçirilən tədbirlərlə yanaşı bu Ali təhsil və tədqiqat ocaqlarının xarici dövlətlərin ali təhsil və tədqiqat ocaqları ilə yaratdığı əlaqələr Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasında çox müsbət və müstəsna rolu olmuşdur.

Bununla yanaşı mərkəzi Moskva hökuməti tərəfindən respublikaya xarici siyasət fəaliyyəti sahəsində müəyyən hüquqlar verməsindən məharətlə istifadə etməklə, Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasında xüsusi rol oynadı. Baxmayaraq ki, bu hüquqlar diplomatik, siyasi, ticarət, iqtisadi sahələri yox, yalnız mədəni sahələri əhatə edirdi. Amma ulu öndər Heydər Əliyev iynənin ucu boyda görünən bu işıqdan çox bacarıqla istifadə edərək xarici dövlətlərdə mədəni əlaqələr adı altında, iqtisadi əlaqələr yaratmağa da nail olaraq Azərbaycanı beynəlxalq aləmə tanıtmış oldu. Öz şəxsi nüfuzundan istifadə edərək ən əvvəl Yaponiyanın Ukraynada tikilməsi nəzərdə tutulan kondisioner zavodunun Azərbaycanda (Sumqayıtda) tikilməsinə nail olmaqla Yaponiya, eləcə də Almaniya Demokratik Respublikası ilə əlaqə yaradaraq Sumqayıtda boru prokat zavodunun tikilməsinə başlamaqla Almaniya ilə həmçinin digər tərəfdən Bolqarıstanın Razqrad Mahalı ilə Abşeron rayonu arasında mədəni əlaqədar yaradaraq Bolqarıstanla və sairə kimi xarici dövlətlərlə əlaqələr yaratmış və Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasında müstəsna rolu olmuşdur. Məhz buna görə də ulu öndərin gördükləri bu işlər onun uzaqgörənliyindən xəbər verir. Şübhəsiz ki, görülən bu işlər Azərbaycanın müstəqillik əldə ediləndən sonra onun tez bir zamanda tanınmasında xüsusi rolu oldu.

Heydər Əliyevin Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasının **ikinci dövrü** isə 1982-1987-ci illəri əhatə edir. Belə ki, 1982-ci ilin dekabr ayında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçiləndən sonra Moskvaya dəvət olunmuşdur. Beş il davam edən bu dövrdə SSRİ Nazirlər Sovetinin Sədr müavini vəzifəsində çalışmaqla Azərbaycanın gələcəkdə Müstəqilliyə qovuşmasını diqqətdən kənarda qoymamışdır. O, bu dövrdə əsasən öz şəxsiyyəti ilə Azərbaycanı daha geniş mənada tanınmağa başlamışdır. Məsələn Türkiyə prezidenti Turqut Ozal 1983-cü ilin aprel ayında öz çıxışlarının birində bildirmişdi ki, Kremlə bir ulduz daxil olmuşdu, O yüksək dünyagörüşünə malik, Azərbaycan türk dövlətindən olan Heydər Əliyev olmuşdur.

O, SSRİ Nazirlər Sovetinin birinci müavini işlərkən özünün bir azərbaycanlı kimi tanıtmışdır. Baykal-Amur dəmir yol magistralının çəkilişinə rəhbərlik edərkən onun Azərbaycanlı olması ilə ittifaq daxilində Azərbaycanı Sibir xalqlarına tanıtmış oldu. Eyni zamanda digər tərəfdən SSRİ nümayəndəliyi tərəfindən Şərqi Asiya dövlətlərinə səfər zamanı, o cümlədən, Çinə, Hindistana, Monqolustana, Vyetnama, Qərbi Avropa ölkələrinə gedən zaman Fransa, İtaliya, Bolqarıstana və sairə kimi dövlətlərə səfərləri ilə Azərbaycanı Avropa ölkələrinə tanıtmış oldu.

Azərbaycanı beynəlxalq aləmə tanıdılmasının **3-cü dövrü** isə 1991-2003-cü illəri əhatə edir. Yəni ulu öndərin Moskvadan Azərbaycana qayıdışı ilə başlayır. 1991-cı il yanvar ayının 19-dan 20-ə keçən gün sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycan Moskvadakı nümayəndəliyinə gələrək orada keçirilən yığıncaqda bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətlə əlaqədar Sovet imperiyasının mənfur siyasətini kəskin tənqid etmiş və cinayəti törədən təşkilatçıları cəzalandırmağı qətiyyətlə tələb etmişdir.

Bakıda "Qanlı Yanvar" faciəsindən sonra Azərbaycana gəlməyi və xalqına dəstək olmağı qarşısına məqsəd qoymuşdur.

O, müəyyən qüvvələrin müqavimətinə baxmayaraq, 1990-cı il iyul ayının 20-də Bakıya, 22-ində isə doğma vətənə Naxçıvana gəldi.

*"Heydər Əliyevin Naxçıvanda yenidən siyasətə qayıtması Azərbaycanın bir dövlət kimi dağıtmaq istəyən daxili və xarici düşmənləri ciddi təşvişə salmışdır"* [1, s. 9]. Bu dövrdə bütün Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda azadlıq uğrunda mübarizə gedirdi. Bu mübarizəni qələbə ilə başa çatdırmaq üçün siyasi təcrübəyə, diplomatik qabiliyyətə malik bir rəhbər lazım idi. Belə bir rəhbər Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyev oldu.

Bu zaman Naxçıvanda geniş miqyaslı mitinqlər gedirdi.

*"Muxtar respublikanın vilayət, şəhər və rayon partiya komitələrinə qarşı etiraz və mitinqləri və yürüşləri keçirildi"* [3, s. 200].

Həmin mitinqlərdə Azərbaycan rəhbərliyinin satqın siyasəti kəskin tənqid olunur və seçkilərin demokratik əsaslarla keçirilməsi tələb olunurdu. Keçirilən bu seçkilərdə Azərbaycanın böyük oğlu Heydər Əliyev Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetinə deputat seçilmiş oldu. Eyni zamanda Ali Sovetə demokratik əhval-ruhiyyəli 30-dan artıq deputat seçilmişdi və həmin deputatlar parlamentdə "demokratik blok" yaratmışdılar.

Heydər Əliyev "demokratik blok"u dəstəkləmiş və onun fəaliyyətinə istiqamət vermişdir. Heydər Əliyev özünün böyük nüfuzundan və xalq tərəfindən dəstəklənməsində istifadə edərək, həmin dövrdə "demokratik blok" ilə iqtidar arasında müəyyən bir kompromis yaratmış və bunun nəticəsində Azərbaycan xalqının taleyində mühüm əhəmiyyət kəsb edən bir sıra qərarların qəbul edilməsinə nail olmuşdur. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublika Ali Sovetinin birinci sessiyası öz işinə başlamışdı. İclasa Heydər Əliyev sədrlik edirdi. Heydər Əliyev Azərbaycan xalqının mənafeyini təmsil edərək çox mühüm və prinsipial məsələləri, o cümlədən, Azərbaycanın suverenliyi və müstəqilliyinin demokratik yolla qəbul olunmasını, üçrəngli bayrağımızın dövlətin milli rəmzi kimi qəbul olunmasını, 1990-cı il 20 Yanvar hadisələrinə obyektiv qiymət verməsini, onun günahkarlarının məhkəmə qarşısında cavab verməsini, Dağlıq Qarabağda Arkadi Volskinin rəhbərliyi ilə yaradılmış "Xüsusi idarəetmə" orqanının ləğv edilməsini və sairə kimi qlobal məsələlər irəli sürülürdü.

Qeyd etmək yerinə düşər ki, həmin dövrdə Naxçıvanda rəhbərlik edən Kommunist Partiyasının liderləri bu məsələlərə biganə yanaşır və irəli sürülən məsələləri həll etməkdən xeyli uzaq idilər.

Heydər Əliyev xalq və deputatlar arasında olan böyük nüfuzundan istifadə edərək sessiyanın gedişinə ciddi təsir göstərmiş və Azərbaycan xalqının naminə nəzərdə tutulan qərarların qəbul olunması naminə xeyli işlər görmüşdür. Eləcə də o, Naxçıvanı erməni təcavüzündən qorumuş və ordu quruculuğunu həyata keçirmişdir.

Beləliklə 1991-1993-cü illər arasında ümummilli lider Heydər Əliyev Naxçıvandakı hakimiyyəti dövründə muxtar respublikanı geniş tərəqqi yoluna çıxara bilmişdir.

Məsələn Naxçıvanda Ali Məclisin Sədri işlərkən Naxçıvanı blokada şəraitindən çıxarmaq üçün Türkiyə və İranla iqtisadi və siyasi diplomatik əlaqələr yaratmaqla Azərbaycanı beynəlxalq aləmdə daha geniş tanıtmışdır. 1991-ci il 29 oktyabrda Heydər Əliyevin ciddi səyi ilə başa gəlmiş Naxçıvan MR Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı üzərində ümid körpüsünün salınması rəsmiləşdirilmişdir. *"Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrdə nə qədər böyük rol oynadığını artıq hamı görür"* [4, s. 208]. 1992-ci il 22-25 martda Türkiyədə Baş nazir Süleyman Dəmirəllə Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan MR-a maliyyə iqtisadi və texniki yardım göstərilməsi barədə 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolu imzalanmışdır. 1992-ci il 28 mayda Naxçıvanla Türkiyə arasında Araz çayı üzərində tikilmiş "Ümid" körpüsünün açılışı olmuşdur. 1992-ci il 22-26 avqusta Heydər Əliyev İran İslam respublikasına səfər etmiş ali dini lider Ayətulla Xameneyi və İran İslam Respublikasının prezidenti Əli Əkbər Rəfsəncani və digər rəsmi şəxslərlə görüşmüşdür. Bu səfərin nəticəsi olaraq Naxçıvan MR ilə İran islam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlığa dair protokolları imzalamışdır. 1992-ci il İran və Türkiyə ilə bağlanmış əməkdaşlıq müqavilələri əsasında Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələri yaradıldı. Bundan əlavə Naxçıvan şəhəri yaxınlığında İstilik-Elektrik Stansiyası tikildi.

İran İslam Respublikasından Culfa rayonuna, Türkiyə Respublikasının Iğdır vilayətindən isə 92 kilometrlik bir məsafədən yüksək gərginlik elektrik xətlərinin Naxçıvana çəkilməsi başa çatdırıldı ki, bu da Naxçıvanın elektrik enerjisinə olan ehtiyacını əsasən ödəmiş oldu.

*"Azərbaycan Respublikasının xarici siyasətində dünya dövlətləri ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə yanaşı beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi də mühüm yer tutur.1992-ci ildən BMT, ATƏT və İKT-nin üzvü olan Azərbaycan Respublikası həyata keçirdiyi ardıcıl siyasət nəticəsində 2001-ci ildə Avropa Şurasına qəbul edilmiş, Avropa Birliyi, NATO və başqa təşkilatlarla sıx əlaqələr yaratmış, bu qurumlar çərçivəsində qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi üçün fəal xarici siyasət yeridir"* [2, s. 172].

Bununla yanaşı ulu öndər Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasında beynəlxalq təşki-

latlara qoşulması ilə də daha çox əhəmiyyət kəsb etmişdi. Belə təşkilatlardan Birləşmiş Millətlər Təşkilatını misal göstərmək olar. 1992-ci il Mart ayının 2-də BMT-nin 46-cı sessiyasına nümayəndə göndərilməsi Heydər Əliyev məsləhət bilinmişdi O bu mötəbər təşkilatın sessiyasına gedərək onun tribunasından Ermənistanın təcavüzkar bir dövlət olduğunu bəyan etmiş, həmçinin aparılan danışıqlar əsasında əldə olunmuş razılığa əsasən Azərbaycan BMT-nin daimi nümayəndəliyinə qəbul olunmuş və bu nümayəndəliyə təyin olunmuş Həsən Həsənov 1992-ci ilin may ayının 9-da işə başlamışdı. Sonralar isə Heydər Əliyevin nüfuzu və gərgin əməyi nəticəsində Azərbaycanın BMT-nin iqtisadiyyat və sosial komitəsinə həmçinin Elm və Mədəniyyət Komissiyasına üzv seçildi. Bununla da Azərbaycan bir müstəqil dövlət kimi BMT üzvü olan dövlətləri tərəfindən tanındı. Bununla yanaşı Azərbaycan Heydər Əliyevin səyi nəticəsində 1992-ci il yanvar ayının 20-də Avropa təhlükəsizlik və əməkdaşlıq müşavirəsinə daxil oldu. Bu təşkilat sonralar yəni 1994-cü ildə ATƏT yəni (Avropa təhlükəsizlik və əməkdaşlıq təşkilatı adlandırıldı). ATƏT Avropada sülhün qorunub saxlanılmasına, eləcə də bütün sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsinə münaqişələrin sülh yolu ilə həll olunmasına xidmət edir. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının 1949-cu ildə təşkil edilmiş NATO ilə əlaqələrinin yaranmasına xüsusi diqqət yetirdi. O, 1992-ci il oktyabr ayının 1-dən 5-dək Türkiyənin Antalya şəhərində NATO-ya üzv ölkələrinin siyasi seminarında iştirak etdi. 1994-cu ildə Heydər Əliyevin Brüsselə səfəri zamanı "NATO-nun sülh naminə tərəfdaşlıq proqramı" imzalandı. Bu sənədin imzalanması Azərbaycanı Qərb ölkələri ilə yaxınlaşdırdı. NATO-nun sülh naminə əməkdaşlıq proqramına 50-dən çox ölkə qoşulmuşdu. Bundan istifadə edən ulu öndər onların rəhbərləri ilə keçirilən görüşlərlə əlaqədar bir daha Azərbaycanın beynəlxalq aləmdə tanınmasında müstəsna rol olmuşdur. Bundan əlavə Heydər Əliyev Azərbaycanın sosialist internasionalı, islam konfransı təşkilatı 1992-ci il iyun ayında Qara dəniz iqtisadi əməkdaşlığına dair sənədlərin imzalanması və bu təşkilatların iclaslarında iştirak etməsi, həmçinin 1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanması ilə Azərbaycanı dünyaya tanıtdı və beynəlxalq nüfuzunun artmasına təkan verdi. 2001-ci ildə Avropa şurasında daxil oldu. Beləliklə ulu öndər tərəfindən görülən işlər və həyata keçirilən tədbirlərlə Azərbaycanı beynəlxalq aləmdə tanıdılmasında mühüm rol oynadı.

Ulu öndər təkrarən 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi və Azərbaycanın gələcək strateji planlarının işlənib hazırlanmasında xüsusi rolu oldu. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində isə səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir. Onun yerinə Heydər Əliyev siyasi kursunun sədaqətli davamçısı İlham Əliyev Azərbaycanın prezidenti seçilmişdir. Prezident seçilən İlham Heydər oğlu Əliyev isə ulu öndər tərəfindən hazırlanmış Azərbaycanın gələcək strateji planlarının həyata keçirilməsini uğurla davam etdirməkdədir.

## ƏDƏBİYYAT


1. Qayıdış(1990-1993). Bakı, 1997.
2. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti: Dərslik. Bakı, 2005.
3. Hacıyev İ., Naxçıvan Azərbaycanın dövlətçilik tarixi. Bakı: Elm, 2018.
4. Hacıyev İ., Naxçıvanın dövlətçilik tarixi. Naxçıvan: Əcəmi, 2022.
5. Qasımlı M.S. Avropa, Amerika ölkələrinin müasir tarixi. II hissə: 1945-2022, Bakı, 2018.
6. Şahverdiyev Z., Zeynalov İ. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı: Qismət, 2022.
7. "Şərq qapısı" qəz.


***Naxçıvan Dövlət Universiteti,***
***E-mail: ismayıl.zeynalov@gmail.com***

**Ismayil Zeynalov**

## THE ROLE OF HEYDAR ALIYEV IN THE PROMOTION OF AZERBAIJAN IN THE INTERNATIONAL SPHERE

The scientific article reflects the historical path of the great leader Heydar Aliyev in his youth, his rise to leadership in Azerbaijan and the work he did in the direction of popularizing Azerbaijan both at the union level and in the international sphere. The work and activities of Heydar Aliyev in this direction gradually covered the years 1969-2003.

The scientific article shows the stages of recognition of Azerbaijan in the world in the political activity of the great leader, and notes that these stages covered 1969-1982, 1982-1987 and 1990-2003.

Heydar Aliyev's actions in the field of education and science at the first stage of his leadership of Azerbaijan, raising the Azerbaijani language to the level of the state language, cooperation of our country with Japan, the GDR, Bulgaria and other states within the framework of the union, cultural ties with these countries were analyzed on a scientific basis.

The article reflects the work done by Heydar Aliyev in the Moscow period of 1982-1987 in the direction of promoting Azerbaijan in the world. in the course of solving pressing problems during his visits to foreign countries with the help of his Azerbaijani identity.

The scientific article reflects issues of historical importance - the representation of Azerbaijan in international organizations, including the UN, OSCE, NATO, the Council of Europe, at the last stage of the great leader's reign, covering 1990-2003, as well as the conclusion of the "Contract of the Century" in order to popularize Azerbaijan in the international world.

**Keywords:** *Azerbaijan, foreign policy, direction, international, organizations, regional, stage.*

**Исмаил Зейналов**

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ПРОДВИЖЕНИИ АЗЕРБАЙДЖАНА В МЕЖДУНАРОДНОЙ СФЕРЕ

В научной статье отражен исторический путь великого лидера Гейдара Алиева в молодости, его приход к руководству в Азербайджане и проделанная им работа в направлении популяризации Азербайджана как на уровне союза, так и в международной сфере. Работа и мероприятия Гейдара Алиева в этом направлении поэтапно охватывали 1969-2003 годы.

В научной статье показаны этапы признания Азербайджана в мире в политической деятельности великого лидера, и отмечается, что эти этапы охватывали 1969-1982, 1982-1987 и 1990-2003 годы.

Действия Гейдара Алиева в области образования и науки на первом этапе его руководства Азербайджаном, поднятие азербайджанского языка до уровня государственного, сотрудничество нашей страны с Японией, ГДР, Болгарией и др. государствами в рамках союза, культурные связи с этими странами были проанализированы на научной основе.

В статье отражена работа в направлении популяризации Азербайджана в мире, проделанная Гейдаром Алиевым в московский период 1982-1987 гг. в ходе решения насущных проблем во время его визитов в зарубежные страны с помощью своей азербайджанской идентичности.

В научной статье отражаются вопросы исторической важности – представительство Азербайджана в международных организациях, в том числе в ООН, ОБСЕ, НАТО, Совете Европы, на последнем этапе правления великого лидера, охватывающем 1990-2003 годы, а также заключение «Контракта века» с целью популяризации Азербайджана в международном мире.

**Ключевые слова:** *Азербайджан, внешняя политика, направление, международный, организации, этап.*

**ABDULLA MUSTAFAYEV**

# HEYDƏR ƏLİYEV VƏ TÜRKDİLLI DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞLƏRİ ÇƏRÇİVƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ

*Elmi məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyətində türkdilli dövlət başçılarının zirvə görüşləri çərçivəsində əməkdaşlıq məsələləri araşdırılmışdır. Göstərilmişdir ki, XX əsrin sonlarında dünyada gedən qloballaşma prosesi dünyada bir-birlərinə yaxın olan xalqların, millətlərin, o cümlədən soy birliyinə malik olan türkdilli xalqların yaxınlaşmasına, təşkilatlanmasına səbəb olmuşdur. Belə ki, XX əsrin sonlarında sovetlər birliyinin dağılması ilə tarix səhnəsinə yenicə çıxmış türk respublikalarının qarşılıqlı inteqrasiyası aktuallıq kəsb etmişdir.*

*Məqalədə Azərbaycanın beynəlxalq və regional təşkilatlar çərçivəsində Türkiyə və Orta Asiyanın türkdilli dövlətləri ilə əməkdaşlığı, bu sahədə ulu öndərin misilsiz xidmətləri təhlil edilmişdir. 1994-cü ildən 2001-ci elədək, yəni İstanbul şəhərində keçirilən ikinci zirvə görüşündən başlayaraq 2001-ci ildə yenə də İstanbul şəhərində keçirilən yeddinci zirvə görüşü də daxil olmaqla keçirilmiş altı zirvə görüşünün hamısında şəxsən özü iştirak edən ulu öndər bu zirvə görüşlərinin keçirilməsinin əhəmiyyətini dönə-dönə vurğulamışdır. Eyni kökdən olan və eyni dinə mənsub olan türkdilli xalqlar arasında qarşılıqlı əlaqələrin yaranması və inkişaf etməsi baxımından bu cür görüşlərin keçirilməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev, eyni zamanda belə görüşlərin keçirilməsinin vacibliyini də qeyd edirdi. Məqalədə qeyd olunur ki, istər zirvə görüşləri çərçivəsində, istərsə də rəsmi və ya qeyri-rəsmi səfərlər çərçivəsində bu cür görüşlərin keçirilməsinə böyük əhəmiyyət verməninin ən bariz nümunəsidir ki, Heydər Əliyev təkcə 1994-cü il ərzində 6 dəfə Türkiyəyə səfərə getmiş, bu müddət ərzində 10 dəfə Türkiyənin dövlət başçıları ilə görüşlər keçirmişdir.*

**Açar sözlər:** *Heydər Əliyev, Qloballaşma, Zirvə toplantısı, Türkdilli Dövlətlər Birliyi, Türksoy, Sovetlər birliyi.*

Üçüncü minillik tarixə qloballaşma əsri kimi düşüb. Bu minillikdə texnologiya sürətlə inkişaf etmiş, bazar iqtisadiyyatına keçilmiş, dünyada demokratik dəyişikliklər baş vermişdir. Elm və texnika inkişaf etdikcə xalqlar arasında olan siyasi, iqtisadi və mədəni münasibətlər də getdikcə dərinləşir və inkişaf edir.

Dünyada gedən qloballaşma prosesi bölgə ölkələri arasında olan əməkdaşlığın daha da genişlənlənməsinə səbəb olmuşdur. Belə ki, keçən əsrin sonlarında yaranan bir sıra beynəlxalq təşkilatlar strukturlaşmış, millətlərin təşkilatlanması önə çıxmış, bütün bunlar isə öz növbəsində tarixən zəngin keçmişə və soy birliyinə malik olan türkdilli xalqların da yaxınlaşmasına, birləşməsinə səbəb olmuşdur.

Keçən əsrin sonlarında SSRİ-nin dağılması ilə müstəqil türk dövlətləri yaranmış və nəticədə türkdilli dövlətlərin qarşılıqlı inteqrasiya məsələsi aktuallıq kəsb etmişdir. Məlumdur ki, 1920-ci ildə AXC-nin süqutundan sonra Osmanlı imperiyasının xarabalıqları üzərində yaranmış Türkiyə Cümhuriyyəti təxminən 70 il ərzində dünyada və beynəlxalq təşkilatlarda yeganə türk dövləti kimi çıxış etmişdir. 1991-ci ildə Azərbaycanın və Orta Asiyanın türk respublikalarının öz müstəqilliklərini elan etməsi ilə Türkiyə regional inteqrasiyanın təşəbbüskarı kimi çıxış etməyə başlamışdı. Müstəqil türk dövlətləri qərbə inteqrasiyada Türkiyənin təcrübəsindən bəhrələnməyə başladılar.

Yeni yaranmış türkdilli respublikalar arasında çoxtərəfli əməkdaşlıq aktuallığını qorumaqdadır. Bu baxımdan, qardaş Türkiyə ilə Azərbaycan arasında həyata keçirilən beynəlxalq əhəmiyyətli layihələr yalnız iki dövlətin deyil, bütün türkdilli dövlətlərin maraqlarına xidmət etməkdədir.

Beynəlxalq və regional təşkilatlar çərçivəsində, o cümlədən türkdilli dövlət başçılarının zirvə görüşləri çərçivəsində Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq çox mühüm yer tutur. Yuxarıda da qeyd etdiyimiz kimi, qloballaşmanın yaratdığı yeni şərait Osmanlı dövlətinin dağılması ilə bir-birindən ayrı düşmüş türkdilli xalqların bir-birləri ilə yenidən yaxınlaşmasına şərait yaratmışdır. Bu yeni şəraitə uyğun olaraq Türkiyə bölgədə özünün siyasi varlığını artırmaq məqsədilə regional inteqrasiyada böyük rol oynayan Türkdilli Dövlətlər Birliyini yaratmışdır [7,№ 4, 2014, s. 127-131]. Türkdilli Dövlətlər Birliyi qısa zaman kəsiyində türkdilli ölkələrin çoxtərəfli sahələr üzrə əməkdaşlıq etdiyi bir təşkilata çevrilmişdir. Bu birliyin ali orqanı isə türkdilli dövlət başçılarının zirvə toplantılarıdır.

Qeyd etdiyimiz kimi, sovetlər birliyinin dağılması ilə yaranmış türkdilli dövlətlər arasında istər iqtisadi, siyasi, istərsə də mədəni sahələrdə əməkdaşlıq yaranmağa başlamışdır. Türkdilli dövlətlər arasında qeyd etdiyimiz sahələr üzrə əməkdaşlığa nail olmaq üçün ilk növbədə siyasi əlaqələrin yaran-

ması vacib və zəruri idi. Məhz bu amil türkdilli dövlətlər arasında münasibətlərin əsas aparıcı istiqamətini təşkil etmişdi. Bu vacib və zəruri amili nəzərə alan Türkiyənin o zamankı Baş naziri Süleyman Dəmirəl Orta Asiyaya və Azərbaycana 1992-ci ilin may ayında etdiyi səfər zamanı yeni yaranmış türkdilli dövlət başçılarının zirvə görüşlərinin keçirilməsi təşəbbüsünü irəli sürmüş və bu ideya tez bir zamanda öz bəhrəsini vermişdir.

Təbii ki, uzun müddət sovetlər birliyinin tərkibində olmuş türkdilli respublikalar ilə Türkiyə arasında əlaqələrin kəsilməsinə və bu əlaqələrin yaranmasına qadağanın qoyulmasına görə birdənbirə bu əlaqələri yaratmaq heç də göründüyü qədər asan məsələ deyildi. Həm də bu əlaqələrin yaranması, zirvə görüşlərinin keçirilməsi ideyasının ortaya atılması elə bir dövrə təsadüf edirdi ki, bu zaman yenicə dağılmış sovetlər birliyinin yerində Müstəqil Dövlətlər Birliyinin təşkilatlanması prosesi gedirdi və Rusiya bu ideyaya çox qısqanclıqla yanaşırdı. Eyni zamanda, bu da bəllidir ki, Mərkəzi Asiyada daha çox təsir gücünə malik olan Rusiya heç bir halda Türkiyənin bölgəyə daxil olmasını istəmirdi. Bu isə, Türkiyənin burada fəal siyasət aparmasını çətinləşdirirdi.

İstər TÜRKSOY, istər türkdilli xalqların dostluq, qardaşlıq, əməkdaşlıq qurultayları, istərsə də türkdilli dövlət başçılarının zirvə görüşləri çərçivəsində əlaqələrin inkişafında Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Türkiyə və Orta Asiyanın türk respublikaları arasında birliyin yaranmasının əhəmiyyətindən bəhs edən ulu öndər qeyd edirdi ki, "...bu birlik lazımdır. Biz bu birliyi yaşatmalıyıq. Biz burada çox şeylərə nail olmuşuq. Birliyin əsas məqsədi odur ki, iqtisadi, mənəvi, elmi, mədəni sahələrdə, tarixi köklərimizin, dilimizin, dinimizin bir olduğuna və başqa məsələlərə görə biz bir-birimizlə daha da yaxınlaşaq, qovuşaq. Bu, təbiidir, ancaq kənardan buna başqa cür baxırlar. Ona görə də, bu birlik yaşamalıdır. O, öz bəhrələrini, nəticələrini verəcəkdir" [2, 13 iyun, 1997, № 120 (1641)].

Qeyd edildiyi kimi, keçən əsrin sonlarından Türkiyə və keçmiş sovetlər birliyinin tərkibində olmuş türk respublikaları arasında çoxşaxəli əlaqələr yaranmış və getdikcə inkişaf etmişdir. Bu əlaqələrin yaranmasında və inkişafında zirvə görüşlərinin keçirilməsi mühüm əhəmiyyətə malikdir. Belə ki, bu zirvə toplantıları istər yeni yaranmış türk respublikalarının müstəqilliklərinin qorunub saxlanılmasında, hüquqi demokratik dövlətin yaradılmasında, istərsə də qarşılıqlı münasibətlərin möhkəmləndirilməsində çox böyük rol oynamışdır. Türk dövlətləri arasında qarşılıqlı əlaqələrə söykənən bu zirvə görüşlərinin keçirilməsində əsas məqsəd ortaq tarixə, soykökünə, mədəniyyətə malik olan dövlət başçılarını bir yerə toplamaqdır.

Yuxarıda da qeyd edildiyi kimi, bu zirvə görüşlərinin keçirilməsinin təşəbbüskarı kimi Türkiyənin o zamankı Baş naziri Süleyman Dəmirəl çıxış etmiş və 1992-ci ilin may ayında belə bir təklif irəli sürmüşdür. 1992-ci ilin oktyabr ayında türkdilli dövlətlərin başçıları Ankarada ilk dəfə toplanmışdılar [10, s. 157]. Beləliklə, ilk dəfə 1992-ci ildə reallaşan zirvə görüşündən başlayaraq türk dövlətlərinin rəhbərləri müxtəlif türk şəhərlərində zirvə görüşləri çərçivəsində bir araya gəlmiş və qarşılıqlı əlaqələrimizin əsas prioritet istiqamətlərini müzakirə edərək həllinə çalışmışlar. Türkdilli dövlətlərin başçılarının keçirilən görüşlərinin dövlətlərarası münasibətlərin inkişafında çox mühüm əhəmiyyəti vardır.

Türkiyənin paytaxt şəhəri olan Ankarada 1992 ilin oktyabrında keçirilən zirvə toplantısında çıxış edən mərhum prezident Turqut Özal türkdilli cümhuriyyətlərin dövlət başçılarının ilk toplantısı olduğuna görə bu görüşün əhəmiyyətini yüksək qiymətləndirmişdir [9, s. 113-114].

Türkdilli dövlət başçılarının zirvə toplantılarının keçirilməsinin ən fəal iştirakçı dövlətlərindən biri Azərbaycandır. İlk zirvə görüşünün [1992, oktyabr 30-31] keçirilməsindən qısa müddət, yəni iki il keçdikdən sonra ulu öndər Heydər Əliyevin də prezident kimi iştirak etdiyi ikinci zirvə görüşü 1994-cü il oktyabrın 18-19-da İstanbul şəhərində keçirilmişdir (13). Bu zirvə görüşünün Bakı şəhərində keçirilməsi nəzərdə tutulsa da, həmin ərəfədə MDB dövlət başçıları şurasının da görüşünün keçiriləcəyi ilə bağlı olaraq bu mümkün olmamışdır. Görüşdə Heydər Əliyev ilə yanaşı, Süleyman Dəmirəl də çıxışlar edərək bu zirvə görüşlərinin əhəmiyyətindən danışmışdılar [12, s. 357].

Azərbaycan nümayəndə heyətinə başçılıq edən prezident Heydər Əliyevin iştirak etdiyi bu zirvə görüşündə ilk dəfə olaraq Azərbaycanın məruz qaldığı təcavüz türkdilli dövlətlər tərəfindən bölgəsəl münaqişə kimi qarşılanmış, açıq şəkildə müzakirə obyektinə çevrilmiş və bu münaqişənin səbəb

olduğu faciələrə obyektiv qiymət verilmişdi. Bu zirvə görüşünün nəticəsi olaraq prezidentlərin iştirakı ilə türkdilli xalqlar üçün, həmçinin ölkəmiz üçün xüsusi əhəmiyyətə malik olan 24 maddədən ibarət olan İstanbul Bəyannaməsi imzalanmışdı [7, s. 128]. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ikinci zirvə görüşünü bütün türkdilli xalqlar üçün, müstəqil türk respublikalarının bu günü və gələcəyi üçün çox böyük əhəmiyyətə malik bir tarixi hadisə kimi qiymətləndirmiş və eyni zamanda, türkmənşəli xalqların müstəqil dövlət kimi mövcud olmalarında, onlar arasındakı əlaqələrin inkişaf etdirilməsində, möhkəmləndirilməsində bu kimi görüşlərin keçirilməsinin vacibliyindən bəhs etmişdir. Ulu öndər qapalı iclasda keçirilən görüşdə qeyd etmişdir ki, ölkəmizin müstəqillik əzmi sarsılmazdır, müstəqillikdən heç bir zaman imtina olunmayacaqdır [12, s. 702]. Heydər Əliyev xüsusilə vurğulayırdı ki, keçirilən görüşlərin sonunda hər hansı bəyannamənin, sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, bu görüşlərdə aparılan müzakirələr, müzakirə olunan məsələyə müxtəlif baxışlar və s. son nəticədə xalqlarımız, dövlətlərimiz arasında çoxşaxəli əlaqələrin yaranmasına, inkişaf etməsinə və genişlənməsinə şərait yaradır.

Heydər Əliyev çıxışında qeyd etmişdir ki, 1992-ci ildə keçirilmiş ilk zirvə görüşünün davamı olaraq ənənə halını almış ikinci zirvə görüşünün keçirilməsi eyni kökdən olan və eyni dinə mənsub olan türkdilli xalqlar arasında qarşılıqlı əlaqələrin yaranması və inkişaf etməsi baxımından xüsusi əhəmiyyətə malikdir, belə görüşlərin gələcəkdə də keçirilməsi vacibdir [5, s. 141-142]. İstər zirvə görüşləri çərçivəsində, istərsə də rəsmi və ya qeyri-rəsmi səfərlər çərçivəsində bu cür görüşlərin keçirilməsinə böyük əhəmiyyət verən Heydər Əliyev təkcə 1994-cü il ərzində 6 dəfə Türkiyəyə səfərə getmiş, bu müddət ərzində 10 dəfə Türkiyənin dövlət başçıları ilə görüşlər keçirmişdir.

Yuxarıda da qeyd etdiyimiz kimi, Heydər Əliyevin də iştirakı ilə keçirilmiş bu zirvə görüşündə ilk dəfə Ermənistan-Azərbaycan münaqişəsinə toxunulmuşdur. Belə ki, imzalanmış İstanbul Bəyannaməsinin 4-cü maddəsində göstərilmişdir ki, "...Dövlət başçıları Ermənistan-Azərbaycan münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında sülh yolu ilə həllinin zəruriliyini vurğulamışdılar..." [12, s. 705]. Ulu öndər zirvə görüşlərinin türk xalqları arasında çoxşaxəli münasibətlərin yaranmasında və inkişaf etməsində böyük əhəmiyyətə malik olduğundan bəhs edərək bildirmişdi ki, türkdilli dövlətlərin əməkdaşlığının möhkəmləndirilməsi üçün bu cür görüşlərin keçirilməsi vacib və zəruridir.

İkinci zirvə görüşündə əldə olunmuş razılaşmaya əsasən türkdilli dövlət başçılarının üçüncü zirvə toplantısı 1995-ci ilin avqust ayında Bişkek şəhərində keçirildi. "Manas" dastanının 1000 illik yubiley şənliklərində iştirak etmək məqsədilə avqustun 27-də Bişkek şəhərinə yola düşən Heydər Əliyev avqustun 28-də üçüncü zirvə görüşündə iştirak edir [4, s. 77]. KİV üçün mətbuat konfransı keçirən Heydər Əliyev türkdilli xalqlar arasında mədəni irsin qorunub saxlanılması, inkişaf etdirilməsi baxımından belə görüşlərin əhəmiyyətindən bəhs etmişdir [4, s. 163-165].

Heydər Əliyev Bişkek görüşündə bildirmişdir ki, Azərbaycanın Türkiyə ilə müqayisədə Orta Asiyanın türk respublikaları ilə iqtisadi əlaqələri çox zəifdir, ona görə də ölkəmiz türkdilli ölkələrlə bütün sahələr üzrə, o cümlədən iqtisadi sahədə inteqrasiyaya qoşulmağa hazırdır [3, 31 avqust 1995-ci il].

Türkdilli dövlət başçılarının dördüncü zirvə görüşü ənənəyə uyğun olaraq Teymur imperiyasının hökmdarı Əmir Teymurun 660 illik yubileyi ilə əlaqədar olaraq 1996-cı ilin oktyabr ayının 21-də Daşkənd şəhərində keçirilmişdir [5, s. 182]. Görüşdə iştirak edən Heydər Əliyev türk respublikaları arasında qarşılıqlı münasibətlərin genişlənməsinə, zəngin tarixə malik olan mədəni irsin yayılmasına tərəfdar olduğunu bildirmiş və oktyabrın 22-də Daşkənd Bəyannaməsini imzalamışdır.

Bir məsələni nəzərdən qaçırmaq olmaz ki, zirvə görüşlərinin keçirilməsinə çox böyük önəm verən ulu öndər digər dövlət başçılarından fərqli olaraq özü şəxsən bu zirvə görüşlərində iştirak və çıxışlar edirdi. Əgər bu zirvə görüşünə qədər keçirilən görüşlər "Türk zirvəsi" adlanırdısa, dördüncü zirvə görüşündə bu "Türk cümhuriyyətləri dövlət başçılarının zirvəsi" adlandırılmağa başlandı [14]. Beşinci zirvə görüşündən sonra isə "Türk cümhuriyyətləri dövlət başçılarının zirvəsi" "Türkdilli dövlətlərin dövlət başçılarının zirvəsi" adlanmağa başlandı.

Heydər Əliyev Qazaxıstanın paytaxtı Astanada 1998-ci il 9-10 iyun tarixlərində keçirilən beşinci zirvə toplantısında da iştirak və çıxış etmişdi. Bu görüşdə iştirak edən Heydər Əliyev həmçinin Astananın yeni paytaxt elan edilməsi ilə bağlı keçirilən bir sıra mərasimlərdə iştirak etmişdi [5, s. 212].

Nəhayət, Türkdilli Ölkələrin Dövlət Başçılarının VI sammiti 2000-ci il aprelin 8-də Bakıda keçirildi. Azərbaycan Prezidenti Heydər Əliyev Zirvə toplantısında çıxış edərək bir daha vurğuladı ki, türk dövlətlərini birləşdirən bağ təkcə tarixi köklər deyil, həm də bugünkü şərtlərdir: "Sarsılmaz tarixi bağlarımızla yanaşı, məqsəd və vəzifələrimizin, üzləşdiyimiz problemlərin oxşarlığı ölkələrimizi və xalqlarımızı birləşdirən güclü amildir [6, s. 151]. Altıncı zirvə görüşündə Heydər Əliyev geniş məzmunlu çıxış etdi. Gülüstan sarayında keçirilən görüşün sonunda ənənəvi olaraq 17 maddədən ibarət Bakı Bəyannaməsi qəbul edildi [1, s. 518-519]. Bəyannamənin 12-ci maddəsində Ermənistan-Azərbaycan probleminə toxunulmuş, bu maddənin 1-ci bəndində dövlət başçıları təcavüzü və təcavüzkarın silahlandırılmasını pisləmişlər. 12-ci maddənin ikinci bəndində Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar göstərilmişdir ki, "Dövlət başçıları Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələri dəstəklədiklərini bildiriblər və ATƏT-in Lissabon Zirvə görüşündə müəyyən edilmiş üç əsas prinsip əsasında bu münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduqlarını bir daha təsdiq edirlər..." [6, s. 160].

Bakı Bəyannaməsinin bütün maddələrində zirvə görüşünün yüksək səviyyədə keçirildiyi və qəbul edilmiş qərarların türkdilli xalqlar arasında birliyin möhkəmləndirilməsində böyük əhəmiyyətə malik olduğu öz əksini tapmışdır. Bakı zirvə görüşündə iştirak edən dövlət başçıları və hökumət nümayəndələri həmçinin, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etdilər.

Bakı zirvə görüşünün qəbul etdiyi mühüm qərarlardan biri Türkiyədə Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə Toplantısının Daimi Katibliyinin yaradılması və növbəti Zirvə Toplantısının 2001-ci ilin aprelində İstanbulda keçirilməsi barədə qəbul etdiyi qərarlar idi. Bu qərara əsasən 2001-ci il aprelin 26-da İstanbul şəhərində ulu öndərin də iştirak etdiyi növbəti, yeddinci zirvə görüşü kəçirilmişdir [11, s. 41]. Heydər Əliyev Binə beynəlxalq hava limanında jurnalistlərə müsahibəsində keçirilən hər bir zirvə görüşünün tarixi əhəmiyyətindən bəhs edərək bu zirvə görüşlərinin ölkələrimiz, xalqlarımız arasında elm və mədəniyyət sahəsində əlaqələrin genişlənməsində, türkdilli xalqlar arasında olan dostluğun və qardaşlığın möhkəmləndirilməsində oynayacağı rolu xüsusilə qeyd etmişdir.

Ümumiyyətlə, türkdilli dövlət başçılarının keçirilən toplantılarının türk dövlətləri arasında, xüsusilə də Türkiyə ilə Azərbaycan arasındakı hərtərəfli əlaqələrin inkişafında çox böyük tarixi əhəmiyyəti olmuşdur. Təbii ki, bu əlaqələrin yaranmasında, inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində ümummilli lider Heydər Əliyevin tarixi missiyasını heç bir zaman unutmaq olmaz.

1995-ci il dekabr ayının 7-də Türkiyənin 9-cu prezidenti S. Dəmirəlin Azərbaycana baş tutan rəsmi səfəri zamanı ulu öndər Heydər Əliyev Türkiyənin türkdilli xalqlar arasındakı əlaqələrin yaranması və inkişafındakı rolundan bəhs edərək qeyd etmişdir ki, "...Biz arzu edirik ki, Türkiyə Cümhuriyyəti özünün bu mövqelərini həmişə qoruyub saxlasın və həmişə bizim üçün tərbiyə mənbəyi olsun. Bizim arzu və istəyimiz bundan ibarətdir: Türk dünyası, türkdilli xalqlar, bir kökdən, bir mənşədən olan millətlər daha da yaxınlaşsın, daha da birləşsin, bir-birinə kömək etsin, bir-biri ilə daha da mehriban olsun, bir-birinə yardımçı olsunlar. Biz nə qədər çətin və ağır vəziyyətdə olsaq da, Azərbaycanda bu hisslərlə yaşayırıq. Bu hisslərlə bütün qardaş ölkələrə öz münasibətimizi bildiririk" [8, s. 68]. Ulu öndərin bu sözlərinin arxasında gələcəkdə yekdil, sarsılmaz və vahid türk birliyini görmək istəyi dayanırdı.

Beləliklə, deyə bilərik ki, bəhs etdiyimiz dövr ərzində türkdilli xalqlar və dövlətlər arasında qardaşlıq və dostluq əlaqələri daima yüksələn xətt üzrə inkişaf yolu keçmişdir ki, bu da ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasi xəttin nəticəsində mümkün olmuşdur.

## ƏDƏBİYYAT

1. Abdullayev M. Beynəlxalq münasibətlər tarixi (XX əsr): Dərs vəsaiti. Bakı, ABU-nun "Beynəlxalq Universitet" nəşriyyat və poliqrafiya mərkəzi, Təhsil, Elm, 2003, 540 s.
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qazaxıstan Respublikasına rəsmi səfəri. "Azərbaycan" qəz., 1997, 13 iyun, № 120 (1641).

3. Azərbaycan Prezidenti Heydər Əliyevin Qırğızıstana səfəri. "Azərbaycan" qəz., 1995, 31 avqust.
4. Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev. 1-ci kitab: 1991-2001, Bakı: Qafqaz Universiteti nəşri, 2002, 180 s.
5. Heydər Əliyev və Şərq: 6 cilddə / Müəllif-tərtibçilər Q.Allahverdiyev, V.Sultanzadə. I c., Bakı: Tural-Ə NPM, 2002, 384 s.
6. Əliyev H. Müstəqilliyimiz əbədidir. XXVI c., Bakı: Azərnəşr, 2008, 512 s.
7. Hüseynov B. Regional inteqrasiyada dini-etnik amillərin rolu (1991-2013-cü illər) // Tarix və onun problemləri, 2014, № 4, s. 127-131.
8. Hüseynova F. Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). Bakı, 2007, 302 s.
9. Məmmədli N. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə. Bakı: AzAtaM, 2005, 234 s.
10. Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı, 2005, 236 s.
11. Vəliyev İ., Muxtarov K. Heydər Əliyev və türk dünyası. Bakı, 2003, 89 s.
12. Bilal N.Ş. Azerbaycanın yeniden doğuş sürecinde Türkiye-Azerbaycan ilişkileri. Ankara, 2011, 768 s.
13. https://azertag.az
14. https://www.shaidov.com

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: abdullamustafayev78@gmail.com***

**Abdulla Mustafaev**

## ISSUES OF COOPERATION WITHIN THE FRAMEWORK OF HIGH-LEVEL MEETINGS BETWEEN HEYDAR ALIYEV AND THE HEADS OF TURKIC-SPEAKING STATES

The scientific article explores the issues of cooperation in the political activities of the national leader of the Azerbaijani people Heydar Aliyev in the framework of the summit meetings of the heads of Turkic-speaking states. It is shown that the process of globalization in the world at the end of the 20th century led to the rapprochement and organization of peoples and nations close to each other in the world, including Turkic-speaking peoples with a common ancestry. Thus, the mutual integration of the Turkic republics, which recently entered the historical stage in connection with the collapse of the Soviet Union at the end of the 20th century, was actualized.

The article analyzes the cooperation of Azerbaijan with Turkiye and the Turkic-speaking countries of Central Asia within the framework of international and regional organizations, as well as the unparalleled merits of the great leader in this field. From 1994 to 2001, i.e. since the second summit held in Istanbul, the great leader, who personally participated in all six summits held in Istanbul in 2001, including the seventh summit, reiterated the importance of holding these summits. Heydar Aliyev, who attached particular importance to holding such meetings in terms of establishing and developing relations between Turkic-speaking peoples of the same origin and belonging to the same religion, also noted the importance of holding such meetings. The article notes that the most obvious example of attaching great importance to holding such meetings, both within the framework of summit meetings and within the framework of official or unofficial visits, is that Heydar Aliyev visited Turkiye 6 times in 1994 alone, during this period 10 once meetings were held with the heads of the Turkiye state.

**Keywords:** *Heydar Aliyev, globalization, summit, Union of Turkic Speaking States, Turksoy, Soviet Union.*

**Абдулла Мустафаев**

# ВОПРОСЫ СОТРУДНИЧЕСТВА В РАМКАХ ВСТРЕЧ НА ВЫСШЕМ УРОВНЕ ГЕЙДАРА АЛИЕВА И ГЛАВ ТЮРКОЯЗЫЧНЫХ ГОСУДАРСТВ

В научной статье исследованы вопросы сотрудничества в политической деятельности общенационального лидера азербайджанского народа Гейдара Алиева в рамках встреч на высшем уровне глав тюркоязычных государств. Показано, что процесс глобализации в мире в конце XX века привел к сближению и организации близких друг другу народов и наций в мире, в том числе тюркоязычных народов, имеющих общую родословную. Таким образом, актуализировалась взаимная интеграция тюркских республик, недавно вышедших на историческую сцену в связи с распадом Советского Союза в конце XX века.

В статье проанализировано сотрудничество Азербайджана с Турцией и тюркоязычными странами Центральной Азии в рамках международных и региональных организаций, а также беспримерные заслуги великого лидера в этой области. С 1994 по 2001 год, т.е. начиная со второго саммита, состоявшегося в Стамбуле, великий лидер, лично участвовавший во всех шести саммитах, состоявшихся в Стамбуле в 2001 году, включая седьмой саммит, еще раз подчеркнул важность проведения этих саммитов. Гейдар Алиев, придававший особое значение проведению подобных встреч с точки зрения установления и развития взаимоотношений между тюркоязычными народами одного происхождения и принадлежащими к одной религии, также отметил важность проведения таких встреч. В статье отмечается, что наиболее наглядным примером придания большого значения проведению таких встреч как в рамках встреч на высшем уровне, так и в рамках официальных или неофициальных визитов является то, что Гейдар Алиев только в 1994 году посетил Турцию 6 раз, в течение этого периода 10 раз проведены встречи с главами государства Турции.

**Ключевые слова:** *Гейдар Алиев, глобализация, саммит, Союз тюркоязычных государств, Турксой, Советский Союз.*

**GÜLÇİN AĞAYEVA**

# ÜMUMMILLI LİDER HEYDƏR ƏLİYEV VƏ ONUN XARİCİ SİYASƏT STRATEGİYASINDA AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİ

*Hər bir dövlətin tarixində unudulmaz izlər qoyan şəxslər olmuşdur. Azərbaycan üçün bu əvəzedilməz rolu ümummilli liderimiz Heydər Əliyev oynayır. O, Azərbaycan xalqının birbaşa qəlbinə toxunmuş, öz fəaliyyəti və vətən sevgisi ilə yaşından asılı olmayaraq hər bir vətəndaşın ürəyində və zehnində əbədi yer qazanmışdır. Azərbaycan tarixində iki dəfə idarəetmədə olmuş və bütün daxili və xarici siyasəti xalqımızın milli oyanışı, cəmiyyətin birliyinin qurulması, iqtisadi gücünün artırılması kimi inkişaf strategiyaları üzərindən aparmışdır. Ömrünün bütün hissəsini xalqına həsr edən Heydər Əliyev xalqımızın qəlbində və dövlətimizin tarixində silinməyəcək izlər qoymuşdur.*

*Məqalədə Heydər Əliyevin hakimiyyətə gəlməsi, onun xarici siyasəti və Rusiyanın burada oynadığı rol əks olunmuşdur. Burada onun Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldiyi zamankı iqtidar mübarizəsi və hakimiyyətə gəldikdən sonrakı qarışıq beynəlxalq vəziyyət əhatəli şəkildə göstərilmişdir. Məqalədə, həmçinin, ulu öndərin xarici siyasət istiqamətləri müəyyənləşdirilmiş və onun ətrafında Azərbaycanın Türkiyə, İran və Rusiya dövlətləri ilə olan münasibətləri əks olunmuşdur. Məqalə daha çox Rusiya faktoru aspektindən Heydər Əliyevin xarici siyasət strategiyası üzərində işlənməyinə baxmayaraq, burada ümummilli liderimizin Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqq səsinin dünyaya çatdırılması üçün göstərdiyi fəaliyyətləri də xüsusi vurğulanmışdır.*

*Heydər Əliyev Azərbaycan tarixinin ən əhəmiyyətli şəxsiyyətlərindən biri olmaqla yanaşı Azərbaycan dövlətinin bugünkü gününün də banisidir. Azərbaycan dövləti bu gün ümummilli liderin cızdığı yol istiqamətində İlham Əliyevin uğurlu rəhbərliyi ilə irəliləyir. Azərbaycanın 30 il sonrakı Zəfərində ulu öndərin zamanında atdığı təməllərin rolu aşkardır. Heydər Əliyevin uğurlu strategiyası və siyasi cəhdləri ilə Azərbaycanın beynəlxalq arenadakı rolu artmış və region dövlətləri ilə münasibətləri həmin çərçivədən irəliləyən xətlə davam etməkdədir. Məqalənin yekununda məhz bu istiqamətlər vurğulanmış və nəticə olaraq Azərbaycan-Rusiya münasibətlərinin bərpa olunmasında və inkişafında Heydər Əliyevin danılmaz rolu bir daha sübuta yetirilmişdir.*

**Açar sözlər:** *ümummilli lider, hakimiyyətə gəlməsi, xarici siyasəti, Türkiyə, İran, Rusiya.*

**Heydər Əlirza oğlu Əliyev** 10 may 1923-cü ildə Naxçıvan şəhərində doğulmuşdur. Naxçıvan Pedaqoji texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, lakin II Dünya müharibəsinin başlaması ilə təhsilini yarıda qoymuşdur. 1941-1944-ci illər arasında Naxçıvan Xalq Komissarlar sovetində müxtəlif vəzifələrdə çalışmış, 1944-cü ildən sonra isə təhlükəsizlik orqanlarında işə başlamışdır. 25 il təhlükəsizlik orqanlarında çalışmış, 1967-ci ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində çalışmış, eyni ildə SSRİ tərəfindən ona general-mayor rütbəsi verilmişdir [1]. 1969-cü ildən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş və 1982-ci ilədək Azərbaycanı idarə etmişdir. 1982-ci ildən SSRİ MK-nin Siyasi Bürosunun üzvü və Nazirlər Soveti Sədrinin Birinci Müavini vəzifəsinə seçilmişdir. 1987-ci il oktyabrda SSRİ Nazirlər Soveti sədrinin Birinci Müavini və MK-nin Siyasi Bürosunun üzvlüyündən istefa etmişdir. Heydər Əliyev beş dəfə SSRİ-nin "Lenin", "Qırmızı ulduz" ordeni, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına, bir çox ölkənin ali mükafatlarına və ali məktəblərin fəxri adlarına layiq görülmüşdür [2].

SSRİ Nazirlər Sovetinin Birinci müavini vəzifəsindən istefa etdikdən sonra onun ilk siyasi fəaliyyəti "Qanlı yanvar" hadisələrinə siyasi qiymət vermək olmuşdur. O, Rusiyanın paytaxtı Moskvada Azərbaycan səfirliyi qabağında keçirilən mitinqə başçılıq etmiş, Rusiyanı günahkar dövlət olaraq adlandırmış və onun cəzalandırılmasını tələb etmişdir [1]. 1990 20 iyulda Bakıya getmiş, lakin təqiblər səbəbilə iki gün sonra Naxçıvana gəlməli olmuşdur. Naxçıvan MSSR Ali Sovetinin deputatı daha sonra 1991-ci il sentyabrda isə rəhbəri seçilmişdir. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin onun sədrliyi ilə keçirilən sessiyası Muxtar Respublikanın adından "Sovet Sosialist" sözlərinin götürülməsi və AXC-nin bayrağının qəbul olunması haqqında Azərbaycan Ali Sovetinə tələb göndərmişdir [2]. 1991-ci il sentyabrda AR Konstitusiyasının 121-ci maddəsinə yaş senzi barədə maddə əlavə olundu. Bu maddəyə yaşı 65-dən yuxarı olan və son 5 ildən uzun müddətdir Azərbaycanda yaşamayan insanların prezident seçilməsinə qadağa qoyuldu.

Lakin bütün mane olma cəhdlərinə baxmayaraq 1993-cü ildə Xalq Cəbhəsinin daxilində başlayan iqtidar mübarizəsinin vətəndaş müharibəsi ilə nəticələnəcəyini görən xalq və ziyalılar ilk başda Heydər Əliyevə müraciət etdilər. Sürət Hüseynovun başçılığı altında Gəncədə başlayan qiyam Bakıya

doğru irəliləmiş və Əbülfəz Elçibəydən istefa tələb etmişdir, əks təqdirdə Bakıda xalq qırğını başlayacaqdı. Belə çətin anda xalq yenə öz kürəyini Heydər Əliyevə dayamağı seçdi. O, Naxçıvandan xüsusi təyyarə ilə gətirildi və Sürət Hüseynovla görüşərək onları silahları yerə qoymağa çağırdı [3, s. 157-158]. 1993-cü il iyunun 17-dən 18-nə keçən gecə Əbülfəz Elçibəyin Bakını tərk edərək Naxçıvana, Kələki kəndinə qayıtdı. Elçibəyin geriyə qayıtması sahəsində görülən tədbirlər heç bir nəticə vermədikdə, Ali Sovetin iclaslarında prezidentə etimadsızlıq məsələsi qaldırıldı. Avqustun 29-da Prezident Elçibəyə etimadsızlıq barədə ümumxalq rəy sorğusu keçirildi və nəticədə 97.5% etimadsızlığın lehinə səs verdi. 1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərində Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi [4, s. 168].

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra xarici siyasətdə ilk addımı Dağlıq Qarabağ münaqişəsində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasını təmin etmək oldu. O, BMT Baş Assambleyasının 65-ci sessiyasında “İşğal olunmuş ərazilərdə vəziyyətə dair” məsələ müzakirə olunmuş və dünya mediasının diqqətinə Dağlıq Qarabağ müharibəsi çatdırılmışdır. Ardınca BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması haqqında 822, 853, 874 və 884-cü qətnamələr qəbul etmişdir [7, s. 624]. ATƏM [indiki ATƏT] çərçivəsində münaqişəni həll etmək məqsədilə Minsk qrupu yaradılsa da lazımi nəticə əldə oluna bilməmiş və Heydər Əliyev sayəsində atəşkəs haqqında iki tərəf arasında razılıq əldə olunmuş və müharibə dayanmışdır. Dağlıq Qarabağ müharibəsinin başlamasından 30 ilə yaxın zaman keçdikdən sonra Azərbaycanın rəşadətli ordusu düşmənin 4 il ərzində işğal etdiyi torpaqları 44 gün ərzində azad etdi. Heydər Əliyevlə başlayan ordu quruculuğu İlham Əliyevin güclü siyasəti, xalqımızın inamlı iradəsi və ordumuzun məharəti ilə birləşincə Dağlıq Qarabağ azad olundu və orada həyat təkrar başladı.

Ümummilli lider hakimiyyətə qayıtdıqdan sonra xarici siyasətdə digər işlərindən biri ölkənin iqtisadi gücünü qazanan biləcəyi əsas təbii resurs olan enerjidən düzgün istifadəni təmin etmək idi. Azərbaycanın zəngin neft yataqlarının istifadəsi Çar və Sovet Rusiya dövründə başlamışdı. Lakin o zamanlarda çıxarılan neftin çox az faizi ölkəyə qaytarılırdı. Əslində bu məsələ H.Əliyevi ilk hakimiyyəti dövründə Sovet Azərbaycanını idarə edən zamandan bəri narahat edirdi. 1970-ci ildə Mərkəzi Komitənin plenumunda Heydər Əliyev enerjidən istifadə edərək ölkənin iqtisadiyyatını inkişaf etdirməklə bağlı məruzə ilə çıxış etmişdir. Ardınca 1970-80-ci illərdə içlərində kran gəmilərinin də olduğu 400-dən çox gəmi alınmışdır. Bundan sonra Xəzər dənizində araşdırmalar genişləndirilmiş, indi əsas neft yataqlarımız olan “Günəşli”, “Azəri”, “Çıraq”, “Şahdəniz”, “Kəpəz” yataqları həmin dövrdən sonra kəşf olunmuşdur [5. s. 146]. Xalqın təkidi ilə təkrar hakimiyyətə gəldikdən sonra O, enerji siyasətini davam etdirmiş və “Əsrin müqaviləsi”nin imzalanmasına nail olmaqla Azərbaycanın dünya bazarına çıxışını təmin etmişdir. Müqavilədən sonra Çıraq yatağından çıxan ilk neft 1999-cu ildə Bakı-Novorossiysk, Bakı-Supsa, 2006-cı ildə isə Bakı-Tbilisi-Ceyhan kəməri ilə dünyaya satılmağa başlandı. 1999-cu il dekabrın 29-da Dövlət Neft Fondunun yaradılması ilə Azərbaycanın neftdən gələn gəliri vahid mərkəzdə toplanmağa başladı [6, s. 162]. Qeyd etmək lazımdır ki, BTC layihəsinin istismar müddəti 40 il kimi müəyyənləşdirilib və sonuncu 15 ili tamamilə Azərbaycan mülkiyyətində olacaqdır [8, s. 1156].

Bu gün Azərbaycanın enerji siyasəti həmin yataqlardan çıxarılan neft və qaz sayəsində həyata keçirilir. Ümummilli liderin davamçısı İlham Əliyev ondan aldığı bu mirası uğurla davam etdirməkdə və durmadan genişləndirməkdədir. Bu gün TANAP və TAP layihələrinin uğurlu icrası və dünyanın dövlətlərinin günbəgün artan marağı ümummilli liderimizin zamanında başlatdığı uzaqgörən siyasətin nəticəsidir.

Heydər Əliyevin xarici siyasət istiqamətlərindən biri də regiona marağı olan dövlətlərlə münasibətlərin normal səviyyəyə gətirilməsi idi. Bunun üçün ilk əvvəl ümummilli liderin xarici siyasət istiqamətlərinə nəzər salmaq lazımdır: Birincisi, Rusiyanın asılılığına təkrar düşməmək və elm-texnologiyanın ölkəmizə gətirilməsini təmin etmək üçün Qərbə inteqrasiya modeli seçilmişdi. Eyni zamanda nəzərə alınmalıdır ki, Sovetlər blokunun dağılması ilə qlobal vəziyyət Qərb dünyasının lehinə dəyişmişdi. Azərbaycan Rusiyanın bu zəifliyini xeyrinə işlədərək lider bölgəyə meyl etməkdə idi. İkincisi, bu həyata keçirilən zaman Rusiya faktoru göz ardı edilməməli idi. Üçüncü, Türkiyə Azər-

baycanın ən böyük tərəfdaşı olmalıdır. Dördüncü olaraq isə İran dövləti ilə münasibətlər normal səviyyəyə gətirilməlidir ki, İranın Ermənistana verdiyi dəstəyin qarşısı alınmış olsun [11].

Ümummilli lider xarici siyasətin ilk istiqamətini "Əsrin müqaviləsi"ni imzalamaqla həyata keçirmiş oldu. Bunun ardınca isə qərb dünyası ilə anlaşma və müqavilələr imzalanmağa başlandı. 1995-1998-ci illərdə Azərbaycan Avropa İttifaqının əsas tərəfdaşlarından birinə çevrildi [11].

Ulu öndərin başlatdığı xarici siyasət kursunun digər istiqamətləri olan Türkiyə və İran faktoruna qısaca nəzər salaq: Azərbaycanın strateji tərəfdaşı olan qardaş Türkiyə ilə münasibətlər Heydər Əliyev tərəfindən tarixdə analoqu olmayan bir səviyyəyə qaldırılmış, "bir millət, iki dövlət" aforizmi münasibətlərin sadə və aydın ifadəsinə çevrilmişdir [10, s. 114]. Bu gün Türkiyə dövləti ilə olan münasibətlərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətin nəticəsidir. II Qarabağ müharibəsində Azərbaycanın zəfər çalmasına Türkiyənin verdiyi siyasi dəstək, ardınca 15 iyun 2021-ci ildə imzalanmış Şuşa bəyannaməsi ilə iki dövlətin münasibətlərinin müttəfiqlik səviyyəsinə qalxması Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasət istiqamətinin nəticəsidir.

İran dövləti ilə olan münasibətlərə gəldikdə isə Azərbaycan hər zaman mehriban qonşuluq siyasətini üstün tutmuşdur. Müstəqilliyin ilk illərində İran-Azərbaycan münasibətləri yaxşı səviyyədə olmuş, hətta Dağlıq Qarabağ münaqişəsində ilk vasitəçilik təşəbbüsü İrandan gəlmişdir. Lakin Xalq Cəbhəsinin hakimiyyəti dövründə münasibətlər geriləmiş və İran-Ermənistan münasibətlərində yaxınlaşma olmuşdur. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə münasibətlərə təkrar yumşalma dövrünə girmişdir. Həmin illər Dağlıq Qarabağda soyqırımların ən şiddətli illəri idi. Heydər Əliyevin İranla münasibətləri bərpa etməsi sayəsində 1993-cü il 29 oktyabrda Zəngilanın işğalı zamanı qırğından qaçan əhalinin İrandan keçərək Azərbaycana keçməyinə icazə verilmişdi. [9. s. 474]. Bundan sonra və hər zaman münasibətlər enişli-çıxışlı olmuşdur. Bu günə kimi iki dövlət arasında münasibətlər İranın Ermənistana verdiyi dəstək səbəbilə normal səviyyəyə qalxa bilməmişdir. 27 yanvar 2023-cü il tarixində Tehrandakı Azərbaycan səfirliyinə silahlı hücumun olması və İran polisinin lazımi tədbirləri almaması dövlətlərarası münasibətləri uzun müddətdən bəri ən yüksək gərginlik səviyyəsinə qaldırmışdır. Azərbaycan hər zaman İrana qarşı Heydər Əliyevlə başlayan mehriban qonşuluq siyasəti ilə yanaşsa da, təəssüflər olsun ki, İranın Azərbaycana münasibəti eyni olmamışdır.

Heydər Əliyevin xarici siyasətdə əsas önəm verdiyi dövlətlərdən biri Rusiya idi. Ümummilli liderə qədər müstəqil Azərbaycanın xarici siyasətində Rusiyaya münasibət ziddiyyətli olmuşdur. Belə ki, Ayaz Mütəllibovun vaxtında ölkəmiz Rusiya meylli, Əbülfəz Elçibəy dönəmində isə anti-Rusiya meylli olmuşdur. Heydər Əliyev hakimiyyətə gələn ildə Rusiyanın Azərbaycana, ümumiyyətlə bütün postsovet məkanı ölkələrinə münasibəti birmənalı olmamış, hələ də öz siyasi hegemoniyasını yeritməyə çalışmaqda idi. Beynəlxalq münasibətlərin belə qarışıq olduğu bir zamanda Heydər Əliyev beynəlxalq situasiyanı düzgün dəyərləndirməli və ən münasib siyasət istiqamətini seçməli idi. O, Rusiya ilə bağlı öz xarici siyasət istiqamətini bu cümlə ilə müəyyənləşdirmiş oldu: "*Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır*" [10, s. 160] və 15 iyun 1993-cü il parlamentdəki çıxışında "*Rusiya çox böyük dövlətdir, bizim şimal qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha yaxşı, daha geniş, səmərəli olmalıdır*" [12]. Beləliklə, Heydər Əliyev Rusiya ilə olan tarixi münasibətləri inkar etmir, əksinə, bu münasibətləri vurğulayaraq mehriban qonşuluq siyasətini ön planda tuturdu.

Azərbaycanın Rusiya ilə bağlı atdığı ilk addımlardan biri MDB-ə üzvlüyün ratifikasiya edilməsi idi. Ayaz Mütəllibovun zamanında üzvlük haqqında müqavilə imzalanmağına baxmayaraq ratifikasiya olunmadığı üçün Azərbaycan MDB-ə üzv deyildi. Heydər Əliyev yenicə sovet iqtisadiyyatından ayrılmış Azərbaycanın MDB-yə üzvlüyünün gətirəcəyi iqtisadi və siyasi faydaları nəzərə alaraq məsələni parlamentdə müzakirəyə təqdim etdi və nəticədə 20 sentyabr 1993-cü ildə Azərbaycan MDB-ə üzv oldu [13]. Qeyd etmək lazımdır ki, bu üzvlük sayəsində Azərbaycan təşkilatda Ermənistan lehinə olan qərarlara veto qoymaq şansı da əldə etmiş oldu. Ümumiləşdirsək, MDB-yə üzvlük bizə həm üzv dövlətlərlə əməkdaşlıq, həm Azərbaycan əleyhinə olan qərarları neytrallaşdırmaq fürsəti, həm təşkilat daxilində ona qarşı ola biləcək təhlükələrdən xəbərdar olma şansını qazanmış oldu [11].

MDB-yə üzvlükdən sonra "Əsrin müqaviləsi"nin imzalanmasında da Rusiyanın mövqeyi

yumşaldıldı. Belə ki, həmin dövrdə Xəzər dənizinin hüquqi statusu hələ müəyyənləşmədiyi üçün onunla bağlı sazişlərin imzalanması ciddi məsələ idi. Heydər Əliyev bunu çox yaxşı bilirdi. Məsələni həll etmək üçün Rusiyanı da müqavilənin iştirakçılarından biri kimi təklif etdi [13], [10, s. 160]. Halbuki müqavilə imzalanan dövrlərdə ölkə daxilində Heydər Əliyevə qarşı çevriliş hərəkətləri mövcud idi. Müqavilənin imzalanmasının həmən ardınca isə çevriliş cəhdi həyata keçirilsə də uğursuz oldu. Belə daxili qarışıqlıq dövründə hüquqi statusu müəyyən olunmamış Xəzər dənizinin Qərb və dünya şirkətlərinin istismarına verilməsi, buna etiraz edən İran və Rusiya dövlətlərinə rəğmən və onları razı salaraq müqavilənin imzalanmasına nail olunması dahi liderin mükəmməl strategiyası ilə mümkün oldu.

Dövlətlərarası ikitərəfli əlaqələr də münasibətlərin müsbət istiqamətdə inkişafı üçün əhəmiyyətlidir. Belə ki, Azərbaycanla Rusiya arasında ilk əlaqələr 4 aprel 1992-ci ildə imzalanmış protokolla qurulmuş, lakin daha güclü səviyyəyə Heydər Əliyevin zamanında 1997-ci il iyul ayının 3-də imzalanan "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə" ilə çatmışdır. Bu müqavilə iki dövlət münasibətlərinin sağlam təmələ dayandığı ilk müqavilə hesab oluna bilər. Bundan başqa 2001, 2004 və 2008-ci illərdə bağlanmış Bakı və Moskva müqavilələri də dövlətlərarası münasibətləri yüksək səviyyə qaldıran əsas anlaşmalar sırasındadır [10, s. 161].

2002-ci ildə Qəbələ Radiolokasiya Stansiyası Rusiyaya icarəyə verildi. Bu dövlətlərarası münasibətləri daha bir yüksək səviyyə qaldırdı. Belə ki, Qəbələ RLS müstəqillik əldə olunduqdan sonra belə Rus əsgərləri tərəfindən qanunsuz şəkildə istifadə olunurdu. Heydər Əliyev Rusiya ilə "10 illik icarə" haqqında müqavilənin imzalanmasına nail olmaqla həm Rusiyanın müsbət rəyini qazandı, həm də ildə 7 milyon dolar icarə payı kimi, 15 milyon dollar isə kommunal xərclər üçün ödəniləcək əlavə gəlir əldə etmiş oldu [14]. 10 ilin tamamında isə Azərbaycan və Rusiya tərəfi icarə məsələsində razılıq əldə edə bilmədikdən sonra Rusiya stansiyanı Azərbaycana qaytardı və Qəbələdən geri çəkildilər. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Qələbədən rus əsgərləri özləri çəkilmiş oldu. Eyni zamanda Ümummilli liderimiz icarə müqavilənin imzalanmasının ardınca 2003-cü ildə Vladimir Putin tərəfindən "Andrey Pervozvannı" ordeni ilə təltif edildi [13].

Heydər Əliyevin uğurlu strategiyası və siyasi cəhdləri ilə Azərbaycan Rusiya münasibətləri 1997-ci ildən bəri yüksələn xətlə inkişaf etmiş, Vladimir Putinin hakimiyyətə gəlməsi ilə daha fərqli mərhələnin başlamasına səbəb olacaqdır. Vladimir Putin Heydər Əliyevlə görüşdən sonra onun haqqında "*Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir*" fikirlərini söyləmişdir [10, s. 177].

Bu gün Azərbaycan Respublikasının xarici siyasətinin prioriteti bütün ömrünü Azərbaycan xalqına həsr eləmiş ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və cızdığı istiqamətlərdə davam etməkdədir. Təəssüflər olsun ki, ömrü yetmədi və onun yolunun davamçısı İlham Əliyevin uğurlu diplomatiyası, Azərbaycan ordusunun rəşadəti və xalqımızın dəstəyi sayəsində Azərbaycan torpaqlarının işğaldan azad edildiyini öz gözləri ilə görə bilmədi. Lakin Azərbaycanın 44 günlük Zəfər müharibəsi Heydər Əliyevin zamanında təməlini atdığı strateji daşların düzgünlüyü nəticəsində mümkün ola bildi.

## ƏDƏBİYYAT


1. Heydər Əlirza oğlu Əliyev // https://president.az/az/pages/view/azerbaijan/leader
2. Heydər Əlirza oğlu Əliyev // https://nk.gov.az/az/page/33/
3. Qasımlı M. Xaosdan sabitliyə, güclü dövlətə və tərəqqiyə // Heydər Əliyev Elektron Sənədlər Toplusu, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin prezident kitabxanası, s. 157-161.
4. Əmiraslanov Ə. Tarix yaradan lider // Heydər Əliyev Elektron Sənədlər Toplusu, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin prezident kitabxanası, s. 167-172.
5. Əhmədov N. Heydər Əliyev milli neft strategiyasının banisidir. "Xalq qəzeti", 2014, 19 sentyabr, № 204, s. 5.

6. Rəhimzadə V. Azərbaycanın qurtuluşunun və yüksəlişinin dönüş nöqtəsi. "Xalq qəzeti", 2014, 18 iyun, № 127, s. 9.
7. Əsgərov Z. Heydər Əliyevin xarici siyasət strategiyası və Azərbaycanın milli təhlükəsizliyi.
8. Həsənov Ə. Uğurlu xarici siyasət kursunun banisi. "Azərbaycan" qəz., 2009, 5 may, № 96, s. 4.
9. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, s. 473-479.
10. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016): Məqalələr toplusu. Bakı: Poliart MMC, 2017, s. 159-225.
11. Məmmədov N. Heydər Əliyevin xarici siyasət kursu: dünya sisteminin yenidən qurulması kontekstində, 24.04.2013 // https://news.milli.az/politics/183716.html
12. Azərbaycan – Rusiya münasibətləri, 01.10.2016 // https://lib.aliyevheritage.org/az/80868237.html
13. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli, 15.06.2020 // http://xocavend-ih.gov.az/az/news/917.html
14. Qəbələ Radiolokasiya Stansiyası // https://axtar.len.az/?q=Q%C9%99b%C9%99l%C9%99_radiolokasiya_stansiyas%C4%B1

***"Naxçıvan" Universiteti və Naxçıvan Dövlət Universiteti***
***E-mail: gulcin.agayeva001@gmail.com***

**Gulchin Agayeva**

## AZERBAIJANI-RUSSIAN RELATIONS IN THE FOREIGN POLICY STRATEGY OF THE NATIONAL LEADER HEYDAR ALIYEV

In the history of each state there were people who left an unforgettable mark. This indispensable role for Azerbaijan is played by our national leader Heydar Aliyev. He directly touched the hearts of the Azerbaijani people and, with his activity and love for the country, won an eternal place in the hearts and minds of every citizen, regardless of age. He was in power twice in the history of Azerbaijan and pursued the entire domestic and foreign policy based on development strategies, such as the national awakening of our people, establishing the unity of society and increasing its economic power. Heydar Aliyev, who devoted his whole life to his people, left an indelible mark on the hearts of our people and in the history of our state.

The article tells about the coming to power of Heydar Aliyev, his foreign policy and the role that Russia played here. It comprehensively shows the struggle for power when he came to power in Azerbaijan for the second time, and the confused international situation after coming to power. The article also defines the foreign policy directions of the great leader and reflects Azerbaijan's relations with the states of Turkiye, Iran and Russia. Although the article focuses on Heydar Aliyev's foreign policy strategy from the point of view of the Russian factor, it also highlights the activities of our national leader in bringing the right voice of Azerbaijan to the world in the Nagorno-Karabakh conflict.

Heydar Aliyev is one of the most important figures in the history of Azerbaijan, as well as the founder of the modern Azerbaijani state. Today, the Azerbaijani state is moving along the path laid by the national leader under the successful leadership of Ilham Aliyev. The role of the foundations laid by the great leader in the victory of Azerbaijan 30 years later is obvious. Thanks to the successful strategy and political efforts of Heydar Aliyev, the role of Azerbaijan in the international arena has increased, and relations with the states of the region continue in the same spirit. At the end of the article, these directions were emphasized, and as a result, the undeniable role of Heydar Aliyev in the restoration and development of Azerbaijani-Russian relations was once again proved.

**Keywords:** *national leader, coming to power, foreign policy, Turkey, Iran, Russia.*

**Гюльчин Агаева**

# АЗЕРБАЙДЖАНО-РОССИЙСКИЕ ОТНОШЕНИЯ ВО ВНЕШНЕПОЛИТИЧЕСКОЙ СТРАТЕГИИ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

В истории каждого государства были люди, оставившие незабываемый след. Эту незаменимую роль для Азербайджана играет наш общенациональный лидер Гейдар Алиев. Он непосредственно затронул сердца азербайджанского народа и своей активностью и любовью к стране завоевал вечное место в сердцах и умах каждого гражданина, независимо от возраста. Он дважды в истории Азербайджана был у власти и проводил всю внутреннюю и внешнюю политику, основанную на стратегиях развития, таких как национальное пробуждение нашего народа, установление единства общества и увеличение его экономической мощи. Гейдар Алиев, посвятивший всю жизнь своему народу, оставил неизгладимый след в сердцах нашего народа и в истории нашего государства.

В статье рассказывается о приходе к власти Гейдара Алиева, его внешней политике и роли, которую здесь сыграла Россия. Здесь всесторонне показана борьба за власть, когда он во второй раз пришел к власти в Азербайджане, и запутанная международная ситуация после прихода к власти. В статье также определены внешнеполитические направления великого лидера и отражены отношения Азербайджана с государствами Турции, Ирана и России. Несмотря на то, что в статье основное внимание уделяется внешнеполитической стратегии Гейдара Алиева с точки зрения российского фактора, здесь также освещается деятельность нашего общенационального лидера по донесению до мира правильного голоса Азербайджана в Нагорно-Карабахском конфликте.

Гейдар Алиев является одной из самых важных фигур в истории Азербайджана, а также основателем современного Азербайджанского государства. Сегодня Азербайджанское государство продвигается по пути, проложенному общенациональным лидером под успешным руководством Ильхама Алиева. Роль основ, заложенных великим лидером в победе Азербайджана 30 лет спустя, очевидна. Благодаря успешной стратегии и политическим усилиям Гейдара Алиева роль Азербайджана на международной арене возросла, и отношения с государствами региона продолжаются в том же духе. В конце статьи эти направления были подчеркнуты, и в результате еще раз была доказана неоспоримая роль Гейдара Алиева в восстановлении и развитии азербайджано-российских отношений.

**Ключевые слова:** *общенациональный лидер, приход к власти, внешняя политика, Турция, Иран, Россия.*

**FATMA RZAYEVA**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV HAKİMİYYƏTİ DÖVRÜNDƏ İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR: ABŞ SƏFƏRİ

*Bu məqalənin əsas məqsədi Azərbaycanın xarici siyasətinin ümumi çərçivəsini və yaranan tendensiyaları bir çox daxili və xarici amilləri nəzərə almaqla təhlil etməkdir. Bu kontekstdə Heydər Əliyev dövründə Azərbaycanın xarici siyasəti araşdırılmışdır. Məqalədə Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın ABŞ ilə əlaqələr əsasında xarici siyasəti müzakirə olunub. Həmçinin Heydər Əliyevin hakimiyyətdə olduğu 1993-2003-cü illər arasında həyata keçirilən xarici siyasətə müxtəlif mənbələr çərçivəsində nəzər salmaqla Azərbaycanın indiki xarici siyasətini, eləcə də gələcəkdə hazırlanacaq siyasətləri işıqlandırmaq məqsədi daşıyır.*

**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycan, ABŞ, xarici siyasət, səfər.*

Heydər Əliyevin prezidentliyə gəlməsi ilə yeni dövrə qədəm qoyan Azərbaycan-ABŞ münasibətləri qısa zamanda inkişaf etməyə başladı. 1993-cü ilin sentyabrında Milli Assambleyanın sədri Heydər Əliyev ABŞ prezidenti Klintona, vitse-prezident Al Qora və konqresin müşaviri Tomas Foliyə məktub göndərərək ABŞ Konqresinin təsdiq etdiyi 907-ci maddə ilə bağlı narahatlığını ifadə etdi və bildirdi ki, bu maddə ləğv edilməsi üçün lazımi tədbirlərin görülməsini xahiş etdi. Azərbaycan bir ölkə kimi çətin dövr yaşayırdı və xaricdən yardımın olmaması vəziyyəti daha da çətinləşdirirdi. Beləliklə, deyə bilərik ki, H.Əliyev Assambleyanın sədri olduqdan sonra ilk olaraq Azərbaycana xaricdən yardım istəyib. Ona görə də ilk müraciət edən 907-ci maddə ilə Azərbaycana xarici yardımın qarşısını alan ABŞ oldu.

Heydər Əliyev 1997-ci il iyulun 27-dən avqustun 7-dək ABŞ-da səfərdə olmuşdur. Azərbaycan müstəqillik əldə etdikdən sonra rəsmi səfər ən böyük tarixi hadisə idi. H.Əliyevin Bill Klintonun qonağı kimi səfəri Azərbaycanın beynəlxalq sistemdə iştirakı baxımından mühüm hadisə kimi tarixə düşəcəkdi. Dünya mediasının yaxından izlədiyi tədbir təkcə Azərbaycanın ABŞ ilə münasibətləri üçün deyil, bütün Qafqazın və Mərkəzi Asiyanın gələcəyi üçün mühüm əhəmiyyət kəsb edirdi. Xüsusilə də görüş zamanı və ondan sonra əldə olunan nəticələr Sovet İttifaqının dağılmasından sonra bir çox regional və beynəlxalq güclərin maraqlarının toqquşduğu regiona ABŞ-ın yanaşmasının rəsmiləşdirilməsində mühüm əhəmiyyət kəsb etdi. Amma eyni zamanda, bu səfər Azərbaycanın gələcəyi, xüsusən də Dağlıq Qarabağ münaqişəsi üçün xüsusi əhəmiyyət kəsb edirdi. H.Əliyevin səfəri zamanı Azərbaycanın dövlət neft şirkəti SOCAR-ın ABŞ-ın “Chevron”, “Mobil” və “ExxonMobil” neft şirkətləri ilə Azərbaycanın Xəzər dənizindəki neft yataqlarının birgə istismarına dair üç saziş imzalayacağı da gözlənilirdi. Məlumdur ki, neft ABŞ-ın regiona daxil olmasına şərait yaradan ən böyük amildir və ona görə də Azərbaycanla ABŞ şirkətləri arasında əldə olunacaq istənilən razılaşma Azərbaycan-ABŞ münasibətlərinin inkişafında mühüm rol oynayacaq [1, s. 20].

Beləliklə, təbii ki, Heydər Əliyev ABŞ-a ilk səfər edib. Azərbaycan Prezidenti kimi gündəmdə olan məsələlər, xüsusən də Azərbaycanın ABŞ-la münasibətləri, Dağlıq Qarabağ məsələləri, münasibətlərin inkişafına mane olan 907-ci maddə, lakin bütün bu məsələlərin arxasında duran əsas məsələ təbii ki, neftdir. Çünki yalnız ABŞ-ın Azərbaycan neftinə artan marağı və sərmayəsi sayəsində Azərbaycanın öz problemlərini həll etmək şansı var. Bununla bağlı digər mühüm gündəm məsələsi neft kəmərləridir. İlkin hasilat boru kəməri müəyyən edilsə də, əsas boru kəməri məsələləri həll olunmamış qalmışdır. Bu kontekstdə Türkiyə üçün xüsusi əhəmiyyət kəsb edən Bakı-Ceyhan boru kəmərinin gələcəyi daha çox bu səfərdən asılıdır. Səfər öncəsi verdiyi açıqlamada H.Əliyev Bakıdan Ceyhan bölgəsinə qədər uzanan ən böyük boru kəmərinin çəkilməsi üçün əlindən gələni edəcəyini bildirib və Azərbaycanın bu məsələdə Türkiyənin yanında olduğunu bir daha vurğulayıb [2, s. 90].

Heydər Əliyevlə Klinton arasında Ağ Evdə keçirilən görüşün əsas məğzi müstəqilliklə bağlı olub. O vaxtdan bəri bu, Azərbaycan-ABŞ münasibətlərində ən mühüm hadisələrdən biri kimi tarixə düşüb. Əslində, bir neçə il əvvəl Azərbaycanla diplomatik əlaqələr qurmaqda tərəddüd edən ABŞ indi Azərbaycan prezidentini rəsmən Ağ Evə dəvət edirdi. 1997-ci il avqustun 1-də Ağ Evdə görüşən iki

ölkənin prezidentləri Azərbaycan ilə ABŞ arasında münasibətlərə dair fikir mübadiləsi aparmış, regional təhlükəsizlik və sabitlik üçün iki ölkə arasında əlaqələrin inkişafının vacibliyini bildirmişdilər. Görüşlər zamanı Heydər Əliyev ikitərəfli münasibətlərin inkişafına mane olan 907-ci maddə ilə bağlı fikirlərini bildirib, Azərbaycan torpaqlarının beşdə birinin işğal olunduğunu deyib və Ermənistanın bu mövqeyinin regionda sülhə təhlükə yaratdığını və bu məsələnin həll edilməli olduğunu vurğulayıb. Bu məsələnin təcili həll olunmasını və dərhal nəticə eldə edilməsini bildirirdi. Bundan əlavə, bu halda neft və təbii qaz region ölkələrinə çatdırılırdı. Bunun işinə kömək etdiyini Heydər Əliyev xüsusi vurğulayırdı. H.Əliyev görüşlərdə Bakı-Ceyhan boru kəməri layihəsini də xatırladıb, Qafqaz regionunun Türkiyəyə ehtiyacı olduğunu vurğulayıb. Türkiyənin regionda mühüm rol oynadığını və bundan sonra da oynayacağını vurğulayan Əliyev bu ölkə ilə müxtəlif sahələrdə, ilk növbədə Rusiya ilə əməkdaşlıq edirdi. İqtisadi kəsir neft kəmərinin Türkiyəyə ehtiyacı olduğunu, onun Türkiyədən keçməsi lazım olduğunu söylədi. Klinton hətta Bakı-Ceyhan məsələsində H.Əliyevi dəstəklədiyini bildirib və Xəzər neftinin ixracında Türkiyənin variantının daha effektiv olduğunu vurğulayıb. Prinston Universitetinin tədqiqatçısı Cofi Cozef Azərbaycanın ABŞ-la münasibətlərinə dair araşdırmasında Klinton administrasiyasının əsas ixrac neft kəməri Bakı-Tbilisi-Ceyhanı əldə etmək üçün nə qədər səy göstərdiyini açıqlayıb [4, s. 35].

İki ölkə prezidentləri arasında keçirilən görüşdən sonra Azərbaycanla münasibətlərin əsas prinsiplərini, strategiyalarını və perspektivlərini özündə əks etdirən "Azərbaycanla münasibətlər haqqında Birgə Bəyannamə" imzalanıb. Tərəflər əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayaraq ölkələr arasında bütün sahələrdə əlaqələrin və tərəfdaşlıq əlaqələrinin inkişafı və möhkəmləndirilməsi barədə razılığa gəldiklərini qeyd ediblər. Buna görə də Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın regional təhlükəsizlik, sabitlik və inkişaf baxımından əhəmiyyəti vurğulanaraq, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və demokratik inkişafının ABŞ tərəfindən dəstəkləndiyi bildirilir.

İkincisi, iki ölkənin prezidentləri Dağlıq Qarabağ münaqişəsinin tez və sülh yolu ilə həlli ilə bağlı razılığa gəldikləri halda, ATƏT-in Minsk Qrupu Rusiya və Fransa ilə birgə fəaliyyətini gücləndirməli və həlli çərçivəsində olmalıdır. Razılaşmada ATƏT-in Lissabon Prinsipləri çərçivəsində problemin ədalətli həllini və davamlı sülhü təmin etmək xüsusi yer alırdı.

Üçüncüsü, Amerika Birləşmiş Ştatlarının Azərbaycana humanitar yardım çərçivəsində göstərdiyi yardım müsbət qarşılansa da, "Yardım Azadlığı Aktı"nın 907-ci maddəsinin iki ölkə arasında əlaqələrin inkişafına böyük maneə olduğu vurğulanırdı.

Dördüncüsü, Azərbaycanın demokratiya və bazar iqtisadiyyatına əsaslanan dövlət sisteminə mühüm keçid prosesinin getdiyi bildirilir və bu ölkədə iqtisadi və siyasi islahatların aparıldığı vurğulanırdı. Avrasiya Ticarət Dəhlizinin bütün regionun, xüsusilə də Azərbaycanın inkişafı üçün əhəmiyyətini xatırladaraq, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına namizədliyini qəbul etməsi üçün lazımi addımların atılmasına qərar verilmişdi. Beşincisi və nəhayət, Azərbaycanın üzləşdiyi milli təhlükəsizlik təhdidləri Birləşmiş Ştatlar və yeni yaranmış dövlət tərəfindən tanınıb.

Heydər Əliyevin ABŞ-a rəsmi səfərindən sonra 1997-ci ildən Azərbaycan-ABŞ əlaqələri sürətlə inkişaf edib. ABŞ-ın Qarabağ münaqişəsinin həllində qərəzsiz görünməyə başlaması, H.Əliyevin ABŞ-a rəsmi səfərləri, o cümlədən ABŞ-ın yüksək vəzifəli şəxslərinin Azərbaycana səfərləri münasibətlərin gedişatını getdikcə daha müsbət hala gətirdi. Eyni zamanda, ABŞ-ın Xəzərin statusunun müəyyən edilməsində və bölüşdürülməsində İran və Rusiyaya qarşı Azərbaycan administrasiyasına dəstəyini artırması Azərbaycan-ABŞ münasibətlərinin inkişafında çox mühüm rol oynayıb.

Heydər Əliyevin uzaqgörən siyasəti və liderliyi ilə həyata keçirilən xarici siyasət nəticəsində Azərbaycan-ABŞ əlaqələri hazırda da inkişaf etməkdə davam edir. Xarici İşlər Nazirliyinin 14 iyul 2002-ci il tarixli bəyanatlarından birində: "Vaşinqton Dağlıq Qarabağ hökumətini tanımır. ABŞ hökuməti Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və biz inanırıq ki, münaqişənin siyasi həlli tapılacaq". Bu yolla ABŞ-ın Azərbaycanla bağlı siyasəti etnik qrup maraqlarından çox milli maraqlara yönəlib.

## ƏDƏBİYYAT


1. Rasizadə A. ABŞ-nin Azərbaycan Siyasəti. "Azadlıq" qəz., 1992, 19 sentyabr.
2. Nəsirov E. Azərbaycan – ABŞ Münasibətləri (1991-1997). Bakı: Qanun, 1998.
3. Həsənov Ə. Azərbaycanın Xarici Siyasəti: Avropa Dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərnəşr, 1998, 166s.
4. Nəsibli N. Azərbaycan Geosiyasəti və Nefti. Bakı: Kaspi Universiteti Nəşriyyatı, 2000.
5. Azərbaycan Respublikasının tarixi (1991-2003). I c.: Heydər Əliyev dövrü, Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 704 s.
6. Heydər Əliyev müasir Azərbaycan parlamentinin banisidir / Tərtibçilər S.Mirzəyev, M.Qayıbov. Bakı, 2008, 496 s.
7. Parlament tariximizin Heydər Əliyev dövrü / Tərtibçi-müəlliflər S.Mirzəyev, M.Qayıbov. Bakı: ARMM-in nəşri, 2013, 560 s.



***"Naxçıvan" Universiteti***
***E-mail: aliyevafatima33@gmail.com***

**Fatma Rzayeva**


## BILATERAL RELATIONS DURING THE REIGN OF THE NATIONAL LEADER HEYDAR ALIYEV: VISIT TO THE USA


The main goal of this article is to analyze the general framework of Azerbaijan's foreign policy and emerging trends, considering many internal and external factors. In this context, the foreign policy of Azerbaijan during the Heydar Aliyev era was examined. The article discussed Azerbaijan's foreign policy based on relations with the United States during Heydar Aliyev's rule. It also aims to illuminate the current foreign policy of Azerbaijan, as well as the policies to be developed in the future, by looking at the foreign policy implemented between 1993 and 2003, when Heydar Aliyev was in power, within the framework of various sources.



**Keywords:** *Heydar Aliyev, Azerbaijan, USA, foreign policy, visit.*



**Фатма Рзаева**


## ДВУСТОРОННИЕ ОТНОШЕНИЯ В ПЕРИОД ПРАВЛЕНИЯ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА: ВИЗИТ В США


Основной целью данной статьи является анализ общих рамок внешней политики Азербайджана и возникающих тенденций с учетом многих внутренних и внешних факторов. В этом контексте была рассмотрена внешняя политика Азербайджана в эпоху Гейдара Алиева. В статье рассматривается внешняя политика Азербайджана на примере отношений с США в период правления Гейдара Алиева. Также есть цель осветить текущую внешнюю политику Азербайджана, а также политику, которую предстоит разработать в будущем, путем рассмотрения в рамках различных источников внешней политики, проводимой в период с 1993 по 2003 год, когда Гейдар Алиев находился у власти.



**Ключевые слова:** *Гейдар Алиев, Азербайджан, США, внешняя политика, визит.*

**KÜBRA VƏLİYEVA**

# AZƏRBAYCANI ƏRƏB DÜNYASINDA TANIDAN ÜMUMMİLLİ LİDER

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Şərq dünyasında – İƏT-ə üzv olan dövlətlərdə və ərəb dünyasında gördüyü işlər, onun ərəb ölkələrinə rəsmi səfərləri, görüş və müsahibələri, imzaladığı müqavilə və sazişlər və digər həyata keçirdiyi möhtəşəm işlər Azərbaycan tarixində silinməz izlər buraxmışdır.*

*Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan Respublikasını beynəlxalq aləmdə tanıtmaq üçün dünyanın və Şərqin öndə gələn dövlətləri ilə iqtisadi əməkdaşlıq və dostluq müqavilələri imzalamışdır. O, Azərbaycanı dünyanın qüdrətli və güclü dövlətləri ilə bərabər şəraitdə dostluq və hərtərəfli iqtisadi, mədəni, siyasi, elmi sahələrdə əlaqələr yaratmaq səviyyəsinə malik bir dövlətə çevirmişdir.*

*Dünyanın bir çox aparıcı dövlətlərinin, Şərq ölkələrinin və eləcə də İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin dəstəyini qazanmaq və onlarla geniş diplomatik və siyasi-iqtisadi əlaqələrin qurulması böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyəti dövrünə düşür.*

**Açar sözlər:** *Heydər Əliyev, Şərq, ərəb ölkələri, İslam Əməkdaşlıq Təşkilatı, Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri.*

Ümummilli lider Heydər Əliyev Azərbaycanın tarixi, dili, adət-ənənələrinin qorunması, mədəniyyət və mənəvi dəyərlərin inkişafı və eləcə də Azərbaycanın beynəlxalq arenada tanınmasında əvəzsiz xidmətlər göstərmişdir. Milli dövlətin qurulması, dövlətçilik ideyalarının həyata keçirilməsi müstəqil Azərbaycan üçün edilən ən böyük xidmətlərdir. "Xalqımızın zəngin mənəvi irsinin hifz etdirilməsi, mədəniyyətimizə xüsusi diqqət Heydər Əliyev siyasətinin başlıca istiqamətlərindən biri olmuşdur" [2, s. 3].

Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlətçilik işi müstəqil Azərbaycan Respublikasının inkişafının siyasi əsasını təşkil edir. "Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir" [3, s. 5].

Heydər Əlirza oğlu Əliyev (1923-2003) Azərbaycan Respublikasının siyasi və dövlət xadimi və həmçinin Yeni Azərbaycan Partiyasının qurucusudur. 1993-cü il iyun ayının 15-də Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə qayıdışı ilə dövlətimizin xarici siyasətində dönüş mərhələsi başlamışdır. Belə ki, "Azərbaycan MDB-yə, Qara dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatına, İTƏ-ə, GUÖAM-a, Avropa Şurasına, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu, hər il çağırılan məşhur Davos forumunun, BMT-nin sessiyalarının, ATƏT-in, İKT-nin, Türkdilli Dövlətlərin Başçılarının sammitlərinin daimi iştirakçısı oldu" [1, s. 11].

Xaricdə Azərbaycanın səfirliklərinin və diplomatik nümayəndəliklərinin açılması, 140-a yaxın dövlətlə diplomatik əlaqələrin qurulması, dünyanın bir çox aparıcı dövlətlərinin Bakıda öz səfirliklərini və nümayəndəliklərini açması da Heydər Əliyevin hakimiyyəti dövrünə düşür. Xarici ölkələrdə yaşayan azərbaycanlıların diaspora şəklində birləşdirilməsi də məhz Heydər Əliyevə məxsus düşünülmüş siyasətin nəticəsində mümkün olmuşdur.

Ümummilli lider Sovet İKP MK Siyasi Bürosunun üzvü kimi SSRİ-nin beynəlxalq əlaqələrinin inkişafında da aktiv şəkildə iştirak etmiş, xarici siyasət məsələlərində yaxından iştirak edərək Avropa, Asiya və Amerika qitəsinin bir sıra ölkələrini ziyarət etmişdir. Onun bu tip səfərləri Yaxın və Orta Şərq ölkələrinə də olmuşdur. Böyük siyasətçi "1982-87-ci illərdə Misirə, Suriyaya, İordaniyaya, Liviyaya, İraqa, Yəmənə, Pakistana və başqa ölkələrə səfərləri, Kral Hüseyn, Ənvər Sədat, Hafiz Əsəd, Səddam Hüseyn, Benəzir Bhutto və başqa islam dünyası liderləri ilə görüşləri təkcə bu ölkələrdə deyil, bütün islam aləmində və dünyada aparıcı siyasətçilərdən biri kimi tanınmasına səbəb oldu" [1, s. 16].

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Heydər Əliyev prezidentliyi ərəfəsində 70-ci illərdə Şərq dünyası və onun rəhbərləri ilə qurduğu əlaqələri bərpa edərək yeni əlaqələr yaratmışdı.

1969-cu ildə İslam ölkələrinin yaratdığı İslam Konfransı Təşkilatına (2011-ci ildən sonra İslam Əməkdaşlıq Təşkilatı) Azərbaycan 1991-ci ildə üzv qəbul edilmişdir. Azərbaycan hazırda İƏT-ə üzv olan 58 dövlətdən biridir.

1945-ci ildə Qahirədə təsis edilən Ərəb Dövlətləri Liqası (ƏDL) ilə Azərbaycan arasında 2005-ci ildə Anlaşma Memorandumu imzalanmışdır. Azərbaycan Ərəb Dövlətləri Liqasında (ƏDL) müşahidəçi statusuna malikdir.

Ərəb dünyasında İordaniya Azərbaycanın müstəqilliyini Türkiyədən sonra tanıyan ikinci ölkədir. Hər iki ölkə arasında diplomatik əlaqələr isə 1992-ci ildən yaradılmışdır. Azərbaycan Respublikası və İordaniya Haşimiyyə Krallığı arasında 1993-cü ildən müxtəlif sahələrə dair əməkdaşlıqlar genişləndirilmiş və diplomatik əlaqələrin yaradılması haqqında protokol və birgə bəyanat imzalanmışdır.

Ulu öndər prezident seçildikdən və Türkiyə ilə İran səfərindən sonra ərəb ölkələri içərisində ilk olaraq Səudiyyə Ərəbistanı Krallığına səfər etmişdir. "Səudiyyə Ərəbistanı Azərbaycan Respublikasının müstəqilliyini 30 dekabr 1991-ci ildə tanımış, 24 fevral 1992-ci ildə Azərbaycanla diplomatik əlaqələr yaratmış, 1994-cü ilin aprel ayından Azərbaycanın Səudiyyə Ərəbistanında səfirliyi fəaliyyət göstərməyə başlamışdır. 21 noyabr 1994-cü ildə isə Səudiyyə Ərəbistanının Türkiyədə, eyni zamanda Azərbaycanda akkreditə edilmiş səfiri Naci Sadıq Müfti öz etimadnamələrini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə təqdim etmişdir" [1, s. 211].

Heydər Əliyev ilk səfərlərindən biri olaraq 9 iyul 1994-cü ildə Səudiyyə Ərəbistanına rəsmi səfərə yola düşərkən bu fikirləri qeyd etmişdir:

"Dünya dövlətləri birliyində Səudiyyə Ərəbistanının özünə layiq yeri var. O, ərəb dünyasının inkişaf etmiş zəngin bir ölkəsidir. Eyni zamanda bu dövlət dünya müsəlmanlarının müqəddəs yerlərinin mühafizidir. Ona görə də bu ölkə ilə Azərbaycan arasında əlaqələr yaradılmalıdır. İndiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında, demək olar, heç bir əlaqə olmamışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə müəyyən cəhdlər olsa da, bunlar bir nəticə verməmişdir. Ancaq bu ölkə dünya birliyində böyük nüfuza malik olduğuna görə, dini birliyimizi, tarixi ənənələrimizin oxşarlığını nəzərə alaraq, mən Səudiyyə Ərəbistanı məlikinin rəsmi dəvətini qəbul etmişəm və indi səfərə gedirəm. Güman edirəm ki, bu səfər yaxşı nəticələr verəcəkdir. Ən böyük nəticə kimi onu gözləyirəm ki, bizim müntəzəm əməkdaşlığımız üçün imkanlar yaranacaqdır. Səudiyyə Ərəbistanında bizim səfirliyimiz fəaliyyət göstərir. Bu günlərdə Səudiyyə Ərəbistanının səfiri də Azərbaycana gələrək öz etimadnaməsini təqdim edəcəkdir. Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələri, turist mübadiləsi, mənəvi əlaqələr genişlənəcəkdir.

Hər il müsəlmanlar Səudiyyə Ərəbistanına ziyarətə gedirlər. Onların arasında Azərbaycandan gedənlər də olur. Ola bilər ki, bu barədə də danışıqlarımız olsun ki, Azərbaycandan ziyarətə gedənlərə orada necə kömək göstərə bilərlər.

Mən bu səfərə böyük məmnuniyyətlə gedirəm. Səudiyyə Ərəbistanı məni həm bir ölkə kimi maraqlandırır, həm də müsəlmanların müqəddəs yeri kimi oraya ziyarət edəcəyimi çox böyük həyəcanla gözləyirəm" [1, s. 203].

Səfər ərzində Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Səudiyyə Ərəbistanı Krallığının məliki Fəhd ibn Əbdül Əziz əl-Səudla görüşmüş və onunla çoxsaatlıq danışıqlar aparmışdır.

Azərbaycan Prezidenti bu səfərinin ölkəmizin xarici siyasəti üçün əhəmiyyətini vurğulamış və ölkəmiz üçün iqtisadi cəhətdən inkişaf edən bu ölkə ilə diplomatik əlaqələr yaratmağın əhəmiyyətini diqqətə çatdırmışdır. Ölkə başçısının səfəri nəticəsində hər iki ölkə arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman və s. sahələrdə əməkdaşlığa dair Baş Saziş imzalanmışdır. 1999-cu ilin iyun ayından Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyi fəaliyyətə başlamışdır.

Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci ildə tanımışdır. Hər iki ölkə arasında diplomatik əlaqələr isə 1992-ci ildə qurulmuşdur. 1995-ci ildə isə Liviyanın Bakıda səfirliyi fəaliyyətə başlamışdır. Hər iki ölkə arasında 1992-ci ildə əməkdaşlıq və ticarət sahəsində müqavilə, 2003-cü ildə isə Müştərək Komissiya haqqında saziş imzalanmışdır. Haliyədə Azərbaycan Respublikası ilə Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın iclasları keçirilməkdədir.

Azərbaycan Respublikasının Misir Ərəb Respublikası ilə diplomatik əlaqələri mərhum Prezident Heydər Əliyevin 1994-cü ildə oraya səfəri ilə başlamışdır. Misir ƏR Azərbaycanın müstəqilliyini 26 dekabr 1991-ci ildə tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr isə 1992-ci ildə qurulmuşdur.

1993-cü ildə Bakıda Misir ƏR-in səfirliyi və 1994-cü ildə isə Azərbaycan Respublikasının Qahirədə səfirliyi fəaliyyətə başlamışdır. 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Qahirəyə işgüzar səfərdə olmuşdur. O, Səfəri ərzində Misir ƏR Prezidenti Hüsnü Mübarək ilə xüsusi görüşü olmuşdur. Görüşdə Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında əlaqələrin genişləndirilməsi, inkişaf etdirilməsi və hər iki dövlət arasında rəsmi səfərlərin yaradılması ilə bağlı məsələlər müzakirə olunmuşdur. İki hökumət arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında saziş imzalanmışdır. 2002-ci ildə Prezidenti cənab Heydər Əliyev Azərbaycan Respublikası və Misir Ərəb Respublikası hökumətləri arasında 1994-cü ildə yaradılan Müştərək Komissiyanın Azərbaycan tərəfinin tərkibi haqqında Sərəncam imzalanmışdır.

Misirlə Azərbaycan arasında müxtəlif sahələrə dair əməkdaşlıq və diplomatik əlaqələrin tarixi çox qədim dərin köklərə malikdir.

Azərbaycan Respublikası və Suriya Ərəb Respublikası arasında diplomatik əlaqələr 28 mart 1992-ci ildə yaradılmışdır. İki ölkə arasında əlaqələri möhkəmləndirmək məqsədilə, 11 aprel 1997-ci ildə Azərbaycan Prezidenti Dəməşqdə Azərbaycan Respublikasının Səfirliyinin təsis olunması barədə qərar qəbul etmişdir. 1997-ci ildə AR Prezidenti cənab Heydər Əliyevin xüsusi tapşırığı ilə Xarici İşlər Naziri Suriyaya rəsmi səfər etmişdir. Suriya Ərəb Respublikasının Prezidenti Hafiz əl-Əsəd Azərbaycan Prezidentini Suriyaya rəsmi səfərə dəvət etmişdir. "Prezident Heydər Əliyev və Hafiz əl-Əsəd VIII Zirvə toplantısında – 1997-ci ilin dekabrında Tehranda görüşmüşlər. Görüş ölkələrimiz arasındakı əlaqələrin inkişafına yeni təkan vermişdir" [1, s. 270].

İraq Azərbaycanın müstəqilliyini 1992-ci ildə tanımışdır. Həmin ildən etibarən ölkələr arasında elm, təhsil, mədəniyyət, neft sənayesi və s. sahələrdə diplomatik münasibətlər qurulmuşdur. 1994-cü ildə Azərbaycan və İraq Respublikasının müxtəlif nazirlikləri arasında sazişlər imzalanmışdır. 2002-ci ildən isə iki dövlət arasında müxtəlif sahələrə dair əməkdaşlığın genişləndirilməsi sahəsində də sazişlər imzalanmışdır.

Azərbaycan Respublikasının 1991-ci ildə müstəqilliyini tanıyan ərəb ölkələrdən biri də Mərakeş Krallığıdır. Mərakeş Krallığı ilə Azərbaycan arasında diplomatik əlaqələr 25 avqust 1992-ci ildə qurulsa da, bu münasibətlər 1994-cü ildən inkişaf etməyə başlamışdır. 1994-cü ilin dekabr ayında iki ölkənin Xarici İşlər Nazirlikləri arasında məsləhətləşmələr haqqında protokol imzalanmışdır.

1994-cü ilin 13-15 dekabrında Kasablankada keçirilən İƏT-in Dövlət və Hökumət Başçılarının VII Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev ilə Mərakeş Kralı II Həsən arasında ikitərəfli görüş olmuşdur. Görüşdə Azərbaycan-Mərakeş əlaqələrinin inkişafı və əməkdaşlığın gələcək perspektivləri müzakirə olunmuşdur. Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında bu illərdən başlayaraq inkişaf edən diplomatik münasibətlər haliyədə də davamını sürdürməkdədir.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında diplomatik əlaqələr 1 sentyabr 1992-ci ildə qurulmuşdur. 13 dekabr 1994-cü ildə İƏT-in VII Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev BƏƏ-nin Prezidenti Şeyx Zaid bin Sultanla görüşü olmuşdur. Görüşdə iki ölkə arasında əlaqələrin genişləndirilməsi, inkişaf etdirilməsi və s. məsələlər müzakirə olmuşdur. 1997-ci ilin aprelin 11-də Milli Məclisin "Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Səfirliyinin təsis edilməsi" haqqında qərarının Prezident Heydər Əliyev tərəfindən təsdiq edilməsi iki dövlət arasındakı münasibətlərdə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirmək olar.

1997-ci ildə Prezident Heydər Əliyev İƏT-in Tehranda çağırılan VIII Zirvə toplantısında BƏƏ-nin Xarici İşlər Naziri Rəşid Abdulla əl-Nəimi ilə görüşü olmuşdur. Görüşdə cənab Prezident iki ölkə arasında əlaqələrin genişləndirilməsi istiqamətində birgə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulamışdır. Qeyd etmək lazımdır ki, Birləşmiş Ərəb Əmirlikləri azərbaycanlı qaçqın və məcburi köçkünlərə müntəzəm olaraq göndərdiyi humanitar yardımı ilə də tanınan bir dövlətdir. "2004-cü ilin 22-29 aprel tarixlərində BƏƏ-də Azərbaycan Mədəniyyəti Günləri keçirilmişdir" [1, s. 287]. Azərbaycan ilə BƏƏ arasında əməkdaşlıq əlaqələri bu gün də davam edir. Hazırda iki dövlət arasında hava daşınmaları haqqında, iqtisadi, ticarət, texniki əməkdaşlıq, turizm, hərbi, investisiyaların təşviqi və qarşılıqlı qorunması və s. əməkdaşlıq haqqında sazişlər imzalanmışdır.

Azərbaycan Respublikası Livan Respublikası ilə diplomatik münasibətlərin inkişafına xüsusi diqqət vermişdir. Livan Azərbaycanın müstəqilliyini 30 dekabr 1991-ci ildə tanımışdır. 1992-ci il sentyabrın 18-də iki dövlət arasında diplomatik əlaqələrin yaradılması haqqında protokol imzalanmışdır. 1997-ci il dekabrın 9-11-də İƏT-in Tehranda çağırılan VIII Zirvə toplantısında Prezident Heydər Əliyevin Livan Prezidenti İlyas Hərəvi ilə görüşü olmuşdur. Görüşdə ölkələr arasında bütün sahələrə dair əlaqələrin genişləndirilməsi və inkişafına dair müzakirələr olmuşdur.

Əlcəzair Xalq Demokratik Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 26 dekabr 1991-ci ildə tanımışdır. İki dövlət arasında diplomatik münasibətlər isə 1994-cü ildə yaradılmışdır. 22 aprel 1994-cü ildə Əlcəzair Xalq Demokratik Respublikasının Bakıda səfirliyi fəaliyyətə başlamışdır. Hazırda iki dövlət arasında diplomatik məsləhətləşmələr məqsədilə rəsmi səfərlər və məktub mübadiləsi həyata keçirilir.

"Azərbaycan Respublikası və Qətər Dövləti arasında diplomatik əlaqələr 14 sentyabr 1994-cü ildə yaradılmışdır" [1, s. 295]. Hazırda iki dövlət arasında müxtəlif sahələrə dair əməkdaşlığın genişləndirilməsi sahəsində sazişlər imzalanmışdır. 1994-cü ildə Azərbaycan Respublikasının diplomatik əlaqələr yaratdığı digər bir ərəb ölkəsi Küveyt Dövlətidir.

13 dekabr 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev İƏT-in Kasablanka Zirvə toplantısında Küveyt əmiri Şeyx Cabir Əhməd Sabah ilə görüşü olmuşdur. Bu görüşlə iki dövlət arasında dostluq və qardaşlıq əlaqələrinin əsası qoyulmuşdur. Həmçinin iki ölkənin Parlamentləri arasında Dostluq Qrupu yaradılmışdır. "2002-ci ilin 01 oktyabr tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Azərbaycan Respublikasının Küveyt Dövlətində Səfirliyinin təsis edilməsi haqqında Qanun imzalamışdır" [1, s. 298]. Hazırda iki hökumət arasında müxtəlif sahələrdə əməkdaşlığa dair protokol, saziş və s. sənədlər imzalanmışdır.

Ərəb ölkələri hər zaman Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyini dəstəkləmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının ərəb ölkələri ilə qurduğu geniş əməkdaşlıq əlaqələri günü-gündən hərtərəfli şəkildə möhkəmlənir, genişlənir və inkişaf edir.

## ƏDƏBİYYAT

1. Allahverdiyev Q., Sultan-zadə V. Heydər Əliyev və Şərq: 6 cilddə. V c.: İKT dövlətləri, Bakı: Çaşıoğlu, 2005, 360 s.
2. Əhmədova S. Heydər Əliyevin dil siyasəti: Rəsmi sənədlər. Bakı: Şirvannəşr, 2009, 136 s.
3. Hacıyev İ. Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan: Əcəmi, 2013, 296 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: kubra.valiyeva@yahoo.com***

**Kubra Valieva**

## THE NATIONAL LEADER WHO PROMOTED AZERBAIJAN IN THE ARAB WORLD

The work of the national leader of the Azerbaijani people Heydar Aliyev in the Eastern world, in the OIC member states and in the Arab world, his official visits to Arab countries, meetings and interviews, signed contracts and agreements and other work carried out by him left an indelible mark on the history of Azerbaijan.

Prominent statesman Heydar Aliyev signed agreements on economic cooperation and friendship with the leading states of the world and the East in order to popularize the Republic of Azerbaijan in the international world. He turned Azerbaijan into a state capable of creating friendly and comprehensive economic, cultural, political and scientific ties with the powerful states of the world.

Enlisting the support of many leading states of the world, the countries of the East, as well as

the member states of the Organization of Islamic Cooperation and establishing broad diplomatic and political-economic relations with them fell to the reign of the great statesman Heydar Aliyev.

**Keywords:** *Heydar Aliyev, East, Arab countries, Organization of Islamic Cooperation, Saudi Arabia, Egypt, United Arab Emirates.*

**Кубра Валиева**

## НАЦИОНАЛЬНЫЙ ЛИДЕР, КОТОРЫЙ ПРОСЛАВИЛ АЗЕРБАЙДЖАН В АРАБСКОМ МИРЕ

Работа общенационального лидера азербайджанского народа Гейдара Алиева в восточном мире, в государствах-членах ОИС и в арабском мире, его официальные визиты в арабские страны, встречи и интервью, подписанные контракты и соглашения и другие проведенные им работы оставили неизгладимый след в истории Азербайджана.

Видный государственный деятель Гейдар Алиев подписал договоры об экономическом сотрудничестве и дружбе с ведущими государствами мира и Востока в целях популяризации Азербайджанской Республики в международном мире. Он превратил Азербайджан в государство, способное создавать дружеские и всесторонние экономические, культурные, политические и научные связи с могущественными государствами мира.

Заручиться поддержкой многих ведущих государств мира, стран Востока, а также государств-членов Организации исламского сотрудничества и установить с ними широкие дипломатические и политико-экономические отношения выпало на долю правления великого государственного деятеля Гейдара Алиева.

**Ключевые слова:** *Гейдар Алиев, Восток, арабские страны, Организация исламского сотрудничества, Саудовская Аравия, Египет, Объединенные Арабские Эмираты.*

**NİLUFƏR AĞAYEVA**

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN GƏNCLİYİNƏ QAYĞISI

*Məqalədə Azərbaycanın müstəqillik dövrünə nəzər salınmış, ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi "Gənclər siyasəti"nin uğurları qeyd edilmişdir. Gənclər və İdman Nazirliyinin yaradılmasının gənclərimizin həyatında yaratdığı dönüş nöqtəsindən bəhs edilmişdir. Bundan başqa keçirilən Gənclər forumları haqqında məlumat verilmişdir. "Azərbaycan Gəncliyi Dövlət Proqramları"nın həyata keçirilməsinin gənclərimizin inkişafındakı rolu xüsusi vurğulanmışdır.*

**Açar sözlər:** *gənclər siyasəti, Azərbaycan gəncliyi, dövlət proqramları, Gənclər və İdman Nazirliyi, gənclər günü.*

Azərbaycanda 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində hökm sürən hərc-mərclik, qeyri sabitlik şəraitində dövlət səviyyəsində gənclərlə iş demək olar ki, yox dərəcəsində idi. Başlı-başına qalmış gənclərimiz müxtəlif qrupların şəxsi maraqlarına xidmət edən silahlı dəstələrə qoşularaq cinayətkar yola qədəm qoymuş, xalqımızın mənəvi dəyərlərinə zidd vərdişlərə qurşanmış, bəziləri isə ölkədə nizamlı ordunun olmamasından istifadə edərək fərarilik etmiş və başqa ölkələrə getmişdilər. Ancaq xoşbəxtlikdən xalqın sınanmış dahi lideri Heydər Əliyev cənablarının yenidən hakimiyyətə qayıdışı problemlerimizin həlli ilə yanaşı, dövlətimizin gənclər siyasətində əsaslı dönüş yaratdı [1, s. 5-6].

Ulu öndərin hakimiyyətə gəlişi həm müstəqilliyimizin, həm də gəncliyimizin xilası olmuşdur. Onun hakimiyyətə gəlişindən sonra gənclərlə iş əsas sahələrdən birinə çevrildi. Belə bir məqamda hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev ilk görüşünü məhz gənclərlə keçirdi. 22 sentyabr 1993-cü ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündəki çıxışında onlara dərin inam bəslədiyini ifadə etdi. Onun **"Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir"** sözləri hər kəsin həyat devizinə çevrildi [10].

Ulu öndər Heydər Əliyevin 26 iyul 1994-cü il tarixli, 861 saylı qərarı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradıldı. Bunun yaradılmasında məqsəd Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratmaq, gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədi daşıyırdı [2].

Dahi şəxsiyyət daima Azərbaycan gəncliyinin inkişafına xüsusi diqqət göstərirdi. Öz çıxışlarından birində gənclik haqqında belə demişdir: "Bizim, sizin, hamımızın vəzifəsi müstəqil Azərbaycanın sağlam gəncliyini tərbiyəli və bilikli etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmaq, Azərbaycanda müstəqil, demokratik, hüquqi sivilizasıyalı dövlət quruculuğu işinə cəlb etməkdir". Ümummilli liderin gənclər haqqındakı dediyi bu fikirlər sonralar gənclərimizin həyat fəlsəfəsinə çevrildi və onların cəmiyyətdə yer tutmalarında mühüm rol oynadı. Dahi liderin Azərbaycan gəncliyinə göstərdiyi qayğının nəticəsi olaraq 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürülmüş və 2 fevral 1996-cı ildə isə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. Forumda çıxışı zamanı Ümummilli lider Heydər Əliyev demişdir: "Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli, vətənpərvər, millətini, xalqını, dövlətini sevən gənclərdir. Ona görə də biz – yaşlı nəslin nümayəndələri siz gənclərə arxayınıq" [6, s. 161-162].

Ümummilli lider Heydər Əliyevin 1 fevral 1997-ci il sərəncamı ilə 2 fevral Azərbaycanda Gənclər günü kimi qeyd edilir. Bundan sonra MDB və Şərqi Avropada gənclər günü qeyd olunmağa başlandı. Dünyada isə yalnız 1999-cu ildə BMT-nin qərarı ilə avqustun 12 gənclər günü elan edildi. Bunda deməyə əsas var ki, uzaqgörən ulu öndər olan Heydər Əliyevin həyata keçirdiyi siyasət özünəməxsusluğu və unikallığı ilə hətta dünya ölkələrini belə qabaqlayıb. 1999-cu ilin 2 mart tarixində Azərbaycanda Gənclərin II forumu keçirilmiş, bu zaman dahi lider Heydər Əliyev qeyd etmişdir ki, respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətinin gənclərin problemlərinin həllinə yönəltmələri vacibdir. Ümummilli lider

Heydər Əliyev tərəfindən 1999-cu ildə imzalanan "Dövlət Gənclər siyasəti haqqında" fərman dövlətimiz tərəfindən gənclərə verilən dəyərin yüksək səviyyədə olmasınının ən bariz nümunələrindən biridir [9].

Ümummilli lider Heydər Əliyev gənclərin idmana cəlb edilməsinə diqqətlə yanaşırdı. Onun səyləri nəticəsində Azərbaycan ilk dəfə müstəqil bir dövlət kimi 1996-cı ildə Olimpiya oyunlarına qatıldı. Təhsilli gənclərin yetişdirilməsi daima Onun diqqət mərkəzində idi. Dahi liderin qeyd etdiyi kimi müstəqilliyi əldə etmək çətindir, lakin qoruyub saxlamaq ondan da çətindir [7, s. 131]. Bunun üçün isə ölkədə savadlı, yüksək intellektli, vətənpərvər gənc nəsil yetişdirməlidir. Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti bu gün prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, Azərbaycan gənclərinin III forumu 13 oktyabr 2003-cü il, IV forumu 2005-ci il, V forumu 3 oktyabr 2008-ci il, VI forum 25 oktyabr 2011-ci il, VII forum 2-3 iyun 2014-cü il, VIII forum 16 noyabr 2018, IX forum 25 dekabr 2020-ci il tarixlərində Bakı şəhərində keçirilib.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2005-ci il 30 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" dövlət gənclər siyasətinin həyata keçirilməsi yolunda mühüm fəaliyyət sənədi olmuşdur [3]. Sərəncam gənclərin potensialından ölkənin mənafeyi naminə səmərəli istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədini daşıyırdı. 2005-2009-cu illəri əhatə edən bu proqramda gənclərin və yeniyetmələrin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin daha da gücləndirilməsi, onların məşğulluğunun təmin edilməsi, sahibkarlıq fəaliyyətlərinə kömək göstərilməsi, sosial problemlərinin həlli, o cümlədən, yaradıcı və istedadlı gənclərə, gənc ailələrə dövlət qayğısının artırılması, mənzil şəraitlərinin yaxşılaşdırılması, gənclərin dövlət quruculuğu işlərinə geniş cəlb olunması və s. məsələləri öz əksini tapıb [8].

Həyata keçirilən tədbirlər nəticəsində 2007-ci il məhz "Gənclər ili" elan edildi. Həmin Dövlət Proqramının icrası nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş verdi və müəyyən uğurlar əldə olundu. Azərbaycan Prezidentinin gənclərin xaricdə təhsil almasına dəstək verən "2007-2015-ci illərdə gənclərimizin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkan yaratdı. Hazırda bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında təhsil alır. Həmçinin gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində davamlı iş aparılmış, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı genişləndirilmişdir. Məşğulluq sahəsində beynəlxalq təcrübəyə və gənclərin təşəbbüskarlığına əsaslanan fəaliyyətlər inkişaf etdirilmiş, regionlarda yaşayan gənclərin fəallığını stimullaşdıran tədbirlər həyata keçirilmişdir. Ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılmış və bu sahədə irəliləyişlərə nail olunmuşdur. Dövlətin qayğısı sayəsində gənclər təşkilatlarının dövlət gənclər siyasətində iştirakını təmin edən hüquqları genişləndirilmiş, onların layihə və proqramlarına mütəmadi dəstək verilmişdir. Beynəlxalq əməkdaşlıq sahəsində gənclər təşəbbüskarlıq və davamlı fəaliyyət nümayiş etdirmişlər [11].

Qeyd etməliyik ki, gənclərə olan qayğılar sonrakı dövrlərdə də davam etmiş cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramının təsdiq edilməsi" haqqında sərəncam imzalanmış 2011-ci il 7 iyulda təsdiq edilmişdir. Prezident İlham Əliyevin son 20 ildə Azərbaycanda gənclərlə işin inkişaf etdirilməsi ilə bağlı verdiyi göstərişləri, sərəncamları gənclərimizin həyatında mühüm rol oynadı. Bakının 2014-cü il bədii gimnastika üzrə Avropa çempionatı, 2015-ci il Birinci Avropa Oyunları, 2016-cı il şahmat üzrə dünya çempionatı, 2017-ci il İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq tədbirlərə ev sahibliyi etməsi ölkədə bu sahədə aparılan dinamik işin təzahürü və gənclər siyasətinin uğurlu davamıdır [4]. Onu da qeyd etməliyik ki, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində 2022-2023-cü tədris ilində gənclərin 30 ölkənin 295 ali təhsil müəssisəsində təhsil almaq imkanı yaradılıb. Ümumilikdə isə hər il 400 nəfərdən çox olmamaqla, 2000 nəfərədək Azərbaycan vətəndaşının xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsili təmin edilib [11]. Dövlət Proqramının əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, onların Azərbaycanın gələcək inkişafını təmin edəcək və

qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etməkdir.

Xüsusi vurğulamaq lazımdır ki, ölkədə gənclər siyasətinin uğurla reallaşdırılmasında Heydər Əliyev Fondu da yaxından iştirak edir. Fondun prezidenti, Azərbaycanın 1-ci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən səmərəli layihələr gənclərin mənəvi-intellektual və yaradıcı potensialının möhkəmləndirilməsinə xidmət edir. Ümumiyyətlə, bu gün ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü və ardıcıl siyasət nəticəsində gənclər demokratikləşmə prosesində, mədəniyyət, incəsənət, elm və idman sahəsində böyük inamla irəliləyir, zəngin mədəni irsimizin qorunub saxlanması və inkişaf etdirilməsi yolunda mühüm addımlar atırlar. Prezident İlham Əliyev qloballaşma əsrində dünya elminə, təhsilinə inteqrasiyanı vacib sayaraq azərbaycanlı gənclərin xaricdə təhsil almasına mühüm əhəmiyyət verir. Xüsusi proqram əsasında 2007-2015-ci illərdə 5 min və 2022-2026 ci illərdə 2 min gəncin xarici ölkələrdə ali təhsil almağa göndərilməsi bunun əyani sübutu olmuşdur. Bunda məqsəd şübhəsiz ki, yeni düşüncəli, yaradıcı ruhlu gənclik yetişdirmək, dövlət idarəçiliyini yüksək ixtisaslı kadrlarla təmin etməkdir.

Onu da qeyd etməliyik ki, Azərbaycanda geniş vüsət almış könüllülər hərəkatının aparıcı gücü də məhz gənclərdir. Bu baxımdan ölkə gənclərinin potensialının üzə çıxarılması, fəallığının artırılması, hadisələrə fərqli baxış bucaqlarının gətirilməsini cəmiyyət üçün zəruri hesab edən Prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da 2020-ci ilin Azərbaycanda "Könüllülər İli" elan edilməsi haqqında Sərəncam imzaladı. İndi könüllülər ordusu kimi böyük bir hərəkat formalaşıb ki, məhz onlar da müxtəlif sahələrdə çalışaraq bilik və bacarıqlarını daha da artırmaqla yanaşı, işlədikləri qurumlara yeni nəfəs, gənc ovqat gətirir, bir digər tərəfdən də uğurlu gələcəklərini könüllülük fəaliyyəti ilə təmin edirlər [12].

Sonda qeyd etmək istərdik ki, dahi şəxsiyyətin Azərbaycan gəncliyinin inkişafı üçün həyata keçirdiyi siyasət bu gün parlaq gəncliyimizin olmasının əsas təzahürüdür. Məhz keçirilən tədbirlər sayəsində Azərbaycanda hal-hazırda savadlı, vətənpərvər gənclərimizin sayı durmadan artır. Cənab prezidentimiz İlham Əliyevin başçılğı altında həyata keçirilən tədbirlər nəticəsində gənclərimiz milli vətənpərvər ruhda yetişdirilərək dövlət müstəqilliyimizin keşiyində duran qüvvə kimi formalaşıblar. Biz bunun bariz nümunəsinə "44 günlük" Vətən müharibəsində canlı şahid olduq. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bununla bağlı demişdir: "Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər". Son günlər əksəriyyəti gənclərdən ibarət olan ekofəalların Laçın yolunda ətraf mühitlə bağlı etiraz aksiyaları ölkədə və beynəlxalq arenada olduqca müsbət qarşılanır. Gənclərin bu aksiyada fəal iştirakı respublikamızda həyata keçirilən dövlət siyasətinin gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasının bariz nümunəsidir [5]. Ümumiyyətlə bu gün dövlət himayəsində olan Azərbaycan gəncliyi bizə miras qalan Heydər Əliyev ideyalarına sadiqdir və biz gənclər ölkəmizin parlaq gələcəyi üçün əlimizdən gələn hər şeyi edirik və bundan sonra etməyə də hazırıq.

## ƏDƏBİYYAT

1. Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Bakı: Azərnəşr, 1999, 152 s.
2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Azərbaycan" qəz., 1994, 27 iyul.
3. "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2005-ci il 30 avqust tarixli 982 nömrəli sərəncamı.
4. Azərbaycanda gənclər siyasəti uğurla həyata keçirilir. "Xalq" qəz., 2014, 20 avqust.
5. Bu gün Azərbaycanda gənclər günü qeyd olunur. "Səs"qəz., 2023, 2 fevral.

6. Əliyev H. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. Bakı: Azərnəşr, 1998, 500 s.
7. Əliyev İ. İnkişaf – məqsədimizdir. İyirmi ikinci kitab. Bakı: Azərnəşr, 2015, 384 s.
8. Dövlətin gənclər siyasəti yeni nəslin həyatda fəal mövqeyini təmin edir. "Xalq" qəz., 2016, 18 oktyabr.
9. Gənclərin xaricdə ali təhsili. "525-ci" qəz., 2022, 23 avqust.
10. Müasir gənclər siyasətinin banisi. "İki sahil" qəz., 2023, 31 yanvar.
11. http://www.anl.az/down/meqale/xalqqazeti/2017/fevral/526538.pdf
12. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_gencler_siyaseti_geleceye_hesablanmis_ugurlu_siyasetin_tecessumudur-1993877

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: nuraagaoglu@gmail.com***

**Nilufer Aghayeva**

**HEYDAR ALIYEV'S CONCERN FOR AZERBAIJANI YOUTH**

The article outlines the successes of the Youth Policy of Azerbaijan, which was reviewed by the national leader Heydar Aliyev during the independence period. The creation of the Ministry of Youth and Sports is a turning point in the lives of our young people. Moreover, information was provided about Youth forums. The role of the "State Youth Program of Azerbaijan" in the development of youth was emphasized.

**Keywords:** *youth policy, Azerbaijani youth, state programs, Ministry of Youth and Sports, Youth day.*

**Нилуфер Агаева**

**ЗАБОТА ГЕЙДАРА АЛИЕВА ОБ АЗЕРБАЙДЖАНСКОЙ МОЛОДЕЖИ**

В статье рассматривается период независимости Азербайджана, упоминаются успехи «Молодежной политики», проводимой нашим общенациональным лидером Гейдаром Алиевым. Обсуждался переломный момент в жизни нашей молодежи, созданный учреждением Министерства молодежи и спорта. Кроме того, была предоставлена информация о проведенных Молодежных форумах. Особо была подчеркнута роль реализации «Азербайджанских молодежных государственных программ» в развитии нашей молодежи.

**Ключевые слова:** *молодежная политика, молодежь Азербайджана, государственные программы, Министерство молодежи и спорта, День молодежи.*

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi elmi keyfiyyət meyarlarına cavab verən orijinal elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.
3. Məqalənin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada gostərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Məqalələr AMEA-nın həqiqi və müxbir üzvləri və ya redaksiya heyətinin üzvlərindən biri tərəfindən təqdim edilməlidir.
6. Məqalələr iki dildə – Azərbaycan və rus dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi və hər xülasədə açar sözlər verilməlidir.
7. Məqalənin mətni jurnalın redaksiyasına fərdi kompyuterdə, A4 formatlı ağ kağızda, “12” ölçülü hərflərlə, səhifənin parametrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm; soldan 3 sm, sağdan 1 sm məsafə ilə, sətirdən-sətrə “defislə” keçmədən, sətir aralığı 1,5 interval olmaq şərti ilə rus və Azərbaycan dilində Times New Roman şriftində yazılaraq, 1 nüsxədə çap edilərək, CD-də jurnalın məsul katibinə təqdim edilir. Mətnin daxilində olan şəkil və cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin ortasında “12” ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı yazılır.
9. 1 sətir boş buraxılmaqla aşağıda “12” ölçülü böyük hərflərlə məqalənin adı çap edilir. Sonra məqalənin yazıldığı dildə “10” ölçülü hərflərlə, kursivlə xülasə və açar sözlər yazılır. Daha sonra müəllifin işlədiyi təşkilatın adı, elmi dərəcəsi və e-mail ünvanı, “12” ölçülü kiçik hərflərlə qalın və kursivlə ədəbiyyat siyahısından sonra sağdan yazılır. (məs.: AMEA Naxçıvan Bölməsi; e-mail: tusi-nesr@gmail.com).
10. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl “12” ölçülü hərflərlə, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. “Ədəbiyyat” sözü səhifənin ortasında qalın və böyük hərflərlə yazılır. Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə verilir. İstifadə edilən mənbələrin sayı 15-dən çox olmamalıdır. Məs.:
Kitablar: Qasımov V.İ. Qədim abidələr. Bakı: İşıq, 1992, 321 s.
Kitab məqalələri: Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91.
Jurnal məqalələri: Baxşəliyev V.B., Quliyev Ə.A. Gəmiqaya təsvirlərində yazı elementləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 74-79.
11. Məqalənin xülasəsində müəllifin adı və soyadı “12” ölçülü kiçik, qalın hərflərlə; mövzunun adı böyük, qalın hərflərlə; xülasənin özü isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir.
12. Məqalədəki istinadlar mətnin icərisində verilməlidir. Məs.: [4, s. 15]
13. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-8 səhifədən çox olmamalıdır.
14. Məqaləyə müəlliflər haqqında məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, alimlik dərəcəsi və elmi adı, ünvanı, e-mail adresi, əlaqə telefonu) mütləq əlavə olunmalıdır.
15. Məqalənin məzmununa əsaslanan UOT kodu yuxarı sol tərəfdən mütləq qeyd olunmalıdır.
16. Təqdim olunan məqalə üçün müəlliflər antiplagiat arayışı təqdim etməlidirlər.

***QEYD:*** *AMEA Naxçıvan Bölməsinin “Elmi əsərlər” jurnalına təqdim olunan məqalələrin sayının çoxluğunu və “Tusi” nəşriyyatının imkanlarının məhdudluğunu nəzərə alaraq bir nömrədə hər müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.*

# INFORMATION FOR AUTHORS

1. The primary purpose of this journal is to publish original scientific papers that meet scientific criteria.
2. The journal publishes compact and perfectly edited scientific papers, which are the results of new research and have not been published in other publications previously.
3. The number of collaborators exceeding three is undesirable.
4. The author is directly responsible for the quality of papers and the accuracy of the facts presented.
5. The papers must be submitted by full members and corresponding members of ANAS or one of the Editorial Board members.
6. The papers can be published in two languages – Azerbaijani and Russian. In addition to the language of a paper, an abstract should be provided in two other languages; keywords should be pointed.
7. A paper text is submitted to the editor-in-chief of the journal along with an electronic copy, it must be printed on a personal computer, on white A4 paper, in Times New Roman font, font size "12", page parameters 2 cm above, 2 cm below, 3 cm on the left, 1 cm on the right, without hyphenation, the interval of 1.5, and in one of the languages mentioned above. Margins for figures and tables inside the text should be 3.7 cm left and right.
8. The name and surname of the author (authors) are indicated in bold and capital letters in the center of the page, font size "12".
9. Below, after one blank line, the title of the paper is indicated in capital letters, font size "12". Then there is abstract including keywords in the language of the paper, font size "10", italics. The organization name, the author's scientific degree, the email address should be written below the references in lowercase letters, font size "12", bold italics (for example, Nakhchivan branch of ANAS; Email: tusinesr@gmail.com).
10. Reference should be made to scientific sources on the subject, the list of references should be given before the abstract, following the encoding rules, in alphabetical order, the font size "12'. The word "references" in the middle of the page is highlighted in bold and in capital letters. References are in lowercase letters in the language in which this edition has been published. The used sources must not be more than 15. Eg.:
Books: Gasymov V.I. Ancient monuments. Baku: Light, 1992, 321 p.
Book papers: Habibbeyli I.A. Science and culture in Nakhchivan / Nakhchivan in the history of Azerbaijan. Baku: Science, 1996, p. 73-91.
Journal papers: Bakhshaliev V.B., Guliev A.A. Writing elements in the drawings of Gemigaya // Proceedings of the Nakhchivan Branch of ANAS, 2005, № 1, p. 74-79.
11. In the abstract, the author's name and surname are indicated in lowercase letters in bold font, size "12"; the title of the paper is capitalized in bold; the abstract itself is in lowercase letters. The abstract should correspond to the full content of the paper; the results should be reported in detail.
12. The links in the paper should be in the text. Eg.: [4, p. 415].
13. The total amount of a paper, including graphic materials, photographs, tables, formulas, references, and reviews, should not exceed 5-8 pages.
14. Authors' data must be specified additionally (last name, first name, patronymic, place of work, position, degree, academic title, address, email address, work, and home phone numbers).
15. A paper's code based on UDC should be indicated on the left.
16. Authors must provide Antiplagiat certificates for submitted papers.

***NOTE:*** *Considering the large number of papers submitted to the "Scientific works" journal of the Nakhchivan Brunch of ANAS, and the limited capabilities of the "Tusi" Publishing house, it is assumed that only one paper of each author can be published in one issue.*

# К СВЕДЕНИЮ АВТОРОВ

1. Основной целью журнала является публикация оригинальных научных статей, соответствующих критериям научного качества.
2. Журнал публикует компактные и в совершенстве отредактированные научные статьи, являющиеся результатами новых исследований и не опубликованные ранее в других изданиях.
3. Желательно, чтобы число соавторов не превышало трех.
4. Автор несет прямую ответственность за качество статей, достоверность представленных в них фактов.
5. Статьи должны быть представлены действительными членами и членами-корреспондентами НАНА или одним из членов Редколлегии.
6. Статьи могут быть представлены на двух языках – азербайджанском и русском. Резюме и ключевые слова необходимо представить на двух других языках.
7. Статьи представляют в редакцию журнала в печатном виде, в электронной форме (CD), на бумаге формата А4, шрифт Times New Roman, кегль шрифта 12 пт, параметры страницы: верхнее поле – 2 см, нижнее – 2 см левое – 3 см, правое – 1 см, без переносов, межстрочный интервал – 1,5. Поля страниц для рисунков и таблиц внутри текста слева и справа должны быть по 3,7 см.
8. По центру страницы, кеглем 12 пт, жирным шрифтом и заглавными буквами указывается имя и фамилия автора (авторов).
9. После одной пустой строки указывается название статьи заглавными буквами, кегль шрифта 12 пт. Затем приводится аннотация с ключевыми словами на языке статьи (кегль шрифта – 10 пт, курсив). Название организации, ученая степень и адрес электронной почты автора указываются обычными строчными буквами, жирным курсивом, кегль шрифта 12 пт, справа после списка источников (например: Нахчыванское отделение НАНА; E-mail: tusinesr@gmail.com)
10. Следует указать ссылки на научные источники по данному предмету. Список использованной литературы указывается перед резюме, в соответствии с правилами кодировки, в алфавитном порядке, кегль шрифта 12 пт. Слово “Литература” пишется посередине страницы, заглавными буквами и жирным шрифтом. Список литературы приводится строчными буквами на языке публикации приведенного издания, в количестве не более 15. Напр.:
Книги: Гасымов В.И. Древние памятники. Баку: Ишыг, 1992, 321 с.
Книжные статьи: Хабиббейли И.А. Наука и культура в Нахчыване / Нахчыван в итории Азербайджана. Баку: Наука, 1996, с. 73-91.
Журнальные статьи: Бахшалиев В.Б., Гулиев А.А. Элементы письменности в рисунках Гемикая // Известия Нахчыванского отделения НАНА, 2005, № 1, с. 74-79.
11. В резюме имя и фамилия автора указываются строчными буквами жирным шрифтом кеглем 12 пт, название статьи – заглавными буквами жирным шрифтом, само резюме строчными буквами. Резюме должно соответствовать полному содержанию статьи с подробным представлением полученных результатов.
12. Ссылки должны быть представлены в тексте в виде [4, с. 15].
13. Общий объем статьи, включая графические материалы, фотографии, таблицы, формулы, список литературы и отзывы, не должен превышать 5-8 страниц.
14. Обязательно указываются данные об авторах (фамилия, имя, отчество, место работы, должность, ученая степень и звание, адрес, адрес электронной почты, контактный номер).
15. Необходимо указать УДК статьи слева в верхней части.
16. Авторы должны предоставить сертификат Антиплагиат на присланную статью.

***ПРИМЕЧАНИЕ:*** *Принимая во внимание большое количество статей, представленных в журнал “Научные труды” Нахчыванского отделения НАНА и ограниченные возможности издательства “Туси”, в одном номере может быть опубликована только одна статья каждого автора.*

**"HEYDƏR ƏLİYEV İDEYALARI VƏ MÜASİR DÖVR" RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI**

**I HİSSƏ**


Nəşriyyatın müdiri – Qafar Qərib
Baş redaktor – Zülfiyyə Məmmədli
Redaktor – Sara Cəfərova
Korrektor – Yelena Muxtarova
Operatorlar – İlhamə Əliyeva,
– Aynur Təhməzova,
– Taleh Maxsudov

Yığılmağa verilmişdir: 23.06.2023
Çapa imzalanmışdır: 21.07.2023
Kağız formatı: 70 x 108 1/16
12,8 çap vərəqi. 206 səhifə
Sifariş № 178. Tiraj: 100

AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.
Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.
E-mail: tusinesr@gmail.com